42 Sabah

ZİYAFƏT ƏSGƏROV

KONSTİTUSİYA HÜQUQU

(Dərslik)

Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşri

Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurası «Dövlət və hüquq» bölməsinin 29.03.2006-cı il tarixli 10 saylı protokolu ilə təsdiq edilmişdir.

BAKI - 2011

Ə 85

Elmi redaktoru: *prof. M.N.ƏLƏSGƏROV,*
hüquq elmləri doktoru.

Rəyçilər: ***İ.A.ƏLİYEV,***
hüquq üzrə fəlsəfə doktoru,

R.R.İSMAYILOV,
hüquq üzrə fəlsəfə doktoru,

M.İ.İSMAYILOV,
hüquq üzrə fəlsəfə doktoru,

E.H.NƏSİROV,
baş müəllim.

342.C
+ 291

947683

Əsgərov Z.A. «Konstitusiya hüququ». Dərslik. Bakı; Bakı Universiteti nəşriyyatı, 2011, 760 s.

Dərslik Konstitusiya hüququnun tənzim etdiyi müxtəlif məsələləri, o cümlədən Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də qəbul edilmiş ilk milli Konstitusiyasına müvafiq olaraq (2002-ci il avqustun 24-də və 2009-cu il martın 18-də ümumxalq səsverməsində (referemdumda) qəbul edilmiş dəyişiklik və əlavələrlə) yaradılmış yeni institutları əhatə edir. Kitabda həmçinin insan və vətəndaşın fundamental hüquq və azadlıqları, onları tənzim edən konstitusiya qanunları, qanunlar, Azərbaycan Respublikasının idarəetmə forması, dövlət quruluşu, dövlət hakimiyyəti mexanizmi, yerli özünüidarəetmə və s. ilə bağlı məsələlər də öz əksini tapmışdır.

Dərslik ali məktəb tələbələri və Konstitusiya hüququ ilə maraqlanan digər oxucular üçün nəzərdə tutulmuşdur.

ISBN: 978-9952-34-619-0

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

© Ziyafət Əsgərov, 2011
© Bakı Universiteti nəşriyyatı, 2011

MÜNDƏRİCAT

I BÖLMƏ. Konstitusiya hüququnun ümumnəzəri məsələləri. 11

§ 1. Konstitusiya hüququ elm sahəsi kimi (konstitusionalistika) 11
§ 2. Konstitusiya hüququ tədris fənni kimi 17
§ 3. Konstitusiya hüququ hüquq sahəsi kimi 18
§ 4. Konstitusiya qanunvericiliyi və konstitusiya hüququnun mənbələri 23
§ 5. Konstitusiya hüququ hüququn aparıcı sahəsi kimi .27
§ 6. Konstitusiya hüquq normaları və institutları 31
§ 7. Konstitusiya hüquq münasibətləri 43

II BÖLMƏ. Konstitusiya nəzəriyyəsi 53

§ 1. Konstitusiyanın mahiyyəti haqqında 53
§ 2. Konstitusiya anlayışı, konstitusiyanın funksiyaları və xüsusiyyətləri 58
§ 3. Konstitusiyanın hüquqi qüvvəsi 63

III BÖLMƏ. Dövlətin konstitusiya əsasları və sosial-hüquqi mahiyyəti 67

§ 1. Xalq hakimiyyəti 69

§ 2. Dövlətin əsasları 75
§ 3. Demokratiklik 78
§ 4. Hüquqilik 87
§ 5. Dünyəvilik 93
§ 6. Unitarizm 96
§ 7. Dövlətin hüquq və azadlıqlara münasibəti 102
§ 8. Dövlətin formal əsasları 107

IV BÖLMƏ. Dövlət və şəxsiyyət. 113

§ 1. Şəxsiyyətin hüquqi statusu 118
§ 2. İnsan hüquq və azadlıqlarının prinsipləri 120
§ 3. İnsan hüquq və azadlıqlarının təminatı mexanizmi 125

V BÖLMƏ. İnsan və vətəndaşın hüquq və azadlıqları 139

I FƏSİL. ***Şəxsi hüquq və azadlıqlar*** 139

§ 1. Yaşamaq hüququ 139
§ 2. Bərabərlik hüququ 143
§ 3. Azadlıq hüququ 148
§ 4. Toxunulmazlıq hüququ 155
§ 5. Fikir, söz və vicdan azadlığı 166
§ 6. Şərəf və ləyaqətin müdafiəsi hüququ 171
§ 7. Milli mənsubiyyət və ana dilindən istifadə hüququ. 175
§ 8. Nikah hüququ 177

II FƏSİL. ***Siyasi hüquq və azadlıqlar*** 181

§ 1. Sərbəst toplaşmaq azadlığı 181
§ 2. Məlumat azadlığı 187
§ 3. Cəmiyyətin və dövlətin siyasi həyatında, dövlətin idarə olunmasında iştirak hüququ 194
§ 4. Seçki hüququ 199
§ 5. Müraciət etmək hüququ 203
§ 6. Birləşmək hüququ 206

III FƏSİL. İqtisadi, sosial-mədəni hüquq və azadlıqlar 210

§ 1. Mülkiyyət və əqli mülkiyyət hüququ 210
§ 2. Əmək hüququ 216
§ 3. Tətil hüququ 221
§ 4. İstirahət hüququ 224
§ 5. Sosial təminat hüququ 227
§ 6. Sağlamlığın qorunması və sağlam ətraf mühitdə yaşamaq hüququ 232
§ 7. Mədəniyyət və yaradıcılıq azadlığı 240
§ 8. Təhsil hüququ 243
§ 9. Mənzil hüququ 250
§ 10. Azad sahibkarlıq hüququ 252

IV FƏSİL. Hüquq və azadlıqların konstitusion təminatı. 256

V FƏSİL. Vətəndaşların vəzifələri 265

I FƏSİL. Vətəndaşlıq ..... .286

§ 1. Vətəndaşlıq anlayışı və vətəndaşlığın prinsipləri .286
§ 2. Vətəndaşlığın əldə olunması və xitamı əsasları .295
§ 3. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi statusu ..... .301

VI BÖLMƏ. Seçki sistemi ..... .308

§ 1. Sosial-siyasi mahiyyəti ..... .308
§ 2. Hüquqi mahiyyəti ..... .310
§ 3. Seçki sistemi anlayışı və prinsipləri ..... .313
§ 4. Seçki sisteminin növləri ..... .320
§ 5. Seçki mərhələləri və seçki prosesi ..... .329
§ 6. Referendum ..... .341

VII BÖLMƏ. Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları ..... .346

VII FƏSİL. Azərbaycan Respublikasının Milli Məclisi ..... .346

§ 1. Milli Məclis qanunverici orqan kimi ..... .350
§ 2. Milli Məclisin səlahiyyətləri ..... .358
§ 3. Milli Məclisin fəaliyyəti ..... .362
§ 4. Qanunvericilik prosesi ..... .371
§ 5. Deputatın hüquqi statusu ..... .378

VIII FƏSİL. İcra hakimiyyəti 387

§ 1. Prezidentlik institutu 387
§ 2. Prezidentlik institutunun tarixi-hüquqi təhlili . . .389
§ 3. Prezidentin hüquqi statusunun ümumi xarakteristikası 395
§ 4. Prezidentin səlahiyyətləri 398

§ 5. Prezidentin hüquqi aktları 406
§ 6. Yerli icra hakimiyyəti orqanlarının təşkili 421

IX FƏSİL. Məhkəmə hakimiyyəti 426

§ 1. Məhkəmə hakimiyyətinin xüsusiyyətləri 426
§ 2. Məhkəmə hakimiyyətinin təşkilinin konstitusion prinsipləri 431
§ 3. Məhkəmə hakimiyyəti orqanları 443
§ 4. Hakimlərin hüquqi statusu 448
§ 5. Konstitusiya nəzarəti 454
§ 6. Konstitusiya nəzarəti orqanları və nəzarətin növləri 456

VIII BÖLMƏ. Naxçıvan Muxtar Respublikası 465

IX BÖLMƏ. Yerli özünüidarəetmə 473

§ 1. Yerli özünüidarəetmənin anlayışı və prinsipləri 473
§ 2. Yerli özünüidarəetmənin formaları və onların hüquqi statusu 481

§ 3. Bələdiyyə üzvlərinin hüquqi statusu və bələdiyyə qulluğu 489
§ 4. Yerli özünüidarəetmənin səlahiyyətləri 496
§ 5. Yerli özünüidarəetmənin təminatları 502
§ 6. Bələdiyyə sistemləri 506

X BÖLMƏ. Dövlət və hüquq 518

§ 1. Sistemin nəzəri əsasları 518
§ 2. Qanunvericilik sistemi 520
§ 3. Beynəlxalq hüquqi aktların Azərbaycan Respublikasının qanunvericilik sistemində yeri . .532
§ 4. Konstitusiyaya dəyişikliklər və əlavələrin edilməsi qaydası 543

ƏLAVƏLƏR 546

ƏDƏBİYYAT 752

I BÖLMƏ

KONSTİTUSİYA HÜQUQUNUN ÜMUMNƏZƏRİ MƏSƏLƏLƏRİ

§ 1. Konstitusiya hüququ elm sahəsi kimi (Konstitusionalistika)

«Konstitusiya hüququ» ifadəsi yalnız müəyyən hüquq institutlarını əhatə edən hüquq normalarının məcmusu deyil, həm də bu məcmunu öyrənən, tədqiq edən hüquq elmi mənasında işlədilir. «Konstitusiya hüququ elmi» ifadəsi hüquq nəzəriyyəsində «konstitusionalistika» kimi də işlədilir.

Hüquq elmi sosial-siyasi elmdir. Bu baxımdan hüquq elminin bir sıra başqa sahələri kimi konstitusiya hüququ elmi də insanların həyatına, sosial reallıqlara aid hadisələri öyrənir. Bununla yanaşı, başqa hüquq elmləri kimi konstitusiya hüququ da hər cür reallığı deyil, məhz hüquqi reallığı öyrənir. Yəni konstitusiya hüququ elmi konstitusiya hüquq normalarının hazırlanmasını, onun xüsusiyyətlərini, normanın özü ilə tətbiqi arasındakı asılılığı, konstitusiya hüququnun tətbiqi praktikasını, qanunvericilik, icra və məhkəmə orqanlarını və onların qarşılıqlı münasibətlərini öyrənir. Ümumiyyətlə, hüquq elmləri 3 qrupa bölünür:

1) nəzəri-tarixi elmlər;
2) xüsusi elmlər;
3) sahə elmləri.

Nəzəri-tarixi elmlər hüququn pozitiv hüquqla bilavasitə bağlı olmayan, ondan kənarda qalan kateqoriyalarını və hüququn inkişaf qanunauyğunluqlarını öyrənir. Belə elmlərə dövlət və hüquq nəzəriyyəsi, dövlət və hüquq tarixi, müqayisəli hüquq və s. elmlər daxildir.

Xüsusi elmlər əsasən praktiki məsələlərin həllinə yönəlimişdir və müəyyən problemin həllinin xüsusi metodlarını öyrənir. Belə elmlərə kriminalistika, kriminologiya, bir çox qarışıq-köməkçi elmlər - məhkəmə təbabəti, məhkəmə ekspertizası və s. daxildir.

Sahə elmləri birbaşa pozitiv hüquqla bağlıdır. Bu elmlər hüququn müəyyən sahəsini öyrənir. Belə elmlər digər hüquq elmlərinə nisbətən daha əvvəl meydana çıxmışdır və analitik yurisprudensiyanın əsası hesab olunur. Belə elmlərə mülki hüquq elmi (sivilistika), cinayət hüququ elmi, prosessual elmlər, inzibati hüquq elmi (administrativistika) və s. aiddir. Konstitusiya hüququ elmi də belə sahə elmlərindən biridir.

Konstitusiya hüququ elmi konstitusiya hüququna aid qanunvericiliyi, başqa sözlə, konstitusiya hüququ sahəsini öyrənir. Konstitusiya hüququ elmi başqa hüquq elmlərinə nisbətən siyasətə daha çox yaxın olan və ideologiyanın təsirinə məruz qalan elmdir. Bu da onun predmetinin xüsusiyyətlərindən irəli gəlir. Bu elmin predmeti konstitusiya qanunvericiliyi, obyekti isə konstitusiya hüquq münasibətləri və ya konstitusiya hüquq reallıqlarıdır.

Konstitusionalistika fundamental elm olaraq hüquq normalarının obyektiv reallığa münasibətini, konstitusiya qanunvericiliyinin inkişaf meylləri və çatışmazlıqlarını araşdırır, qanunvericiliyin təkmilləşdirilməsinə xidmət edən elmi tədqiqatlar, şərhlər, tövsiyələr işləyib hazırlayır, konstitusion kolliziyaları və kazusları tədqiq edir, konsti-

tusion mübahisələri və onların həlli qaydalarını öyrənir. Konstitusionalistika həm də reallığın konstitusiya qanunvericiliyində təsbit edilməsi məsələləri ilə məşğul olur. *Konstitusiya hüququ elmində dövlət və şəxsiyyət, cəmiyyətin inkişafının hüquqi aspektləri tədqiq olunur, hər birinin optimal inkişafı üçün yeni üsullar hazırlanır və həyata tətbiq edilir.* Konstitusionalistika konstitusiya qanunvericiliyi haqqında əsaslandırılmış, bir-biri ilə əlaqələndirilmiş elmi nəzəriyyə və fikirlərin məcmusudur. Bir elm olmaq etibarilə konstitusiya hüququ elmi də yeni nəzəriyyə və fikirlərin yaranma əsaslarını, onların praktikada tətbiq olunma imkanlarını və verə biləcəyi praktiki nəticələri analiz edir, müxtəlif hüquqi konstruksiyalar hazırlayıb reallığa tətbiq edir. Bu elm eyni zamanda artıq praktikada tətbiq olunmuş nəzəriyyə və fikirləri tənqidi qiymətləndirərək, onların başqa ölkələrdəki müvafiq norma və institutlarla müqayisəli təhlilini aparmaqla hüququn tətbiqi praktikasını təkmilləşdirməyə xidmət edir.

Elmin bir sahəsi kimi konstitusionalistika da müəyyən metodlardan istifadə edir. Belə metodlar əsasən məntiqi-təfəkkür metodlarıdır. Konstitusionalistikanın obyekti geniş və müəyyən özünəməxsusluğa malik olduğuna görə burada, demək olar ki, eksperiment tətbiq edilmir. Keçirilən eksperimentlər isə əsasən hüququn sosiologiyası aspektində müəyyən məsələnin həlli üçün məhdud çərçivədə aparılır.

Konstitusiya hüququ elmində istifadə edilən əsas metodlar aşağıdakılardır:

1) **Analiz.** Bu metod empirik materialın analizinə əsaslanır. Bu zaman öyrənilən obyekt şərti olaraq bir-birindən təcrid edilmiş hissələrə ayrılır və onların hər biri ayrılıqda tədqiq edilir. Bu obyektlər arasında münasibətlər araş-

dırılır və onların səbəbləri öyrənilir. Analiz həm də qanunvericilik materiallarının təhlilinə əsaslanır. Məsələn, prezidentlik özü vahid hüquqi status şəklində təzahür edən bir institutdur. Analiz zamanı bu vahidlik şərti olaraq iki tərkib hissəyə bölünür və onların hər biri ayrı-ayrılıqda öyrənilir:

a) prezidentlik və prezidentliyə seçkilərin keçirilməsi əsasları;

b) prezidentin səlahiyyətləri və onun dövlət hakimiyyəti orqanlarları ilə qarşılıqlı münasibətləri.

2) **Sintez.** Sintez analizin əksidir və adi həyatdan götürülmüş ayrı-ayrı faktların ümumiləşdirilməsinə əsaslanır. Sintez mücərrədləşdirməyə əsaslanan şüur əməliyyatıdır. Sintez zamanı öyrənilən predmetin, materialın, faktlar məcmusunun oxşar əlamətləri ümumiləşdirilir, onların qarşılıqlı əlaqələri öyrənilir və bunun da nəticəsində müəyyən elmi konstruksiyalar işlənib hazırlanır. Məsələn, dövlət orqanı anlayışı əslində hər bir dövlət orqanına ayrı-ayrılıqda xas olan əlamətlərin ümumiləşdirilməsi əsasında yaranmışdır. Bütün dövlət orqanlarının zəruri əlamətləri onların dövlət hakimiyyətini həyata keçirməsi, normativ hüquqi aktlara əsasən dövlət tərəfindən yaradılması, dövlətin müəyyən sferadakı funksiyasını həyata keçirməsi, vahid dövlət orqanları sistemində struktur vahidi kimi müəyyən yer tutmasıdır. Bunlar dövlət orqanlarının statusunu müəyyən edən əsas əlamətlərdir. Bu əlamətlərdən başqa, bütün dövlət orqanlarına xas olmayan və onların statusunu müəyyən etmək üçün əhəmiyyət kəsb etməyən digər əlamətlər (məsələn, dövlət orqanının harada yerləşməsi, fəaliyyət müddəti, daxili təşkilati strukturu və s.) istisna edilməklə əsas əlamətlərin ümumiləşdirilməsi nəticəsində dövlət orqanı anlayışı yaranır.

3) **Deduksiya.** Deduksiya məntiqi əməliyyatın bir növüdür və ümumidən xüsusiyə getməyi, ümumi anlayış və ya reallığın əsasında məlum olmayan xüsusini tədqiq etməyi nəzərdə tutur. Məsələn, bütün hüquq pozuntuları (cins anlayışı) müəyyən ümumi əlamətlərə malikdir (subyekt, obyekt, obyektiv cəhət, subyektiv cəhət). Biz ümumidən (cins anlayışı olan hüquq pozuntusundan) xüsusiyə (növ anlayışı olan konstitusiya hüquq pozuntusu) doğru fikir yürütməklə ilkin olaraq belə nəticəyə gəlirik ki, konstitusiya hüquq pozuntusu da hüquq pozuntusunun bir növü olduğundan ümumi hüquq pozuntusunun strukturu onda da əks olunmalıdır.

4) **İnduksiya.** İnduksiya deduksiyanın əksidir. Burada fikir artıq xüsusidən ümumiyə doğru hərəkət edir. İnduksiya zamanı ayrı-ayrı növ xüsusi faktların əsasında gəldiyimiz nəticəni həmin növdən olan bütün hadisələrə və ya predmetlərə şamil edirik. Məsələn, bir neçə konstitusion hüquq və azadlığın tədqiqindən (yaşamaq hüququ, təhsil almaq hüququ) belə nəticəyə gəlirik ki, bu hüquq və azadlıqlar həm əsas (təməl) hüquq və azadlıqlardır, həm də ümumidir. Bu müddəa əsasında belə bir nəticəyə gəlmək olar ki, konsitusiyada əks olunan bütün hüquq və azadlıqlar əsasdır və ümumidir. Burada konkret olaraq iki hüququn cari qanunvericilikdə yerinin araşdırılmasından əldə etdiyimiz nəticəni o növdən olan bütün hüquq və azadlıqlara (iki konstitusion hüququn xüsusiyyətini bütün konstitusion hüquqlara) aid edirik.

5) **Analogiya.** Bu məntiqi əməliyyat oxşarlığa əsaslanır. Burada bir neçə anlayış və ya kateqoriya arasındakı münasibət başqa bir obyekt və ya anlayışlar arasındakı münasibətlərə köçürülür. Analogiya zamanı biz məlum olanın əsasında məlum olmayanlar haqqında müəyyən nə-

ticəyə gəlirik. Məsələn, ABŞ-da prezidenti (birbaşa olmasa da) xalq seçir və ABŞ-nin Konstitusiyasına əsasən prezident öz səlahiyyətlərinin icrası barədə qanunverici orqana hesabat vermir. Başqa sözlə, ABŞ prezidentli respublikadır. Azərbaycan Respublikasında da prezidenti xalq seçir və burada da prezident Azərbaycan Respublikasının Konstitusiyasına əsasən öz səlahiyyətlərinin icrası barədə qanunverici orqana hesabat vermir. Bu əsas əlamətlərin oxşarlığı bizə ABŞ üçün çıxardığımız nəticənin Azərbaycan Respublikası üçün də uyğunluğunu təsdiq etməyə imkan verir. Deməli, Azərbaycan Respublikası da prezident üsuli-idarəsi olan respublikadır. Qeyd etmək lazımdır ki, bu metodların hamısı çox zaman birgə tətbiq olunur və onları bir-birindən ancaq şərti olaraq ayırmaq olar. Məsələn, bir halı analiz edərək gəldiyimiz nəticələri ümumiləşdiririk (sintez) və həmin kateqoriyadan olan bütün növ hadisələrə aid edirik (induksiya).

6) **Müqayisə.** Bu metod müxtəlif konstitusion hüquqi reallıqların, normaların oxşar və fərqli cəhətlərinin müəyyənləşdirilməsinə əsaslanır. Müqayisə metodu ilə müxtəlif ölkələrin siyasi quruluşundakı oxşar münasibətləri tənzimləyən normalar sistemini müqayisə etməklə müvafiq nəticələr almaq mümkündür. Məsələn, Türkiyə Cümhuriyyətinin Nazirlər Kabineti ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin səlahiyyətlərinin və dövlət orqanları sistemindəki yerinin müqayisəsi bu iki ölkənin yuxarı icra hakimiyyəti orqanları barədə konkret nəticələrə gəlməyə kömək edir. Müqayisə həm də reallıqların, konstitusiya hüquq normalarının tətbiqi prosesinin və onların nəticələrinin tutuşdurulmasına söykənir.

7) **Tarixi yanaşma metodu.** Bu metod baş verən hadisələrin xronoloji ardıcıllığını izləməyə və onların baş ver-

mə səbəblərindəki qanunauyğunluqları aşkara çıxarmağa əsaslanır. Xüsusilə də konstitusiya və ondan kənarda baş verən reallıqlar arasındakı münasibətlər öyrənilərkən bu metoddan istifadə olunur. Tarixi yanaşma metodu konstitusion qanunvericiliyin inkişafındakı təmayülləri aşkara çıxarmağa, onların səbəbini müəyyən etməyə, inkişafdakı varisliyi izləməyə və proqnozlaşdırmağa kömək edir. Məsələn, tarixi yanaşma metodu nəticəsində müəyyənləşdirilmişdir ki, məhz qeyri-demokratik, totalitar dövlətlərin konstitusiyaları hakimiyyətdə olan qüvvələrin ideologiyası əsasında hazırlanıb qəbul edilir. Bu da totalitar dövlətlərdə konstitusiya hüququnun təsbit edilməsinin bir qanunauyğunluğudur. Dövlət nə qədər qeyri-demokratik, totalitar olarsa, onun konstitusya qanunvericiliyində bir o qədər hakim qüvvənin siyasətinin həyata keçirilməsinə və iradəsinin ifadəsinə xidmət edən müddəalar, nəzəriyyələr təsbit edilmiş olar. Nəticə etibarilə, belə formalaşmış konstitusion qanunvericilik cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafını ləngidir, vətəndaşları ümumbəşəri demokratik dəyərləri əxz etməkdən məhrum edir.

247629

§ 2. Konstitusiya hüququ tədris fənni kimi

Konstitusiya hüququ ali təhsil müəssisələrində hüquq fənləri çərçivəsində fundamental profilli fənlərdən biri kimi tədris olunur. Bu fənnin tədris olunmasında əsas məqsəd tələbələrdə dövlətin hüquqi əsasları, şəxsiyyət, cəmiyyət və dövlətin qarşılıqlı əlaqələri haqqında təsəvvürlərin formalaşdırılmasından ibarətdir. Dövlət quruculuğu və ali hakimiyyətin təşkili ilə birbaşa bağlı olan konstitusionalistika tədris fənni kimi tələbələrdə dövlət, demokratiya, insan hüquq və azadlıqları kimi dövlətçiliklə

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

birbaşa bağlı olan müasir elmi təsəvvürləri inkişaf etdirir. Nəzərə almaq lazımdır ki, tədris fənni kimi konstitusiya hüququ ilə konstitusionalistika heç də tam üst-üstə düşmür. Tədris fənninin vəzifəsi tələbələrə konkret elm sahəsinin artıq formalaşmış, sabit elmi anlayışları ilə bağlı zəruri minimum informasiyanı verməkdir. Tədris fənnində, bir qayda olaraq, mübahisəli məsələlər araşdırılmır. Belə məsələlər yalnız zərurət olduqda tədqiq edilir. Tədris fənni didaktikanın tələblərini nəzərə almaqla qurulur və tələbələrdə konkret sahə ilə bağlı zəruri tənqidi təfəkkürü formalaşdırmağa xidmət edir. Bunun üçün tədris fənninin və dərsliklərin dili sadə olmalıdır. Tələbələrdə müstəqil düşüncənin inkişafı üçün konstitusiya hüququnun nisbətən çətin həll olunan praktiki məsələlərinin və onların həlli variantının kazus kimi öyrədilməsi də tədris fənninin üzərinə düşür. Tədris vəsaitləri konstitusionalistikanın elmi nailiyyətləri əsasında hazırlanır və özündə sırf nəzəri məsələlərlə yanaşı praktik problemləri və onların həlli üsullarını da əks etdirir.

§ 3. Konstitusiya hüququ hüquq sahəsi kimi

Hüquq anlayışı çoxmənalıdır. Geniş mənada hüquq həm sosial münasibətləri nizamasalma vasitəsi (normalar məcmusu kimi), həm də bu sosial nizamasalma vasitəsini öyrənən fundamental elm kimi başa düşülür. Yəni hüquq həm qanunvericiliklə normalaşdırılır və tətbiq edilir, həm də tədqiq və tədris edilir. Daha geniş mənada hüquq birbaşa insan azadlığına və təfəkküründə təsir edən fəlsəfi kateqoriyadır. Hüquq fəlsəfəsinin problemləri kontekstində hüquq sosial nizamasalma vasitəsi kimi insanların davranışını müəyyən etməklə, ümumən bəşəriyyətin tərəqqisinə hüquqi təminat verən, bəzi siyasi rejimlərdə

(məsələn, faşizm, ilhaqçı, qəsbkar və s.) isə bu tərəqqini ləngidən, insanlara bədbəxtlik gətirən normalar, qaydalar məcmusudur.

Real həyatda hüquq dövlət tərəfindən formalaşdırılan, yəni zəruri şəkildə müəyyən sənədlərdə təsbit olunan, dövlətin gücü ilə yerinə yetirilməsi təmin edilən qaydalar şəklində təzahür edir. Bu qaydalar insanın davranış azadlığını və onun sosial fərd kimi mövcud olmasını şərtləndirən bir sıra amilləri müəyyən edir. Hüquq dövlət tərəfindən pozitivləşdirildikdə bir-biri ilə qarşılıqlı əlaqəyə malik, bütöv qaydalar sistemi kimi çıxış edir. Bu qaydalar cəmiyyət və dövlət həyatının hər bir sahəsinə təsir edir. Ailədaxili münasibətlərdən tutmuş, dövlət orqanlarının qarşılıqlı münasibətlərinə qədər ən müxtəlif məsələlərə toxunan hüquq, təbii ki, mürəkkəbləşir və bir növ ixtisaslaşır.

Hüquq sisteminin vahidi hüquq normasıdır. Hüquq normaları hüququn təsbiti forması olan normativ aktlarda cəmlənir və bunun da nəticəsində qanunvericilik sistemi əmələ gəlir. Aid olduğu məsələnin xüsusiyyətləri hüquq normasına və normativ aktlara da keçir. Hüquq normaları özünün quruluşuna, reallıqda hərəkətinə (hüquqi qüvvəsinə), məzmununa görə bir-birindən kəskin fərqlənir. Nəticədə hüququn ayrı-ayrı münasibətlər üzrə «ixtisaslaşması» ortaya çıxır, son nəticədə isə qanunvericilik sisteminin üfüqi münasibətləri yaranır. Yəni normalar bir-birindən əlaqələrinə görə nisbətən təcrid olunur, qruplaşır. Məsələn, ixtisaslaşma nəticəsində konstitusiya hüquq norması mülki hüquq normasından daha çox, inzibati hüquq normasına yaxın olur, baxmayaraq ki, bir sistemə daxil olduqlarından onların arasında ümumi əlaqələr də mövcuddur. Hüquq normalarının bu cür müxtəlif münasibətlər üzrə qruplaşması hüquq sahəsini yaradır. Məlum olduğu ki-

mi, hüquq sahəsi özünün predmetinə, yəni nizamladığı münasibətlərə görə digər sahələrdən fərqlənir. Eyni zamanda hər bir sahənin özünün tənzimləmə metodu olur. Hüquqi nizamasalma metodu aşağıdakıları ehtiva edir:

1) münasibətdə olan subyektlərin hüquqi statusu;

2) hüquq və azadlıqların təsbiti qaydası;

3) pozulmuş hüquqların müdafiə üsulları;

4) hüquqi instrumentariya, yəni normaların və münasibətlərin qurulmasında istifadə olunan hüquqi konstruksiyalar. Bütün bunlar hüquq sahəsinin müstəqilliyini şərtləndirir.

Konstitusiya hüququ da müəyyən predmetə və metoda malikdir. Bir hüquq sahəsi kimi konstitusiya hüququ şəxsiyyətin, dövlətin və cəmiyyətin qarşılıqlı əlaqələrini tənzimləyir. Lakin bu ümumi göstərişdir. Bir qədər də dəqiqləşdirsək, konstitusiya hüququ müxtəlif qrup münasibətləri tənzimləyir. Bunlara:

1) cəmiyyətin və dövlətin sosial əsasları;

2) dövlətin iqtisadi əsasları;

3) dövlət və cəmiyyətdə baş verən əsas siyasi-hüquqi proseslər;

4) bəzi mənəvi ideoloji münasibətlər (din, təhsil və s.) aiddir.

Bu münasibətlərin özləri də daha kiçik və dəqiq yarımqruplara bölünür. Bütün bu münasibətlərdə dövlət və dövlət orqanları, şəxsiyyət və onun sosial birlikləri (siyasi partiyalar, qeyri-hökumət təşkilatları və s.), cəmiyyət iştirak edir. Konstitusiya hüququnda bu münasibətlər aşağıdakı aspektdən nizamlanır:

1) dövlətin təşkili əsasları – əsas dövlət orqanları və onların təşkili, hakimiyyətin təşkili prinsipləri;

2) şəxsiyyətin hüquqi stausunun əsasları - insanın ən əsas və mühüm hüquqları və vəzifələri;

3) yerli özünüidarəetmə - cəmiyyətin özünütəşkilatlandırmasının əsasları;

4) xalq hakimiyyəti - cəmiyyət və dövlət arasında münasibətlər.

Qeyd etmək lazımdır ki, konstitusiya hüququ bu münasibətləri bütünlüklə, tam təfsilatı ilə, xırdalıqlarına qədər nizamlamır. O, cəmiyyət, dövlət və şəxsiyyət üçün xüsusilə vacib olan münasibətlərin ən əsas tərəfini, özəyini tənzimləyir, yerdə qalan digər bütün münasibətlərin tənzimlənməsini isə başqa hüquq sahələrinin öhdəsinə buraxır. Bu da yalnız konstitusiya hüququna xas olan əsas xüsusiyyətdir. Konstitusiya hüququ ən vacib münasibətlərin əsasını tənzimləyir. Odur ki, konstitusiya hüquq münasibətləri digər münasibətlərdən özünün bilavasitə hər hansı həyat sferasına aidiyyəti ilə deyil, çəkisi, əhəmiyyəti ilə fərqlənir. Belə ki, mülkiyyət iqtisadi sferaya, seçki hüququ və prosesi isə siyasi-hakimiyyət sferasına aiddir. Bunları konstitusiya hüququnda birləşdirən onların baza (təməl) institut, əsas kateqoriya olmasıdır. Mülkiyyət iqtisadi sferanın və mülki hüququn özəyini təşkil edir. Seçki hüququ isə bilavasitə konstitusiya hüququnun və hakimiyyətin formalaşdırılmasının rişəsini, özəyini təşkil edir. Konstitusiya hüquq münasibətləri təsisatlandırıcı-təşkilatı xarakterlidir. Bütün digər hüquq kateqoriya və anlayışlar məhz konstitusiyadakı konstruksiyaya uyğun gəlməlidir. Münasibətlərin bu cür vacibliyi konstitusiya hüququ sahəsinin metodunun da məhz əsas etibarilə imperativ metod olmasına səbəb olmuşdur. Bu münasibətlər bütün cəmiyyətin və dövlətin mənafeyinə aiddir. Bu münasibətlər şəxsiyyətin dövlətə münasibətdə yerini müəyyən etdiyindən,

burada ayrı-ayrı fərdlərin iradə müstəqilliyi minimuma endirilir və ümumi mənafe əsas olduğuna görə ayrı-ayrı fərdlərə öz iradələrindən və mənafelərindən ötrü nəyisə dəyişməyə imkan verilmir. Əlbəttə, bu o demək deyil ki, konstitusiya hüququ, ümumiyyətlə, dispozitiv nizamasalma metodundan istifadə etmir. Elə münasibətlər var ki, burada artıq fərdin müstəqilliyi, yəni öz iradəsinə görə hərəkət etməsi həm də dövlətin və cəmiyyətin mənafeyinə uyğundur. Ona görə də konstitusiya hüququnda imperativ metodla yanaşı qismən dispozitiv metoddan da istifadə edilir. Məsələn, seçkilərdə iştirak etmək hüququnu realizə etmək fərdin özündən asılıdır. Burada ona davranış variantını seçmək imkanı verilir, çünki dövlət özü seçkinin səmərəli olmasında maraqlıdır. Səmərəli seçkiyə isə ancaq tam iradə azadlığı hesabına nail olmaq olar. Bu zaman fərdin müstəqilliyi dövlətin mənafeyi ilə üst-üstə düşdüyündən, imperativ deyil, dispozitiv nizamasalma metodundan istifadə edilir.

Hüquq sosial hadisə olduğuna görə cəmiyyətdən-cəmiyyətə müəyyən qədər fərqlənir. Aydındır ki, ABŞ-nin konstitusiya hüququ ilə Fransanın konstitusiya hüququ bir sahə olaraq bir-birindən fərqləndiyi kimi, Azərbaycan Respublikasının konstitusiya hüququ da Türkiyə Respublikasının, eləcə də istənilən digər bir ölkənin konstitusiya hüququndan fərqlənir. Bununla belə, bütün ölkələrin konstitusiya hüququ dövlət, şəxsiyyət və cəmiyyət arasındakı əlaqələri tənzimləyir. Əlbəttə, Azərbaycan Respublikasında da konstitusiya hüquq münasibətləri bu prinsiplərlə tənzimlənir. Bu baxımdan deyilənləri ümumiləşdirərək, konstitusiya hüququna belə bir tərif vermək olar. *Konstitusiya hüququ dövlət və cəmiyyətin təşkilinin, şəx-*

siyyətin hüquqi statusunun, yerli idarəetmənin və özünüidarəetmənin əsaslarını tənzimləyən hüquq sahəsidir.

§ 4. Konstitusiya qanunvericiliyi və konstitusiya hüququnun mənbələri

Qeyd etdiyimiz kimi, sahə elmi olmaq etibarilə konstitusionalistika konstitusiya qanunvericiliyini öyrənir. Konstitusiya qanunvericiliyi konstitusiya hüququnun obyekti olan münasibətləri, yəni şəxsiyyət-cəmiyyət-dövlət münasibətlərini, onların əsaslarını tənzimləyir.

Hər şeydən öncə, qeyd etmək lazımdır ki, qanunvericilik sahəsi ilə hüquq sahəsi bir-birindən fərqlənir. Burada qanunvericilik sahəsindən bəhs ediləcəkdir. Hüquq sahəsi müəyyən normaların məcmusundan ibarətdir. Qanunvericilik sahəsinə isə normativ hüquqi aktların məcmusu daxildir. Hüquq sahəsi yekcins oxşar normaları özündə birləşdirir, qanunvericilik sahəsinin konkret normativ hüquqi aktında isə eyni zamanda bir neçə hüquq sahəsinə xas olan normalar ola bilər. Hüquq sahələri predmetə və metoda görə qruplaşdırıldığı halda, qanunvericilik sahəsi yalnız predmetə görə qruplaşdırılır. Qanunvericilik sahələrinin sayı hüquq sahələrinin sayından çoxdur.

Konstitusiya qanunvericiliyi daha çox imperativ normalardan təşkil olunan və cəmiyyət, dövlət və şəxsiyyət arasında yaranan hüquq münasibətlərinin əsaslarını tənzimləyən bir qanunvericilik sahəsidir. Konstitusiya qanunvericiliyi reallıqdakı münasibətlərə tətbiq olunan qaydaların əks olunduğu mənbə rolunda çıxış edir. Bu qanunvericiliyə çoxsaylı aktlar daxildir. Hüququn mənbəyi dedikdə, hüquq normalarının təsbiti üsulları, ifadə formaları başa düşülür. *Konstitusiya qanunvericiliyinin, habelə bütün normativ hüquqi aktların əsasını konstitusiya təşkil edir.*

Konstitusiya əsas münasibətləri tənzimləyən normaları özündə cəmləyir. Bütün digər münasibətlərin əsasları bu və ya digər dərəcədə konstitusiyada əks olunmuşdur.

Konstitusiya ən yüksək hüquqi qüvvəyə malikdir. O yalnız hüquqi akt deyil, həm də hüquqi-siyasi aktdır. Bütün normativ hüquqi aktlar konstitusiyaya uyğun olmalı, onun konsepsiyası və hüquqtənzimləmə prinsipləri ilə uzlaşmalıdır. Konstitusiya ilə normativ hüquqi aktlar arasında ziddiyyət olarsa, konstitusiyanın normaları tətbiq edilməlidir.

Konstitusiya qanunvericiliyinə, həm də müəyyən qrup normativ hüquqi aktlar daxildir. Bu normativ hüquqi aktlar dövlətin və cəmiyyətin təşkili əsaslarını müəyyən edən, konstitusiyanın müddəalarını inkişaf etdirən və dəqiqləşdirən aktlardır. Konstitusiyadan fərqli olaraq, Konstitusiya hüququnun mənbəyini təşkil edən digər qanunlar özünün hüquqi qüvvəsinə görə başqa qanunlardan fərqlənmir. Qanun ən geniş və mühüm ictimai münasibətləri tənzimləyən normativ hüquqi aktdır.

Bundan başqa, konstitusiya hüququnun mənbəyinə icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları da daxildir. İcra hakimiyyəti orqanlarının aktları qanunqüvvəlidir. Yəni bu aktlar qanunların əsasında verilir və qanunlardakı müddəaları dəqiqləşdirir, inkişaf etdirir. Eyni zamanda bu aktlar qanunvericilik iyerarxiyasında qanunlardan sonra durur. Bunların arasında ziddiyyət olduqda isə, qanunun göstərişi tətbiq edilir.

Dövrümüzdə qanunqüvvəli aktların və ya inzibati aktların konstitusiya hüququnun mənbəyi kimi çəkisi artmaqdadır. Bir sıra məsələlər, demək olar ki, yalnız inzibati akt səviyyəsində təsbit olunur və daha aşağı pillələrdə duran normativ aktlarda inkişaf etdirilir. Buna səbəb odur

ki, inzibati aktlarla həll olunan məsələlərin dairəsi getdikcə genişlənir. Bu aktlar içərisində Azərbaycan Respublikası Prezidentinin fərmanları xüsusilə seçilir. Prinsipcə digər icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları da konstitusiya hüququnun mənbəyi ola bilər. Lakin bu, əslində çox nadir hallarda olur. Konstitusiya hüququnun predmetini təşkil edən məsələlərlə bağlı yerli icra hakimiyyəti başçıları və ya mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri, demək olar ki, hər hansı bir səlahiyyətə malik deyillər. Nəzərə almaq lazımdır ki, qanunlardan fərqli olaraq, inzibati aktlar heç də həmişə normativ olmur, konstitusiya hüququnun mənbəyini isə yalnız normativ hüquqi xarakterli inzibati aktlar təşkil edir.

Hər bir hüquq mənbəyi - qanun, fərman, qərar və s. müəyyən əlamətlərə görə xarakterizə olunur. Hüquq üçün belə özünəməxsus «ölçü vahidi» qanunun (normativ hüquqi aktın) hüquqi qüvvəsidir. Aktın hüquqi qüvvəsi onun tətbiq olunma həddini, imkanını bildirir. Hər bir akt 3 aspektdən (ölçüdən) müəyyən hüquqi qüvvəyə malikdir:

1) zamana görə;
2) məkana görə;
3) şəxslərə görə.

Aktın zamana görə hüquqi qüvvəsi onun hansı zaman kəsiyində və ya hansı müddətə normativ hüquqi akt kimi tətbiq ediləcəyini bildirir. Bir qayda olaraq, bütün normativ hüquqi aktlar yalnız qəbul edildiyi vaxtdan sonra əmələ gələn münasibətlərə şamil edilir. Normativ hüquqi aktın onun qəbul edildiyi vaxta qədər yaranmış münasibətlərə şamil olunmasına çox nadir hallarda təsadüf olunur. Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin VII bəndində göstərilir ki, yalnız subyektin vəziyyətini yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran

və ya yüngülləşdirən normativ hüquqi aktlar geriyə şamil edilir. Başqa normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilmir. Normativ hüquqi aktın qüvvəyə minməsi, adətən, onun özündə göstərilir. Əgər normativ hüquqi aktın özündə onun hüquqi qüvvəyə minmə tarixi göstərilməyibsə, o zaman dərc olunduğu gündən qüvvəyə minir. Məsələn, «Dövlət qulluğu haqqında» 21 iyul 2000-ci il tarixli Azərbaycan Respublikası Qanununun 35-ci maddəsinə görə, bu qanun 2001-ci il sentyabrın 1-dən qüvvəyə minmişdir.

Normativ hüquqi akt, bir qayda olaraq, ya bilavasitə özündə müəyyən edilən tarixdə, ya yeni qəbul edilmiş normativ hüquqi aktla, ya da onun nizamladığı münasibətləri faktiki olaraq nizamlayan başqa akt verildikdə qüvvədən düşür.

Normativ hüquqi aktın məkana görə qüvvəsi onun hansı ərazidə tətbiq edildiyini bildirir. Normativ hüquqi aktın qüvvədə olma məkanı dedikdə yalnız dövlətin sərhəddinin hüdudları daxilindəki torpaq, su əraziləri başa düşülməməlidir. Normativ hüquqi aktın hüquqi qüvvəsi dövlətin bayrağı altında üzən gəmilərinə, qurğularına, xarici ölkələrdəki səfirliklərinə, konsulluqlarına, hərbi birləşmələrinə, dövlətin ərazisi üzərindəki hava məkanına, habelə yerin təkinə də tətbiq edilir. Bir dövlətin qanununun başqa dövlətin ərazisində tətbiqinə yalnız dövlətlərarası müqavilələrlə yol verilir. Buna eksterritoriallıq deyilir. Vətəndaş öz dövlətindən kənarda olduqda belə, mənsub olduğu dövlətin qanunlarının hüquqi qüvvəsinin təsiri məkanında hesab edilir. Dövlətin hərbi qüvvələri olduğu yerdən asılı olmayaraq, yalnız öz dövlətinin qanunlarına tabe olur.

Qanunun şəxslərə görə qüvvəsi həmin qanunun kimlərə şamil edilməsini ifadə edir. Məsələn, hərbi qulluqçuların statusunu müəyyən edən qanunlar hərbi qulluqçulara, sosial müdafiəyə ehtiyacı olan şəxslərə imtiyazlar müəyyən edən normativ hüquqi aktlar yalnız bu qəbildən olan vətəndaşlara, dövlət qulluğunu tənzimləyən qanunvericilik dövlət qulluqçularına şamil edilir.

§ 5. Konstitusiya hüququ hüququn aparıcı sahəsi kimi

Artıq məlum olduğu kimi, konstitusiya hüququ digər hüquq sahələrindən fərqli olaraq, yalnız ən əsas münasibətləri tənzimləyir. Bu münasibətlər digər hüquq münasibətlərinə nisbətən ilkin və əsasdır. Bu isə konstitusiya hüququnu bir hüquq sahəsi kimi digər sahələrdən fərləndirən müəyyən xüsusiyyətlər yaradır. Əslində konstitusiya hüququnun aparıcı hüquq sahəsinə çevirilməsində bütün konstitusiya qanunvericiliyi deyil, bilavasitə konstitusiya özü əsas rol oynayır. Çünki qanunvericilik sistemində ən yüksək pillədə istənilən konstitusiya qanunvericiliyi aktı deyil, yalnız konstitusiya durur. Digər qanunvericilik aktları (qanunlar, fərmanlar, təlimatlar, əsasnamələr və s.) qanunvericilik sisteminin müxtəlif pillələrində qərar tuturlar və başqa sahələrə aid olan qanunlardan özlərinin hüquqi qüvvəsinə görə və ya hər hansı xüsusiyyətinə görə fərqlənmirlər. Konstitusiya hüququnun hüququn aparıcı sahəsi olmasına səbəb konstitusiyanın normalarıdır. Bu normalar xalqın iradəsini bilavasitə əks etdirməkdən və əsas, vacib münasibətləri müəyyən etməkdən əlavə, həm də başqa hüquq sahələri üçün, belə demək mümkünsə, inkişaf istiqamətini, onların başlıca prinsiplərini müəyyən edir. Məsələn, mülki hüquq üçün ən əsas kate-

qoriya mülkiyyətdir. Bütün digər mülki hüquq münasibətləri ya mülkiyyətdən törəmədir, ya da mülkiyyətə münasibətdə mülki hüquq üçün ikinci dərəcəli bir məsələdir. Mülkiyyətin də mahiyyət və məzmununu bir növ konstitusiya hüququ müəyyən edir. Azərbaycan Respublikasının Konstitusiyasında birbaşa nəzərdə tutulur ki, «Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər. Mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz» (13-cü maddə). Müəyyən edilir ki, mülkiyyətin heç bir növünə üstünlük verilmir (29-cu maddə). Mülkiyyət barədə konstitusiyada nəzərdə tutulan müddəalar mülkiyyət münasibətlərinin tənzimlənməsi konsepsiyasının, prinsiplərinin, üsullarının, qaydalarının özülünü təşkil edir. Bu o deməkdir ki, Mülki Məcəllə, həmçinin ölkədə mülkiyyət münasibətlərini tənzimləyən digər normativ hüquqi aktlar konstitusiyada təsbit edilmiş müddəaları inkişaf etdirməli, daha dolğunlaşdırmalı və bu münasibətlərin tənzimlənməsi üçün sadə, anlaşıqlı hüquqi mexanizmlər nəzərdə tutmalıdırlar. Sanki konstitusiya ilə mülki hüququn üzərinə müəyyən vəzifələr qoyulur.

Mülki hüquq mülkiyyətin bütün növləri üçün eyni dərəcədə əsaslı, ciddi müdafiə rejimi müəyyən edir. Mülki hüquqda müəyyənləşdirilən bütün normalarla cəmiyyətin və dövlətin mənafeyi bir-birinə uzlaşdırılır. Bir mənafe başqa mənafenin pozulması hesabına təmin edilə bilməz, çünki konstitusiya hüququnda mülkiyyətin sosial təyinatlı olması müəyyən edilmişdir. Qeyd edək ki, vaxtilə sovet konstitusiya hüququnda marksizm ideologiyasına uyğun

olaraq, dövlət və ictimai mülkiyyəti daha üstün tutan normalar müəyyən edilmişdi. Sovet mülki hüququ bu müddəaya uyğun olaraq, ictimai mülkiyyəti daha ciddi, əsaslı şəkildə tənzimləyirdi və onun qorunması üçün daha güclü rejim müəyyən etmişdi.

Başqa bir misal. Konstitusiya hüququ hakimiyyətlərin bölgüsü nəzəriyyəsini prinsip şəklində formulə edərək qəbul edir. Bu prinsip artıq icra hakimiyyətinin fəaliyyətini və təşkilini tənzimləyən inzibati hüquq üçün çıxış nöqtəsidir və inzibati hüququn tənzimlədiyi məsələlərin dairəsini müəyyən edir. Konstitusiyada birbaşa müəyyən edilir ki, yerli icra hakimiyyəti başçılarını prezident təyin edir. İnzibati hüquq artıq yerli icra hakimiyyəti orqanlarının formalaşdırılmasının başqa qaydasını müəyyən edə bilməz və verilmiş bu müddəalar çərçivəsində iyerarxiya münasibətlərini öyrənməli və təkmilləşdirməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinə əsasən, insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Bu müddəadan çıxış edərək inzibati hüquq icra hakimiyyəti orqanlarının fəaliyyətində insan hüquq və azadlıqlarının müdafiəsinin alternativ və səmərəli yollarını hazırlamalıdır.

Əmək hüququnun əsasını təşkil edən əmək hüququ kateqoriyasını məhz konstitusiya hüququ müəyyənləşdirir. Bir hüquq sahəsi kimi əmək hüququ insanın əmək qabiliyyətinin, peşəsinin, sənətinin, ixtisasının, peşəkarlığının və s.-nin fərdi və ictimai rifah naminə əmək hüququ münasibətləri vasitəsilə (subyektiv əmək hüququ) realizə edilməsindən bəhs edir. Əmək hüququnun əsas əlamətləri, başqa sözlə, atributları nə ola bilər? Əlbəttə, əməyin özünü bütövlükdə xarakterizə etməyə, onun məzmununu

müəyyən etməyə imkan verən şərtlər. Bəs bu şətrlər hansılardır? Məlumdur ki, bir şəxsin əməyindən başqa şəxs (şəxslər) ya onun razılığı ilə, yəni könüllü, ya da onun iradəsinə, istəyinə zidd olaraq məcburi qaydada istifadə edə bilər. Üçüncü hal ola bilməz. Digər tərəfdən, cəmiyyətdə əmək huququnun həyata keçirilməsi müəyyən normalarla, qaydalarla tənzimlənməlidir. Nəhayət, insanın həm özünü, həm ailəsini dolandırması, həm də dövlət, cəmiyyət qarşısında öhdəsinə düşən vəzifələri yerinə yetirə bilməsi üçün işləmək imkanları, şəraiti olmalıdır. Əmək hüququnun şərh edilən bütün bu əlamətləri, atributları Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsində təməl normalar, prinsiplər kimi nəzərdə tutulur. Həmin maddə ilə əməyin fərdi və ictimai rifahın əsası olduğu - əməyin ümumi sosial təyinatı təsbit edilmişdir. Daha sonra bu maddədə bəyan edilir: "Heç kəs zorla işlədilə bilməz". Burada dövlətin əməyə olan fərdi münasibəti göstərilir. Həmin maddədə əmək hüququnun həyata keçirilməsinin üsulu, qaydası da göstərilir: "Əmək müqavilələri sərbəst bağlanılır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz". Nəhayət, işsizlərin sosial müdafiəsi, ümumiyyətlə, işsizliyin bir sosial bəla kimi aradan qaldırılması sahəsində dövlətin vəzifələri müəyyən edilir. Bu maddənin digər müddəalarını şərh edərək əmək hüququnun digər əlamətlərini də aşkarlamaq olar. Göründüyü kimi, əmək hüququnun təməl normaları məhz konstitusiya hüququnda müəyyənləşdirilir. Bu təməl normalara əsaslanan bütöv bir hüquq sahəsi - əmək hüququ və bu hüquqla bağlı münasibətlər sistemini tənzimləyən əmək qanunvericiliyi sistemi mövcuddur ki, onun da əsasında 1999-cu il fevralın 1-də qəbul olunmuş

və həmin ilin iyununun 1-dən qüvvəyə minmiş Azərbaycan Respublikasının Əmək Məcəlləsi durur.

Şərh edilənlər maddi hüquq sahəsinə aid olduğu kimi, prosessual hüquq sahələrinə də aiddir. Deyilənlərdən aydın olur ki, konstitusiya hüququnun aparıcı hüquq sahəsi olmasına səbəb budur ki, konstitusiya hüququ bütün hüquq sahələrinin əsasını və birbaşa xalqın iradəsini ifadə edən normaları özündə əks etdirir.

§ 6. Konstitusiya hüquq normaları və institutları

Konstitusiya hüququ hüququn bir sahəsi kimi hüquq normalarının məcmusundan ibarətdir. Hər bir hüquq sahəsində olduğu kimi, konstitusiya hüququnda da hüquq normaları başqa hüquq sahələrində olan normalarla müəyyən oxşarlığa malikdir. Eyni zamanda bu normalar nizamladığı predmetin xüsusiyyətlərindən irəli gələn, yalnız onlara xas xüsusiyyətlərlə də səciyyələnir. Hər bir hüquq norması qeyri-müəyyən subyektlər dairəsinə yönəlir və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulur. Lakin həyat daha mürəkkəbdir və bəzən bu iki meyara heç də tam cavab verməyən normalara rast gəlinir; bir normada konkret subyektlər müəyyənləşdirilsə də, norma dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulur. Bu, adətən, inzibati aktlara aid olan xüsusiyyətdir. Konstitusiya hüquq normaları da buna bənzər digər xüsusiyyətlərə malikdir. Məsələn, definitiv konstitusion normalar və prinsip-normalar klassik hüquq normaları kimi aydın görünən davranış qaydası müəyyən etmir. Lakin bu əlamət bütün konstitusion normalara xas deyildir. Elə konstitusiya hüquq normaları vardır ki, onlar digər hüquq sahələrində olduğu kimi dəqiq davranış qaydaları müəyyənləşdirir. Ümumiyyətlə,

konstitusiya hüquq normalarının aşağıdakı xüsusiyyətləri və növləri vardır:

1) Konstitusiya hüquq normaları təsisedici normalardır (əsasən bilavasitə konstitusiyada əks olunan normalar). Bu normalar hansı sahəyə və məsələyə aiddirsə, onun əsaslarını müəyyən edir. Konstitusion normalar nizamladığı hər hansı bir məsələnin əsasını təsbit edir, onun ümumi parametrlərini, hədlərini müəyyənləşdirir. Digər bütün normalar da məhz bu normanın göstərişlərindən çıxış edərək, digər məsələləri tənzimləyirlər. Təsisedici normalar xalq və dövlət arasındakı münasibətlərin əsaslarını tənzimləyir, şəxsiyyətin əsas hüquqlarını müəyyən edir, dövlət orqanları sistemini və qanunvericilik sistemini təsbit edir. Təsisedici normalar həm də qanunvericilik sistemində mövcud olan digər aktlara verilən tələbləri özündə əks etdirir.

2) Konstitusiya hüquq normaları, adətən, ənənəvi «üç-elementli quruluş»a malik olmur.

Hər bir hüquq norması 3 hissədən ibarətdir:

Hipoteza;

Dispozisiya;

Sanksiya.

Hər bir hissənin özünün də müxtəlif növləri vardır və onlar normativ hüquqi aktın maddəsi ilə üst-üstə düşməyə bilər. Bəzən bir maddədə bütün struktur əks olunduğu halda, bir çox hallarda isə normanın strukturu ayrı-ayrı aktlarda əks olunur. Konstitusiya hüquq normalarında bu quruluş nadir hallarda əks olunur, çoxlarında isə strukturun aşkara çıxarılması, sadəcə, mümkün deyil. Məsələn, «hakimiyyətin mənbəyi xalqdır» normasının hipoteza, dispozisiya və sanksiyasını ayırmaq, ümumiyyətlə, mümkün deyildir. Bununla yanaşı, bəzən cari qanunvericilikdə

təsbit olunan konstitusion hüquqi normalarda üçelementli quruluşu ayırd etmək mümkün olur. Bu da ondan irəli gəlir ki, bu normalar digər qanunvericilik aktlarındakı kimi, münasibəti kifayət qədər konkret və dəqiq şəkildə nizamlayırlar. Ona görə də onlarda davranış qaydasını və onun şərtlərini müəyyən etmək bir o qədər çətinlik törətmir.

3) *Konstitusiya hüquq normaları definitiv və prinsip müəyyən edən normalardır.* Konstitusion normaların bir hissəsi bu və ya digər məsələ ilə bağlı prinsipləri müəyyən edir. Bu prinsiplər bütün cari qanunvericiliyə aiddir və bütün hüquq normaları bu prinsipləri gözləməklə verilməlidir. Məsələn, konstitusiyanın 149-cu maddəsində müəyyənləşdirilir ki, normativ hüquqi aktlar hüquqa və ədalət prinsiplərinə əsaslanmalıdırlar. Sahə aidiyyatından asılı olmayaraq, bütün digər hüquq normaları bu göstərişlərə riayət olunmaqla verilməlidir. Norma-prinsiplər bəzən çoxsaylı qanunvericilik aktlarının verilməsini, dövlətin irimiqyaslı tədbirlər kompleksi həyata keçirməsini tələb edir. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 83-cü maddəsindəki seçki prinsipləri nəinki qanun qəbul edilməklə, həm də bir sıra təşkilati tədbirlər görməklə həyata keçirilməlidir. Definitiv normalar, adətən, bu və ya digər məsələlərlə bağlı məqsədi və ya anlayışı özündə əks etdirir. Bu normalar, bir qayda olaraq, sonradan hüququn tətbiqi praktikasında yarana biləcək problemlərin qarşısını almaq üçün hüquqi əhəmiyyətə malik mücərrəd anlayışları dəqiqləşdirir. Məsələn, Konstitusiyanın 1-ci maddəsi xalq anlayışını verir. Burada göstərilir ki, xalq anlayışı harada yaşamasından asılı olmayaraq, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikasının vətəndaşlarını ehtiva edir.

4) Konstitusiya hüquq normaları bir çox hallarda özünəməxsus realizə mexanizminə malikdir. Konstitusion normaların bir hissəsi digər hüquq sahəsi normalarında olduğu kimi bilavasitə konkret hüquq normalarında realizə edilmir. Bu cür normaların realizə edilməsi üçün çoxmərhələli geniş fəaliyyət tələb olunur. Belə normaların bəziləri birbaşa dövlət quruluşu, ölkədə demokratiyanın səviyyəsi ilə bağlıdır. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 4-cü maddəsində müəyyənləşdirilir ki, xalqın seçdiyi səlahiyyətli nümayəndələrdən başqa, heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur. Bu normanın realizə edilməsi üçün xalqı təmsil edən orqan yaradılmalı, onun səlahiyyətləri müəyyənləşdirilməli, hansı halların bu normaya zidd olması cinayət qanunvericiliyi ilə müəyyən edilməli, təmsilçilik nəzəriyyəsi işlənib hazırlanmalı və praktikaya çevrilməlidir. Bütün bunlar isə çoxsaylı tədbirlərin görülməsini tələb edir və konkret bir hüquq münasibəti ilə bu normanın göstərişlərini realizə etmək qeyri-mümkündür.

5) Konstitusiya hüquq normaları həm də özünün təsbitolunma mənbəyinə görə fərqlənir. Əsas konstitusiya hüquq normaları Azərbaycan Respublikasının ali hüquqi qüvvəyə malik aktında - Konstitusiyasında öz əksini tapır. Bu normalar digər konstitusiya hüquq normalarından daha əhəmiyyətlidir, ona görə ki, burada ən əsas məsələlər tənzim olunur və bu normalar xalqın birbaşa iradəsinə söykənir.

Konstitusiya hüquq normaları özünün məzmununa görə də bir-birindən fərqlənir. Bu normalar konstitusiya hüququnun predmetinə daxil olan ən müxtəlif münasibətləri nizamlayır. Normaları bu əsasla institutlar üzrə qruplaş-

dırmaq olar. Məsələn, vətəndaşlıqla bağlı normalar, özünüidarəetmə ilə bağlı normalar və s.

6) *Hüquq normaları, o cümlədən konstitusiya hüquq normaları özünün hüquqi qüvvəsinə görə də fərqlənir.* Ən yüksək hüquqi qüvvəyə malik normalar konstitusiyada əks olunur. Daha sonra qanunlarda nəzərdə tutulan normalar gəlir. Qanunqüvvəli aktlarda nəzərdə tutulan normalar qanunlara zidd ola bilməz.

7) Göstərişin xarakterinə görə konstitusiya hüquq normaları səlahiyyətverici, məcburedici və qadağanedici normalara bölünür. Səlahiyyətverici normalar subyektə müəyyən hərəkəti etmək imkanı verən normalardır. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu, 94-cü və 95-ci maddələri belə normaya misal ola bilər. Məcburedici normalar aktiv şəkildə müəyyən davranış aktını həyata keçirməyi subyekt üçün öhdəlik kimi müəyyən edir. Subyekt normada müəyyənləşdirilən qaydanı məcburən həyata keçirməlidir. Vətəndaşların konstitusion vəzifələrinin təsbit olunduğu normalar məcburedici normalardır. Qadağanedici normalar subyektə hər hansı hərəkəti etməyə imkan vermir və onu müvafiq hərəkəti etməyə deyil, etməməyə təhrik edir. Bu cür normalara qadağa qoyulan konkret hərəkəti etməməklə riayət edilir. Qadağa qoyulan hərəkəti etməklə subyekt normanın göstərişini pozmuş olur. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 6-cı maddəsi hakimiyyətin həyata keçirilməsi səlahiyyətinin mənimsənilməsini qadağan edir. Hakimiyyəti yalnız sivil, konstitusion yolla - seçkilər yolu ilə əldə etmək olar. Hər hansı başqa şəkildə hakimiyyəti əldə etmək onu mənimsəmək hesab olunur. Belə əməllər isə 6-cı maddə ilə qadağan olunduğuna görə subyektin qanunvericilikdə

nəzərdə tutulan məsuliyyətə cəlb edilməsi üçün hüquqi əsas olacaqdır.

8) *Konstitusiya hüquq normaları həm də göstərişlərinin subyektə davranış sərbəstliyi verib-verməməsinə görə fərqlənirlər.* Bu əsasla normalar dispozitiv və imperativ normalara bölünür. İmperativ normalar subyektə normada nəzərdə tutulan davranışla bağlı hər hansı bir müstəqillik vermir və subyektin əlavə davranış variantını seçmək imkanı yoxdur. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 145-ci maddəsinin III hissəsində birbaşa müəyyən edilir ki, «yerli vergilər və ödənişlərlə bağlı qərarlar bələdiyyə üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilir». Bu norma birmənalı olaraq bələdiyyələr üçün yerli ödənişlər və vergilərlə bağlı qərarların qəbulu qaydasını müəyyən edir. Həmin normadan kənara çıxmağa və öz iradəsinə müvafiq olaraq bələdiyyənin hər hansı əsasla yerli vergi və ödənişlərlə bağlı qərar qəbul etməsi artıq qeyri-hüquqi sayılır. Dispozitiv normalar isə əksinə, subyektə normada nəzərdə tutulan göstərişi yerinə yetirən zaman davranış sərbəstliyi verən normalardır. Adətən, belə normalarda ya davranışın bir neçə variantı təsbit edilir və subyekt də onlardan birini seçməyə haqlıdır, ya da ümumiyyətlə, normanın müəyyən etdiyi davranışı həyata keçirib-keçirməmək məsələsi subyektin öz ixtiyarına buraxılır. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 62-ci maddəsi müəyyən edir ki, «hər kəsin onun işinə qanunla müəyyən edilmiş məhkəmədə baxılması hüququ vardır. Şəxsin razılığı olmadan onun işinə başqa məhkəmədə baxılmasına yol verilmir». Burada şəxsin razılığı məsələsi onu göstərir ki, bu normanın tətbiqi dispozitiv xarakterlidir. Yəni norma subyektə müəyyən davra-

nış müstəqilliyi verir və onun razılığından asılı olaraq, qanunda nəzərdə tutulan başqa qayda da tətbiq edilə bilər.

9) Konstitusiya hüquq normaları həm də hüquqi nizamasalma mexanizmində yerinə yetirdiyi funksiyaya görə müxtəlif qruplara bölünür. Bu əsasla normalar maddi hüquq normaları və prosessual normalara bölünür. Maddi normalar bilavasitə hərəkətin özünü, onun məzmununu müəyyən edir. Prosessual normalar isə əksinə, həmin hərəkətin və ya normadakı başqa göstərişin həyata keçirilməsi qaydasını müəyyənləşdirir. Məsələn, Konstitusiyanın 49-cu maddəsindəki sərbəst toplaşmaq azadlığı insanların hüququnun məzmununu müəyyənləşdirir. Bu hüququn həyata keçirilməsi qaydası isə xüsusi qanunla təsbit olunur. Mitinq və ya küçə yürüşü keçirmək üçün əvvəlcədən müvafiq icra hakimiyyəti orqanı müəyyən yer ayırmalıdır. Bu artıq prosessual normadır. Cinayət və mülki hüquqdan fərqli olaraq, konstitusiya hüququnda maddi və prosessual normalar bir yerdədir (iç-içədir) və tam olaraq bir-birindən ayrılmamışdır. Elə konstitusion normalar var ki, onları eyni dərəcədə həm maddi, həm də prosessual hüquq norması hesab etmək olar. Məsələn, Konstitusiyanın 107-ci maddəsində maddi hüquq institutu olan impiçmentdən söhbət gedir. Eyni zamanda məzmununa görə bu norma, demək olar ki, tamamilə impiçmentin keçirilməsi qaydalarından ibarətdir və bir prosesi təsbit edir. Lakin bununla belə, qeyd etmək lazımdır ki, son illər konstitusiya nəzarətinin yaradılması artıq konstitusiya hüququnda da prosessual normaların maddi normalardan ayrılmasına, xüsusiləşməsinə səbəb olur.

Konstitusiya hüquq normaları özünün nizamladığı münasibətlərə görə müəyyən qruplarda birləşirlər. Bu cür qrupda birləşdirilən normaların məcmusu hüquq institutu

adlanır. Lakin hüquq normalarının mexaniki birliyi hüquq institutu yaratmır. Bunun üçün həmin hüquq normaları oxşar, yekcins münasibətləri tənzimləməlidirlər. Bu normalar özünün predmetinə görə nizamlama xüsusiyyətləri baxımından da üst-üstə düşür. Konstitusiya hüququ da müəyyən institutları özündə birləşdirir. Qeyd etmək lazımdır ki, hüquq institutu anlayışı kifayət qədər dəyişkəndir. O, bir normadan tutmuş, bəzən çoxsaylı normalar toplusu kimi müxtəlif normalar məcmusunu özündə birləşdirir. Ayrı-ayrı ölkələrin konstitusiya hüquqi institutları bəzən üst-üstə düşmür. Onların həm sayı, həm də məzmunu bir-birindən fərqlənir. Məsələn, Rusiya öz ərazi quruluşuna görə federal dövlətdir. Federalizm institutu Azərbaycan Respublikasında yoxdur, çünki Azərbaycan Respublikası federal dövlət deyil, unitar dövlətdir. Başqa bir hal: Azərbaycan Respublikasında qanunvericilik sistemi Rusiya Federasiyasından fərqli olaraq ayrıca institut kimi öyrənilir. Seçki hüququ həm Rusiya Federasiyasının, həm də Azərbaycan Respublikasının konstitusiya hüququnda ən əsas institutlardan biridir, lakin bu institutların məzmunu bir-birindən tamam fərqlənir. Rusiya Federasiyasında ikipalatalı qanunverici orqanın aşağı palatası bərabər səviyyədə həm proporsional, həm də majoritar sistem əsasında formalaşır. Azərbaycan Respublikasında isə birpalatalı qanunverici orqan majoritar sistemlə formalaşdırılır. Əlbəttə, bu o demək deyil ki, Azərbaycan Respublikasında konstitusiya hüququ elmi konkret konstitusiya qanunvericiliyində əks olunmayan institut və problemləri öyrənmir. Əksinə, müqayisəli şəkildə və Azərbaycan Respublikasında dövlət quruculuğunu təkmilləşdirmək baxımından perspektivdə tətbiq olunması mümkün olan hüquq institutları kimi bu məsələlər Azərbaycan Respublikasının

konstitusiya hüququ elmi tərəfindən öyrənilir. Bir sıra hallarda hüquq ədəbiyyatında institutdan böyük, lakin sahədən kiçik olan struktur vahidindən - bölmədən söhbət gedir. Bölmə də eyni əsaslarla oxşar hüquq institutlarını özündə birləşdirən vahiddir. Məsələn, konstitusiya hüququnun bölməsi kimi dövləti göstərmək olar. Burada bir sıra institutlar - ali dövlət orqanları, seçkilər, dövlət orqanlarının səlahiyyətləri və s. göstərmək olar. Bununla belə, hüquq sahəsinin əsas struktur vahidi institut sayılır. Bölmə anlayışı nisbətən yayğın, dəqiq mənaya malik olmadığına görə az tədqiq olunur. Konstitusiya hüquq institutları özünün yaratdığı münasibətlərə, yəni realizə xüsusiyyətlərinə görə bir-birindən fərqlənir. Bəzi institutlar bütün hüquq sistemi və müxtəlif qanunvericilik aktları səviyyəsində realizə olunduğu halda, bəziləri konkret hüquq münasibətləri əmələ gətirir. Əsas konstitusiya hüquq institutları aşağıdakılardır:

1) Konstitusiya quruluşunun əsasları;
2) Şəxsiyyətin hüquqi statusunun əsasları;
3) Dövlət hakimiyyətinin təşkili;
4) Özünüidarəetmənin təşkili;
5) Qanunvericilik sistemi.

Nəzərə almaq lazımdır ki, bu institutlar bəzən ayrı-ayrı iri normalar toplularından ibarət olur və bu normalar toplusuna da institut deyilir. Məsələn, şəxsiyyətin hüquqi statusunun əsasları içərisində əsas yeri vətəndaşlıq tutur və vətəndaşlıq özü də institutdur. Dövlət hakimiyyətinin təşkili isə ümumiyyətlə bir neçə iri fərqli sistemi özündə birləşdirir. Buraya hakimiyyətin ərazi cəhətdən təşkili, idarəetmə forması, hakimiyyətin formalaşdırılması üsulları, muxtariyyat aiddir. Bu sistemdə bir qayda olaraq seçkilərə də ayrıca institut kimi baxılır. Özünüidarəetmənin təş-

kili forması kimi əsas forma yalnız bələdiyyələrdir. Qanunvericilik sistemi əslində adından da göründüyü kimi, geniş məsələləri əhatə edir. Burada dövlətin normativ hüquqi aktları arasındakı münasibətlər, o cümlədən normalaşdırılması mümkün olan ictimai münasibətlər sisteminə qoyulan tələblər əks olunur. Dövlətlə cəmiyyətin əlaqədə olduğu vasitələrdən biri də məhz qanunverilcilik sistemidir. Çünki dövlətin və cəmiyyətin tələbləri yalnız normativ hüquqi aktlar sistemində əks etdirildikdə, rəsmiləşdirildikdə qarşı tərəf üçün hüquqi nəticələr doğura bilən məcburi hüquqi öhdəliyə çevrilir. Burada təbii hüququn pozitiv hüquqa çevrilməsi məsələləri əks olunur.

Hər bir konstitusiya hüquq institutu digəri ilə sıx əlaqədədir. Onları təcrid etmək ancaq mənfi nəticələr verə bilər. Bəzən bir prinsip bir neçə konstitusiya hüquq institutunda müxtəlif şəkillərdə əks olunur. Məsələn, hakimiyyət bölgüsü prinsipi yığcam şəkildə əsası müəyyənləşdirilməklə konstitusion quruluşun əsasları institutunda əks olunur. Eyni zamanda bu prinsip dövlət hakimiyyətinin təşkili institutunda artıq inkişaf etdirilmiş və dəqiqləşdirilmiş şəkildə dövlət orqanları arasında münasibətlər formasında realizə olunur. Başqa bir misal: muxtariyyat özü hakimiyyətin ərazi təşkili formasıdır, lakin hakimiyyətin ərazi cəhətdən təşkili yerli, regional hakimiyyət orqanı ilə mərkəzi hakimiyyət orqanı arasında əlaqələrin qurulmasında təzahür etdiyindən, bu məsələ həm də hakimiyyət orqanlarının təşkili məsələləri ilə sıx bağlıdır və onun hakimiyyət bölgüsünə birbaşa aidiyyəti vardır. Hüquq institutlarının bir-birindən fərqləri göstərilərkən müxtəlif meyarlara istinad olunur. Buraya institutun hüquqi realizə mexanizmi, münasibətlərdə işitirak edən subyekt-

lər, funksiyalar, normaların xüsusiyyətləri və s. meyarlar aid edilir.

Konstitusiya quruluşunun əsasları institutu ən əsas institutdur. Burada xalq, dövlət və şəxsiyyət arasında qurulan münasibətlərin hər üç subyektin hakimiyyətlə bağlı imkanları müəyyənləşdirilir, dövlətin əsas əlamətləri (ərazi, əhali, hakimiyyət və s.) və onların rejimi məsələsi həll olunur. Bu institut bütün hüquq sisteminin təməlini təşkil edir. Bununla belə, bu institut bir sıra ölkələrdən fərqli olaraq, Azərbaycan Respublikasında konstitusiyada əks olunan digər normalardan özünün hüquqi qüvvəsinə görə fərqləndirilmir. Bu institut bütün hüquq subyektlərinə və hüququn tətbiqi praktikasına yönəlmişdir. O, konkret hüquq münasibətləri yaratmır, bütün hüquq münasibətləri müstəvisində realizə olunur. Daha çox norma prinsiplərdən, definisiyalardan təşkil olunan bu institut ən əsas hüquqi ideyaları rəsmiləşdirir, dövlət və cəmiyyətin bir növ perspektivdə inkişaf istiqamətlərini müəyyən edir.

İkinci institut şəxsiyyətin hüquqi statusunun əsaslarını, insanın dövlətlə münasibətini, dövlətə görə fərdin imkanlarının əsaslarını və dövlətin fərd qarşısında öhdəliklərini müəyyən edir. Şəxsiyyətin hüquqi statusunun əsası bütün sahə hüququ statuslarının fövqündə durur. Şəxsiyyətin hüquqi statusunun əsaslarının bir hissəsi vətəndaşlığından asılı olmayaraq hamıya aiddir. Bu institut da ümumi hüquq münasibətləri yaradır, onlar isə konkret hüquq münasibətləri vasitəsilə realizə olunur.

Dövlət hakimiyyətinin təşkili institutu dövlətin özünün daxili təşkilatlanmasını ifadə edir. Bu institutun şəxsiyyətə və onun hüquqi statusuna dolayısı ilə təsiri vardır. Onun normaları dövlət orqanlarının hərəkətlərində, bilavasitə konkret hüquq münasibətlərində realizə olunur. Burada ar-

tıq əsas subyekt kimi dövlət orqanları çıxış edir. Bu institut təkcə konstitusiyada əks olunan normalarla tənzimlənmir. İcra hakimiyyətinin özünün daxili təşkilatlanması ilə bağlı verdiyi bir çox hüquqi aktlar da buraya aiddir və daha çox təşkilati məsələləri tənzimləyir.

Özünüidarəetmə ilə bağlı konstitusiya hüquq institutu çərçivəsində münasibətlərdə daha çox konkret hüquq normaları vasitəsilə nizamlanır. Burada artıq subyekt qismində dövlət və ərazi kollektivləri çıxış edir. Bu institut dövlət və cəmiyyət arasında keçid mövqe tutan bir sahəni tənzimləyir. Ona görə də burada dövlətin məqsədyönlü təsiri ilə yerli idarəetmənin muxtariyyatının uzlaşdırılması məsələsi mərkəzi yer tutur.

Qanunvericilik sisteminin subyekti, bir qayda olaraq, dövlət orqanlarıdır. Bu institut çərçivəsində əmələ gələn münasibətlər bir qədər özünəməxsusluğu ilə fərqlənir. Burada birbaşa şəxsiyyət və ya dövlət orqanı arasındakı əlaqələrə toxunulmur. Qanunvericilik sistemi hüququn özünü müəyyən edən sistemdir və burada qoyulan tələblər bütün dövlət orqanları üçün məcburidir. Qanunvericilik sistemi ilə bağlı məsələlər, demək olar ki, yalnız konstitusiya ilə tənzimlənir və digər institutlardan fərqli olaraq, özü konstitusiyanın müdafiəsi vasitəsi kimi də çıxış edir.

Konstitusiya hüquq institutları dinamikdir, daim inkişaf edir və dəyişir. Onların qanunvericilikdə və ayrı-ayrı aktlarda əks olunma səviyyəsi də eyni deyildir. Bəzi institutlar konstitusiyada tam əks olunduğu halda (konstitusiya quruluşunun əsasları), digərləri yalnız qismən əks olunur (yerli idarəetmə). Bir sıra institutlar əsasən qanun səviyyəsində tənzimlənir (şəxsiyyətin hüquqi statusu), bəziləri isə əksinə, daha çox qanunqüvvəli aktlar hesabına realizə

olunur (yerli icra hakimiyyəti orqanlarının təşkili). Bu institutların inkişaf dinamikası da eyni deyildir.

§ 7. Konstitusiya hüquq münasibətləri

Hər bir hüquq sahəsi kimi konstitusiya hüququ da onun normalarının tənzimlədiyi sosial münasibətlər hesabına həyata keçirilir. Bu normalar vasitəsilə münasibət subyektlərinin qarşılıqlı hüquq və vəzifələri tənzimlənir. Hüquq münasibətlərinə onların strukturu aspektindən baxılmalıdır. Hər bir hüquq münasibəti öz strukturuna görə 3 hissədən ibarətdir:

1) Obyekt;
2) Subyekt;
3) Məzmun.

«Hüquq münsibətlərinin məzmunu» ifadəsi altında, adətən, tərəflərin qarşılıqlı hüquq və vəzifələri başa düşülür. Hər bir hüquq münasibəti bu üç hissənin müxtəlif şəkildə birləşməsindən əmələ gəlir. Hüquq münasibətinin aid olduğu sahədən asılı olaraq, münasibətlərin tərkib ünsürləri də bir-birindən fərqlənir. Məsələn, mülki hüquq münasibətləri, bir qayda olaraq, bu və ya digər dərəcədə maddi əşyaları, obyektləri, bundan fərqli olaraq, inzibati hüquq münasibətləri əsasən qeyri-maddi obyektləri - idarəçilik sahəsində insan davranışlarını əhatə edir. Cinayət hüququnun obyekti isə bir çox hallarda insanların həyatının, səhhətinin toxunulmazlığı ilə bağlı münasibətlərdir. Konstitusiya hüquq münasibətləri də digər sahələr kimi sahə aidiyyətindən irəli gələn müəyyən xüsusiyyətlərə malikdir. Konstitusiya hüquq münasibətlərinin obyekti özünün genişliyi və yekcins olmaması ilə fərqlənir. Buraya dövlət orqanlarının təşkili üçün lazım olan müəyyən tədbirlər kompleksindən tutmuş insanların

gündəlik fəaliyyətində təzahür edən bir çox digər məsələlər aiddir. Konstitusiya hüquq münasibətləri sosial subyektlərin hakimiyyətlə əlaqəli davranışını müəyyən edir. Bu münasibətlərin obyekti kimi adi həyatda konkret insan hərəkətlərindən ibarət olan davranış aktlarından tutmuş iri miqyaslı, həyata keçirilməsi çoxsaylı mürəkkəb tədbirlər kompleksini tələb edən mücərrəd məsələlər çıxış edir. Odur ki, konstitusiya hüquq münasibətinin obyekti, sadəcə olaraq, insan davranışı deyil, həm də reallıqda maddiləşməyən və hətta dolayı da olsa qavranıla bilməyən cəmiyyət və dövlətlə bağlı bir çox müddəalardır. Konstitusiya hüquq münasibətlərinin obyektləri, xüsusilə də mücərrəd obyektləri birdən-birə realizə oluna bilməz və onların realizə olunması bir çox hallarda perspektiv üçün nəzərdə tutulur. Məsələn, hüquqi dövlətin tam şəkildə realizə olunması üçün uzun müddət ərzində islahatların, müəyyən tədbirlər kompleksinin həyata keçirilməsi tələb olunur. Bir sıra obyektlər isə ümumiyyətlə, bir növ müstəqilləşir, insandan kənarda və onun birbaşa müdaxiləsi olmadan mövcud olur. İnsan davranışları başqa hüquq sahələrindəki münasibətlərdən fərqli olaraq, burada kəskin dəyişikliyə səbəb olmur. Məsələn, qanunvericilik sistemindəki iyerarxiya da konstitusiya hüquq münasibətlərinin obyektidir. Lakin bu iyerarxiya ayrı-ayrı orqanların, şəxslərin iradəsindən asılı deyildir və qismən müstəqil şəkildə mövcuddur. İnsanların hüquq və vəzifələri özü də konstitusiya hüququnda münasibətlərin obyekti kimi çıxış edir. Başqa sözlə, bu hüquq və vəzifələr konstitusiya hüququnda nəinki münasibətin məzmununu təşkil edir, subyektlərin obyektə münasibətdə davranış imkanlarını bildirir, həm də özü belə obyekt qismində çıxış edir və başqa hüquq və vəzifələr hesabına

subyektin təsirinə məruz qalır. Konstitusiya hüququnda obyektlər bir-biri ilə qarşılıqlı əlaqədədir və bir çox hallarda onlardan biri daha xırda obyektlər şəklində digər hüquq münasibətlərində realizə olunur. Məsələn, xalq suverenliyi konstitusion dövlətin əsaslarını təşkil edən münasibətlərin obyektidir. Eyni zamanda bu obyekt xırdalanaraq seçkilərdə bir başqa obyektə çevrilir. Seçkilər xalq suverenliyi ilə sıx bağlıdır və seçki münasibətlərinin obyekti hakimiyyətin formalaşdırılmasıdır. Referendumun obyekti xalqın iradəsini ifadə etməsidir. Bu obyekt də xalq suverenliyi ilə sıx əlaqədədir və həm seçkilər, həm də refendum xalq suverenliyindən törəyir, onun realizə formasıdır.

Konstitusiya hüquq münasibətlərinin məzmunu tərəflərin qarşılıqlı hüquq və vəzifələrini əks etdirir. Bu hüquq və vəzifələr bir-biri ilə sıx bağlıdır. Ənənəvi olaraq belə qəbul olunur ki, bir tərəfin vəzifəsi digər tərəfin hansısa bir hüququna uyğun gəlir. Məsələn, şəxsin şikayət vermək hüququna dövlət orqanının qanunla müəyyənləşdirilmiş müddətdə şikayətə baxması və ona vaxtında cavab verməsi vəzifəsi uyğun gəlir, yaxud əksinə, vətəndaşın vaxtında vergi vermək vəzifəsinə dövlət orqanının vergini tələb etmək hüququ uyğun gəlir. Bir tərəfin hüququ yalnız qarşı tərəfdə vəzifə kimi mövcud olduqda, sözün həqiqi mənasında, hüquq reallaşır. Dövlətin müəyyən şərtlərə görə pozulduğu zaman təmin etmədiyi davranış imkanı hətta hüquq adlansa belə, yalnız fiksiyadır. Göstərilən misalda vətəndaşın şikayət hüququ bir hüquq kimi ancaq o zaman əhəmiyyət daşıyır ki, dövlət orqanının ona cavab vermək vəzifəsi olsun. Əgər dövlət orqanının vətəndaşın şikayət hüququna münasibətdə hər cür reaksiya verməkdən imtina etmək imkanı olsaydı, ay-

dındır ki, o zaman vətəndaşın həmin haqqının nə onun özü üçün, nə də başqaları üçün heç bir əhəmiyyəti olmayacaqdı. Odur ki, hüquq və vəzifələr vəhdət halında mövcuddur.

Konstitusiya hüquq münasibətlərinin subyektlərinin də subyektiv hüquq və vəzifələri olur. Bu hüquq və vəzifələr müəyyən obyektə münasibətdə şəxslərin davranış imkanını bildirir və həmişə müəyyən hüquqi nəticə törədir. Məsələn, şəxsin Azərbaycan Respublikasının vətəndaşlığından çıxması onun dövlət qarşısında vətəndaşlıqdan irəli gələn hüquq və vəzifələrinin xitamına səbəb olur. Konstitusiya hüquq münasibətlərinin subyektlərinin hüquq və vəzifələri həmişə digər münasibətlərdə olduğu qədər dəqiq və konkret olmur. Məsələn, vətəndaşlıqdan irəli gələn çoxsaylı hüquq və vəzifələr bütün qanunvericilik sistemində əks olunur. Onlar daim inkişaf edir və dəyişir. Burada subyektlərin hüquq və vəzifələrini dəqiq müəyyən etmək qeyri-mümkündür. Bir sıra münasibətlərdə isə nəinki müvafiq münasibətin məzmununu, hətta subyektlərin özünü belə dəqiq müəyyən edib nəticə çıxarmaq çətindir. Məsələn, "hakimiyyətin mənbəyi xalqdır" müddəasında subyekti, onun hüquq və vəzifələrini müəyyən etmək üçün qanunvericiliyin əhatəli təhlili və analizi tələb olunur. Qanunvericilik sisteminin formalaşdırılması ilə bağlı subyektləri (dövlət orqanları), onların hüquq və vəzifələrini birmənalı olaraq müəyyən etmək çox çətindir. Məntiqi olaraq belə nəticəyə gəlmək olar ki, normativ hüquqi aktı qəbul edən bütün hakimiyyət orqanları bu münasibətlərin subyektidir. Lakin onların hüquq və vəzifələri ilə bağlı (qanunvericilik sisteminin formalaşdırılması) hər hansı norma tapmaq çətindir. Yenə də hüquqi məntiq əsasında müəyyən etmək olar ki, kons-

titusiyanın nəzərdə tutduğu tələblərə riayət etmək bu sistemin yaradılmasında iştirak edən hər bir orqanın vəzifəsidir. Bununla yanaşı, bir sıra konstitusiya hüquq münasibətlərində hər bir tərəfin hüquq və vəzifəsini dəqiq müşahidə etmək və müəyyənləşdirmək mümkündür. Məsələn, bələdiyyələrin məhkəməyə müraciət etmək hüququ mütləq cavabdehin iddiaya qarşı iddia irəli sürmək hüququnu və ya tələbini qəbul edərsə, onun ödənliməsi vəzifəsini yaradacaqdır və bu da konkret münasibətlərdə həyata keçirilir. Subyektlərin hüquq və vəzifələrində də konstitusiya hüququna xas olan iyerarxiya qaydasında çeşidlənməsi müşahidə olunur. Məsələn, seçki hüququ vətəndaşın əsas konstitusion hüquqlarından biridir. Ancaq bu hüquq seçki qanunvericiliyində bir sıra hüquqlar şəklində dəqiqləşdirilir (səsvermənin gizliliyini tələb etmək hüququ). Yaxud vətəni müdafiə borcu hərbi xidmətin keçilməsi ilə bağlı yaranan bir çox hüquqlarda çeşidlənir, dəqiqləşdirilir. Başqa bir misal: konstitusiya hüquq münasibəti Azərbaycan Respublikası Milli Məclisinin deputatının icra hakimiyyəti orqanının nümayəndəsinə sorğu göndərmək və həmin sorğuya cavab tələb etmək hüququ kimi qanunvericilikdə dəqiqləşdirilmiş formada təzahür edir.

Konstitusiya hüquq münasibətlərinin subyektləri insan və onun sosial birlikləri, o cümlədən bir sıra digər sosial reallıqlardır (xalq, dövlət və s.). Bu subyektlər digər sahələrdəki subyektlərdən bir çox xüsusiyyətləri ilə fərqlənir. Xalq bütövlükdə yalnız konstitusiya hüququnun subyektidir. Dövlət bilavasitə subyekt kimi yalnız konstitusiya hüququnda çıxış edir. İnsan bir fərd kimi sosial və biofizioloji xüsusiyyətlərindən asılı olmadan, konstitusiya hüququnun subyektidir. Başqa sahələrdə yaş (mülki hü-

quqda fəaliyyət qabiliyyəti yaşla yaranır), müxtəlif sosial-siyasi faktorlar (hərbçi siyasi fəaliyyətdə iştirak edə bilməz), əmək qabiliyyəti (əmək hüququnda) şəxsin sahə hüququ subyektliyinə kəskin müəyyənləşdirici faktorlar kimi təsir edir. Konstitusiya hüququnda subyektin sahə statusu anlayışı kifayət qədər şərtidir, çünki, məhz bu status (vətəndaşlarda) digər bütün sahə statuslarının əsasında durur. Burada əsasən subyektliyə şəxsin dövlətlə münasibətlərdə qurduğu rəsmi-hüquqi əlaqələr təsir edir. Konstitusiya hüququnda fərd eyni zamanda bir neçə konstitusiya hüquqi statusa malik ola bilər. Deputat həm Azərbaycan Respublikası Milli Məclisinin deputatı kimi, həm də Azərbaycan Respublikasının vətəndaşı kimi konstitusiya hüququnun subyektidir. Konstitusiya hüququnun subyekti kimi vətəndaş, əcnəbi və vətəndaşlığı olmayan şəxs fərqləndirilir. Vətəndaş dövlətlə siyasi - hüquqi əlaqədə olur və əcnəbilərdən və vətəndaşlığı olmayan şəxslərdən fərqli olaraq, bir sıra əlavə və daha geniş hüquq və vəzifələrə malikdir. Fərdin hüquq və azadlıqları subyektiv hüquq kimi insanın özünün bilavasitə davranışında təcəssüm edir.

Dövlət orqanları və ictimai birliklər də konstitusiya hüququnun subyektləridir. Bu subyektlərin fəaliyyətini konstitusiya hüququ, demək olar ki, bütövlükdə tənzimləyir (yaranmasından xitamına qədər). Dövlət orqanları vətəndaşlardan fərqli xüsusiyyətlərə malikdir və bu xüsusiyyətlər də onların statusu ilə bağlıdır. Dövlət orqanı ilə vətəndaşın qarşılıqlı əlaqələrinin də bir hissəsini (inzibati hüquqla tənzimlənən hissə istisna olmaqla) konstitusiya hüququ tənzimləyir. Dövlət orqanları hakimiyyəti həyata keçirir və vətəndaşlardan fərqli olaraq onlar, hakimiyyət səlahiyyətlərinə malikdir. Xalq və dövlət konstitusiya hü-

qqunun, belə demək mümkünsə, ən qlobal subyektləridir. Xalq dövlətdən fərqli olaraq, bir neçə halda birbaşa subyekt kimi konstitusiya hüquq münasibətlərində çıxış edir. Buraya, adətən, vətəndaşlar toplusunun iştirak etdiyi referendum, seçki kimi məsələlərlə bağlı hüquq münasibətləri aiddir. Bununla yanaşı, xalq konstitusiya hüququnun ən əsas subyektlərindən biridir. Xalq hakimiyyəti formalaşdırır və bütün digər münasibətlər də onun adından və onun naminə həyata keçirilir.

İnsanların sosial birlikləri - siyasi partiyalar, qeyri hökumət təşkilatları, həmkarlar ittifaqları və digər ictimai birliklər də konstitusiya hüququnun subyekti kimi çıxış edir və müəyyən xüsusiyyətlərə malikdirlər. Konstitusiya hüququ yalnız bu birliklərin siyasi tərəfini və ya sosial-siyasi tərəflərini, dövlətlə əlaqələrini tənzimləyir. Bu ictimai birliklərin əmlak dövriyyəsində iştirakı və s. məsələlər artıq konstitusiya hüququnun deyil, başqa hüquq sahələrinin predmetidir.

Konstitusiya hüquq münasibətləri müxtəlif əsaslarla qruplaşdırılır. Hüquq münasibətinin tərkib ünsürlərinin müəyyənliyindən asılı olaraq, konkret hüquq münasibətləri və ümumi xarakterli hüquq münasibətləri fərqləndirilir. Konkret hüquq münasibətlərində həm subyektlər, həm də münasibətin məzmunu məlumdur. Məsələn, impiçmentlə bağlı münasibətlərdə subyektlər (prezident, Milli Məclis, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə) və onların bir-birinə münasibətdə hüquqları və s. bəllidir. Bu münasibət konkretdir və subyektlərin davranışında hər hansı başqa vasitəyə ehtiyac olmadan realizə olunur. Bundan fərqli olaraq, ümumi xarakterli hüquq münasibətləri, adından da göründüyü kimi, ümumidir, yəni bu münasibətlərin subyekti və onların bir-birinə münasibət-

də davranış imkanları və ya hüquq və vəzifələri bəlli deyildir. Məsələn, «Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi, unitar respublikadır» müddəasından irəli gələn münasibətlərin subyektini, onların hüquq və vəzifələrini dəqiq müəyyən etmək qeyri-mümkündür. Yaxud «hakimiyyətin mənbəyi xalqdır» normasında subyekti və onun hüquq və vəzifələrini zəruri hüquq münasibəti çərçivəsində təhlil aparmadan müəyyənləşdirmək çətindir. Ümumi nizamlayıcı münasibətlər, adətən, çoxsaylı başqa hüquq münasibətləri çərçivəsində realizə olunur. Bunun üçün bütöv qanunvericilik sisteminin hazırlanması və tətbiqi tələb olunur. Məsələn, yalnız hüquqi dövlət müddəasının realizə edilməsi üçün demokratik qanunların qəbulu, bir çox hüquq müdafiə mexanizmlərinin tətbiqi, insan hüquq və azadlıqlarının müvafiq şəkildə qanunvericilikdə təsbit edilməsi və başqa tədbirlər kompleksi tələb olunur.

Bundan başqa, konstitusiya hüquq münasibətləri içərisində daimi vəziyyət münasibətləri fərqləndirilir. Bu münasibətlər ümumi və konkret münasibətlər arasında bir növ keçid mövqeyindədir. Adətən, bu münasibətlərin subyekti bəllidir (konkret münasibətələrin əlaməti), lakin onların qarşılıqlı hüquq və vəzifələri tam bəlli deyildir (ümumi xarakterli münasibətlərin əlaməti). Bu münasibətlər sabit şəkildə, dəyişmədən mövcud olur. Məsələn, vətəndaşlıq münasibətində subyektlərin vətəndaş və dövlət olduğu bəllidir, lakin onların bütün hüquq və vəzifələri tam şəkildə aydın deyildir. Şəxs doğulduğu andan (hətta ana bətnində belə) vətəndaşlıq münasibətlərinin subyektidir. Yaxud qanunvericilik sisteminin formalaşdırılması ilə əlaqədar bütün subyektlər bəllidir (ancaq dövlət orqanları), lakin onların qanunvericilyin formalaşdırıl-

ması üzrə bir-biriləri qarşısında hüquq və vəzifələri tam tərkibdə aydın deyildir.

Bundan əlavə, hüquqi nizamasalma mexanizmində yerinə yetirdiyi rola görə konstitusiya hüquq münasibətləri maddi və prosessual münasibətələrə bölünür. Maddi münasibətlər obyektlə bağlı davranış imkanının özünü ehtiva etdiyi halda, prosessual münasibətlər bu imkanın realizə olunma qaydasını təsbit edir. Yadda saxlamaq lazımdır ki, prosessual münasibətlər həmişə konkret olur. Bu da prosessual münasibətlərin xüsusiyyətlərindən irəli gəlir. Prosessual münasibətlərə konstitusiya icraatı çərçivəsində yaranan münasibətləri misal göstərmək olar.

Konstitusiya hüquq münasibətləri zaman kəsiyində davam etməsi müddətinə görə daimi və müvəqqəti münasibətlərə bölünür. Daimi münasibətlər müxtəlif faktorların təsiri altında dəyişsə də, öz mahiyyətini itirmir və uzun müddət davam edirlər. Bu münasibətlər, bir qayda olaraq, baza təşkil edən münasibətlərdir. Məsələn, vətəndaşlıq münasibəti şəxs doğulan andan yaranır və əgər şəxs onu dəyişməzsə, ömrünün sonuna qədər davam edir, hətta dəyişdiyi halda belə, bir başqa dövlətlə vətəndaşlıq münasibəti yaranır və bu münasibət şəxs ölənə qədər davam edir. Bunun əksinə, müvəqqəti münasibətlər yalnız konkret məsələlərlə bağlı olur və az müddət içərisində xitam olunur. Seçki münasibətləri buna misal ola bilər. Seçki bitdikdən sonra konkret praktikada yaranan seçki münasibətləri də xitam olunur. Bu münasibətlər heç vaxt daimi olmur.

Konstitusiya hüquq münasibətləri həm də mühafizəedici və nizamlayıcı adı ilə iki qrupa bölünür. Mühafizəedici münasibətlər mövcud obyektin hüquqazidd hərəkətlərdən qorunması ilə əlaqədar əmələ gələn münasibətlərdir.

Məsələn, konstitusiyanın 6-cı maddəsi hakimiyyətin mənimsənilməsini qadağan edir. Bu normanın tətbiqi ilə əlaqədar yaranan münasibətlər mühafizəedici münasibətlərdir. Mühafizəedici normalar göstərişlərə riayət etmək şəklində realizə olunur. Nizamlayıcı münasibətlər, əksinə, subyektin üzərinə bilavasitə müəyyən vəzifələr qoyulması və subyektlərə hüquq verərək, onları aktiv hərəkətə sövq edən və onların davranışını müəyyən etmək vasitəsilə müəyyən bir məsələnin qaydaya salınması ilə əlaqədar meydana gələn münasibətlərdir. Məsələn, hakimiyyət bölgüsü həyata keçirilərkən yaranan münasibətlər nizamlayıcı münasibətlərdir.

Hüquq münasibətləri müəyyən hüquqi faktlar əsasında yaranır, dəyişir və xitam olunur. Hüquqi faktlar konstitusiya hüququnda kifayət qədər genişdir. Buraya konkret həyati hallardan tutmuş, mücərrəd anlayışlara qədər bir çox kateqoriyalar aiddir. Məsələn, vətəndaşlıq bir hüquqi fakt kimi dövlət və şəxsin bir sıra münasibətlərini yaradır. Bu həm də onu göstərir ki, hüquqi fakt qismində bütöv hüquq münasibətinin özü də çıxış edə bilər. Bəzən konstitusiya hüquq münasibətinin yaranması, dəyişməsi və xitamı bir deyil, bir neçə hüquqi faktın baş verməsini tələb edir. Məsələn, şəxsin naturalizasiya qaydasında Azərbaycan Respublikası vətəndaşlığını əldə etməsi üçün Azərbaycan Respublikası ərazisində beş ildən artıq daimi yaşaması, Azərbaycan dilini bilməsi və qanunun nəzərdə tutduğu digər şərtlərə cavab verməsi tələb olunur. Hüquqi faktların bu çoxluğu faktiki tərkib adlanır.

II BÖLMƏ
KONSTİTUSİYA NƏZƏRİYYƏSİ

§ 1. Konstitusiyanın mahiyyəti haqqında

Konstitusiya ən yüksək hüquqi qüvvəyə malik olan və bir tərəfdən insan və cəmiyyət arasında, digər tərəfdən isə insan və dövlət arasında münasibətlərin əsaslarını nizamlayan hüquq normaları sistemidir. Bu hüquq normaları bir və ya bir neçə normativ hüquqi aktda - əsas qanunlarda cəmlənə bilər. Həmin normalar çoxsaylı normativ hüquqi aktlardan, eləcə də məhkəmə presedentlərindən və konstitusiya adətlərindən ibarət ola bilər.

Konstitusiya maddi mənada özündə yazılı aktı, aktlar məcmusunu və yaxud Konstitusiya adətlərini təcəssüm etdirir. Bu da ilk növbədə insan və vətəndaş hüquq və azadlıqlarını bəyan edir və onlara təminat verir, eləcə də konstitusiya quruluşunun əsaslarını, idarəetmə formasını və ərazi quruluşunu, mərkəzi və yerli hakimiyyət orqanlarının təşkili əsaslarını, onların səlahiyyətlərini və qarşılıqlı münasibətlərini, dövlət rəmzlərini və ölkənin paytaxtını müəyyən edir.

Lakin maddi mənada «konstitusiya» termini az işlədilir. Əksər hallarda Konstitusiya barədə formal mənada, yəni digər qanunlara münasibətdə ali hüquqi qüvvəyə malik olan qanun və ya qanunlar toplusu kimi danışılır. Belə olan halda Konstitusiya bir növ qanunların ən ali səviyyəsinə yüksəlir. Konstitusiya adi qanunların dərc olunduğu qaydada dəyişdirilə bilməz, əksinə, ona uyğun gəlməyən qanunlar və digər normativ hüquqi aktların özündə müvafiq dəyişikliklərin edilməsini tələb edir.

Konstitusiyanın maddi və formal mənada başa düşülməsi müəyyən nisbət təşkil edir, çünki Konstitusiya ölkənin Konstitusiya quruluşunun hüquqi əsasını müəyyən edir. Bu nisbət özünü aşağıda göstərilən məsələdə də təzahür etdirir: bütün dövlətlər maddi mənada Konstitusiyaya malikdir, lakin heç də hər bir dövlətdə formal mənada Konstitusiya yoxdur. Böyük Britaniya Konstitusiyası məhz birinci mənada mövcuddur. Onun normaları mövcud normaları yaradanlar tərəfindən məhz yaradıldığı qaydada dəyişdirilə bilər. Konstitusiyaya maddi mənada yalnız yuxarıda göstərilən münasibətləri tənzimləyən hüquqi normalar aiddir. Əksinə, konstitusiyalarda formal mənada sanki Konstitusiya səciyyəsinə malik olmayan münasibətləri tənzimləyən normalar da ola bilər.

Demokratik hüquqi dövlətdə Konstitusiya nəinki dövlətin, habelə xalqın dövlətçilik iradəsini, suverenliyi əks etdirən cəmiyyətin də əsas qanunudur. Konstitusiya insanın və vətəndaşın əsas hüquq və azadlıqlarını, hakimiyyətin ictimai-siyasi institutlarını və xalqın özünüidarə sistemini təsbit edir, vətəndaş cəmiyyətinin formalaşmasının və inkişafının hüquqi əsası kimi çıxış edir.

Konstitusiyanı cəmiyyətin mikromodeli, hüquqi nişanı kimi təsəvvür etmək olar. Məhz onun hüdudlarında və əsasında dövlət hakimiyyəti mexanizmi fəaliyyət göstərir, vətəndaşların hüquq və azadlıqları müdafiə olunur, ictimai inkişafın sahələri qabaqcadan müəyyənləşdirilir.

Etiraf etmək lazımdır ki, Konstitusion tənzimləmə vektoru hər halda ictimai həyata deyil, dövlət həyatı istiqamətinə daha çox meyllidir. Axı cəmiyyətin həyat fəaliyyətinin əsaslarını, iqtisadi, sosial, mədəni həyatın bütün davranış normalarını Konstitusion tənzimləmə ilə əhatə etmək çox çətindir.

Beləliklə, formal mənada Konstitusiyanın ən yüksək hüquqi qüvvəsi onda təzahür edir ki, birincisi, onun normaları digər qanunların müddəalarından və icra hakimiyyəti orqanlarının aktlarından üstündür; ikincisi, qanunlar və digər normativ aktlar Konstitusiyada nəzərdə tutulmuş orqanlar tərəfindən və Konstitusiyada müəyyən edilmiş prosedur üzrə qəbul olunur. Maddi mənada Konstitusiyanın ali hüquqi qüvvəsi ondadır ki, digər normativ hüquqi aktlar səviyyəsinə görə mahiyyət etibarilə Əsas Qanunun normalarına müvafiq olmalıdır. İstər formaca, istərsə də mahiyyətcə Konstitusiyaya zidd olan hər bir normativ hüquqi akt etibarsız hesab olunmalıdır. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin məzmununa görə, Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanlarının bütün qanunları və digər normativ hüquqi aktları Azərbaycan Respublikasının Konstitusiyası əsasında və ona müvafiq olaraq qəbul edilməlidir.

Faktiki və hüquqi konstitusiyaların nisbət dinamikası mürəkkəbdir. Hüquqi Konstitusiyanın mahiyyəti, onun məzmunu faktiki Konstitusiya ilə, cəmiyyətin və dövlətin inkişafının müxtəlif mərhələlərində sosial-iqtisadi və ictimai proseslərlə müəyyən edilir.

Hüquqi və faktiki Konstitusiyaların nisbətinin təhlili üçün Konstitusiya normalarında real formalaşmış ictimai münasibətlərin düzgün əks olunması məsələsi mühüm əhəmiyyət kəsb edir. Burada hüquqi Konstitusiya ilə müqayisədə faktiki Konstitusiyanın yalnız müəyyənləşdirici deyil, həm də qabaqlayıcı inkişafı barədə məsələ ön plana çıxır. Hüquqi Konstitusiya qəbul olunduğu vaxt formalaşan faktiki münasibətləri təsbit edir.

Hər bir Konstitusiya ən yüksək hüquqi qüvvəyə malik olan əsas qanun kimi özünün hüquqi mahiyyəti ilə bəra-

bər, sosial-siyasi mahiyyətə də malikdir. Bu da ondan ibarətdir ki, Konstitusiya qəbul olunduğu zaman özündə mövcud olan siyasi qüvvələrin nisbətini təcəssüm etdirir. Bu, necə deyərlər, cəmiyyətin müxtəlif hissələrinin siyasi mənafelərinin razılaşdırıldığı ictimai müqavilədir (əlbəttə, bu heç də hüquqi mənada müqavilə deyildir). Hər belə ictimai sinif, sosial təbəqə, ərazi, milli və digər birliklər siyasi mübarizədə öz sosial mənafeyini müdafiə edir və bu mübarizədə nail olduqları səviyyə Konstitusiyada öz əksini tapır. Belə razılıq olmayan cəmiyyətdə hüquq qaydası mövcud ola bilməz.

Lakin sovet dövrünün dövlət hüququ elmi uzun illər ərzində siyasiləşdirildiyindən və ideolojiləşdirildiyindən sovet və xarici ölkə Konstitusiyalarının təhlilinə əsasən sinfi mövqedən yanaşaraq, onları sinfi qüvvələrin nisbəti, sinfi-siyasi hökmranlığın aləti kimi səciyyələndirirdi. Belə təhlildə sinfi mənafelər ümumxalq mənafeyini, milli mənafelər ümumbəşəri mənafeyi üstələyirdi. Bu yanaşma marksizm-leninizm ideologiyasının əsaslarına söykənirdi.

Şübhəsiz, digər sosial hallar kimi, Konstitusiyaya dar sinfi yanaşma tərzi də dövlət hüququ elmini dayazlaşdırır, kasadlaşdırırdı. Ölkəmizin müasir hüquqşünaslıq elmi sosial institutların ideolojiləşdirilməsindən imtina edir. Konstitusiyaya müəyyən sinfin siyasi hakimiyyətini təsbit edən hüquqi sənəd kimi baxılması aradan qaldırılmışdır. İndi Konstitusiya - dövlət və cəmiyyətin Əsas Qanunu sinfi mənafelərin deyil, xalq mənafelərinin ifadə forması, sosial proseslərin hüquqi tənzimləyicisi, yüksək səviyyədə siyasi və hüquqi həmrəyliyin məhsulu kimi nəzərdən keçirilir. Konstitusiya hər yerdə və həmişə siyasi reallıqdan irəli gələn ictimai güzəşt deməkdir.

Azərbaycan Respublikası Konstitusiyası suverenliyi, müstəqilliyi və dövlət hakimiyyətinin aliliyini təsbit edən hüquqi təsis sənədidir. O, Konstitusiya quruluşuna sistemli baxışa əsas verir, dövlət institutları sistemində balans yaradır, Konstitusiya quruluşunun sabitliyini təmin edir.

Azərbaycan Respublikasının Konstitusiyası yalnız dövlətin təşkilini deyil, həm də qeyri-dövlət sahələrini - sosial-iqtisadi quruluşun əsaslarını, cəmiyyətin mədəni həyatını, insan və vətəndaşın hüquq, azadlıq və vəzifələrini əhatə edir. Onun tənzimləyici rolu bütün dövlət orqanizminə aiddir. Odur ki, Azərbaycan Respublikasının Konstitusiyası onun Konstitusiya quruluşunun əsaslarını, insan və vətəndaşın hüquqi statusunu, vətəndaş cəmiyyətinin əsas cəhətlərini, unitar dövlət quruluşunu, Azərbaycan Respublikasında qanunverici, icra və məhkəmə hakimiyyəti orqanlarının təşkili və fəaliyyəti prinsiplərini, yerli özünüidarəetmənin əsaslarını təsbit edir.

Bu gün respublikamızın hüquqi dövlət quruculuğu yolunu tutması onun sosial və mənəvi həyatımızda yeni, yüksək zirvələrə doğru irəliləməsindən xəbər verir. Onun hüquq sistemi kompleks sosioloji tədqiqatların və digər işlərin həyata keçirilməsini, iqtisadi və siyasi sisteimin normal fəaliyyətinin hüquqi əsasının analizini, müqayisəli-hüquqi xarakterli materiallardan istifadə olunmasını, bütövlükdə qanunvericilik prosesinin öyrənilməsini, insan hüquqları və vətəndaş azadlıqlarının real müdafiəsi üçün əsaslandırılmış tövsiyələrin işlənib hazırlanmasını nəzərdə tutur.

Xalqın hakimiyyət və qanunların icrası üzərində nəzarətinə nail olması belə bir fikir söyləməyə əsas verir ki, «müasir mədəni dövlət elə Konstitusiya dövlətidir».

§ 2. *Konstitusiya anlayışı, konstitusiyanın funksiyaları və xüsusiyyətləri*

Konstitusiya sözünün hərfi mənası «qurmaq, yaratmaq, əsasını qoymaq» deməkdir. Konstitusiya hər bir ölkədə mövcud ictimai-siyasi sistemin əsaslarını təsbit edir və bir qədər obrazlı deyilsə, «siyasi səhnədə oyun qaydalarını» müəyyən edir. Konstitusiya hakimiyyətin əldə edilməsinin sivil və ümumqəbulolunmuş yolunu müəyyənləşdirir, hakimiyyətin sosial subyektlər arasında paylanmasının əsaslarını və məqsədlərini, üsullarını müəyyən edir. Konstitusiya cəmiyyətin bütün üzvlərinin hüquqi statusunun əsasını müəyyən edir və bununla da dövlətlə fərd arasındakı əlaqələrin ümumi konturlarını cızır.

Konstitusiya bütün ölkədə norma yaradıcılığının əsaslarını, qanunvericilik sistemini formalaşdırır və bütün qanunvericilik sisteminin başında durur. Bu sistemdə yaranan boşluqlar, problemlər ilk olaraq konstitusiyanın müddəaları nəzərə alınmaqla aradan qaldırılır.

Konstitusiyanın qəbul olunmasında, təbii ki, onun universallığına bir çox siyasi qüvvələr birbaşa maraqlı olur. Ölkədəki siyasi qüvvələr onun hazırlanmasına müəyyən qədər təsir göstərir və buna görə də konstitusiya həmin konkret hal üçün ölkədə olan qüvvələr nisbətini dolayı yolla əks etdirir. Lakin demək olar ki, bu hiss olunmur, çünki konstitusion normalar siyasətdən kifayət qədər təcrid olunur. Siyasət ona deyil, əksinə, o, siyasətə təsir edir.

Konstitusiyada dövlətin daxili təşkilatlanmasının da əsasları müəyyənləşdirilir. Hakimiyyətin təşkilatlanmasında və dövlətin ərazi quruluşunun müəyyən edilməsində təzahür edən bu xüsusiyyət onu deməyə əsas verir ki,

konstitusiya dövlətin təbiətini və mahiyyətini müəyyən edir.

Konstitusiya cəmiyyət, dövlət, şəxsiyyət və kollektiv arasındakı əsas münasibətləri müəyyən edən və qanunvericlikdə ən yüksək hüquqi qüvvəyə malik normalar sistemidir. Bu normalar sistemi xüsusi müdafiə ilə təmin olunur, çünki onlar dəyişdikdə bütün sistemə təsir göstərir. Konstitusiya dövlətçilik ənənələrini bəşəriyyətin dövlət quruculuğu təcrübəsi ilə əlaqələndirən, fərdin hüquqda yerini müəyyən edən və dövlət quruluşunda sabitliyi, varisliyi təmin edən xüsusi aktdır.

Konstitusiya müxtəlif funksiyalara malikdir. Onun əsas funksiyası hüquqi funksiyadır. O, nə qədər müxtəlif sosial hadisələrlə əlaqədar olsa da, konstitusiya hüquq normaları sistemidir və bütün hüquq sisteminə xas olan tənzimləmə, qoruma funksiyalarını yerinə yetirir. O həm də qanunvericilk sistemində bütün digər normaların keyfiyyət və xarakterinin müəyyən edilməsi üçün başqa heç bir hüquqi aktın malik olmadığı funksiyanı - hüquq normalarının hüquqauyğunluğunun qiymətləndirilməsi, müəyyənləşdirilməsi funksiyasını yerinə yetirir.

Konstitusiyanın ikinci funksiyası onun sosial funksiyasıdır. Konstitusiya ölkədəki sosial təbəqələrin ortaq mənafe və maraqlarını aşkara çıxarır. O, sosial sistemin başlıca unsurlərini bir-birilə əlaqələndirir və onlara hüquq çərçivəsində davranış imkanı verir, onları təşkilatlandırır. Ailə, din kimi sosial təsisatlara, atalıq, analıq kimi sosial dəyərlərə təsir göstərərək, bütün sosial sistemdə mövcud münasibətlərə təsir edir və yeni dəyərlərin formalaşması üçün zəmin yaradır. Konstitusiya sosial sistemin sabitliyini təmin edir, onun inkişafının ümumi əsaslarını müəyyənləşdirir. Təhsil, elm kimi sosial sistemin yaşamasına

birbaşa təsir göstərən ünsürlərə dair müddəalar təsbit etməklə konstitusiya bu sistemin həyati əhəmiyyətli maraqlarının müdafiəsini öz üzərinə götürmüş olur.

Üçüncü funksiya ölkənin siyasi sistemi ilə bağlı olan siyasi funksiyadır. Konstitusiyanın bu funksiyası hakimiyyətin təşkili və dövlətin əsasları ilə birbaşa bağlıdır. Konstitusiya fərdlərin siyasi sistemdə, siyasi durumda davranış qaydalarını müəyyən edir, siyasi qüvvələrin hakimiyyəti əldə etməsinin sivil forma və üsullarını təsbit edir və nəhayət, siyasi partiyaların təşkili və fəaliyyətinin hüquqi əsasını formalaşdırır. Siyasi sistemə giriş-çıxış birbaşa konstitusiyadan asılıdır desək, yəqin ki, yanılmarıq. Siyasi sistemin əsas «oyun qaydaları» burada müəyyənləşdirilir. Məhz konstitusion normalar bütün siyasi qüvvələr üçün ümumi imperativlər müəyyən edir və siyasi sistemdə bu imperativlərə riayət olunmasına nəzarət edir.

Dördüncü funksiya tərbiyəvi funksiyadır. Bu funksiya, hər şeydən əvvəl, hər bir insanda konstitusiyaya, qanunlara, insan və vətəndaşın hüquq və azadlıqlarına və dövlətə hörmət ruhu aşılayır. O eyni zamanda müəyyən dünyagörüşünü ifadə edir.

Tərbiyəvi funksiya həm də insan-cəmiyyət-dövlət münasibətlərinin qarşılıqlı əlaqəsini və onların məsuliyyətini müəyyən etməkdə böyük rol oynayır.

Konstitusiyanın tərbiyəvi funksiyasından danışarkən "12 Noyabr - Azərbaycan Respublikasının Konstitusiyası gününün qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanını xüsusi olaraq qeyd etmək yerinə düşərdi. Bu fərmanda Azərbaycanda 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsində müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsinin Azərbaycanın milli dövlətçiliyi tarixində müstəsna əhəmiyyə-

ti nəzərə alınaraq, kütləvi informasiya vasitələrində Konstitusiyanın mahiyyətini işıqlandıran materialların dərc olunması, elm və təhsil müəssisələrində hər il Konstitusiyanın öyrənilməsi və izahı ilə bağlı elmi-nəzəri konfransların və digər tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Bütün bunların nəticəsində konstitusiyanın yalnız ona məxsus olan xüsusiyyətləri aşkara çıxır. Bu xüsusiyyətlər konstitusiyanı başqa hüquqi aktlardan fərqləndirən meyarları özündə əks etdirir və ona yüksək status verilməsinin səbəbini təşkil edir, konstitusiyanın hüquqi müdafiəsi üçün fərqli hüquqi rejimin təsbit edilməsinə, ona xüsusi diqqət yetirilməsinə səbəb olur. Harada qəbul olunmasından asılı olmayaraq, konstitusiyalarda az-çox dərəcədə əks olunan bu xüsusiyyətlərə aşağıdakılar aiddir:

1) Konstitusiyanın xüsusi subyekt - xalq tərəfindən qəbul edilməsi. Qeyd etmək lazımdır ki, konstitusiya digər üsullarla da qəbul olunur. Konstitusiya xalq tərəfindən qəbul olunsa da, bəzən yuxarıdan (mütləq monarxiyalarda) bir növ bağışlanılır. Lakin bu istisnadır və demokratik konstitusiyalar üçün xarakterik deyildir.

2) Konstitusiyanın təsisedici xarakterə malik olması. Konstitusiyalar cəmiyyət, dövlət və şəxsiyyət arasındakı əsas əlaqələrin özəyini qurur. O, əsas sosial-siyasi institutlara verilən tələbləri müəyyən etməklə onları formalaşdırır və bununla da, belə demək mümkünsə, bütün sistemin əsasını təşkil edir. O, qanunvericilik sisteminin yaradılması və dəyişdirilməsi qaydalarını, onun məzmununu müəyyən edir. Bir sözlə, konstitusiya mövcud sistemin ən əsas xüsusiyyətlərini müəyyən etməklə sistemin necə olduğunu və necə olmalı olduğunu ortaya qoyur.

3) Konstitusion nizamasalmanın hərtərəfliliyi. Göstərildiyi kimi, Konstitusiya çox geniş və mürəkkəb olan sosial-siyasi sistemin əsaslarını müəyyənləşdirir. Aydındır ki, bir sahəni əhatə etməklə konstitusiya bütün sistemi müəyyən edə bilməz. Onun bir norması bəzən bir neçə sahə üçün çıxış nöqtəsi rolunu oynayır. Məsələn, mülkiyyət hüququ bütün iqtisadi sistem üçün müstəsna əhəmiyyətə malik olmaqla onun çıxış nöqtəsini təşkil edir. Seçki sistemi siyasi sistemin əsasını təşkil edən çox mühüm elementlərdən biridir. Elə buna görə də konstitusion normalar bir çox hallarda konkret olmur və aid olduğu məsələnin ən əsas tərəflərini müəyyən edir.

4) Bu xüsusiyyətlərdən konstitusiyanın hüquqi xüsusiyyətləri törəyir. Bu hüquqi xüsusiyyətlərə konstitusiyanın aliliyi, xüsusi müdafiə rejimi və s. aiddir. Konstitusiyanın aliliyi onun normalarının bütün normalardan üstün hüquqi qüvvəyə malik olması deməkdir. Konstitusiyanın müdafiəsi digər normaların müdafiəsindən bir qədər fərqlidir. Onun müdafiə rejimi xüsusilə ciddi qaydalar nəzərdə tutur. Belə ki, konstitusiyanın qəbulu və dəyişdirilməsinin, ona əlavələr edilməsinin xüsusi qaydaları vardır. Konstitusiyanın aliliyinin təmin olunması üçün xüsusi olaraq yaradılan konstitusion orqan - Konstitusiya Məhkəməsi bütün qanunvericilik sisteminin, konstitusiya hüquq münasibətlərinin subyektlərinin fəaliyyətinin konstitusiyaya uyğunluğuna nəzarət edir.

Konstitusiyanın yuxarıda göstərilən xüsusiyyətlərindən doğan ayrıca hüquqi xassələri də mövcuddur. Bunlara *legitimlik, reallıq və stabillik* xassələri aiddir.

Konstitusiyanın legitimliyi dedikdə aşağıdakılar nəzərdə tutulur:

1. Konstitusiyanın xalq tərəfindən seçilmiş ali nümayəndəli hakimiyyət orqanı tərəfindən qəbul edilməsi.

2. Ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilməsi (Azərbaycan Respublikasının Konstitusiyası).

3. Xüsusi təsis yığıncağı tərəfindən qəbul edilməsi.

Konstitusiyanın reallıq xassəsinə aşağıdakılar daxildir:

1. Konstitusiya müddəalarının nizama saldığı ictimai münasibətlərin xarkterinə uygun gəlməsi.

2. Konkret tarixi şəraitdə tarixi, siyasi, etnoqrafik, iqtisadi xüsusiyyətlərin nəzərə alınması.

3. Konstitusiya müddəalarının sosial nəticələrini əvvəlcədən görmək (məqsəd və nəticə).

4. Konstitusiyanın real təminat verməsi.

Qeyd etdiyimiz kimi, Konstitusiyanın hüquqi xassələrindən biri də onun stabilliyidir. Konstitusiya uzun müddət üçün nəzərədə tutulan normativ hüquqi sənəd olduğuna görə o, konstitusion tənzimləmənin obyekti olan ictimai münasibətlərə məqsədyönlü təsir etməlidir. Bunun üçün cəmiyyətdə aşağıdakı şərtlərin olması zəruridir:

1. Qanunçuluq rejiminə ciddi əməl olunmalıdır.

2. Hər hansı hüquq pozuntusuna qarşı dözümsüzlük tərbiyə edilməlidir.

3. Konstitusiyanın səmərəli müdafiə mexanizmi olmalıdır.

§ 3. Konstitusiyanın hüquqi qüvvəsi

Konstitusiyanın hüquqi qüvvəsi məsələsi son illər konstitusiya hüquq elmində aktiv müzakirə olunan məsələlərdən biridir. Bu ondan irəli gəlir ki, konstitusiyanın hüquqi qüvvəsi onun xüsusiyyətlərinə görə digər aktların hüquqi qüvvəsindən fərqlənir. Hüquqi aktların qüvvəsi onların nəyə və necə, hansı dairədə tətbiq olunmasını

ifadə edir. Hüquq normaları bir sistem olduğuna görə onların tətbiqi və hüquqi qüvvəsi də bir-birindən asılıdır. Elə buna görə də hüquqda birbaşa hüquqi qüvvə və dolayı hüquqi qüvvə anlayışları vardır. Bir qayda olaraq, aktlar birbaşa hüquqi qüvvəyə malikdir. Birbaşa hüquqi qüvvə onu ifadə edir ki, aktın nəzərdə tutulmuş fakta tətbiqi üçün başqa bir akta ehtiyacı yoxdur və özü konkret hala təsir edə bilər. Başqa sözlə, birbaşa hüquqi qüvvədə hüquqi nizamasalma, sadəcə, aktın öz gücü, öz imkanları hesabına həyata keçirilir. Dolayı hüquqi qüvvə isə, əksinə, onu ifadə edir ki, aktın nəzərdə tutulmuş konkret hala tətbiqi üçün başqa hüquqi akt da olmalıdır və həmin akt olmadan onun tətbiqi qeyri-mümkündür. Burada aktın realizə olunması bir başqa aktla şərtləndiyinə görə ona dolayı hüquqi qüvvə deyilir. Dolayı hüquqi qüvvəsi olan akt ortaya çıxmış konkret halı tənzimləmək üçün bir başqa aktın olmasını tələb edir. Lakin burada aktın dolayı hüquqi qüvvəsi ilə fərdi hüquqi tənzimləməni qarışdırmaq olmaz. Ümumiyyətlə, bütün hüquq sistemi reallığa iki cür təsir edir: 1) normativ nizamasalma; 2) fərdi hüquqi nizamasalma. Fərdi hüquqi nizamasalma hüququn tətbiqi prosesinə aid olub, aktın hüquqi qüvvəsindən asılı deyil və bir çox hallarda tətbiq olunur. Fərdi hüquqi nizamasalma mərkəzləşdirilmiş qaydada, yalnız dövlət orqanları tərəfindən həyata keçirilə və ya fərdlərin özləri tərəfindən realizə oluna bilər. Məsələn, əmək müqaviləsi, mülki müqavilə fərdlərin özləri tərəfindən həyata keçirilən fərdi hüquqi nizamasalma vasitəsidir. Fərdi hüquqi nizamasalma vasitəsi qanunun tələblərini reallığa çevirmək üçün baş vermiş faktı incəliklərinə qədər tənzim edən hüququn tətbiqi mərhələsidir. İstənilən məhkəmə qərarı, hökmü fərdi hüquqi tənzimləmə vasitəsidir.

Dolayı hüquqi qüvvəyə malik olan aktın realizə olunmaq üçün fərdi hüquqi nizamasalmaya deyil, normativ hüquqi nizamasalmaya ehtiyacı olur. Başqa sözlə, dolayı hüquqi qüvvəyə malik aktın - qanunun tətbiq olunması üçün sərəncam, əmr verilməmişdən əvvəl (fərdi hüquqi nizamasalma vasitəsi) mütləq başqa bir normativ hüquqi akt verilməlidir.

Artıq qeyd etdiyimiz kimi, bütün hüquqi aktlar, bir qayda olaraq, birbaşa hüquqi qüvvəyə malik olur. Dolayı hüquqi qüvvəyə malik olma müxtəlif səbəblərdən törəyir. Bura aktın özündən, xarakterindən doğan obyektiv səbəb və onun hazırlanması zamanı yol verilən nöqsanlar aiddir. Aktın hazırlanmasında baş verən nöqsan, adətən, onda ifadə olunur ki, akt nizama salınan vasitəni hərtərəfli və kifayət qədər dəqiq nəzərdə tutmur və nəticədə həyatda yaranmış konkret hala tətbiq oluna bilmir. Başqa sözlə, akt o qədər ümumiliyə malik olur ki, bu ümumilikdən çıxış edərək konkret həyati hal haqqında heç bir real qərar qəbul etmək olmur və ya bir-birinə zidd ola bilən bir neçə qərar qəbul edilir. Bu zaman aktın özünün təbii çatışmazlıqları ucbatından onu təfsir yolu ilə də konkretləşdirmək mümkün olmur və ya təfsir yolu ilə konkretləşdirildikdə, qanundan çox kənara çıxma və yeni norma, ona zidd göstəriş yaratma təhlükəsi ortaya çıxır. Bir sıra hallarda akt özünün xüsusiyyətinə görə bu cür birbaşa tətbiq olunmaya imkan vermir. Adətən, bu hal hüquq iyerarxiyasında pillənin daha yuxarı mövqelərində qərar tutan aktlarda baş verir. Belə aktlarda məsələnin ən vacib tərəfləri nəzərə alınaraq müəyyən hal tənzim olunur, lakin sonradan bu cür hallar reallıqda o qədər konkret özünəməxsusluqlara, incəliklərə malik olur ki, qanunun, sadəcə, əsasları tənzimləyən, ümumi tərəfləri müəyyən edən

normasını nəzərə almaqla məsələni həll etmək qeyri-mümkün olur və probelmin həllinin daha da dəqiqləşdirilmiş vasitələrini özündə nəzərdə tutan yeni normaya ehtiyac yaranır. Bir qayda olaraq, bu cür problemlər əsas qanunlarda - konstitusiyalarda yaranır. Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsi (əmək hüququ) birbaşa tətbiq oluna bilər. Lakin 56-cı maddənin (seçki hüququ) birbaşa tətbiq olunması problem məsələdir, çünki seçki qanunu, seçki prosesi olmadan kimsə kiməsə səs versə belə (birbaşa hüquqi qüvvə normanın konkret hala heç bir vasitəçi olmadan tətbiqini tələb edir), onun nəticələri barədə nəsə demək qeyri-mümkün olacaqdır. Bunun üçün seçki qanunu qəbul edilməli və orada da kimin kimə, hansı şərtlərlə və necə səs verə biləcəyi və s. müəyyənləşdirilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 147-ci maddəsinə görə, konstitusiya Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malikdir. Bu o deməkdir ki, heç bir akt konstitusiyaya zidd ola bilməz və konstitusion müddəalar birbaşa praktikada tətbiq edilir. Yəni hər hansı qanunun olub-olmamasından asılı olmayaraq, vətəndaş konstitusion normaların realizə edilməsini tələb edə bilər. Konstitusiyanın əsas normaları birbaşa tətbiq olunmaq imkanına malikdir. Burada isə əsas problemlərdən biri norma-prinsiplərin birbaşa təsbit olunmasıdır.

Konstitusiyanın birbaşa tətbiqində məhkəmə hakimiyyətinin rolu xüsusilə yüksəkdir. Məhz məhkəmə pozulmuş hüquq və azadlıqları müdafiə edir və hüququn tətbiqi ilə də ən çox elə o məşğuldur.

III BÖLMƏ

DÖVLƏTİN KONSTİTUSİYA ƏSASLARI VƏ SOSİAL-HÜQUQİ MAHİYYƏTİ

Azərbaycan Respublikası Konstitusiyasının ilk bölməsi dövlət və cəmiyyətlə bağlı münasibətlərin tənzimlənməsinə həsr olunub. Burada nizama salınan münasibətlər dolayısı ilə və ya birbaşa digər sosial institutlara toxunur. Dövlət və xalq konstitusiya hüququnun əsas subyektlərindəndir. Onların hüquqi statusu da bir-birilə münasibətdə müəyyənləşir. Dövlətin bir çox keyfiyyətləri və ya cəmiyyətin bir sıra əlamətləri məhz qarşı tərəfə - dövlətə, cəmiyyətə nəzərən onu xarakterizə edir. Məsələn, hüquqi dövlət nəinki hakimiyyətlərin bölgüsündə, həm də cəmiyyətdə mövcud olan sosial təsisatların nizamlanmasında dövlətin həmin subyektlərə özünüidarəetmə imkanı verməsi ilə xarakterizə olunur (cəmiyyətə görə dövlət əlamətinin müəyyən edilməsi). Cəmiyyətin siyasi mədəniyyəti, düşüncəsi dövlətin idarə olunmasında gedən proseslərdə maraq və iştirak səviyyəsi ilə müəyyənləşir (dövlətə görə cəmiyyətin əlaməti). Totalitar dövlət sosial həyatın bütün sahələrinə müdaxilə ilə xarakterizə olunur (cəmiyyətə görə dövlətin əlaməti müəyyən olunur). Hüququn subyekti kimi insan da cəmiyyətin yetirməsidir və ondan kənarda mövcud deyildir. İnsan cəmiyyət içərisində məhz başqaları ilə münasibətdə sosial subyektdir və hüquq və vəzifələrin real daşıyıcısı kimi çıxış edir. Konstitusiya cəmiyyətin əsaslarını nizama salmaqla bir növ insanın, şəxsiyyətin yaşadığı sosial mühiti qaydaya salır və insan üçün daha müvafiq şərait yaradır. Ümumiyyətlə, dövlət və cəmiyyətin konstitusiya hüququnda nisbəti mə-

sələsi həmişə eyni olmamışdır. İlk konstitusiyalarda daha çox dövlətdən bəhs olunur, dövlət orqanlarının fəaliyyəti nizama salınırdı. Bu da həmin dövrün siyasi-hüquqi doktrinalarının inkişafı ilə bağlı idi. Bir qədər sonra cəmiyyətin üzvü qismində şəxsiyyətin hüquqları konstitusiyalarda nizamlanmağa başladı. Cəmiyyətdə baş verən proseslərin getdikcə mürəkkəbləşməsi, sinfi ziddiyyətlərin kəskinləşməsi, dövlətə təsir imkanlarının artması və s. faktorlar ona gətirib çıxardı ki, müxtəlif konstitusiyalarda artıq cəmiyyətin özünün ayrı-ayrı tərəfləri bir bütöv institut kimi nizamlanmağa başlandı. Bu cür nizamasalma əsrin əvvəllərində sinfi ziddiyyətlərin qarşısını almaq və ya marksist doktrinasının təsiri ilə cəmiyyəti tamamilə arzuolunan inkişafa yönəltmək xarakteri daşıyırdı (qərb konstitusiyalarında həmkarlar ittifaqlarının qadağan olunması, sonra meydana gələn sosialist dövlətlərinin konstitusiyalarında cəmiyyətin sinfi quruluşunun möhkəmləndirilməsi və s.). Totalitar dövlətlərin inkişafı üçün konstitusion zəmin olan bu cür normativ nizamasalma məhz keçmiş SSRİ-nin konstitusiyalarında ən yüksək inkişafa çatmışdır. Qərb dövlətlərində ikinci dünya müharibəsindən sonra qəbul olunan konstitusiyalarda az da olsa hakimiyyətin formalaşdırılması və s. ilə bağlı məsələlərdə cəmiyyətə demokratik dəyərlər baxımından yanaşılır.

Ümumiyyətlə, dövlət və cəmiyyət ilk dəfə Makiavelli tərəfindən fərqləndirildikdən sonra onlara hüquqi doktrinalarda münasibət ikiləşdi. İndi müasir dövrün sosial-siyasi həyatında dövlətin təsirinin məhdudlaşdırılmasını (yeni liberalizm) və ya onun tamamilə aradan qaldırılmasını tələb edən (anarxizm) nəzəriyyələrdən tutmuş, dövlətin təsirinin gücləndirilməsini irəli sürən (etatizm) nəzəriyyələrə qədər ən müxtəlif fikirlərə, cərəyanlara rast

gəlmək mümkündür. Müasir dövrdə dövlətin və cəmiyyətin qarşılıqlı əlaqələrinin nizamlanması meyli sosial həyatın mürəkkəbləşməsi, əhalinin dövlətə münasibətdə aktivliyinin artması, dövlət hakimiyyətinin qapalı sistemdən müxtəlif sosial institutların təsir edə biləcəyi açıq sistemə çevrilməsi, dövlət və cəmiyyətin qarşılıqlı asılılığının artması və s. ilə bağlıdır. Dövlətə yalnız gözətçi rolunu ayıran klassik liberalizmin praktiki olaraq özünü doğrultmaması (ümumdünya iqtisadi böhranı) da bu prosesin güclənməsinə təsir etmişdir.

Dövlət və cəmiyyətin qarşılıqlı münasibətlərinin konstitusiyalarda nizamlanmasının başqa bir səbəbi də onların birgə mövcudluğundadır. Bəşəriyyətin inkişafının ilkin, çox qısa mərhələsi istisna olmaqla, qalan bütün digər mərhələlərdə dövlət və cəmiyyət birgə mövcud olmuş və inkişaf etmişlər. Elə buna görədir ki, dövlətlə bağlı klassik nəzəriyyələrdə dövlətin üç əsas, atributiv əlamətlərindən biri kimi əhali çıxış edir. Daha sonralar bu üç əlamətə (ərazi, əhali, hakimiyyət) daha ikisi - suverenlik və hüquq da əlavə edilmişdir. Azərbaycan Respublikasının Konstitusiyasında da dövlət və cəmiyyət arasındakı münasibətlər məhz hər iki kateqoriyanın əsas, vacib tərəfləri nizamlanmaqla qurulur.

§ 1. Xalq hakimiyyəti

Qeyd etdiyimiz kimi, xalq konstitusiya hüququnun əsas subyektlərindən biridir. Xalqın subyekt olmasının ən bariz nümunəsi referendumda (ümumxalq səsverməsi) və seçkilərdə iştirakı və bu yolla hakimiyyəti təşkil etməsidir. Konstitusiyanın 1-ci maddəsinə görə, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır. Xalqın hakimiyyətin mənbəyi kimi

çıxış etməsi ideyası orta əsrlər Fransa inqilabı dövrlərindən gəlir. O zaman bu ideya başlıca olaraq mütləqiyyətə qarşı yönəlmişdi və mütləqiyyətin hakimiyyətə olan hüdudsuz imkanlarını qəbul etmirdi. Bu nəzəriyyənin ifrat forması J.J.Russonun əsərlərində öz əksini tapır. Onun fikrincə, xalq özü ona məxsus hakimiyyəti realizə etməlidir. Bunun üçün seçkili şuralar təşkil olunmalı və onlar da hakimiyyəti həyata keçirməlidirlər. Xalq hakimiyyətinin aliliyini qəbul edən Russo bu səbəbdən də onun təcəssümü olan qanunverici orqan üzərində icra hakimiyyətinin nəzarətini heç cür qəbul etmirdi və belə düşünürdü ki, qanunverici hakimiyyət bütün digər hakimiyyət orqanlarından yüksəkdə duraraq onları idarə etməlidir. Müasir dövrdə demokratiyanın məhək daşı sayılan bu müddəa kifayət qədər mücərrəd və ümumi olduğundan, onun realizəsi üçün bir sıra digər normaların, təşkilati mexanizmlərin müəyyən edilməsi lazım gəlir. Xalqın hakimiyyətin mənbəyi olmasını qəbul edən nəzəriyyəyə görə, xalq öz hakimiyyətini özü bilavasitə realizə etmir. Bunun üçün seçkilər vasitəsilə xalq dövlət hakimiyyətini təsis edir. Dövlət hakimiyyəti xalqdan qaynaqlandığından xalqın adından həyata keçirilir. Xalq öz hakimiyyətini seçkilər vasitəsilə təşkil edir və hakimiyyətin həyata keçirilməsi hüququnu dövlətə verir.

Azərbaycanda «xalq» anlayışı Konstitusiyanın 1-ci maddəsinin II hissəsində əks olunmuşdur. Burada göstərilir ki, «Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikasının vətəndaşlarından ibarətdir»! Göründüyü kimi, xalq anlayışı ilə vətəndaşların məcmusu üst-üstə düşür. Bu ondan irəli gəlir ki, hüquqda etnik, demoqrafik və digər əla-

mətlər əsasında xalq müəyyən edilə bilməz. Bundan başqa, xalqın bu əlamətlər əsasında müəyyənləşdirilməsi diskriminasiya demək olardı və hüquqi anlayışlara uyğun gəlməzdi. Xalqı təşkil edən vətəndaşlar eyni zamanda hüquqi kateqoriyadır. Hüquq etnik mənsubiyyətə münasibətdə neytraldır, əks təqdirdə milliyətə görə diskriminasiyadan söhbət gedə bilər. Lakin vətəndaşa münasibətdə hüquq neytral deyil və bu baxımdan xalq hüquqi mənada vətəndaşların məcmusudur.

Konstitusiyada xalqın öz hakimiyyətini realizə etməsinin ən əsas yolu kimi referendum müəyyənləşdirilir. Referendumda xalq bilavasitə hüququn subyekti kimi, həm də hakimiyyətə malik subyekti kimi öz hüququnu realizə edir. Xalqın suverenliyinin məzmunu Azərbaycan Respublikası Konstitusiyasının 2-ci maddəsində müəyyənləşdirilir (suverenlik termini alman dilində olan "souveranitat" sözündən olub tərcüməsi "ali hakimiyyət" deməkdir). Bu, sərbəst və müstəqil şəkildə öz müqəddəratını həll etmə və öz idarəçilik formasını təyin etmə hüququdur. Suverenlik xalqa məxsus olan istisnasız, onun üstünlüyündən irəli gələn bir hüquqdur. Suverenlik ilk vaxtlar J.Boden tərəfindən, qəribə də olsa, kral mütləqiyyətinin əsaslandırılması üçün istifadə olunmuş nəzəriyyədir. Suverenlik xalqın üstün mövqeyi ilə - onun hakimiyyət mənbəyi olması ilə şərtlənir. Ona görə də o öz hakimiyyətinin təşkili formasını özü müstəqil müəyyən edir. Xalqın bu cür əhəmiyyətli olan ən əsas hüququnu heç bir orqan onun adından həll etmək imkanına malik deyildir. Xalq iradəsinin belə vacib məsələdə təhrif edilməməsi üçün bu məsələnin həllində bütün xalq iştirak etməlidir. Odur ki, suverenlik hüququnun yeganə birbaşa realizə yolu referendumdur. Referendum bütün xalqın öz iradəsini birbaşa tə-

zahür etdirməsinə imkan verən üsuldur. Referendumda müxtəlif məsələlər həll oluna bilər. Lakin Azərbaycan Respublikasında aşağıdakı məsələlər yalnız referendum yolu ilə həyata keçirilə bilər:

1) Azərbaycan Respublikası Konstitusiyanın qəbul olunması və dəyişikliklər edilməsi;

2) Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi.

Konstitusiyanı qəbul etməklə xalq, hakimiyyəti təşkilatlandırır, yəni suverenlik hüququnu həyata keçirir. Sərhədləri dəyişdirməklə həmçinin xalq, dövlətinin taleyinə həlledici təsir göstərə bilər, yeni ərazilər ala və verə bilər. Xalqın təmsil olunması da xüsusi əhəmiyyətə malikdir. İş burasındadır ki, xalqı təmsil etmək, hakimiyyəti həyata keçirmək deməkdir və aydındır ki, xalq öz hakimiyyətinin kimlər tərəfindən və necə həyata keçirilməsində maraqlıdır. Buna görə də Konstitusiyada birbaşa müəyyən edilir ki, xalqın seçdiyi səlahiyyətli nümayəndələrindən başqa, heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur (Azərbaycan Respublikası Konstitusiyasının 4-cü maddəsi). Xalq adından danışmaq səlahiyyətinə birbaşa xalqdan mandat alan vəzifəli şəxslər malikdir (prezident, deputat). Hər hansı bir başqa şəkildə kimsəyə xalq adından danışmaq səlahiyyəti verilmir. Xalqın hakimiyyətini həyata keçirən xüsusi təşkilati institutlardan biri qanunverici orqan - parlamentdir. O, bilavasitə xalq tərəfindən seçilir. Bu yolla cəmiyyətdəki bütün maraq və mənafeləri təmsil edən insanların parlamentdə təmsil olunması mümkün olur. Parlament cəmiyyətin, xalqın kiçik modelidir. Xalqın iradəsini qanun şəklinə salıb, onun hakimiyyətini həyata keçirmək parlamentə həvalə edilmişdir.

Xalqın konstitusiyada təsbit olunan daha bir əlaməti onun vahidliyidir. Xalqın vahidliyi hüquqi əlamət olmaqla gündəlik mətbuatda işlədilən birlik, vahidlik anlayışından fərqlənir. Əgər tarixi-siyasi proseslərdə xalqın vahidliyi yüksək həmrəylik səviyyəsi ilə müşahidə olunursa, hüquqi mənada xalqın vahidliyi bundan asılı deyildir. Hüquqda xalqın vahidliyi vətəndaşların hüquqi statusunun əsaslarının - konstitusion hüquqi statusunun, hamı üçün eyniliyi hesabına təmin edilir. Xalq vətəndaşların məcmusu kimi başa düşüldüyündən, xalqın vahidliyi də ilk öncə vətəndaşları bir-biri ilə əlaqələndirən, onları ümumiləşdirən müəyyən hüquqi kateqoriya vasitəsilə realizə oluna bilər. Çoxsaylı mürəkkəb hüquq münasibətləri fövqündə bir-birindən fərqlənən sahə hüququ statuslarından kənarda belə vahidliyin yeganə təmin edilmə vasitəsi konstitusion hüquqi statusdur. Konstitusion hüquqi status şəxsiyyətin hüquqi statusunun əsaslarını təşkil edir və məhz o, konkret münasibətlərdə tutduğu mövqedən asılı olmayaraq, bütün vətəndaşlarda bərabərdir, fərqlənmir. Məhz konstitusion status vətəndaşlara hüquqi mənada xalq kimi baxmağa imkan verir. Çünki sosial-demoqrafik əlamətlərin əhəmiyyət daşımadığı bir hüquqi anlayışda sırf praktik nöqteyi-nəzərdən vahidliyi təmin edə bilən yeganə faktor hüquqi statusun eyniliyidir. Vahidlik istənilən xalqın əlamətidir. Dil, mədəniyyət, milli şüur ümumiliyi xalqı birləşdirən, onu bütöv kimi formalaşdıran amillərdir. Aydındır ki, hüquqi mənada da xalq vahid olmalıdır. Xalq anlayışı bilavasitə coğrafi ərazi ilə sıx bağlıdır. İstənilən xalqın vahid, bütöv bir etnos kimi özünü dərk etməsində milli şüur, dil, mədəniyyətlə yanaşı, tarixi ərazi də mühüm əhəmiyyətə malikdir və xalqın uzun əsrlər boyu fiziki-ruhi baxımdan bütövlüyü, onun kompakt bir ərazidə

yaşaması hesabına də təmin edilir. Aydındır ki, ərazi xalq üçün xüsusi əhəmiyyətə malik olan bir amildir və xalqın tarixi onunla əlaqəlidir. Onun üçün də konstitusiyanın xalqın vahidliyini əks edirən 5-ci maddəsinin II hissəsində birbaşa göstərilir ki, «Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz vətənidir». Bu vətənin qorunmasında hamı eyni dərəcədə dövlət və xalq qarşısında borcludur və hamının da bu torpağa eyni dərəcədə haqqı vardır. Xalq hakimiyyətinin mənimsənilməsi konstitusiya ilə qadağan edilir və xalqa qarşı ən ağır cinayət kimi müəyyənləşdirilir (Azərbaycan Respublikası Konstitusiyasının 6-cı maddəsi). Hakimiyyətin mənimsənilməsi o deməkdir ki, artıq hakimiyyət təyinatı üzrə deyil, şəxsi və qrup mənafelərinin realizə olunması üçün istifadə edilir. Bu isə həm dövlətin, həm də xalqın mənafelərinə ziddir və ciddi mənfi nəticələr yaradır. Bu norma müəyyən edilərkən konstitusiya tarixən özünü təsdiq etmiş belə bir aksiomdan çıxış edir ki, hakimiyyəti mənimsəmə yalnız fərdin, qrupun öz mənafeləri naminə həyata keçirilir və bunun üçün bir çox hallarda hakimiyyəti mənimsəyən fərd və ya qrup birbaşa qeyri-konstitusion üsullara əl atır (silah tətbiqi, konstitusion hakimiyyətin devrilməsi). Bundan sonra hakimiyyət özgələşir və dövlətlə xalq arasında böyük sosial dəyişmələrə aparan qarşıdurma yaranır. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 275-ci (Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər silahlı birləşmələrdən Azərbaycan xalqına və konstitusiyalı dövlət orqanlarına qarşı istifadə etmə) və 278-ci maddələri (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama) bilavasitə hakimiyyətin mənimsənilməsinə qarşı yönəlmişdir.

§ 2. Dövlətin əsasları

Dövlət siyasi sistemin əsas ünsürlərindəndir. Dövlətlə bağlı konstitusiyalarda nəzərdə tutulan normalar təkcə onunla şəxsiyyət arasındakı əlaqələri xarakterizə etmir. Bu normalar eyni zamanda dövlətin öz quruluşunu, idarəetmə formasını, onun digər xarakterik xüsusiyyətlərini müəyyən edir. Bu cür normalar dövləti xarakterizə etsə də, əslində bu normalar onun cəmiyyət və şəxsiyyətlə qarşılıqlı münasibətlərini dolayı da olsa səciyyələndirir. Bu da ondan irəli gəlir ki, dövlət, cəmiyyət və şəxsiyyət ayrılmazdır və dövlətin bir çox keyfiyyətləri məhz cəmiyyətə və şəxsiyyətə münasibət üzərində müəyyənləşir. Məsələn, despotik dövlətlərdə dövlət hakimiyyəti xalqdan özgələşir və xalqa qarşı çevrilir. Hüquqi dövlətdə isə, əksinə, şəxsiyyətin hüquqları təmin olunur, qanunun aliliyi tanınır. Göründüyü kimi, hər iki halda dövlət xalq və şəxsiyyət kateqoriyası nəzərə alınmaqla qiymətləndirilir. Bunlardan kənarda dövlət anlayışı düşünülməzdir. Ona görə də konstitusiyaların bir çoxunda dövlətin keyfiyyət əlamətləri, məhz həmin dövləti xarakterizə edən əlamətlər öz əksini tapır. Bu əlamətlər dövlətin öz quruluşunu birbaşa əks etdirir və onun şəxsiyyət və cəmiyyətlə əlaqələrinin ümumi əsaslarını dolayısı ilə də olsa göstərir. Məsələn, demokratiklik əlaməti Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsində dövləti xarakterizə edən əlamət kimi göstərilir. Lakin aydındır ki, demokratiyanın şəxsiyyətin hüquqi statusuna birbaşa aidiyyəti var və dövlət özünün demokratik olmasını göstərməklə həm də dolayı yolla şəxsiyyətlə onun arasında qurulacaq əlaqələrin ümumi prinsipini müəyyən etmiş olur. Konstitusiyanın 7-ci maddəsinin «Azərbaycan dövləti» adlanmasına baxmayaraq, II fəsildə əks olunan

hər bir norma dövlətin əsaslarını ifadə edir. Bütün digər normalar 7-ci maddəyə münasibətdə dəqiqləşdirilir və onların əsasları 7-ci maddədə ümumi, yığcam şəkildə əks olunur. Dövlətin əsasları cəmiyyət həyatının ən əsas sahələrinə dövlət münasibətini və onun siyasətini nəzərdə tutur. Cəmiyyət bir vahiddir və onun bir çox ünsürləri birbirilə sıx bağlıdır. Buna görə Konstitusiyada təsbit olunan normalar da bir-biri ilə sıx bağlıdır və onların aid olduğu konkret sferanın digər həlqələri ilə əlaqəli olduğu nəzərə alınmalıdır. Bəzən də eyni bir sahə ilə bağlı bir çox normalar nəzərdə tutulur. Bu da ondan irəli gəlir ki, sahə daxilində bir-birindən kəskin fərqlənən və dövlət üçün əhəmiyyətə malik müəyyən ünsürlər mövcuddur. Bunların konstitusiyalarda ayrıca təsbit olunması bu ünsürlərin xüsusiyyətlərinin nəzərə alınması zərurətindən doğur. Məsələn, Azərbaycan Respublikasının Konstitusiyasında dövlətin iqtisadi əsasları ilə bağlı 13-cü, 14-cü, 15-ci, 19-cu və 20-ci maddələri, dövlətin sosial əsasları ilə bağlı isə Konstitusiyanın 16-cı, 17-ci, 18-ci maddələrini göstərmək olar. Nəzərə almaq lazımdır ki, bu əsaslar bir-biri ilə sıx bağlıdır və onlar eyni zamanda həyatın bir çox başqa sahələrinin də əsaslarını müəyyən edir. Məsələn, dövlətin sosial əsasları həm də din vasitəsilə cəmiyyətdəki mənəvi sahəyə müdaxilə edir (Azərbaycan Respublikası Konstitusiyasının 18-ci maddəsi). Burada təhsillə bağlı norma da vardır, çünki təhsil mənəvi biliklərin formalaşması ilə sıx bağlıdır.

Konstitusiyanın bu fəslində dövlətin atributiv əlamətlərindən biri olan ərazinin də rejimi müəyyənləşdirilir, dövlətin siyasi-hüquqi əsasları (7-ci, 8-ci, 9-cu, 10-cu, 12-ci, 21-ci, 22-ci, 23-cü maddələr) göstərilir. Bu əsaslarda təşkilati-hüquqi və siyasi məsələlər müəyyənləşdirilir.

Nəzərə almaq lazımdır ki, dövlətin istənilən hər hansı normativ hüquqi aktda təsbit olunan əsasları, onların məzmunu və konstruksiyası inkişafın təsiri altında dəyişir və dövrün tələblərini əks etdirir. Məsələn, sosializm quruluşunun intensiv inkişaf etdiyi və «kulminasiya nöqtəsi»nə çatdığı zaman qəbul olunan sosialist konstitusiyalarında dövlətin sosial əsası marksizm nəzəriyyəsinə müvafiq şəkildə, lakin sinfi aspektdən nəzərdən keçirilirdi.

Qeyd edək ki, dövlət, cəmiyyət və şəxsiyyət arasındakı əlaqələrin ən əsas faktorlarının yığcam şəkildə konstitusiyalarda nizamlanması meyli yalnız son illərdə müşahidə olunur. Buna qədər müxtəlif dövrlərdə qəbul olunmuş konstitusiyalarda dövlətin, cəmiyyətin və şəxsiyyətin qarşılıqlı münasibətlərinin əsas faktorları, parametrləri vahid kompleks kimi nəzərdən keçirilmirdi və buna görə də birbiri ilə əlaqələndirilməmiş halda konstitusiyaların müxtəlif hissələrində təsbit edilirdi.

Dövlətin konstitusion əsasları bütün digər normalara münasibətdə ilkindir, çünki üç əsas subyektin - şəxsiyyətin, cəmiyyətin, dövlətin qarşılıqlı münasibətlərinin ən əsas, vacib parametrlərini müəyyən edir. Dövlətin əsaslarını şərti olaraq aid olduğu sahələrə görə qruplaşdırmaq olar. Belə ki, dövlətin əsaslarına hüquqi-siyasi, iqtisadi və sosial əsaslar aiddir. Əlbəttə, bu bölgü şərtidir, çünki bütün bu əsaslar bir-birindən təcrid olunmamış şəkildə, ayrılmaz əlaqədə mövcuddur.

Dövlətin hüquqi-siyasi əsaslarına dövlətin ərazisi və quruluşunu, dövlətin başçısı kimi prezidenti, dövlət hakimiyyətinin təşkili əsaslarını, əsas dövlət təsisatlarından biri kimi silahlı qüvvələri, o cümlədən beynəlxalq münasibətlərin prinsiplərini, dövlətin ali məqsədini, demokratiyanı, dünyəviliyi, dövlət dilini, paytaxt və rəmzləri aid

etmək olar. Dövlətin iqtisadi əsaslarına mülkiyyəti, pul vahidini, təbii ehtiyatları, borclara qoyulan məhdudiyyətləri göstərmək olar. Dövlətin sosial əsasları kimi ailəni, dini, sosial inkişafı göstərmək olar. Bu əsasları nəzərdə tutan normalar içərisində bəziləri əsas, digərləri isə ona münasibətdə konkretləşdirici xarakter daşıyır. Məsələn, Konstitusiyanın 16-cı maddəsində dövlətin sosial inkişafı ümumi şəkildə nəzərdə tutulur, digər normalar isə (17-ci və 18-ci maddələr) ona münasibətdə dəqiqləşdiricidir. Eləcə də 15-ci maddə dövlətin iqtisadi inkişafının əsaslarını ümumi şəklidə başlıca müddəalarla müəyyən edir, digər normalar isə (məsələn, 19-cu və 20-ci maddələr) konkretləşdiricidir. Konstitusiyanın 7-ci maddəsi isə bütün digər normalara münasibətdə əsasdır.

§ 3. Demokratiklik

Demokratiya müasir dövrdə siyasi-hüquqi fikir tarixinin ən əsas ideyalarından biridir. Kökü eramızdan əvvələ gedib çıxan demokratiya anlayışı yalnız müasir dövrdə geniş intişar tapmış, konstitusionalizmin əsas meyarlarından birinə çevrilmişdir. Bu anlayışın tarixən məzmunu da inkişaf etmiş və dəyişmişdir. İlk dəfə Fukidid tərəfindən işlədilən demokratiya anlyışı xalq hakimiyyətini ifadə edirdi (demos - xalq, kratos-hakimiyyət). Qədim yunan polislərində (şəhərlərində) bütün ictimai işlər xalq yığıncaqlarında və ya onların təşkil etdikləri xüsusi orqanlarda bilavasitə əhalinin özünün iştirakı ilə həll edildiyindən, həmin dövrdə demokratiya anlyışı bilavasitə xalq yığıncaqları vasitəsilə həyata keçirilən hakimiyyəti - ictimai işlərin azad yaşlı kişi əhali tərəfindən birgə həll edilməsini nəzərdə tuturdu. Qeyd etmək lazımdır ki, «demokratiya» anlayışı məhz qədim yunan müəlliflərinin əsərlərində ət-

raflı işlənmiş və ona müxtəlif münasibətlər əks olunmuşdu. Qədim dövr Yunanıstanı üçün demokratiyanın dövlət idarəetmə forması kimi nəzərdən keçirilməsi xarakterik idi. Qədim yunan müəllifləri tərəfindən (Aristotel, Platon) demokratiya dövlətin idarəetmə forması kimi həmişə 3 əsas idarəetmə formasından biri hesab edilirdi (aristokratiya, demokratiya, oliqarxiya). Aristotel ənənəsinin təsiri altında dövlət idarəçilik formalarını düzgün və yanlış formalara bölür və demokratiyanı da bu aspektdən qiymətləndirirdilər. Demokratiya anlayışında həmişə xalq kütlələri, çoxluq və bərabərlik nəzərə alınmışdır. Herodot demokratiyanı bərabərliyə əsaslanan dövlət hesab edirdi. Fukidid hesab edirdi ki, demokratiya vətəndaşların azlığına deyil, çoxluğuna əsaslanır. T.Hobbsun fikrincə, demokratiya elə dövlət formasıdır ki, burada ali hakimiyyət istisnasız olaraq bütün vətəndaşlara məxsusdur. Ş.L.Monteskyönün fikrincə, respublikada hakimiyyət xalqa məxsus olan zaman demokratiya da mövcud olur.

Demokratiyaya heç də bütün mütəfəkkirlərin münasibəti müsbət olmamışdır. Qədim dövrdə Sokrat yeni dövrdə isə Çörçil demokratiyanı optimal idarəetmə kimi qəbul etmirdilər. Hazırda demokratiya müxtəlif mənalarda işlədilən bir anlayışdır. Onun konkret olaraq sərhədlərini müəyyən etmək qeyri-mümkündür. Bununla belə, bu anlayışın əsas prinsipləri işlənib hazırlanıb və dünya dövlətlərinin praktikasında tətbiq olunur. Əsas demokratiya prinsiplərinə aşağıdakılar aid edilir:

1) Xalq hakimiyyətinin, xalqın suverenliyinin tanınması. Bu prinsipə görə, hakimiyyətin mənbəyi xalqdır və dövlət bu hakimiyyəti xalqın mənafeyi naminə həyata keçirir. Xalq suverenliyin daşıyıcısı kimi öz dövlətinin taleyini özü həll edir.

2) Əsas dövlət orqanlarının seçkili olması. Dövlətin əsas orqanları (qanunverici, icra) xalq tərəfindən seçilir və xalqdan mandat almayan (təyin olunan) bütün digər orqanlar seçkili orqanların nəzarəti altında olur.

3) Dövlət idarəetməsində vətəndaşların hüquq bərabərliyi. Bütün vətəndaşların dövlətin idarə olunmasında hüquqları bərabərdir. Hakimiyyət açıq sistemdir və hər bir kəs qanunla müəyyən edilmiş tələblərə cavab verdiyi təqdirdə bilavasitə dövlətin idarə olunmasında, hakimiyyətin realizə edilməsində iştirak edə bilər (Azərbaycan Respublikası Konstitusiyasının 55-ci maddəsi).

4) Əsas qərarların çoxluq tərəfindən qəbul edilməsi. Çoxluq kifayət qədər nisbi anlayışdır. Əsas məsələ qərarların qəbulu zamanı maksimum konsensusa nail olunmasıdır. Çoxluq referendumda iştirak edən geniş xalq kütlələrindən tutmuş, qanunverici orqanla məhdudlaşana qədər ən müxtəlif saylı şəxsləri əhatə edir. Qərarlar bilavasitə çoxluğun iradəsilə qəbul edilməli və xalqın fikrini, iradəsini ifadə etməlidir.

Demokratiya müxtəlif ölkələrdə fərqli şəkillərdə inkişaf etmişdir. Demokratiyanın formalaşmasına milli dövlətçilik ənənələri, milli şüur və s. faktorlar təsir edir. Bir sıra hallarda demokratiya müxtəlif nəzəriyyələrlə birləşdirilmiş və özünəməxsus hibrid yaradılmışdır. Bu xüsusilə də müəyyən ideologiyanı rəsmən qəbul edən dövlətlərə aiddir. Vaxtilə Sovet İttifaqında mövcud olan sosialist demokratiyası, bir sıra islam dövlətlərində islam demokratiyası və s. buna misal ola bilər. Demokratiya ilə bağlı vahid anlayış yoxdur. Bu anlayış dövlət formasını, rejimini, hüquqa münasibəti və s. məsələləri də özündə ehtiva edir. Bəzən demokratiyaya fərdlərin, xalqın səsvermədə etimadını qazanmaq üçün rəqabətə əsaslanan idarəetmə forması ki-

mi anlayış da verilir. Lakin yuxarıda göstərildiyi kimi, demokratiya tarixən dəyişmiş və inkişaf etmişdir. Buna görə də demokratiyadan danışarkən demokratiya haqqında tam təsəvvürün formalaşması üçün onun tarixi inkişafda keçdiyi yolu da bilmək lazımdır. Demokratiya realizə xüsusiyyətlərinə görə tarixi inkişafda aşağıdakı növlərə bölünür:

1) ibtidai demokratiya;
2) hərbi demokratiya;
3) antik demokratiya;
4) yeni dövrün klassik demokratiyası;
5) müasir demokratiya.

Nəzərə almaq lazımdır ki, bu bölgü şərtidir və tarixi-xronoloji ardıcıllığı deyil, demokratiyanın özünün inkişafındakı xüsusiyyətlərə görə ardıcıllığı əks etdirir. Demokratiya heç də hər yerdə bu sxemdə göstərilən ardıcıllıq üzrə inkişaf etməmişdir. Qədim yunanlarda antik demokratiya mövcud olan zaman Şərqi Sibirdə və bir çox türk xalqlarında onların məişətinə, həyatına uyğun olaraq hərbi demokratiya hökm sürürdü. Qərb ölkələrində artıq müasir klassik demokratiya intişar tapdığı vaxt bir çox şərq ölkələrində bu ideyalar hələ yeni-yeni əmələ gəlirdi.

İbtidai demokratiya ilkin demokratiya forması hesab olunur. Bu dövrdə, yəni qəbilə icması dövründə şəxsiyyətin, ümumiyyətlə, bir fərd kimi özünü icmadan ayırmaması, izafi məhsulun olmaması və kollektiv əməyin zəruriliyi bütün icma üzvlərini icmanın idarə olunmasında da bərabər edirdi. Hər bir icma üzvü icmanın işlərində və onun idarə olunmasında aktiv, bərabər şəkildə iştirak edirdi və icma da elə bu şəxslərin əlaqələri üzərində qurulurdu. İcmanın bütövlüyü, əmək bölgüsünün olmaması, xüsusi mülkiyyətin və izafi məhsulun olmaması ibtidai demokratiyanın mövcudluğunu saxlayan əsas amillər idi.

Qəbilələrarası əlaqələrin inkişafı, müharibələrin intensivləşməsi və qədim dövrün əsas gəlir mənbəyinə və konfliktləri həll etmə üsuluna çevrilməsi nəticəsində hərb işləri üzrə ixtisaslaşan və qəbilə işlərinin həllində daha samballı söz demək imkanına malik olan şəxslər qrupu meydana gəldi. Hərbi demokratiya zamanı demokratiya bir növ sinfiləşməyə başlayır və ilk olaraq hərbçilərin inhisarına keçirdi. Artıq qəbilə rəhbərləri daha çox hərbçilərdən seçilir və onlar həlledici şəxslərə çevrilirdilər. Hərbçilərin qənimətlərdən daha çox mənimsəməsi onların qəbilə icmasında mövqeyini daha da gücləndirirdi.

Hərbi demokratiyanın ardınca qədim Afinada meydana çıxmış antik demokratiya gəlir. Antik demokratiya həm də Romada mövcud olmuşdur. Antik demokratiya müxtəlif formalarda inkişaf etmiş institutlara malik olması, demokratiyanın kollektivizmi və birbaşa olması, o cümlədən onun tədricən kəskin sinfiləşməsi ilə fərqlənir. Qədim Afinada bütün xalq yığıncaq vasitəsilə şəhərdaxili məsələləri həll edir və vəzifəli şəxsləri seçirdi. Burada fərdi mənafe şəhər mənafeyindən ayrılmırdı. Solon islahatları ilə (e. ə. 594-cü il) antik demokratiya getdikcə sinifləşdi və aşağı təbəqələrin dövlətin idarə edilməsi prosesində iştirakı məhdudlaşdırıldı. Qədim Romada demokratiya sosial təbəqələr (patrisilər və plebeylər) arasındakı ziddiyyətlərin nəticəsi kimi meydana gəlmişdir. Burada konsul hökmdar hakimiyyətini, senat aristokratiya hakimiyyətini, plebey tribunları isə xalq hakimiyyətini ifadə edirdi. Göründüyü kimi, qədim Romada demokratiya ayrı-ayrı sosial təbəqələrin təşkilatlanması və onlar arasında kompromisə nail olmanın nəticəsi kimi ortaya çıxmışdı. Antik demokratiyanın birbaşa olması, yəni insanların birbaşa iştirakı

ilə həyata keçirilməsi xüsusilə də Afinada çoxluğun despotiyasına yol açmağa başladı.

Orta əsrlər dövrünün qərb ölkələrində mütləqiyyətin inkişafı, mərkəzləşmiş dövlətlərin güclənməsi və kilsənin mənəvi həyata total nəzarəti demokratiyanın idarəetmə forması kimi itməsinə səbəb oldu. Yalnız intibah dövründən başlayaraq şəxsiyyətin müstəqilləşməsi, sekulyarizasiya və antik dövr irsinə marağın artması yenidən demokratiya anlayışını ortaya atdı.

Yeni dövrün klassik demokratiyası liberalizm nəzəriyyəsinin təsiri ilə formalaşdı. Bu dövrdə şəxsiyyət əsas diqqət mərkəzində olduğuna görə demokatiya anlayışında da, hər şeydən öncə, şəxsiyyətin azadlığı, onun hüquq və azadlıqları ön plana çıxırdı. Burada fərdin maraqları cəmiyyətin və dövlətin maraqlarından üstün hesab olunurdu. Liberal demokratiyanın əsas xüsusiyyətləri bundan ibarət idi ki, burada xalq hakimiyyətin mənbəyi kimi tanınsa da, bilavasitə iqtisadi kateqoriyalar, mülkiyyət vasitəsilə müəyyən olunur və əmlaka malik olanlar xalq kimi qəbul olunurdu. Bu da ona gətirib çıxarırdı ki, klassik demokratiya daha çox sosial təbəqələrdən birinə məxsus demokratiya idi. Şəxsiyyətin azadlıqları hər cəhdlə təmin olunur, dövlətin ictimai həyata müdaxiləsi isə minimuma endirilirdi. Klassik demorkatiya dövründə hakimiyyət bölgüsünün real olaraq işləməsi üçün zəruri olan mexanizm - çəkindirmə və tarazlaşdırma mexanizmi yarandı və hakimiyyət bölgüsü real olaraq güclü siyasi-hüquqi təsisatlardan birinə çevrildi.

Müasir dövrdə cəmiyyətin və dövlətin inkişafı, onların əlaqələrinin keyfiyyətcə dəyişməsi demokratiya haqqında fikirlərin də dəyişməsinə gətirib çıxardı. Demokratiya geniş anlayış olduğundan, onunla bağlı anlayışlar da bir-birindən kəskin fərqlənir və bəzən də ziddiyyət təşkil edir

Hələ vaxtilə ABŞ Konstitusiyasının yaradıcılarından olan C.Medison siyasi həyatın sabitliyini cəmiyyətdə bərqəqar olan mənafe qruplarının say çoxluğu ilə birbaşa əlaqələndirirdi. Onun fikrincə, bütün ictimai qruplar öz maraqlarını adekvat şəkildə cəmiyyətdə üzə çıxara, əks etdirə bilsələr, təşkilatlana bilsələr siyasi həyatda bir o qədər də sabitlik olacaqdır, çünki boğulmuş və deməli, hər an partlayışa hazır mənafe qrupları olmayacaqdır. Medisonun fikrincə, siyasi həyatda mütləq çoxluğun mənafeyi hesabına azlığın fikir və mənafeyini boğmaqdansa, ümumi, despotik kollektivizmdən əl çəkib, bütün mənafelərin və mənafe qruplarının eyni dərəcədə fəaliyyət göstərə bildiyi, ortaq maraqlar üzərində duran dövlət qurmaq daha yaxşıdır. Bu fikirlər antik demokratiyanın kollektivizmindən yeni dövrün liberal demokratiyasını kəskin fərqləndirən ən əsas müddəaya çevrildi (azlıqda qalanların haqqı çoxluq tərəfindən tapdalanmamalıdır). Bu fikirlər əsasında da sonradan yeni plüralist demokratiya nəzəriyyəsi formalaşdı.

Plüralist demokratiya nəzəriyyəsinə görə, siyasi sistemin əsas qüvvəsi mənafe qruplarıdır. Fərd öz mənafelərini aid olduğu mənafe qrupu daxilində daha dolğun realizə edir. Çünki mənafe qrupunun ayrı-ayrı fərdlərdən fərqli olaraq, hakimiyyətə təzyiq imkanları daha realdır. Çoxsaylı mənafe qruplarının olduğu cəmiyyətdə hakimiyyət uğrunda qruplararası mübarizə onları neytrallaşdırır və hakimiyyətin hər hansı sosial qrup tərəfindən mənimsənilməsi şansı azalır. Dövlət bu qruplar arasında barışdırıcı funksiyasını yerinə yetirir və məhz onun fəaliyyəti sahəsində bütün mənafelərin ortaq məxrəcə gətirilməsi, ümummilli mənafeyin formalaşması baş verir. Plüralist demokratiyanın əsas xüsusiyyətlərini yığcam şəkildə aşağıdakı kimi ifadə etmək olar:

- mənafe qrupları demokratiyanın və siyasi sistemin əsas hərəkətverici qüvvəsidir;
- mənafe qrupları arasında mübarizədə ümummilli mənafe formalaşır (bütün mənafelərdəki ortaq, ümumi məsələlər hesabına);
- demokratik hakimiyyətin sabitliyi və gücü bilavasitə mənafe qrupları arasındakı mübarizənin nəticəsi kimi ortaya çıxır;
- mənafelərarası ortaq məxrəcin tapılmasında dövlət əsas rol oynadığına görə onun rolu güclənir;
- sosial hakimiyyətin müxtəlif növləri (siyasi, iqtisadi) ayrı-ayrı qruplar arasında paylanır;
- mənafe qruplarının daxili təşkilatlanması üzvlərin iradəsini adekvat şəkildə əks etdirir.

Plüralist demokratiya cəmiyyətdəki mənafe qruplarının hamısını güc mərkəzi (reallığın əksinə) kimi qəbul edir və onların imkanlarındakı müxtəlifliyi nəzərə almır. Şəxsiyyət burada ikinci amil rolunu oynayır. Odur ki, reallıqda plüralist demokratiya nəzəriyyəsinin tətbiqi heç də həmişə müsbət nəticələr vermir. Bəzən cəmiyyətin barışmaz mənafeli qruplara parçalanması nəinki onun inkişafına pis təsir edir, həm də daha güclü mənafe qrupları imkanca zəif qrupları əzərək hakimiyyətə təsiri öz əlinə alır. Nəticədə isə, ümumi iradə bütün qrupların deyil, yalnız güclülərin mənafe uzlaşdırması kimi ortaya çıxır.

Daha bir demokratiya nəzəriyyəsi reprezentativ nəzəriyyə və onun nisbətən ifrat forması olan elitar demokratiya nəzəriyyəsidir. Reprezentativ demokratiya nəzəriyyəsi demokratiyanın təşkilatlanmasına və xalq - demokratiya münasibətlərinə diqqət yetirir. Bu nəzəriyyədə xalq hakimiyyəti anlayışı və çoxluğun iradəsi anlayışları bir-birindən fərqləndirilir və onlar bir-birinə qarşı qoyulur.

Bu nəzəriyyəyə görə, demokratiyanı həyata keçirmək üçün mütləq ciddi qurulmuş təşkilat strukturları gərəkdir. Xalq özü nə fiziki (say çoxluğuna görə), nə də intellektual-mənəvi baxımdan (bilik səviyyəsi, kütlənin aşağı səviyyəli olması) demokratiyanı həyata keçirə bilməz. Bunun üçün ən yaxşı yol xalqı adekvat şəkildə təmsil edən təşkilatların yaradılması və onların da xalq üçün demokratiyanı həyata keçirməsidir. Xalq öz hakimiyyətini əsasən seçkilər və referendum yolu ilə birbaşa gerçəkləşdirir və onun iradəsinin seçdiyi adamlar tərəfindən necə həyata keçirilməsinə nəzarət edir. Parlament demokratiyası reprezentativ demokratiyanın təzahür formasıdır.

Reprezentativ demokratiya nəzəriyyəsinin növlərindən biri olan elitar demokratiya nəzəriyyəsi iki qola bölünür. Birinci qol demokratiyanın realizə edilməsi zamanı xalqı bu prosesdən qismən kənarlaşdırmağı nəzərdə tutur. Bu qolun təmsilçilərinin fikrincə, xalq özü bilavasitə idarəçiliklə məşğul ola bilməz və bunun üçün zəruri biliyə malik deyildir. Xalq öz idarəetməsini peşəkarlara (elitaya) həvalə etməli və vaxtaşırı seçkilər yolu ilə onların tərkibinə nəzarət etməlidir. Demokratiya, bu fikrə görə, idarəetmənin həyata keçirilməsinə birbaşa təsir mexanizmi deyil və yalnız elitanın formalaşdırılmasında, ona nəzarətdə təzahür edir. İkinci qol isə xalqı irrasional kütlə kimi qəbul edir və onu demokratiyanın realizə edilməsindən tamamilə kənarlaşdırır. Xalqın irrasionallığını qəbul edən elitaristlər belə bir fikir irəli sürürlər ki, xalqı aldadıb idarə etmək, onun etibarını qazanmaq və son nəticədə bundan sui-istifadə edib despotiya qurmaq mümkündür. Bu halda elita kütlə ilə dövlət arasında əlaqələndirici rolunda çıxış edir və onların qarşılıqlı olaraq bir-birinin maraqlarını ödəməsini həyata keçirir.

XX əsrin 50-ci illərində şəxsiyyətin aktivləşməsi ilə partisipiar demokratiya nəzəriyyəsi meydana çıxdı. Bu nəzəriyyə xalqın rassionallığını qəbul edir və şəxsiyyətin həyatın bütün sahələrində muxtariyyatını ön plana çəkir. Bu nəzəriyyəyə görə, demokratiyanın təşkili bilavasitə şəxsiyyətin özünürealizə imkanlarından və dövlət tərəfindən necə təmin edilməsindən asılıdır. Bunun üçün də insanların siyasi mədəniyyəti və aktivliyi maksimum artırılmalı və xalqın siyasi proseslərə daimi marağı olmalıdır. Burada siyasi aktivlik demokratiyanın bərqərar olması və saxlanması üçün stimul rolunu oynayır.

Göründüyü kimi, demokratiya ilə bağlı bir-birindən kəskin fərqlənən müxtəlif məziyyətlər mövcuddur. Demokratiya, sadəcə, dövlət quruluşundan və qanunlardan asılı deyildir. Demokratiya bundan daha çox məhz xalqın milli şüuru, siyasi mədəniyyəti, dövlətçilik ənənələri ilə sıx bağlıdır. İnsanlara demokratik qanunlar vermək olar, lakin insanlar demokratiyanın nə olduğunu, onun mahiyyətini və öz mənafeləri ilə bağlı olduğunu anlamayana qədər qanunun göstərişləri, sadəcə olaraq, kağız üzərində qalacaqdır. Odur ki, istənilən dövlətdə demokratiya qurulması üçün uzun illər tələb olunur ki, həmin müddətdə xalqda özünüidarəetmə vərdişləri formalaşsın. Bu gün insan hüquqları, hüquqi dövlət, vətəndaş cəmiyyəti, hakimiyyət bölgüsü demokratiyanı ifadə edir və artıq onun tərkib hissəsinə çevrilmişdir. Qeyd etmək yerinə düşərdi ki, Azərbaycan Respublikasının Konstitusiyası məhz bu fundamental prinsiplərə söykənir.

§ 4. Hüquqilik

Hüquqilik əlaməti hüquqi dövlət nəzəriyyəsindən irəli gəlir. Hal-hazırda dünyanın bir çox dövlətlərinin konstitu-

siyalarında əks olunan bu nəzəriyyə dövlət və şəxsiyyət arasındakı əlaqələrin məzmununu nəzərdə tutur. Hüquqi dövlət nəzəriyyəsi ortaya tam şəkildə təxminən XX əsrin əvvələrində çıxsa da, kökü qədim yunan şəhər-polislərinə gedir. Bu nəzəriyyə şəxsiyyətin hüquq və azadlıqlarının tanınmasına, onun müstəqilliyinə maksimum zəmanət verilməsinə əsaslanır. Şəxsiyyət və dövlət arasında bu cür qarşılıqlı əlaqələrin ümumi əsaslarının konstitusiyada nəzərdə tutulması ona əsaslanır ki, müasir dövrdə həm dövlət, həm də şəxsiyyət bir-birindən qarşılıqlı şəkildə asılıdırlar və onların bir-birinə münasibəti son nəticədə hər ikisinin inkişafına əsaslı təsir edir. Elə buna görə də demokratik dövlətlərdə şəxsiyyətin inkişafına maksimum şərait yaradılır. Çünki insan resurslarının inkişafı dövlətin özünün inkişafı deməkdir. İnsanların inkişafdan qalması, cəmiyyətin sabitliyinin pozulması dövlətin özü üçün də problemdir. Buna səbəb isə odur ki, dövlət, cəmiyyət və şəxsiyyət iç-içə yaşayırlar, onların təcrid edilməsi qeyri-mümkündür. Dövlətin əsas əlamətlərindən birinin də əhali olmasını nəzərə alsaq, o zaman deyilənlər aydın olar.

Hüquqi dövlət ideyası daim insan hüquq və azadlıqları ilə sıx şəkildə bağlı olmuşdur. Hüquqi dövlət ideyası birdən-birə inkişaf etməmişdir. Bunun üçün zəruri şərait olmuş, sosial amillər meydana gəlmişdir. Qədim Yunanıstanda dövlət daha çox idarəetmə forması aspektindən nəzərdən keçirilirdi və cəmiyyət-dövlət-şəxsiyyət əlaqələri də bu aspektdən qoyulurdu. Burada dövlətin idarəetmə formasından asılı olaraq, dövlət bir halda aristokratların, başqa halda isə çoxluğun dövləti hesab olunurdu. Qədim yunan polislərində dövlət haqqında təsəvvürlər antik demokratiya ilə sıx əlaqəli idi. Bu dövrdə hələ şəxsiyyət müstəqilləşmədiyindən və fərdi mənafe ümumi mənafe-

dən ayrılmadığından, dövlətin əsas vəzifəsi kimi bütün cəmiyyət üzvlərinin mənafeyinin təmin olunması qəbul olunurdu. Buna görə də optimal və ya qədim mütəfəkkirlərin dediyi kimi, düzgün idarəetmə formasına malik dövlətdən bəhs olunduqda, ilk olaraq ümumi mənafenin təmin olunması imkanları araşdırılırdı. Lakin N.Makiavelli tərəfindən dövlət və cəmiyyətin bir-birindən fəqləndirilməsi, intibah dövrü dövlətinə və onun təşkilinə, habelə dövlət-şəxsiyyət əlaqələrinin inkişafına təkan verdi. Yeni yaranmış sosial təbəqə - kapitalistlər, ənənəvi dövlət-şəxsiyyət əlaqəsindən (dövlət-təbəə) razı deyildilər və bunun nəticəsi kimi yeni əlaqələrin axtarışı başlandı. Gücü bilavasitə dövlətə və onun məcburetmə aparatına, torpağa söykənməyən, özünün iqtisadi imkanlarını və müstəqilliyini irəli çəkən yeni təbəqə intellektuallarının axtarışları nəticəsində hüquqi dövlətin əsasını təşkil edən fikirlər meydana gəlməyə başladı. Bu fikirlər fransız inqilabçı-maarifçilərinin ideyalarında, ingilis mütəfəkkirlərinin düşüncələrində əks olunurdu. H.Hrotsi müharibə və sülh haqqında əsər yazaraq insanlara anadangəlmə məxsus olan, onların təbiətindən doğan hüquqları əsaslandırmağa çalışdı. İnsanların və cəmiyyətin dövlətə qədər təbii hakimiyyətə malik olmasını iddia edən mütəfəkkirlər (T.Hobbs, C.Lokk, Ş.L.Monteskyö, J.J.Russo və başqaları) dövlətə münasibətdə insanların üsyan etmək hüququna, ayrılmaz hüquq və azadlıqlara dövlətin məcburən riayət etməsi vəzifəsinə gəlib çıxırdılar. Bu dövrün əsas fikir axınları mütləqiyyətə qarşı yönəldiyindən və aparıcı sosial təbəqənin - burjuaziyanın təsiri altında formalaşdığından, dövlətin sosial həyata müdaxiləsi minimuma endirilir, əvəzində şəxsiyyətin müstəqilliyi şişirdilirdi. Belə qəbul olunurdu ki, cəmiyyət özü-özünü tənzimləmə me-

xanizminə malikdir və dövlətin işi yalnız insanları mühafizə etmək olmalıdır. Məsələn, C.Lokkun fikrincə, dövlətin işi yalnız mülkiyyəti mühafizə etməkdir. Daha əvvəllər isə T.Peyn belə fikir irəli sürmüşdü ki, cəmiyyət özü hökumətin edə biləcəyi hər şeyi edə bilər. Bu dövrdə dövlət və şəxsiyyət qarşı-qaşıya qoyulur və dövlətin ictimai həyata müdaxiləsinin zəruriliyi inkar edilirdi.

Kapitalizmin inkişafında baş verən iki ümumdünya böhranı dövlət və cəmiyyət arasındakı əlaqələrə yenidən baxılmasına gətirib çıxardı. Şəxsiyyətin həyatına müdaxilə etməməklə dövlətin zəruri nizamasalmanı həyata keçirmək üçün cəmiyyətə müdaxiləsi tanınmağa başlandı. Məhz buradan da bilavasitə hüquqi dövlət nəzəriyyəsi başlayır. Nəticədə, bir çox nəzəriyyələrə dövrün tələbinə uyğun dəyişikliklər edildi. Nəzərə almaq lazımdır ki, hüquqi dövlət nəzəriyyəsinin bir çox müddəaları fərqli nəzəriyyələrdə işlənmiş və fərqli dövrlərdə də təşkilati-hüquqi realizə formasını tapmışdır. Məsələn, bu gün hüquqi dövlətin əsaslarından biri olan hakimiyyətin bölünərək təşkil olunması prinsipi hakimiyyət bölgüsü nəzəriyyəsi çərçivəsində işlənmişdir. Hakimiyyət bölgüsü nəzəriyyəsinin praktikada tətbiqi üçün müstəsna əhəmiyyətə malik olan çəkindirmə və tarazlaşdırma (təşkilat-hüquqi realizə mexanizmi) sistemi isə bir qədər sonra ABŞ Konstitusiyası ilə bərqərar olmuşdur.

Hüquqi dövlət şəxsiyyət və dövlətin qarşılıqlı əlaqələrini və asılılığını qəbul edən və nəinki şəxsiyyətin, eləcə də özünün inkişafı üçün fərdin inkişafında maraqlı olan dövlətdir. Bunun üçün də o, hüquq və azadlıqların aliliyini qəbul etmək, onları təmin etmək hesabına şəxsiyyətə maksimum azadlıq verir, onun özünürealizəsinə imkan yaradır. Hüquqi dövlətin ümumiliyi, mücərrəd anlayış ol-

ması onun praktikada realizə edilməsini çətinləşdirir. Əlamətləri yığcam şəkildə konstitusiyada təsbit etməklə biz dövlətə formal olaraq hüquqi dövlət deyə bilərik, lakin onun həqiqi hüquqi dövlət olması üçün geniş iqtisadi imkanları, yüksək siyasi mədəniyyəti olmalıdır. Hüquqi dövlət nəzəriyyəsinin kifayət qədər ümumiliyi müxtəlif dövlətlər tərəfindən onun fərqli konstruksiyalarda realizə olunmasına səbəb olmuşdur. Hər halda, hüquqi dövlətin aşağıdakı əlamətlərini ayırmaq olar:

1) insan hüquq və azadlıqlarının anadangəlmə və ayrılmaz olmasının qəbul edilməsi (Azərbaycan Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsi);

2) hüququn, yaxud hüquqi qanunun aliliyi;

3) şəxsiyyətin hüquqlarının təmin olunması;

4) demokratik konstitusiyanın mövcudluğu;

5) hakimiyyət bölgüsü;

6) xalqın hakimiyyətin mənbəyi kimi tanınması;

7) müstəqil məhkəmə hakimiyyətinin mövcudluğu.

Nəzərə almaq lazımdır ki, hüquqi dövlət birdən-birə yaranmır və ziddiyyətli, tədrici inkişaf prosesidir. Hüquqilik əlaməti həm də dövlət hakimiyyətinin məhdudlaşdırılmasını şərtləndirir (Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin II hissəsi). Dövlət hakimiyyətinin məhdudlaşdırılması onun özbaşınalığının qarşısını almaq üçündür və hüququn aliliyi onda təzahür edir ki, dövlət hakimiyyəti məhz hüquq vasitəsilə məhdudlaşdırılır. Bu, faktiki olaraq o deməkdir ki, dövlət özünün qanunvericilik sistemində pozitiv hüquq şəklinə saldığı normalara tabe olmalıdır və onlar vətəndaşlar üçün məcburi olduğu qədər də dövlət üçün məcburidir. Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin II hissəsinə görə, dövlət hakimiyyəti daxili məsələlərdə ylnız hüquqla, xa-

rici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə məhdudlaşır. Dövlət konkret münasibətlərdə hüquqa söykənir və onun tələblərini rəhbər tutur. Buradan görünür ki, hüquqi dövlətdə hüquq dövlət və şəxsiyyəti bir-biri ilə əlaqələndirən, onlar arasında mübahisələri həll edən başlıca sosial tənzimləyicidir. Hüquq həyatın hər bir sahəsində dövlət hakimiyyətinin hərəkət həddini, onun insanlara münasibətdə sərbəst davranışının hüdudlarını müəyyən edir. Dövlətin əlində imkan olsa belə, vətəndaşların hüququnun pozulması səbəbindən hər hansı bir hərəkətin edilməsinə hüquq imkan vermir və hakimiyyət də həmin göstərişə tabe olmalıdır. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 63-cü maddəsinin IV hissəsinə görə, «ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz». Əgər müvafiq prosessual qaydalara əməl etmədən dövlət orqanı qeyri-qanuni gizli qulaqasma qurğuları və s. vasitələr hesabına işin həlli üçün sübutlar əldə edərsə, həmin işdə bu sübutlara istinad edilməyəcəkdir, çünki sübut vətəndaşların hüququnun pozulması üsulu ilə əldə olunmuşdur (Azərbaycan Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsi və 32-ci maddəsi ilə nəzərdə tutulan şəxsi toxunulmazlıq hüququ). Dövlət hakimiyyəti orqanının ona məxsus hakimiyyət statusundan, imkanından istifadə edərək iş üçün vacib ola biləcək faktı qeyri-qanuni üsulla əldə etməsi, vətəndaşın hüququnu pozaraq əldə etdiyi faktı sübut kimi qəbul etməsi praktiki cəhətdən mümkündür, lakin hakimiyyət orqanının belə «işgüzarlığı»nın ilk növbədə konstitusiyaya zidd olması Konstitusiyanın 63-cü maddəsində birbaşa göstərilmişdir. Burada hüquq faktiki olaraq dövlət hakimiyyətinin imkanını və-

təndaşın xeyrinə məhdudlaşdırır. Hakimiyyətin öz imkanlarından insanın xeyrinə sui-istifadəsinin qarşısının alınması hüquqi dövlətə xas əlamətdir.

Beynəlxalq hüquqda nisbi suverenlik nəzəriyyəsinə görə, dövlət istəsə də, tam, mütləq suveren ola bilməz. Hər bir dövlətin suverenliyi digər dövlətin onun suverenliyinə qəsd etməməsi hesabına təmin olunur və buna görə də dövlətin öz suverenliyinin qismən məhdudlaşdırılması onun özünün xeyrinədir. İqtisadi və digər əlaqələr müasir dünyada mütləq suverenliyi qeyri-mümkün edir. Azərbaycan Respublikası özünün tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəlikləri «pacta sunt servanda» prinsipi əsasında icra etməlidir. Bundan başqa, beynəlxalq hüququn *«jus cogens»* normaları da var ki, onlara riayət etmək dövlətlərin iradəsindən asılı deyil və hər bir dövlət bu normaları özünün fəaliyyətində rəhbər tutmalıdır.

§ 5. Dünyəvilik

Dünyəvilik hal-hazırda demokratik dövlətin əsas əlamətlərindən biridir. Dünyəvilik din ilə dövlət arasındakı münasibətləri ifadə edir. Dünyəvilik geniş bir kateqoriyadır və onu birmənalı olaraq nə dövlətin sosial, nə də siyasi-hüquqi əsasına aid etmək olmaz. Odur ki, burada bəhs edilən məsələlər dövlətin siyasi problemlərinə aid olduğu qədər, həm də sosial problemlərinə aiddir. Nəyə görə dövlət din ilə münasibətini konstitusion nizamlanma səviyyəsinə qaldırır? Tarixi inkişafda daim din dövlətlə yanaşı olmuşdur. Bu xüsusilə də şərqdə özünü açıq büruzə verir. Din ilə dövlətin vahidliyi onda əks olunurdu ki, dövlət hakimiyyəti ilahi mənşəyə malik olan bir güc kimi qəbul olunurdu. Din intibah dövrünə qədər istənilən dövrdə alternativi olmayan mənəvi bilik mənbəyi, insan-

lara təsir vasitəsi olmuşdur. Hakimiyyətin sabitliyi qayğısına qalan hökmran sosial təbəqələr dinin bu xüsusiyyətindən istifadə etmişlər.

Qədim dövrlərdə din və dövlət, sadəcə, birgə mövcud idi. Hammurapinin öz hakimiyyətini allahdan alması, Misirdə Fironun eyni zamanda allah hesab olunması, qədim Çində imperatorun allah oğlu olması hakimiyyəti ilahiləşdirmək cəhdindən başqa bir şey deyildi və din ilə dövlətin vahildiyinin ən bariz göstəricisi idi. Daha sonralar meydana çıxan və güclü təşkilati quruluşa malik olan dinlər dövlətdən qismən ayrılsa da, yenə də dövlət üzərində güclü təsirini saxlayırdı (xristianlıq və islam). İntibah dövründə və ona qədər din dövlət hakimiyyəti hesabına insanların mənəvi həyatına müdaxilə edir və nəticədə nəinki cəmiyyətin mənəvi həyatında durğunluq yaranırdı, həm də dövlətə qarşı mənfi münasibət formalaşırdı. Fikir və söz azadlığının yayılması, şəxsiyyətin müstəqilləşməsi və dövlətin total, fərdin həyatına nəzarət edən dövlətdən sosial-hüquqi dövlətə çevrilməsi son nəticədə din ilə dövlətin iki fərqli təyinata malik sosial orqanizmlər kimi bir-birindən ayrılmasına səbəb oldu. Əsrlər boyu davam edən bu prosesdə din dövlət hakimiyyəti üzərində təsirini itirdisə də, cəmiyyətdə təsirini itirmədi və bu gün də din istənilən cəmiyyətin əxlaqi-mənəvi dəyərlərinin tənzimləyicisi, bu dəyərlərin nəsildən-nəslə ötürülməsinin əsas vəsiləsi rolunda çıxış edir. Dinin xüsusilə güclü olduğu cəmiyyətlərdə din nəinki sosial-əxlaqi məsələlərdə, eləcə də dindən kənarda qalan bir çox digər məsələlərdə həlledici rola malikdir.

Tarix səhnəsinə inkişaf etmiş və özünü dərk etmiş millətlər çıxana qədər din əsas sosial identifikasiya vasitəsi idi. Yəni onlar bir-birinə olan münasibətlərini eyni bir

millətə, dövlətə aidiyyət üzərində deyil, ilk olaraq eyni bir dinə aid olub-olmamaq üzərində qururdular. Din cəmiyyətin vahidliyini təmin edən əsas vasitələrdən biridir və aydındır ki, cəmiyyət üzərində bu cür təsir potensialına malik olan vasitə dövlətin diqqətindən kənarda qala bilməz. Din öz-özlüyündə deyil, yalnız cəmiyyətə təsir baxımından dövlət üçün əhəmiyyətə malikdir. Məsələnin başqa tərəfi də vardır. Tarixən din və vicdan azadlığı, fikir müstəqilliyi bir yerdə nəzərdən keçirilib və dövlətin müxtəlif dinlərə neytral olması şəxsiyyətin vicdan azadlığının təmin edilməsinin bir tərəfidir. Lakin dinlərə neytral olan dövlətdə şəxsiyyət istədiyi dinə etiqad edə və etməyə bilər, dini təbliğatla məşğul ola bilər (Azərbaycan Respublikası Konstitusiyasının 18-ci və 48-ci maddələri).

Hüquqi aspektdən dinlə dövlətin ayrılması - dünyəvilik onu ifadə edir ki, dövlətin rəsmi qəbul olunmuş dini ideologiyası olmur, dövlət orqanlarının işində və təşkilatlanmasında din iştirak etmir, təhsil din ilə bağlı olmur. Din xadimləri dövlət orqanlarına dini nümayəndələr kimi deyil, yalnız adi vətənaşlar kimi seçilə bilərlər. Dini aidiyyətinə görə heç kəsə üstünlük verilmir. Dövlət bütün dinlərə eyni meyarlardan yanaşır və onların hamısı üçün eyni fəaliyyət şərtləri yaradır. Konstitusiyanın 18-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasında din dövlətdən ayrıdır və bütün dini etiqadlar qanun qarşısında bərabərdir. Yəni onların hər hansı birinə yüksək status verilməsi qeyri-mümkündür. Eyni zamanda konstitusiya nəzərə alır ki, hər bir sosial hadisənin ikinci - mənfi tərəfi də vardır. Elə buna görə də konstitusiya insanpərvərlik prinsiplərinə zidd olan dini cərəyanların yayılmasını qadağan edir. Dinin insanpərvərliyə zidd olması meyarları isə cari qanunvericilikdə və praktikada müəyyən edilmə-

lidir. Bu dinlər cəmiyyəti parçalayır və münaqişələrə səbəb olur. Dövlətin təhsil sisteminin dindən ayrı olması onu ifadə edir ki, dünyəvi təhsil müəssisələrində dini təhsil verilməsi məcburi deyildir və təhsil dini konsepsiyalara söykənmir.

Dünyəvi dövlətin əksini teokratik dövlət təşkil edir. Teokratik dövlətdə, məsələn, Vatikanda din birbaşa dövlət hakimiyyəti ilə qovuşuqdur. Dinin dövlət hakimiyyətinə tam qarışmadığı, lakin rəsmi dinin olduğu və dinin dövlət orqanlarının fəaliyyətinə müxtəlif qanuni yollarla təsir etdiyi dövlətə klerikal dövlət deyilir (məsələn, İran İslam Respublikası, Pakistan İslam Respublikası). Dini faktor bir sıra dünyəvi dövlətlərdə belə, o qədər güclüdür ki, bu dövlətlər dünyəvi olmalarına baxmayaraq, dinlərdən birinə konstitusion status verir. Yunanıstanda şərqi pravoslav kilsəsi, Böyük Britaniyada anqlikan kilsəsi buna misal ola bilər. Livanda isə dini faktor hətta dövlət quruculuğunda əks olunur. Burada cəmiyyətin bərabər sayda ayrı-ayrı dinlərə bölünməsi uzun müddətli vətəndaş müharibəsinə səbəb olmuşdur. Ona görə də Livan Konstitusiyasına görə, dövlət başçısı xristian-maronit, baş nazir müsəlman-sünni, parlamentin sədri müsəlman-şiə, parlamentin yarısı mütləq xristian və s. olmalıdır. Göründüyü kimi, dini faktor zəruri hallarda dövlət quruculuğuna belə obyektiv olaraq təsir edir.

§ 6. Unitarizm

Hər bir dövlətdə hakimiyyət, sadəcə, orqanların timsalında öz funksiyaları olan nəhəng aparat kimi qurulmur. Nəzərə almaq lazımdır ki, istənilən dövlətin maddi əsası onun ərazisidir. Hər bir dövlət müəyyən ərazidə yaranır və fəaliyyət göstərir. Ərazi amili, onun həcmi və fiziki

yerləşməsi həmin dövlətin inkişafına təsir edən, onun beynəlxalq arenada yerini müəyyən edən əsas faktorlardandır. Hakimiyyət də müvafiq olaraq dövlətin bütün ərazisində fəaliyyət göstərir, nəhəng dövlət aparatının tamam fərqli yerlərdə baş verən hadisələrə dərhal reaksiya verməsini təmin edir. Bu hakimiyyətin ərazi cəhətdən təşkili hesabına başa gəlir. Dövlət hakimiyyəti iki formada təşkil olunur: 1) hakimiyyətin təbii funksiyalar üzrə daxilən təşkilatlanması; 2) hakimiyyətin dövlətin ərazi amili üzərində, ərazi üzrə təşkilatlanması. Dövlət hakimiyyətinin hər iki şəkildə təşkili zərurətdən doğur. Hakimiyyətin məzmunu - onun funksiyaları, bu funksiyaların daşıyıcıları və onlar arasındakı münasibətlərin müəyyən edilməməsi hakimiyyətin həyata keçirilməsini çətinləşdirir və nəticədə problemlər yaranır. Eləcə də hakimiyyətin dövlət ərazisində təşkilatlandırılmaması dövlətin özü, hakimiyyət və bütün cəmiyyət üçün problemlər yaradır. Hakimiyyət, sadəcə olaraq, mərkəzdə qurulub bütün yerlərə göstəriş verə bilməz. O bütün əraziyə nəzarət etmək, göstərişlərin hər yerdə lazımi səviyyədə icrasına nail olmaq və bir çox digər vacib məsələləri yerinə yetirmək üçün ərazilər üzrə də təşkilatlanmalıdır. Məsələn, hakimiyyətin ərazi cəhətdən təşkili hesabına iqtisadi rayonlaşdırma məsələsi həll edilir. Ərazi üzrə təşkilatlanma həm də siyasi problemdir. Bu zaman bir çox amillər və təşkilatlandırmanın mümkün nəticələri ərazi bölgüsündə nəzərə alınmalıdır. Real olaraq hakimiyyətin ərazi cəhətdən təşkili dövlət ərazisinin müəyyən ərazi vahidlərinə bölünməsində və bu ərazi vahidləri ilə mərkəzi hakimiyyət arasındakı münasibətlərdə təzahür edir. Başqa sözlə, hakimiyyətin ərazi cəhətdən təşkili bir bütöv kimi dövlətin özüylə, mərkəzi hakimiyyətlə regionlar, yerlər arasındakı

əlaqənin təşkilidir. Burada bütöv dövlət simasında mərkəzi hakimiyyət, regionlar, yerlər, ərazi vahidləri qismində isə müəyyən fiziki ərazi hədləri ilə bir-birindən ayrılmış və yalnız onun üçün ayrılmış ərazidə fəaliyyət göstərən yerli hakimiyyət orqanları çıxış edir. Hər bir ərazi vahidi mərkəzə münasibətdə bütöv əlahiddə subyekt kimi çıxış edir. Hakimiyyətin ərazi cəhətdən təşkili onun suverenliyini şərtləndirən ən əsas əlamətin - hakimiyyətin *bütün dövlət ərazisində üstünlüyünü və hər yerdə vətəndaşların ona tabe olmasını* gerçəkləşdirən yeganə vasitədir. Çünki yalnız dövlətin bütün ərazisi boyunca müəyyən bir sistem şəklində təşkil olunmuş mərkəzi hakimiyyət bu xüsusiyyətləri həyata keçirə bilər. Hakimiyyətin ərazi təşkilinin 2 əsas növü vardır:

1) federalizm;

2) unitarizm.

Birinci quruluşu həyata keçirən dövlət federal dövlət, ikinci quruluşu gerçəkləşdirən dövlət isə unitar dövlət adlanır.

Hər iki sistem özü də müəyyən növlərə ayrılır. Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinə görə, Azərbaycan Respublikası unitar dövlətdir. Lakin unitarizmin mahiyyətini başa düşmək üçün onu mütləq müqayisəli şəkildə, federalizmlə birgə nəzərdən keçirmək lazımdır. Federalizm hakimiyyətin ərazi cəhətdən elə təşkilidir ki, burada dövlətin ərazi vahidləri dövlətəbənzər qurumlar şəklində olur. Bu dövlətəbənzər qurumlar federasiya subyektləri adlanır və mərkəzə münasibətdə unitar dövlətlərdə olan müəyyən müstəqillik xüsusiyyətlərinə malik olurlar. Bu qurumların dövlətəbənzərliyi onda təzahür edir ki, hər bir federasiya subyektinin, adətən, öz konstitusiyası və ali hakimiyyət orqanları, öz qanunverici-

liyi olur və daxili məsələlərdə geniş müstəqilliyə malikdirlər. Federal dövlətlərdə hakimiyyətin ikili bölgüsü gedir. Şaquli bölgü - yuxarıdan aşağıya səlahiyyətlərin müxtəlif səviyyədə duran orqanlar arasında paylanması və hakimiyyətin üfüqi bölgüsü - federasiya və federasiya subyektlərinin hakimiyyət orqanları arasında səlahiyyətlərin bölgüsü. ABŞ, Rusiya Federasiyası, Almaniya Federativ Respublikası və s. dövlətlər federal quruluşa malikdir. Federal dövlətlərdə federasiyanın federasiya subyektinin işinə qarışması üçün xüsusi vasitələr olur (federal intervensiya, birbaşa prezident idarəetməsi və s.). Müdaxilə yalnız zəruri əsaslar olduqda baş verir.

Unitar dövlətlərdə dövlət ərazisi mərkəzdən birbaşa asılı olan inzibati-ərazi vahidlərinə bölünür. Bu ərazi qurumları birbaşa mərkəzdən formlaşdırılır və ya mərkəzin daimi və güclü nəzarəti altında olur, daxili məsələlərdə müstəqil deyildir və özünün qanunvericiliyi, xüsusi orqanları yoxdur. Lakin nəzərə almaq lazımdır ki, bu əlamətlər kifayət qədər ümumidir və mürəkkəb dünyada bəzən bu təsnifata tam cavab verməyən hallara da rast gəlmək olur. Məsələn, Hindistan federativ dövlətdir, lakin heç də bütün ştatların öz konstitusiyası yoxdur. Böyük Britaniya unitar dövlətdir, lakin onun tərkibində Şotlandiya, Uels və Şimali İrlandiya kimi ayrıca qanunvericilik, icra və məhkəmə sistemi olan qurumlar vardır. İspaniya və İtaliya ümumiyyətlə yeni növə, regionalist dövlət tipinə aid edilir. Unitar dövlətlərdə yerli hakimiyyət orqanları mərkəzdən formalaşdırılır və maliyyələşdirilir, onların beynəlxalq münasibətlərə, bir qayda olaraq, birbaşa çıxış imkanı yoxdur. Federasiyalarda isə, əksinə, federasiya subyektlərinin hakimiyyət orqanları, adətən, əhali tərəfindən seçilir və onların özünün büdcəsi olur, zəruri hallarda

beynəlxalq münasibətlərdə subyekt kimi çıxış edə bilər. Məsələn, Rusiya Federasiyası ilə Tatarıstan Respublikası arasında bağlanmış müqaviləyə görə, Tatarıstanın səlahiyyətləri genişləndirilmiş və Tatarıstan başqa dövlətlərdə öz nümayəndəliklərini açmaq imkanı əldə etmişdir.

Unitar dövlətlərdə ərazi vahidlərinin formalaşması ilə əlaqədar Qərbdə müəyyən ənənədən gələn təbii və süni ərazi vahidləri nəzəriyyəsi vardır. Bu nəzəriyyəyə görə, bəzi ərazilərdə təbii yolla inkişaf faktorlarının təsiri nəticəsində əlahiddələşmə getmiş və burda təbii yolla dövlət öz ərazisini yenidən təşkil edənə qədər artıq müəyyən ərazi vahidi yaranmışdır. Bu nəzəriyyənin yerlərdə özünüidarəetmənin təşkili zamanı əhəmiyyəti vardır. Belə ki, təbii yolla yaranan təbii ərazi vahidlərinin əhalisi üçün yerli özünüidarəetmə haqqı daha tez tanınır. Unitar dövlət yerlərdə hakimiyyətin kim tərəfindən təşkili ilə əlaqədar iki növə bölünür: mərkəzləşdirilmiş unitar dövlət və mərkəzləşdirilməmiş unitar dövlət.

Mərkəzləşdirilmiş unitar dövlətlərdə yerli hakimiyyət orqanları ancaq mərkəzdən formalaşdırılır. Mərkəzləşdirilməmiş unitar dövlətlərdə isə yerli orqanlar əhali tərəfindən təşkil olunur. Bir sıra dövlətlərdə qarışıq növə rast gəlmək olur, yəni hakimiyyət orqanları həm mərkəzdən təşkil olunur, həm də əhali seçki yolu ilə özünüidarəetməni formalaşdırır. Tərkibindəki ərazi vahidlərinin hüquqi statusuna görə unitar dövlətlər mürəkkəb və sadə olur. Sadə unitar dövlətlərin bütün əraziləri statusca bərabərdir, yəni hamısı inzibati ərazi vahididir. Mürəkkəb unitar dövlətlərdə isə bəzi ərazi vahidləri muxtariyyata malikdir, yəni başqa ərazilərdən fərqli olaraq, daxili işlərdə və bəzi məsələlərdə müstəqilliyi vardır (məsələn, Naxçıvan Muxtar Respublikası). Bundan əlavə, bütün ərazisi mux-

tar qurumlardan ibarət dövlətlər də vardır. Ərazinin tamamilə muxtar qurumlardan ibarət olması onları keyfiyyətcə yeni dövlət kimi fərqləndirir. Bu cür dövlətlər bir növ federal dövlətlə unitar dövlət arasında keçid mövqeyində dururlar. Onların ərazi vahidləri unitar dövlətlərdə olan ərazilərdən daha çox müəyyən müstəqilliyə malikdir, lakin bu müstəqillik federasiya subyektlərinin müstəqilliyindən azdır (məsələn, İtaliya, İspaniya). Dövlət hakimiyyətinin ərazi cəhətdən təşkilinin (dövlətin ərazi quruluşunun) müəyyən faktorlardan birbaşa asılılığı vardır. Ərazi üzrə hakimiyyətin təşkilinə dövlətin tarixi dövlətçilik ənənələri, ərazinin böyüklüyü, milli-etnik tərkib və s. təsir göstərir. Məsələn, ərazisi böyük olan çoxsaylı xalqların yaşadığı dövlətlərdə, adətən, federalizm quruluşu əsas götürülür. Hətta belə dövlət federasiya olmasa belə, orada, bir qayda olaraq, muxtariyyat olur (Çin). Belə dövlətlərdə federasiya həm xalqların özünü qismən müstəqil hiss etməsinə və milli separatizmin qarşısını almağa, o cümlədən idarəetmə resurslarının qənaətlə paylanmasına səbəb olur. Bu halda mərkəzi hakimiyyətin böyük əraziyə güclü nəzarəti kimi çətin vəzifəsi nəzarət səlahiyyətlərinin paylanması hesabına yüngülləşir. Bir qayda olaraq, federasiya federasiya subyektlərinin özünə təsir etməyə imkan verən səlahiyyətləri öz əlində saxlayır (maliyyə, vergi, ərazinin yenidən təşkili, silahlı qüvvələr yaratma və s.) və bunun hesabına federasiya subyektləri daxilində bir çox təşkilati məsələlərdən azad olur. Unitar dövlət, adətən, nisbətən kiçik əraziləri olan dövlətlərdə, mərkəzi hakimiyyətin daim güclü olduğu ölkələrdə, milli-etnik tərkibi monolit olan və ya azsaylı xalqların yaşadığı ərazilərdə təşkil olunur. Ölkənin ayrı-ayrı regionlarının iqtisadi inkişaf yekcinsliyi də unitarizmi formalaşdıran əsas

amillərdəndir. Azərbaycan Respublikası hakimiyyətin ərazi cəhətdən təşkilinə görə mürəkkəb unitar dövlətdir.

§ 7. Dövlətin hüquq və azadlıqlara münasibəti

Dövlətin siyasi-hüquqi əsaslarından biri də onun insan hüquq və azadlıqlarına münasibətidir. Hüquq və azadlıqlar bu gün şəxsiyyətin sosial rolunu müəyyən edən və onu bir sosial subyekt kimi qavramağa imkan verən əsas kateqoriyadır. İnsan hüquq və azadlıqları vasitəsilə şəxsiyyət cəmiyyətdə müəyyən davranış imkanına - azadlığına malik olur. Dövlətin hüquq və azadlıqlara münasibət bildirməsi onun insan müstəqiliyyinə birbaşa münasibəti deməkdir. Hüquq və azadlıq həm cəmiyyətin, həm də dövlətin tanıdığı sosial azadlıq ölçüsü, insanın sosial subyekt kimi ən əsas və nüfuzlu özünüifadə vasitəsi olduğundan dövlət məhz hüquqa birbaşa münasibətini bildirir və onunla bağlı müəyyən təminatlar nəzərdə tutur. Hüquq dövlətin insanla danışdığı və insanın dövlətlə ünsiyyətdə olduğu yeganə dildir. Hüquq və azadlıqlar müasir hüquq elminin ən əhəmiyyətli nailiyyətidir. Müasir sivil dövlətlərin hüquq sistemi ilk öncə insan hüquq və azadlıqlarının inkişafı və qorunması aspektindən qiymətləndirilir. Hüquq və azadlıqlar hüquq sisteminin nüvəsini təşkil edir. Ümumiyyətlə, qədim dövrlərdən indiyə qədər hüquq haqqında müxtəlif nəzəriyyələr mövcud olmuş və bu gün də bir-birindən fərqli nəzəriyyələr yaranmaqda davam edir. Hüquq, hər şeydən öncə, ictimai münasibətləri nizamlama, qaydaya salma vasitəsidir. İctimai münasibətlər müxtəlif maddi və mənəvi dəyərlərin istifadəsi ilə əlaqədar yaranan əlaqələrdir. Bu əlaqələrdə müxtəlif insanların davranışı, hərəkətləri, əməlləri, bir-biri ilə, qarşı tərəfin davranışını nəzərə almaqla təzahür edir. Bu davranışlarda

dövlətin, fərdin, cəmiyyətin iradəsi bir-biri ilə uzlaşdırılmış şəkildə ortaya çıxır. İnsan cəmiyyətin ona verdiyi sərbəstlik, müstəqillik çərçivəsində arzu etdiyi kimi hərəkət edir. Qarşıya qoyulmuş məqsəddən asılı olaraq, bu münasibətlərdə insan davranışları dəyişir, inkişaf edir. Hüquq bu ictmai münasibətlərdə qaydasızlığın yaranmaması üçün onlara müəyyən təsir edir. Hüququn bu təsiri cəmiyyətin və fərdin xeyrinədir. Çünki bu yolla hüquq həm fərd, həm də cəmiyyət üçün arzuolunan ortaq nöqtəni tapır. Hüquq bu münasibətlərdə hər iki tərəfin mənafeyinin lazımi səviyyədə təzahür etməsinə imkan yaradır. Hər iki tərəf üçün məcburi göstərişlər müəyyən etməklə hüquq tərəflər arasındakı münasibətlərin qaydaya düşməsini təmin edir. İctimai münasibətləri yalnız hüquq nizamlamır. Cəmiyyətdə hüquqla yanaşı, ona alternativ olan digər sosial nizamasalma vasitələri də mövcuddur. Sosial nizamasalma vasitələri insanların cəmiyyət içində davranışını, onların bir-birilə əlaqələrini, cəmiyyətdəki qarşılıqlı əlaqələrdə davranış normasını müəyyən edən vasitələrdir. Lakin hər bir sosial nizamasalma vaistəsinin özünəməxsusluğu vardır. Hüquqdan başqa, əxlaq və din də sosial nizamasalma vasitəsidir. Hər bir nizamasalma vasitəsi öz göstərişlərinin insanlar tərəfindən yerinə yetirilməsi üçün təmin etmə üsullarına malikdir. Məsələn, əxlaq insanların vicdanına, onların öz davranışlarına olan tənqidi münasibətlərinə söykənərək realizə olunur (müəyyən hərəkəti etmək əxlaqsızlıqdır, yaxud bu hərəkəti etsən, çox pis adam olarsan və s.). Din, əksinə, insanların allaha olan inamından bir növ məcburiyyət vasitəsi kimi istifadə edir (filan əməl günahdır, etsən, cəhənnəmdə yanarsan). Hüquq bütün bu nizamasalma vasitələrindən fərqli olaraq, dövlətin gücünə, onun məcburetmə

vasitələrinə əsaslanır. Bu əlamət hüququn əsas əlamətlərindəndir və onun nüfuzunu müəyyən edir. Digər heç bir nizamasalma vasitəsi dövlət tərəfindən bu cür birbaşa və daim dəstəklənmir. Hüququn qoyduğu göstərişlər pozulduqda, onların məcburən icrasını dövlət öz məcburetmə aparatı hesabına təmin edir.

Hüququn başqa əlamətləri də vardır. Hüquq, hər şeydən əvvəl, normadır, yəni qaydadır. Hüququn göstərişləri konkret şəxslərin iradəsindən asılı deyil, onlar hamı üçün nəzərdə tutulub və müvafiq hallar olduqda dəfələrlə tətbiq olunur. Bu normaların pozulması dövlətin məcburetmə gücünün tətbiq olunması ilə nəticələnir. Hüquq həm də formallıq əlamətinə malikdir. Hüquq dövlətin rəsmi aktlarında (qanun, qərar, fərman və s.) əks olunur, dəqiqləşmiş şəkildə təzahür edir. Hüquq ictimai münasibətləri nizamasalma vasitəsi olmaqdan əlavə, həm də insanların öz mənafeyinin cəmiyyətin qəbul etdiyi şəkildə realizə etməsinə imkan verən vasitədir. İnsanlar öz hüquqları vasitəsilə öz tələbatlarını ödəyir, öz iradələrini realizə edirlər. Bu mənada hüquq həm də şəxsiyyətin sosial təzahürü üsuludur. Yəni hüquq şəxsiyyətə özünü digər insanlarla əlaqələrdə ifadə etməyə imkan verən bir üsuldur. Bununla bağlı olaraq hüquq fərdin və cəmiyyətin mənafeyini özündə tarazlaşdırır. Fərd üçün davranış hədlərini müəyyən edən hüquq həm də azadlıq ölçüsüdür. Bu hədlər çərçivəsində fərd istədiyini edə bilər. Hüququn bu cür mürəkkəb anlayış olması hüquqla bağlı fərqli nəzəriyyələrin əmələ gəlməsinə gətirib çıxarmışdır. Əsasən iki nəzəriyyə mövcuddur: 1) təbii hüquq nəzəriyyəsi; 2) pozitiv hüquq nəzəriyyəsi. Təbii hüquq nəzəriyyəsinin başlıca müddəasına görə, hüquq obyektiv olaraq (nə fərdin, nə də dövlətin iradəsindən asılı olmayaraq) mövcuddur. Dövlət onu qanuna

gətirməlidir. Hüquq ayrılmazdır və hər insana doğulduğu andan verilir. Pozitiv hüquq nəzəriyyəsinə görə, hüquq obyektiv olaraq mövcud deyil, onu ancaq dövlət yaradır. Hüquq dövlətin qanunlarda və digər normativ hüquqi aktlarda nəzərdə tutduğu normalar sistemidir. Dövlət istədiyi vaxt vətəndaşdan hüququ geri ala bilər. Hər bir nəzəriyyənin özünün də daxilində saysız-hesabsız istiqamətlər mövcuddur. Bəzi müəlliflər isə vaxtilə hüququn hətta normativ olmasını belə inkar etmişlər (Amerika sosiolji hüquq məktəbi-Paund məktəbi). Lakin hal-hazırda hüquq özündə hər iki nəzəriyyənin müddəalarını birləşdirir. Təbii hüquq (qanunda yazılmamış hüquq) dövlət və cəmiyyət münasibətlərində qanunvericilikdə nəzərdə tutulana qədər dövlət tərəfindən tanınmır və müdafiə olunmur. Deməli, hüququn ən əsas əlamətlərindən olan dövlət müdafiəsi təbii hüquqda olmur. Eyni zamanda pozitiv hüquq da (qanunda yazılan hüquq) insanların hüquq haqda əsrlər boyu formalaşmış rasional təsəvvürlərinə uyğun gəlmədikdə işləmir və cəmiyyət onu qəbul etmir, deməli, hüquq qeyri-demokratik olur.

Hüquq insana daha çox iradəsi vasitəsilə təsir edir. Şüura birbaşa təsir edib onu müəyyən etmək (düşüncəni proqnozlaşdırmaq) qeyri-mümkündür. Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsindən göründüyü kimi, subyekt qismində insan və vətəndaş müəyyən edilir. İnsanla vətəndaş bir-birinə münasibətdə cins-növ anlayışları kimidirlər. Bütün vətəndaşlar insandır, lakin vətəndaş olmayan insanlar da vardır. Vətəndaş dövlətlə şəxs arasındakı münasibətləri ifadə edir. Vətəndaş olan insan vətəndaşı olduğu dövlət qarşısında vətəndaşlığı olmayandan fərqli olaraq, müəyyən vəzifələrə malikdir. Dövlət bir sıra hüquqların ancaq vətəndaşlara məxsus olduğunu tanıyır

(səsvermə, dövlətin idarə olunmasında iştirak). Bu mənada konstitusiya vətəndaşı və insanı bir-birindən fərqləndirir. Dövlətin ali məqsədi kimi hüquq və azadlıqların təmin edilməsi ona verinlən qiyməti ifadə edir. Ümumiyyətlə, məqsəd heç də hər bir dövlətə və konstitusiyaya məxsus deyildir. Məqsəd qoyulması, adətən, yeni konstitusiyalar və sosializm ölkələri üçün xarakterik idi. Məqsəd bir növ perspektivi nəzərdə tutur. Dövlətin daim can atdığı və təmin etməyə çalışdığı, bütün münasibətlərdə üstün mövqedə olan bir kateqoriya kimi insan hüquq və azadlıqları onun diqqət mərkəzində olmalıdır. Hüquq və azadlıqların təmin edilməsinin məqsəd kimi seçilməsi də təsadüfi deyildir. Cəmiyyətin tam rifahı, sabitliyi üçün şəxsiyyətin hüquq və azadlıqlarının təmin olunması vacibdir. Dövlət hüquqla ikitərəfli əlaqədədir. Bir tərəfdən dövlətin özü hüquqa söykənməlidir. Hüquqa söykənməyən dövlət legitim dövlət deyildir. Bu mənada dövlət hüquqa möhtacdır. Çünki hüquq bir növ dövlətin cəmiyyətlə danışdığı "dil"-dir. Digər tərəfdən də, hüququn dövlətə ehtiyacı vardır. Dövlətin tanımadığı və təmin etmədiyi normalar sistemi hüquq olmaq keyfiyyətini əsaslı şəkildə itirir. Başqa tərəfdən, hüquq şəxsiyyətin müstəqilliyini təmin edən əsas vasitələrdən biridir. Şəxsiyyətin tam müstəqilliyi və inkişafı dövlətin də tam müstəqilliyi və inkişafı demək olduğundan, dövlət şəxsiyyətin inkişafına imkan yaradacaq bütün vasitələri təmin edir. Burada dövlət şəxsiyyətin hüquq və azadlıqlarını ən yüksək dəyər elan etməklə özünün də sabitliyi və inkişafı üçün şərait yaradır. Hüquq və azadlıqların ən ali dəyər kimi tanınmasının nəzəri əsası hüquqi dövlət anlayışı ilə əlaqədardır. Hüquqi dövlət vətəndaş hüquqlarını hər şeydən üstün tutan, bu hüquq və azadlıqları təmin edən dövlətdir. Məhz bu mənada Azərbaycan

Respublikası hüquqi dövlətdir və Konstitusiyanın 12-ci maddəsi bu amala xidmət edir.

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin II hissəsində hüquq və azadlıqların beynəlxaq aktlara uyğun tətbiq olunması gösətərilir. İkinci dünya müharibəsindən sonra insan hüquqları problemi dövlətlərin daxili işi olmaqdan çıxmış və beynəlxalq ictimaiyyətin problelmlərindən birinə çevrilmişdir. İnsan hüquq və azadlqıları ilə əlaqədar çoxlu beynəlxalq aktlar qəbul olunmuşdur. Bu aktlar özündə insanın hüquq və azadlıqları ilə bağlı standartları əks etdirir. Ona görə də dövlətin daxilində hüquq və azadlıqların bu beynəlxalq aktlara uyğun tətbiq eilməsi onların lazımi səviyyədə olmasına işarədir. Məhz bu məqsədlə də konstitusiyada hüquq və azadlıqlarla bağlı normaların beynəlxalq müqavilələrə uyğun tətbiq olunması nəzərdə tutulur. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycanın da qoşulduğu və üzərinə müqaviləyə uyğun öhdəliklər götürdüyü müqavilələri bildirir. Dövlətin tərəfdar çıxmadığı müqaviləyə görə hər hansı öhdəliyi yoxdur. Beynəlxalq müqavilələrə uyğun tətbiqetmə nəinki normativ hüquqi aktların uyğunluğunu, həm də qəbul olunan qanunların beynəlxalq aktlara uyğun gəlməsini bildirir.

§ 8. Dövlətin formal əsasları

Hər bir dövlət onun sosial-siyasi və hüquqi mahiyyətini müəyyən edən əlamətlərdən əlavə, həm də həmin dövlətin bir növ simasını müəyyən edən əlamətlərə malikdir. Bu əlamətlər dövr keçdikcə müxtəlif amillərin təsiri altında dəyişir və bir çox hallarda keçici amillərdən asılı olur. Düzdür, bu əlamətlərin içərisində elələri vardır ki, onlar dövlət üçün müstəsna əhəmiyyətə malikdir, la-

kin bu əlamətlərin də müəyyən edilməsi bilavasitə insanlardan, onların iradəsindən asılıdır. Bu cür əlamətlərə dövlətin inzibati mərkəzi (paytaxt), dövlətin dili (dövlət dili) və rəmzləri (gerb, himn, bayraq) aiddir. Az və ya çox dərəcədə bu əlamətlər hakimiyyətlə bağlıdırlar. Məsələn, dövlətin paytaxtı bütün növ hakimiyyətlərə xas olan vahid idarə edən mərkəzin olmasının, belə demək mümkünsə, dövlət həyatında, onun təşkilati formasında təzahürüdür. Dövlətin rəmzləri onun beynəlxalq aləmdə fərdiləşdirilməsinə kömək edir. Bu əlamətlər hər bir dövlətin beynəlxalq aləmdə vizit vərəqəsi rolunu oynayır. Bütün rəsmi dövlət sənədlərində və mərasimlərində dövlət nişanlarından hər hansı birinin və ya bir neçəsinin olması həmin sənədin və ya tədbirin həmin dövlətə məxsus olmasını göstərən ən əsas vasitədir. Dünyanın müxtəlif regionlarında fəaliyyət göstərən hərbi qüvvələrin hansı dövlətə aid olması onların daşıdığı nişanlar hesabına müəyyənləşdirilir.

Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsinə görə, «Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir». Bu dil Azərbaycan Respublikasında yaşayan əsas və çoxsaylı etnosun dilidir. Türk dilləri ailəsinə daxil olan Azərbaycan dili bütün Cənubi Qafqaz ərazisində ən çox yayılmış dildir. Dilin dövlət dili olub-olmaması həmin dövlətdə dilin işləkliyi səviyyəsi ilə müəyyən edilir. Lakin burada bir çox başqa amillər də (etnosların sayı və böyüklüyü, dilin inkişafı, tarixən ərazidə istifadə olunan dil və s.) müəyyən rol oynayır. Bir sıra dövlətlərdə bir yox, bir neçə dövlət dili mövcud olur. Bu həmin ərazidə yaşayan etnoslar və onlar arasındakı münasibətlərlə bağlıdır. Məsələn, Kanadada fransızdilli əhalinin sayca azlıqda qalmasına baxmayaraq, burada in-

gilis dili ilə yanaşı fransız dili də dövlət dili hesab olunur. Hindistanda isə uzun müddətli (300 il) ingilis əsarəti və çoxsaylı böyük etnosların olmasını nəzərə alaraq, dövlət dili kimi ingilis dili qəbul olunmuşdur. Hər hansı bir dilin dövlət dili statusuna malik olması o deməkdir ki, rəsmi yazışmalarda və dövlət daxilində kargüzarlıqda yalnız bu dildən istifadə oluna bilər. Bu dildə təhsil verilir, bu dildən dövlət orqanlarının gündəlik fəaliyyətində istifadə olunur. Nəzərə almaq lazımdır ki, dövlət dili insanlararası münasibətlərdə hansı dilin işlənməsi məsələlərinə müdaxilə etmir. Qeyri-rəsmi, şəxsi münasibətlərdə insan öz təbii haqqı kimi istənilən dildən istifadə edə bilər. Lakin bu o demək deyil ki, dövlət digər dilləri nəzərə almır və ya onların işlədilməsinə qadağa qoyur. Bu halın özü dövlətin qeyri-demokratikliyini göstərən əlamətlərdən biridir. Dövlət bütün digər dillərin inkişaf etdirilməsinin və istənilən şəxsin öz ana dilində təhsil almasının qayğısına qalmalıdır. Azərbaycan Respublikası Konstitusiyasının 21-ci və 45-ci maddələri dövlət dilini bilməyən şəxslərə bir çox hallarda dövlət orqanında öz istəyini tərcüməçi vasitəsi ilə ifadə etməyə imkan verir. Məsələn, Azərbaycan Respublikasının prosessual qanunvericiliyinə görə, prosesin aparıldığı dili bilməyən proses iştirakçıları dövlət hesabına tərcüməçi ilə təmin edilir. Bundan əlavə, qanunvericilik nəzərdə tutur ki, proses nəinki dövlət dilində, habelə prosesin keçirildiyi yerdə daha çox işlənən dildə, yerli əhalinin dilində aparıla bilər. Bu isə o deməkdir ki, dövlət çoxluğun mənafeyini nəzərə alaraq, onların haqqı tapdalanmasın deyə bir sıra hallarda rəsmi fəaliyyətdə belə qeyri-dövlət dillərinin işlənməsinə imkan verir. Buna görə də (çoxluğun haqqı tapdalanmasın deyə) Konstitusiyanın 21-ci maddəsində o da nəzərdə tutulur ki,

«Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir». Bu müddəa həm də onunla bağlıdır ki, Azərbaycan Respublikasında mövcud dillərin hamısı bu ərazidə mövcud olan milli-mədəni irsin daşıyıcılarıdır və onlar xalqın mənəvi ünsiyyət vasitələrini birgə təşkil edir. Bu dillər uzun əsrlər boyu qarşılıqlı əlaqədə olmuşdur və onların birindən digərinə çoxlu sayda söz keçmişdir. Onların təcrid olunması və ya bir-birinə qarşı qoyulması, hər şeydən əvvəl, milli-mənəvi sərvətlərə zərər vurmuş olardı.

Azərbaycan Respublikası Konstitusiyasının 22-ci maddəsinə görə, «Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəridir». Ümumiyyətlə, dövlətin paytaxtının konstitusion səviyyədə müəyyənləşdirilməsi geniş yayılmış hal deyildir. Şəhərin paytaxt olması bir sıra obyektiv amillərdən asılıdır. Bunun üçün şəhərin çoğrafi yerləşməsi (dövlətin mərkəzində və ya nisbətən kənar əyalətlərdə), inkişaf səviyyəsi, əhalinin sayı, şəhərin ölkənin ərazi tarixində oynadığı rol və digər faktorlar (təhlükəsizlik, əhalinin tərkibi və s.) nəzərə alınır. Adətən, dövlətin paytaxtı onun ən çox inkişaf etmiş və ən böyük şəhəri olur. Lakin bu həmişə belə olmur. Bəzən bunun əksinə də təsadüf olunur. Paytaxtın müəyyənləşdirilməsinə dövlətçilik ənənələri də təsir edir. Məsələn, Hollandiyanın paytaxtı Amsterdam olsa da, əsas dövlət orqanlarının hamısı başqa şəhərdə - Haaqada yerləşir. Dövlətin paytaxtında onun ali dövlət hakimiyyəti orqanları, mərkəzi icra hakimiyyəti orqanları yerləşir. Dövlət və cəmiyyətin həyatı üçün ən əhəmiyyətli məsələlər məhz paytaxtda həll olunur. Hüquqi aspektdə paytaxt olan şəhər özünün hüquqi statusuna görə bir sıra hallarda müəyyən fərqlərə malik olur. Bu, adətən, özünü şəhərin nisbi muxtariyyatında, bir sıra in-

kişaf məsələlərində üstünlüyə malik olmasında, o cümlədən inzibati hüquq normaları səviyyəsində paytaxtda müxtəlif idarəetmə məsələlərində fərqli qaydaların müəyyənləşdirilməsində büruzə verir (məsələn, paytaxtda iri yükdaşıyan maşınların hərəkətinə icazə verilməməsi və s.). Lakin bu fərqlərin olması məcburi deyildir. Paytaxt olma daha çox obyektiv faktorlardan irəli gələn və hüququn da qəbul etməli olduğu faktiki vəziyyətdir. Rusiyanın paytaxtı özü federasiya subyektidir (federal əhəmiyyətli şəhər) və onun özünün hakimiyyət orqanları vardır. Azərbaycan Respublikasının paytaxtı tarixi inkişafın müxtəlif mərhələlərində dəyişmişdir. Hazırda Azərbaycan Respublikasında özünün hüquqi statusuna görə paytaxtla digər şəhərlər arasında kəskin fərq yoxdur.

Dövlətin rəsmi tanınma nişanları - gerb, bayraq və himn tarixin qədim dövrlərində əmələ gəlmişdir. İlk vaxtlar bu rəmzlər, sadəcə olaraq, sırf praktiki məqsədlərlə müharibələrdə və s. yerlərdə tanınmaq məqsədilə istifadə olunurdu. Lakin sonralar dövlətlərarası münasibətlər inkişaf etdikcə, bu rəmzlərə də müəyyən məna verilməyə başladı. Artıq dövlətin rəmzləri tarixin nişanəsi kimi bir dövlətin mənəvi irsini ifadə edən rəmzlərə çevrildi və müəyyən mənəvi-ideoloji yükün daşıyıcısı rolunu oynamağa başladı. Bu gün ilk baxışda məna ifadə etməyən bir çox dövlət rəmzləri bir zamanlar məhz müəyyən məna yükü verilməklə, nəyisə qabartmaqla qəbul olunmuş və aid olduğu cəmiyyətin devizinin ifadəçisinə çevrilmişdir. Dövlət rəmzlərinə hörmət olunması tələbi və s. bu kimi hüquqi vəzifələr də məhz dövlət rəmzlərinin sadəcə nişan olmasından deyil, onlara tarixi dövlətçilik ənənələrini ifadə edən rəmzlər kimi baxılmasından irəli gəlir. Dövlətlərin bayraqları formasına görə müxtəlif olur və ayrı-

ayrı dövlətlərdə ona qarşı müəyyənləşdirilən vəzifələr də fərqlənir. Məsələn, ABŞ-də bu ölkənin bayrağının müəyyən siyasi toplantıların gedişi zamanı yandırılması və s. fikir və söz azadlığının təzahür formalarından biri kimi qəbul olunur və həmin hərəkətlərə görə cinayət məsuliyyəti yaranmır. Praktikada dövlət orqanlarının bir neçə dəfə bu cür əməllər üstündə müəyyən şəxsləri məsuliyyətə cəlb etməyə çalışması məhkəmə tərəfindən rədd edilmişdir. Bunun əksinə, bir çox dövlətlərdə bayraqla bu cür rəftar etmək cinayət hesab olunur (Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 324-cü maddəsi). Bu gün bayrağın ifadə etdiyi mənalar rəsmi-hüquqi siyasəti deyil, sırf mənəvi-ideoloji aspekti ifadə edir və dövlət üçün heç bir konkret öhdəlik yaratmır. Azərbaycan Respublikasının hazırkı bayrağı əsrin əvvələrində Azərbaycan Demokratik Respublikası tərəfindən qəbul edilmişdir və o zaman cəmiyyətdəki hakim ideoloji istiqamətləri ifadə edirdi (türkçülük, müasirlik, islam). Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra məhz həmin bayraq bərpa edilmişdir. Vaxtilə Azərbaycan Demokratik Respublikasında mövcud olan bayrağın və digər dövlət rəmzlərinin bərpasına səbəb budur ki, Azərbaycan Respublikası özünü Azərbaycan Demokratik Respublikasının hüquqi varisi sayır. Rəmzlər arasında, adətən, rəsmi qəbullarda ifa olunan musiqi-himn də xüsusi yer tutur.

Azərbaycan dövlətinin suverenliyini, müstəqilliyini təcəssüm etdirən bayraq, himn və gerbdən istifadə qaydaları ayrı-ayrı qanunlarla və onlara müvafiq əsasnamələrlə tənzimlənir.

IV BÖLMƏ
DÖVLƏT VƏ ŞƏXSİYYƏT

Konstitusiyada yalnız dövlət və cəmiyyət deyil, dövlətlə şəxsiyyət arasında münasibətlər də nizamlanır. Bu da təbiidir. Cəmiyyət şəxsiyyətlərarası münasibətlərin və şəxsiyyətlərin özünün məcmusudur. Ona görə də konstitusiyalarda yalnız dövlət deyil, şəxsiyyət haqqında da müəyyən normalar əks olunur. Dövlət şəxsiyyətə onun hüquqi statusunu müəyyən etməklə təsir edir. Şəxsiyyətin hüquqi statusu dövlətlə insanın qarşılıqlı əlaqəsinin məzmununu əks etdirən hüquqi konstruksiyadır. Hüquqi status şəxsiyyətin dövlətlə münasibətlərdə mövqeyini, dövlətlə bağlı imkanlarını bildirir. Hüquqi statusda şəxsiyyətin mövqeyi ilə bağlı müxtəlif fikirlər olmuşdur. Tarixi inkişafın müxtəlif dövrlərində həmin dövrün siyasi-hüquqi düşüncəsinə uyğun hüquqi status problemi həll olunur. Dövlətin quruluşundan da çox şey asılıdır. Dövlət və şəxsiyyət arasında münasibətlərdə bu və ya digər nəzəriyyələr, adətən, ya şəxsiyyətin, ya da dövlətin üstünlüyünü nəzərdə tutur.

Etatizm nəzəriyyəsinə görə, dövlətin maraqları şəxsiyyətin maraqlarından üstündür. Bu nəzəriyyəyə görə, ilk öncə dövlətin, daha sonra isə şəxsiyyətin maraqları təmin olunmalıdır. Sovet İttifaqının hakim ideologiyası olan marksizm-leninizm də məsələni dövlətin xeyrinə həll edirdi. Bu ideologiya insanları siniflərə bölür və sinfi aspektdən də onların hüquqi statusu məsələsini həll edirdi. Aydındır ki, fəhlə-kəndli dövləti adlandırılan bir dövlətdə onların əksi olan, burjua damğası vurulub rədd edilən insanlara yer yox idi. SSRİ-də fərdin marağı dövlətin və

kollektivin maraqlarına tabe edilmişdi. Sanki hamı nəhəng bir maşının çarxları kimi hakim ideologiyaya və dövlətə xidmət etməli idi.

Liberalizm nəzəriyyəsi dövlət, şəxsiyyət və cəmiyyət arasındakı münasibətlərə ümumiyyətlə toxunur. Dövlətin rolunu kifayət qədər aşağı salan bu nəzəriyyənin müddəalarına görə, cəmiyyət daxildən özü özünü nizamasalabilmə imkanlarına malikdir və dövlətin müdaxiləsinə ehtiyac yoxdur. Bu nəzəriyyədə dövlətin vacibliyi, ümumiyyətlə, inkar olunurdu. Fərdin maraqları dövlətin maraqlarından üstün tutulur və dövlətə yalnız gecə gözətçisi kimi bu maraqları qorumaq həvalə edilirdi (klassik liberalizm). Lakin tarix, baş verən iqtisadi böhranlar göstərdi ki, dövlətin rolunu azaltmaq heç də arzu olunan nəticələri vermir.

Sosial-iqtisadi həyatın bir çox sahələri dövlətin təsiri olmadan lazımi səviyyədə inkişaf etmir, şəxsiyyətin maraq və mənafeləri pozulur, bir çox hüquqların (sosial-mədəni) təminatı isə, ümumiyyətlə, mümkün deyildir. Bunun nəticəsində ortaya çıxan yeni liberalizm (neoliberalizm) dövlətin rolunu tanıdı və şəxsiyyətlə dövləti bərabərhüquqlu subyektlərə çevirdi. Dövlət və şəxsiyyət arasında münasibətlər haqqında fikirlərin belə dəyişməsinə demokratiyanın inkişafı, insan hüquq və azadlıqlarının geniş vüsət alması da təsir etdi. Müasir hüquqi baxışlara görə, dövlət və şəxsiyyət bərabərhüquqlu subyektlərdir. Onlar arasında qarşılıqlı olaraq hüquq və vəzifələr əmələ gəlir. Məhz bu cür doktrinal yeniliklərdən sonra insanların məhkəmə vasitəsilə birbaşa dövlətə yönəlmiş iddialar verməsi, dövlətin şəxsiyyət qarşısında məsuliyyət daşıması mümkün oldu. Dövlətlə şəxsiyyətin bir-biri ilə bərabərhüquqlu subyekt kimi çıxış etməsi zərurətə əsaslanır. Reallıq bütün sosial sistemlərin bir-birinin inkişafında ma-

raqlı olmasını şərtləndirir. Sabit cəmiyyətdə sabit də dövlət olur. Yüksək səviyyəli insanların cəmiyyəti daha demokratik olur. Dövlətin inkişafı cəmiyyətin, cəmiyyətin inkişafı isə şəxsiyyətin, dövlətin inkişafını şərtləndirir. Bu gün şəxsiyyət və dövlət bir-birindən asılıdırlar. Aydındır ki, yalnız sərbəst, öz imkanlarını tam realizə edən şəxsiyyət dövlət və cəmiyyət üçün səmərəli iş görə bilər. Dövlət bunda maraqlıdır, çünki şəxsiyyətin inkişafı son nəticədə dövlətin inkişafı deməkdir. Lakin dövlətlə şəxsiyyətin əlaqələri bugünkü səviyyəyə birdən-birə gəlib çatmamışdır. Tarix boyu dövlət, şəxsiyyət və cəmiyyət arasındakı münasibətlər inqilablarla, ziddiyyətlərlə müşahidə olunmuşdur. Totalitar dövlətlərdə indi də dövlət şəxsiyyətin həyatına hərtərəfli nəzarət edir, istədiyi an müdaxilə edir və şəxsiyyət ondan asılıdır. Məhz bu cür ziddiyyətlər siyasi-hüquqi fikirlərin inkişafında hər kəsin dövlət özbaşınalığına, müstəbidliyə qarşı üsyan qaldırmaq hüququnun tanınmasına gətirib çıxarmışdır.

Tarixi inkişafın gedişində dövlətlə şəxsiyyətin, cəmiyyətin bir-birindən ayrılması da tədrici proses olub, uzun yol keçmişdir. Məhz intibah dövrü şəxsiyyətin müstəqilləşməsində, onun azadlıq qazanmasında əsaslı rol oynamışdır. Hazırkı dövrdə dövlət və şəxsiyyət arasındakı münasibətlər vətəndaşlıq üzərində qurulur. Vətəndaş olmayanlar da şəxsiyyət kimi müəyyən hüquq və vəzifələrə malik olurlar. Bu da şəxsiyyətin hər yerdə əsas subyekt kimi tanınmasından irəli gəlir. Şəxsiyyətin tam müstəqilləşməsinə qədər insanla dövlət arasındakı münasibətlər bilavasitə hüquqa deyil, dövrünə uyğun olaraq insanın cəmiyyətdə tutduğu yerə, sinfi bölgüyə əsaslanırdı. Orta əsrlərdə təbəəçilik anlayışı var idi. Təbəə olan şəxsdən şəxsən krala sədaqət tələb olunurdu. Onların dövlət qar-

şısında vəzifələri olsa da, dövlətin onlar qarşısında vəzifələri yox idi. Bu cür münasibətlər əslində dövlət və şəxsiyyət arasındakı münasibətlərdən daha çox, monarx, ağa - tabe olan, təbəə münasibətləri idi. Buna səbəb həmin dövrdə çox vaxt dövlətlə monarxın eyniləşdirilməsi idi. Şəxsiyyətin dövlətlə qarşılıqlı münasibətlərdə üstünlüyü və ya ən azı onunla bərabər mövqedə olması ideyası intibah dövrünə, böyük Fransa inqilabına gedib çıxır. Təbii hüquq nəzəriyyəsinin inkişafı, dövlət-şəxsiyyət münasibətləri ilə birbaşa bağlı idi. Təbii hüquq nəzəriyyəsinin ən əsas müddəaları liberalizmdə də istifadə olunur. Bərabər və azad doğulan insanlar üçün həyatda qarşılıqlı münasibətlərdə ən vacib olanı azadlıq və bərabərlik idi. İlk vaxtlar mövcud sosial durumla şərtlənən bu fikirlər sonralar geniş intişar tapdı. Bir-biri ilə münasibətlərdə bərabər olan insanlar özlərinin yaratdıqları dövlətlə də bərabər olmalı idilər. Müqavilə nəzəriyyəsinə görə, dövlət insanların bağladığı müqavilənin nəticəsi kimi ortaya çıxır. Bu müqavilə ilə onlar dövlətə hakimiyyət verir, dövlət də onların həyatının təhlükəsizliyini təmin etməyi öz öhdəsinə götürür. İnsanlar müstəbidə, öz vəzifələrini yerinə yetirməyən dövlətə qarşı çıxmaq hüququnu özündə saxlayırdılar ki, bu da onların bərabərliyi qəbul olunmadan heç cür mümkün deyildi. İnsanların dövlətlə münasibətlərdə bərabərliyi öz dövründə mütləqiyyətə qarşı yönəlmişdi və dövlət fəaliyyətinin müəyyən hədlər çərçivəsində həyata keçirilməsini nəzərdə tuturdu. Məhz bu dövrdən etibarən şəxsi həyat, onun toxunulmazlığı, dövlətin müdaxilə edə bilmədiyi və daha çox şəxsiyyətin fəal olduğu sahələr meydana gəlir.

Elə bu fikirlər də qərb hüquq düşüncəsinin əsasını təşkil edən individualizmin inkişafına yol açır. Etatizm nə-

zəriyyəsinin müddəaları bir qədər dəyişmiş, fərqli şəkildə marksizm-leninizm tərəfindən inkişaf etdirilmişdir. Tarixi inkişafın əsas hərəkətverici qüvvəsi kimi kütləni qəbul edən marksizm insanı dövlətlə bərabər səviyyəyə qoyan liberalizmin və digər hüquq nəzəriyyələrinin bir sıra başlıca müddəalarını qəbul etmirdi. Hər şeyin son nəticədə istehsal qüvvələrinin və vasitələrinin iradəsi ilə müəyyən olunduğunu iddia edən marksizm öz ideyalarının davamı kimi məntiqi olaraq kollektivçiliyi fərdiçilikdən (individualizmdən) irəli çəkirdi. İnsan hüquq və azadlıqlarının ayrılmaz və toxunulmaz olduğunu qəbul etməyən marksizmdə həm də vaxtilə ən əsas və müqəddəs sayılan hüquqlardan biri kimi mülkiyyət hüququnun toxunulmazlığı da inkar edilirdi. Marksizmdə son məqsəd proletar diktaturası qurmaq və kommunizmə nail olmaq idi. Bunun üçün kütlələrin fəaliyyəti zəruri idi. Bu məqsədlə şəxsiyyətin də fəaliyyəti kütlənin fəaliyyətinə tabe etdirilirdi və aydındır ki, burada heç bir individualizmdən söhbət gedə bilməzdi. Marksın kollektivizmində də hər şey sinfi mübarizə nəzəriyyəsi ilə ölçülürdü. Sinifləri ləğv etmək üçün xüsusi mülkiyyət ləğv edilməli idi, halbuki mülkiyyət həmişə insanın iqtisadi münasibətlərdə müstəqilliyini, azadlığını şərtləndirir və deməli, qarşılıqlı münasibətlərdə insanın özünü bir fərd kimi dərk etməsinin əsaslarından birini təşkil edir. Marksizm nəzəriyyəsində insan bütövlükdə cəmiyyət və dövlətin məqsədlərinə çatmaq vasitəsinə çevrilir və bir növ öz fərdiliyini, özünəməxsusluğunu itirir. Sinfi mübarizə aspektindən şəxsiyyətin öz maraqları olan fərd kimi deyil, hər hansı sinfin sıravi üzvü kimi nəzərdən keçirilməsi, tarixin və cəmiyyətin hərəkətverici qüvvəsi kimi şəxsiyyətin rolunun azaldılması hesabına kütlələrin rolunun şişirdilməsi, istehsal

münasibətlərinin və istehsal vasitələrinin hər şeyi həll etməsi marksizmin əsas xüsusiyyətlərindən biri idi. Belə olan şəraitdə fərdin marksizmdə ikinci plana keçməsi bu nəzəriyyənin özünün quruluşu ilə şərtlənir.

Son illər cəmiyyətdə və dövlətdə gedən dəyişikliklər də dövlət-şəxsiyyət münasibətlərinə kəskin təsir göstərmişdir. Artıq şəxsiyyətin maraqlarını və hüquqlarını təmin etmək dövlətin başlıca vəzifəsinə çevrilmişdir və onun inkişafı insan hüquq və azadlıqlarının nə dərəcədə inkişafından bilavasitə asılıdır.

§ 1. Şəxsiyyətin hüquqi statusu

Şəxsiyyətin hüquqi statusu Konstitusiya hüququnun ən əsas və vacib institutlarından biridir.

Hüquqi statusla dövlət və şəxsiyyət arasındakı əlaqələrin əsası, vəhdəti müəyyənləşir. Şəxsiyyətin hüquqi statusu kifayət qədər geniş anlayışdır. Buraya insanın həyatda əmələ gələn və müxtəlif amillərin təsiri altında dəyişən, inkişaf edən bütün hüquq və azadlıqları daxildir. Bu isə çox mürəkkəb bir sistem əmələ gətirir və təbii ki, bir qanunvericilik aktı bütün hüquq və vəzifələri özündə əks etdirə bilməz. İnsanın hüquqi statusu mövcud qanunvericilik sisteminin ruhuna hopmuşdur, onun konsepsiyasında aparıcı yer tutur və mürəkkəb qarşılıqlı əlaqələrə malikdir. Konstitusiya qanunvericiliyində siyasi proses və dövlətin idarə olunması ilə bağlı bir sıra hüquqlar nəzərdə tutulur. Eyni zamanda konstitusiya hüququnda, daha dəqiq desək, konstitusiyanın özündə şəxsiyyətin hüquqi statusunun əsasları əks olunur. Şəxsiyyətin hüquqi statusu ən müxtəlif amillərin təsiri altında dəyişir, fərqli variantlara düşür. Bu amillərə yaş (uşağın hüquqi statusu), cins (qadın hüquqları), bir çox fərdi-bioloji və psixofizioloji xü-

susiyyətlər aiddir (əlillərin statusu, psixi xəstələrin statusu). Şəxsin sosial münasibətlərdəki mövqeyi də, dövlətlə əlaqəsi də onun hüquqi statusuna əsaslı təsir göstərir (vətəndaşın statusu, deputatın statusu, vəzifəli şəxsin statusu və s.). Bu amillərin və şəxsin subyekt olduğu münasibətlərin xüsusiyyətləri insanların sahə hüququ statusunu əmələ gətirir. Məsələn, aydındır ki, fərdin mülki-hüquqi statusu ilə inzibati-hüquqi statusu arasında fərqlər olmalıdır, çünki mülki münasibətlər dispozitiv, inzibati münasibətlər isə imperativ qaydada nizamlanır. Bütün mürəkkəb hüquqi kateqoriyanın vahid bir sistem kimi fəaliyyətini təmin etmək heç də asan deyildir. Məhz bu cür mürəkkəbliyin nəticəsində bəzən sahə statusları arasında ziddiyyətlər yaranır, boşluqlar ortaya çıxır. Şəxsiyyətin konstitusiyada əks olunan hüquqi statusu əsas, bünövrə kimi bu mürəkkəb sistemin qarşılıqlı əlaqələrini, onun sistem kimi mövcudluğunu təmin edir. Konstitusiyada əks olunan status ona görə şəxsiyyətin hüquqi statusunun əsası adlanır ki, o, bütün sahə statuslarının özəyidir, bünövrəsidir və hər cür digər status daimi, yaxud müvəqqəti olmasından asılı olmayaraq, onun üzərində, onun müəyyən etdiyi çərçivədə qurulur. Şəxsiyyətin hüquqi statusunun əsasında onun hər cür hüquq və vəzifələri deyil, sistem üçün ən əsas və vacib olanları əks olunur. Qalan bütün digər hüquqlar birbaşa və ya dolayısı ilə bu əsas statusdakı hüquqlardan törəmədir və əsas hüquqların izlədiyi məqsədə xidmət edir.

Şəxsiyyətin hüquqi statusu müəyyən elementlərdən ibarətdir. Bu elementlər hüquqi statusdakı normaların ən əsas və vacib məsələlər üzrə qruplaşdırılmasıdır. Lakin hüquqi statusun elementləri məsələsində bir qədər mübahisələr vardır. Bir qayda olaraq, buraya ümumi hüquq qa-

biliyyətini, təminatları, məsuliyyəti və qanuni maraqları aid edirlər. Prosessual hüquqlar da şəxsiyyətin hüquqi statusuna aiddir. Lakin müxtəlif növ icraat növlərinin başlıca prinsiplərinin şəxsiyyətin hüquqi statusuna daxil edilib-edilməməsi məsələsi mübahisəlidir. Ümumi hüquq qabiliyyəti şəxsin hüququn subyekti olması üçün hüquq və vəzifələrə malik olma imkanını ifadə edir. Təminatlar insan hüquq və azadlıqlarının həyata keçirilməsini mümkün edən və onlar pozulduqda hüququn müdafiəsini həyata keçirmək üçün nəzərdə tutulan dövlət tədbirləri, vasitələri sistemidir. Təminatlar çoxsaylı və müxtəlifdir. Buna görə də təminatlar iqtisadi və təşkilati-hüquqi ad altında qruplaşdırılır. Bundan başqa, sosial təminatla siyasi təminat da fərqləndirilir. Hüququn özündə də prosessual təminatlar fərqləndirilir. Təminat hüquq formasında da əks oluna bilər. Məsələn, prosessual hüquqların bir çoxu bir başqa hüququn təminatı kimi çıxış edir. Məsuliyyət, şəxsin törətdiyi əmələ görə dövlət məcburiyyəti tədbirinə cəlb edilməsidir. Məsuliyyət, istənilən hüquq sistemində və ya prosesdə mövcuddur. Məsuliyyətin özü də əslində təminatın bir formasıdır. Qanuni maraqlar qanunun qəbul etdiyi, qanundan doğan, lakin onda birbaşa əks olunmayan maraqları ifadə edir. Bu anlayışla bağlı belə müddəalar səsləndirilir ki, maraq anlayışı hüquqa qədərki, yaxud hüquqdan kənar anlayışdır. Ona görə də onun şəxsiyyətin hüquqi statusunda element kimi ayrılmasına ehtiyac yoxdur. Şəxsiyyətin hüquqi statusu özündə ən əsas hüquqları əks etdirir.

§ 2. İnsan hüquq və azadlıqlarının prinsipləri

Hüquq və azadlıqlar müəyyən prinsiplərə söykənir. Bu prinsiplər hər bir dövlətdə şəxsiyyətin hüquqi statusuna ne-

cə baxılmasını müəyyən edir, bütün hüquq sistemində onun mövqeyini əsaslandırır. Prinsiplər bir növ hüquqda dünyagörüşünün əsaslarını təşkil edən hər bir şeyin əvvəlinin və sonunun gedib çıxdığı dəyərləri özündə ifadə edir. İstənilən hüquqi müddəa prinsiplər vasitəsilə əsaslandırılır, hər bir hüquq norması prinsiplər nəzərə alınmaqla təfsir edilir. Hüquq prinsipləri hüququn mahiyyətini, onun təbiətini yığcam formada ifadə edən əsas, başlanğıc müddəalardır. Prinsiplər bir növ istənilən hüquq institutunun bazasını təşkil edir və sahədaxili bütün normalar bu prinsiplərə uyğun gəlməlidir. Prinsiplər hüququn əsaslandığı nəzəriyyələrin pozitiv ifadə formasıdır. Hər bir müddəa və ya fikir hüquqi prinsip ola bilməz. Bunun üçün o, dəqiq və yığcam formulə edilməli və hüquq norması şəklində pozitiv hüquqda əks olunmalıdır. Yalnız obyektiv hüquqa çevrilən, hüquq mənbələrində əks olunan müddəalar prinsip adlana bilər. Hüququn prinsipləri müvafiq elmi nəzəriyyə və fikirlərin hüquqda realizə edilməsinin təzahürüdür. Uzun illərdən bəri praktikada formalaşan və əsaslandırılan nəzəriyyə bütöv halda, özünün xırdalıqları və hüquq üçün əhəmiyyəti olmayan tərəfləri ilə hüquqa gətirilə bilməz. Hüququn qəbul etdiyi hər fikri mənimsəmə forması hüquqi prinsipdir. Məsələn, hakimiyyət bölgüsü nəzəriyyəsi qanunvericilikdə əks olunmaq üçün prinsipə çevrilməliydi. Bunun üçün o, əsrlər uzunu mütəfəkkirlərin düşüncə süzgəcindən keçmiş və nəhayət, bu nəzəriyyənin ən əsas, ümdə fikirləri yığcam formulalar şəklində qurulub normativ aktlarda təsbit olunmuş - prinsipə çevrilmişdir. Prinsip adi həyatda olan nəzəriyyədən həm də onunla fərqlənir ki, hüquqda onun əsaslı və sistem kimi realizə edilmə mexanizmi olmalıdır. Belə mexanizmi olmayan müddəa, sadəcə, fiksiyadır. Hakimiyyət bölgüsü nəzəriyyəsi qədim zamanlarda da möv-

cud olmuşdur. Lakin yarandığı dövrlərdən Monteskyenin nəzəriyyəsi də qismən daxil olmaqla, sosial əsaslara söykənən bu nəzəriyyə (hakimiyyətin ayrı-ayrı sosial təbəqələr arasında bölgüsü) yalnız o zaman hüquq üçün optimal nəzəriyyə halına gəldi ki, onun qurulması əsasları sosial müstəvidən təşkilati müstəviyə keçdi (hakimiyyətin sosial təbəqələr arasında bölünməsi ilə deyil, özünün daxildən təşkilatlanması ilə fərqli struktur vahidləri arasında funksiyaların bölgüsü). Bununla belə, hakimiyyət bölgüsü nəzəriyyəsi bir prinsip kimi sözün həqiqi mənasında ABŞ Konstitusiyasında formalaşdı. Çünki bu Konstitusiyada o həm də özünün realizə mexanizmini - çəkindirmə və tarazlaşdırma mexanizmini əldə etdi.

İnsan hüquqları və azadlıqları da beləcə ziddiyyətli fikirlərdən, mütəfəkkirlər arasındakı düşüncə müharibəsindən keçib bir nəzəriyyə kimi formalaşmış, daha sonra isə konstitusiyada əks olunmaq üçün özünün bünövrəsini - prinsiplərini əldə etmişdir. Bu prinsiplər, yarandığı dövrdən indiyə qədər demək olar ki, əsaslı dəyişikliklər olmadan saxlanmışdır. Bu prinsiplərin əsasları C.Lokkun, Ş.L.Monteskyenin, H.Hrotsinin, J.J.Russonun və digər mütəffəkirlərin (maarifçilərin və s.) əsərlərində qoyulmuş, sonrakı mütəfəkkirlər tərəfindən isə inkişaf etdirilmişdir. Hələ formalaşdığı dövrdən artıq pozitiv hüquqa keçməyə başlayan bu prinsiplər həm də pozitiv hüquqda inkişaf etmiş, cilalanmışdır. Son nəticədə isə bu ona gətirib çıxarmışdır ki, müasir dövrdə insan hüquqları ilə bağlı beynəlxalq hüquqi müqavilələr kompleksi yaranmışdır. 1215-ci ildə İngiltərədə «Böyük Azadlıqlar Xartiyası» qəbul olundu. Sonralar insan hüquq və azadlıqlarının əsas prinsipləri 1776-ci il «Amerika Birləşmiş Ştatlarının İstiqlaliyyət Bəyannaməsi»ndə, 1689-cu il «İnsan hüquqları haqqında Bill»də, 1789-cu il

Fransa «İnsan və vətəndaş hüquqları haqqında Bəyannamə»də və s. aktlarda əks olundu.

Bu prinsiplər aşağıdakılardır:

1) bütün insanların bərabər hüquqlu və azad doğulması;

2) hüquqların toxunlmazlığı və ayrılmazlığı;

3) hüquqa zidd olmayan və başqalarına zərər yetirməyən hər şeyi etmək imkanının olması (azadlıq);

4) hüquq və azadlıqların təminatı.

İnsanların hüquqları təbiidir, yəni onlar insanın bir sosial varlıq kimi mövcudluğundan yaranır. Sosial varlıq kimi insan özü kimilərin yaşadığı cəmiyyətdə başqalarına hamı tərəfindən qəbul olunmuş münasibətini müəyyən etməlidir ki, bu da hüquqdur. Buradan göründüyü kimi, hüquq zərurətdir. Hüququ, sadəcə olaraq, insan kimi mövcud olma faktı yaradır və onu nə dövlət, nə də bir başqa subyekt insandan ala bilməz, çünki hüququ insana o verməmişdir. Hüquq başqalarına qarşı sənin münasibətini müəyyən etdiyi kimi, başqalarının da sənə qarşı münasibətini müəyyən edir və sənin, o cümlədən başqalarının azadlığının əsasını təşkil edir. Hüquq insanın mövcudluğundan doğduğuna görə onun insandan alınması qeyri-mümkündür. Fərdin insan kimi ləyaqətli yaşayışı onun hüquq və azadlıqlarının vəziyyətindən asılıdır. Odur ki, hüquq və azadlıqlar toxunulmazdır. Bu aksiom cəmiyyətin birgəyaşayışının əsasını təşkil edir. Toxunulmazlıq hüquq və azadlıqlara hər hansı başqa subyektin qəsd edə bilməyəcəyini, qəsd edə biləcəyi halda isə buna qarşı tədbir görüləcəyini ifadə edir.

Hüququn ayrılmazlığı onun toxunulmazlığı ilə birbaşa bağlıdır. Fərdin hüqununun toxunulmazlığı həm də onun ayrılmazlığının əsası kimi çıxış edir. Hüquqla hamıya bə-

rabər imkanlar verilir. Odur ki, faktiki bərabərsizlik (sosial aspektdə) hüquq və vəzifələrdə də bərabərsizlik üçün əsas vermir. İnsanların gen-psixofizioloji xüsusiyyətlərindən əmələ gələn fərqlər fərdin insan (insan sosial varlıqdır) kimi mahiyyətinə təsir etmədiyindən, bioloji fərqlər bərabərsizlik üçün əsas vermir.

Azadlıq anlayışı insan davranışının həddini müəyyən edir. Cəmiyyətdə azadlıq heç də həmişə eyni cür başa düşülməmişdir. Bu anlayış ədalət anlayışı ilə sıx bağlıdır və bəzən onlar birgə nəzərdən keçirilir. Odur ki, ədalətlə bağlı bir çox məsələlər azadlıqla da bağlıdır. Azadlıq insanın faktiki davranışının hədlərini müəyyən edən amillərə təsir imkanı kimi də başa düşülürdü. Məhz buna görə də azadlıq bir çox nəzəriyyələrdə insanların faktiki bərabərləşdirilməsi üsulu kimi çıxış edirdi. İnsanların maddi əsaslara görə (cəmiyyətdə davranış imkanlarının hədlərini müəyyən edən ən əsas faktorlardan biri) hərəkət imkanlarının bərabər olmaması marksizmin xüsusi mülkiyyəti ədalətsizliyin əsas faktoru kimi qəbul etməsinə səbəb olmuşdu. Marksizmə görə, davranış imkanları, əmlak və s. amillərə görə bir-birindən kəskin fərqlənən insanların cəmiyyətində azadlıq da yoxdur. Müasir dövrdə azadlıq hamı üçün eyni, bərabər şəraitin yaradılması kimi də anlaşılır. Azadlığın hədləri demokratik dövlətlərdə ancaq qanunla müəyyənləşdirilir. Azadlıq mütləq deyil və başqalarının mənafeyinə toxunmayan həddə hər cür davranış azadlıq hesab olunur. Onun məhdudlaşdırılması da yalnız ümumi rifah naminə və yalnız qanunla yol verilən hədlərdə həyata keçirilə bilər. Azadlıq həm də hüquqi vəzifə anlayışı ilə bağlıdır. Bir kəsin müəyyən hərəkət hüququ həmişə bütün başqa şəxslərdə həmin davranışa mane olmamaq və toxunmamaq vəzifəsini yaradır. Birinin hü-

ququ digərinin vəzifəsini təşkil edir və bu, azadlıqların realizə edilməsində əsas şərtlərdən biridir. Odur ki, Azərbaycan Respublikası Konstitusiyasının 24-cü maddəsinin II hissəsində birbaşa göstərilir ki, hüquq və azadlıqlar həm də hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir.

§ 3. İnsan hüquq və azadlıqlarının təminatı mexanizmi

İnsan hüquq və azadlıqları və ümumiyyətlə, şəxsiyyətin hüquqi statusu müəyyən üsullar hesabına icra olunmalıdır. Kifayət qədər icra olunma mexanizmi olmayan hüquq və azadlıqlar realizə oluna bilmir və fərdlər belə hüquqları dövlətin təminat verdiyi davranış imkanı kimi deyil, sadəcə, fiksiya kimi qavrayırlar. Odur ki, istənilən hüquqi kateqoriyanın realizə mexanizminin olması həmin hüququn və ya digər hüquqi konstruksiyanın səmərəsinə birbaşa təsir edir. Hüquq və azadlıqların təminatı çox geniş anlayışdır. Buraya konkret hüququn həyata keçirilməsi qaydalarından tutmuş, bu qaydalar pozulduqda görüləcək tədbirlər, o cümlədən hüquqların həyata keçirilməsini stimullaşdıran müxtəlif təsir vasitələri aiddir. Təminat mexanizmi, sadəcə, Konstitusiya ilə nəzərdə tutulmur. Çoxsaylı hüquq və azadlıqlar sahə təminatı mexanizminə də malikdirlər və dövlət birbaşa hüquqla nəzərdə tutulmayan çoxsaylı vasitələrdən istifadə etməklə insanların hüquq və azadlıqlarının səmərəli realizə olunmasına çalışır. Buna görə də hüquq və azadlıqların realizə mexanizmi tək bir hüquq sahəsinin imkanları xaricində qalan müəyyən tədbirlər kompleksinə çevrilir. Konstitusiya hüququnda bu təminatların əsasları nəzərdə tutulur.

İnsan hüquq və azadlıqlarının hüquqi təminatı mexanizmlərini bir neçə əsasla müxtəlif növlərə ayırmaq olar. Nəzərə almaq lazımdır ki, təminat mexanizmi hüquq və azadlıqların müdafiəsi mexanizmi ilə eyni deyildir. Hüquq və azadlıqların müdafiəsi mexanizmi onların təminatı mexanizminin tərkib hissəsi olsa da, müdafiə mexanizminə daxil olmayan, lakin təminat hesab olunan elə məsələlər var ki, onlar tam şəkildə hüquqla nəzərdə tutulmur. Məsələn, demokratik rejim hüquq və azadlıqların təminatı mexanizmində mühüm yer tutur. Yalnız demokratik rejimdə həqiqətən hüquqların realizə olunmasından danışmaq olar. Hüquq və azadlıqların müdafiəsi isə əsasən hüquq pozuntusunun baş vermə faktından sonra işə düşən xüsusi mexanizmdir və baş vermiş faktın nəticələrinin aradan qaldırılmasına yönəlir. Bəzən ədəbiyyatda hüquq və azadlıqların mühafizəsi və müdafiəsi fərqləndirilir. Belə fikir irəli sürülür ki, hüquq və azadlıqların mühafizəsi elə onların təminatıdır. Buraya hüquq pozunutusu olana qədər dövlətin hüquq və azadlıqları qlorumaq məqsədilə, yəni gələcəkdə baş verə biləcək potensial hüquq pozuntularının qarşısını almaq üçün həyata keçirdiyi müəyyən tədbirlər, o cümlədən hüquq və azadlıqları vətəndaşların aktiv həyata keçirməsi üçün onların maraqlarının stimullaşdırılması ilə əlaqədar həyata keçirilən tədbirlər aiddir (maarifləndirici informasiya yayılması və s.). Müdafiə isə artıq baş vermiş hüquq pozuntusunun nəticələrini aradan qaldırmaq üçün həyata keçirilən hüquqi tədbirlər kompleksidir.

Hüquq və azadlıqların təminatı mexanizmi özünün subyektinə görə üç yerə bölünür:

1) məhkəmə vasitəsilə müdafiə mexanizmi;

2) icra hakimiyyəti orqanları vasitəsilə müdafiə mexanizmi;

3) beynəlxalq təşkilatlar vasitəsilə müdafiə mexanizmi.

Bundan başqa, müdafiə vasitələri özünün xüsusiyyətlərinə görə prosessual və qeyri-prosessual müdafiə vasitələrinə bölünür. Hüquqla əlaqəsinə görə müdafiə vasitələri təşkilati və təşkilati-hüquqi müdafiə vasitələrinə ayrılır. Bu cür bölgü, nəzərə almaq lazımdır ki, şərtidir və praktikada bəzən bir hüququn müdafiəsi üçün paralel olaraq bir neçə üsuldan istifadə olunur. Eyni zamanda bu vasitələr birgə mövcuddur və onları kəskin şəkildə bir-birindən ayırmaq qeyri-mümkündür. Hüquqda bütün bu təminatlar prinsip şəklində, ayrı-ayrı hüquqlar şəklində dövlət orqanlarının hüquqi statusunda vəzifələr şəklində, bir sözlə, ən müxtəlif formalı hüquq normaları şəklində təzahür edir.

Məhkəmə vasitəsilə müdafiə mexanizmi ən əsas müdafiə mexanizmidir. Bu da ondan irəli gəlir ki, məhkəmənin birbaşa təyinatı insan hüquqlarının müdafiəsidir. Məhkəmə müdafiəsi cəmiyyətdəki sosial mübahisələri, münaqişələri həll etmək üçün əsas üsuldur.

İcra hakimiyyəti orqanları vasitəsilə müdafiə məhkəmə müdafiəsi qədər vacib olsa da, o, məhkəmə müdafiəsinə görə ikincidir. İcra hakimiyyəti tərəfindən törədilən qanun pozuntularından məhkəmə vasitəsilə müdafiə olunmaq olar, lakin əksinə, icra hakimiyyəti tərəfindən törədilən qanun pozuntularından elə icra hakimiyyəti orqanları vasitəsilə müdafiə olunma istənilən səmərəni vermir. Bu, məhkəmə hakimiyyətinin müstəqilliyinə zidd olmaqla onun səlahiyyətlərinə müdaxilə hesab olunardı. Lakin Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinə görə, insan hüquq və azadlıqlarını gözləmək və qo-

rumaq icra hakimiyyəti orqanının borcudur. İcra hakimiyyəti orqanlarının əsas vəzifəsi dövlət idarəetməsini həyata keçirməkdir və onlar öz fəaliyyətlərində hüquq və azadlıqların pozulmamasının qayğısına qalmalıdırlar. Konstitusiyasının 71-ci maddəsinin onuncu hissəsində nəzərdə tutulur ki, dövlət orqanları yalniz bu Konstitusiya əsasında, qanunla müəyyən edilmiş qaydada və hüdudlarda fəaliyyət göstərə bilərlər.

Beynəlxalq təşkilatlar vasitəsilə müdafiə beynəlxalq hüququn ən böyük nailiyyətlərindəndir. Əvvələr belə hesab edilirdi ki, insan hüquqları məsələsi dövlətin daxili məsələsidir və bu hüquqların müdafiəsinə beynəlxalq hüquq müdaxilə edə bilməz. Lakin insan hüquqları probleminin qloballaşması ilə bu hüquqların müdafiəsi də dövlət inhisarından çıxmağa başladı. Bu gün insan hüquqlarının müdafiəsi ilə çoxsaylı beynəlxalq təşkilatlar məşğul olur. Beynəlxalq müdafiə bir növ dövlətdaxili müdafiə tədbirlərinə alternativdir və insana imkan verir ki, dövlət daxilində müdafiədən razı qalmadıqda, beynəlxalq hüquq vasitəsilə müdafiə olunsun. Beynəlxalq hüquq vasitəsilə hüquqların müdafiəsi ən müxtəlif təşkilati formalara malikdir. Buraya məhkəmə orqanlarından tutmuş, məhkəmə orqanı hesab olunmayan, lakin insan hüquqlarının müdafiəsi ilə məşğul olan müxtəlif orqanlar daxildir (komitələr və s). Beynəlxalq müdafiə heç bir dövlətin yurisdiksiyası altında deyildir.

Prosessual müdafiə vasitələri əsasən məhkəmələr tərəfindən istifadə olunur. Qeyri-prosessual müdafiə vasitələri isə icra hakimiyyəti orqanlarının fəaliyyətində geniş tətbiq olunur. Onlar arasında əsas fərqlər bunlardır: 1) prosessual müdafiə vasitələri son dərəcə dəqiqdir, qanunla hərtərəfli tənzimlənir və nisbətən dəyişməzdir, sabit-

dir. Bu qaydalar ancaq prossesul qanunvericiliklə müəyyənləşdirilir. Bunun əksinə olaraq, qeyri-prosessual müdafiə vasitələri nisbətən qeyri-dəqiqdir, daha dinamikdir və çoxsaylı normativ hüquqi aktlar, bir qayda olaraq, maddi hüquq normaları vasitəsilə də müəyyənləşir; 2) prosessual müdafiə vasitələri daha geniş imkanlara (subutetmə vasitələri daha çoxdur) malikdir və nisbətən uzun müddətlidir, bir-birindən kəskin fərqlənən mərhələlərə bölünür (burada proses mərhələlər şəklində realizə olunur və bir mərhələnin nəticələri digərini müəyyən edir). Qeyri-prosessual müdafiə vasitələri azimkanlıdır, qısamüddətlidir. Burada dəqiq mərhələlər fərqləndirilmir; 3) prosessual müdafiə vasitələri şəxsə öz hüquqlarını bir neçə dəfə müdafiə imkanı verir (alternativ imkanlıdır) və şəxs nəticələrdən razı qalmadıqda, hər şey proses daxilində həll edilir, yəni şəxs daha yuxarı məhkəməyə şikayət edə bilər və burada da müvafiq prosessual qaydaların tətbiqi baş verir. Qeyri-prosessual müdafiə vasitələrində, adətən, bir neçə uğursuz cəhddən sonra şəxs kənar müdafiə vasitəsindən - bu halda prosessual müdafiə vasitəsindən istifadə edə bilər; 4) qeyri-prosessual müdafiə vasitələrindən prosessual vasitələrlə müdafiə olunmaq olar, lakin prosessual müdafiə vasitələrindən qeyri-prosessual vasitələrlə müdafiə olunmaq olmaz. İcra hakimiyyətinin hərəkətlərindən məhkəmədə müdafiə olunmaq olar, lakin məhkəmənin hərəkətlərindən icra hakimiyyətində deyil, yalnız yuxarı məhkəmədə müdafiə olunmaq olar; 5) prosessual müdafiə vasitələrində tərəflərin iyerarxiya münasibətləri yoxdur. Müdafiə olunan şəxslə hüquq pozan şəxs məhkəməyə münasibətdə eynidir və onların heç biri məhkəməyə idarəçilik qaydasında tabe deyildir. Qeyri-prosessual müdafiə vasitələrində isə, adətən, bir tərəf hüquq pozan

digər tərəflə - hüququ müdafiə edənlə inzibati münasibətdə olur, iyerarxiya qaydasında ona tabe olur. Vətəndaş bir icra hakimiyyətinin işçisinin hərəkətindən onun çalışdığı orqana şikayət edərsə, bu halda dövlət qulluqçusu ilə onun işinə baxan (şikayət edilən) orqan arasında tabeçilik münasibəti olur.

Məhkəmənin prosessual müdafiə vasitələri hüquq pozuntusu ilə birbaşa əlaqədədir və bir çox başqa amillərdən asılı olaraq fərqli növlərə ayrılır. Konstitusiyanın 125-ci maddəsinin III hissəsinə görə, «məhkəmə hakimiyyəti Konstitusiya, mülki və cinayət məhkəmə icraatı vasitəsilə və qanunla nəzərdə tutulmuş digər vasitələr ilə həyata keçirilir». Göründüyü kimi, Azərbaycan Respublikasında məhkəmə hakimiyyəti əsasən üç növ icraatla həyata keçirilir. Bunlardan birincisi Konstitusiya icraatıdır ki, bu icraat «Konstitusiya Məhkəməsi haqqında» Azərbaycan Respublikası qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir. İkincisi mülki icraatdır. Bu icraatın aparılması, bir qayda olaraq, Azərbaycan Respublikasının Mülki - Prosessual Məcəlləsi vasitəsi ilə tənzimlənir. Bu icraatda həmçinin digər müvafiq normativ hüquqi aktlar da tətbiq edilir. Üçüncüsü isə cinayət mühakimə icraatıdır. Bu icraat da, bir qayda olaraq, Azərbaycan Respublikasının Cinayət - Prosessual Məcəlləsi ilə müəyyən edilmiş prosessual normalar çərçivəsində həyata keçirilir. Cinayət prosesində dövlət ittihamçısı, müstəntiq olur, mülki prosesdə isə bu subyektlər yoxdur. Konstitusiya icraatında isə dövlət orqanları və qeyri-dövlət orqanları iştirak edir. Burada iştirak edən tərəflər öz mənafelərinin müdafiəsi üçün geniş imkanlara malikdir. Onlar sübut təqdim edə, onların tədqiqində iştirak edə, hüquqi yardım ala bilərlər. İştirakçıların məhkəmədə çıxış etmək, öz fikirləri-

ni bildirmək və s. hüquqları vardır. Məhkəmə müdafiəsi bir sistem olmaq etibarilə bəzi ölkələrdə polisistem kimi çıxış edir. Yəni hər kateqoriyaya aid işlər üçün və ya fərqli növ hüquq pozuntuları və s. amillərdən asılı olaraq, fərqli məhkəmələr yaradılır. Belə ki, Almaniyada əmək məhkəmələri, maliyyə məhkəmələri, inzibati məhkəmələr və s. mövcuddur. Azərbaycan Respublikasında ümumi yurisdiksiyalı birinci instansiya rayon (şəhər) məhkəmələrilə yanaşı, ağır cinayət işləri üzrə məhkəmə də fəaliyyət göstərir. Bir sıra ölkələrdə icra hakimiyyəti orqanlarının fəaliyyətində baş verən hüquq pozuntuları ilə bağlı xüsusi ədliyyə - inzibati ədliyyə ayrıca orqanlar timsalında (inzibati məhkəmələr) fəaliyyət göstərir. Azərbaycan Respublikasının 30 iyun 2009-cu il tarixli İnzibati Prosessual Məcəlləsinin 3.1-ci maddəsi də inzibati məhkəmələrin yaradılmasını nəzərdə tutur. Qeyri-prosessual müdafiə vasitələri prosessual müdafiə vasitəsi kimi ciddi diferensiasiya olunmamışdır. Adətən, hər orqan özünün aşağı orqanlarından verilən şikayətlərə baxır.

Qeyri-prosessual müdafiə vasitələrinin hamısı üçün ümumi başlanma əsası şikayətdir. Burada əsas məsələlərin həlli dövlət orqanının üzərinə düşür və vətəndaş qanunla müəyyən edilən müddət ərzində aldığı cavabdan razı qalmadıqda, məhkəməyə şikayət edə bilər. Vətəndaşların məhkəməyə və ya digər hakimiyyət orqanlarına müraciət etmək hüququnun təminatı, ümumiyyətlə, bütün qanunvericilik sistemi ilə tənzimlənir. Eyni zamanda bu hüququn həyata keçirilməsini tənzimləyən konkret qanunlar və digər normativ hüquqi aktlar da mövcuddur (məsələn, bu qəbildən olan ümumi xarkaterli normaları özündə əks etdirən «Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında» 10 iyun 1997-ci il tarixli Azərbaycan Respub-

likasının Qanunu). Qeyd etmək lazımdır ki, vətəndaşlar, sadəcə, hüquqlarının pozulmasından şikayət vermirlər, dövlət orqanlarına başqa məqsədlərlə edilən müraciət və təkliflər də qanunla müəyyən prosedurdan keçir ki, bu prosedur da hüquqların təmin olunması qaydasıdır.

İnsan hüquqlarının xüsusi təşkilati təminat vasitələrindən biri də Ombudsmandır. O, müxtəlif ölkələrdə müxtəlif cür adlanır. (Rusiya Federasiyasında insan hüquqları üzrə müvəkkil, Fransada vasitəçi və s.). Ombudsman insan hüquq və azadlıqlarını müdafiə edir, lakin o məhkəmə hakimiyyətinə daxil deyildir. Ombudsman hüquqların pozulması ilə bağlı verilən şikayətlərə baxır və lazım gələrsə, icraat başlayır, özü material toplanması ilə məşğul olur. Lakin bir qayda olaraq, Ombudsman özü iş üzrə qərar çıxarmır, toplanmış materialları aidiyyatı üzrə göndərir. Ombudsman təkbaşına və kollegial orqan şəklində fəaliyyət göstərə bilər. Məhkəmə kimi o da müstəqil orqan hesab olunur, bununla yanaşı, bir sıra ölkələrdə parlament qarşısında öz fəaliyyəti ilə bağlı hesabat verir. Azərbaycanda belə qanun 2001-ci ildə Milli Məclisin payız sessiyasında qəbul olunmuşdur və «Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanunu adlanır.

Hüquqi müdafiə vasitələri arasında bir növ iyerarxiya qaydasında düzülüş vardır. Məsələn, icra hakimiyyətinin hərəkətlərindən məhkəməyə şikayət etmək olar. Bir məhkəmənin hərəkətindən daha yuxarı məhkəməyə müraciət edilir. Son nəticədə isə Konstitusiya icraatı və Ali Məhkəmə və ya hər hansı başqa yüksək instansiya orqanı gəlir. Bütün ölkədaxili vasitələr bitdikdən sonra isə beynəlxalq hüquq vasitələrindən istifadə etmək olar. Bey-

nəlxalq müdafiə vasitələri beynəlxalq məhkəmə və kvaziməhkəmə (qeyri-məhkəmə) orqanları vasitəsilə həyata keçirilir. Burada bəzən tərəflər arasında barışdırma proseduru tətbiq olunur. Bu qaydada, həmçinin dövlətlərarası mübahisələr də həll olunur.

Bütün müdafiə sisteminin əsası Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsində müəyyən edilir. Bundan əlavə, Konstitusiyada hüquq kimi bəyan olunmuş bir sıra təminatlar da vardır. Bu hüquqlar (təminat-hüquqlar) bütün müdafiə sisteminin özəyini, onun bazasını təşkil edir və fərdin müdafiə mexanizmləri çərçivəsində davranışını müəyyənləşdirir. Eyni zamanda bu hüquqlar dövlət orqanları üçün də müəyyən vəzifələr yaradır. Konstitusiyanın 71-ci maddəsində məhdudlaşdırmanın əsasları, məhdudlaşdırılması qeyri-mümkün hüquqlar, hüququn tətbiqi fəaliyyətində normaların təfsiri ilə bağlı göstərişlər əks olunur. Bu normanın analizindən insan hüquq və azadlıqlarının müdafiəsi mexanizminin qurulduğu əsas prinsipləri müəyyən etmək olar:

1) İnsan hüquq və azadlıqlarının üstünlüyü (prioriteti). Bu prinsip onu bildirir ki, dövlət orqanlarının fəaliyyətində başlıca məsələ insan hüquq və azadlıqlarının müdafiəsi olmalıdır. Hər bir məsələnin həlli zamanı hüquq və azadlıqlara toxunma ehtimalı nəzərə alınmalı və dövlət orqanı vətəndaşın hüququnun toxunulmazlığını maksimum təmin etməlidir.

2) Müdafiə vasitələrinin alternativliyi vətəndaşlara hüquq və azadlıqlarının müdafiəsinin bir yox, bir neçə vasitəsinin olmasını nəzərdə tutur. Alternativlik, sadəcə, bir neçə müdafiə vasitəsinin olmasını tələb etmir. Bu ilkin şərtdir (müdafiə vasitələrinin çoxsaylılığı və dəfələrlə müdafiə imkanı) və o olmadan müdafiə vasitələrinin al-

ternativliyi məsələsi, ümumiyyətlə, qoyula bilməz. Alternativ müdafiə onu ifadə edir ki, şəxs eyni bir hüququnu bir neçə vasitə ilə qoruya bilər. Yəni bir hüququ şəxs hər hansı bir vasitə ilə qoruyursa, sonradan bu vasitə onu təmin etmədiyi təqdirdə həmin hüququn qorunması üçün başqa vasitədən istifadə edə bilər. Məsələn, əgər şəxs hüququnu pozan şəxsdən icra hakimiyyəti orqanına şikayət edərsə və bu zaman icra hakimiyyəti orqanının gəldiyi nəticə onu qane etməzsə, şəxs bir vasitə kimi prosessual müdafiə vasitəsindən istifadə edə bilər.

3) Müdafiə vasitələrinin məqsədəmüvafiqliyi. Hər bir müdafiə vasitəsi müəyyən məqsədlə qurulur və istənilən hüququ istənilən müdafiə vasitəsilə müdafiə etmək qeyri-mümkündür. Qanunvericilik baş vermiş pozuntunun əhəmiyyəti, baş verdiyi sahə və s. məsələlər nəzərə alınmaqla müdafiə vasitələrinin müdafiəsinə imkan verir. Məsələn, şəxsin etdiyi cinayətdən əsas müdafiə vasitəsi (üsulu) prosessual üsuldur. Burada icra hakimiyyətinin rolu ikinci dərəcəlidir. Əgər az əhəmiyyətli pozuntudursa, hüququn qorunması həm də icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilə bilər (məsələn, yetkinlik yaşına çatmayanların işləri üzrə komissiyalar və ya hüququ pozan şəxsin daha yuxarı vəzifəli şəxs tərəfindən vəzifədən çıxarılması və pozulmuş hüququn bərpası üçün müəyyən tədbirlərin görülməsi). Yaxud əgər qanun vətəndaşların hüquqlarını məhdudlaşdırırsa, bu məsələ ancaq konstitusiya icraatı qaydasında həll edilir.

4) Müdafiə vasitələrində şəxsin sərbəstliyi. Müdafiə vasitələrinin məqsədəmüvafiqliyi şəxsin öz hüquqlarını müdafiə edərkən sərbəst olmasını inkar etmir. Bu sərbəstlik, sadəcə, fərdin müdafiə vasitələrini seçərkən nisbətən müstəqil olmasını deyil, həm də seçdiyi müdafiə vasitəsi

daxilində qanunun yol verdiyi həddə sərbəst davranması imkanını ifadə edir. Yəni şəxsin öz hüququnu müdafiə etməsi üçün qanun ona nəinki bir proses çərçivəsində davranışda müxtəlif imkanlar verir (daha yuxarı məhkəməyə şikayət etmək hüququ, sübut təqdim etmək hüququ və s.), həm də şəxsə öz hüquqlarını, əsas olduğu təqdirdə, birbaşa müdafiə etmək imkanı verilməlidir (zəruri müdafiə, son zərurət və s.).

5) Müdafiənin yüksələn xətt üzrə inkişafı (həyata keçirilməsi və ya müdafiə vasitələrində rasional ardıcıllıq). Bütün növ müdafiə tədbirləri bir-biri ilə sıx əlaqədədir. Lakin bu o demək deyildir ki, onlar reallıqda istənilən şəkildə tətbiq olunur və bu zaman ardıcıllıq gözlənilmir. Nəzərə alınmalıdır ki, bir müdafiə vasitəsi digərinə nisbətən daha geniş imkanlara malikdir, lakin nisbətən baha başa gəlir və operativlik tələb olunan zaman o qədər də yaramır (prosessual müdafiə vasitələri). Əksinə, digər müdafiə vasitələri az imkana malik olsa da, operativlik baxımından özünü doğruldur və hüquq müdafiəsinin səmərəliliyinin zamandan asılılığı olduqda, özünü xüsusilə doğruldur. Buna görə hüquq və azadlıqların təminatları mexanizmində qanunvericilik konkret müdafiə sisteminin xüsusiyyətlərindən asılı olaraq onların bir-birinə münasibətini müəyyən edir. Bir proses kimi müdafiə mexanizmlərini ardıcıllıqla nəzərdən keçirsək, belə bir halı müşahidə etmək olar: subyekt ilkin müdafiə vasitəsinə nisbətən daha sonra seçdiyi və ya onun üçün tətbiq olunan müdafiə vasitəsində daha geniş imkanlara malik olur. Şəxs ikinci müdafiə sistemində birinciyə nisbətən daha geniş imkana malik olur və müdafiənin nəticəsi də fərqlənir. Bu bir növ müdafiə sistemlərinin qanunauyğunluğudur: hər bir sonrakı müdafiə vasitəsi özündən əvvəl gələn və

ona alternativ olan müdafiə vasitəsindən mütləq daha geniş imkana malik olmalıdır. Əks təqdirdə alternativ müdafiənin tətbiq edilməsinin əhəmiyyəti olmur. Şəxs birinci müdafiə vasitəsindən sonra bir başqasına ona görə müraciət edir ki, ikinci müdafiə vasitəsi ilə hüquqlarının daha yaxşı müdafiə olunacağına ümid edir. Əgər birinci müdafiə vasitəsi ilə ikinci müdafiə vasitəsinin imkanları eyni olsaydı və onlar bir-birindən əsaslı fərqlərə malik olmasaydı, o zaman ikinci dəfə daha başqa müdafiə üsulundan istifadə etmənin əhəmiyyəti olmazdı. Şəxsə imkan verilir ki, dövlətin icra hakimiyyəti orqanları vasitəsilə hüququnu müdafiə etsin. Bundan razı qalmayan şəxs daha sonrakı və daha geniş imkanlara malik müdafiə vasitəsinə - prosessual müdafiə vasitəsinə müraciət edir. Əgər şəxs birinci instansiyada məhkəmə baxışından razı qalmırsa, daha yuxarı instansiyalara müraciət edir və bu prosesin başqa növləri işə düşür (apellyasiya icraatı, kassasiya icraatı, yeni açılmış hallar üzrə icraat və s.). Bütün ölkədaxili vasitələr tükəndikdə, dövlətin inhisarında olmayan və daha geniş imkana malik beynəlxalq müdafiə tədbirləri işə düşür. Aydındır ki, daha sonra gələn icraat növləri əvvəlki icraatın nöqsanlarını aşkara çıxarmaq imkanlarına malik olmalıdır.

Bütün bunlardan başqa, müdafiə sistemlərinə birbaşa aidiyyəti olmayan, lakin az-çox dərəcədə insan hüquq və azadlıqlarının təminatına aidiyyəti olan prinsiplər də vardır. Bu prinsiplər təşkilati məsələlərlə bağlıdır və son nəticəsi insan hüquqlarının təmin olunması üçün zəruri şərait yaratmaqdır. Məsələn, hakimiyyət bölgüsü prinsipi birbaşa hüquq və azadlıqların müdafiəsi ilə bağlı olmasa da, son nəticədə məhz bu məqsədə yönəlmişdir. Hakimiyyət məhz onun bir əldə toplanmaması və insan hüquq-

larının tapdalanmaması üçün bölünür. Məhkəmələrin müstəqilliyi onun təşkilati prinsipidir, bunula belə, o da son nəticədə hüquqların təmin olunmasına yönəlmişdir. Bundan başqa, şəxsiyyətlə dövlət orqanı arasındakı münasibətin əsaslandığı iki əsas prinsip də insan hüquq və azadlıqlarının təminatı mexanizmində mühüm rol oynayır. Bu prinsiplərin biri dövlət orqanları, digəri isə vətəndaşlar üçün müəyyən olunmuşdur. Vətəndaşlar üçün müəyyən olunan prinsipə görə, qanunla qadağan olunmayan hər şeyi etmək mümkündür. Yəni vətəndaşlar üçün yalnız o əməllər qadağandır ki, onlar birbaşa qanunla müəyyənləşdirilmişdir. Dövlət orqanları isə «qanunda nəzərdə tutulanlardan başqa, hər şey qadağandır» prinsipi əsasında fəaliyyət göstərməlidirlər.

Bir sıra əsas təminatlar konstitusiyada hüquq və azadlıq kimi əks olunmuşdur. Bunlara Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi (hüquq və azadlıqların məhkəmə təminatı), 61-ci maddəsi (hüquqi yardım almaq hüququ), 62-ci maddəsi (məhkəmə aidiyyətinin dəyişdirilməsinin yol verilməməsi), 63-cü maddəsi (təqsirsizlik prezumpsiyası), 64-cü maddəsi (bir cinayətə görə iki dəfə məhkum etməyə yol verilməməsi) və 65-ci maddəsi (təkrar müraciət hüququ) aiddir. Bu hüquqlar praktikada subyektiv hüquq kimi deyil, həm də hüquq və azadlıqların təminatı mexanizmində müxtəlif prinsiplərin əksi kimi təzahür edir. Məsələn, məhkəmə aidiyyəti məsələsi əslində subyektiv hüquq deyildir (mahiyyətinə görə), çünki bu dövlət orqanlarının öz arasında həll olunan məsələdir. Bununla belə, bu hüquq burada müdafiə vasitələrinin məqsədəmüvafiqliyi prinsipinin əksidir. Konstitusiyaya görə, insan hüquq və azadlıqları birbaşa hüquqi qüvvədədir. Bu müddəa onu bildirir ki, burada əks olunan müd-

dəaların qanunvericilikdə dəqiqləşdirilib-dəqiqləşdirilməməsindən asılı olmayaraq, hər bir halda şəxs öz hüququnun həyata keçirilməsi üçün şərait yaradılmasını tələb edə bilər. Bu ondan irəli gəlir ki, konstituision normaların bir hissəsinin birbaşa praktikada tətbiq olunması olduqca mürəkkəbdir. Bu əsasdan istifadə edib hüquq və azadlıqların realizə edilməsinə maneçiliyin qarşısını almaq üçün Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsində insan hüquq və azadlıqlarının birbaşa qüvvədə olduğu göstərilir.

Konstitusiyada həm də hüququn tətbiqi praktikası üçün insan hüquq və azadlıqlarının təminatı məqsədilə ümumi əsaslar, şərtlər müəyyən edilir. Belə ki, Konstitusiyanın heç bir norması hüquq və azadlıqların ləğvinə yönəlmiş müddəa kimi təfsir edilə bilməz. Nəzərə alsaq ki, hüququn tətbiqi prosesinin mühüm mərhələlərindən biri normanın məzmununun təfsir vasitəsilə müəyyənləşdirilməsidir və sonradan da elə bu təfsirə uyğun olaraq da norma tətbiq olunur, o zaman bu müddəanın böyük əhəmiyyətə malik olduğunu görərik. Konstitusiya həm də müəyyən edir ki, «fiziki və hüquqi şəxslərin vəziyyətini yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilir. Başqa normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilmir» (149-cu maddə). İnsan və vətəndaş hüquqları ilə bağlı bütün mübahisələr məhz bu məqsədlə yaradılmış orqanda - məhkəmədə həll edilir. Bu barədə Konstitusiyanın 71-ci maddəsinin VII hissəsində deyilir: «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir».

V BÖLMƏ

İNSAN VƏ VƏTƏNDAŞIN HÜQUQ VƏ AZADLIQLARI

I fəsil

ŞƏXSİ HÜQUQ VƏ AZADLIQLAR

§ 1. Yaşamaq hüququ

Yaşamaq hüququ hər bir insanın ən ümdə təbii hüququdur. Digər bütün hüquq və azadlıqlar məhz yaşamaq hüququndan sonra gəlir. Yaşamaq hüququ insanın mövcudluğu ilə birbaşa bağlıdır və onu insana heç kəs vermir. Fərd doğulduğu andan onun yaşamaq hüququ əmələ gəlir və ömrünün sonuna qədər də bu hüquq ayrılmaz olaraq onunla qalır. Yaşamaq hüququ şəxsin öz fiziki və bioloji fərdi mövcudluğu üçün heç bir məhdudiyyət qoyulmadan fəaliyyət göstərməsini, insanın bir sosial varlıq kimi müxtəlif maddi və mənəvi nemətlərdən bəhrələnməsini ifadə edir. Bu hüquq, sadəcə, insanın doğulması faktı ilə ortaya çıxır. Hər hansı psixobioloji çatışmazlığa malik olub-olmamasından, habelə şəxsi-mənəvi keyfiyyətlərindən asılı olmadan hər bir şəxs yaşamaq hüququna malikdir. Müasir dövrdə dövlətlərin üzərinə həm də fərdin layiqli həyat səviyyəsini təmin etmək, yəni yaşamaq hüququnu müəyyən optimal səviyyəyə qaldırmaq tələbi də qoyulmuşdur, lakin bu heç də o demək deyildir ki, sadəcə fərdin həyatının toxunulmazlığını təmin etməklə dövlətin vəzifəsi bitmiş hesab edilir. Dövlət həm də fərdin layiqli yaşayış səviyyəsi qayğısına qalmalıdır. İnsanın bir canlı varlıq kimi mövcudluğu anı artıq yaşamaq hüququnun əmələ gəlməsi üçün əsasdır. Lakin yaşamaq hüququnun nə zaman əmələ gəl-

məsi ilə bağlı praktikada və nəzəriyyədə müxtəlif fikirlər səsləndirilir. Məlum olduğu kimi, insan hələ ana bətnində olanda müəyyən mərhələni keçdikdən sonra canlı hesab olunur. Real həyatda isə hələ canlı kimi doğulmamış, mövcud olmayan uşağın hüquq subyektliyi məsələsi bir qədər mürəkkəbdir. Qərb ölkələrində, o cümlədən ABŞ-də müxtəlif dini cərəyanlar tərəfindən abort edilməsinə qarşı təbliğat aparılır ki, bu cür dini cərəyanların fikrincə, insan hələ ana bətnində olarkən artıq yaşamaq hüququna malikdir və hamiləliyin süni üsullarla yarımçıq kəsilməsi başqasını həyatdan məhrum etməkdir, yəni abort qanunsuz əməldir və qadağan olunmalıdır. Hələ doğulmamış şəxsin hüquq subyekti hesab olunması və yaşamaq hüququna malik olması bəzi dövlətlərdə konstitusiya səviyyəsində həll olunur (məsələn, Slovakiya). ABŞ-nin bir sıra ştatlarında abort qadağandır. 1973-cü ildə ABŞ Ali Məhkəməsinin qərarına görə, hamiləliyin birinci üç ayı ərzində abort məsələsi həkim və qadın tərəfindən müstəqil həll edilməlidir, dördüncü aydan başlayaraq dövlət ananın sağlamlığı ilə bağlı özü göstəriş müəyyən edə bilər, yeddinci aydan başlayaraq (dölün artıq canlı kimi formalaşdığı vaxt) abortun ananın sağlamlığına xələl gətirəcəyi təsdiq olunarsa, ştat abortu qadağan edə bilər.

İnsanın yaşamaq hüququnun nə zaman bitməsi məsələsi də praktik nöqteyi-nəzərdən böyük əhəmiyyətə malikdir. Qeyd etmək lazımdır ki, yaşamaq hüququ hər hansı bir hüquqi faktdan asılı olmadan mövcud olduğuna görə (təbii və ayrılmaz hüquq kimi) onun bitməsi həmişə, bir qayda olaraq, ölüm faktı ilə baş verir. Ancaq ölümün özü ilə bağlı da hüquqda müəyyən məsələlər vardır (məsələn, transplantasiya məsələləri). Bunlardan birincisi ölüm faktının hansı anda əmələ gəlməsidir. Belə qəbul olunur ki,

beyinin tam fəaliyyətdən düşdüyü an artıq ölüm faktı kimi qəbul oluna bilər. Lakin bəzən beyin fəaliyyətdən düşəndə belə, insan orqanizmində zəif də olsa digər orqanlar öz funksiyalarını yerinə yetirə bilir. Bu zaman həkimin süni həyat təmin edən orqanları xəstədən ayırması cinayət tərkibi yaradan əməl kimi baxıla bilməz, çünki ölüm faktı, sadəcə, beyinin fəaliyyətdən düşməsi ilə artıq hüquqi fakt yaranmış olur.

Şəxsin özünün könüllü olaraq həyatdan getməsi imkanının olub-olmaması məsələsi də yaşamaq hüququ üçün əhəmiyyətə malikdir (evtanaziya hüququ). Hal-hazırda evtanaziya hüququn ən aktual problemlərindən biridir. Evtanaziya sağalmaq imkanı olmayan xəstənin öz arzusu ilə həyatdan getməsini nəzərdə tutur. Artıq bir sıra ölkələrdə evtanaziya leqallaşdırılmışdır (Hollandiya, Avstraliyanın bəzi şatatları). ABŞ və Böyük Britaniyada isə evtanaziya ilə bağlı bir neçə məhkəmə prosesi olmuşdur. Evtanaziyanın tərəfdarları öz fikirlərini belə əsaslandırırlar ki, sağalacağına ümid olmayan şəxsin artıq əzab çəkməsinə şərait yaratmaq lazım deyildir və ona özü istədiyi təqdirdə həyatdan getmək imkanı verilməlidir. Əks fikrin tərəfdarları isə fikirlərini belə əsaslandırırlar ki, həyat insanın özü tərəfindən yaradılmayıb və insan özü ondan imtina edə bilməz. Bundan başqa, evtanaziyanın leqallaşdırılması ondan sui-istifadə hallarını artıra bilər və ölümcül xəstənin qaldığı müddət ərzində müalicə üsulunun tapılması da istisna olunmur.

Evtanaziya məsələsinə münasibət Azərbaycanda 1997-ci il iyunun 26-da qəbul olunmuş «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikasının Qanununda bildirilmişdir. Bu Qanunun 38-ci maddəsi ilə evtanaziyaya anlayış verilməklə yanaşı, belə tibbi əməliyyat

Azərbaycanda qadağan edilmişdir. Həmin maddənin birinci hissəsində deyilir: «Evtanaziya, yəni xəstənin xahişi ilə onun ölümünü hər hansı vasitə, yaxud hərəkətlə tezləşdirmək, həyatın davam etməsinə kömək edən süni tədbirlərin dayandırılması qadağandır».

Yaşamaq hüququ bir çox qanunvericilik aktlarında müxtəlif normalarla müdafiə olunur (cinayət qanunvericiliyində cəzalar vasitəsilə, tibbi qanunvericilikdə həkimin vəzifələri şəklində və s.). Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsi ilə hər kəsin yaşamaq hüququ bəyan edilir. Eyni zamanda həmin maddədə konkret olaraq hansı hallarda, hansı üsullarla və hansı orqanlar tərəfindən insanın həyatına son qoyulması məsələsi dəqiqləşdirilmişdir. Konstitusiyaya görə, aşağıdakı hallar yaşamaq hüququndan məhrumetmə kimi başa düşülə bilməz:

1) dövlətə silahlı basqın zamanı düşmən əskərlərinin öldürülməsi (bu zaman öldürməyə özünümüdafiə tədbiri kimi baxılır);

2) məhkəmənin qanuni qüvvəyə minmiş hökmü əsasında ölüm cəzasının tətbiqi (bu zaman öldürmə əməlin ekvivalenti kimi başa düşülür);

3) digər hallarda. Bu anlayış hələ qeyri-müəyyəndir və qanunvericilikdə dəqiqləşdirilir.

Ölüm cəzası artıq Azərbaycan Respublikasında tətbiq edilmir. 1998-ci il fevralın 10-da qəbul olunmuş «Azərbaycan Respublikasında ölüm cəzasının ləğv olunması ilə əlaqədar Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və İslah-Əmək Məcəllələrinə dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanunu ilə ölüm cəzası tamamilə aradan qaldırıldı. Həmin qanuna və «Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın ölüm cəzasının ləğvinə yönəlmiş İkinci

Fakultativ Protokoluna qoşulmaq barədə» Azərbaycan Respublikasının Qanununa görə, müharibə dövründə və ya müharibə təhlükəsi mövcud olduqda ağır cinayətlərə görə ölüm cəzasının tətbiq olunma imkanı saxlanmışdır. İnsana qarşı silah işlədilməsinin ölümün baş vermə ehtimalını artırdığını nəzərə alaraq, Konstitusiya hansı halların cinayət hesab olunmayacağını müəyyən edir. Buraya zəruri müdafiə, son zərurət, cinayətkarın yaxalanması və tutulması, həbsdə olan şəxsin həbsdən qaçarkən onun qarşısının alınması, dövlətə qarşı qiyamın yatırılması, fövqəladə və hərbi vəziyyət zamanı səlahiyyətli şəxsin verdiyi əmrin yerinə yetirilməsi, silahlı basqın halları aiddir.

§ 2. Bərabərlik hüququ

Konstitusiyada təsbit edilmiş ən mühüm hüquq və azadlıqlardan biri də bərabərlik hüququdur. Bərabərlik, sadəcə, hüquqi kateqoriya deyil, həm də digər sosial elmlərdə, məsələn sosiologiyada istifadə edilən anlayışdır. Bərabərlik həm də ədalət anlayışı ilə birbaşa bağlıdır. Bərabərlik hüququ insanların müxtəlif amillərin təsiri ilə əsas olmadan bir-birinə və dövlətə münasibətdə fərqli qəbul edilməsini qadağan edir. Bərabərlik hüququ fərdin müxtəlif sosial-psixofizioloji amillərdən yaranan fərqli xüsusiyyətlərini nəzərə almadan onların hamısının eyni dəyərə malik olmasını ifadə edir. Bu hüquq feodalizmin son dövrlərində insanların təbəqələşməsini rədd edən hüquq kimi meydana gəlmişdir. Lakin nəzərə almaq lazımdır ki, tarix boyu bərabərlik heç də həmişə eyni cür başa düşülməmişdir və ona münasibət də fərqli olmuşdur. Marksizmin dolayısı ilə bağlı olduğu bir çox nəzəriyyələrdə (orta əsr utopistləri) bərabərlik dedikdə insanların faktiki bərabərliyi kimi başa düşülürdü.

Faktiki bərabərlik insanların öz maddi imkanlarına, yaşayış şəraitlərinə görə bir-biri ilə bərabər olmasını nəzərdə tutur. Bu bərabərliyi isə onun yaranmasına mane olan amilləri ləğv etməklə təmin etmək olardı. Odur ki, marksizm də daxil olmaqla bir çox nəzəriyyələr insanların faktiki bərabərliyinə mane olan əsas amil kimi xüsusi mülkiyyəti aradan qaldırmağı tələb edirdi. Lakin iş burasındadır ki, insanların zor gücünə bərabərləşdirilməsi onların öz imkanları vasitəsilə təzahürünə mane olur, şəxsiyyətin inkişafı (xüsusilə də maddi nemətlərin istehsalı və mənimsənilməsi ilə bağlı istiqamətdə) yönündə əsas maneəyə çevrilir. Bu cür zor gücünə ədalət adına insanları zorla bərabərləşdirməyin özü ən böyük bərabərsizlikdir. Əslində isə insanları ümumiyyətlə faktiki (sosial aspektdə) bərabərləşdirmək qeyri-mümkündür. İnsanlar bir fərd kimi təkrarolunmaz keyfiyyətlərə malikdirlər və onların fərd - bioloji imkanları bir-birindən fərqlənir. Ən azından bu amillərin təsiri altında insanlar arasında olan anadangəlmə bərabərsizliklə yanaşı (psixo-bioloji imkanlar baxımından), sonradan bunun əsasında sosial-faktiki bərabərsizlik formalaşır. Bərabərlik hüququ insanlar arasında formal bərabərliyi təmin edir. Formal bərabərlik özünü dövlət üçün insanlara yaradılan imkanlarda və şəraitdə ifadə edir. Dövlət hamıya bərabər imkanlar, şərait yaratmalıdır. Sonradan kiminsə hamı üçün yaradılmış imkandan daha uğurla istifadə edib hər hansı fəaliyyətdə irəliləməsi, aydındır ki, faktiki bərabərsizlik yaradacaqdır. Lakin dövlətin, sadəcə, formal bərabərsizliyi təmin etməsi o demək deyil ki, dövlət faktiki bərabərsizliyə münasibətdə heç bir tədbir görmür. Nəzərə almaq lazımdır ki, sosial-faktiki bərabərsizlik cəmiyyətdə sosial ziddiyyətlərin yaranmasına, təbəqələşmənin güclənməsinə, sabitliyin pozulmasına

səbəb olan ən əsas amillərdəndir. Faktiki bərabərsizlik ölkədə ümumi daxili məhsulun fərdlər arasında qeyri-bərabər paylanmasını, iqtisadi gücə malik və hətta dövlətin özü üçün belə təhlükəli olan azlığın yaranması deməkdir. Faktiki bərabərsizlik tarix boyu inqlabları stimullaşdıran ən əsas amillərdən biri olmuşdur. Odur ki, dövlət ən müxtəlif vasitələrlə (vergi qanunvericiliyi, sosial qanunvercilik və s.) faktiki bərabərsizliyin təhlükəli həddə qədər artmasına imkan vermir və onu nəzarətdə saxlamağa çalışır.

Bərabərlik hüququ öz əksini «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 7-ci maddəsində də tapmışdır. Azərbaycan Respublikasının Konstitusiyasında bərabərlik hüququ 25-ci maddədə müəyyən edilmişdir. Burada, hər şeydən öncə, göstərilir ki, hamı qanun və məhkəmə qarşısında bərabərdir. Qanun insanlararası münasibətləri nizamlayır, məhkəmə isə sosial münaqişələri həll edir. Qanun qarşısında bərabərlik onların faktiki və digər vəziyyətlərinin qanun tərəfindən nəzərə alınmayacağını ifadə edir. Çünki qanun hamı üçün verilir və hər kəs qanuna eyni dərəcədə əməl etməlidir. Dövlət orqanları qismində burada təsadüfən məhkəmə seçilməmişdir. Məhkəmə hamıya eyni gözlə baxmalıdır, çünki o, ədalət mühakiməsi ilə məşğuldur.

Dövlətə münasibətdə bəarbərlik məhkəmə və qanuna münasibətlə müəyyən edilirsə, insanlar arasında bərabərlik cinslər arası münasibət hesabına müəyyənləşdirilir. Bu da təsadüfi deyildir. Əsrlər boyu sosial bərabərsizliyin ən kəskin təzahürü məhz kişi-qadın bərabərsizliyi olmuşdur. İndinin özündə belə bir çox ölkələrdə bu bərabərsizlik qalmaqdadır. Kişi-qadın bərabərsizliyi əmlak və s. iqtisadi məsələlərə deyil, birbaşa əxlaqa və kişi ilə qadının ta-

rixən cəmiyyətdə yerinə yetirdiyi funksiyalara söykəndiyinə görə, demək olar ki, universal olmuşdur. Lakin istər-istəməz sual yaranır: hər cür amilin insanlararası münasibətlərdə nəzərə alınması bərabərsizlik deməkdirmi? Bəzən əksinə ola bilməzmi? Axı bir sıra faktorların nəzərə alınmaması özü artıq bərabərsizlikdir. Odur ki, Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin III hissəsində qarşılıqlı münasibətlərdə nəzərə alınması bərabərsizlik hesab olunacaq amillərin qısa siyahısı verilir. Buraya irq, milliyyət, din, qulluq mövqeyi, əqidə, sosial birliklərə mənsubluq, əmlak vəziyyəti aiddir. Göründüyü kimi, bu amillərin, demək olar ki, hamısı sosial faktorlardır. Bu da təsadüfi deyil, çünki məhz sosial vəziyyət və ya sosial məsələlərə münasibət hüquq və azadlıqların məhdudlaşdırılması üçün əsas olur. Lakin buraya bir çox obyektiv amillər də aiddir (dil, cins və s.). Bu amillər keçən əsrdə insanların arasında bərabərsizliyə səbəb olmuş ən əsas amillərdir.

Əsrlər boyu əmlak vəziyyəti insanların cəmiyyətdə mövqeyini müəyyən etmişdir. Qadınlar, sadəcə, qadın olduqlarına görə seçki hüququna malik olmamışlar. Türklər, sadəcə, türk olduqlarına görə ermənilər tərəfindən soyqırımına məruz qalmış, deportasiya edilmişlər. Lakin bərabərsizliyi hüquq və azadlıqların diferensiasiyası ilə qarışdırmaq olmaz. Hüquq və azadlıqların diferensiasiyası elə amillərə görə aparılır ki, onlar artıq hüquqi nizamasalmaya müstəqil təsir edir. Odur ki, hüquqi problemin optimal həlli üçün onların yaratdığı fərqlər mütləq nəzərə alınmalıdır. Hüquqi diferensiasiya eyni bir məsələyə həmin amillərə görə ayrı-ayrı subyektlərin mənafeyi naminə fərqli yanaşma nəzərdə tutur. Hüquq və azadlıqların bu cür diferensiasiyası əslində bərabərlik hüququnun təmin

edilməsi üçün zəruridir. Bu xüsusilə də əmək və ailə qanunvericiliyində hiss olunur. Bu qanunvericilik sahələrində uşaq və qadın orqanizminin xüsusiyyətləri nəzərə alınır və onlara güzəştlər müəyyən edilir. Bu xüsusiyyətlər nəzərə alınmadan qadın və uşaqlara da kişi orqanizminin dözə biləcəyi normalar şamil edilsəydi, bu ədalətsizlik olardı və qadınların və uşaqların hüququnun pozulmasına gətirib çıxarardı. Bundan başqa, bir çox obyektiv səbəblər üzündən əcnəbilər və vətəndaşlar arasında fərq qoyulur. Bu fərqlər əcnəbi və vətəndaşın mahiyyətindən doğur və bərabərsizlik kimi qəbul edilə bilməz. Məsələn, əcnəbilərin Azərbaycan Respublikasında siyasi fəaliyyətinə qadağa qoyulması bərabəsizlik kimi səciyyələndirilə bilməz, çünki siyasi fəaliyyətdə iştirak dövlətlə əlaqələri ifadə edir və burada əcnəbi ilə ölkə vətəndaşı arasında fərq qoyulmaması faktiki olaraq onların arasındakı fərqin silinməsi demək olardı. Burada bərabəsizlikdən o zaman söhbət gedə bilər ki, bir dövlətin vətəndaşlarına digər dövlətin vətəndaşlarına nisbətən Azərbaycan Respublikası ərazisində daha geniş imkanlar verilsin. Azərbaycan Respublikasının mövcud qanunvericiliyində əcnəbilərə onların mənsub olduğu dövlətə görə hər hansı üstün hüquqlar müəyyən edilməmişdir. Eyni zamanda onlara Azərbaycan Respublikası vətəndaşlarının malik olduqları hüquqlardan üstün hüquqlar verilməmişdir. Məsələn, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 13-cü maddəsinin 3-cü hissəsinə görə, əmək münasibətləri sahəsində Azərbaycan Respublikasının vətəndaşlarına nisbətən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə daha üstün hüquqların müəyyən edilməsi yolverilməzdir.

Azərbaycan Respublikası Konstitusiyasının ayrı-ayrı müddəalarının məzmun etibarilə zənginləşməsinə xidmət

edən 18 mart 2009-cu il tarixli referendumla Konstitusiyanın 25-ci maddəsinə IV və V hissələr əlavə olunmuşdur. IV hissədə qeyd olunur ki, heç kəsə bu maddənin III hissəsində göstərilən əsaslara görə zərər vurula bilməz, güzəştlər və ya imtiyazlar verilə bilməz, yaxud güzəştlərin və ya imtiyazların verilməsindən imtina oluna bilməz. Həmin maddənin V hissəsində isə nəzərdə tutulur ki, hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilir. Bu müddəaların, məzmunundan da göründüyü kimi, əsas məqsədi 25-ci maddənin təkmilləşdirilməsi və təmin olunması ilə bağlı dövlət üzərinə əlavə vəzifənin qoyulmasıdır.

§ 3. Azadlıq hüququ

Azadlıq hüququ fərdin davranış imkanlarını ifadə edir. Geniş mənada azadlıq fərdin təbii vəziyyətidir. Bu zaman fərd öz nöqteyi-nəzərincə istədiyi hərəkəti edə bilər. Dar mənada azadlıq konkret olaraq bu və ya digər hərəkəti etmək imkanının olub-olmaması ilə məhdudlaşır. Azadlıq hüququ vətəndaşlığından asılı olmayaraq hər bir şəxsə məxsusdur və ayrılmaz hüquqdur. «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»yə görə, bütün insanlar anadan azad doğulurlar. Azadlıq hüququ hər kəsin psixi vəziyyətindən və yaş səviyyəsindən asılı olmayaraq hamıya məxsusdur. Ruhi xəstələr və yetkinlik yaşına çatmayanlar da qanunla müəyyən olunmuş hədlərdə azadlıq hüququndan istifadə edirlər.

Azadlıq hüququ da uzun müddətli mübarizələr nəticəsində formalaşmışdır. Hələ qədim Romada azadlığın hər fərd üçün nə dərəcə dəyərli olduğunu başa düşərək, qul-

lara xüsusi rəhm əlaməti kimi onların azadlığa buraxılmasından istifadə olunurdu. Əsrlər boyu qulların qaldırdığı üsyanlar məhz azadlıqla bağlı olmuşdur. Müasir dövrdə də azadlıqdan məhrumetmə ən ağır cəza növlərindən biri kimi istifadə edilir. Azadlığın bu dərəcədə qiymətli olmasına səbəb nədir? Məsələnin sırf fəlsəfi tərəfini kənara qoysaq, azadlığı fərdin öz hərəkətləri üzərində iradəsinə uyğun sərəncamvermə imkanı kimi başa düşmək olar.

Ədəbiyyatda ona tez-tez nisbətən daha sadə anlayış verilir: azadlıq qanunla qadağan olunmayan hər şeyi etmək imkanıdır. Lakin bu anlayış azadlığa sırf hərəkət-davranış aspektindən və qanunlara münasibət aspektindən yanaşmadır. Təhsil məqsədləri baxımından nə qədər uğurlu olsa da, bu anlayış azadlığın hüquq üçün tələb olunan mahiyyət tərəfini açmır. Hər bir fərd yetkinləşdikcə, onda yalnız insana xas olan əlamətlər formalaşır. Bu əlamətlərin anadangəlmə instinktiv əsası olsa da, onlar, demək olar ki, tamamilə cəmiyyətin diktəsi əsasında formalaşır və insanı bir sosial fərd kimi xarakterizə edir. Bu cür ancaq fərdə məxsus əlamətlərdən ağlı (şüuru) və iradəni göstərmək olar. Azadlıqla əlaqə aspektində bizi daha çox iradə maraqlandırdığına görə, burada əsasən ona toxunacağıq. Yetkinləşən və öz maraqlarını dərk edən şəxsdə maraqlar tələbata çevrilir və fərd daim bu maraqların təmin edilməsi üçün müəyyən fəaliyyətlə məşğul olur. Bu fəaliyyət isə onun davranışlarında təzahür edir. Fərdin davranışı onun iradəsi əsasında - öz düşüncəsinə görə arzuları əsasında hərəkət etmək imkanı üzərində formalaşır. Davranış həddən çox fərdidir və insanın daxili aləmindən doğur. İki şəxsin eyni bir məqsədə çatmaq üçün tamam fərqli üsulları istifadə etməsi də buradan irəli gəlir. Hər bir fərd öz şəxsiyyətinə, daxili aləminə və arzularına gö-

rə necə hərəkət edəcəyini müəyyən edir, yəni iradəsi əsasında hərəkət edir. Bu mənada psixologiyada fərdin davranışı onun daxili aləminin təzahuru kimi də qəbul olunur. Bu bir növ şəxsiyyətin obyektivləşmiş, maddiləşmiş təzahürüdür və bunu fərdin həm özü, həm də başqaları əyani şəkildə müşahidə edir. Bu yolla da insanın ən əzəli tələbatlarından biri - özünü bir fərd, insan kimi dərk etmək və təsdiq etmək tələbatı ödənilmiş olur. Başqa sözlə, fərd öz davranışlarında müstəqildir və istədiyi kimi hərəkət etməsini müşahidə hesabına özünün əlahiddəliyini hiss edir. Bu imkandan məhrum olan insan bütün həyatı boyu onun üçün ağır nəticələr doğuran deqradasiyaya uğramış olur. Fərdin azadlığı - öz iradəsi əsasında hərəkət etmək imkanının olmasıdır, yəni özünü bir insan, canlı kimi ətraf mühitdə büruzə verməsi vasitəsidir. Azadlıq hüququ bu imkanın dövlət tərəfindən tanınan və qəbul olunan, başqa şəxslərin qəsdlərindən mühafizə olunan formasıdır. Azadlıq hüququ vasitəsilə şəxs bir canlı kimi öz əlahiddəliyini dərk etmək və cəmiyyətdə özünü təsdiq etmək imkanı verən iradəsini realizə imkanı əldə edir. Bu mənada azadlıq hüququ birbaşa şəxsin sosial varlıq kimi mövcudluğu və özünü realizə etməsi ilə bağlıdır və ondan məhrum olan insan (və ya başqa sözlə, öz iradəsini realizə edə bilməyən, öz arzuları əsasında hərəkət edə bilməyən insan) əslində insan kimi mövcud olmaqdan məhrum olmuş olur. Qədim Romada da qulların «instrumentarum vocale» («danışan alət»; Romada qullar insan hesab olunmurdu) adlanmasına səbəb də onların məhz iradədən məhrum edilmiş fərdlərə çevrilməsi olmuşdu. Onlar bir şəxs, fərd kimi öz istədiklərini həyata keçirə bilmirdi və cəmiyyət üzvləri də onların arzu və davranışlarını nəzərə almırdı, yəni az-çox əhəmiyyətə

malik bir canlı kimi onların mövcudluğunu cəmiyyətdə hiss etdirəcək heç nə yox idi. Odur ki, insanın azadlıq hüququ onun bir canlı, əlahiddə sosial varlıq kimi mövcudluğunu şərtləndirən və həm şəxsə, həm də ətrafdakılara bunu dərk etmək, duymaq imkanı verən bir vasitə kimi böyük əhəmiyyətə malikdir.

Azadlıq hüququnun sosial dəyəri təkcə bununla bitmir. İnsan öz istədiyi kimi hərəkət etmək və öz arzuladığı kimi yaşamaq imkanı əldə etdikdə həyat onun üçün daha dərin məna kəsb etmiş olur. Azadlıq hüququ fərdin öz həyatına məna verməsinə imkan verən (öz istədiyi kimi yaşamaq hesabına) əsas vasitədir. Odur ki, azadlıq hər bir kəs üçün həddindən artıq qiymətlidir və adətən, azadlıqda olan insan artıq daim alışdığı azadlığının qiymətini dərhal dərk etmirsə də, ondan məhrum edildikdə, azadlığın nə dərəcədə əhəmiyyətə malik olmasını dərk etmiş, duymuş olur. Elə buna görə də azadlıqdan məhrum etmə cəzası cinayət cəzaları sırasında daha ağırı (bəzi cinayətlərə görə ən ağırı) sayılır, insanı öz iradəsi əsasında sərbəst hərəkət etmək imkanından məhrum edir və deməli, onun bir canlı, şüurlu fərd kimi özünürealizə imkanını ciddi şəkildə məhdudlaşdırır, şəxsin öz istədiyi kimi, öz düşüncəsinə görə mənalı yaşamaq imkanını əlindən alır. Azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişlər barəsində işlədilən «həbsxanada, qazamatda çürüyür» ifadəsi də buradan gəlir. Bu ifadə insanın diri-diri öz iradəsi əsasında sərbəst davranmaqdan, yaşamaqdan məhrum edilməsinin ölümə bərabər tutulmasına görə formalaşmışdır. Bütün bunlara görə də azadlıq hüququ yaşamaq hüququ qədər vacib və insan üçün əhəmiyyətli hüquqlardan biridir.

Azadlıq nisbidir. Mütləq azadlıq başqalarının azadlığına toxunduğu (başqalarının mənafeyi ziddinə olsa belə,

istədiyini etmək) və prinsipcə azadlığı inkar etdiyinə görə dünyanın hər yerində azadlıq qanunla müəyyən bir çərçivəyə salınır və ümumun (cəmiyyətin) mənafeyi tələb etdikdə, məhdudlaşdırıla bilər. Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsinin III hissəsindən görünür ki, ilk baxışda azadlıq hüququ fərdin sərbəst yerdəyişmə hüququ ilə üst-üstə düşür. Lakin bu belə deyildir. Fərdin sərbəst yerdəyişmə imkanı azadlıq hüququnun tərkib hissəsi olsa da, onun hamısı deyildir. Azadlıq hüququnun məhdudlaşdırılmasının ən çox fərdin yerdəyişmə imkanının məhdudlaşdırılması şəklində təzahür etməsini və fərdlərin ən çox əhəmiyyət verdiyi tərəflərdən birinin məhz ölkə ərazisində yerdəyişmə imkanının olması ilə bağlı oldğunu nəzərə alaraq, Konstitusiya da azadlıq hüququnu məhz bu aspektdə təsbit edir. Bu məsələnin hüquqi-texniki (qanunvericilik texnikası) tərəfi ilə bağlıdır və azadlıq hüququnun məzmununu təşkil edən digər məsələlərin (öz istədiyi kimi yaşamaq, istədiyi işlə məşğul olmaq, istədiyi şəxslərlə və istədiyi şəkildə ünsiyyət saxlamaq və s.) əhəmiyyətini azaltmır. Bu həm də onunla bağlıdır ki, SSRİ-də vətəndaşların sərbəst yerdəyişmə imkanı əhəmiyyətli dərəcədə məhdudlaşdırılmışdı (pasport qeydiyyatı sistemi) və qanunvericiliyin əsası - Konstitusiya, görünür, bu məsələyə həm də tarixi aspektdən yanaşmışdır. Azərbaycan Respublikasında 4 aprel 1996-cı il tarixli «Vətəndaşların yaşadığı yer və olduğu yer üzrə qeydiyyat haqqında» Qanun da vardır. Lakin bu Qanun müvafiq sovet qanunlarından fərqli olaraq, tamam başqa konsepsiya üzərində qurulmuşdur. Bu Qanunun məqsədi vətəndaşların hərəkətlərinə nəzarət məqsədilə onların ölkə ərazisində rəsmi izlənməsi deyil, əksinə, onların hüquq və azadlıqlarının tam təmin olunması və qorunması məq-

sədilə lazım gəldikdə onların olduğu yerin müəyyən edilməsidir. Qeydiyyatın olmaması vətəndaşların hüquqlarının məhdudlaşdırılması əsası kimi çıxış edə bilməz. Azadlıq hüququ fərdin yalnız öz ölkəsi daxilində sərbəst yerdəyişməsini deyil, həm də öz ölkəsindən getmək və gəlmək hüququnu da nəzərdə tutur. Prinsipcə şəxsin yalnız ölkə ərazisində yerdəyişmə hüququnun olması onun istədiyi yerə köçmək və ya ölkəsinə qayıtmaq hüququnun məhdudlaşdırılmasıdır. «Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt»ın 12-ci maddəsinə görə, hər bir şəxs olduğu ölkəni, o cümlədən öz ölkəsini maneəsiz tərk edə bilər. Yalnız əsaslar olduqda, şəxsin müəyyən müddətə ölkədən kənara getmək hüququ məhdudlaşdırıla bilər (məsələn, əgər şəxs müəyyən dövlət sirrinə malikdirsə). Qeyd etmək lazımdır ki, şəxsin ölkə ərazisindən kənara getməsi onun hər hansı bir hüququnda əsaslı dəyişiklik yaratmır.

Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsinin II hissəsində şəxsin azadlıq hüququnun hansı hallarda məhdudlaşdırılmasının ən vacib əsaslarından söhbət gedir. Göstərilir ki, azadlıq hüququ yalnız tutulma, həbsəalma və ya azadlıqdan məhumetmə yolu ilə məhdudlaşdırıla bilər. Bu halda da məhkəmə müvafiq tədbirlərin qanuniliyinə nəzarət hüququna malikdir (orqanların öz səlahiyyətlərindən sui-istifadə etməməsi üçün). Tutma və həbsəalma qətimkan tədbirləridir və istintaqın gedişində, inzibati işlər üzrə icraatda tətbiq edilir. Qətimkan tədbirlərinin məqsədi fəaliyyətin səmərəliyini təmin etməkdir. Azadlıqdan məhrumetmə cəza tədbiridir və məhkəmənin hökmü ilə barəsində ittiham hökmü çıxarılmış şəxsə tətbiq edilir. Tutma iki növdə olur: inzibati qaydada tutma və cinayət prosessual qaydada tutma. İnzibati qaydada tut-

ma fiziki şəxsin azadlığının qısa müddətə məhdudlaşdırılmasıdır. O, müstəsna hallarda inzibati iş üzrə icraat tələb etdikdə həyata keçirilir və bir qayda olaraq, 3 saatdan artıq ola bilməz. Sərhədboyu rejimin pozulması ilə bağlı işlərdə tutma 24 saatadək müddətə və ya xəta törədənin şəxsiyyətini müəyyən etməyə imkan verən sənədlər olmadıqda, hakimin qərarı ilə üç günədək həyata keçirilə bilər. (bax: Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, 339-cu maddə). Cinayət-prosessual qaydada tutulan şəxs, əgər cinayət işi başlanması haqqında 24 saat ərzində qərar qəbul olunmazsa, dərhal azad olunmalıdır. Belə qərar qəbul olunsa da, şəxsin saxlanması 48 saatdan artıq davam edə bilməz. Tutulmuş şəxsə tutulduğu andan 48 saat keçənə qədər ittiham elan edilməli və o, məhkəməyə gətirilməli, məhkəmə işi təxirə salmadan baxmalı və onun haqqında həbs qətimkan tədbirinin seçilməsi və ya azad edilməsi haqqında qərar çıxarmalıdır. Həbsəalma yalnız cinayət prosessual hüquqda istifadə olunan qətimkan tədbiridir. Həbsdə saxlama əsasları olduqda, şəxs 2 ay müddətinədək, xüsusilə ağır və ya ağır cinayət törətməsinə görə isə 3 ay müddətinədək həbsdə saxlana bilər. Şəxsin azadlıq hüququnu qismən olsa belə digər qətimkan tədbirləri də məhdudlaşdırır (məcburi gətirilmə, ev dustaqlığı, başqa yerə getməmək barədə iltiztam və s.). Konstitusiyada bunlardan yalnız ən əsasları əks olunur. Həbsin bir başqa növü inzibati qaydada həbs etmədir. Lakin inzibati həbs qətimkan tədbiri deyil, azadlıqdan məhrumetmənin bir növ ekvivalenti olan tənbeh tədbiridir. İnzibati qaydada həbs müddəti 15 gündür və o, hamilə qadınlara, 18 yaşa çatmayan şəxslərə, 1-ci və 2-ci qrup əlillərə, 60 yaşına çatmış qadınlara, 65 yaşına çatmış kişilərə tətbiq olunmur.

Törədilmiş cinayətlərə görə məhkəmənin hökmü ilə iki cür azadlıqdan məhrum etmə cəzası tətbiq edilir: müyəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə. Ömürlük azadlıqdan məhrumetmə qadınlara, 18 yaşı tamam olmamış şəxslərə, hökm çıxarılana qədər 65 yaşa çatmış kişilərə tətbiq edilmir.

§ 4. Toxunulmazlıq hüququ

Vətəndaşların şəxsiyyətinin, mənzilinin toxunulmazlığı və təhlükəsiz yaşamaq hüquqları daha geniş anlayışların müxtəlif akspektlərini əhatə edir. Toxunulmazlıq fərdin bir canlı kimi fəaliyyət göstərməsi üçün vacibdir. Təhlükəsiz yaşamaq da mahiyyətcə toxunulmazlıqdır. Təhlükəsiz yaşamanın məzmunu qanunla lazım olan hallarda şəxsin toxunulmazlığının daha ciddi şəkildə və aktiv dövlət müdaxiləsi ilə təmin edilməsini bildirir. Toxunulmazlıq, ümumiyyətlə, subyektin və ona aid olan xüsusiyyətlərin elə vəziyyətini ifadə edir ki, bu zaman onun fəaliyyəti üçün kənar müdaxilə istisna olunur və fərd normal fəaliyyət göstərə bilir.

Müasir həyatda elm və texnikanın inkişafı nəticəsində toxunulmazlığın əhəmiyyəti xüsusilə artmışdır. Bir vaxtlar öz obyektiv xüsusiyyətlərinə görə toxunulmaz hesab olunan bir çox məsələlər bu gün artıq insan üçün idarə olunan obyektə çevrilir (məsələn, insanın təhtəlşüur hərəkəti, yuxu prosesi). Nəticədə fərdin normal fəaliyyəti üçün ciddi və hissolunmaz təhlükə yaranır. Bu gün artıq informasiya və psixoloji təsir kütləvi təsir etməyə imkan verən vasitələrə çevrilir və silah kimi istifadə olunmaq keyfiyyəti qazanır. Nəticədə isə nəinki ayrı-ayrı fərdlərin, hətta bütöv bir cəmiyyətin mövcudluğu üçün təhlükə yaranır. Konstitusiya cəmiyyətin toxunulmazlığının fərdin

toxunulmazlığından keçdiyini nəzərə alaraq, insanların toxunulmazlıq hüququnu həyatın hər bir sahəsində təmin etməyə çalışır. Toxunulmazlıq fərdin inkişafı üçün səmərəli şəraitin yaradılmasını nəzərdə tutur.

Şəxsi toxunulmazlıq geniş anlayışdır və sadəcə, bir fərdin fiziki cəhətdən toxunulmazlığını ehtiva etmir. Mənzil toxunulmazlığı da əslində şəxsi toxunulmazlığın bir hissəsidir. Mənzil hüququndan fərqli olaraq, mənzil toxunulmazlığı hüququ sosial-mədəni hüquq və azadlıqlara deyil, şəxsi hüquq və azadlıqlara aiddir. Buna səbəb odur ki, mənzil hüququ maddi, sosial-iqtisadi kateqoriya - mənzillə bağlıdır. Mənzil toxunulmazlığı isə konkret mənzillə bağlı olsa da, daha geniş bir anlayışın - toxunulmazlığın tərkib hissəsini təşkil edir. Mənzil hüququnun təmin olunması üçün digər sosial-iqtisadi hüquq və azadlıqlarda olduğu kimi dövlətin aktiv təminedici fəaliyyəti tələb olunursa, mənzil toxunulmazlığının təmin olunması daha çox dövlətin qanunla qoyduğu hədlərə riayət etməsi ilə bağlıdır. Bundan başqa, şəxsin yaşadığı yer necə olmasından və adlanmasından asılı olmayaraq, toxunulmazlıq hüququna malikdir. Mənzil hüququ isə birbaşa onun toxunulmazlığı ilə bağlı deyil və sadəcə, mənzilə və ya yaşayış sahəsinə malik olmaqla artıq bu hüququnu realizə edir. Şəxsi toxunulmazlıq fərdin həyatının hər bir sahəsinə aiddir. Buraya fiziki cəhətdən toxunulmazlıq, əxlaqi-mənəvi həyatın toxunulmazlığı və psixi toxunulmazlıq aiddir. Fərdin toxunulmazlığı, əslində Azərbaycan Respublikası Konstitusiyasının 32-ci, 33-cü maddələrində deyil, həm də qismən 31-ci maddəsində (təhlükəsiz yaşmaq hüququ) və 46-cı maddəsində (şərəf və ləyaqətin müdafiəsi hüququ) əks olunur.

Toxunulmazlıq şəxsin razılığı olmadan ona məxsus olan hər hansı bir şeylə bağlı müəyyən fəaliyyətin həyata keçirilməsini istisna edir. Toxunulmazlığın fərd üçün əhəmiyyəti onda əks olunur ki, o, fərdin inkişafına şərait yaradır və ona bir şəxsiyyət kimi müstəqilliyi təmin edir. Fiziki toxunulmazlıq fərdin cisminin və bioloji tamlığının toxunulmazlığını bildirir. İnsan üçün toxunulmazlıq hətta formal hüquq normalarından kənarda belə, onun məşğuliyyətindən asılı olmayaraq böyük əhəmiyyətə malikdir. Bu xüsusilə də fiziki və əxlaqi-mənəvi toxunulmazlığa aiddir. Psixoloji təcrübələr vasitəsilə sübut edilmişdir ki, insan öz bədənindən 10-20 sm-ə qədər kənar məsafəni (bütün bədən boyu) bilavasitə öz məkanı kimi mühafizə edir və yaxın ünsiyyətdə olmayan adamların bu məsafənin hüdudlarına müdaxilə etməsini narahatlıqla qarşılayır. Məhz buna görədir ki, insanlar bir-biri ilə ünsiyyətdə olarkən, aralarındakı münasibətdən asılı olaraq, bilavasitə məkanla şərtlənən müəyyən məsafə saxlayırlar. Toxunulmazlıq hüququ, tam yəqinliklə deyə bilərik ki, hətta insan psixikası ilə şərtlənir.

Fiziki toxunulmazlıq cinayət hüququnda çoxsaylı normalar vasitəsilə qorunur (adam öldürməyə görə məsuliyyət, bədənə xəsarət yetirməyə görə məsuliyyət, təhqirə görə məsuliyyət və s.). Məhz fiziki toxunulmazlıq hüququna görə istintaqda fiziki təzyiq metodlarının istifadəsinə icazə verilmir.

Tibb sahəsi müəyyən spesifikliyə malik olduğundan, burada toxunulmazlıq xüsusi qaydalar nəzərə alınmaqla qorunur. Tibbdə istənilən əməliyyata və ya şəxsin bədəninə tibbi məqsədlərlə müdaxiləyə yalnız həmin şəxsin razılığı ilə yol verilir. Fiziki toxunulmazlığa müdaxilə etmək lazım gəldikdə, bu barədə və onun ehtimal olunan

müxtəlif nəticələri barədə mütləq xəstəyə məlumat verilməlidir. Şəxsin fiziki toxunulmazlığı bir sıra hallarda, xüsusilə də cinayət prosesində məhdudlaşdırıla bilər. Burada fiziki toxunulmazlığın məhdudlaşdırılması cəmiyyətin və işin istintaqı naminə əslində şəxsi müəyyən hərəkətə məcbur etmək anlamına gəlir.

Psixi toxunulmazlıq şəxsin psixikasının, onun orqanizminin psixi funksiyalarının toxunulmazlığını bildirir. Bu səhhətə və psixi sağlamlığa zərər vuran metodların tətbiqinin yolverilməzliyi, hipnoz və digər xüsusi metodlardan istifadə etməklə dindirmənin yolverilməzliyi, psixi təzyiq göstərmənin yolverilməzliyi şəklində təzahür edir. Bundan başqa, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində əks olunan bir çox normalar şəxsə psixi təzyiq göstərməklə əldə edilmiş ifadə alınmasını qadağan edir, prosessual qanunvericilik isə bu cür qanundan kənar yolla əldə edilmiş sübutları sübut kimi qəbul etmir. Vətəndaşların birbaşa özü və yaxın saydığı insanlarla bağlı olan, açıqlanması onların mənafeyinə hər hansı şəkildə ziyan vuran hər cür həyati məsələlər şəxsi həyat anlayışı ilə ehtiva edilir. İnsan bəzən öz fəaliyyətinin müəyyən bir hissəsini başqalarından gizlədir. Adətən, bu ya əxlaq normalarına görə belə tələb olunduğu üçün həyata keçirilir, ya da şəxs başqalarının münasibətinin onun üçün vacib məsələyə mənfi təsir edəcəyini nəzərə alaraq bunu edir. Bu yolla fərd ona məxsus olanı nəinki dövlətdən, həm də cəmiyyətin arzuolunmayan təsirindən qorumuş olur. Bundan başqa, insan fəaliyyətinin bir çox tərəfləri özünün xüsusiyyətlərinə, mahiyyətinə görə daim gizli saxlanılır (məsələn, intim münasibətlər). Bu cür məsələlərdə toxunulmazlığın pozulması mövcud münasibətlərə mənfi təsir edir və vətəndaşın mənafeyinə toxunur. Odur ki, qanun-

vericilik şəxsi həyatın qorunması üçün sirr anlayışını qanunvericilik sisteminə daxil edir. Lakin nəzərə almaq lazımdır ki, sirr sadəcə olaraq şəxsi həyatla bağlı deyil, daha geniş anlayışdır və zəruri hallarda fəaliyyət və ya başqa hüquqi məsələ ilə bağlı cəmiyyətə informasiya ötürülməsinin qarşısını alan xüsusi hüquqi institutdur. Sirr sayılan hər bir məlumat və ya digər məsələ kütləvi informasiya kimi cəmiyyətə çatdırıla, müzakirə edilə və qiymətləndirilə bilməz. Yalnız qanunla qoyulan şərtlər tam ödəndikdən sonra bu məsələlər sirr kimi onlara şamil edilmiş hüquqi rejimdən çıxarıla bilər. Şəxsi münasibətlərin də böyük bir hissəsi lazım gəldikdə sirr hesab olunur. Lakin insanın sirr hesab edib başqalarından təbii olaraq gizlətdiyi məsələlərlə qanunun sirr hesab edib müdafiəyə aldığı məsələləri fərqləndirmək lazımdır. Bəzən bunlar üst-üstə düşməyə də bilər. Sırf şəxsi sirlə peşə sirrini də fərqləndirək lazımdır. Peşə sirri, adətən, şəxsə peşə fəaliyyətindən irəli gələrək etibar edilən, lakin birbaşa ona deyil, başqasının şəxsi məsələlərinə aid olan sirdir. Peşə sirrini şəxs ona görə qorumalıdır ki, burada başqasının mənafeyi vardır. Peşə sirrinin daşıyıcıları (vəkillər, müstəntiqlər, hakimlər, həkimlər, övladlığa götürmə məsələləri ilə məşğul olan müvafiq işçilər və s.) bu sirrin yayılmasına görə məsuliyyət daşıyırlar və bu sirr yalnız qanunla və ya sirrin əslində məxsus olduğu şəxsin razılığı ilə açıla bilər. Əlbəttə, peşə sahiblərinə həvalə edilən hər bir şəxsi informasiya özlüyündə sirr əhəmiyyətinə malik deyil, lakin müvafiq peşə sahibləri müraciət edənin tələbi olduqda, məzmunundan asılı olmayaraq hər bir informasiyanı sirr kimi qorumalıdırlar. Qanunla müəyyən edilmişdir ki, şəxsi sirr və istintaq sirri sayılan məsə-

lələrə dair işlərə məhkəmə baxışı zamanı qapalı məhkəmə iclasında baxıla bilər.

Hər bir peşə sirrinə müəyyən faktlar daxildir. Məsələn, tibb peşəsində bu faktlar tibbi yardım üçün müraciətin özündən, pasientin xəstəliyinin prosesindən (diaqnoz-qoyma, müalicə), xəstənin patoloji vəziyyəti haqqında hər hansı digər məlumatlardan ibarətdir. Vəkil peşəsinin sirri hüquqi yardımdan, müdafiə üçün müraciət faktının özündən, cinayət hadisəsi və onun iştirakçıları haqqında hər cür məlumatdan, iş üzrə iştirakçıralın şəxsi həyatı haqqında cinayət və ya mülki işdən əldə edilən məlumatlardan, vəkilin müttəhimlə hər hansı şəkildə saxladığı əlaqədən (yazışma, ikitərəfli söhbət və s.) ibarətdir. Vəkilin şahid kimi dindirilməsi qadağandır. İstənilən peşə üçün müvafiq peşə sirrinin komponentlərinin göstərilən qaydada şərhini vermək olar.

Şəxsi sirrin açılması ancaq qanunla qoyulmuş qaydada və həddə həyata keçirilə bilər. Adətən, şəxsi sirr cinayətkarlıqla mübarizə, sağlamlığın mühafizəsi və fövqəladə və ya hərbi vəziyyətin tətbiqi zamanı açıla bilər. Şəxsi sirr və toxunulmazlıq məsələləri daha çox şəxs cəza çəkərkən məhdudlaşdırılır (göndərilən məhsulların, yazışmaların yoxlanılması və s.). Şəxsi həyatla bağlı məlumatlar bəzən cinayətin açılması üçün zəruri olur və bu zaman sirrin daşıyıcısının istintaqa cəlb olunmasından asılı olmayaraq, bu şəxsi sirr öz statusunu saxlayır. Şəxsi həyata aid məlumatlar ekspertiza və s. istintaq hərəkətləri yolu ilə də müəyyən edilə bilər. İnsanların bir-birinə müxtəlif rabitə vasitələri ilə ötürdükləri informasiya da senzuraya məruz qala bilməz və onların şəxsi sirr sayılıb-sayılmamasından asılı olmayaraq, şəxs özü razı olmadığı təqdirdə ondan bu barədə hər hansı əsas olmadan məlumat tə-

ləb etməyə yol verilmir. «Əməliyyat-axtarış fəaliyyəti haqqında» 28 oktyabr 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanununa görə, şəxsi həyata prosessual qanunvericilikdən kənar müdaxiləyə yol verilir. Bu, adətən, cinayət başlamağa əsaslar olmadıqda ilkin məlumat toplanması məqsədilə həyata keçirilir və yalnız ciddi əhəmiyyətli məsələlərlə bağlı olmalıdır, başqa sözlə, şəxsin həyatına müdaxilə üçün ciddi əsaslar tapılmalıdır. Bütün bunların həyata keçirilməsi üçün məhkəmənin razılığı olmalıdır. Lakin əgər tədbirlər ağır cinayətin qarşısını almaq, istintaqdan gizlənən şəxsi aşkara çıxarıb ifşa etmək məqsədi və s. hallarla bağlıdırsa, bu zaman məhkəmənin icazəsi tələb olunmur.

Kütləvi informasiya vasitələrində şəxsi həyatla bağlı materialların, informasiyaların verilməsi iki halda ola bilər: həyatı ilə bağlı məlumatlar yayılan şəxsin yazılı razılığı olduqda; bu materiallar (informasiyalar) məhkəmənin qərarında öz əksini tapdıqda.

Mənzil insanın şəxsi həyatının bilavasitə bağlı olduğu ən əsas yerdir. Mənzil şəxsin daimi və ya müvəqqəti yaşayış yeridir və belə yerin öyrənilməsi ilə şəxs haqqında bir çox hallarda onun dediklərindən çox material əldə etmək olar. Buna görə də Konstitusiya mənzil toxunulmazlığını xüsusi olaraq qeyd edir. Mənzilin hüquqi rejimi bilavasitə yaşamaq üçün nəzərdə tutulmayan, lakin mənzil və s. məsələlərlə bağlı olan yerlərə də aid edilir. Buraya şəxsə məxsus qaraj, anbar, zirzəmi və s. yerlər aiddir. Mənzil rejimi şəxsin bir yerdən başqa yerə getdiyi zaman qaldığı kayuta, kupe və s.-yə də şamil edilir. Mənzil toxunulmazlığı şəxsin çalışdığı xidməti yerlərə aid deyildir. Mənzil sahiblərinin iradəsi ziddinə mənzilə daxil olmaq və ya mənzil və orada baş verənlər haqqında hər hansı

şəkildə məlumat toplamaq (hansı vasitədən istifadə edilməsindən asılı olmayaraq) qanunla qadağandır. Mənzilə mənzil sahibinin iradəsi ziddinə yalnız qanuni əsaslarla daxil olmaq olar. «Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt»ın 17-ci maddəsinə görə də, mənzil toxunulmaz elan edilir. Qanuni şəkildə mənzilə daxil olma əsasən aşağıdakı hallarda mümkündür:

1) baş verməsi öncədən müəyyən edilməyən fövqəladə hallar zamanı. Bu zaman mənzilə daxil olma yanğın, zəlzələ, daşqın və s. bu kimi təxirəsalınmaz müdaxilə tələb olunan hallarda həyata keçirilir. Bu hərəkətlər mənzildə yaşayanların və cəmiyyətin mənafeyi naminə həyata keçirilir;

2) cinayətin açılması, cinayəti törədən və ya şübhəli şəxs haqqında əməliyyat-axtarış tədbirləri çərçivəsində məlumat əldə edilməsi zəruri olduqda;

3) cinayətin və baş verən digər hüquq pozuntusunun qarşısının alınması zamanı;

4) qərar və digər məhkəmə aktlarının icrası həyata keçirilərkən.

Bir sıra istintaq hərəkətlərinin edilməsi üçün cinayət prosesində bəzən zərurətə görə mənzilə daxil olmaq lazım gəlir. Əməliyyat-axtarış fəaliyyətində təxirəsalınmaz tədbirlər zamanı sonradan 48 saat ərzində hakimə xəbər vermək şərtilə mənzilə daxil olmaq mümkündür. Müxtəlif növ əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı bunun üçün əsaslandırılmış qərar hazırlanır və hakimə təqdim edilir. Hakim də bu qərar əsasında belə bir tədbirin aparılması üçün icazə verilməsi məsələsini həll edir.

Təhlükəsiz yaşamaq hüququ dövlətdən tələb edir ki, o, hər bir şəxsin onun həyatına təhlükəli olan amillərdən

kənarda yaşamasını təmin etsin. Əslində bu cür amilləri tam kənarlaşdırmaq, sadəcə, qeyri-mümkün olduğundan, dövlətin vəzifəsi burada daha çox yaranan və ya yarana biləcək təhlükəni aradan qaldırmaqla (zərərsizləşdirməklə) bitir. Bunun üçün dövlət bununla bağlı müvafiq qaydalar müəyyən edir. Dövlətin əsas vəzifələrindən biri də hüquq mühafizə orqanlarının səmərəli fəaliyyətləri ilə insanların təhlükəsiz yaşamaq hüququnu təmin etməkdən ibarətdir. Qanunvericiliklə bu və ya digər fəaliyyət növünə qoyulan çoxlu qadağalar da (silahın mülki dövriyyədən çıxarılması, kütləvi tədbirlərin keçirilməsi şərtləri və s.) insanların təhlükəsiz yaşamaq hüququnu təmin etmək məqsədilə müəyyənləşdirilir. Nəzərə almaq lazımdır ki, dövlətin işi, sadəcə, artıq əmələ gəlmiş və mövcud olan təhlükəni tapmaq, onu aradan qaldırmaq deyil, həm də təhlükəsizliyin özü tələb etdiyi üçün potensial təhlükə mənbəyini aşkara çıxarmaq, onu zərərsizləşdirmək və ya ən azı nəzarətdə saxlamaqdır. Bunun üçün dövlətin çoxsaylı tədqiqat institutları, güc strukturları fəaliyyət göstərirlər. Hər bir fərdin təhlükəsiz yaşamaq hüququnun realizə edilməsi bütövlükdə cəmiyyətin təhlükəsizliyinin həyata keçirilməsi deməkdir. Dövlət də bu məsələdə ən azı cəmiyyətin sabitliyinin təmin olunması baxımından maraqlıdır. Həyat kifayət qədər mürəkkəbdir və təhlükə bir sahədə deyil, çoxsaylı fəaliyyət sahəsində mövcud olduğuna görə (informasiya təhlükəsizliyi, iqtisadi təhlükəsizlik, hərbi təhlükəsizlik və s.) bu hüququn realizə edilməsinə irimiqyaslı tədbirlərdən tutmuş, şəxsin təhlükəli yerdən uzaqlaşdırılmasına qədər bir çox müxtəlif tədbirlər kompleksi daxildir. «Polis haqqında» 28 oktyabr 1998-ci il tarixli Azərbaycan Respublikası Qanunu polisin başlıca vəzifələrindən biri kimi vətəndaşların hə-

yat və səhhətinin, asayişin qorunmasını (təhlükəsizliyi) hesab edir. Dövlət bir qrup şəxslər üçün xüsusi müdafiə tədbirləri həyata keçirir. Bu ondan irəli gəlir ki, dövlətin həyata keçirdiyi müdafiə tədbirləri, adətən, gözlənilən təhlükəyə adekvat olmalıdır, əks tədirdə təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi çox çətin olar. Məsələn, cinayət prosesinin iştirakçıları üçün təhlükənin daha yüksək olduğunu nəzərə alaraq (müttəhim və onun qohumları, eləcə də maraqlı digər şəxslər) qanunvericilik onların qorunmasının xüsusi qaydalarını müəyyən edir. 1998-ci ilin 11 dekabrında qəbul olunmuş «Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununa görə, şahidlər, müttəhimlər, iddiaçılar, onların müdafiəçiləri, ekspert və s. şəxslər və onların yaxın qohumları barəsində zəruri hallarda xüsusi müdafiə tədbirləri həyata keçirilməlidir. Bu zaman şəxsin əmlakının, səhhətinin, mənəvi həyatının qorunması üçün dövlət orqanları müəyyən təşkilati-texniki tədbirlər həyata keçirməlidirlər.

Təhlükəszlik tədbirlərinin müxtəlif növləri mövcuddur: şəxsin özünün və əmlakının qorunması; ona fərdi müdafiə vasitələrinin verilməsi; onun mövcud təhlükə haqqında xəbərdar edilməsi, müvəqqəti olaraq başqa yerdə yerləşdirilməsi; müdafiə olunan şəxs haqqında məlumatların məxfiliyini təminetmə; iş, yaşayış, təhsil yerinin dəyişdirilməsi; xarici görünüşün və müvafiq sənədlərin dəyişdirilməsi; şəxsin iştirak etdiyi təqdirdə məhkəmə iclasının qapalı keçirilməsi. Təhlükə haqqında bu cür tədbirlərin həyata keçirilməsi gözlənilən olmalıdır. Təhlükə haqqında məlumat almış orqan işçisi onu yoxlamalı və üç gün ərzində, bəzi hallarda təxirə salmadan əsaslandırılmış qərar qəbul etməli (müdafiə tədbirlərinin keçirilib-keçiril-

məyəcəyi barədə), bu barədə şəxsə məlumat verməlidir. Müdafiə olunan şəxs aşağıdakı hüquqlara malikdir: təhlükəsizlik tədbirləri haqqında məlumat almaq, müəyyən tədbirin tətbiqi və ya saxlanılması barədə vəsatət vermək, tətbiq olunan tədbirlərdən başqa, digər təhlükəsizlik tədbirlərinin tətbiqini və ya ləğvini orqanlardan tələb etmək, təhlükəsizlik tədbirlərini həyata keçirən orqanın hərəkətlərindən şikayət etmək. Müdafiə olunan şəxsin vəzifələri bunlardır: təhlükəsizlik tədbirləri ilə əlaqədar qaydalara riayət etmək, ona qarşı yönələn qanunsuz hərəkətlər və ya gözlənilən tədbirlər barədə dövlət orqanına dərhal xəbər vermək, onun barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri barədə informasiyanı yaymamaq. Konstitusiya şəxslər barəsində güc tətbiq edilməsinin onların təhlükəsizliyi ilə bir araya sığmadığını əsas tutaraq qanunsuz güc və təzyiq vasitələrinin tətbiqini qadağan edir. Hazırlanan və ya icra olunan cinayətin qarşısının alınması, cinayət törətmiş şəxsin yaxalanması zamanı vətəndaşlara münasibətdə polis güc tətbiq edə bilər. Xüsusi vasitələr vətəndaşa ən az zərər yetirməklə tətbiq oluna bilər. Belə ki, silah tətbiq etməzdən əvvəl polis bütün vasitələrdən istifadə etməlidir ki, şəxs verilmiş əmri yerinə yetirsin. Əgər şəxs verilmiş əmri pozmaqda davam edərsə (cinayət etməkdə davam edərsə), polis silah tətbiq edəcəyi barədə xəbərdarlıq etməli, bu da fayda verməsə, ardıcıllıq üzrə xəbərdarlıq atəşi açmalı və ən sonda şəxsin həyat üçün çox təhlükəli olmayan üzvlərinə atəş açmaqla baş verən qəsdin qarşısını almalıdır. Polis bu tədbirləri girovlar azad edilərkən, polisə müqavimət göstərilərkən, vətəndaşların əmlak və səhhəti üçün təhlükə olarkən, həbsdə olan şəxs qaçmağa cəhd göstərərkən və s. hallarda tətbiq edə bilər.

§ 5. Fikir, söz və vicdan azadlığı

İnsanın mənəvi həyatı ilə birbaşa bağlı olan iki əsas hüquq vardır: fikir, söz və vicdan azadlığı. Bu hüquqlar insanın daxili aləminin, xüsusilə də onun intellektual-mənəvi tərəflərinin təzahür formalarıdır. Hər iki hüquq insanın şəxsiyyəti ilə birbaşa bağlıdır. Bu hüquqların təmin edilməsi şəxsiyyətin öz daxili aləmini büruzə verməsi üçün əsas şərtdir. Söz və fikir azadlığı təsadüfən birgə xatırlanmır. «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 18-ci maddəsində də fikir və vicdan azadlığı birgə nəzərdən keçirilir. İnsan zərurətdən öz fikrini və istəklərini bildirməyə məcburdur. Söz fikrin ifadə formasıdır. Dil fikrin maddiləşmiş forması olan kimi, söz də fikri maddiləşdirən, onu başqaları üçün qavranılan hala salan bir formadır. Söz azadlığından məhrum edilmək fikrin özünə birbaşa təsir etməsə də, bu fikrin bir fikir kimi ünsiyyətdə rol oynamasına əsaslı təsir edir. Sözlə ifadə olunmasına imkan verilməyən fikir özünün əhəmiyyətini qismən də olsa itirir. Odur ki, söz və fikir birgə göstərilir. Əslində insanı fikir azadlığından tam məhrum etmək qeyri-mümkündür. Əvvəllər isə bu, ümumiyyətlə, mümkün deyildi. İndi isə psixoloji, kütləvi informasiya vasitələrinin inkişafı artıq fikri də əsaslı dərəcədə idarə etməyə, cəmiyyətdə insanların iradəsi və düşüncəsi ziddinə müəyyən fikir formalaşdırmağa imkan verir. Odur ki, müasir dövrdə fikir azadlığı, sadəcə, dövlətin müdaxiləsi olmadan realizə olunan hüquq olmaqdan daha çox, realizə olunması üçün dövlətin aktiv fəaliyyət göstərməli olduğu hüquqa çevrilir. Dövlət alternativ informasiya mənbələrinin fəaliyyətini təmin etməli, hər bir fərdə iradəsi və mənafeyi ziddinə müəyyən fikir aşılanmasının qarşısı-

nı almalıdır. Hal-hazırda informasiya insanlara elə güclü psixoloji təzyiq vasitələri ilə və elə formada çatdırılır ki, insan özü belə, bilmədən alternativ informasiya mənbələrinin verdiyi məlumatı öyrənmək və obyektiv qiymətləndirmək imkanından məhrum olur, ona zidd təsir edən fikrin təzyiqinə məruz qalır. Bu da insanların fikirlərinin idarə olunması, onlara sərbəst düşünmək imkanının verilməməsi, məqsədyönlü şəkildə həyata keçirilən fikri məhdudlaşdırmadır.

Söz azadlığı cəmiyyətdə demokratikliyin səviyyəsini göstərir. Cəmiyyətdə söz nə qədər azad olarsa, həmin ölkə bir o qədər demokratik olar. Lakin sözün azadlığı ona həddqoyulmaması demək deyildir. Bütün başqa hüquq və vəzifələrdə olduğu kimi, burada da başqalarının şərəf və ləyaqətini nəzərə almaq lazımdır. Söz azadlığına söykənib ondan sui-istifadə etmək özü hüquq pozuntusu hesab olunur (şantaj, təhqir, böhtan, iftira və s.). Fikir və ümumiyyətlə, insanın əqidəsi psixologiyada davranışın daxili tənzimləyicilərindən, nizamlayıcılarından hesab edilir. Fikir vasitəsilə fərdin əqidəsi formalaşır. Əqidə isə bu və ya digər məsələyə şəxsin əsaslandırılmış, müəyyən dəyərlərə söykənən münasibətidir. İnsan fikir və söz vasitəsilə öz əqidəsini də büruzə verir və əqidədən dönməyə məcbur etmək insanın öz fikrindən, inam və etiqadından döndərilməsi deməkdir. Şəxs yalnız öz arzusu ilə əqidəsini və ya fikrini açıqlaya bilər. Şəxsin özünün razılığı olmadan onun fikir və əqidəsi ilə bağlı dediklərini hər hansı informasiya daşıyıcısına daxil edib, sonra şəxsin əleyhinə istifadə etməyə qanun qəti yol vermir. Dövlət sirri olan informasiyanın yayılması artıq söz azadlığı kimi baxılmır və məsuliyyətə səbəb olur. «Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt»a görə,

insanın fikir və söz azadlığı hüququ digər şəxslərin hüquqlarına və adına hörmət edilməsi və dövlət təhlükəsizliyinin, ictimai asayişin, əhalinin sağlamlığının, mənəviyyatının qorunması məqsədilə yalnız qanun çərçivəsində məhdudlaşdırıla bilər (19-cu maddə).

Konstitusiyanın 47-ci maddəsinin III hissəsində söz azadlığının məhdudlaşdırılmasının ümumi meyarları müəyyən edilərək göstərilir ki, «irqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir». Belə hərəkətlər heç zaman söz və fikir azadlığı kimi qiymətləndirilə bilməz, əksinə, bu əməllər cinayət məsuliyyətinə səbəb olur. Bu da ondan irəli gəlir ki, belə əməllərlə fikrin yayılması cəmiyyətin sabitliyini pozar, insanların hüquq və azadlıqlarını təhlükə altında qoyar. Nəzərə almaq lazımdır ki, qanunvericilik konkret olaraq digər millətə və ya insana münasibətə görə deyil, belə münasibəti, fikri söz formasına çevirib təbliğ etməyə görə məsuliyyət müəyyən edir. Bu da ondan irəli gəlir ki, heç kəs öz fikrinə görə məsuliyyətə cəlb oluna bilməz. Lakin bu fikirlər artıq sözə keçib başqa insanlara da təbliğ edildikdə, ictimai təhlükəli əməl xarakteri alır.

Vicdan azadlığı insanların əxlaqla münasibətdə muxtariyyatını təsbit edir. İnsan özünün daxili inamına əsasən hərəkət edir və başqalarının onun davranışına verdiyi qiymət nə dövlət üçün, nə də özü üçün məcburi deyildir. Fərd özünün əxlaqına görə hərəkət edir. Hal-hazırda bu hüququn başa düşülməsi ilə bağlı müəyyən fərqli fikirlər var. Tarixən bu hüquq sırf dinlə münasibəti ehtiva edirdi. Bu ondan irəli gəlir ki, əsrlər boyu din insanlararası münasibətlərdə, xüsusilə əxlaqla bağlı məsələlərdə hakim mövqedə olmuşdur. Odur ki, bu hüququn məzmunu get-

dikcə daralmış və sadəcə, dinə münasibət müəyyən etmək imkanını ehtiva etmişdir. Vicdan azadlığı indi də ənənəvi olaraq dinə münasibət müəyyən etmək imkanı ilə məhdudlaşır. Bu, vicdan hüququna dar yanaşmadır. Vicdan hüququna daha geniş yanaşma bu hüququ öz dünyagörüşünün əsasını müəyyən etmək imkanı kimi qəbul edir. İnsan dinə münasibəti də daxil olmaqla öz fəlsəfi baxışlarını müəyyən edə və buna müvafiq də davrana bilər. Geniş yanaşmaya görə, bu da vicdan azadlığına daxildir. Vicdan azadlığına konkret olaraq aşağıdakı elementləri daxil edirlər:

1) istənilən dinə inanmaq hüququ;
2) dini ibadətləri, ayinləri yerinə yetirmək hüququ;
3) dinini dəyişmək hüququ;
4) heç bir dinə inanmamaq hüququ;
5) dini təbliğat hüququ;
6) ateistik təbliğat hüququ;
7) xeyriyyəçilik fəaliyyəti hüququ;
8) dini təhsil hüququ;
9) dini mədəni-maarif fəaliyyəti ilə məşğul olmaq hüququ;
10) dinə münasibətdən asılı olmayaraq, hamının qanun və məhkəmə qarşısında bərabərliyi hüququ.

«Dini etiqad azadlığı haqqında» Azərbaycan Respublikası Qanununa əsasən (1992-ci il avqustun 20-də qəbul edilmiş və 2009-cu ilin iyununun 30-da sonuncu dəyişikliklər və əlavələr edilmişdir) insanlar özlərinin dinə münasibətindən asılı olmayaraq, həyatın hər bir sahəsində bərabərdirlər. Dini etiqad bu və ya digər yerdə işə düzələrkən və ya digər hüququnu və vəzifəsini realizə edərkən bu hüquq və vəzifələrə təsir edən hüquqi fakt kimi nəzərə alınmamalıdır. Azərbaycan Respublikasında bütün

dinlər də qanun qarşısında bərabərdir. Azərbaycan Respublikasında dövlət dini yoxdur və heç bir dinə xüsusi mövqe, üstünlük verilmir. Dini etiqad azadlığı onda ifadə olunur ki, şəxs dinə münasibətini sərbəst müəyyən edir, təkbaşına yaxud başqaları ilə birgə təşkilatlanaraq dini fəaliyyətlə məşğul ola bilər. Fərd dini təşkilatlara münasibətindən və onlara üzvlüyündən asılı olmayaraq, dini fəaliyyətlə məşğul ola bilər. Azərbaycan Respublikasının qanunvericiliyi əcnəbilərin ölkə ərazisində öz dinlərinə etiqad etmələrinə imkan verir, lakin "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsi əcnəbilərə dini təbliğatla məşğul olmağı qadağan edir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi şəxslərin dini etiqad azadlığını həyata keçirməyə əsas olmadan mane olmağa görə məsuliyyət müəyyənləşdirir. Hər hansı dini təşkilata üzv olmaq və üzvlükdən çıxmaq məsələsini də şəxs özü sərbəst həll edir. Dini təşkilatlar hüquqi şəxslərə bərabər tutulur. Onların öz nizamnaməsi, əmlakı olur və məhkəmədə öz adından çıxış edirlər. Dini etiqad azadlığı ictimai asayişi pozduğu, habelə ictimai əxlaqa zidd olduğu hallarda qanunda nəzərdə tutulan qaydada məhdudlaşdırıla bilər.

Dövlət öz vətəndaşlarının dini etiqadını yoxlamır və ona nəzarət etmir, dini təşkilatların daxili işinə qarışmır, dini təşkilatlara yardım göstərmir. Dini təşkilatlar da müvafiq olaraq dövlətin işlərinə qarışmırlar. Bütün bunlar dövlətin dünyəviliyi prinsiplərinin tələbləridir. Nəzərə almaq lazımdır ki, din hər hansı etnosun özünü dərk vasitəsi kimi çıxış edir və sosial proseslərə təsir edə bilən əsas amillərdən biridir. Odur ki, dövlət cəmiyyətdə dindən sui-istifadə edilməsinə yol verə bilməz və müəyyən

fikrin, əqidənin, o cümlədən dinin vətəndaşların, cəmiyyətin və dövlətin mənafeyinə zidd olduğu bütün hallarda onun yayılması üçün edilən hər hansı hərəkət və hərəkətsizliyin qarşısını almalıdır.

§ 6. Şərəf və ləyaqətin müdafiəsi hüququ

Şərəf və ləyatəq hüququ insanların ən əzəli, təbii hüquqlarından biridir. Hələ uşaqlıqdan valideynlərimiz və bütövlükdə cəmiyyət bizə şərəf və ləyaqəti birbaşa olmasa da, tərbiyə, təbliğat vasitəsilə bir dəyər kimi mənimsədirlər. Başqalarının bizə qarşı işlətdiyi xoşagəlməz söz, bizimlə alçaldıcı rəftarı dərhal mənfi reaksiya verməyimizə səbəb olur. Bu onunla bağlıdır ki, hər bir insan ona qarşı göstərilən münasibətə doğrudan da layiq olub-olmamasından asılı olmayaraq, daim özünə bir fərd, şəxsiyyət kimi münasibət göstərilməsini tələb edir. Bu, insanın özünə verdiyi dəyərlə, qiymətlə bağlıdır. Başqasına qarşı alçaldıcı rəftar həmin şəxsə verdiyimiz qiymətin dolayı ifadəsidir və təbii ki, hər bir şəxs də ona qarşı necə rəftar edilməsi məsələsini kifayət qədər ciddi qiymətləndirir.

Şərəf və ləyaqətin müdafiəsi hüququ ayrı-ayrı fərdlərə və insan qruplarına məxsusdur. Bir qayda olaraq, hüquqi şəxslərə münasibətdə işgüzar nüfuz anlayışından istifadə olunur. Şərəf hər bir fərdə cəmiyyət tərəfindən verilən qiymətdir. Şərəf insanın, fərdin bir sosial fərd kimi cəmiyyət üçün nə dərəcədə əhəmiyyətli olmasını ifadə edir. Ləyaqət, adətən, insanın özünün özünə verdiyi qiymət kimi çıxış edir. Hər iki anlayış bir-birilə sıx əlaqədə olsa da, onların arasında müəyyən fərqlər də vardır. Həm şərəf, həm də ləyaqət subyektiv anlayışlardır. Bununla belə, onlar obyektivlikdən də məhrum deyil. Bir

çox hallarda insanın özünə verdiyi qiymətdən (ləyaqət) asılı olaraq, ətrafdakılar ona qiymət verir (şərəf). Lakin bəzən insanın özünə verdiyi qiymətlə davranışları uyğun gəlməyəndə (özünə yüksək qiymət verən insanın bu qiymətə layiq olmayan alçaldıcı hərəkətləri), ətrafdakıların ona verdiyi qiymət də fərqlənməyə başlayır və fərdə onun davranışlarına görə qiymət verilir. Hər iki anlayış əslində sırf əxlaqi kateqoriyadır və məzmunca həddən çox şərtidir. Bu anlayışlar ölkədən ölkəyə və millətdən millətə fərqli olduğu kimi, hətta eyni bir məkanda və zamanda yaşayıb, eyni tərbiyəni görmüş insanlarda da fərqli ola bilər. Kimin üçünsə onun şərəfini təhqir edən hərəkət başqası üçün heç də əhəmiyyət kəsb etməz. Odur ki, adətən, şərəf və ləyaqətin məzmunu heç bir qanunda birbaşa və dəqiq şəkildə açıqlanmır. Şərəf və ləyaqətlə bağlı bir çox məsələlər birbaşa praktikadan asılı olaraq müəyyən edilir. Lakin bununla belə, şərəf və ləyaqətin ən ümumi xüsusiyyətlərini ayırd etmək mümkündür. Fərdin özü haqqında özünün düşündüyünün əksini iddia edən və onun mənafeyinə zidd olaraq başqalarında həmin fərd haqqında fikri dəyişən hər şey şəxsiyyətin şərəf və ləyaqətinə edilən təsir kimi nəzərdən keçirilə bilər. Azərbaycan Respublikası Konstitusiyasının 46-cı maddəsində şərəf və ləyaqətlə bağlı, demək olar ki, daha çox neqativ tutumlu norma əks olunmuşdur. Psixi və yaş səviyyəsindən asılı olmayaraq, hamının şərəf və ləyaqəti müdafiə olunur. Şərəf və ləyaqətin müdafiəsi şəxsin sosial mövqeyindən və cəmiyyətdə ona olan münasibətdən də birbaşa asılı deyildir.

Konstitusiyada şərəf və ləyaqətdən söhbət gedərkən qeyd olunur ki, heç kəsə işgəncə və əzab verilə bilməz və razılığı olmadan heç kəsin üzərində hər hansı növ təc-

rübə aparıla bilməz. Deməli, şərəf və ləyaqət anlayışı Konstitusiyada geniş mənada başa düşülür və fərdin fiziki toxunulmazlığını da əhatə edir (şəxsin üzərində təcrübə aparılmasının qeyri-mümkünlüyü). Şəxsin mənafeyi ziddinə olub, birbaşa onun şəxsiyyətinə qarşı yönələn hər hansı davranış, əməl şərəf və ləyaqətin müdafiəsi hüququna qəsd sayıla bilər. Konstitusiya fərdin şərəf və ləyaqətini alçaldan cəzalar verilməsini qadağan edir. Şərəf və ləyaqət həm cinayət qanunvericiliyi ilə, həm də digər sahə qanunvericiliyi ilə qorunur. Fərdin ümumi toxunulmazlığının təmin edilməsi onun şərəf və ləyaqətinin toxunulmazlığının təmin edilməsi deməkdir. Bir çox hallarda şəxsin toxunulmazlığına qarşı yönələn cinayətlər və digər əməllər həm də onun şərəf və ləyaqətinə təcavüz edir. Bir çox prosessual qaydalar da məhz bu aspektdə, yəni potensial olaraq fərdin şərəf və ləyaqətinin toxunulmazlığı amili nəzərə alınaraq işlənmişdir. Məsələn, şəxs üzərində axtarış aparılması prosesində bu tədbiri həyata keçirən şəxs, üzərində axtarış aparılan şəxslə mütləq eyni cinsdən olmalıdırlar. Heç bir istintaq hərəkətində şəxsə hədə-qorxu gəlməyə və mənəvi-fiziki təzyiq göstərməyə yol verilmir.

Mülki-hüquqi müdafiə forması Mülki Məcəllədə və müxtəlif qanunvericilik aktlarında öz əksini tapmışdır. Hər hansı fərdin şərəf və ləyaqətini ləkələyən məlumatlar yayan şəxs qanunvericiliyə müvafiq olaraq məsuliyyətə cəlb olunur və zərərçəkən şəxsə dəyən ziyan ödənilir; eyni zamanda ləkələyici məlumatlar dərc olunmuşdursa, həmin mətbu orqanında bu barədə təkzib verilir. İnsanın şərəf və ləyaqət hüququ və onun müdafiəsi «Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt»ın 7-ci maddəsində də əks olunmuşdur.

İşgəncə anlayışı 10 dekabr 1984-cü il tarixli "İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranış və cəza növləri əleyhinə Konvensiya"nın 1-ci maddəsində şərh edilmişdir. Burada əzab və işgəncə insana güclü fiziki və ya əxlaqi ağrı verən, onu alçaldan hərəkətlər kimi başa düşülür ki, bu hərəkətlər də, adətən, şəxsdən müəyyən məlumat almaq, onu nəyəsə məcbur etmək məqsədilə və dövlət orqanı, onun nümayəndəsi tərəfindən həyata keçirilir. İnsan hüquqları üzrə Avropa Məhkəməsi rəftarın qəddarlığına görə üç dərəcəsini fərqləndirir:

1) işgəncə - hər hansı məlumatı əldə etmək məqsədilə qeyri-insani rəftar;

2) qeyri-insani rəftar və ya cəza - konkret halda haqq qazandırılması mümkün olmayan və ciddi fiziki-əxlaqi ziyan yetirən rəftar;

3) şərəf və ləyaqəti alçaldan rəftar - bu elə bir rəftardır ki, insanı başqalarının qarşısında alçaldır və onu öz iradəsi və vicdanı əleyhinə hərəkət etməyə məcbur edir.

Avropa Məhkəməsi 1978-ci ildə İrlandiyanın Böyük Britaniya əleyhinə işinə baxarkən, bu normaları azacıq dəyişdi. İşgəncə güclü əzab verən rəftar kimi, qeyri-insani rəftar fiziki və əxlaqi zərərvurma kimi başa düşülür. Şərəf və ləyaqəti alçaldan davranış isə elə pis rəftar qaydası kimi anlaşılır ki, bu rəftar cinayətin qurbanında onun əxlaqi və fiziki müqavimətini qırmaq üçün natamamlıq kompleksi yaratmağa yönəlmişdir.

Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi Konstitusiyanın 46-cı maddəsini dəqiqləşdirir və inkişaf etdirir. Burada göstərilir ki, məhkumlarla rəftarda işgəncələrə, digər qeyri-insani hərəkətlərə və şəxsiyyətin alçaldılmasına yol verilmir.

§ 7. Milli mənsubiyyət və ana dilindən istifadə hüququ

Azərbaycan Respublikası Konstitusiyasının 44-cü və 45-ci maddəsində insanın etnosla əlaqəsini ifadə edən iki əsas vasitə hüquq kimi nəzərdə tutulur. Bunlardan biri özünü hər hansı etnosa aid etmə, ikincisi isə müəyyən bir dildə danışmaq hüququdur. Milli mənsubiyyət bioloji deyil, sosial anlayışdır. Yəni o, tərbiyə və s. ilə müəyyənləşir və fərdin bioloji xüsusiyyətləri ilə şərtlənmir. İnsan rus valideynlərdən doğula bilər, lakin gördüyü tərbiyə əsasında özünü rus deyil, azərbaycanlı hesab edə bilər. Milli mənsubiyyət insan üçün vacib amildir. O, fərdin özünü müəyyən bir etnosla eyniləşdirməsi deməkdir. Fərd özünü hər hansı xalqın üzvü, nümayəndəsi sayaraq onun mənəvi dəyərlərini, əxlaqını qəbul edir. Bu mənada milli mənsubiyyət fərd üçün istiqamətverici əhəmiyyətə malik bir vasitədir. Milli mənsubiyyət müxtəlif əlamətlər əsasında müəyyənləşir. Buraya dil, din, adət-ənənə və s. aiddir. Beynəlxalq aktlarda bəzən «milli azlıqlar» ifadəsi işlədilir ki, bu da istənilən növ azlığa şamil edilir. Milli mənsubiyyət bir hüquqi amil kimi fərdin hüquqi statusuna təsir etmir. Ona görə də mövcud qanunvericiliyə görə, Azərbaycan Respublikası vətəndaşlarının şəxsiyyətini təsdiq edən sənəddə əks etdirilən məlumatlar sırasında fərdin milli mənsubiyyəti göstərilmir. Eyni zamanda milli mənsubiyyət hüququndan istifadə etmə fərdə imkan verir ki, aid olduğu etnosun adət-ənənələrini həyata keçirsin, öz həyatında həmin etnosun sosial normalarını tətbiq və təqlid etsin.

Milli dil fərdlər arasında ünsiyyət üçün ən əsas vasitədir. İnsanın milli mənsubiyyətinin müəyyən edilməsin-

də dilin müstəsna əhəmiyyəti vardır. Çünki insan aid olduğu etnosun mədəni-mənəvi dəyərlərini məhz dil vasitəsilə mənimsəyir və dil həmin etnosun psixologiyasını şəxsə ötürən əsas vasitədir. Odur ki, bir başqa dildə danışıb özünü tamam başqa etnosa aid edən və özünü aid etdiyi etnosun dilini bilməyən insanlarda (azərbaycanca bilməyən, lakin özünü azərbaycalı sayan şəxslərdə) milli şüur adətən zəif olur. Belə insanlar artıq qismən assimilyasiya olunmuşdur. Təsadüfi deyil ki, bir milləti əritmək, aradan götürmək istəyəndə ilk növbədə onun öz dilini əlindən alırlar. Çünki dil milli şüuru əsrdən əsrə ötürən və millətin bütövlüyünü saxlayan ən əsas vasitədir. Ana dili anlayışı qanunvericilikdə açıqlanmır. Ana dili insanın tərbiyə aldığı və özü üçün əsas ünsiyyət vasitəsi hesab etdiyi dildir. Konstitusiyada müəyyənləşdirilir ki, insan istədiyi dildə tərbiyə ala, yaradıcılıqla məşğul ola bilər. Bu da ondan irəli gəlir ki, çox vaxt həyatda insanın tərbiyə aldığı dil təhsil aldığı dillə və ya yaradıcılıq üçün istifadə etdiyi dillə üst-üstə düşür. Tərbiyə dili, adətən, fərdin ilkin olaraq mənimsədiyi dildir. Bu dildə fərd ilkin vərdişləri mənimsəyir. Təhsil dili fərdin oxuduğu dildir. Yaradıcılıq dili isə şəxsin öz elmi-bədii fəaliyyətində istifadə etdiyi dildir. İnsan istədiyi dildə danışa bilər. Dil əlaməti əsasında hüquqların məhdudlaşdırılmasına qəti yol verilmir. Şəxsin dövlət dilini bilmədiyi təqdirdə onun üçün dövlət orqanlarında ünsiyyət zamanı (xüsusilə də cinayət və mülki prosesdə) tərcüməçi xidməti təmin edilməlidir. Azərbaycan Respublikası kimi çoxmillətli bir dövlətdə milli dil və milli mənsubiyyət hüququ xüsusilə böyük əhəmiyyətə malikdir.

§ 8. Nikah hüququ

Nikah hüququ insanların təbii hüququdur. Nikah, insanların ailə qurmaq məqsədilə müvafiq dövlət orqanında qeydə alınan könüllü ittifaqıdır. Nikah iki şəxs arasında əmələ gələcək ailə, məişət, mülki və digər münasibətlərin rəsmiləşdirilmə formasıdır və sonradan bu münasibətlərdən törənən nəticələrin dövlət üçün hüquqi fakt kimi qəbul olunmasına səbəb olur. Nikahla bağlı iki əsas fikir mövcuddur. Birinci fikrə görə, nikah müqavilə hesab oluna bilməz. O, adətən, ömürlük bağlanılır, şəxsi münsibətlərə söykənir və insanlararası münasibətlərin xüsusi formasını nəzərdə tutur. Ona görə də nikaha müqavilə anlayışı şamil edilə bilməz və nikahdan yaranan məsələlər də öhdəlik rejimi ilə əlaqələndirilməməlidir. Nikah iqtisadi məzmundan məhrumdur. İkinci fikrə görə, nikah müqavilələrin xüsusi növüdür, çünki insanlararası razılıqdan irəli gəlir. Buna görə də nikaha müqavilə-öhdəlik anlayışları şamil edilə bilər. Bu fikrin tərəfdarları nikahın iqtisadi məzmuna malik olduğunu iddia edirlər. Hal-hazırda müxtəlif ölkələrdə fərqli fikirlər əsasında qanunvericilik aktları qəbul olunur. Birinci fikir (klassik nikah) nikahdaxili münasbətlərin nə ilə əvəzlənməsinə imkan vermir. Burada bütün nikahdaxili münasibətlər tərəflərin özləri arasında qeyri-formal şəkildə həll olunur (dövlətin müdaxilə etmədiyi sahə). İkinci fikir (müqavilə nikahı) qəbul olunan dövlətlərdə tərəflər nikahdaxili məsələləri formal-müqavilə əsasında həll edirlər və bu zaman belə müqavilələri də digər müqavilələr kimi dövlət mühafizə etməlidir. Əslində isə hər iki növ üzrə bağlanmış nikah münasibətləri dövlət tərəfindən mühafizə olunur. Ərlə arvad arasında yaranan hər bir mübahisə on-

lardan birinin təşəbbüsü ilə məhkəmələrdə araşdırılır və zəruri hallarda qanunun göstərişlərinə müvafiq olaraq qərarlar qəbul edilir. Doğrudur, ərlə arvadın arasında yaranan əmlak mübahisələrinin həlli məhkəmə təcrübəsində çox mürəkkəb nüanslar doğurur, sübutların toplanması bəzən hətta mümkün olmur. Nikah mübahisələrinin həlli zamanı ərlə arvadın arasında bağlanmış yazılı müqavilə mübahisənin araşdırılmasını asanlaşdırmış olardı. Lakin bu heç də o demək deyildir ki, nikah müqavilə əsasında bağlanmayıbsa, dövlət onu tənzimləməməlidir, müdafiə etməməlidir.

Azərbaycan Respublikasında nikah klassik nikah anlayışına söykənir. Bununla belə, müqavilə bağlamağa icazə verilir. Lakin bu müqavilənin məzmunu bir çox qərb dövlətlərindən fərqli olaraq, ancaq əmlak münasibətləri ilə bağlı ola bilər və şəxsi münasibətələrin müqavilədə nəzərdə tutulmasına qanun yol vermir.

Bir sosial institut kimi nikah qədim tarixə malikdir və hər bir xalqın dini, dünyagörüşü ilə sıx bağlıdır. Nikahın dövlət tərəfindən nizamlanması onunla əlaqədardır ki, dövlət ailəni himayə edir və nikah da ailənin əmələ gəlmə əsasıdır. Nikah mütləq müəyyən yaşla şərtlənir. Bu yaş həddinin nəzərə alınması obyektiv tələbdir və onun qanunvericilikdə əks olunması da bundan irəli gəlir. Nikah yaşı insanların psixofizioloji baxımdan yetkinləşdiyi və ailə münasibətləri üçün hazır olduqları dövrü ifadə edir. Bu yaşa çatmadan bağlanan nikah etibarsız sayılır, çünki nikah bu halda nəzərdə tutulmuş təyinatını ödəmir. Nikah yaşı kişilər üçün 18, qadınlar üçün 17-dir. Ailə həyatı quran şəxslərin ərizəsi ilə müvafiq orqan bu yaşı bir il də azalda bilər.

Ailə insanların qan qohumluğuna, qarşılıqlı etimada və məsuliyyətinə əsaslanan xüsusi birliyidir. Ailə fərdi cəmiyyətə hazırlayır və nəsilartırma funksiyasını daşıyır. Nikah münasibətləri yalnız könüllülük əsasında qurulur. Aydındır ki, zorla bağlanan nikahın səmərəsi az olacaqdır və belə nikahın sonradan pozulması təhlükəsi də çoxdur. Nikaha daxil olan tərəflərin hökmən yazılı razılığı tələb olunur. Dövlət yalnız onun müəyyən etdiyi qaydada bağlanan nikahı tanıyır (vətəndaş nikahı). Dövlət orqanlarında bağlanmayan nikah (faktiki nikah) etibarsız sayılır. Bununla yanaşı, qanunvericilik fərdlərin öz dini adət-ənənələrinə uyğun nikaha daxil olmasına qadağa qoymur, sadəcə, bu zaman nikah adət-ənənə ilə yanaşı, həm də müvafiq orqanda qeydiyyatdan keçməlidir.

Analıq, atalıq, uşaqlıq fərdin həyatında xüsusi mərhələlər olub, bir qayda olaraq, nikahdan sonra əmələ gəlir. Ata və analıq yaşla kəskin məhdudlaşmır, bunun əksinə, uşaqlıq yaşla müəyyən edilir. 18 yaşına çatana qədər fərd uşaq sayılır və qanunvericilikdə nəzərdə tutulmuş hüquq və azadlıqlardan istifadə edir. Ata və analıq isə ailədə uşağın doğulması ilə və ya övladlığa götürmə faktı ilə ortaya çıxır. Qanunvericilikdə ata və analıq üçün müvafiq güzəştlər müəyyən edilmişdir. Məsələn, analıq məzuniyyəti yalnız analıqla bağlı olaraq verilir. Analar üçün əmək münasibətlərində müəyyən güzəştlər, imtiyazlar müəyyənləşdirilmişdir. Qanunla müəyyən edilmiş qaydada ata olan şəxslərin hərbi xidmət mükəlləfiyyətindən azad edilməsi də atalığa göstərilən qayğıdan irəli gəlir. Konstitusiya nəzərə alır ki, çoxuşaqlılıq Azərbaycanda nisbətən geniş yayılmış haldır və çoxuşaqlı ailələr üçün də yardım institutu nəzərdə tutulur.

Azərbaycan Respublikası Konstitusiyasının 34-cü maddəsi "Nikah hüququ" adlansa da, burada əslində nikahdan daha geniş olan məsələlərdən söhbət gedir.

Ailədaxili münasibətlərdə ər-arvadın hüquqları bərabərdir və bu onda təzahür edir ki, bütün əsas məsələlər birgə, qarşılıqlı razılıq əsasında həll olunur. Konstitusiya burada həm də əxlaqi kateqoriyaları hüquqiləşdirir. Ailənin əsası kimi vacib əhəmiyyətə malik olan ailə üzvlərinin bir-birini saxlama imkanı burada birbaşa olaraq həm hüquq, həm də vəzifə kimi müəyyənləşdirilir. Konstitusiya övladların üzərinə belə bir vəzifə qoyur ki, 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar.

Ailə hüquqları həm məhkəmə tərəfindən, həm də icra hakimiyyəti orqanları tərəfindən müdafiə olunur.

II fəsil

SİYASİ HÜQUQ VƏ AZADLIQLAR

§ 1. Sərbəst toplaşmaq azadlığı

Sərbəst toplaşmaq şəxslərin ən əsas siyasi hüquqlarından biridir. Bu hüquq Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsində nəzərdə tutulmuşdur. Konstitusiya sərbəst toplaşmaq azadlığının hansı məqsədlərlə həyata keçirilməsini müəyyən etmir. Lakin qanunvericiliyin analizindən belə nəticəyə gəlmək olar ki, sərbəst toplaşmaq azadlığı əsasən siyasi tələblərin nümayişkaranə ifadəsi məqsədini güdür. Bu hüquq hal-hazırda kifayət qədər aktual olan və konstruksiya nöqteyi-nəzərindən qanunvericilikdə hələ tam həllini tapmamış hüquqlardandır. Sərbəst toplaşmaq azadlığı könüllü olaraq həyata keçirilir və onun zaman-məkan baxımından, qanunvericilikdə qoyulan tələblərdən kənar, hər hansı şəkildə məhdudlaşdırılmasına icazə verilmir. Bu hüquq kollektiv hüquqdur və onun təkbaşına həyata keçirilməsi qeyri-mümkündür. Konstitusiyada bu hüquqdan istifadənin ümumi şərtləri də göstərilir. Birincisi, toplantı öncədən müvafiq dövlət orqanını xəbərdar etməklə həyata keçirilə bilər və ikincisi, toplantı ancaq dinc məqsədlərlə və silahdan istifadə edilmədən ola bilər. Öncədən dövlət orqanına xəbər vermə onunla bağlıdır ki, bu zaman dövlət orqanı toplantıda iştirak edən şəxslərin təhlükəsizliyini təmin etmək və arzuolunmaz nəticələrin qarşısını almaq üçün əlavə tədbirlər görə bilsin. Son illərin konstitusion təcrübəsi göstərir ki, sərbəst toplaşmaq azadlığı, sadəcə, vətəndaşların öz siyasi tələblərini birgə ifadə etmə tərzi deyil, həm də siyasi qüvvələr arasında bir-birinə qarşılıqlı təsir vasitəsi,

siyasi səhnədə taktiki gediş üsuludur. Bu isə sərbəst toplaşmaq azadlığına tamam yeni aspektdən baxılmasını tələb edir. Buna müvafiq olaraq yeni konsepsiya hazırlanmalı və buna uyğun qanunvericilik aktları qəbul olunmalıdır. Bu hüququn əsas məqsədi dövlət mexanizminə təsir etməkdir. Buna isə kütləvilik vasitəsilə nail olunur. Məhz buna görədir ki, bu hüququn həyata keçirilməsi zamanı qarşıya qoyulan məqsədə çatmaqla kütləvilik arasında müəyyən asılılıq vardır. Prinsipcə, qanunvericilik sərbəst toplaşmaq azadlığını həyata keçirərkən ciddi say məhdudiyyəti müəyyənləşdirmir. Bununla belə, öz-özlüyündə aydındır ki, bu hüququ realizə etməklə müəyyən məqsədə çatmaq istəyən şəxslər məhz o zaman istənilən nəticəni daha yaxşı əldə edə bilərlər ki, müxtəlif növ toplantılarda çoxlu şəxslər iştirak etsin. Odur ki, müxtəlif siyasi qüvvələr bu səbəbdən də keçirilən tədbirlərin maksimum gur, izdihamlı keçirilməsinə çalışırlar. Demək olar ki, müasir dövrdə sərbəst toplaşmaq azadlığı siyasi qüvvələrin böyük aktivliklə istifadə etdiyi bir hüquqa çevrilməkdədir. Sərbəst toplaşmaq azadlığının həyata keçirilməsində həmişə çoxsaylı və tez təsir altına düşən kütlə iştirak edir. Kütlə idarə olunur, lakin o, idarəolunmaz vəziyyətə gəldikdə, böyük təhlükəyə çevrilən potensial qüvvədir. Məhz buna görə də bütün kütləvi toplantılar (xüsusilə də siyasi) kifayət qədər riskli, təhlükə potensialına malikdir.

Sərbəst toplaşmaq azadlığının realizə edilməsi ilə bağlı iki əsas qayda vardır: 1) icazə qaydası: bu zaman sərbəst toplantının keçirilib-keçirilməməsi məsələsini dövlət orqanı özü həll edir və yalnız onun icazəsindən sonra sərbəst toplantı keçirilə bilər; 2) xəbərdarlıq qaydası: bu zaman toplantını keçirən şəxslər dövlət orqanına toplantı

barədə məlumat çatdırırlar, lakin dövlət orqanı sərbəst toplantının taleyini həll etmir.

Dünyanın bütün dövlətlərində sərbəst toplaşmaq azadlığı ilə bağlı müəyyən məhdudiyyətlər mövcuddur. Bunları, əsasən, aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1) dövlət təhlükəsizliyi və cəmiyyət təhlükəsizliyi ilə bağlı qoyulan məhdudiyyətlər;

2) əhalinin mənafeyi naminə qoyulan məhdudiyyətlər;

3) fövqəladə və hərbi vəziyyətlərlə bağlı qoyulan məhdudiyyətlər.

Azərbaycan Respublikasında sərbəst toplaşmaq azadlığı xəbərdarlıq əsasında həyata keçirilir. Bununla belə, sərbəst toplantının keçiriləcəyi yeri müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırmaq lazımdır. Qanunvericilikdə müəyyənləşdirilən məhdudiyyətlər, əsasən, sərbəst toplaşmaq azadlığının həyata keçirilməsi zamanı təhlükənin baş vermə ehtimalını azaltmaq və gündəlik iş rejiminin pozulmamasını təmin etmək məqsədi güdür. Elə buna görə də müxtəlif təhlükəli obyektlərin yerləşdiyi məkanların yaxınlığında sərbəst toplantıya icazə verilmir. 1998-ci il noyabrın 13-də qəbul olunmuş «Sərbəst toplaşmaq azadlığı haqqında» Azərbaycan Respublikasının Qanunu bu hüququn həyata keçirilməsi mexanizmlərini, qaydalarını tənzimləyir. Bu Qanunun 2-ci maddəsinə görə, burada istifadə edilən "toplantı" anlayışı bir neçə şəxsin xüsusi məqsədlə ictimai yerdə müvəqqəti toplaşmasını bildirir. Bu cür toplantı aşağıdakı formalarda ola bilər:

1) **«yığıncaq»** - şəxslərin hər hansı məsələni birlikdə müzakirə etmək və həmin məsələyə dair qərar qəbul etmək məqsədilə toplaşmasıdır;

2) **«mitinq»** - toplaşmış şəxslərin ümumi fikirlərini ifadə etmək və (və ya) ümumi çağırışlar etmək, tələblər irəli sürmək üçün keçirilən kütləvi tədbirdir;

3) **«nümayiş»** - bir qrup şəxsin ictimai və dövlət həyatı ilə bağlı məsələlərə dair fikirlərinin ifadəsidir;

4) **«küçə yürüşü»** - müəyyən marşrutla hərəkət edən bir qrup şəxsin ictimai və dövlət həyatı ilə bağlı məsələlərə dair fikirlərinin ifadəsidir;

5) **«piket»** - ictimai və dövlət həyatı ilə bağlı məsələlərə dair fikirlərini ifadə edən şəxslərin nümayişdə iştirak edənlərdən daha kiçik bir qrupunun müəyyən yerdə toplaşmasıdır.

Göründüyü kimi, sərbəst toplaşmaq azadlığının həyata keçirilmə formaları arasındakı fərqlər elə də kəskin deyil. Yığıncaqları digərlərindən fərqləndirən cəhət onlarda qərar qəbul edilməsi imkanının olmasıdır. Yığıncaq, adətən, qapalı yerdə keçirilir. Mitinq özünün kütləviliyi ilə fərqlənir. Küçə yürüşü isə digərlərindən özünün təzahürünə görə fərqlənir. Burada hərkət elementi vardır. Piket digər formalardan say amili ilə seçilir. Piketdə maksimum 50-ə qədər şəxs iştirak edə bilər. Nümayişlə digər növlər arasında fərq isə praktiki olaraq müəyyənləşdirilmir. Çox güman ki, nümayiş də mitinqdən say əsası ilə fərqlənir.

Şəxslərin xüsusi mülkiyyətində, icarəsində və ya başqa növ qanuni istifadəsində olan yerlərdə, ictimai tədbirlərin keçirilməsi üçün xüsusi olaraq ayrılmış qapalı yerlərdə keçirilən toplantılar, toy və dəfn mərasimləri, bayram və matəm tədbirləri, dini mərasimlər bu qanunla tənzimlənmir.

Qanunun 2-ci maddəsində sadalanan toplantıların hər hansı birini təşkil edən şəxs və ya şəxslər bu barədə müvafiq icra hakimiyyəti orqanını qabaqcadan yazılı surətdə

xəbərdar etməlidirlər. Xəbərdarlıq nəzərdə tutulmuş toplantının keçiriləcəyi gündən azı 5 gün əvvəl təqdim edilməlidir. Yazılı xəbərdarlıqda aşağıdakı məlumatlar olmalıdır:

1) keçirilməsi nəzərdə tutulmuş toplantının adı;

2) toplantının məqsədi;

3) toplantının keçirilmə yeri və vaxtı;

4) iştirakçıların təxmini sayı;

5) küçə yürüşü keçirilirsə, onun təklif edilən marşrutu (yürüşün başlanma yeri, məsafəsi və bitəcəyi yer);

6) toplantı təşkilatçılarının adı, soyadı, atasının adı və ünvanı;

7) yazılı xəbərdarlığın təqdim edildiyi tarix;

8) əlaqə telefonları və ya onlar olmadıqda əlaqə ünvanı.

Toplantı təşkilatçılarının hamısı yazılı xəbərdarlığı imzalamalıdırlar. Təsadüfi toplantılar üçün yazılı xəbərdarlığın təqdim edilməsi tələb olunmur. Bununla yanaşı, təsadüfi toplantıların Qanundakı tələblərə uyğun məhdudlaşdırılmasına və ya dayandırılmasına qanun imkan verir. Sərbəst toplaşmaq azadlığına hər hansı məhdudiyyət yalnız qanunla və demokratik cəmiyyətdə zəruri olan aşağıdakı mənafelərin qorunması məqsədilə qoyula bilər:

1) ictimai və dövlət təhlükəsizliyi mənafelərinin qorunması üçün;

2) ictimai asayişin pozulmasının qarşısını almaq üçün;

3) iğtişaş və ya cinayətlərin baş verməməsi üçün;

4) əhalinin sağlamlığının mühafizəsi üçün;

5) əxlaq normalarının və mənəviyyatın mühafizəsi üçün;

6) başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün.

Sərbəst toplaşmaq azadlığı müxtəlif formalarda, o cümlədən toplantı vaxtının və yerinin dəyişdirilməsi formasında məhdudlaşdırıla bilər. Qanunda birbaşa göstərilir ki, sərbəst toplaşmaq azadlığının məhdudlaşdırılması qarşıya qoyulan məqsədə mütənasib olmalıdır. Bu mütənasibliyin nədən ibarət olması geniş açıqlanmasa da, göstərilir ki, həmin məhdudiyyət qarşıya qoyulmuş məqsədə nail olmaq üçün lazım olan hədləri aşmamalıdır. Eyni zamanda müəyyənləşdirilir ki, sərbəst toplaşmaq azadlığının məhdudlaşdırılması üçün görülən tədbirlər məhdudiyyətin qoyulmasına səbəb olmuş məqsədə nail olmaq üçün son dərəcə zəruri olmalıdır. Bundan başqa, Qanunda sərbəst toplaşmaq azadlığının qadağan edilməsi və ya dayandırılması əsasları da nəzərdə tutulur. «Sərbəst toplaşmaq azadlığı haqqında» Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinə görə, toplantının qadağan edilməsi və ya dayandırılması əsasları aşağıdakılardır:

I.Ayrı-seçkiliyə, ədavətə və ya zorakılığa çağırışlarla müşayiət olunan, milli, irqi və ya dini ədavəti təbliğ edən toplantılar qadağan edilir.

II.Müharibəni təbliğ edən toplantılar qadağan edilir.

III.Siyasi məqsədlə dinc toplantı keçirmək aşağıdakı hallarda qadağan edilir:

1) Azərbaycan Respublikası Prezidentinin seçkiləri (ölkə ərazisində), Azərbaycan Respublikası Milli Məclisinə seçkilər (ölkə ərazisində), Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər (Naxçıvan Muxtar Respublikasının ərazisində), bələdiyyələrə seçkilər (müvafiq şəhər və rayonun ərazisində) gününə 24 saat qalmışdan seçki günü səsvermə məntəqələri bağlananadək;

2) referendumun keçirildiyi günə 24 saat qalmışdan səsvermə məntəqələri bağlananadək;

3) müvafiq icra hakimiyyəti orqanının qərarı ilə müəyyən edilmiş mühüm dövlət əhəmiyyətli beynəlxalq tədbirlərə hazırlıq dövründə və onların keçirildiyi günlərdə həmin tədbirin keçirildiyi şəhər və rayonların ərazilərində.

IV. Toplantı demokratik cəmiyyətdə zəruri olan hallarda və bu Qanunun 7-ci maddəsinin I hissəsində müəyyən edilmiş məhdudiyyətlər nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının sərəncamı ilə qadağan edilə bilər.

V. Zəruri hallarda toplantı bu Qanunun 7-ci maddəsinin I hissəsində müəyyən edilmiş məhdudiyyətlər nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının sərəncamı ilə dayandırıla bilər.

VI. Bu maddənin IV və V hissələrinə uyğun olaraq, toplantının qadağan edilməsi və ya dayandırılması son zərurət tədbiri sayılır və yalnız bu Qanunun 7-ci maddəsində müəyyən edilmiş məhdudiyyətlər kifayət etmədikdə tətbiq edilir.

Qanunda həm də sərbəst toplantıları təşkil edən şəxslərin və bu toplantılarda iştirak edən şəxslərin hüquqi statusu müəyyənləşdirilir. İcra hakimiyyəti orqanının qəbul etdiyi bütün qərarlardan məhkəməyə şikayət etmək olar ki, buna da 3 gün ərzində baxılıb cavab verilməlidir. Heç kim, sadəcə olaraq, toplantıda iştirak etməsinə görə məsuliyyətə cəlb edilə bilməz. Şəxsin məsuliyyətə cəlb edilməsi üçün əsas yalnız onun tərəfindən müəyyən hüquq pozuntusu törədildikdə yaranır.

§ 2. Məlumat azadlığı

Məlumat azadlığı müasir dövrdə vətəndaşların əsas siyasi azadlıqlarından birinə çevrilmişdir. Mürəkkəb sosial həyatda informasiya (məlumat) əhəmiyyətli çəkiyə malikdir və özü artıq sistemə müstəqil təsir edən amilə çev-

rilmişdir. Bu da ondan irəli gəlir ki, mürəkkəb və daim inkişaf edən sosial sistemlərdə fəaliyyət üçün mütləq informasiyaya malik olmaq və ondan istifadə etmək, lazımi obyektlərin fəaliyyətini proqnozlaşdırmaq lazımdır. Elm və texnikanın güclü inkişafı, elm tutumlu sənaye, elektronikanın gündəlik məişətimizə nüfuz etməsi, elmi informasiyanın geniş yayılması və həyatın ən müxtəlif sahələrində istifadə edilməsi son nəticədə ona gətirib çıxarmışdır ki, artıq informasiya təhlükəsizliyi anlayışı meydana gəlmiş, dövlətlərin informasiya təhlükəsizliyi konsepsiyası ortaya çıxmış və informasiya geniş kütlələri idarə etməyə imkan verən vasitə şəklini almışdır. Qeyd edək ki, Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsində əks olunan «məlumat» elə informasiya deməkdir.

İnformasiya bir sıra elmlər tərəfindən öyrənilir. Kommunikasiya nəzəriyyəsi, kibernetika, inzibati hüquq (dövlət idarəetməsində inofrmasiya) və s. elmlərin hər biri informasiyanı öz baxış bucağından tədqiq edir. Hüquqda informasiyanın hüquqi problemləri (informasiyanın hüquqi rejimi, istifadəsi, insanların informasiyadan istifadə imkanları və s.) tədqiq edilir ki, bütün bunlar da son nəticədə konstitusion informasiya hüququna söykənir. İnformasiya sahəsi ilə bağlı olan inofrmasiya hüququ belə formalaşmaqdadır (təxmini anlayışa görə, əks olunma və təsbit olunma mənbəyindən asılı olmayaraq, bütün iformasiya resurslarının hüquqi rejimi, idarə edilməsi ilə məşğul olan sahə). Bu bir daha onu göstərir ki, informasiya müasir cəmiyyətin ən əsas sistem formalaşdırıcı amillərindən birinə çevrilməkdədir. İnformasiyanın əhəmiyyətinin bu cür artmasına birinci səbəb onun istifadəsinin səmərəliliyi ilə bağlıdır. İnformasiya geniş kütlələri idarə etməyə, sosial prosesi istənilən istiqamətə yönəltməyə, dövlətə beynəl-

xalq aləmdə təsir etməyə, emosiyaları qızışdırmağa, dövlət idarəetməsini düzgün proqnozlaşdırmağa və həyata keçirməyə qadirdir.

Hələ ki, informasiyanın dəqiq anlayışı yoxdur. Kibernetikanın atası sayılan N.Viner informasiyanı materiyanın fəaliyyəti zamanı onun müxtəlif obyektlərdə əks olunması, iz qoyması kimi başa düşürdü. Bu anlayış həddən çox genişdir və ümumi elmi mənada bu dərəcədə geniş yanaşma tərzinə haqq qazandırmaq mümkün olsa da, dəqiqlik və birmənalılıq tələb edən hüquqşünaslıq üçün elə də məqsədəuyğun deyildir. Odur ki, adətən, hüquq ədəbiyyatında informasiyaya predmet haqqında müəyyən bilgi ötürən vasitə kimi də anlayış verilir. İnformasiya qeyri-maddi obyektdir. O, həmişə maddi obyektlərdə maddiləşsə də, müəyyən simvollar sistemində (kitabda, jurnalda, sənəddə, şaiyədə, disketdə, kompüterdə, video-audiokassetlərdə, divar rəsmlərində, müəyyən hərəkətlərdə, habelə gizli şəkildə və s.) təsbit olunsa da, onu təsbit olunduğu maddi əşyadan ayırmaqla və ya ayırmamaqla, köçürməklə, özgəninkiləşdirməklə və ilkin mənbəyə heç bir xələl gətirmədən, tamam başqa məqsədlərlə istifadə etmək mümkündür. Bu da ona gətirib çıxarır ki, informasiyanın hüquqi tənzimlənməsi get-gedə çətinləşir. Bunun da nəticəsində informasiya ilə bağlı çoxsaylı qanunvericilik aktları qəbul olunur. Konstitusiyanın 50-ci maddəsində də informasiya ilə bağlı anlayış verilmir və vətəndaşların informasiya üzərində əsas hərəkət imkanları göstərilir. Bu da təbiidir, çünki məzmunca həddən çox müxtəlif şeyləri əks etdirən bir anlayış haqqında onun məzmunundan istifadə etməklə müəyyən hüquqi konstruksiya qurmaq bir nəticə verməz. Bundan başqa, informasiya məsələsində informasiya ilə bağlı davranış imkanını təs-

bit edərkən vətəndaşların hüququ kimi daha vacib olanı davranışın özünün göstərilməsidir ki, bu da konstitusiyada öz əksini tapmışdır. Azərbaycan Respublikası vətəndaşlarının istənilən inofrmasiyanı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq imkanları vardır. İnformasiyaya münasibətdə, göründüyü kimi, şəxslər sərbəstdir və hətta ona aktiv təsir imkanına belə malikdir (hazırlamaq). İnformasiyanın qanuni yolla axtarılması qanunla birbaşa qadağan olunmayan bütün üsulları əks etdirir. Məsələn, bir fərdin şəxsi həyatına aid onun razılığı ilə əldə edilmiş informasiya qanuni yolla əldə edilmiş kimi başa düşülə bilər. Əksinə, şəxsdən gizlin onun şəxsi həyatı haqqında informasiyanın toplanması artıq qanundan kənar üsuldur.

Konstitusiyada birbaşa kütləvi informasiya vasitələri ilə bağlı da norma vardır. 50-ci maddənin II hissəsində göstərilir ki, kütləvi informasiyanın azadlığına təminat verilir və kütləvi informasiya vasitələrində senzura qadağandır. Bu da təsadüfi deyil. İnformasiya özünün təyinatına görə iki hissəyə bölünür: kütləvi informasiya və qeyri-kütləvi informasiya. Hansı informasiyanın kütləvi olub-olmaması onun məzmunundan və təsbit olunma mənbəyindən asılı olaraq müəyyən edilir. İnformasiyanın bir növdən başqa növə keçirilməsi də mümkündür. Kütləvi informasiya geniş kütlələr üçün, hamı üçün nəzərdə tutulan informasiyadır. Bunun əksinə, qeyri-küləvi informasiya hamı üçün deyil, bir qrupun, şəxsin, dövlətin istifadəsi üçün əldə edilən informasiyadır. Dövlət sirri, şəxsi həyatla bağlı məlumatlar qeyri-kütləvi informasiya sayılır. Kütləvi informasiya və onun vasitələrinə konstitusiyada xüsusi diqqət yetirilməsi onunla bağlıdır ki, kütləvi informasiya məhz cəmiyyətə yönəldiyindən, onlarda güclü reaksiya doğurmağa,

dövlətin özünə belə təsir etməyə qadirdir. Qeyri-kütləvi informasiya kütləviləşərək çoxluğun istifadəsinə çevriləndə daha güclü olur. Kütləvi informasiya vasitələrinin dövlət üçün xüsusilə əhəmiyyətli olmasına səbəb bir də odur ki, kütləvi informasiya vasitələrində verilən kütləvi informasiya "çılpaq" şəkildə - necə gəldi verilmir. Bu informasiyanı qarşıya qoyulan məqsədə müvafiq şəkildə təqdim edirlər və nəticədə informasiya siyasi manipulyasiya vasitəsinə çevrilir. İnformasiyanın yönəldiyi obyektə (cəmiyyətə, müəyyən təbəqəyə) necə təqdim edilməsi xüsusilə vacibdir və demək olar ki, obyektin verəcəyi reaksiyanı onun verilmə forması əvvəlcədən müəyyən edir. Pis, qıcıqlandırıcı şəkildə təqdim olunan informasiyanı eynilə tamam neytral, başqa şəkildə də təqdim etmək olar. Bununla peşəkar kütləvi informasiya işçiləri - jurnalistlər məşğul olur. Bütün bunların nəticəsində inofrmasiya və onun işlənməsi, yayılması ilə bağlı təsisatlar dövlətin marağına daxil olur və dövlət kütləvi informasiya vasitələrinə, informasiya məkanına təsir etmək zərurəti qarşısında qalır. Məhz buna görə də fərdlərin məlumat hüququ konstitusion hüquqdur. Dövlət məhz bu konstitusion hüquqdan və özünün informasiya təhlükəzsiliyi konsepsiyasından çıxış edərək, informasiya məkanını nizamlayır. İnformasiya məkanının tənzimlənməsi zamanı dövlət əsasən aşağıdakıları əsas götürür və onlara diqqət yetirir:

1) Vətəndaşların konstitusion informasiya hüququnun təmin edilməsi, eyni zamanda onların zərərli informasiyanın təsirindən qorunması (məsələn, xüsusi kəşfiyyat orqanlarının informasiya təxribatından və s.). Heç də təsadüfi deyil ki, 18 mart 2009-cu il tarixli referendum vasitəsilə Konstitusiyanın 50-ci maddəsinə insan və vətəndaşı zərərli informasiyanın təsirindən qoruyan III hissə əla-

və olunmuşdur. Orada qeyd olunur ki, hər kəsin kütləvi informasiya vasitələrində elan olunan, onun hüquqlarını pozan və maraqlarına ziyan vuran məlumatı rədd etmək, yaxud onlara cavab vermək hüququ təmin olunur.

2) İnformasiya vasitələrinin normal fəaliyyətinin və cəmiyyətdə normal informasiya dövriyyəsinin təmin edilməsi. Kütləvi informasiya vasitələri çoxdur. Buraya teleradio yayımı, dövri mətbuat və s. aiddir. Dövlət kütləvi informasiya vasitələrinin və informasiya məkanında əsas fəallıq göstərən subyektlərin (jurnalist, naşir, redaksiya və agentliklər və s.) davranışını müəyyən etməklə bu sahəyə təsir edir. Dövlətlərdə kütləvi informasiya vasitələri üzərində nəzarət müxtəlif formalarda, müxtəlif üsullarla həyata keçirilir. Bunun üçün kütləvi informasiya vasitələri maliyyə mənbələrinə nəzarətdən tutmuş, kütləvi informasiya vasitələri məhsullarının özünə müəyyən tələblərin verilməsinə qədər ən müxtəlif vasitələrdən istidfadə olunur. Adətən, kütləvi informasiya vasitələrinin qismən dövlət nəzarətində olduğu dövlətlərdə (dolayı yolla kütləvi informasiya vasitələrinin idarə olunması) kütləvi informasiya vasitələri hüquqi şəxs statusuna malik olur və dövlət onların işinə birbaşa qarışmır. Kütləvi informasiya vasitələrinin tam dövlət nəzarətində olduğu ölkələrdə kütləvi informasiya vasitələri hüquqi şəxs statusuna malik olmur, dövlət onların bütün fəaliyyətinə nəzarət edir və kütləvi informasiya vasitələri böütövlükdə dövlətə məxsus olur, onlar yalnız dövlət tərəfindən maliyyələşdirilir.

Qeyri-kütləvi informasiyaya yayılmaması birbaşa dövlətin və ya məlumata malik fərdin də marağında olan informasiya aiddir. Bu informasiya dövlət və fərdin mənafeyi əleyhinə istifadə edilə bildiyindən, fərdin həyatının cəmiyyətdən gizlətdiyi, arzuolunmaz tərəflərini əks etdirdi-

yindən, dövlət bu tipli informasiyanın xüsusi mühafizə rejimini müəyyən edir. Bu cür informasiya üçün sirr anlayışı tətbiq edilir və onların dövriyyəsinin, istifadəsinin xüsusi qaydaları müəyyənləşdirilir. «Dövlət sirri haqqında» Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə görə, hərbi, iqtisadiyyat, xarici siyasət, elm-texnika, kəşfiyyat, əkskəşfiyyat və əməliyyat-axtarış və s. sahələrdəki məlumatlar dövlət sirri hesab edilə bilər. Bu qanunun 7-ci maddəsinə görə, fövqəladə hadisələr və qəzalar, təbii fəlakətlər və ekoloji vəziyyət, səhiyyə, təhsil, sanitariya, mədəniyyət haqqında məlumatlar, demoqrafik məlumatlar, hüquq və azadlıqların pozulması faktları və s. məxfiləşdirilə bilməz. «Məlumat azadlığı haqqında» Azərbaycan Respublikasının 19 iyun 1998-ci il tarixli qanununda da dövlət, peşə, bank, kommersiya, vəkil, həkim, istintaq, məhkəmə, şəxsi həyat sirlərinin və bu qəbildən olan digər sirlərin yayılmasına məhdudiyyətlər qoyulur. 1981-ci il tarixli «Şəxsiyyət haqqında avtomatlaşdırılmış əlamətlərlə bağlı şəxsiyyətin mühafizəsi haqqında» Avropa Konvensiyası həyatın müxtəlif sahələrində şəxsiyyətlə bağlı məlumatların toplanması, mühafizəsi və istifadəsinin ümumi prinsiplərini müəyyən edir. Bu prinsiplərə görə, şəxsiyyətlə bağlı əlamətləri fərdin özündən almaq olar və onun razılığı ilə də yaymaq, vermək və s. şəkildə istifadə etmək olar. Demokratik cəmiyyətdə şəxsin razılığı olmadan onun haqqında informasiya toplanmasına yalnız zəruri olduğu təqdirdə, dövlətin və cəmiyyətin təhlükəzsiliyini təmin etmək məqsədilə yol verilir. Fərdi əlamətlər toplanıldığı məqsədlər üçün lazım olduğundan artıq saxlanmamalıdır. 3 aprel 1998-ci il tarixdə qəbul olunmuş «İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» Azərbaycan Respublikasının Qanununda

vətəndaşların informasiya ilə bağlı əsas hüquqları və digər məsələlər öz əksini tapmışdır. Kütləvi informasiya vasitələri ilə bağlı da xüsusi qanunvericilik aktları mövcuddur.

§ 3. Cəmiyyətin və dövlətin siyasi həyatında, dövlətin idarə olunmasında iştirak etmək hüququ

Konstitusiyada hər iki hüquq ayrılıqda nəzərdə tutulmuşdur və onlar şəxsin siyasi fəaliyyəti ilə bağlıdır. Bu hüquqların konstitusiyada ayrı-ayrılıqda nəzərdə tutulmasına əsas səbəb dövlət orqanlarında çalışan şəxslərin (xüsusilə də vəzifəli şəxslərin) siyasi fəaliyyətinin məhdudlaşdırılmasından irəli gəlir. Dövlət idarəetməsi siyasi qərarların təşkilati-texniki şəklə salınması və tətbiqi ilə müşayət olunur. Odur ki, dövlət idarəetməsini siyasətdən tam təcrid etmək qeyri-mümkündür. Dövlət idarəetməsi ilə məşğul olan bir sıra şəxslərin siyasi fəaliyyətinə məhdudiyyət qoyulduğundan siyasi fəaliyyət bir növ dövlət idarəetməsindən qismən ayrılmış şəkildə qəbul olunur. Azərbaycan Respublikası Konstitusiyasının 54-cü maddəsinə görə, vətəndaşlar dövlət və cəmiyyətin siyasi həyatında maneəsiz iştirak edə bilərlər. Dövlətin və cəmiyyətin siyasi həyatı vəhdət təşkil edir. Siyasi həyat ölkədə baş verən ictimai-siyasi prosesləri, siyasi qüvvələr arasında hakimiyyət uğrunda konstitusion mübarizəni, dövlət hakimiyyəti və onun siyasi qüvvələrlə münasibətini əks etdirir. İstənilən vətəndaşın istədiyi vaxt siyasi fəaliyyətə qoşulmağa haqqı vardır. Dövlətin siyasi həyatında iştirak hamı üçün eyni dərəcədə səmərəli ola bilməz. Siyasi sistemdə liderlik, qrup (firqə) mənafeləri və bürokratiya arasında münasibətlərin və bu münasibətlərdə əhəmiyyətli, tutarlı söz demək imkanı olan şəxslərin siyasi həyatda fəaliyyəti açıq-aşkar nəzərə çarpır və müəyyən nəticələr verir. Bu-

nun əksinə olaraq, daha çox zərbə qüvvəsi rolunu oynayan çoxluğun siyasi həyatda iştirakı sadəcə olaraq bu və ya digər siyasi qüvvəni dəstəkləməklə məhdudlaşır. Buna görə də bu hüququn realizə edilməsi birbaşa şəxsin siyasi iddialarından və davranış motivlərindən asılıdır. Hər iki hüquq dövlət quruluşu və fikir plüralizmi prinsipi ilə birbaşa bağlıdır. Məhz demokratik, hüquqi dövlət və fikir plüralizmi prinsipləri nəticəsində fərd siyasi həyat çərçivəsində çoxsaylı ideya və fikirlərdən birini qəbul etmək, yenisini yaratmaq və təbliğ etmək kimi çoxsaylı davranış variantları əldə edir. Fikir plüralizminin olmadığı totalitar dövlətlərdə bu hüquqların realizə edilməsi məhdudlaşır və bir çox hallarda fiksiyaya çevrilir. Vətəndaşın bu hüquqları dövlət sisteminə təsir etməyə imkan verən ən kəsərli hüquqlardır. İstənilən şəxs siyasi həyatda iştirak hüququndan istifadə edərək müəyyən siyasi baxışlar formalaşdırmaq, öz baxışlarını və ya başqasının baxışlarını təbliğ etmək, siyasi partiya və qrupların nəzəri konsepsiyalarını hazırlamaq, öz baxışlarını müdafiə etmək, referendumlarda, seçkilərdə iştirak etmək, dövlət orqanlarına müraciət etmək hüquqlarına və bir sıra digər hüquqlara malikdir. Fərdin yerli özünüidarəetmə qurumlarında fəaliyyəti də bu hüququn həyata keçirilməsi kimi başa düşülə bilər.

Cəmiyyətin siyasi həyatında iştirak əsas sosial institutlarda fəaliyyəti nəzərdə tutursa (siyasi partiyalar, təşkilatlar və s.), dövlətin siyasi həyatında iştirak birbaşa dövlət orqanlarına bu və ya başqa məqsədlərlə kənardan edilən, qanunla qadağan olunmayan təsiri nəzərdə tutur. Fərdin siyasi həyatda iştirak hüququ bir sıra hallarda məhdudlaşdırıla bilər. Bu, adətən, o zaman baş verə bilər ki, siyasi əqidə fərdin vəzifə funksiyları ilə bağlı davranışına təsir edə bilən mənfi amil kimi çıxış etmiş olsun. Bu cür po-

tensial mənfi təsirin qarşısını almaq üçün dövlət bəzi vəzifəli şəxslərin siyasi həyatda iştirak hüququnu məhdudlaşdırır. Bunun üçün, adətən, həmin şəxslərin siyasi partiyalara üzv olması qadağan edilir və onlara hər hansı şəkildə siyasi həyata müdaxilə imkanı verilmir. Bu qrupa hakimlər, polislər, prokurorluq işçiləri, hərbi qulluqçular və digər dövlət hakimiyyəti orqanlarının qulluqçuları daxildir. Lakin nəzərə almaq lazımdır ki, «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanunu bu məsələyə münasibətdə tamamilə fərqli konsepsiyadan çıxış edir. Bu qanunda dövlət qulluqçuları üç qrupa bölünür: siyasi, inzibati və yardımçı vəzifəli dövlət qulluqçuları. Deməli, Azərbaycan Respublikasında dövlət qulluqçularının siyasətdə iştirakı qanunla tam istisna edilmir. Siyasi vəzifəli dövlət qulluqçuları hakim siyasi qüvvə ilə hakimiyyətə gələn və dövlət siyasətinin formalaşdırılmasında iştirak edən əsas idarəçilik postlarını tutan dövlət qulluqçularıdır. Onlar dövlət idarəetməsində siyasi xarakterli qərarlar qəbul edirlər. Siyasi fəaliyyətdə iştirak hüququ həm təkbaşına, həm də başqaları ilə birgə - siyasi partiyalar və s. vasitəsilə həyata keçirilə bilər.

Dövlətin siyasi həyatında iştirak formalarından biri kimi son illərdə lobbizm meydana çıxmışdır. Ayrı-ayrı ölkələrin qanunvericiliyində siyasi həyatda iştirakın bu formasına münasibət müxtəlifdir. Lobbizm, ən ümumi şəkildə desək, obyektə kənardan, lakin onun daxili imkanlarından istifadə etməklə məqsədyönlü təsiri nəzərdə tutur. Dövlətin siyasi həyatında iştirakın bir forması kimi lobbizm birbaşa siyasətə qarışmadan, müdaxilə etmədən, özünü büruzə vermədən müxtəlif qrup mənafelərinə təsir etmək imkanı verir. Bu formanın səmərəli olması ondan irəli gəlir ki, təsir edən qrupun mənafeyi birbaşa dövlət

orqanına təzyiq etmir və təsir üçün obyektin daxili imkanlarından bəhrələnir. Siyasi həyatda bu belə təzahür edir ki, müəyyən bir siyasi qrupa, dövlət qurumuna təsir etmək istəyən subyekt həmin qurumun, təşkilatın daxilində müəyyən şəxsləri öz tərəfinə çəkir və bu şəxslər də o subyektin iradəsinə uyğun olaraq fəaliyyət göstərirlər. Bir qayda olaraq, belə təsir üçün aparıcı postlarda çalışan şəxslər ələ alınır. Nəticədə isə dövlət orqanı və ya siyasi qüvvə öz daxilindəki lobbistlərin hesabına müvafiq qrupun mənafeyinə zidd hər hansı qərarı qəbul edə bilmir.

Lobbizm müxtəlif mənafeləri təmsil edə bilər. ABŞ parlamentində yəhudi lobbiçiliyi kifayət qədər güclüdür. Silah istehsal edən firmalar da ABŞ parlamentinə təsir üçün lobbizmdən istifadə edir. Lobbizm ABŞ-də leqallaşdırılmış fəaliyyətdir. Hər bir senator məxsus olduğu lobbinin xeyrinə işlədiyini və bu işin əvəzində nə qədər qonorar aldığını göstərməklə xüsusi qeydiyyatdan keçir.

Bir sıra ölkələrdə lobbizm qadağandır. Azərbaycan Respublikasında hələlik lobbizmə rəsmi şəkildə münasibət müəyyən edilməmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 54-cü maddəsinin II hissəsində hər bir vətəndaşın dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə müstəqil müqavimət göstərmək hüququndan söhbət gedir. Bu zaman belə bir sual yaranır: əgər dövlət özü qoyulmuş həddi aşarsa, öz vəzifələrini yerinə yetirməzsə, totalitar dövlətə çevrilərsə, necə? Bu hüquq əslində insan hüquqları ilə bağlı qəbul olunan ilkin bəyannamələrdə öz əksini tapmış vətəndaş tabeçiliyindən boyun qaçırma hüququnun artıq dəyişmiş formasıdır. Bu hüquq (vətəndaş tabeçiliyindən boyun qaçırma) ona əsaslanırdı ki, dövləti xalq, yəni xalqı təşkil edən fərdlər yaradır və deməli, fərdlər özlərinin yaratdı-

ğı dövlətə bu dövlət qayda-qanunu pozmayınca, vətəndaş kimi tabe olmalıdırlar. Deməli, dövlətin özü özbaşınalıq edərsə, onun hakimiyyəti həddi aşarsa, vətəndaşların ona qarşı çıxmaq, ona tabe olmamaq hüququ yaranır. Müasir dövrdə bir sıra hallarda sərbəst toplaşmaq azadlığı da vətəndaş tabeçiliyindən boyun qaçırma hüququnun transformasiyası kimi qiymətləndirilir. Sonralar hüququn inkişafında bu amil aradan çıxdı. Bu da onunla əlaqələndirilir ki, heç bir hakimiyyət fərdlərin ona qarşı çıxması üçün qanuni əsas vermək istəməz və bundan başqa hansı hallarda dövlətin, hansı hallarda isə başqa sosial qüvvələrin hakimiyyəti mənimsəməsi faktını müəyyən etmək, demək olar ki, qeyri-mümkündür. Əgər dövlət hakimiyyəti kim tərəfindənsə qeyri-konstitusion yolla əldə edilərsə, hər bir vətəndaş konstitusion quruluşun bərpa edilməsi üçün aktiv əks fəaliyyətə başlamağa haqlıdır.

Dövlət idarəetməsində iştirak hüququ bütövlükdə «Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt»ın 25-ci maddəsi ilə uzlaşır. Bu maddədə göstərilir ki, hər bir vətəndaş onun hüquqları məhdudlaşdırılmadan dövlət işlərinin aparılmasında birbaşa və ya nümayəndələri vasitəsilə iştirak edə, ümumi, bərabər və gizli demokratik seçki əsasında seçilə və səs verə, ümumi əsaslarla öz ölkəsində dövlət xidmətinə daxil ola bilər. Göründüyü kimi, Konstitusiyanın 55-ci maddəsi də vətəndaşların dövlətin idarə olunmasında necə iştirak etməsi formasını müəyyən etməklə hüquqi konstruksiya müəyyən edir.

Vətəndaş dövlətin idarə olunmasında əsasən dövlət qulluğuna daxil olmaqla iştirak edir. Dövlət xidməti ilə bağlı qanunvericiliyə görə, dövlət xidməti dövlətin məqsəd və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərini yerinə yetir-

məsidir. Lakin nəzərə almaq lazımdır ki, dövlət orqanlarında çalışmaq hələ dövlət qulluğunda olmaq demək deyildir. Məsələn, deputatlar və hakimlər dövlət qulluqçuları sayılmırlar. Bununla belə, deputatlar seçilməklə vəzifəyə gəlir və dövlətin idarə olunmasında iştirak edirlər. Deməli, dövlətin idarə olunmasında dövlət qulluğunda olmadan da iştirak etmək mümkündür. Bu hüquq, göründüyü kimi, yalnız Azərbaycan Respublikasının vətəndaşlarına məxsusdur. Lakin konstitusiya əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin də Azərbaycan Respublikasında dövlətin idarə olunmasında iştirak hüququnu dövlət qulluğuna daxil olmaqla həyata keçirə biləcəklərini istisna etmir. Sıravi vətəndaşların dövlətin idarə olunmasında dövlət qulluğuna daxil olmadan iştirakı bir qədər zəifdir. Vətəndaşlar bu hüquqlarını əsasən dövlət orqanlarına təkliflər verməklə, qəbul olunan qərarların hazırlanmasında dolayı yolla iştirak etməklə həyata keçirirlər. Dövlət orqanlarının vəzifəli şəxsləri yalnız Azərbaycan Respublikasının vətəndaşları təyin edilə bilər. Qanunvericiliyə görə dövlət qulluğuna 18 yaşına çatmış, dövlət dilini bilən, müvafiq təhsilə malik və digər tələblərə cavab verən şəxslər qəbul edilə bilərlər. Dövlət qulluğuna qəbul şəffaflıq və müsabiqə prinsipləri əsasında həyata keçirilir.

§ 4. Seçki hüququ

Seçki hüququ vətəndaşların siyasi sistemə təsirini hiss etməyə imkan verən ən əsas hüquqdur. Seçki hüququnu vətəndaşların siyasi hüquqları içərisində minimum kimi də nəzərdən keçirmək olar. Siyasətlə maraqlanmayan və siyasi həyatda işitirak etməyən vətəndaşlar ömrü boyu azı bir dəfə seçki hüququndan istifadə etməklə siyasi sistemin formalaşdırılmasında iştirak edirlər. Ayrı-ayrılıqda

seçki hüququ fərdə məxsus hüquq kimi digərlərindən fərqlənmir, lakin məcmu halında məhz seçki hüququ vətəndaşların dövlət orqanlarının qurulmasına birbaşa təsirini ifadə edir. Digər hüquqlardan fərqli olaraq, seçki hüququ iki hissəyə bölünür: passiv seçki hüququ və aktiv seçki hüququ. Passiv seçki hüququ vətəndaşın seçilmək imkanını, aktiv seçki hüququ isə, əksinə, vətəndaşın seçmək imkanını ifadə edir. Bundan başqa, Azərbaycan Respublikası Konstitusiyasının seçki hüququna həsr edilmiş 56-cı maddəsində referendumun adının çəkilməsi onu bildirir ki, referendumda iştirak da seçki hüququna aiddir. Seçki hüququ digər hüquqlardan fərqli olaraq, qanunvericilikdə ən çox dəqiqliklə nizamlanan, cilalanan və zaman-zaman təkmilləşdirilən hüquq hesab oluna bilər. Seçki senzləri və s. vasitəsilə həmin hüququn bu dərəcədə dəqiqliklə nizamlanması onun təyinatından irəli gəlir. Seçki hüququ birbaşa dövlət orqanlarını legitimləşdirən mexanizmin məğzini təşkil edir. Elə buna görə də seçki hüququ və onun prinsipləri konstitusiya səviyyəsində təsbit edilir. Seçki hüququna təxmini olsa da, belə anlayış vermək olar: seçki hüququ vətəndaşların ayrı-ayrı şəxslərə elə münasibət bildirməsidir ki, sonradan bu münasibət müvafiq hüquqi nəticələr və vəzifələr yaradır. Bu hüquqi nəticə isə dövlət orqanının formalaşdırılması, şəxsin vəzifəyə seçilməsi şəklində təzahür edir. Seçki hüququnun xüsusiyyətlərindən biri də budur ki, prinsipcə hər bir fərd tərəfindən ayrılıqda realizə olunmasına baxmayaraq (hər kəs şəxsən səs verir), bu hüquq yalnız digər şəxslərin seçki hüququnun realizə olunması zamanı bütöv halında (səsverənlərin hamısının verdikləri səslərin cəmi) real nəticələr verir və həqiqi gücə malik olur. Başqa sözlə, ayrılıqda bir şəxsin məntəqəyə gəlməsi və səs verməsi baş-

qa heç kimin gəlməməsi və səs verməməsi halında da fərdin seçki hüququnun realizə edilməsi kimi hesab olunacaqdır, çünki hüququn realizə olunması üçün fərdin müəyyən hərəkəti etməsi kifayətdir. Lakin bu hüququn realizə edilməsi son məqsədə - kimisə seçmək və hansısa orqanı formalaşdırmaq məqsədinə gətirib çıxarmayacaqdır, çünki nəinki tək fərdin, hətta müəyyən saydan az olan çoxlu fərdlərin belə, səsverməsi seçkinin baş tutmaması deməkdir. Beləliklə, fərd bir tərəfdən seçki hüququnu tam şəkildə realizə edir (səsvermə məntəqəsinə gəlir və bütün qaydalara riayət edərək səs verir) digər tərəfdən də bu hüququn realizə edilməsilə son nəticə əldə edilmir (sadəcə, bir şəxsin təklikdə səsi kiminsə seçilməsi üçün kifayət etmir), hüququn izləməli olduğu son məqsədə nail olunmur. Deməli, konkret şəxsin seçki hüququ özü kimi digər şəxslərin də subyektiv seçki hüququnu realizə etdiyi təqdirdə, sadəcə, formal olaraq realizə olunmur, faktiki nəticələr verir. Kollektiv hüquqlar ümumiyyətlə təkbaşına realizə oluna bilmədiyinə görə seçki hüququnu kollektiv hüquq da hesab etmək olmaz. Bu mənada seçki hüququ ən çox sistemliliyə malik olan və belə demək mümkünsə, fərdi hüquqlarla kollektiv hüquqlar arasında keçid mövqedə duran bir hüquqdur.

Konstitusiyada seçki hüququ ilə bağlı məhdudiyyətlərin də ümumi əsasları müəyyənləşdirilir. Belə ki, məhkəmə qərarı ilə fəaliyyət qabiliyyəti məhdudlaşdırılmış şəxslərin seçkilərdə və referendumda iştirak etmək hüquqları yoxdur. Fəaliyyət xüsusiyyətləri, cəmiyyətdə tutduğu yeri, xidmətinin növü siyasətlə məşğul olmağa imkan verməyən bir sıra subyektlərin seçki hüququ dövlətin dünyəviliyi prinsipinə əsasən məhdudlaşdırıla bilər. Buraya dövlət qulluqçuları, hərbi qulluqçular, din xadimləri, məhkəmə-

nin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilən şəxslər və s. aiddir. Seçki hüququnun həyata keçirilməsində qarşıya qoyulmuş məqsədələrə çatmaq və mümkün yayınmaların qarşısını almaq üçün seçki senzləri tətbiq edilir. Seçki senzləri bu hüququ həyata keçirmək üçün hər bir şəxs üçün tələb olunan əsas şərtdir. Seçki senzləri bu hüququn realizə olunması şərtlərini bir növ dəqiqləşdirir. Seçki senzləri seçən və seçilən şəxsərdə zəruri hesab edilən keyfiyyətləri təmin etməyə yönəlmişdir. Bu senzlərə yaş senzi (aktiv seçki hüququ üçün 18, passiv seçki hüququ üçün bələdiyyələrə seçkilərdə 21, Milli Məclisə seçkilərdə 25, prezidentilyə namizəd üçün isə 35 yaş), oturaqlıq senzi (prezidentliyə namizədlər üçün 10 il) və təhsil senzini göstərmək olar. Müxtəlif ölkələrin qanunvericiliyində seçki senzləri arasında fərqli xüsusiyyətlər vardır. Məlumdur ki, seçki hüququ müəyyən prinsiplər əsasında həyata keçirilir. Bu prinsiplər isə aşağıdakılardır:

1) Ümumi seçki hüququ prinsipi. 18 yaşa çatmış və seçki hüququ məhdudlaşdırılmamış hər bir vətəndaş səs verə bilər.

2) Bərabər seçki hüququ prinsipi. Seçkinin nəticələrinə hər bir seçicinin təsir imkanı bərabərdir. Kiminsə səsinə üstünlük verilmir.

3) Birbaşa seçki hüququ prinsipi. Yalnız birbaşa namizədə səs verilir.

4) Sərbəst seçki. Səsvermə könüllüdür və heç kəs onun şəxsi seçiminin və iradəsinin əleyhinə kiməsə səs verməyə məcbur edilə bilməz.

5) Şəxsən seçmək. Hər kəs şəxsən özü səs verməlidir. Qohumluq, qulluq və digər münasibətlərə görə başqasının əvəzinə səs vermək qadağandır.

6) Gizli seçki. Səsvermə prosesinə kənar şəxslərin müdaxiləsinə, nəzarət etməsinə imkan verilmir. Şəxsin səsvermə anında ona öz seçimini hamıdan təcrid olunmuş yerdə təkbaşına həyata keçirmək imkanı yaradılmalıdır. Bu prinsiplər seçkinin əsas mahiyyətini ifadə edir və onlardan hər hansı birinin pozulması fərdin seçki hüququnun kobud şəkildə pozulması kimi qiymətləndirilir. Nəticə etibarı ilə bu, müvafiq seçki məntəqəsində səsvermənin ümumi nəticələrinə təsir göstərmiş olar.

§ 5. Müraciət etmək hüququ

Müraciət etmək hüququ fərdin şəxsi münasibətlərdə kimləsə əlaqəsi çərçivəsində müraciəti kimi deyil, dövlət orqanları ilə qarşılıqlı münasibətlərdə onlarla əlaqə üsullarından biri kimi nəzərdə tutulur. Elə buna görə də, Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsində məhz dövlət orqanlarına müraciət etmək və onun formaları təsbit olunur. Vətəndaşların müraciəti həm də dövlət orqanlarına təsir vasitəsi kimi, siyasi həyatda və dövlət idarəetməsində iştirak forması kimi təzahür edir. Müraciət hüququ vətəndaşların bir hüququ kimi o zaman əhəmiyyət kəsb edir ki, dövlət orqanları üçün, sadəcə, müraciət etmə faktının özü müəyyən nəticələr doğurur. Bu hüquq bir sıra normativ hüquqi aktlarla, əsasən də «Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında» Azərbaycan Respublikası Qanunu ilə tənzim olunur. Qeyd etmək lazımdır ki, müraciət anlayışı geniş mənada başa düşülməlidir. Dövlət orqanına istənilən məqsədlə müraciət etmək olar və qanunda müraciətin məzmunundan asılı olmayaraq, ona cavab verilməsi nəzərdə tutulur. Müraciətlər çoxsaylı və müxtəlif məsələlərlə bağlı ola bilər. Buraya hüquq pozuntusundan tutmuş müəyyən təklif-

lərin verilməsinə qədər bir sıra məsələlələr daxildir. Qanunda müraciətin növlərinin - şikayətin, ərizənin, təklifin konkret anlayışı verilir. Təklif özünün məzmununa görə, bir qayda olaraq, hüquq pozuntusu ilə bağlı olmur və dövlət orqanının fəaliyyətinin yaxşılaşdırılmasına yönəlmiş yeni ideyaları, fikirləri özündə əks etdirir. Ərizə şəxsə məxsus olan hüququn realizə edilməsi ilə əlaqədar meydana çıxan məsələlər barədə müraciətdir. Bu zaman ərizədə əks olunan hüququn realizə olunması ya dövlət orqanından asılı olur, ya da dövlət orqanı bu hüququn realizə edilməsində iştirak edir. Məhz ərizəsi əsasında şəxsə təqaüd təyin olunur, o işə götürülür və s. Şikayət pozulmuş hüquqların bərpası üçün edilən müraciət formasıdır. Müraciətin hər üç formasından həm fiziki, həm də hüquqi şəxslər istifadə etmək hüququna malikdirlər. Bir sıra müraciət növləri sahə qanunvericiliyində daha dəqiq tənzimlənir. Onlar xüsusi təyinata malikdirlər (prosessual vəsatətlər). Müraciət həm yazılı, həm də şifahi ola bilər. Bir sıra müraciətlər yalnız yazılı formada ola bilər. Müraciətlər qanunla müəyyən edilmiş formada tərtib edilməlidir və orada göndərən şəxsin adı, soyadı, ünvanı və digər məlumatlar öz əksini tapmalıdır. Hüquq mühafizə orqanlarına daxil olan cinayət faktı və digər hüquq pozuntuları haqqında məlumat əks etdirilən müraciətlərdən başqa qalan bütün müraciətlərdə şəxsə aid məlumatlar (rekvizitlər) göstərilməyibsə, belə müraciət imzasız (anonim) sayılır və onlara, bir qayda olaraq, baxılmır. Qanunvericilikdə yalnız iki halda anonim müraciətə baxılması məsələsi nəzərdə tutulmuşdur. Bunlardan biri, yuxarıda qeyd etdiyimiz kimi, cinayət əməlləri barədə hüquq mühafizə orqanlarına müvafiq məlumatın verildiyi, digəri isə «Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili

(Ombudsman) haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə tənzimlənən haldır. Bu qanuna görə, Ombudsman yalnız öz mülahizələri ilə gəldiyi nəticələr əsasında anonim müraciətlərə baxılması barədə qərar qəbul edə bilər. Dövlət orqanları onlara yönəlmiş müraciətləri qəbul etməli, onlara aid olmadığı təqdirdə isə həmin müraciəti aidiyyəti üzrə baxılmalı olduğu orqana göndərməlidirlər. Müraciətlər, adətən, aidiyyəti olan orqanlarda baxılır. Müraciətdəki problemi həll etmək hansı orqanın və ya orqanların səlahiyyətindədirsə, ümumi qayda üzrə həmin orqan da aidiyyətli orqan hesab olunur. Qanun, həmçinin şəxsin birbaşa şifahi müraciətini dinləmək üçün vəzifəli şəxslərə vətəndaşların şəxsən qəbulunu həyata keçirmək vəzifəsini müəyyən edir.

Vətəndaşların müraciətlərinə, bir qayda olaraq, əlavə araşdırma və təhqiqat tələb olunan hallar istisna olmaqla, müraciət daxil olan gündən bir ay müddətində baxılmalıdır. Qalan müraciətlərə alındığı gündən ən geci 15 gün ərzində baxılmalıdır. Məhkəmə və təhlükəsizlik orqanları işçilərinin təhlükəsizliyini təmin etməli orqanların hərəkətlərindən daxil olan şikayətlər dərhal baxılmalıdır. Şikayətlər, bir qayda olaraq, şikayət olunan şəxsdən daha vəzifəli şəxsə verilir. Qanun həm də hərəkətlərindən şikayət olunan orqan və şəxsə şikayətin baxılmaq üçün göndərilməsini qadağan edir. Hərbçilərin və onların ailə üzvlərinin müraciətlərinə baxılması müddəti qısaldılmışdır. Onların müraciətlərinə baxılmasının son həddi 15 gündür. Dövlət orqanlarının və vəzifəli şəxslərin fəaliyyətindəki nöqsanları bu orqanların nəzərinə çatdırmaq hüquq pozuntusu sayılmır və bundan sonra da bu hərəkətə görə vətəndaşın hüququnun həmin orqan tərəfindən hər hansı bir şəkildə məhdudlaşdırılmasına yol verilmir. Tənqid fəaliyyətin tək-

milləşdirilməsini stimullaşdıran vasitədir və buna görə də, heç kim tənqidə görə təqib oluna bilməz. Məzmunca təhqir və böhtandan ibarət olan müraciət cinayət qanunvericiliyində nəzərdə tutulmuş məsuliyyət yaradır.

§ 6. Birləşmək hüququ

Birləşmək hüququ kollektiv şəkildə həyata keçirilə bilən hüquqdur. Birləşmək hüququ birgə fəaliyyətin zəruriliyindən irəli gəlir. Bu hüquq siyasi hüquq sayılsa da, ondan sadəcə siyasi məqsədlərlə istifadə edilmir. Qeyri-siyasi məqsədlərlə birləşmək də bu hüququn təsiri altına düşür. Birləşmək hüququna həm vətəndaşlar, həm də əcnəbilər və vətəndaşlığı olmayan şəxslər malikdirlər. Lakin burada bir istisna vardır. Əcnəbilər siyasi fəaliyyət məqsədilə birləşib siyasi partiya yarada bilməzlər. Azərbaycan Respublikasında xarici ölkələrin siyasi partiyalarının və onların birliklərinin fəaliyyət göstərməsi qadağandır.

Birləşmək hüququ ən aktiv şəkildə məhz partiyalarda, həmkarlar ittifaqlarında təzahür etdiyindən, konstitusiyada birbaşa onların adı çəkilir. Siyasi partiya hakimiyyəti əldə etmək məqsədilə müəyyən siyasi ideya ətrafında könüllü olaraq birləşən şəxslərin təşkilatıdır. "Partiya" sözü latınca «part» sözündən törəmədir və «hissə» deməkdir. Partiyalar hələ qədim Yunanınstanda fəaliyyət göstərmişlər. Siyasi partiyalar ictimai-siyasi həyatda mühüm rol oynayır. Onlar demokratik cəmiyyətin siyasi öncül qüvvəsini təşkil edir, hakimiyyətin mərkəzləşməsinin qarşısını alır və s. bu kimi digər vacib funksiyaları yerinə yetirirlər. Hər bir partiyanın öz tərəfdarları olur və bu da onların sosial bazasını təşkil edir. Seçkilərdə iştirak edib müəyyən partiyaya səs verən şəxslərin məcmusu elektorat adlanır. Hər bir partiya siyasi sistemin vacib ünsürü-

dür. Partiyalar cəmiyyətdə mövcud olan problemlərin həlli üçün müəyyən siyasi kurs işləyib hazırlayırlar. Partiyalar seçkilərdə və siyasi mübarizədə iştirak etməklə iqtidarın fəaliyyətinə nəzarət edirlər. Partiyalar müxtəlif maraqları təmsil edir və hər bir mənafe qrupunun təşkilatlanma forması olmaqla siyasi sistemdə təşkilati problemlərdən yaranan münaqişələrin qarşısını alırlar.

Həmkarlar ittifaqları fəhlə hərəkatının ən aktiv vaxtlarında - XIX əsrdə meydana gəlmişdir. Həmkarlar ittifaqları peşə və ixtisas ümumiliyi əsasında birləşən işçilərin təşkilatıdır. Bu təşkilat istehsalat prinsipi üzrə təşkil olunur və işçilərin sosial problemlərini həll etmək məqsədi güdür. Geniş işçi qüvvəsini birləşdirdiyinə görə həmkarlar ittifaqları həmişə siyasi əhəmiyyətə malik olmuşdur. Xüsusilə də keçən əsrin əvvəllərində kapitalist dünyasında ziddiyyətlər zamanı həmkarlar ittifaqları vacib siyasi amil rolunu oynayırdı.

Konstitusiyada digər ictimai birliklər adı altında mədəni-maarif və elmi təşkilatlar başa düşülür. Bu təşkilatlara qeyri-hökumət təşkilatları da deyilir və onlar siyasətdə iştirak etməsələr də, sosial tələtümlər zamanı bir çox hallarda onların sosial bazasından istifadə olunmuşdur. Hər bir birlik xüsusi hüquq qabiliyyəti əsasında fəaliyyət göstərir. İctimai birliklər (qeyri-hökumət təşkilatları) sərbəstdir, müstəqildir, lakin bu heç də o demək deyildir ki, onlar heç bir məhdudiyyət qoyulmadan istədikləri üsullarla, metodlarla istədikləri kimi fəaliyyət göstərə bilərlər. Yəni onlar yalnız təsis sənədlərində nəzərdə tutulan fəaliyyətlə və yalnız qanunvericiliklə müəyyən olunmuş qaydada məşğul ola bilərlər.

Birləşmək yalnız könüllü ola bilər. Konstitusiyada birləşmə hüququnun könüllü olması birbaşa göstərilir. Kons-

titusiyada ictimai birliklərin yaradılması ilə bağlı şərt şəklində bəzi məhdudiyyətlər də öz əksini tapır. Belə ki, qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi güdən birliklərin yaradılması qadağandır. Bu cür birliklərin yaradılmasına yönəldilmiş fəaliyyət özü hüquqi məsuliyyət yaradır. Hər hansı bir ictimai birliyin fəaliyyətinə yalnız məhkəmə qaydasında xitam verilə bilər ki, bu da onların fəaliyyətinə verilən təminatlardan biridir. Məhkəmə isə öz növbəsində işi araşdırdıqdan sonra ictimai birliyin fəaliyyətində hüquq pozuntusu olduğunu görərsə, bunu həyata keçirə bilər. Başqa heç bir halda ictimai təşkilatların bağlanmasına yol verilmir. Fövqəladə vəziyyət və hərbi vəziyyət elan olunduğu zaman əsaslar olarsa, ictimai təşkilatların fəaliyyəti və birləşmək hüququ məhdudlaşdırıla bilər.

Azərbaycanda 2000-ci ilin iyununadək hələ 1992-ci ildə qəbul olunmuş «İctimai birliklər haqqında» Azərbaycan Respublikasının Qanunu qüvvədə olmuşdur. Ölkəmizin ictimai-siyasi həyatında baş vermiş inqilabi sosial-iqtisadi dəyişikliklər, aparılmış hüquq islahatları bu qanunun köklü şəkildə təkmilləşdirilməsini tələb edirdi. Məhz bu baxımdan Azərbaycan Respublikasının Milli Məclisi 2000-ci ilin iyununun 13-də «Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» Azərbaycan Respublikasının yeni Qanununu qəbul etmişdir. Bu qanun qeyri-hökumət təşkilatlarının yaradılmasını, fəaliyyətini, idarə olunmasını, yenidən təşkil və ləğv edilməsi qaydalarını, dövlət orqanları ilə münasibətlərini tənzimləyir. Lakin həmin qanun ictimai birlik kateqoriyasına daxil olan siyasi partiyalara, həmkarlar, yaxud sahibkarlar ittifaqlarına, dini birliklərə və yerli özünüidarə orqanlarına şamil edilmir, çünki bu təşkilatların hər birinin fəaliyyətini ayrı-ayrılıqda tənzimləyən müvafiq qanunlar mövcuddur.

«Qeyri-hökumət təşkilatı» ifadəsi ictimai birlik, fond, assosiasiya və digər terminlərdən daha geniş istilahdır. Bu baxımdan Azərbaycan Respublikasının Mülki Məcəlləsi də qeyri-hökumət təşkilatlarını mülki hüququn subyekti kimi bir hüquqi şəxs, təşkilatlanmış qurum olaraq daha geniş anlayış çərçivəsində ehtiva edir. Mülki Məcəlləyə görə, belə təşkilatlar qeyri-kommersiya təşkilatı adlanır və bu təşkilatların yaranmasından tutmuş ləğvinə qədər çox əhatəli məsələlərin tənzimlənməsi xüsusiyyətləri ümumən məhz Mülki Məcəllə ilə nizamlanır.

İctimai birliklərin fəaliyyəti həm də beynəlxalq hüquq normaları ilə tənzimlənir. Belə beynəlxalq normalar rəngarəngdir. Onlardan ümumi xarakterli biri haqqında qısa şərh versək, fikrimizcə, qeyri-hökumət təşkilatlarını (ictimai birlikləri) həm də beynəlxalq hüququn subyekti kimi xarakterizə etmiş olarıq. Bu, Azərbaycan Respublikasının qoşulduğu «Assosiasiya azadlığı və təşkilatlanma hüququnun müdafiəsi haqqında» Beynəlxalq Əmək Təşkilatının 1948-ci il 10 iyul tarixli 87 saylı Konvensiyasıdır. Bu Konvesiyanın konsepsiyasına görə, əməkçilər və sahibkarlar qabaqcadan heç bir dövlət orqanının razılığını almadan, sərbəst şəkildə, heç bir fərq qoyulmadan öz hüquqlarının (əsasən sosial-iqtisadi) müdafiəsi üçün könüllü şəkildə müvafiq birlik yaradaraq təşkilatlana bilərlər. Dövlət hakimiyyəti orqanları bu hüququ məhdudlaşdıra bilən və ya onun qanunda nəzərdə tutulan qaydada həyata keçirilməsinə mane olan hər cür müdaxilədən imtina edir. Bu prinsip öz əksini başqa bir beynəlxalq sənəddə - «İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt»ın 8-ci maddəsinin 3-cü hissəsində də tapmışdır.

III FƏSİL

İQTİSADİ, SOSİAL-MƏDƏNİ HÜQUQ VƏ AZADLIQLAR

§1. Mülkiyyət və əqli mülkiyyət hüququ

İqtisadi, sosial və mədəni hüquqlar, adından da göründüyü kimi, çox geniş bir sahəni əhatə edir. Buraya maddi və mənəvi nemətlərin yaradılması, istifadəsi ilə bağlı bir çox hüquq və azadlıqlar daxildir. İqtisadi hüquqlar arasında ən əsas hüquq mülkiyyət hüququdur. Bu hüquq hər bir kəsə məxsusdur. Lakin aydındır ki, Azərbaycan Respublikasının vətəndaşlarının mülkiyyət hüququ ilə əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin mülkiyyət hüququ bir-birindən fərqlənə bilər. Vətəndaşların mülkiyyətində ola bilən bir şey əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin mülkiyyətində olmaya da bilər. Məsələn, torpağın mülkiyyətçisi ancaq vətəndaş ola bilər.

Mülkiyyət insanla maddi əşyalar arasındakı münasibəti ifadə edir. Mülkiyyət həm hüquqi, həm də iqtisadi kateqoriyadır. Mülkiyyət hüququ ən qədim və əsas hüquqlardan biridir. 1793-cü il Fransa Konstitusiyasında göstərilirdi ki, mülkiyyət hüququ hər bir vətəndaşa məxsusdur və hər bir vətəndaş öz mülahizəsinə, istəyinə görə mülkiyyətdən istifadə edə bilər. Bu dövr üçün mülkiyyət hüququnun müqəddəs hesab edilməsi və buna görə də mülkiyyətçiyə tam sərbəstlik verilməsi xasdır. Mülkiyyətçi mülkiyyət hüququndan istədiyi kimi istifadə edə bilərdi və onun mülkiyyət hüququ toxunulmaz idi. Daha sonralar isə sosial ziddiyyətlərin kəskinləşməsi, dövlətin sosial funksiyalarının inkişafı nəticəsində mülkiyyətin sosial təyinatı yarandı. Bu müddəaya görə, mülkiyyətçi öz mül-

kiyyətindən cəmiyyətin və başqalarının mənafeləri ziddinə istifadə edə bilməz, mülkiyyətin özgəninkiləşdirilməsi müəyyən şərtlər daxilində mümkündür. Mülkiyyətin dövlətin nəfinə milliləşdirilməsi ilə bağlı hətta bir sıra ölkələrdə konstitusiya səviyyəsində normalar vardır. Mülkiyyət hüququna dövlət müdaxiləsi dövlətin ümumilikdə iqtisadi proseslərə müdaxiləsinin tərkib hissəsidir. Totalitar dövlətlərdə mülkiyyətin əvəzsiz və istənilən şəkildə özgəninkiləşdirilməsi mümkün olduğu hallarda, demokratik dövlətlərdə bunun üçün ciddi əsaslar olmalı və özgəninkiləşdirilən mülkiyyətin əvəzi ödənilməlidir (kompensasiya edilməlidir).

İqtisadi kateqoriya kimi mülkiyyət maddi və mənəvi dəyərlərin mənimsənməsi prosesini ifadə edir. Hüquqda isə məsələnin hansı şəkildə insan davranışında təzahür etməsi daha çox əhəmiyyətlidir. Azərbaycan Respublikasının Mülki Məcəlləsində mülkiyyət hüququna belə anlayış verilmişdir: «mülkiyyət hüququ - subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüququdur». Göründüyü kimi, mülkiyyət hüququ hər hansı əmlak üzərində sahiblik, istifadə və sərəncam vermə imkanıdır. Burada hər üç hərəkət bir-birindən ayrılmazdır, başqa sözlə, bunlardan biri olmadıqda mülkiyyətə tam sahiblik hüququ da olmur. Hələ qədim Roma hüquqşünasları tərəfindən müəyyənləşdirilən bu klassik triadaya müasir dövrdə tələb hüququnu da əlavə edirlər. Mülkiyyət maddi nemətlərin mənimsənməsi prosesi kimi özündə böyük iqtisadi güc ehtiva edir. İstehsal vasitələri üzərində mülkiyyət marksizm nəzəriyyəsində ictimai-iqtisadi formasiyaya bölgünün

əsasını təşkil edirdi və tarixi inkişaf da onunla müəyyənləşdirilirdi.

Mülkiyyət haqqında qanunvericilik ölkədaxili qanunvericiliyin ən geniş və mürəkkəb hissələrindən birini təşkil edir. Mülkiyyətin müxtəlif növləri vardır. Ümumi mülkiyyətin mülkiyyətçiləri ən azı iki nəfər ola bilər. Bu zaman konkret əşya, əmlak birdən çox şəxsə məxsus olur. Ümumi mülkiyyətin özünün də iki növü olur: əşyaya mülkiyyət hüququnda mülkiyyətçilərin hər birinin payı müəyyənləşdirilən paylı ümumi mülkiyyət və belə paylar müəyyənləşdirilməmiş birgə ümumi mülkiyyət. Xüsusi mülkiyyət ümumi mülkiyyətin qarşılığı deyildir. Xüsusi mülkiyyət onu ifadə edir ki, əşya, əmlak dövlətə və ictimaiyyətə deyil, konkret bir şəxsə və ya şəxslər qrupuna məxsusdur. Dövlət mülkiyyətinin mülkiyyətçisi isə yalnız dövlətdir. Bu mülkiyyət üzərində sərəncam verməyə ancaq dövlət haqlıdır. İctimai mülkiyyət isə, belə demək mümkünsə, hamının, ictimaiyyətin malıdır. Bir qayda olaraq, ictimai mülkiyyət qeyri-hökumət təşkilatları tərəfindən idarə olunur.

Konstitusiyada mülkiyyətin obyekti ola biləcək əşyaların da iki əsas növü müəyyənləşdirilir. Göstərilir ki, hər bir kəs daşınar və daşınmaz əmlaka malik ola bilər. Daşınmaz əmlak bir yerdən başqa yerə aparılarkən öz təyinatını, xüsusiyyətlərini itirən və bir qayda olaraq, torpaqla möhkəm bağlı olan obyektlərdir. Məsələn, torpaq sahələri, yerin təki, ayrıca su obyektləri, meşələr, çoxillik əkinlər, binalar, qurğular, yollar və s. Daşınar əmlak isə öz təyinatını itirmədən yerdəyişməsi mümkün olan və daşınmaz əmlaka aid edilə bilməyən bütün əşyalardır. İstənilən və əldə edilməsinə qanunla yol verilən əşya şəxsin mülkiyyətində ola bilər.

Konstitusiya həm də bütün mülkiyyət növlərinə eyni dərəcədə əhəmiyyət verir. Bu isə o deməkdir ki, onların hər hansı birinin digərindən daha üstün hesab olunması və meydana çıxan problemlərin, məsələlərin həlli zamanı mülkiyyətin hansı növününsə daha ciddi qorunması və müdafiə olunması üçün heç bir hüquqi əsas yoxdur. Odur ki, bütün mülkiyyət növləri bərabərdir və eyni dərəcədə müdafiə olunmalıdır. Mülkiyyət hüququnun təminatı kimi göstərilir ki, heç kəs məhkəmənin qərarı olmadan mülkiyyət hüququndan məhrum edilə bilməz, əmlak tam şəkildə müsadirə oluna bilməz. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 29-cu maddəsinin Azərbaycan Respublikası Konstitusiyanın 29-cu maddəsinin IV hissəsinə uyğunluğu haqqında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 12 yanvar 1999-cu il tarixli qərarında birbaşa müəyyən edilir ki, cəza kimi şəxsin əmlakı müsadirə olunarkən, yalnız cinayət yolu ilə əldə edilmiş əmlak müsadirə oluna bilər.

Mülkiyyət hüququnun mühüm bir hissəsini vərəsəlik hüququ təşkil etdiyindən, Konstitusiyanın 29-cu maddəsinin V hissəsində vərəsəlik hüququna dövlət tərəfindən təminat verilməsi ayrıca, həm də çox yığcam formulda göstərilir. Vərəsəlik hüququ miras qoyanın ölümündən sonra onun əmlakının taleyi ilə bağlı yaranır. Mirasın bölünməsində bütün yaxın qohumlar iştirak edir, bir sıra şəxslər isə məcburi pay hüququna malikdirlər, yəni miras qoyanın iradəsindən asılı olmayaraq, onlar vərəsəliyə buraxılırlar. Vərəsəlik hüququ mülki hüququn çox böyük institutlarından biridir. Əgər Konstitusiya müəyyən bir hüququn ona məxsus məziyyətlərini açıqlamadan onun həyata keçirilməsinə dövlət təminatını nəzərdə tutursa, bu o deməkdir ki, bu konstitusiya normasının real həyatda

tətbiqi digər normativ hüquqi aktlarla tənzimlənməlidir. Məhz Konstitusiyada vərəsəlik hüququnun təminatı məsələsi konkret şəkildə təsbit edildiyinə görə bu hüquqla bağlı qalan bütün digər məsələlərin hüquqi tənzimlənməsi qaydalarının müəyyən olunması sahə qanunvericiliyinin öhdəsinə buraxılır. Ona görə də vərəsəlik hüququn həyata keçirilməsi ilə bağlı yaranan və yarana biləcək hər bir münasibəti tənzimləyən hüquq normaları Azərbaycan Respublikasının Mülki Məcəlləsinin onuncu bölməsində 62-ci fəsildən 74-cü fəslədək on üç fəsli əhatə edir.

Mülkiyyət hüququnun mühüm bir növü də əqli mülkiyyət hüququdur. O, mülkiyyət hüququnun xüsusiləşmiş növüdür. Ümumi mülkiyyət hüququndan fərqli olaraq, əqli mülkiyyətin yaranmasında həmişə yaradıcılıq təxəyyülü durur. Cəmiyyətdə əqli mülkiyyət hüququ həmişə mühüm əhəmiyyət kəsb etmişdir. Lakin bu hüququn müdafiəsi məsələsi heç də həmişə Konstitusiya səviyyəsində həll edilməmişdir. Əqli mülkiyyət hüququnun müdafiəsi ilə bağlı çoxsaylı beynəlxalq aktlar mövcuddur. Bəzi müəlliflər əqli mülkiyyət hüququna mülkiyyət hüququnun bir növü kimi deyil, tamamilə fərqli, ayrı bir hüquq kimi baxırlar. Fikrimizcə, bu doğru mövqe deyildir. Əqli mülkiyyət hüququ nə qədər xüsusiləşsə də, mülkiyyət hüququnun bir növü olaraq qalır, sadəcə, əqli mülkiyyətin müdafiəsi rejimi digər mülkiyyət hüququnun müdafiəsi rejimindən bir qədər fərqlənir ki, bu da təbiidir. Lakin bu fərqlər əqli mülkiyyəti digər mülkiyyətdən tam şəkildə təcrid etməyə heç cür əsas vermir. Əqli mülkiyyət hüququ ilə bağlı münasibətlər 5 iyun 1996-cı il tarixli «Müəlliflik hüquqları və əlaqəli hüquqlar haqqında» və 10 iyun 1997-ci il tarixli «Patent haqqında» Azərbaycan Respublikasının Qanunları ilə, o cümlədən Mülki Məcəllənin

ümumi normaları ilə tənzimlənir. Əqli mülkiyyətin əsas növləri öz əksini Azərbaycan Respublikası Konstitusiyasının 30-cu maddəsində tapmışdır. Burada göstərilir ki, hər kəsin müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun digər növləri qanunla qorunur. Müəlliflik hüququ şəxsin yaradıcılıq fəaliyyətinin məhsulu hesab edilən elm, ədəbiyyat və incəsənət əsərlərinə şamil edilir. Əqli mülkiyyətin bu növü müəllifin yaradıcılıq işinin dəyərindən, təyinatından, yaradıcılıq fəaliyyətinin nəticəsini açıqlayıb-açıqlamamasından asılı olmayaraq, mövcud olan əqli təxəyyülün sənət əsəri formasında tərtib edilmiş (maddiləşmiş) məhsuludur. İxtiraçılıq hüququ isə öz əksini sənayenin müxtəlif sahələrində tətbiq oluna biləcək tamamilə yeni bir üsulun, mexanizmin yaradılmasında tapır.

Əqli mülkiyyət hüququ əqli fəaliyyətin nəticəsinin əks olunduğu maddi obyektə deyil (kitabın kağız məhsulu kimi özünə), bu daşıyıcının əks olunduğu əqli fəaliyyətin nəticəsinə olan münasibəti (kitabda əks olunan romana, şerə) ifadə edir. Odur ki, əqli mülkiyyət hüququ bir qədər xüsusiləşmişdir və onun müdafiəsi üsulları da müəyyən qədər fərqlənir. Əqli mülkiyyətin pozulmasının ən geniş yayılmış forması plagiatlıqdır. Plagiatlıq başqasının əqli fəaliyyətinin nəticəsini mənimsəyərək, özünün işi kimi istifadə etməni və ondan bəhrələnməni bildirir. Plagiatlıq əsasən əlaqəli hüquqların subyektləri dairəsində daha çox yayılır. Ona görə də «Müəlliflik hüquqları və əlaqəli hüquqlar haqqında» qanunda həm müəllif hüquqlarının, həm də əlaqəli hüquqların müdafiəsi məsələlərinə geniş yer verilmişdir. Müəlliflik hüququ ədəbi-bədii, musiqili, audiovizual, dekorativ-tətbiqi, xoreoqrafik, memarlıq, fotoqrafik əsərlərin qorunması və onlardan istifa-

də ilə bağlı yaranan münasibətlərin nizamlanması ilə məşğuldur.

Patent hüququ isə ixtiraçılıqla bağlı, faydalı sənaye nümunələrinin, tətbiqi-texniki yeniliklərlə bağlı münasibətlərin nizamlanması və müdafiəsi problemləri ilə məşğul olur. Bu cür iki sahənin əqli mülkiyyətdə fərqləndirilməsi əsası bundan yaranır ki, müəlliflik hüququ daha çox incəsənət və yüksək dərəcədə fərdilik əks olunan fəaliyyətlə bağlıdır. Adətən, müəlliflik hüququnun obyektləri estetik dəyərə malik olurlar. Bundan fərqli olaraq, patent hüququ ilə qorunan üsul və vasitələr, texniki yeniliklər (nou-hau) birbaşa tətbiq olunmaq üçün nəzərdə tutulur və çox tez bir zamanda da yayılaraq fərdilikdən çıxır, adiləşir və hər yerdə tətbiq olunur. Odur ki, əqli mülkiyyət növlərinin özünün də müdafiəsi üçün bir-birindən fərqli rejimlər tətbiq olunur. Qanunvericilikdə konkret olaraq müddət də müəyyənləşdirilmişdir. Müəlliflik hüquqları şəxs üçün ömürlük, onun vərəsələri üçün isə 50 il müddətində tanınır. Patent hüququ isə konkret fərd üçün 20 il müddətində qüvvədə olur (konkret bir predmetə). Əqli mülkiyyətin müdafiəsi fərdin konkret əqli fəaliyyətinin nəticəsinə olan hüququnun tanınması, bu məhsuldan istifadə və sərəncam verməklə bağlı onun hüquqlarının təmin edilməsi, dəymiş zərərin ödənilməsi və s. formada tənzimlənir.

§ 2. Əmək hüququ

Əmək hüququnun nəzəri əsaslarına biz yuxarıda qısaca təhlil vermişdik. Bu hüququn bir sosial hüquq sahəsi olduğunu nəzərə alaraq, onun daha geniş təhlilini vermək zəruridir. Hər şeydən öncə, əmək anlayışını iş anlıyışından fərqləndirmək lazımdır. Əmək, Konstitusiyada əks

olunduğu kimi, fərdi və ictimai rifahın əsasıdır və heç də hər bir iş bu kateqoriyaya aid edilə bilməz. Əmək hər bir fərd üçün müəyyən dəyər kəsb edir. Əməyin bu cür sosial dəyəri ondan irəli gəlir ki, əmək müasir dünyada fərdin öz həyatını təmin etməsi vasitəsi kimi çıxış edir. Şəxsin fərdi əməyi, sadəcə, onun özü üçün deyil, həm də cəmiyyətin, ümumilikdə ölkənin inkişafına təsir edir. Əmək bazarının tənzimlənməsi dövlətin iqtisadi inkişafına təsir edir, işçi qüvvəsi isə vacib kapital hesab olunur. Hər bir fərdin əməyi digərlərinin əməyi ilə qarşılıqlı əlaqədə bir fəaliyyət sistemini formalaşdırır ki, bu fəaliyyət sistemi çərçivəsində də istehsal və yenidən istehsal baş verir, iqtisadiyyat inkişaf edir. Odur ki, əmək, sadəcə, fərdi deyil, həm də ümumi, ictimai rifahın inkişafının əsasıdır. Rifah insanların və cəmiyyətin öz tələbatlarını təmin etmə səviyyəsini ifadə edir. Bütün bunlara isə əmək vasitəsilə - insanların məqsədyönlü şəkildə öz fərdi-fiziki və intellektual güclərini sərf etməsi nəticəsində nail olmaq olar. Buna görə də əmək ictimai rifahın əsası kimi qəbul olunur. Əmək nə qədər sosial dəyərə malik olsa da, o, hər bir insanın fərdi keyfiyyətlərindən, dünyagörüşündən, fiziki iş imkanlarından, arzu və qabiliyyətindən birbaşa asılıdır. Buna görə də əmək fərdidir, hətta yalnız kollektivin gücü hesbaına görülə biləcək işlərdə belə, onda fərdilik var, ən azından ona görə ki, hər bir şəxs bu kollektiv əməkdə öz iştirakını dərk edir və onu fərdiləşdirərək qavrayır. Bunun nəticəsində də əmək fərdiləşir və sadəcə olaraq, rifah vasitəsi kimi deyil, həm də fərdin özünü realizə, özünütəzahür vasitəsi kimi çıxış edir. Odur ki, əməyin hər bir fərd üçün dəyəri insanın əməyə münasibətindən asılı olmadan yüksəkdir. Biz əməyi sevməyə bilərik, lakin başqaları kimi yenə də əməyin fərdi rifah üçün vacib ol-

masını dərk edirik və ən azı buna görə əmək fəaliyyəti ilə məşğul oluruq. «İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt» əmək hüququnun məzmununa aşağıdakıları daxil edir:

1) ədalətli əmək haqqı və eyni dəyərli iş üçün heç bir fərq qoyulmadan hamının bərabər mükafatlandırılması;

2) eyni dəyərli əməyə cinsindən və başqa əlamətlərindən asılı olmayaraq ödənilən ədalətli əmək haqqı;

3) işçilərin özləri və ailələri üçün qənaətbəxş yaşayış;

4) təhlükəsizlik və gigiyena tələblərinə cavab verən iş şəraiti;

5) hamının peşəkarlıq səviyyəsinə və təcrübəsinə görə vəzifəcə irəli çəkilməsinə eyni şərait imkanı;

6) istirahət, asudə vaxt, iş gününün ağlabatan həddə məhdudlaşdırılması, haqqı ödənilən məzuniyyət və s.

Əmək hüquqlarının realizə edilməsi üçün, adətən, müxtəlif ölkələrdə çoxsaylı dövlət orqanları və həmkarlar ittifaqları fəaliyyət göstərir. Azərbaycan Respublikasında əmək bazarına nəzarət və əməklə bağlı digər məsələləri həyata keçirmək üçün icra hakimiyyətinin xüsusi orqanı - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi fəaliyyət göstərir və bu nazirliyin nəzdində Dövlət Əmək Müfəttişliyi yaradılmışdır. Bundan başqa, bütün digər hüquqlar kimi əmək hüququ da məhkəmə qaydasında müdafiə olunur. Əməyin yüksək dərəcədə fərdiliyini nəzərə alan Konstitusiya birbaşa əməyə təsir edən amilləri müəyyən edir və göstərir ki, fərd əməyə olan qabiliyyəti əsasında sərbəst şəkildə özünə məşğuliyyət, peşə növü və iş yeri seçir. Əmək hüququ yalnız könüllü həyata keçirilə bilər. Keçmiş Sovet İttifaqından fərqli olaraq, indi işləməmək tüfeyli həyat tərzi keçirmə sayılmır və cinayət məsuliyyətinə səbəb olmur.

Əmək hüququ qanunvericilik səviyyəsində qanunlarla, icra hakimiyyəti orqanları tərəfindən qəbul olunan müxtəlif normativ hüquqi aktlarla tənzimlənir. Bundan başqa, əmək hüququ fərdlərin əmək müqavilələri əsasında tənzimlənir. Əmək müqavilələri kollektiv və fərdi ola bilər və onun şərtlərinin müəyyən edilməsində tərəflər qanun çərçivəsində tam sərbəstdirlər. Bütün ölkə miqyasında əmək bazarında Həmkarlar İttifaqları Konfederasiyası və onda birləşmiş sahə həmkarlar ittifaqları birlikləri, habelə sahibkarların birlikləri arasında müxtəlif kollektiv sazişlər bağlanılır. Buraya həm ümumrespublika səviyyəsində tripartizm prinsipi əsasında - Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Birliyi arasında bağlanan Baş Kollektiv Saziş və müvafiq sahənin sosial-iqtisadi inkişafı istiqamətləri, peşə qrupları və həmin sahədə çalışan işçilər üçün əmək haqqı, əmək şəraiti və digər məsələləri əhatə edən Sahə (tarif) Kollektiv Sazişləri və ərazi xüsusiyyətləri ilə bağlı sosial-iqtisadi problemlərin həlli məsələləri ilə məşğul olan Ərazi (rayon) Kollektiv Sazişləri aiddir. Beynəlxalq səviyyədə əmək problemləri ilə bağlı Beynəlxalq Əmək Təşkilatı (BƏT) fəaliyyət göstərir.

Azərbaycan Respublikasının Konstitusiyası həm də hansı halların əməyə məcbur etmə kimi baxıla bilməyəcəyini müəyyən edir. Buraya məhkəmə qərarı əsasında məcburi əməyə cəlb etmə, hərbi xidmət zamanı əmrlərin yerinə yetirilməsi, fövqəladə və hərbi vəziyyət zamanı vətəndaşların məcburən işlədilməsi halları aiddir. Bu zaman iş gördürmə əmək hüququnun təsiri altına düşmür. Çünki burada şəxslərin işlədilməsi fərdi və ictimai rifahın əsası kimi deyil, qarşıya qoyulmuş inzibati göstərişə nail

olmanın üsulu kimi başa düşülür. Əmək hüququ müəyyən şəraitdə özünü doğruldur və səmərəli olur. Fərd də yalnız müəyyən şərtlərlə əmək hüququndan istifadə etmək istəyəcəkdir. Əmək hüququnu realizə etmə istəyinin əməyin özü üçün təklif olunan obyektiv tələblərlə şərtləndiyini nəzərə alan Azərbaycan Respublikasının Konstitusiyası vətəndaşların əmək hüququnun tam və hərtərəfli həyata keçirilməsi üçün əməyin ümumi şərtlərini müəyyən edir. İş üçün müvafiq əmək şəraitinin yaradılması işəgötürənin ən əsas vəzifələrindən biridir. Əmək funksiyalarını yerinə yetirərkən işçiyə dəyən zərər ödənilməlidir. Əməyin ödənilməsi də şəxsin əməyinə görə, iş şəraitini və gördüyü işi nəzərə almaqla həyata keçirilir. Əmək haqqının ödənilməsində də diskriminasiyaya yol verilmir. Yəni eyni işi görən şəxslər eyni məbləğdə də maaş almalıdırlar. Alınan minimum əmək haqqının miqdarını dövlət müəyyənləşdirir. İşçiyə bu məbləğdən aşağı əmək haqqı verilməsi konstitusiya normasının pozulması kimi başa düşülməlidir. Konstitusiyada işsizlərin dövlətdən müavinət almaq hüququ onların sosial cəhətdən zəif təbəqə olması ilə bağlıdır. İşsizlik, sadəcə olaraq, Azərbaycan Respublikasının deyil, inkişaf etmiş dövlətlər də daxil olmaqla bir çox dövlətlərin başlıca problemlərindən biridir. İşsizlikdən müdafiə mexanizmləri müasir dünya dövlətlərinin bir çoxunda tətbiq edilir. Buraya əhalinin işsiz təbəqələrinə yeni, ehtiyac duyulan ixtisasların öyrədilməsi, əmək yarmarkalarının keçirilməsindən tutmuş, yeni iş yerlərinin yaradılmasına qədər birbiri ilə qarşılıqlı əlaqədə tətbiq edilən bir çox tədbirlər daxildir. İşsizlər dövlət tərəfindən müəyyən edilən müavinət alırlar. Eyni zamanda işsiz şəxslərin işə düzəldilməsi məqsədilə dövlət onlarla müəyyən tədbirlər həyata ke-

çirir. Məhz Konstitusiyanın tələblərini əldə rəhbər tutmaqla Azərbaycan Respublikası Əmək Məcəlləsinin əmək münasibətləri sahəsində dövlət hakimiyyəti orqanlarının vəzifələrinə həsr edilmiş 14-cü maddəsinin 2-ci hissəsində işsizlik probleminin həllinə yönəldilən qayda müəyyənləşdirilmişdir. Orada göstərilir ki, dövlət işsizliyin aradan qaldırılması məqsədi ilə vətəndaşların peşəkarlıq səviyyəsini, əmək vərdişlərini, çoxillik təcrübəsini nəzərə almaqla müvafiq ixtisaslar, sənətlər, peşələr üzrə ölkədə mövcud olan iş qüvvəsindən istifadə olunmadan xarici ölkələrdən əsassız olaraq mütəxəssislərin işə cəlb olunmasının qarşısının alınmasını, işsizlik, əhalinin məşğulluğu və miqrasiyası məsələlərini tənzimləyir.

§ 3. Tətil hüququ

Tətil hüququ XIX əsrdə sosial ziddiyyətlərin gücləndiyi dövrdə ortaya çıxmışdır. Tətil hüququ işçilərin müəyyən məqsədlərlə işəgötürənlərə təzyiq vasitəsidir. Tətil işçilərin öz əmək funksiyalarını müəyyən məqsədlərlə yerinə yetirməkdən imtina etməsi kimi başa düşülə bilər. Hal-hazırda, demək olar ki, nadir hallarda tətbiq olunan tətil sosial ziddiyyətlərin gücləndiyi hallarda əmək münaqişələrində işçilərin işəgötürənlərə qarşı təzyiq vasitəsi kimi istifadə etdiyi ən təsirli üsuldur. Müəssisədə çalışan bütün şəxslərin işə çıxmaması nəticəsində işəgötürənlərə külli ziyan dəyə bilər. Bundan da işçilər təzyiq vasitəsi kimi istifadə edirlər. Adətən, tətil iş vaxtı, əmək haqqı, iş şəraiti və s. bu kimi əmək münasibətlərinin həyata keçirilməsi ilə işçilərlə işəgötürənlər arasında yaranan mübahisələrin həlli zamanı tətbiq edilir. Lakin tətildən siyasi məqsədlər üçün də istifadə edilməsi istisna edilmir və belə olduqda, tətil artıq siyasi əhəmiyyət kəsb edir, siyasi

mübarizə vasitəsinə çevrilir. Tətil keçirilməsi yüksək dərəcədə həmrəylik tələb edir. Düzdür, təkbaşına tətil mümkündür, ancaq aydındır ki, təkbaşına tətil kollektivin keçirdiyi tətil qədər səmərəli ola bilməz. Tətil hüququ siyasi məqsədlərlə istifadə edildikdə sərbəst toplaşmaq azadlığına çox yaxınlaşır. Lakin bu zaman da onları eyniləşdirmək olmaz, çünki tətil birbaşa əmək funksiyalarının yerinə yetirilməsindən imtina şəklində təzahür edir. Sərbəst toplaşmaq azadlığında isə əmək funksiyaları ilə hər hansı şəkildə əlaqə yoxdur. Bundan başqa, tətil hüququ əmək münasibətlərində ortaya çıxan sosial münaqişələrlə bağlıdır. Sərbəst toplaşmaq azalığı isə, bir qayda olaraq, siyasi məsələlərlə bağlı olur. Tətil etmək hüququnun məhdudlaşdırılmasına yol verilmir və əgər şəxs əmək müqaviləsi əsasında işləyirsə, bu zaman onun tətil hüququ yalnız əmək müqaviləsi əsasında da məhdudlaşdırıla bilər. Silahlı qüvvələrdə və digər silahlı birləşmələrdə fəaliyyət göstərən mülki şəxslərin tətil etməsinə icazə verilmir. Başqa sözlə, həmin şəxslərin tətil etmək hüququ yoxdur. Əsas qanun belə bir müddəadan çıxış edir ki, müvafiq sahələr dövlət üçün həyati əhəmiyyətə malikdir və bu sahələrdə tətil cəmiyyət üçün arzuolunmaz nəticələr verə bilər. Bundan başqa, hərbi birləşmələrdə və digər bu kimi sahələrdə ciddi subordinasiya əlaqələri mövcuddur (tabe olanlar yuxarılardan əsaslı şəkildə asılıdır). Bu sahələrdə sosial münaqişələrin qarşısı mümkün qədər alınır, yarana biləcək münaqişələr isə əmək hüququnda nəzərdə tutulmuş üsullarla deyil, inzibati metodların köməyi ilə həll edilir.

Tətil hüququnun realizə edilməsinin bütün digər məsələləri Əmək Məcəlləsində nəzərdə tutulmuşdur. Tətil etmək hüququ üçün əsas kimi kollektiv əmək mübahisəsi

çıxış edir. Kollektiv əmək mübahisəsinin yarandığı vaxtdan tətil etmək hüququ yaranır. Əmək qanunvericiliyi tətili son olaraq tətbiq edilən təsirli tədbir kimi nəzərdə tutur. Belə ki, Əmək Məcəlləsinin 270-ci maddəsinə görə, tərəflər mübahisənin həlli üçün dinc üsullarından istifadə edəcəkləri barədə razılığa gəlmişlərsə və bu üsullar da bir nəticə verməmişdirsə, o zaman tətilə yol verilir. Əgər işəgötürən mübahisənin barışdırıcı üsullarla həllini qəsdən uzadırsa, o halda əmək kollektivlərinin birbaşa tətil keçirmək hüququ yaranır. Göründüyü kimi, qanunvericilik tətili adi üsul kimi deyil, əmək mübahisələrinin həllində son və çox təsirli üsul kimi qəbul edərək, onun heç də istənilən halda tətbiqinə imkan vermir. Eyni zamanda işçilər üçün tətil hüququnun səmərəli olması məqsədilə işəgötürənlərə yönəlmiş müəyyən məhdudiyyətlər nəzərdə tutulur. Belə ki, tətildə iştirak edən işçilərin əmək funksiyalarının icrası üçün başqa şəxslərin cəlb edilməsi və lokaut (tətildə iştirak etdiklərinə görə işçiləri kütləvi şəkildə işdən çıxarmaqla müəssisəni bağlamaq) elan olunmasına gətirib çıxaran hərəkətlər qadağandır. Qanunvericilik, məhkəmə və hüquq-mühafizə orqanlarının işçiləri, Prezident Administrasiyasının işçiləri, Nazirlər Kabinetinin, nazirliklərin, dövlət komitələrinin və digər mərkəzi icra hakimiyyəti orqanlarının, habelə yerli icra hakimiyyəti orqanlarının əməkdaşları tətil edə bilməzlər. Tətildə iştirak etmək könüllüdür və tətildə iştirak etməkdən imtina edən şəxslər öz əmək funksiyasını davam etdirirlər. Tətilçilər işə davam edən işçilərin əmək hüquqlarını yerinə yetirməsinə mane olmadan iş yerində və ya bilavasitə müəssisənin yaxınlığında sərbəst toplaşaraq, danışıqların gedişini müzakirə etmək, mitinqlər və digər kütləvi tədbirlər keçirmək hüququna malikdirlər. Bir sıra dövlət-

lərin konstitusiyalarından fərqli olaraq, Azərbaycan Respublikasının Konstitusiyasında işçilərin təkbaşına tətil etmək hüququ tanınır. Bu sosial qanunvericilikdə ən mühüm, eyni zamanda nadir hallarda təsadüf edilən hüquqdur və işçilərin hüquqlarının müdafiə olunması istiqamətində çox təsirli hüquqi və demokratik vasitədir.

§ 4. İstirahət hüququ

İstirahət hüququ əmək hüququ ilə sıx surətdə bağlıdır. Elə buna görə də Azərbaycan Respublikası Konstitusiyasının 37-ci maddəsində o, əmək müqaviləsi, əmək hüququ kontekstində xatırlanır. İstirahət hüququ şəxsin vətəndaşlığının olub-olmamasından asılı olmayaraq hamıya məxsusdur. İstirahət vaxtı elə zaman kəsiyini ifadə edir ki, bu müddətdə işçi qanunvericiliyə müvafiq olaraq, əmək funksiyalarını yerinə yetirməkdən azad edilir və bu müddətdən öz mülahizəsinə görə istifadə edir. İstirahət hüququ müəyyən müddətlə ölçülür. İstirahət insana əmək funksiyalarını yerinə yetirərkən sərf olunmuş enerjini bərpa etmək üçün lazımdır. İstirahət hüququ işçinin öz əmək funksiyasını yerinə yetirərkən işarası fasilələr də daxil olmaqla vaxtaşırı bu funksiyaları yerinə yetirməkdən azad olunması şəklində realizə olunur. İstirahət hüququ iş zamanı verilən fasilələri, həftənin istirahət günlərini, iş günü hesab olunmayan bayram günlərini, ümumxalq hüzn gününü (20 Yanvar) və məzuniyyəti əhatə edir. İş gününün maksimum müddətinin müəyyən edilməsi də dolayısıyla istirahət hüququnun hədlərinin müəyyənləşdirilməsi ilə bağlıdır. Konstitusiya 8 saatdan artıq olmayan iş günü müəyyən etmişdir. Yerdə qalan saatları işçi öz nöqteyinəzərincə istifadə edə bilər.

İstirahət hüququnun əsas növü məzuniyyət hüququdur. Beynəlxalq Əmək Təşkilatının Azərbaycan Respublikasının da qoşulduğu 1970-ci il tarixli 132 saylı «Ödənişli məzuniyyətlər haqqında» Konvensiyası işçilərin ödənişli məzuniyyətinin minimum müddətini 21 gün (üç həftə) müəyyənləşdirmişdir. Azərbaycan Respublikasının Konstitusiyasında da bu norma əsas götürülüb və işçilərə ildə 21 təqvim günündən az olmayan ödənişli məzuniyyətin verilməsi müəyyən edilmişdir. Bu o deməkdir ki, Azərbaycanda müəssisənin növündən, formasından, kimə məxsus olmasından, harada yerləşməsindən asılı olmayaraq, əmək müqaviləsi üzrə işləyən hər bir işçiyə kimliyi, vəzifəsi və necə işləməsi nəzərə alınmadan hökmən ildə bir dəfə ən azı 21 təqvim günü müddətində ödənişli əsas məzuniyyət, yəni haqqı qanunvericiliklə müəyyən edilmiş qaydada ödənən məzuniyyət verilməlidir. Məzuniyyətdə olduğu müddət ərzində işçinin iş yeri, peşəsi və orta əmək haqqı saxlanılır. Başqa sözlə, məzuniyyətdə olan işçini işdən çıxarmaq olmaz və onun məzuniyyət haqqı ödənilməlidir. Bunlar ümumilikdə məzuniyyət hüququnun təminatları kimi başa düşülməlidir.

Əmək Məcəlləsində məzuniyyətin müxtəlif növləri fərqləndirilir. Geniş mənada məzuniyyət anlayışına əsas və əlavə məzuniyyətlərdən ibarət olan əmək məzuniyyəti, uşağa qulluq edən qadınlar üçün sosial məzuniyyət, təhsili davam etdirmək üçün təhsil məzuniyyəti, elmi yaradıcılıqla məşğul olmaq üçün verilən yaradıcılıq məzuniyyəti və ödənişsiz məzuniyyətlər daxildir. Bundan başqa, əmək müqaviləsində məzuniyyətlərin digər növləri də nəzərdə tutula bilər. Məzuniyyət növləri sırasında əsas yeri işçinin əmək məzuniyyəti tutur. Əmək Məcəlləsinin 113-cü maddəsində verilən anlayışa əsasən əmək məzu-

niyyəti işçinin normal istirahətinin, əmək qabiliyyətinin bərpası, sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi üçün işdən ayrılmaqla öz mülahizəsi ilə istifadə etdiyi istirahət vaxtıdır. Buradan belə bir nəticəyə gəlmək olar ki, istirahət hüququ, sadəcə olaraq, istirahət üçün deyil, həm də digər sosial funksiyaların yerinə yetirilməsi və fərd üçün vacib məsələlərin həlli məqsədilə əmək funksiyalarını yerinə yetirməkdən müəyyən müddətə azad olmaqdır və onun əsas təyinatı əmək qabiliyyətini möhkəmləndirmək üçün işçinin fizioloji tələbatının təmin edilməsi imkanıdır.

Dünyanın müxtəlif ölkələrində məzuniyyət hüququ müxtəlif şəkillərdə tənzimlənir. Məsələn, ABŞ və Böyük Britaniyada məzuniyyət hüququ daha çox qanunvericiliklə deyil, fərdi əmək müqavilələri vasitəsilə tənzim olunur. Bunun əksinə, əksər roman-german hüquq sistemli ölkələrdə məzuniyyət hüququnu tənzimləmək üçün xüsusi qanunvericilik aktları qəbul olunur. Məzuniyyət hüququ şəxsin işlədiyi sahədən, işin xarakterindən və şəxsin iş stajından asılı olaraq, müəyyən dəyişikliyə məruz qalır. Məsələn, yeraltı işlərdə, zərərli və yüksək gərginliklə bağlı olan işlərdə çalışan şəxslərə altı təqvim günündən az olmayaraq əlavə ödənişli məzuniyyət verilir. On beş ildən çox iş stajına malik şəxslərə də altı təqvim günü həcmində əlavə məzuniyyət hüququ verilir. Əsas məzuniyyət işin xarakterindən, əmək şəraitindən asılı olaraq, müxtəlif müddətlərə müəyyən edilmişdir. Məsələn, məsul vəzifələrdə çalışan dövlət qulluqçularına, təhsil müəssisələrinin bəzi kateqoriyadan olan işçilərinə, kənd təsərrüfatı məhsullarının istehsalında çalışan işçilərə əsas məzuniyyət 30 təqvim günü müddətinə verilir. Pedaqoji fəaliyyət-

lə məşğul olan işçilərə verilən məzuniyyətin müddəti 56 təqvim günüdür.

Azərbaycanda ABŞ, Böyük Britaniya və digər ölkələrdən fərqli olaraq, işçilərin istirahət hüququ qanunvericiliklə tənzimlənir. Ona görə də istirahət hüququnun təmin olunması bir sıra qaydaların, normaların olmasını tələb edir. Məhz buna görə də ölkəmizdə müəssisələrin təşkilati-hüquqi formasından, mülkiyyət növündən asılı olmayaraq, bütün iş yerlərində istirahət hüququnun eyni cür həyata keçirilməsini tənzimləyən çox geniş normalar sistemi mövcuddur. Bu normalar sistemini Azərbaycan Respublikası Əmək Məcəlləsinin V bölməsinin 15-23-cü fəsillərini və bu normalar əsasında qəbul olunmuş çoxsaylı normativ hüquqi aktları əhatə edir.

§ 5. Sosial təminat hüququ

Sosial təminat dövlətin sosial funksiyası ilə birbaşa bağlıdır. Sosial təminat hüququ onu ifadə edir ki, özünü saxlamaq imkanından məhrum olmuş, yaxud başqalarına nisbətən cəmiyyətdə daha çox sosial müdafiəyə ehtiyacı olan şəxsin öz yaşayışını təmin etmək üçün dövlətdən müəyyən social ödəniş almaq hüququ vardır. Bu zaman fərdə əvəzsiz olaraq müəyyən məbləğdə pul vəsaiti və digər sosial güzəştlər verilir. Sosial təminat dövlətin maddi ehtiyatları hesabına təmin edilir. Bir qayda olaraq, dövlət büdcəsində yığılan və sosial məqsədlər üçün ayrılan pulun bir hissəsi sosial təminat üçün xərclənir. Sosial təminat hüququ dövlətin vergi və s. yığımlar şəklində büdcəyə daxil olan maliyyə vəsaitlərindən yenidən bölgü zamanı aztəminatlı təbəqələrin müəyyən vəsaiti tələb haqqını ifadə edir. Sosial təminat hüququ dövlətin iqtisadi inkişafından birbaşa asılı olaraq, realizə edilən hüquqdur,

ona görə də onun realizə qaydası və əsasları ölkədən-ölkəyə kəskin fərqlənir. Qanun göstərir ki, hər kəsin sosial təminat hüququ vardır. Lakin bunun üçün müəyyən əsasların əmələ gəlməsi vacibdir. Bu əsaslar olmadan fərdin sosial təminat hüququ işə yaranmır. Konstitusiya ailənin xüsusiyyətindən çıxış edərək müəyyən edir ki, ehtiyacı olanlara kömək etmək ilk növbədə onların ailə üzvlərinin borcudur. Buna bənzər bir norma Azərbaycan Respublikası Konstitusiyasının 34-cü maddəsinin V hissəsində də əks olunmuşdur. Burada şəxslərin bir-birini təmin etməsinin əsası kimi qarşılıqlı etimad və əxlaqi borc çıxış edir. Sosial təminat vəsaitləri dövlət büdcəsi ilə yanaşı digər qurumda - Dövlət Sosial Müdafiə Fondunda toplanır. Dövlət Sosial Müdafiə Fondu dövlətin tabeçiliyində olan maliyyə orqanıdır və o, aztəminatlı təbəqələrin sosial təminatı ilə bağlı məcburi dövlət sosial sığortası üçün ayrılmış ödəmələrin yığılması və maliyyələşdirilməsi ilə məşğuldur.

Dövlət sosial sığorta sistemi dünyanın bir çox ölkələrində mövcuddur. Bu sistem əhalinin aşağı təbəqələrinin tələbatlarını qismən ödəməklə potensial sosial münaqişələrin qarşısını alır və beləliklə də, çox vacib bir funksiyanı - sosial sabitliyin təmin olunması funksiyasını yerinə yetirir. Sosial təminatlar pensiya, müavinət formasında müntəzəm olaraq qanunla qoyulmuş müddətdə ödənilməlidir. Burada əsas məsələ ödənilən məbləğin miqdarından daha çox onun daimiliyidir. Konstitusiya sosial təminat sistemindən yararlanma üçün hüquqi faktları da müəyyən edir. Buraya müəyyən yaş həddinə çatma, xəstəlik, əlillik, ailə başçısını itirmə, əmək qabiliyyətini itirmə, işsizlik və qanunla nəzərdə tutulmuş digər hallar aiddir. Konstitusiya bu halların dairəsini, göründüyü kimi, açıq saxla-

yır. Digər bütün hallar qanunvericilikdə dövrün tələbinə uyğun olaraq müəyyənləşdirilir. 2010-cu ilin yanvar ayının 1-dən etibarən pensiyaya çıxmaq üçün yaş həddi artırılmışdır və hazırda kişilər üçün əmək pensiyasına çıxmaq yaşı 63, qadınlar üçün isə 60-dır. Bu yaş həddi, adətən, əmək qabiliyyətinin kəskin azalması ilə müşahidə olunur. Buna görə də qanunvericilik məhz bu yaşları müvafiq olaraq kişi və qadın üçün əmək pensiyası yaşı kimi müəyyən edir. Xüsusilə zərərli, ağır işlərdə məşğul olan şəxslər üçün pensiya yaşı işin xarakterindən asılı olaraq, 5-10 il qısaldılır.

Xəstəlik, adətən, o zaman sosial təminat hüququnun istifadəsinə səbəb olur ki, şəxsin peşə fəaliyyətini uzun müddətə dayandırmaq zəruriyyəti yaranır və əmək qabiliyyəti kəskin şəkildə dayanıqlı olaraq aşağı düşür. Buna görə heç də hər bir xəstəlik sosial təminat hüququnu realizə etmək üçün hüquqi fakt rolu oynaya bilməz.

Azərbaycan Respublikasında ailə-məişət məsələləri ilə bağlı ənənəvi baxışlar hələ də öz əhəmiyyətini saxladığına görə ailə başçısı hesab olunan şəxsin (bir qayda olaraq, kişinin) ailə büdcəsinin doldurulmasında müstəsna əhəmiyyəti olur. Doğrudur, müasir dövrdə ailədə hər iki tərəfin işləməsinə baxmayaraq, qanun bu tərəflərdən birinin (ər və ya arvadın) işləməməsi zamanı ailə büdcəsinə daxil olan gəlirin azalmasını nəzərə alaraq, ailə başçısını itirməni sosial təminat hüququnun yaranmasına əsas kimi daxil etmişdir. Ailə başçısının itirilməsinə görə ailənin yetkinlik yaşına çatmamış üzvlərinin hər birinə pensiyanın minimum məbləğindən az olmayaraq pensiya təyin olunur.

Əlillik sağlamlığın, əmək qabiliyyətinin həmişəlik pozulmasıdır. Adətən, əlillik zamanı orqanizmə ciddi zərər

dəyir ki, bunun nəticəsində orqanizm bütün funksiyalarını yerinə yetirə bilmir və nəticədə əmək qabiliyyəti aşağı düşür və bununla da onun həyat fəaliyyəti məhdudlaşır. Bu halda təbii ki, dövlət və cəmiyyət əmək qabiliyyətini itirmiş şəxslərin yaşaması, insani tələbatının ödənilməsini təmin etmək üçün bu qəbildən olan vətəndaşların sosial müdafiəsi məsələlərini qanunvericiliklə həll etməlidir. Ona görə də qanunvericilikdə müəyyən səbəbdən əlil olmuş şəxslərə pensiya və müavinətlərin təyin olunması və ödənilməsi qaydaları nəzərdə tutulur. Əlillərin dövlət tərəfindən müdafiəsi üçün digər vasitələr də vardır. Ehtiyacı olan əlillərin xüsusi məktəblərdə təhsili, onların müvafiq işlə təmin edilməsi əlillərə əlavə sosial müdafiə tədbirləri kimi nəzərdə tutulmuşdur. Bunların sırasında vətənin müdafiəsi zamanı xəsarət almış əlillərin, o cümlədən şəhid olmuş döyüşçülərin ailə üzvlərinin sosial müdafiə tədbirləri daha geniş və təminatlıdır. Başqa növ əlillərdən fərqli olaraq, dövlət müasir şəraitdə onlara dövlət hesabına tam rahatlığı olan mənzillər tikib paylayır, onları pulsuz olaraq minik avtomobilləri ilə təmin edir, habelə sosial reabilitasiya tədbirlərini həyata keçirir. Eyni zamanda əlillərin sosial müdafiəsinin gücləndirilməsinə yönəlmiş bir sıra yeni qanunlar və digər normativ hüquqi aktlar qəbul edilir və onların icrası təmin olunur.

Bununla yanaşı, işsizlik də sosial təminat sisteminə qoşulmaq üçün əsasdır. Lakin digər hallardan fərqli olaraq, burada sosial təminat hüququnun həyata keçirilməsi səbəbi orqanizmin özünün çatışmazlığı və ya ailədaxili hər hansı bir hadisə deyil (ailə başçısını itirmə), şəxsin obyektiv səbəblərdən özünün iş qüvvəsini sərf etmək üçün iş tapa bilməməsidir. Bu halda işsiz qalmış vətəndaşlara dövlət maliyyə imkanları çərçivəsində işsizlik müavinəti

ödəməklə onların sosial müdafiə məsələlərini qismən də olsa həll edir.

Pensiyaların əsas növü kimi çıxış edən əmək pensiyası müəyyən yaş həddinə çatdıqda və müvafiq iş stajı olduqda ödənilir. Sosial müavinətlər isə stajdan və işləməkdən asılı olmadan, yuxarıda sadalanan hallardan hər hansı biri olduqda tətbiq edilir. Əmək pensiyası hazırda qüvvədə olan «Əmək pensiyaları haqqında» və sosial müavinətlərin verilməsi isə «Sosial müavinətlər haqqında» 7 fevral 2006-cı il tarixli qanunlarla tənzimlənir. Azərbaycan Respublikasının sosial təminatı bütün məşğul əhalinin məcburi dövlət sosial sığortası və dövlət büdcəsindən ayırmalar hesabına həyata keçirilir. Əhalinin işsiz qruplarının sosial təminatı məşğulluq və miqrasiya məsələlərinə həsr edilmiş qanunlarla tənzimlənir.

Dövlət alternativ sosial təminat sistemlərinin yaradılmasında maraqlıdır, çünki bu zaman onun sosial təminat sisteminə düşən yük və maliyyə xərcləri azalır. Buna görə də Konstitusiyanın 38-ci maddəsinin V hissəsində nəzərdə tutulur ki, dövlət xeyriyyəçilik fəaliyyətinin və könüllü sosial sığortanın və sosial təminatın başqa növlərinin inkişafı üçün şərait yaradır. Xeyriyyəçilik fəaliyyəti zamanı müxtəlif sosial təsisatlar özü dövlət tərəfindən maliyyələşdirilmədən aztəminatlı təbəqələrə yardım göstərirlər. Könüllü sığorta zamanı yığılan maliyyə ehtiyatları isə sonradan sosial təminata şərf olunur və dövlətin maliyyə ehtiyatlarına qənaət edilir. Bu tədbirlərin təmin edilməsi üçün çox geniş hüquq islahatları həyata keçirmək tələb olunur. Hazırda ölkəmizdə pensiya təminatı sosial həmrəylik və yığım prinsipi əsasında tənzimlənir. Bu prinsipin ilk baxışda bir sıra müsbət cəhətləri vardır. Belə ki, bu prinsipə görə, cəmiyyətin bütün üzvləri araların-

da heç bir fərq qoyulmadan, eyni qadada və eyni mexanizm ilə pensiya təminatı hüququndan istifadə etmək imkanına malikdirlər və onlara pensiyanın ödənilməsi üçün hamı eyni qaydada məcburi sosial sığorta haqqı ödəməlidir. Ona görə ki, insanlar qanun qarşısında bərabərdirlər. Cəmiyyətdə tutduğu mövqeyinə, ictimai rifahın formalaşmasında iştirakına və digər amillərə görə isə insanlar, təbii ki, bir-birindən fərqlənirlər. Bazar iqtisadiyyatında təqaüdlərin həmrəylik və yığım prinsipləri əsasında fəaliyyət göstərməsi əsas şərtlərdən biridir. Buna uyğun olaraq ölkəmizdə pensiya islahatı konsepsiyası hazırlanmış və bu konsepsiya əsasında sosial təminat sahəsində qanunvericilik köklü şəkildə təkmilləşdirilir.

§ 6. Sağlamlığın qorunması və sağlam ətraf mühitdə yaşamaq hüququ

Sağlamlıq hər bir fərdin malik olduğu ən mühüm dəyər, normal yaşayış və inkişaf zərurətidir. Əlbəttə, hamı öz sağlamlığının qayğısına eyni dərəcədə qalmır, lakin bu anlayışın hər bir fərd üçün nə dərəcədə əhəmiyyətli olduğunu fərd məhz sağlamlığını itirdikdə başa düşür. Məşhur fransız filosofu Şamforun sözləri ilə desək, insan yalnız xəstələndikdə sağlamlığının qayğısına qalır. Hər bir fərdin yaşamasının mənası, ətraf aləmi qavraması və əmək qabiliyyəti onun sağlamlığından birbaşa asılıdır. Sağlamlığını itirən şəxsdə əmək qabiliyyəti aşağı düşür, yaşamaq eşqi sönür və o, sağlamlığı bərpa edilənədək psixoloji stresslər keçirir. Sağlamlıq, göründüyü kimi, fərdin həyat fəaliyyəti ilə birbaşa bağlı olduğuna görə ona olan münasibət və onunla bağlı məsələlərin özəyi konstitusion hüquq səviyyəsində müəyyənləşdirilmişdir. Sağlamlıq insan orqanizminin optimal fizioloji vəziyyətini

bildirir. Sağlamlıq insanın fərdi-fiziki göstəriciləri, mənəvi, ruhi vəziyyəti ilə bağlı anlayışdır və onu konkret göstəricilər əsasında tam şəkildə müəyyən etmək qeyri-mümkündür. Konstitusiyada söhbət ümumiyyətlə sağlamlıq hüququndan deyil, sağlamlığın qorunmasından gedir. Hüququn məhz qorunma aspektində təsbit edilməsi təsadüfi deyil. Sağlamlıq əksəriyyətin anadangəlmə malik olduğu, fiziki və ruhi vəziyyətini əks etdirir. Bu cür fərdi-bioloji xüsusiyyətlərlə şərtlənən anlayış sosial münasibətlərin təsirinə nə qədər məruz qalsa da, ondan birbaşa asılı deyildir. Buna görə də burada söhbət insanın biofizioloji, əqli, intellektual sağlamlığından deyil, onun fizioloji vəziyyətinin, sağlamlığının qorunması tədbirlərinə həsr olunmuş hüququndan gedir.

Müasir dövrdə elm və texnikanın, insan cəmiyyətinin inkişafı çoxlu problemlər yaratmış və fərdin sağlamlığının qorunması məsələsini daha da aktuallaşdırmışdır. Bu gün sağlamlığın qorunması özü artıq kifayət qədər mürəkkəb bir problemdir. Bunun üçün çoxsaylı sosial təsisatlar fəaliyyət göstərir, dövlət durmadan sosial-profilaktik tədbirlər kompleksini realizə edir. Bu baxımdan sağlamlığın qorunması hüququnun və sağlam ətraf mühitdə yaşamaq hüququnun birgə nəzərdən keçirilməsi də təsadüfi deyildir. Məlumdur ki, sağlamlığa çoxlu amillər təsir edir. Hal-hazırda bu amillər içərisində ətraf mühitin rolu artmışdır. Fərdin sağlamlığı getdikcə daha çox onun nə dərəcədə sağlam ətraf mühitdə yaşamasından asılı hala düşür. Elə insanın sağlamlığı baxımından da sağlam ətraf mühitdə yaşamaq hüququ çox əhəmiyyətlidir. Sağlam olmayan, yol verilən normadan artıq çirklənmiş su mənbələri, hava məkanı nəinki ekoloji sistemin digər komponentlərinə, həm də bu sistemin başlıca ünsürlərindən biri olan insa-

na ciddi ziyan vurur. Elə buna görə də Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsində birbaşa müəyyənləşdirilir ki, hər kəsin ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına vurulmuş zərərin əvəzini tələb etmək hüququ vardır. Göründüyü kimi, sağlam ətraf mühitdə yaşamaq hüququ sağlamlığın qorunması hüququna bir növ əlavədir. Lakin bu hüquqlar arasında olan nisbəti şəxsi toxunulmazlıq və mənzil toxunulmazlığı arasındakı nisbət kimi nəzərdən keçirmək doğru deyildir. Şəxsi toxunulmazlıq, mənzil toxunulmazlığı, şərəf və ləyaqətin müdafiəsi daha geniş bir anlayışın - toxunulmazlıq anlayışının ayrı-ayrı təzahürləridir. Sağlamlığın qorunması və sağlam ətraf mühitdə yaşamaq hüququ isə bir-birini tamamlayan, bir-birinə yaxın olan, lakin fərqli hüquqlardır.

«İqtisadi, sosial-mədəni hüquqlar haqqında» Beynəlxaq Paktın 25-ci maddəsində də bu hüquqdan söhbət gedir. Sağlamlığın qorunması, sadəcə olaraq, həkimə müraciət, tibbi yardım almaq və s. imkanları nəzərdə tutmur. Cəmiyyət üzvlərinin sağlamlığının qorunması dövlət tərəfindən geniş kompleks tədbirlər həyata keçirilməsini tələb edir. Buraya tibbi, sosial-siyasi, sanitar-epidemioloji və s. tədbirlər aiddir. Səhiyyə sahəsində qanunvericilik özü böyük sistem təşkil edir və çoxsaylı normativ hüquqi aktlardan ibarətdir. Buraya 10 noyabr 1992-ci il tarixli «Sanitariya-epidemioloji salamatlıq haqqında», 26 iyun 1997-ci il tarixli «Əhalinin sağlamlığının qorunması haqqında», 28 oktyabr 1999-cu il tarixli «Tibbi sığorta haqqında», 30 dekabr 1999-cu il tarixli «Özəl tibb fəaliyyəti haqqında», 3 may 2005-ci il tarixli «Qan, qan komponentlərinin donorluğu qan xidməti haqqında» və s. Azərbaycan Respublikasının Qanunları, habelə digər normativ hüquqi aktlar

daxildir. Qanunvericiliyə görə, vətəndaşların sağlamlığının mühafizəsinin əsas prnisipləri aşağıdakılardır:

1) sağlamlıq və onun qorunması sahəsində insan hüquqlarına riayət edilməsi;

2) vətəndaşların sağlamlığının mühafizəsində profilaktik tədbirlərin üstünlüyü;

3) əhaliyə tibbi-sosial yardım göstərilməsi;

4) sağlamlığını itirdiyi təqdirdə vətəndaşların sosial müdafiəsi.

Dünyanın müxtəlif dövlətlərində fəaliyyət göstərən çoxsaylı səhiyyə müəssisələri iki sistemə əsaslanır: liberal sistem, sosial sistem. Liberal sistemdə müalicənin, müalicə vasitələrinin haqqını vətəndaş ödəyir. Sosial sistemdə isə müalicənin və müalicə vasitələrindən istifadə haqqının əsas hissəsini dövlət öz üzərinə götürür. Vaxtilə Sovet İttifaqında yalnız ikinci sistem fəaliyyət göstərirdi. Özəl tibbi fəaliyyətə icazə verilmirdi və vətəndaşların müalicəsinə çəkilən xərclər dövlət tərəfindən ödənilirdi. Müasir dünya dövlətlərinin bir çoxunda bu sistemlərin hər ikisi qarşlıqlı olaraq tətbiq olunur. Bu zaman, bir qayda olaraq, sosial tibbi sistem əhalinin zəif sosial təbəqələri üçün nəzərdə tutulur. Adətən, bu geniş tətbiq olunan məcburi tibbi sığorta hesabına realizə edilir. Məcburi tibbi sığorta fondlarında toplanan maliyyə vəsaitləri də elə bu məqsədlə istifadə edilir. Azərbaycan Respublikası Konstitusiyasının 41-ci maddənin ikinci hissəsində "müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyə" ifadəsinin olması onu deməyə əsas verir ki, Azərbaycan Respublikasında bu sistemlərin hər ikisi tətbiq olunur. «Tibbi sığorta haqqında» qanunda sığortanın müvafiq olaraq iki növü - məcburi və könüllü növləri fərqləndirilir. İlkin tibbi-sosial və ixtisaslaşmış tibbi yardım məcburi

tibbi sığortaya uyğun olaraq pulsuz həyata keçirilir. Sanitariya-epidemiologiya salamatlığı fərdin, bir qayda olaraq, kütləvi gigiyenik və profilaktik tədbirlər vasitəsilə sağlamlığının qorunmasını nəzərdə tutur. Bütün bunlar üçün sosial obyektlərə və fərdi istifadə vasitələrinə qədər bir çox obyektlər üçün minimum sanitariya tələbləri müəyyənləşdirilir, eyni zamanda epidemioloji xidmət mərkəzləri geniş yayılmaq təhlükəsi olan infeksion xəstəlikləri doğura biləcək hallara nəzarət edirlər.

İnsanın sağlamlığı və bu sağlamlığın vəziyyəti ilə əlaqədar diaqnoz qoyulması xüsusi biliklər tələb edir. Bu biliklər isə tibbi biliklərdir və heç də hər kəs bu biliklərə malik deyildir. Adətən, insan sağlamlığının vəziyyətini öyrənmək üçün peşəkarlara müraciət edir və bu zaman bütövlükdə sağlamlıqla bağlı alına biləcək obyektiv informasiya üçün o, peşəkardan asılı vəziyyətə düşür. Bu cür təbii vəziyyətdən irəli gələn asılılıq bəzən müvafiq vəzifəli şəxslərin sui-istifadəsinə səbəb olur və bir çox hallarda bu, sağlamlıqla bağlı ağır nəticələrə gətirib çıxarır. Buna görə də Konstitusiyada belə şəxslər üçün birbaşa məsuliyyət müəyyənləşdirilir və göstərilir ki, həyat və sağlamlıq üçün təhlükəli faktları gizlədən şəxslər məsuliyyətə cəlb olunurlar.

Əhalinin və ətraf mühitin sağlamlığı üçün təhlükəli faktorlar ilə bağlı hər bir vətəndaş məlumat ala bilər. Belə informasiyalar məxfiləşdirilə bilməz. Vətəndaşlar belə informasiyanın onlara verilməməsi ilə bağl məhkəməyə şikayət edə bilərlər.

Sağlam ətraf mühitdə yaşamaq hüququ ətraf mühitin çirklənməsinin artması ilə bağlı olaraq yaranmışdır. XX əsrin sonunda ekoloji problemlərin güclənməsi və dövlətin bu məsələlərə marağının artması, ekoloji təmizliyin

yüksək əhəmiyyət kəsb etməsi ekologiya hüququnun yaranmasına gətirib çıxarmışdır. Bu hüquq sağlam ətraf mühitdə yaşamaq, ətraf mühitin vəziyyəti haqqında məlumat almaq və ətraf mühitdən ona dəymiş zərərin ödənilməsini tələb etmək kimi xüsusiyyətlərdən ibarətdir. Konstitusiya beynəlxalq sənədlərdə əks olunan müddəaların yığcam şəkildə Azərbaycan Respublikasında tətbiq olunması üçün hüquqi baza yaradır. 1992-ci ilin iyununda BMT-nin «Ətraf mühit və inkişaf üzrə Bəyannamə»si qəbul olundu. Burada birbaşa göstərilir ki, insanlar məhsuldar həyat və təbiətlə harmoniyada yaşamaq hüququna malikdirlər. Bütün bunlar təsadüfdən yaranmır. Aparılan tədqiqatlar göstərir ki, ətraf mühit özü özünü tənzimetmə xüsusiyyətinə malikdir və antropogen maddələr (insan fəaliyyətinin nəticəsi olan tullantılar), insanın öz mənafeyi naminə ətraf mühitə aktiv müdaxiləsi təbiətin özünütənzimləmə xüsusiyyətini pozur. Nəticədə təbiət yaranmış disproporsiyanı aradan qaldıra bilmir və beləliklə, ətraf mühitdə çirklənmə şəklində təzahür edən qlobal problemlər yaranır. Odur ki, son illər məhz insanın ətraf mühitlə, təbiətlə harmoniyada yaşaması yolu ilə bu sistemin bərpası problemi önə çəkilmişdir. Ətraf mühitlə harmoniyada yaşama onun təbii ehtiyatlarından rasional istifadəni və təbii sistemləri pozmamaq üçün onlara minimum müdaxiləni nəzərdə tutur. Heç də təsadüfi deyil ki, 18 mart 2009-cu il tarixdə keçirilən referendumda Konstitusiyanın 39-cu maddəsinə III və IV hissələr əlavə edilmişdir. Üçüncü hissədə təsbit olunur ki, heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz. Göründüyü kimi, bu müddəa BMT-nin «Ətraf mühit və inkişaf üzrə Bəyannamə»sinin tələblərini əks etdirir.

İnsan təbiətin bərpası üçün ona aktiv kömək etməlidir. Digər sosial problemlərdən fərqli olaraq, bütün planet səviyyəsində problemlər yaradan və demək olar ki, idarə olunması mümkün olmayan ekoloji problemlər cəmiyyətin və planetin mövcudluğunu təhlükə altına alır. Artıq qlobal istiləşmə və parnik effekti nəticəsində dünyanın müxtəlif regionlarında biosferdə əvvələr olmayan pozuntular baş qaldırır, insan orqanizmi yad təsirlərə qarşı daha da zəifləyir və s. təhlükəli hallar baş verir. Bütün bunlara görə də ətraf mühitdə yaşamaq hüququ sadəcə fərdlərə məxsus hüquq kimi təsəvvür edilə bilməz. Bu hüquq ətraf mühitin qorunması üçün yaradılan mexanizmin tərkib hissəsidir və stimullaşdırıcı funksiya yerinə yetirir. Sağlam ərtaf mühit anlayışı bir qədər mücərrəddir və ətraf mühit haqqında qanunvericilikdə buna anlayış vermir. Sağlam ətraf mühit özü-özünü bərpa edə bilən və insan səhhətinə ümumilikdə mənfi təsir etməyən mühitdir. Buraya havanın, su mənbələrinin, və s. ehtiyatların zəhərli maddələrlə çirklənmə səviyyəsi, tullantıların təbiət mexanizmləri hesabına kənarlaşdırması səviyyəsi və onların insan orqanizminə təsiri aiddir. Sağlam ətraf mühit anlayışı qanunvericilikdə dəqiqləşdirilməsə də, ayrı-ayrı fəaliyyət sahələrində müəyyən normalar, məhdudiyyətlər vasitəsilə ətraf mühitin sağlamlığının, onun optimal vəziyyətinin qorunub saxlanması nəzərdə tutulur. 8 iyun 1999-cu il tarixli «Ətraf mühitin mühafizəsi haqqında» Azərbaycan Respublikasının Qanununda ətraf mühitin qorunmasının ümumi normativləri müəyyənləşdirilir. Ətraf mühitin qorunması, əsasən, dövlətin imkanları hesabına həyata keçirildiyi üçün buna dövlət məsuliyyət daşıyır. 18 mart 2009-cu il tarixli referendumla Konstitusuyanın 39-cu maddəsinə əlavə edilmiş IV hissənin dispozisiyası da

bununla əlaqədar olaraq dövlətin üzərinə müəyyən vəzifələr qoyur. Orada qeyd olunur ki, dövlət ekoloji tarazlığın saxlanılmasına, yabanı bitkilərin və vəhşi heyvanların qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat verir. Qanunvericilikdə də bunun üçün müəyyən tədbirlər nəzərdə tutulur. Məsələn, «Ekoloji təhlükəsizlik haqqında» Azərbaycan Respublikasının 4 iyun 1999-cu il tarixli Qanunu (9-cu maddə) müvafiq icra hakimiyyəti və yerli bələdiyyə orqanlarına dövlət ekoloji ekspertizasının müsbət rəyi olmadan ətraf mühitə bilavasitə və ya dolayı yolla mənfi təsir göstərən, ağır ekoloji nəticələrə səbəb ola bilən, ekoloji təhlükəsizliyin təmin edilməsi tələblərinə uyğun olmayan təsərrüfat fəaliyyətinin həyata keçirilməsinə icazə verən, habelə ekoloji vəziyyəti pisləşdirən digər fəaliyyət barədə qərarların qəbul edilməsini qadağan etmişdir.

Ekoloji nəzarətin səmərəli olması üçün dövlət təbii ehtiyatların kadastrını yaradır və ekoloji vəziyyətə nəzarət edən orqanlar formalaşdırır. Vətəndaşlar əraf mühitlə bağlı informasiya toplaya və həmin informasiya nəticəsində müəyyən orqanlara müraciət edə bilərlər. Dövlət orqanları belə informasiyanı (xüsusilə də sağlamlıq üçün təhlükəli olan faktlar varsa) vətəndaşlara verməlidirlər. Ətraf mühitin qorunması haqqında qanunda vətəndaşların bir sıra digər ekoloji hüquqları da əks olunmuşdur. Buraya ətraf mühitin qorunması üzrə fondlar, təşkilatlar yaratmaq, belə fond və təşkilatlara üzv olmaq, ətraf mühitin qorunması ilə bağlı keçirilən tədbirlərdə iştirak etmək və öz təkliflərini vermək, ekoloji cəhətdən zərərli obyektlərlə bağlı layihələrin və s.-nin ləğv olunmasını məhkəmə və ya inzibati qaydada tələb etmək, əraf mühitə zərər yetirən fəaliyyətlə məşğul olan hüquqi və fiziki şəxslərin

məsuliyyətə cəlb olunması üçün məsələ qaldırmaq hüquqları daxildir.

Ekoloji hüquqpozma ətraf mühitə ziyan vurulması ilə bağlı olan hüquq pozuntusudur. Bu hüquq pozuntusu xarakterinə görə deyil, məzmununa görə müəyyənləşir. Buna görə də ekoloji hüquq pozuntusu ya cinayət, ya mülki delikt, ya da inzibati xəta kimi təzahür edir. Şəxs ətraf mühitlə bağlı qoyulmuş tələblərə riayət edilməməsi nəticəsində onun sağlamlığına və əmlakına dəyən zərərin ödənilməsini iddia qaydasında tələb edə bilər. Ekoloji hüquqlar, qanunvericilikdə təsbit olunduğu kimi, vətəndaşların aktiv hərəkətləri şəklində realizə olunur. Ekoloji təmiz mühitin yaradılması üçün dövlət öz orqanlarının da üzərinə müəyyən vəzifələr qoyur.

§ 7. Mədəniyyət və yaradıcılıq azadlığı

Mədəniyyət, elm, təhsil və yaradıcılq bir-birinə çox yaxın olan anlayışlardır. Təhsil mədəniyyətin bir hissəsini təşkil edir. Yaradıcılıq mədəniyyəti inkişaf etdirir və zənginləşdirir. Bu ondan irəli gəlir ki, mədəniyyət geniş və mürəkkəb anlayışdır. Bu hüquq fərdin mədəni-mənəvi tələbatlarının ödənilməsində ən əsas rol oynayan hüquqdur. Mədəniyyət bəzən bəşəriyyətin yaratdığı maddi-mənəvi sərvətlərin, dəyərlərin məcmusu kimi qəbul olunur. Göründüyü kimi, bu anlayış o dərəcədə ümumidir ki, başqa hüquq və azadlıqların predmetinə daxil olan bir çox davranışları belə, dolayı yolla mədəniyyət hüququ ilə əlaqələndirmək olar. Elə bu anlayış çərçivəsində də siyasi mədəniyyət, seçki mədəniyyəti və s. mədəniyyət növləri fərqləndirilir. Başlıcası isə mədəniyyət maddi və mənəvi mədəniyyət olmaqla iki hissəyə bölünür. Buraya xalqın memarlıq əsərlərindən tutmuş, çoxəsrlik adətlər əsasında

formalaşan əxlaqa qədər bir-biri ilə heç də bağlı olmayan bir çox kateqoriyalar aiddir. Odur ki, mədəniyyət hüququ bir növ praktikada digər hüquqların içərisində əriyir, həll olunur desək, yanılmarıq.

Bu hüquq insanın digər hüquqlarından fərqli olaraq, konkret davranışlar silsiləsi vasitəsilə çox nadir hallarda təzahür edir. İnsanın hər hansı fəaliyyətlə məşğul olması elə bu səbədən həm bu hüququn, həm də digər hüququn təsiri altına düşə bilər. Məsələn, incəsənət əsəri yaradan şəxs həm yaradıcılıq hüququnu realizə edir, həm də mədəni həyatda iştirak edir. Bu hüquqa insanın hər hansı muzeyə gedib, sadəcə, eksponatları seyr etməkdən tutmuş (mədəni sərvətlərdən şəxsin estetik zövq alması), özünü müəyyən mədəniyyətə aid bilib, həmin mədəniyyətə uyğun həyat tərzi keçirməsinə qədər bir-birindən çox fərqlənən mürəkkəb davranış kompleksləri daxildir. Mədəniyyət anlayışı mürəkkəb və mücərrəd olduğu üçün mədəni həyat da mürəkkəb anlayışdır. Buraya ən müxtəlif şəkillərdə mədəni dəyərləri mənimsəmək və onlardan istifadə etmək aiddir. 6 fevral 1998-ci il tarixli «Mədəniyyət haqqında» Azərbaycan Respublikasının Qanunu mədəniyyət fəaliyyətini qismən dəqiqləşdirir. Burada göstərilir ki, muzey, ədəbiyyat, tətbiqi və yaradıcı sənət, kinematoqrafiya, teatr, musiqi, kitabxana, mədəni-maarifləndirici, memarlıq-dizayn və s. fəaliyyət növləri mədəni fəaliyyətə aid edilir. Mədəni fəaliyyətin bütün növləri qanunvericiliklə eyni qaydada tənzimlənmir və onlar üçün eyni şərtlər qoyulmur. Məsələn, qanunvericiliyə görə memarlıq sənəti ilə məşğul olmaq üçün xüsusi icazə tələb olunduğu halda, incəsənət əsərləri yaratmaq, rəssamlıqla məşğul olmaq üçün heç bir icazə tələb olunmur. Bu da ayrı-ayrı mədəni fəaliyyət növlərinin xüsusiyyətlərindən

irəli gəlir. Qanunvericiliyə görə, fərdin mədəniyyət hüququ həm də şəxsin öz mədəni fərdiliyini, özünəməxsusluğunu saxlamaq imkanını ifadə edir. Dövlət bütün vətəndaşların mədəni dəyərlərdən istifadəsi üçün bərabər imkanlar təmin etməlidir. Azərbaycan Respublikasının Konstitusiyası hər bir vətəndaş üçün tarixi və mədəni irsə hörmətlə yanaşmağı, onu qorumağı vəzifə kimi müəyyən edir. Bu ondan irəli gəlir ki, milli mədəni irs hər bir millətin özünüdərkində və nəsillərin tərbiyəsində müstəsna rol oynayır. Mədəni dəyərlərə bir çox yaradıcılıq məhsulları - teleradio məhsulları, fotoşəkillər, nadir nəşrlər, tarixi-elmi abidələr, kolleksiyalar, tətbiqi sənət məhsulları, qiymətli metallardan hazırlanan məmulatlar, şifahi xalq yaradıcılığı nümunələri, təbii landşaft obyektləri, muzeylər və s. daxildir.

Yaradıcılıq hər bir fərdin az-çox dərəcədə malik olduğu və yalnız insana məxsus olan bir xüsusiyyətdir. Yaradıcılıq hüququ demokratik dövlətlərdə qanunvericiliklə mühafizə olunur və ona xüsusi diqqət yetirilir. Yaradıcılıq şəxsin elə intellektual-psixoloji keyfiyyətidir ki, bu zaman yeni bir şey yaradılır, fərdin şəxsi keyfiyyətlərini üzə çıxarır. Yaradıcılıq özünütəzahür imkanıdır. Bu imkan o zaman real dəyər kəsb edib fərd üçün əhəmiyyətli olur ki, onun özünütəsdiq tələbatını ödəyir, şəxs özünü cəmiyyətə təkrarolunmaz, lazımlı bir fərd kimi qəbul etdirir. Aydındır ki, bu hüquq hamı üçün eyni əhəmiyyətə malik deyildir. Yaradıcılıqla məşğul olan şəxslər üçün müstəsna əhəmiyyətə malik olan bu hüquq başqaları üçün digər hüquqlardan heç nə ilə fərqlənmir. Lakin yaradıcılıq hüququ nəyisə yaratmaq adı altında ictimai birgəyaşayış qaydaları əleyhinə getməyi nəzərdə tutmur. Əlbəttə, bu məsələ bir qədər mübahisəlidir, çünki bəzən yaradıcılıq fəa-

liyyətinin nəticəsi olaraq ortaya çıxarılan əsər ənənəvi əxlaqa və s. normalara kökündən zidd gəlir və cəmiyyətdə adekvat rezonans yaradır. Məsələn, fəlsəfi və təsviri sənət əsərlərini, bir sıra kinofilmləri, bədii əsərləri buraya aid etmək olar. Odur ki, yaradıcılıq hüququnun harada bitib, ucuz şöhrət istəyinin harada başlamasını ayırmaq çətindir. Çünki bu əsərlərə son qiyməti cəmiyyət, ictimai fikir və mövqe verir. Yaradıcılıq əsərləri yenilikçi, insanların zövqünü oxşayan, yüksək bədii dəyərə malik olmalıdır. Lakin bununla belə, onlar qanunvericiliklə qoyulmuş tələblərə də uyğun gəlməlidir. Yaradıcılıq adı altında dini-irqi, sosial ziddiyyətlərin qızışdırılması, dövlət çevrilişinə çağırışlar yolverilməzdir. Konstitusiyada ədəbi-bədii və elmi-texniki yaradıcılıq növləri göstərilir. Bölgü şərtidir, lakin ümumən qəbul olunmuş bölgüdür. Ədəbi-bədii yaradıcılıq daha çox insanların estetik zövqünü oxşamaq, onların estetik tərbiyəsini artırmaq məqsədilə yaradılır və burada fərdiliyi daha çox qabardan bədii ifadə vasitələrindən istifadə olunur. Elmi-texniki yaradıcılıq isə tədqiqatlara, ciddi elmi-məntiqə əsaslanır.

§ 8. Təhsil hüququ

Təhsil hüququ insanın əsas sosial-mədəni hüquqlarından biridir. Təhsil hüququnun sosial dəyəri onunla şərtlənir ki, bu hüququn realizə edilməsi ilə fərd bütöv bir şəxsiyyət kimi formalaşır. Təhsil vasitəsilə insan həyata hazırlaşır və aldığı təhsil onun bütün sonrakı həyatına təsir edir. Təhsil bir növ özünütəkmilləşdirmə vasitəsidir. Təhsil Azərbaycan Respublikasında vacib sahələrdən biri sayılır. Dövlət öz vətəndaşlarının təhsil hüququnu təmin etməkdən böyun qaçıra bilməz və o, təhsil vermək üçün bütün digər subyektlərə nisbətən daha geniş imkanlara

malikdir. Təhsil haqqında Azərbaycan Respublikasının 19 iyun 2009-cu il tarixli qanununun 3-cü maddəsinə görə təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri aşağıdakılardır:

1. **humanistlik** - milli və ümumbəşəri dəyərlərin, şəxsiyyətin azad inkişafının, insan hüquqları və azadlıqlarının, sağlamlığın və təhlükəsizliyin, ətraf mühitə və insanlara qayğı və hörmətin, tolerantlıq və dözümlülüyün prioritet kimi qəbul olunması;

2. **demokratiklik** - təhsilalanların azad düşüncə ruhunda tərbiyə edilməsi, təhsilin dövlət-ictimai əsaslarla təşkilində və idarə edilməsində səlahiyyət və azadlıqların genişləndirilməsi, təhsil müəssisələrinin muxtariyyətinin artırılması;

3. **bərabərlik** - bütün vətəndaşların bərabər şərtlər əsasında təhsil almasına imkanlar yaradılması və təhsil hüququnun təmin olunması;

4. **millilik və dünyəvilik** - milli və ümumbəşəri dəyərlərin qorunması və onların dialektik vəhdətinin təmin edilməsi əsasında dünyəvi təhsil sisteminin yaradılması və inkişaf etdirilməsi;

5. **keyfiyyətlilik** - təhsilin mövcud standartlara, normalara, sosial-iqtisadi tələblərə, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğunluğu;

6. **səmərəlilik** - təhsilin və elmi yaradıcılığın daim inkişaf edən, faydalı və son nəticəyə istiqamətlənən müasir metodlarla təşkili;

7. **fasiləsizlik, vəhdətlik, daimilik** - mövcud təhsil standartları, tədris proqramları və planları əsasında təhsilin bir neçə səviyyədə əldə edilməsi imkanı, təhsilin ayrı-ayrı pillələri arasında sıx dialektik qarşılıqlı əlaqənin

təmin olunması və onun insanın bütün həyatı boyu ardıcıl davam etməsi;

8. **varislik** - təhsil sahəsində əldə olunmuş bilik və təcrübənin ardıcıl olaraq növbəti nəslə (dövrə) ötürülməsi;

9. **liberallaşma** - təhsil sahəsinin və təhsil fəaliyyətinin açıqlığının genişləndirilməsi;

10. **inteqrasiya** - milli təhsil sisteminin dünya təhsil sisteminə səmərəli formada qoşulması, uyğunlaşması və qovuşması əsasında inkişafı.

Təhsil haqqında Azərbaycan Respublikasının Qanununa görə təhsil müəssisəsinin aşağıdakı tipləri və növləri müəyyən edilir:

- məktəbəqədər təhsil müəssisələri (körpələr evi, körpələr evi-uşaq bağçası, uşaq bağçası, xüsusi uşaq bağçası);
- ümumi təhsil müəssisələri (ibtidai, orta və tam orta ümumtəhsil məktəbləri, ümumtəhsil internat məktəbləri, xüsusi məktəblər və xüsusi internat məktəbləri, sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəblər və internat məktəbləri, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün müəssisələr, istedadlı şagirdlər üçün məktəblər, gimnaziyalar, liseylər və digər müəssisələr);
- məktəbdənkənar təhsil müəssisələri (uşaq yaradıcılıq mərkəzləri, uşaq-gənclər idman məktəbləri, uşaq-gənclər şahmat məktəbləri, ekoloji tərbiyə və təcrübə mərkəzləri, texniki yaradıcılıq mərkəzləri, turizm və diyarşünaslıq mərkəzləri, məktəbdənkənar iş mərkəzləri, estetik tərbiyə və bədii yaradıcılıq mərkəzləri və s.);
- ilk peşə-ixtisas təhsili müəssisələri (peşə məktəbləri, peşə liseyləri);
- orta ixtisas təhsili müəssisələri (kolleclər);

- ali təhsil müəssisələri (universitetlər, akademiyalar, institutlar və s.);
- əlavə təhsil müəssisələri (universitetlər, institutlar, mərkəzlər və s.);
- təhsil fəaliyyətini həyata keçirən digər müəssisələr.

Təhsil müəssisəsində təhsil dövlət hesabına və (və ya) ödənişli əsaslarla həyata keçirilir. Azərbaycan Respublikasında xüsusi təyinatlı təhsil (hərbi, milli təhlükəsizlik və digər) müvafiq təhsil müəssisələrində Qanunun tələbləri nəzərə alınmaqla, dövlət hesabına həyata keçirilir.

Dövlət öz təhsil sisteminə təhsil standartlarını müəyyən etməklə nəzarət edir. Bütün bunlar üçün təhsilə nəzarəti həyata keçirən xüsusi təhsil orqanları yaradılır. Təhsil Azərbaycan Respublikasında ciddi şəkildə mərkəzləşdirilmişdir. Təhsil standartlarını və təhsil proqramlarını dövlət müəyyən edir. Qanuna görə Azərbaycan Respublikasında hər bir təhsil müəssisəsi təhsil fəaliyyəti göstərmək üçün qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanından xüsusi razılıq (lisenziya) almalıdır. Dövlət təhsil müəssisələrinə xüsusi razılıq (lisenziya) müddətsiz verilir. Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri tərəfindən təsis edilmiş bələdiyyə və özəl təhsil müəssisələrinə xüsusi razılıq (lisenziya) beş il müddətinə verilir. Əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər tərəfindən təsis edilmiş təhsil müəssisələrinə xüsusi razılıq (lisenziya) üç il müddətinə verilir.

Xarici hüquqi şəxslərin, onların filiallarının və nümayəndəliklərinin, əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin öz ölkələrində təhsil fəaliyyəti ilə məşğul olmaq üçün aldıqları lisenziyaların Azərbaycan Respublika-

sında tanınması dövlətlərarası müqavilələrlə müəyyən edilir.

Təhsil müəssisəsinin akkreditasiyası təhsil prosesinin təşkilinin, maddi-texniki bazasının, təhsil proqramlarının, kadr potensialının, maliyyə resurslarının və təhsil infrastrukturunun qəbul olunmuş dövlət standartlarına və digər normativ hüquqi aktların tələblərinə uyğunluğunun müəyyən edilməsi məqsədi ilə aparılır və təhsil müəssisəsinin statusunun müəyyən edilməsi, onun fəaliyyətinin növbəti müddətə uzadılması üçün hüquqi təminat yaradır.

Təhsil müəssisəsinin akkreditasiyasını müvafiq icra hakimiyyəti orqanının müəyyən edilmiş qaydada yaratdığı dövlət akkreditasiya xidməti həyata keçirir. Akkreditasiya müvafiq keyfiyyət sənədinin - sertifikatın verilməsi ilə başa çatır.

Azərbaycan Respublikasında hüquqi şəxs kimi dövlət qeydiyyatına alınmış, fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilmiş və akkreditasiya olunmuş təhsil müəssisəsinin fəaliyyətinə hüquqi təminat verilir.

Təhsil haqqında Qanunun 17-ci maddəsinə müvafiq olaraq Azərbaycan Respublikasında aşağıdakı təhsil pillələri və səviyyələri müəyyən olunur:

Məktəbəqədər təhsil.

Ümumi təhsil:

- ibtidai təhsil;
- ümumi orta təhsil;
- tam orta təhsil.

İlk peşə-ixtisas təhsili.

Orta ixtisas təhsili.

Ali təhsil:

- bakalavriat;
- magistratura;

- doktorantura.

Təhsilin pillələri və səviyyələri arasında qarşılıqlı əlaqə və varislik təmin olunur. Hər bir təhsil pilləsi (məktəbəqədər təhsil istisna olmaqla) yekun qiymətləndirmənin və ya attestasiyanın nəticələrinə uyğun olaraq məzunlara dövlət nümunəli sənədin verilməsi ilə başa çatır. Təhsilalanın əvvəlki pillədə və səviyyədə əldə etdiyi nailiyyətlər növbəti pillədə və səviyyədə təhsilin davam etdirilməsində nəzərə alınır.

Azərbaycan Respublikasında ümumi təhsil ibtidai təhsil, ümumi orta təhsil və tam orta təhsildən ibarətdir. Ümumi orta təhsil icbaridir. Tam orta təhsil ümumi təhsilin hər üç səviyyəsini əhatə edən təhsil proqramlarının tam mənimsənilməsini nəzərdə tutur. Dövlət təhsil müəssisələrində tam orta təhsil pulsuzdur.

Azərbaycan Respublikasının ali təhsil müəssisələrində mütəxəssislər və elmi-pedaqoji kadrlar hazırlığı üç səviyyəlidir:

- bakalavriat (tibb təhsili istisna olmaqla);
- magistratura (tibb təhsili istisna olmaqla);
- doktorantura.

Bakalavriat təhsil səviyyəsində tam orta təhsil və orta ixtisas təhsili bazasında ayrı-ayrı ixtisasların təhsil proqramları üzrə geniş profilli ali təhsilli mütəxəssislər hazırlanır. Bakalavriat təhsili başa çatmış ali təhsildir. Magistratura təhsili ixtisaslaşmalar üzrə hər hansı ixtisas sahəsinin elmi tədqiqat və ya peşəkar məqsədlər üçün daha dərindən öyrənilməsini nəzərdə tutur və məzunlara peşəkar fəaliyyətlə, elmi tədqiqat və elmi-pedaqoji işlərlə məşğul olmaq hüququ verir. Tibb təhsili təhsil proqramlarına və dövlət təhsil standartlarına uyğun olaraq, əsas təhsilə və rezidenturaya ayrılır, məzunlara müvafiq olaraq həkim və

həkim-mütəxəssis ali peşə-ixtisas dərəcələri verilir. Doktorantura ali təhsilin ən yüksək səviyyəsi olmaqla elmi və elmi-pedaqoji kadrların hazırlanmasını, ixtisas və elmi dərəcələrin yüksəldilməsini təmin edir. Doktorantura təhsili ali təhsil müəssisələrində və elmi təşkilatlarda yaradılan doktoranturalarda (hərbi təhsil müəssisələrində adyunkturalarda) həyata keçirilir və müvafiq elmi dərəcənin verilməsi ilə başa çatır. Azərbaycan Respublikasında aşağıdakı elmi dərəcələr müəyyən edilir:

- fəlsəfə doktoru - elm sahələri göstərilməklə;
- elmlər doktoru - elm sahələri göstərilməklə.

Təhsil fərdin maddi vəziyyəti ilə bağlıdır və bir çox insanlar təhsili məhz maddi vəziyyətlərinin aşağı olmasına görə davam etdirə bilmirlər. Bu halda potensial istedadların itməməsi üçün dövlət istedadlı şəxslərə əlavə zəmanətlər müəyyən edir (məsələn, onlar üçün yüksək təqaüdlərin müəyyən edilməsi). Təhsil dövlətin bütün digər sahələrinə təsir edən bir sahədir. Məhz təhsilin vəziyyəti kadrlara birbaşa təsir edir və dolayı yolla da olsa iqtisadiyyat, elm, idarəçilik sferalarında inkişafa təsir göstərir.

Təhsil hüququ ilə akademik azadlıq sıx şəkildə bağlıdır. Akademik azadlıq fərdin təlim vermək və bu təlim zamanı həm də öz baxış və fikirlərini yaymaq haqqını ifadə edir. Pedaqoji fəaliyyət müəyyən yaradıcılıq tələb edir, buna görə də akademik azadlıq yalnız o zaman səmərəli olur ki, fərdə verilən təhsillə bağlı müəyyən sərbəstlik də verilsin. Bununla belə, dövlət nəzərə alır ki, təhsil cəmiyyətin harmonik şəkildə inkişafını müəyyən edən əhəmiyyətli sahədir və buna görə də əvvəlcədən fərdlərin təhsil sahəsində davranışına müəyyən hədlər qoyulur. Bu hədlər çərçivəsində fərdlər azaddır. Lakin bu hədlərdən kənara çıxma bir çox hallarda hüquq pozuntu-

su kimi qiymətləndirilir və müxtəlif məsuliyyət tədbirlərinin tətbiqinə səbəb olur.

§ 9. Mənzil hüququ

Mənzil hüququ insanın sosial hüquqları sahəsinə aiddir. Bu hüquq onu ifadə edir ki, hər kəs qanunla qoyulan şərtlərə əməl etməklə daimi yaşayış sahəsinə malik ola bilər. Konstitusiyada bu hüquq mühafizə aspektində təsbit edilmişdir. Bu ondan irəli gəlir ki, fərdin mənzil hüququ toxunulmaz olduqda mühüm əhəmiyyət kəsb edir. Şəxsin mənzili yalnız qanuni əsaslar olduqda əvəzi ödənilməklə alına bilər. Mənzil fərd üçün müstəsna əhəmiyyətə malikdir. Bir növ hər bir şəxsin istinad nöqtəsi olan mənzil fərdlərin öz həyatını keçirdiyi yaşayış yeridir. Buna görə də mənzil toxunulmazdır. Fərd həyatının bir hissəsi olan mənzilindən qanuna zidd olmayan istənilən məqsəd üçün istifadə edə bilər. Hal-hazırda xüsusi mülkiyyətdə mənzilin sayına və yaşayış sahəsinin həcminə heç bir məhdudiyyət qoyulmur. Keçmiş Sovetlər İttifaqında isə hər bir şəsxin müəyyən edilmiş normaları aşmayan yalnız bir mənzili ola bilərdi. Bu, fərdin mənzil hüququnu əhəmiyyətli dərəcədə məhdudlaşdırırdı. Mənzil hüququ onu ehtiva edir ki, fərd istənilən yaşayış məntəqəsində özünə yaşayış sahəsi ala bilər və ya tikə bilər, habelə ona öz arzusuna, zövqünə, maddi imkanına uyğun olan qaydada və qanunvericiliyə zidd olmayan şəkildə daxili və xarici tərtibat verə bilər.

Dövlət mənzil tikintisinə həvəs yaradır və özü də mənzil fondu yaradır. Buna görə də dövlət mənzil fondu və özəl mənzil fondu fərqləndirilir və onların hüquqi rejimində müəyyən fərqlər vardır. Dövlət tərəfindən verilən mənzildə adambaşına düşən sahə norması 12 kvadrat

metrdir. Dövlət mənzil fondunun mülkiyyətçisi dövlətdir və bu zaman mənzildə yaşayanlar kirayəçi hesab edilirlər. Mənzillərin kommunal xidmətləri ilə dövlət orqanları məşğul olurlar. Şəxs özü bilavasitə mənzilə malik olmadan, başqa bir şəxslə kirayə müqaviləsi bağlamaqla da bu hüququnu həyata keçirə bilər. 1993-cü il yanvarın 26-da qəbul olunmuş və sonralar əlavələr və dəyişikliklər edilmiş «Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında» Qanun mənzillərin özəlləşdirilməsi prinsiplərini, şərtlərini və s. nəzərdə tutur. Mənzil hüququ mənzildən heç də istənilən şəkildə istifadə etməni nəzərdə tutmur. Fərd öz mənzilindən elə istifadə etməlidir ki, bu başqalarının və dövlətin mənafeyinə toxunmasın. Bundan başqa, mənzilin özünün harada yerləşməsi də bəzi hallarda mənzil sahiblərinin hüquqlarını məhdudlaşdıra bilər. Məsələn, tarix və mədəniyyət abidəsi sayılan binalarda yerləşən mənzillərin sahiblərinin üzərinə binanın milli abidə olmasından doğan əlavə vəzifələr qoyula bilər.

Mənzil hüququna qanunvericiliklə qoyulan bəzi məhdudiyyətlər Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən aradan qaldırılmışdır. Konstitusiya Məhkəməsi Azərbaycan Respublikasının Mənzil Məcəlləsinin 60-cı maddəsinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunu yoxlayaraq, özünün 12 mart 1999-cu il tarixli qərarında göstərir ki, icarədar və ya onun ailə üzvlərindən hər hansı birinin məhkum olunması həmin şəxslərin yaşayış sahəsindən məhrum edilməsi üçün əsas kimi götürülə bilməz. Habelə icarədar və ya onun ailə üzvlərinin 6 ay və daha uzun müddətə başqa yerə getməsi halı mənzildən məhrum etmək üçün əsas kimi götürülə bilməz. «Bakı Şəhər İcra Hakimiyyəti başçı-

sının «Mənzil xidməti tariflərinin tənzimlənməsi haqqında» 5 oktyabr 1999-cu il tarixli 961 saylı sərəncamı barədə» Konstitusiya Məhkəməsinin 2 mart 2000-ci il tarixli başqa bir qərarı ilə mənzil-kommunal xidmətləri üçün tariflərin müəyyən edilməsi səlahiyyətlərinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə aid olduğu əsas tutularaq, Bakı Şəhər İcra Hakimiyyəti başçısının göstərilən qərarı Konstitusiyaya zidd akt kimi ləğv edilmişdir (bax: Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 14 aprel 2000-ci il tarixli və 30 oktyabr 2000-ci il tarixli qərarları). Bundan başqa, Konstitusiya Məhkəməsi «Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 54-cü maddəsinin birinci hissəsinin Azərbaycan Respublikası Konstitusiyanın 28-ci maddəsinin III hissəsinə, 43-cü maddəsinə və 71-ci maddəsinin II hissəsinə uyğunluğu haqqında» 14 aprel 2000-ci il tarixli qərarı ilə vətəndaşların hüquq və azadlıqlarını pozan, dövlət orqanlarının özbaşınalığına şərait yaradan və mənzilə köçürməni yalnız pasport qeydiyyatı ilə əlaqələndirən Mənzil Məcəlləsinin 54-cü maddəsindəki «müəyyən edilmiş qayda» blanket normasını Konstitusiyaya zidd olduğuna görə qüvvədən salmışdır. Göründüyü kimi, mənzil hüququnun sözün tam mənasında bir hüquq kimi formalaşmasında Konstitusiya Məhkəməsinin də mühüm rolu olmuşdur. Hal-hazırda mənzil məsələləri 30 iyun 2009-cu il tatixli Azərbaycan Respublikasının Mənzil Məcəlləsi ilə tənzim edilir.

§ 10. Azad sahibkarlıq hüququ

Azad sahibkarlıq hüququ iqtisadi hüquqlar kateqoriyasına aiddir. Sahibkarlıq hüququ Azərbaycan Respublikasında digər iqtisadi hüquqlara münasibətdə yenidir. Bu da ondan irəli gəlir ki, keçmiş Sovetlər İttifaqında sahib-

karlıq fəaliyyəti ilə məşğul olmağa icazə verilmirdi. Sahibkarlıq iqtisadi inkişafda fərdin iştirakı formalarından biridir. Sahibkarlığın inkişafı ölkə iqtisadiyyatının inkişafı deməkdir. Sahibkarlıqla həm hüquqi, həm də fiziki şəxslər məşğul ola bilərlər. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 13-cü maddəsində sahibkarlıq fəaliyyətinə belə bir anlayış verilir: sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, əmtəə satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət götürülməsi olan fəaliyyətdir. Buna görə də Konstitusiyada nəzərdə tutulur ki, fərd öz qabiliyyəti və əmlakından sərbəst istifadə edərək sahibkarlıqla məşğul ola bilər. Sahibkarlıq həm də iqtisadi anlayışdır. Sahibkarlıq daim əldə ediləcək gəlirin itirilməsi ehtimalı altında baş verir. Bu zaman itirilmiş əmlak sahibkarın öz əmlakı hesabına kompensasiya edilir. Sahibkarlıq fəaliyyətində həm də yaradıcılıq elementi vardır. Burada şəxs oxşar sahədə bizneslə məşğul olan şəxslərlə rəqabətə girir və onlardan daha çox gəlir əldə edilməsi yollarını axtarır. Bunun üçün o, yeni metodlardan və bazar iqtisadiyyatı münasibətlərinə xas olan digər çoxsaylı vasitələrdən istifadə edir. Məşhur Amerika iqtisadçısı Keyns sahibkarlığa hətta əsas kapital növlərinin orijinal şəkildə birləşdirilərək istifadə edilməsi kimi anlayış vermişdi. Sahibkarlıq fəaliyyəti dövlətin marağına daxildir. Bu zaman iqtisadiyyatın ayrı-ayrı sahələrində vətəndaşların fəallığı artır ki, bu da ölkədə iqtisadi yüksəlişə səbəb olan amillərdən biridir. Sahibkarlıqla təkbaşına, hüquqi şəxs yaratmadan da məşğul olmaq olar. Bir neçə şəxsin birləşib sahibkarlıq fəaliyyəti ilə məşğul olması da mümkündür. Qanunvericilikdə sahibkarların əmlak dövriyyəsində, iqtisadi sahədə fəaliyyəti-

nin spesifikliyi nəzərə alınaraq onların statusu dəqiq müəyyənləşdirilir. Bir qayda olaraq, sahibkarların ənənəvi münaqişələri məhz işçilərlə olduğundan, qanunvericilik sahibkarlarla işçilər arasındakı münasibətlərin nizamlanmasına da xüsusi diqqət yetirir. Qanunvericilikdə həm də bir çox şəxslər üçün sahibkarlıq fəaliyyətinə qadağa qoyulur. Belə şəxslər, adətən, vəzifəli şəxslər və dövlət qulluğunda olan digər şəxslərdir. Bu zaman belə bir müddəa əsas götürülür ki, sahibkarlıqla məşğul olma bu şəxslərin əsas işinə mane olar və bundan başqa, onlar öz mövqelərindən sahibkarlıq fəaliyyətlərinin xeyrinə suiistifadə edə bilərlər. Sahibkarlıq fəaliyyəti özünün miqyasına görə kiçik sahibkarlıq, orta sahibkarlıq və iri sahibkarlıq növlərinə bölünür. Qanunvericilikdə sahibkarlığın bu növlərinin konkret anlayışı verilmir. Lakin təxmini olaraq belə müəyyən etmək olar ki, əhəmiyyətli əmlak və digər resurslardan istifadə etməklə həyata keçirilən çoxsaylı istehsal və digər iqtisadi əməliyyatların aparılmasını tələb edən sahibkarlıq iri sahibkarlıqdır. Kiçik sahibkarlıq isə əksinə, bir qayda olaraq, istehsalla bağlı olmur və məhdud əmlak dövriyyəsi, xidmətlər göstərilməsi ilə bağlıdır. İri sahibkarlıq ölkədə inhisara ən çox şərait yaradan növdür. Odur ki, bu növ sahibkarlıq, bir qayda olaraq, daha dəqiqliklə tənzimlənir və bu da çoxsaylı məhdudiyyətlərlə müşaiyət olunur. Dövlət üçün ən arzuolunan kiçik və orta sahibkarlıqdır. Bu ondan irəli gəlir ki, kiçik və orta sahibkarlığa nəzarət etmək daha asandır. Bundan başqa, vətəndaşların daha çoxunun məhz kiçik və orta sahibkarlıqla məşğul olma imkanları vardır. Buna görə də bəzən qanunvericilikdə kiçik və orta sahibkarlığın inkişafı üçün güzəştlər müəyyənləşdirilir. Respublikamızda sahibkarlığın inkişafını təmin etmək, inhi-

sarçılığın qarşısını almaq və bu sahədə mövcud olan bürokratik əngəlləri aradan qaldırmaq məqsədilə çoxsaylı qanunlar qəbul olunmuş, fərman və sərəncamlar verilmişdir.

Sahibkarlığın əhəmiyyətini nəzərə alaraq, dövlət bəzi fəaliyyət sahələri üçün lisenziyalaşdırma qaydaları müəyyən edir. Azərbaycan Respublikası Prezidentinin 27 yanvar 1997-ci il tarixli «Bəzi sahibkarlıq fəaliyyəti növlərinin lisenziyalaşdırılması haqqında» Fərmanına görə, lisenziyalaşdırma aşağıdakı faktorlar olduqda həyata keçirilə bilər:

- fəaliyyət qeyri-müəyyən şəxslər dairəsi üçün təhlükə yaradarsa;
- fəaliyyət qeyri-müəyyən sayda şəxslər və onların əmlakını özünə cəlb edirsə;
- fəaliyyət həddən çox yüksək gəlir götürməyə imkan verirsə və bununla əlaqədar əlavə nəzarət tələb olunursa;
- fəaliyyət dövlət təhlükəsizliyi məsələlərinə toxunursa;
- fəaliyyət məhdud təbii resursların istifadəsini nəzərdə tutursa və ekologiya üçün mənfi nəticələr verə bilərsə.

Qanun bəzi fəaliyyət növləri ilə məşğul olmanı vətəndaşlara qadağan edir. Müvafiq olaraq bu sahələrlə bağlı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi də qeyri-mümkündür (məsələn, silah istehsalı ilə ancaq dövlət müəssisələri məşğul ola bilər).

Azərbaycan Respublikasında bazar iqtisadiyyatı münasibətlərinin tərəqqisini təmin edən sosial, bank-maliyyə, istehsal, xidmət və iqtisadiyyatın digər bütün sahələrində, habelə qanunvericiliyin təkmilləşdirilməsi sahəsində aparılan və davam etdirilən köklü islahatlar bütövlükdə azad sahibkarlıq hüququnun həyata keçirilməsinə praktiki və hüquqi təminat verir.

IV FƏSİL

HÜQUQ VƏ AZADLIQLARIN KONSTITUSION TƏMINATI

Azərbaycan Respublikası Konstitusiyasının hüquq və azadlıqlar bölməsində bir sıra təminatlar əks olunmuşdur. Bu hüquqi təminatları öz quruluşuna görə iki yerə bölmək olar: hüquqi-təşkilati təminatlar və hüquqi-prosessual təminatlar.

Hüquqi-təşkilati təminatların hər hansı növ icraatla əlaqəsi və məhkəmə fəaliyyəti ilə birbaşa bağlılığı yoxdur. Buraya Azərbaycan Respublikası Konstitusiyasının hüquq və azadlıqların məhkəmə müdafiəsi (60-cı maddə), hüquqi yardım almaq hüququ (61-ci maddə), təkrar müraciət hüququ (65-ci maddə) kimi hüquqları nəzərdə tutan normaları aiddir.

Prosessual hüquqlar hər hansı prosesin gedişində realizə edilir. Buraya isə Konstitusiyanın məhkəmə aidiyyətinin dəyişməzliyi (62-ci maddə), təqsirsizlik prezumpsiyası (63-cü maddə), bir cinayətə görə təkrar məhkumetmənin yolverilməzliyi (64-cü maddə) və prosessual hüquqları (66-cı və 67-ci maddələr) müəyyən edən normaları aiddir.

Bu təminatlar hüquq və azadlıqlar sistemində özünəməxsus yerə malikdir. Onlar digər hüquq və azadlıqlardan fərqli olaraq, özündə elə hərəkət, davranış imkanlarını nəzərdə tutur ki, bu davranış imkanları digər hüquq və azadlıqların səmərəli olması məqsədini güdür. Məhkəmə müdafiəsi bütün müdafiə sisteminin əsasını təşkil edir desək, yanılmarıq. Məhkəmənin bilavasitə funksiyası insan hüquq və azadlıqlarının müdafiəsidir. İstəni-

lən şəxs peşəkar hüquqi yardım almaq hüququna malikdir. Mürəkkəb proseslərdə hüquqi yardım özünü xüsusilə doğruldur və qanunvericiliyə bələd olmayan şəxsin hüquqlarının dövlət orqanları tərəfindən pozulmasının qarşısını alır. Peşəkar hüquqi biliklərə malik olan müdafiəçi istintaq və məhkəmə orqanlarının fəaliyyətini məhz bu nöqteyi-nəzərdən qiymətləndirir və müdafiə olunan şəxsə nə etməli olduğunu göstərir. Hüquqi yardımı qismən də notariat orqanları göstərir. Notariatın əsas işi vətəndaşların həyatında baş verən bir sıra hüquqi əhmiyyətli faktları qeydə almaq və qorumaqdır. Vətəndaşa icazə verilir ki, ictimai təşkilatlar da daxil olmaqla istənilən şəxsin, qurumun hərəkətlərindən şikayət etsin. Qanunvericilik cəmiyyətin mənafeyini nəzərə alıb, prosesdə müdafiəçinin iştirakının məcburən təmin edilməsini tələb edir.

Məhkəmədə müdafiə hüquqi yardım almaq hüququnun olmasını şərtləndirir. Hüquqi yardım şəxslərin hüququnun səmərəli müdafiəsi üçün zəruridir. Şəxs tutulduğu andan tutulmasının səbəbini bilməyə haqlıdır və vəkilin yardımından istifadə edə bilər. ABŞ-də hüquqi yardımla bağlı «Miranda» qaydaları adlanan prosessual müdafiə sistemi fəaliyyət göstərir. Bu sistemə görə, polis şəxsi tutduğu andan ona susmaq hüququnun olmasını deyir, deyəcəyi hər bir sözün məhkəmədə onun əleyhinə istifadə edilə biləcəyi barədə onu məlumatlandırır və hüquqi yardım haqqı barədə ona məlumat verir. Vəkil dərhal işə buraxılır və bütün istintaq hərəkətlərinin gedişində iştirak edir.

Təkrar müraciət hüququ şəxsə öz hüquq və azadlıqlarını yenidən müdafiə etmək üçün verilən imkandır. Aydındır ki, təkrar müraciətin özü də müəyyən qaydalarla

bağlıdır. Əks təqdirdə təkrar müracəit hüququ prosesi mənasız olaraq uzada bilən faydasız maneəyə çevrilərdi. Müraciət hüququ işin yenidən baxıldığı aşağı məhkəməyə müraciət etmək imkanını deyil, çıxarılmış aktı yoxlamaq üçün hər dəfə daha yuxarı məhkəməyə müraciət imkanını nəzərdə tutur. İşlə əlaqədar edilən müraciətə, bir qayda olaraq, ya apellyasiya qaydasında, ya da kassasiya qaydasında, yaxud da yeni açılmış hallar üzrə baxılır. Prokuror iş üzrə protest verə bilər ki, bu da şəxsin şikayətinə bərabər tutulur. Qanuni qüvvəyə minməmiş məhkəmə aktları appellyasiya qaydasında, qanuni qüvvəyə minmiş aktlar isə kassasiya qaydasında yenidən baxılır. Əgər birinci instansiyada baxılması zamanı işin gedişinə təsir edən halların mövcud olması, lakin işə baxılarkən nəzərə alınmaması aşkarlanarsa, həmin işə yeni açılmış hallar üzrə baxılır. Son instansiyanın çıxardığı qərar qətidir və ondan şikayət edilə bilməz.

Məhkəmə aidiyyətinin dəyişməzliyi məhkəmələr arasındakı münasibətlərin sabitliyində mühüm rol oynayan bir prinsipdir. Hər bir məhkəmə müəyyən aidiyyətə malikdir və aidiyyət məhkəmənin səlahiyyət dairəsinə daxil olan işlərin məcmusu kimi də başa düşülə bilər. Aidiyyətin müəyyən növləri vardır. Buraya predmet aidiyyəti, ərazi aidiyyəti və şəxsi aidiyyət daxildir. Predmet aidiyyəti konkret olaraq məhkəmədə baxılası işlərin aidiyyətini bildirir. Ərazi aidiyyəti isə hansı ərazidə baş vermiş işlərin hansı məhkəmələr tərəfindən baxılmasını ifadə edir. Şəxsi aidiyyət kimlərin işinə hansı məhkəmədə baxılmasını müəyyən edir. Məsələn, cinayət hansı ərazidə baş verirsə, o işə, bir qayda olaraq, həmin ərazinin məhkəməsi baxır (ərazi aidiyyəti). Lakin ağır cinayət hadisənin harada, hansı regionda baş verməsindən asılı olaraq,

bu qəbildən olan işlərə ağır cinayətlərə dair məhkəmələrdə baxılır (predmet və ərazi aidiyyəti). Hərbçilərin cinayət işlərinə hərbi məhkəmələrdə baxılır (şəxsi adiyyət). Aidiyyət prosessual qanunvericiliklə dəqiq müəyyənləşdirilir.

Cinayət işləri üzrə aidiyyət mülki işlər üzrə aidiyyətdən kəskin fərqlənir. Aidiyyətin dəyişdirilməsi halları prosessual qanunvericilikdə nəzərdə tutulur. Cinayət prosessual qanunvericiliyə görə, ağır və xüsusilə ağır cinayət törətmiş şəxs tələb edərsə, onun işinə andlı iclasçıların iştirakı ilə də baxıla bilər. Andlı iclasçılar prosesdə faktlar məsələsini həll edir. Andlı iclasçıların iştirakı ilə keçirilən proseslər digər proseslərdən bir qədər fərqlənir. Burada, adətən, hakim müəyyən qədər passivdir.

Təqsirsizlik prezumpsiyası cinayət prosesinin əsasını təşkil edir. Mülki prosesdə və konstitusiya icraatında isə təqsirsizlik prezumpsiyası tətbiq olunmur. Təqsirsizlik prezumpsiyası onu ifadə edir ki, şəxsin təqsiri məhkəmə qaydasında sübuta yetirilməyincə o, təqsirsiz sayılır. Azərbaycan Respublikası Konstitusiyasının 63-cü maddəsində təqsirsizlik prezumpsiyası anlayışı dəqiqləşdirilir. Şəxs öz təqsirini sübut etməyə borclu deyildir. Sübutetmə vəzifəsi dövlət orqanının üzərinə düşür və qeyri-prosessual üsullarla əldə edilmiş dəlillər sübut kimi qiymətləndirilə bilməz. Şəxsin cinayət törətməsinə əsaslı şübhələr olduqda da o, təqsirsiz sayılır. İşin gedişi zamanı ortaya çıxan bütün şübhələr şəxsin xeyrinə yozulmalıdır. Qanuni qüvvəyə minmiş hökm olmayınca şəxslə cinayət törətmiş şəxs kimi rəftar etməyə qəti yol verilmir. Yəni ona cinayətkar demək yolverilməzdir. Cinayət qanunvericiliyində nəzərdə tutulmuş əsaslar olmayınca heç kəs cinayət məsuliyyətinə cəlb edilə bilməz.

Bir cinayətə görə təkrar məhkum olunmanın yolverilməzliyi prinsipi hələ qədim Roma hüququndan məlum olan prinsipdir (non bis in idem). Bu prinsip tamamilə təbiidir və hər hansı hüquqi formuldan, mexanizmdən deyil, birbaşa insanın özündən, əgər belə demək mümkünsə, şeylərin təbiətindən doğur. Doğrudan da, şəxs əməlinə görə artıq bir dəfə cəza çəkmişsə, onun bir daha həmin əmələ görə yenidən cəza çəkməsi məntiqsizdir və nə cəzanın məqsədlərinə, nə də hüququn humanizmini təsbit edən prinsiplərə uyğun gəlir. Qanunvericilikdə bu prinsip belə dəqiqləşdirilir: əgər şəxs haqqında artıq hər hansı başqa məhkəmənin qanuni qüvvəyə minmiş hökmü varsa, bu zaman eyni predmetlə bağlı, eyni əsaslarla başqa məhkəmədə başlanılmış iş xitam edilməlidir.

Prosessual hüquqlar hüquqi təminatlar mexanizmində mühüm yer tutur. Bu hüquqlar şəxsin cinayət prosesində və mülki prosesdə hansı imkanlara malik olduğunu təcəssüm etdirir. Prosesdə iştirak edən bütün şəxslər bu iştirakın dərəcəsindən asılı olaraq, prosessual hüquqlara müəyyən dərəcədə malikdirlər. Qanunvericilik qohumluq əlaqələrinə və ənənəvi əxlaq normalarına xələl gəlməməsi üçün şahidin ifadə vermək vəzifəsindən bir sıra şəxslərə münasibətdə bəzi istisnalara yol verir. Şahid prosesdə ifadə verməyə borcludur və yalan ifadə verməyə görə o, məsuliyyət daşıyır. Lakin Azərbaycan Respublikası Konstitusiyasına görə, hər kəs yaxın qohumlarının əleyhinə ifadə verməkdən imtina edə bilər. Yaxın qohumların siyahısının bir hissəsini Azərbaycan Respublikasının Konstitusiyası müəyyən edir. Buraya valideynlər, övladlar, qardaş və bacılar, ər-arvad aiddir. Bununla belə, Azərbaycan Respublikasının Konstitusiyası bu siya-

hını açıq saxlayır və qanunvericiliyə onun genişləndirilməsi imkanı verir. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 29 dekabr 1998-ci il tarixli qərarında Cinayət Prosessual Məcəlləsinin 67-ci, 70-ci və Cinayət Məcəlləsinin 179-cu, 181-ci maddələrini Konstitusiyanın 66-cı maddəsi ilə əlaqədar şərh edir və bu hüququn tətbiqi mexanizminə aydınlıq gətirir, həm də onun üçün əlavə təminatlar nəzərdə tutur. Konstitusiya Məhkəməsi müəyyən edir ki, şəxs öz yaxın qohumalarına qarşı ifadə verməyə məcbur edilərək yalan ifadə verərsə, onu Cinayət Məcəlləsinin 179 və 181-ci maddələri ilə məsuliyyətə cəlb etmək olmaz. Əgər şəxs öz razılığı ilə yaxın qohumları əleyhinə qəsdən yalan ifadə verərsə, bu zaman o, Cinayət Məcəlləsinin 179-cu maddəsi ilə məsuliyyətə cəlb oluna bilər. Əgər şəxs yaxın qohumunun törətdiyi cinayət barədə də xəbər verməmişsə, o, yenə də Cinayət Məcəlləsinin 82-ci və 186-cı maddələrinə görə, məsuliyyətə cəlb oluna bilməz. Xatırlatmaq yerinə düşərdi ki, burada 2000-ci ilin sentyabrının 1-dək qüvvədə olan Cinayət Məcəlləsinə istinad edilmişdir və bu qayda eyni ilə həmin tarixdən qüvvəyə minmiş yeni Cinayət Məcəlləsinin müvafiq maddələrinə tətbiq edilir. Deməli, öz yaxın qohumları əleyhinə ifadə verməkdən imtina hüququ sadəcə ifadə verməni deyil, həm də yaxın qohumunun törətdiyi cinayətlə bağlı dövlət orqanına məlumat vermək vəzifəsini də istisna edir. Yəni şəxs yaxın qohumunun törətdiyi cinayəti gizlədərsə, bu zaman həmin şəxs cinayəti bilib xəbər verməməyə, onu gizlətməyə görə məsuliyyətə cəlb oluna bilməz.

Cinayət prosesində əsas subyekt kimi dövlət orqanları (vəzifəli şəxslər) və təqsirləndirilən şəxs çıxış edir. Şəxs cinayət törətməkdə təqsirli bilinərsə, cinayət prosesinin

nəticəsi kifayət qədər ağır olur. Şəxs barəsində müxtəlif cəza tədbirləri tətbiq olunur. Bəzən onlar şəxsin ömürlük azadlıqdan məhrum edilməsi kimi ağır olur. Odur ki, Azərbaycan Respublikasının Konstitusiyası cinayət prosesində əsas iştirakçının hüquqlarını ayrıca bir maddədə - 67-ci maddədə nəzərdə tutur. Burada göstərilir ki, şəxsin barəsində müəyyən qətimkan tədbiri görüldükdə və ya ittiham elan edildikdə ona bunun səbəbləri barədə məlumat verilir və bu barədə bütün hüquqları ona aydınlaşdırılır. Cinayət törətməkdə təqsirləndirilən şəxsin aşağıdakı bir çox hüquqları vardır: nədə təqsirləndirildiyini bilmək və ona ittiham elan edildikdə və ya barəsində digər tədbir görüldükdə qərarın surətini almaq; öz hüquqları haqqında yazılı bildiriş almaq; tutulma və həbs olunma protokolu ilə tanış olmaq və protokolda əks olunmalı qeydlərini vermək; həbsə alındığı və ya ittiham elan olunduğu andan müdafiəçiyə malik olmaq; müdafiəçinin yardımından pulsuz istifadə etmək, tutulduqdan dərhal sonra ailəsinə qohumlarına, yaşadığı və ya işlədiyi yerə telefonla və ya digər vasitələrlə tutulduğu barədə məlumat vermək; sərbəst şəkildə müdafiəçi seçmək, onun səlahiyyətlərinə xitam vermək, müdafiəçidən imtina etdiyi hallarda özünü müdafiə etmək və s.

Cinayət prosesində hər bir proses iştirakçısının hüquqları onun prosesdə tutduğu mövqedən və işitirak dərəcəsindən asılı olaraq dəqiq şəkildə müəyyənləşdirilir. Aydındır ki, prosessual subyektlər içərisində ən geniş hüquqlara malik olanı məhz tutulan və ya hər hansı cinayətin edilməsində şübhəli bilinən, ittiham elan olunan şəxsdir. Prosessual iştirakçılar arasında zərər çəkmiş şəxs də mühüm yer tutur. Bu şəxslərin mənafeyi, adətən, müxtəlif şəxslərin və ya qurumların davranışlarından zərər çəkir.

Azərbaycan Respublikası Konstitusiyasının 68-ci maddəsinə görə, zərərçəkmiş anlayışı kifayət qədər geniş bir kateqoriyanı əhatə edir. Buraya cinayət nəticəsində və ya hakimiyyət orqanlarının hüquqa zidd hərəkətləri nəticəsində mənafeyinə toxunulmuş bütün subyektlər aiddir. İstər cinayət prosesində, istərsə də digər proses növlərində bu şəxslərin onlara dəymiş zərərin ödənilməsindən ibarət maraqları olur. Bu marağın təmin edilməsindən ötrü onlara müəyyən hüquqlar verilir. Konstitusiyada birbaşa göstərilir ki, belə şəxslərin ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etmək və ona dəymiş zərərin ödənilməsini tələb etmək hüququ vardır. Bu zaman Konstitusiya belə bir müddəadan çıxış edir ki, zərərçəkmiş şəxslərin mənafeyinə dəymiş zərər imkan dairəsində ödənilmədən ədalət mühakiməsinin həyata keçirilməsi tam səmərəli olmur. Əlbəttə, hər növ zərəri də tam şəkildə ödəmək mümkün deyildir. Əgər mülki prosesdə əmlakla bağlı qəsd edilmiş münasibətələri bərpa etmək mümkün olursa və bunun üçün müxtəlif vasitələr varsa (restitusiya, kompensasiya və s.), cinayət prosesində zərərçəkənin mənafeyi qorunan münasibətlərin öz xarakterinə görə dəymiş zərəri tam şəkildə bərpa etmək və zərərçəkənin mənafeyini tamamilə ödəmək, bir qayda olaraq, mümkün olmur. Buna görə də cinayət prosesində və mülki prosesdə zərərçəkənin mənafeyinə dəyən zərəri aradan qaldırmaq üçün fərqli üsul və vasitələrdən istifadə edilir. Vətədaşların mənafeyinə dövlət orqanları və vəzifəli şəxslər zərər vurarsa, bu zaman həmin zərəri dölət ödəyir. Bu ondan irəli gəlir ki, zərər vuran şəxslər dövlət adından çıxış edərək, onun funksiyalarını yerinə yetirərkən şəxsə zərər vururlar. Bundan əlavə, dövlətin dəymiş zərəri ödəməyə maddi imkanı olur. Cinayət prosesində zərər çək-

miş şəxsin özü və ya nümayəndəsi tərəfindən həyata keçirilə bilən hüquqları vardır: ittihamın mahiyyətini bilmək, ifadə və izahat vermək, vəsatət vermək, birinci və apellyasiya instansiyasında işin materiallarının tədqiqində iştirak etmək və s.

Şəxsə dəyən zərər ya maddi (əmlak və s.), ya da mənəvi olur. Maddi zərərin tam ödənilməsi prinsipcə mümkün olduğu halda, mənəvi ziyanın tam ekvivalentini müəyyən etmək mümkün deyildir. «Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında» Azərbaycan Respublikasının Qanununda (1998-ci ilin dekabrının 29-da qəbul edilib və 1999-cu ilin fevralının 18-də qüvvəyə minib) müəyyən edilmişdir ki, qanunsuz olaraq cinayət məsuliyyətinə cəlbetmə, mühakiməetmə nəticəsində şəxsə vurulmuş maddi və mənəvi ziyan tam ödənilməlidir. Dəymiş zərər vəzifəli şəxsin təqsirindən asılı olmadan ödənilir. Göründüyü kimi, hətta ədalət mühakiməsindəki yanlışlıqlardan və sui-istifadədən dəyən zərər belə ödənilməlidir. Bütün bunlar zərərçəkmiş şəxsə imkan verir ki, ona dəymiş zərərin ödənilməsi üçün geniş hüquqi imkanlardan istifadə etsin.

Yuxarıda göstərilənlərə yekun vuraraq onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsi məhz insan və vətəndaşların hüquq və azadlıqlarının qorunmasını dövlət hakimiyyət orqanlarının vəzifəsi kimi müəyyən edir.

V FƏSİL

VƏTƏNDAŞLARIN VƏZİFƏLƏRİ

Azərbaycan Respublikasının Konstitusiyasında vətəndaşların həm də müəyyən vəzifələri nəzərdə tutulmuşdur. Vəzifə, şəxsin özünün və cəmiyyətin, dövlətin mənafeyi naminə yerinə yetirməli olduğu, qanunla müəyyən edilmiş lazımi davranış ölçüsüdür. Bu fəsil bilavasitə vətəndaşların vəzifələri adlansa da, onların hamısını birmənalı olaraq ancaq vətəndaşların vəzifələri hesab etmək olmaz. Bir sıra vəzifələr özünün təbiətindən dolayı birbaşa vətəndaşlıqla bağlı deyil və hər bir kəsə aid edilə bilər. Məsələn, ətraf mühitin qorunması, tarix və mədəniyyət abidələrinin qorunması vətəndaşlığından asılı olmayaraq hər bir kəsə aiddir. Əcnəbilər də vətəndaşlar kimi Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmət etməlidirlər. Şəxsin əcnəbi olması onun vətəndaşı olmadığı ölkənin dövlət rəmzlərinə qarşı hörmətsiz hərəkətlərinə, təhqiramiz darvanışlarına haqq qazandırmır.

Vəzifələr hüquq və azadlıqlar sisteminə təsadüfi salınmayıb. Onların arasında sıx əlaqə var və biri digərinin mövcudluğunu şərtləndirir. Kiminsə hüququ mütləq başqalarında bu hüquqla bağlı vəzifələrin olmasını ehtiva edir. Vəzifəsiz hüquq, hüquqsuz vəzifə qeyri-mümkündür. Şəxsi həyatın toxunulmazlığı, dövlət və bütün digərlərində şəxsi həyata qarışmama vəzifəsini müəyyən edir. Seçki hüququ hər kəsdə başqasının bu hüququna müdaxilə etməmə vəzifəsini və seçkilərin nəticələrinin dövlət və hamı üçün məcburən tanınması vəzifəsini müəyyən edir. Bu vəzifələr olmadan müvafiq hüquqlar, demək olar

ki, mövcud olmur. Çünki hüququn olması, onun təmin olunmasını da nəzərdə tutur. Hüquqi vəzifələr bu təminolunma mexanizmində mühüm yerə malikdir. Hər kəsin istədiyi vaxt müdaxilə edə biləcəyi şəxsi həyatın toxunulmazlığı hüququ, əlbəttə ki, quru kağız üzərində yazılan yazıdan başqa bir şey deyildir. Nəticələri dövlət və cəmiyyət üçün məcburi olmayan, gizliliyi təmin edilməyən seçki hüququ da hüquq deyil. Beləliklə, açıq-aydın görünür ki, vəzifələr medalın ikinci üzü kimi, hüququn başqa tərəfidir. Odur ki, hüquq və vəzifələr konstitusiyada birgə nəzərdə tutulur. Ancaq müxtəlif konstitusiyalarda bu vəzifələrin həcmi hüquq və azadlıqlara münasibətdə fərqlənir və bir qanunauyğunluq kimi həmişə vəzifələrin sayı və həcmi hüquqların sayı və həcmindən az olur. Bu da təsadüfi deyildir. Çünki konstitusiyalarda əks olunan vəzifələr müəyyən qədər universaldır və şəxsin real hüquqi statusundan asılı olmadan mövcuddur. Ancaq vəzifələr konstitusion hüquq və azadlıqlar qədər universallığa malik deyil. Ümumi hüquq və azadlıq mövcud ola bildiyi halda, heç vaxt bu dərəcədə ümumi və geniş vəzifələr mövcud olmur. Təbii ki, seçki hüququ bir hüquq kimi bütün vətəndaşlara məxsusdur. Lakin bu hüququn qorunması çoxsaylı səlahiyyətlər şəklində ən müxtəlif dövlət orqanları arasında paylanmışdır və müxtəlif tədbirlər şəklində həyata keçirilir. Seçki hüququ vahiddir, lakin onun qorunması ilə bağlı müxtəlif vəzifələr vardır. Bu hüququ qorumaq üçün hüquqmühafizə orqanlarının əməkdaşlarından tutmuş məntəqə seçki komissiyasının üzvlərinə qədər bir çox şəxslər müxtəlif vəzifələr daşıyır (məntəqə seçki komissiyasını qorumaq, məntəqə daxilində sabitliyi təmin etmək və s.). Şəxsi toxunulmazlıq hüququ vahiddir və hər bir şəxsə məxsusdur. Onun qo-

runması ilə bağlı vəzifələr isə bütün dövlət orqanlarının üzərinə qoyulur və onların hər biri də öz fəaliyyət sahəsində məhz bundan irəli gələn çoxsaylı məhdudiyyətlərə riayət etməlidirlər. Başqa sözlə, vəzifələr həmişə konkret olmalıdır. Ümumi təsbit olunmuş şəkildə hüquq mövcud ola bildiyi halda, vəzifə ümumi, subyektləri və realizə forması göstərilmədən mövcud ola bilməz. Bir qayda olaraq, vəzifələr həmişə konkretdir. Universal, hamıya aid edilə biləcək vəzifələrin sayı azdır və bunların da içərisindən ən əhəmiyyətliləri seçilərək konstitusiyalarda təsbit olunur. Bundan başqa, bütün vəzifələr şəxsin dövlət qarşısında vəzifələrini ifadə edir. Əlbəttə, bu vəzifələr elə universallığına görə cəmiyyətin və son nəticədə ayrılıqda hər bir şəxsin mənafeyi ilə bağlıdır, ancaq nəzərə almaq lazımdır ki, bu vəzifələrin icrasını dövlət məcburən həyata keçirir. Vəzifələr dövlət və şəxsiyyət arasındakı münasibətlərdə vətəndaşın etməyə borclu olduğu, dövlətin isə tələb etməyə haqlı olduğu davranışı ifadə edir. Konstitusion vəzifələr şəxsə münasibətdə dövlətin sərbəst hərəkət edə biləcəyi fəaliyyət hüdudlarını bildirir.

Hazırkı təsəvvürlərə görə, hüquqi dövlətdə şəxs maksimum azad olmalıdır. Bu azadlığın dərəcəsi şəxsin dövlət qarşısındakı vəzifələrinin həcmində təzahür edir. Şəxs dövlət qarşısında nə qədər çox vəzifəyə malik olarsa, onun azadlığı dövlət tərəfindən bir o qədər də məhdudlaşdırılmış olar. Ancaq konstitusiyalarda əks olunan vəzifələrlə hər şey bitmir. Vəzifələrin böyük əksəriyyəti məhz cari qanunvericilikdə öz əksini tapır. Vəzifələr konstitusiyada müəyyən prinsiplərə əsasən təsbitlənir. Bu prinsiplər Azərbaycan Respublikasının Konstitusiyasında

da birbaşa olmasa da, dolayısıyla müxtəlif şəkillərdə təsbit olunmuşdur.

Bu prinsiplərə aşağıdakılar aiddir:

1) Vəzifələrin universal olması. Konstitusiyada əks olunan vəzifələr dövlətin birbaşa marağında olduğu cəmiyyət, fərd və dövlət üçün ən əsas vəzifələr olmalıdır. Bu vəzifələr konkret hüquq münasibətlərindən deyil, bütün hüquq sistemindən irəli gəlməli və sonradan ortaya çıxacaq, cari qanunvericilikdə təsbitlənəcək vəzifələri, o cümlədən qanunvericilikdə əks olunan, konkret münasibətlərdən irəli gələn vəzifələri öz içinə almalı, bir növ hüquq və azadlıqlar sistemində qoruyucu sipər kimi çıxış etmək üçün onlara ekvivalent olmaqla və bütün vətəndaşlara, bir hissəsi isə vətəndaşlığından asılı olmayaraq hamıya aid olmalıdır.

2) Hüquq və vəzifələrin vəhdəti (simmetrikliyi). Hər bir hüquq bütün başqa şəxslərdə müvafiq vəzifənin olmasını tələb edir. Bütün vəzifələr müəyyən bir hüquqla bağlıdır. Hüquqla bağlı olmayan vəzifə mövcud deyil. Qanunvericilik sistemində törəyən hər bir yeni hüquq bəzən özünün təmin edilməsi üçün vətəndaşlarda, cəmiyyətdə və dövlət orqanlarında onlarla yeni, konkret vəzifənin əmələ gəlməsinə səbəb olur. Hüquqa xitam verilməsi ilə həmin hüquqdan yaranan vəzifələrə də xitam verilmiş olur. Hüquq üçün vəzifənin müəyyənləşdirilməsi zamanı onların biri-birinə uyğunluğu əsasdır. Bu zaman mütləq qorunan hüquqa görə kimlərin vəzifəyə malik olacağı (subyektlər), onu necə realizə edəcəyi (aktiv şəkildə və ya sadəcə olaraq riayət etməklə), vəzifənin konkret məzmunu (bütövlükdə hüququn qorunması, yoxsa konkret bir tərəfinin müdafiəsi və s.) və s. bu kimi vəzifə ilə hüququn qarşılıqlı əlaqəsini şərtləndirən

məsələlər araşdırılmalı və qanunvericilikdə təsbit olunmalıdır.

3) Vəzifələrin hüquqiliyi. Bu prinsip neqativ təsbit edilmə formasında Azərbaycan Respublikası Konstitusiyasının 79-cu maddəsində əks olunub. Yalnız qanuni vəzifənin realizə olunmasını tələb etmək olar. Hüquqazidd davranış formaları vəzifə sayılmadığından onların realizəsinə yol verilmir. Vəzifənin hüquqa zidd olması meyarları özü problematik məsələdir. Konstitusiyanın 79-cu maddəsində belə meyar kimi konstitusiya və qanunlar göstərilir. Lakin bu meyarları əsaslı şəkildə Konstitusiya Məhkəməsi öz fəaliyyətində müəyyənləşdirir.

4) Vəzifəni yerinə yetirməməyə görə məsuliyyət. Məsuliyyət istənilən vəzifə üçün müəyyənləşdirilir və vəzifə yerinə yetirilmədikdə tətbiq edilir. Məsuliyyət vəzifələrin icrasında zəruri yaradıcı mexanizmdir. Məsuliyyət, şəxsin üzərinə düşən vəzifəni yerinə yetirmədiyi təqdirdə əmələ gələn və onun üçün arzuolunmaz nəticələr doğuran hüquqi tədbirdir. Bu bir növ dövlətin şəxsin qanunazidd davranışına verdiyi reaksiyadır. Məsuliyyət növləri hüquq münasibətindən, pozuntunun xüsusiyyətlərindən asılı olaraq, biri-birindən fərqlənir.

Azərbaycan Respublikasının Konstitusiyasında ilkin və ən universal vəzifə kimi Konstitusiya və qanunlara əməl etmək, başqalarının hüquqlarına hörmət bəsləmək göstərilir. Bu norma müəyyən qədər blanket normadır, çünki maddədə əks olunan "qanunla müəyyən edilmiş digər vəzifələrin" ifadəsi cari qanunvericiliyə istinad etməyi və normanı tam şəkildə qurmaq üçün müxtəlif nomativ hüquqi aktlardakı vəzifələrə müraciət etməyi tələb edir. Konstitusiya və qanunlara əməl etmək hüquqi kateqoriya olduğu halda, başqalarının hüquqlarına hörmət etmək da-

ha çox əxlaqi kateqoriyadır. İnsan davranışlarında nəsə konstitusiya və qanunlara uyğun gəlmirsə, dövlətin ona müdaxilə edib dəqiqləşdirmə aparması mümkündür. Lakin insanı hörmət qoymadığı bir şeyə görə mühakimə etmək onun konkret davranışlarında hüquqazidd əməl kimi təzahür etməyənə qədər mümkün deyil. Odur ki, başqalarının hüquqlarına hörmət etmək vəzifəsi daha çox vətəndaşlar üçün birbaşa hər hansı hüquqi nəticələr doğurmayan, lakin onlar üçün istiqamətverici bir göstərişdir. Bütün digər vəzifələr konstitusiya və qanunlara əməl etmək vəzifəsi ilə ehtiva edilir. Bu da ondan irəli gəlir ki, bütün vəzifələr hüquqi aktlarda əks olunub və onlara riayət edən şəxs, deməli, qanunvericiliyə riayət edir və bununla da konstitusiya və qanunlara əməl etmək vəzifəsini yerinə yetirir. Konstitusiya və qanunlara əməl etmək vəzifəsi və ümumiyyətlə digər vəzifələr, sadəcə olaraq, qanunun müddəalarından, hüquqi mexanizmlərdən deyil, həm də insanların inkişaf səviyyəsindən, hüquq mədəniyyətindən, daxili inancından asılıdır. Konstitusiya və qanunlara əməl etmək vəzifəsi cari qanunvericilikdə konkret vəzifələrə riayət etmək tələbi kimi konkretləşdirilir.

Vətəndaşların konstitusiyada müəyyənləşdirilən vəzifələrindən biri vergiləri və qanunvericilikdə nəzərdə tutulan digər ödənişləri ödəmək vəzifəsidir. Vergi və digər ödənişlər dövlət büdcəsinə daxil olan, əvəzsiz alınan pul ödəmələridir. Verginin müəyyən funksiyaları vardır. Dövlət vergi siyasəti vasitəsilə əhalinin gəlirlərinə nəzarət edir. Bundan başqa, büdcəyə yığılan vergilər yenidən müxtəlif məqsədlər üçün sərf edilir və bununla da mövcud problemlər aradan qaldırılır. Vergilər qanunla müəyyən edilir. Ancaq elə ödəniş növləri var ki, onların məb-

ləği dəyişikliklərə qarşı xüsusilə həssasdır. Dövlət, adətən, belə ödənişlərin aşağı-yuxarı hədlərini müəyyən edir. Vergilər tam həcmdə və vaxtında ödənilməlidir. Vergilərin vaxtında və tam həcmdə ödənməməsi, vergidən yayınma və s. müxtəlif növ məsuliyyətə səbəb olur. Yalnız fiziki şəxslər deyil, hüquqi şəxslər də vergi ödəyir. Vergi qanunla müəyyənləşdirilmiş meyarlar əsasında tutulur. Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin II hissəsində birbaşa göstərilir ki, heç kəs qanunla nəzərdə tutulmayan vergiləri ödəməyə məcbur edilə bilməz. Vergi ödəyicilərinin əsas vəzifələri aşağıdakılardır:

1) Vergiləri ödəmək;

2) Mühasibat uçotu aparmaq və ən azı beş il qorunan maliyyə-təsərrüfat sənədləri tərtib etmək;

3) Vergi orqanlarına vergiləri hesablamaq üçün zəruri sənədləri təqdim etmək;

4) Mühasibat hesablarına vergi orqanlarının aşkar etdiyi gəlirlərlə bağlı düzəlişlər etmək;

5) Vergi orqanlarının apardığı yoxlamalar zamanı ortaya çıxarılmış və yoxlama sənədlərində əks olunmuş faktlarla razılaşmadıqda yoxlama sənədlərinə imza atmaqdan imtina etməklə bağlı yazılı izah vermək.

Vergi ödəyicisi vergi orqanlarının tələblərini yerinə yetirməyə borcludur. Vergi ödəyicisinin vəzifəsi yalnız vergitutma obyekti olduqda və bu obyektdən vergi tutulduqda yaranır.

Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulan daha bir vəzifə vətənə sədaqətdir (maddə 74). Vətənə sədaqət hüquqi vəzifə kimi müəyyən olunsa da, bu əslində əxlaqi kateqoriyadır. Ancaq Konstitusiyanın 74-cü maddəsindən göründüyü kimi, vətənə sədaqət şəx-

sin öz xidməti vəzifələrinə münasibəti vasitəsilə müəyyən edilir. Qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanında işləyən şəxslər öz vəzifələrini dürüst və layiqincə yerinə yetirməlidirlər. Vətənə sədaqətin dövlət tərəfindən qəbul olunan rəsmi təzahür forması kimi, dövlət hakimiyyəti orqanının təmsilçisinin andı müəyyənləşdirilir. Eyni zamanda Konstitusiya ümumi də olsa, vətənə sədaqəti ölçmək üçün meyarlar müəyyən edir. Buraya and içmiş şəxslərin dövləti cinayətlər törətməsi və ya dövlətə qarşı qiyamda iştirakı faktları aiddir. Bu norma konkret olaraq praktikada dəqiqləşdirilməlidir, çünki normanın özündə qiymətləndirici anlayışlardan istifadə edilir (dürüst və layiqincə yerinə yetirmə). Vətənə sədaqət mücərrəd və ümumidir. Konkret olaraq hansı halda şəxsin vətənə sədaqətli olub-olmamasını, həm də öz xidməti vəzifəsinə münasibət vasitəsilə müəyyən etmək, demək olar ki, qeyri-mümkündür və problemi həll etməkdən çox problem yaradır. Aydındır ki, bu zaman səhlənkarlıqla vətənə sədaqətli olmamanı fərqləndirmə problemi ortaya çıxa bilər. Mümkündür ki, öz işini sevmədiyinə görə xidməti vəzifəsinə etinasız yanaşan birisi eyni zamanda son dərəcə vətənpərvər olsun. Bunun əksi də mümkündür (vətəni sevmədən öz xidməti vəzifələrini məsuliyyətlə yerinə yetirmək). Bu halda şəxsi vətənə sədaqət vəzifəsini yerinə yetirməməsinə görə məsuliyyətə cəlb etmək olarmı? Görünür, normanın konstruksiyasındakı natamamlığı hiss edən konstitusiya yaradıcıları onu birbaşa hüquqi nəticələr doğuran davranışla (cinayətdə iştirak etmə) əlaqələndirmişlər. Ancaq ümumilikdə şəxsin daxili aləmini əks etdirən, hüquqla ölçülməsi, qeydə alınması, demək olar ki, qeyri-mümkün olan bir kateqoriyanı dəqiq meyarlar tələb edən bir hüquqi kateqoriya ilə əlaqələndirmək o

qədər də uğurlu deyil (vətənə sədaqət vəzifə ilə bağlı davranışda birbaşa əks olunmur).

Müxtəlif qanunvericilik aktlarında öz vəzifələrini dürüst və layiqincə yerinə yetirmənin anlayışı qismən də olsa xidməti vəzifələrin yerinə yetirilməsinə verilən tələblər vasitəsilə açılır. Məsələn, Milli Məclisin deputatı Milli Məclisin iclaslarında və işində aktiv iştirak etməli, deputat etikasına uyğun hərəkət etməli və digər vəzifələrini yerinə yetirməlidir. Deputatın törətdiyi hüquq pozuntusu ilə əlaqədar məsələlərə baxmaq üçün Milli Məclisin özünün xüsusi komissiyası - İntizam komissiyası olur. Prezident ağır cinayət törətdikdə vəzifəsindən kənarlaşdırıla bilər (Azərbaycan Respublikası Konstitusiyasının 107-ci maddəsinin II hissəsi). Hakimin işi ilə bağlı bir sıra tələblər elə birbaşa Konstitusiyanın özündə əks olunmuşdur. Konstitusiyanın 127-ci maddəsinə görə, hakimlər işə qərəzsiz, ədalətli, faktlar və tərəflərin hüquq bərabərliyi əsasında qanuna müvafiq şəkildə baxmalıdırlar. Konstitusiyada müəyyənləşdirildiyinə görə, hər cür hüquq pozuntusu deyil, yalnız dövlətə qarşı cinayətlər və qiyamda və s. iştirak etmək vətənə sədaqət vəzifəsinin yerinə yetirilməməsi kimi baxılır. Bu da ondan irəli gəlir ki, məhz bu növ cinayətlərdə şəxsin dövlətə olan münasibəti müəyyən qədər üzə çıxır. Casusluq, vətənə xəyanət, qanundan kənar hərbi birləşmələr formalaşdırma, dövlət sirrini vermə və s. belə cinayətlərə aiddir.

Dövlət rəmzləri hər bir dövlətin bir növ tanınma nişanıdır. Konkret olaraq bu vəzifənin hansı davranış formalarından ibarət olması hətta cari qanunvericilikdə belə tam olaraq göstərilmir. Bu da ondan irəli gəlir ki, bütün növ insan davranışlarını nəzərdə tutmaq mümkün deyil. Bu zaman qanunvericilik bir növ dövlət rəmzlərinə münasi-

bətdə davranış aktlarının qiymətləndirilməsi meyarlarını müəyyən edir. Dövlət rəmzlərinə hörmət vəzifəsi də vətənə sədaqət vəzifəsi kimi əxlaqi-hüquqi kateqoriyadır və fərdin daxili aləmində, dünyagörüşü sistemində vətənpərvərlik hisslərinin mövcudluğu ehtimalına əsaslanır. Dövlət rəmzləri istənilən şəxsin şüurunda konkret dövlətlə assosiasiya yaradır və tam əminliklə demək olar ki, şəxsin dövlətə olan münasibəti bu dövlətin rəmzlərinə münasibətdə də əks olunacaqdır. Odur ki, dövlət rəmzlərinə hörmət əslində fərddən öz dövlətinə sevgi, qayğı göstərməsini tələb edir. Ancaq eynilə vətənə sədaqətdə olduğu kimi burada da fərdin daxili istəyi ilə xarici aləmdə davranışı üst-üstə düşməyə bilər. Şəxs istəyindən və dövlət simvollarına münasibətindən asılı olmayaraq, bu münasibəti xarici aləmdə hüquq pozuntusu kimi büruzə vermirsə, cəzalandırıla bilməz. Dövlət rəmzlərinə hörmət anlayışı kifayət qədər yayğındır. Məsələn, hansı hallarda dövlət rəmzləri ilə bağlı söylənilən kəskin fikirlər bu simvolların normal tənqidi kimi deyil, açıq təhqiri kimi başa düşülə bilər. Əlbəttə, bu halları müəyyən etmək konstitusiyanın deyil, cari qanunvericiliyin vəzifəsidir. Lakin əxlaqi meyarların hüquqi məsələlərdə istifadəsi tam olaraq yaramadığından burada da müvafiq çətinliklər ortaya çıxır. Maraqlıdır ki, ABŞ-da dövlət simvollarına hörmətsizlik göstərilməsi ilə bağlı qanunvericilikdə dəqiq meyarlar olmadığından məhkəmələrlə digər hüquq tətbiqi orqanları arasında müəyyən fikir ayrılığı olur. ABŞ məhkəmləri bir çox hallarda hüquq mühafizə orqanlarının cinayət kimi məhkəmədə baxılmağa təqdim etdiyi dövlət simvollarına hörmətsizliklə bağlı konkret davranışı söz və fikir azadlığının təzahürü forması kimi qiymətləndirirlər (məsələn, bayrağın yandırılması). Ümumiyyətlə, həm vətənə

sədaqət, həm də dövlət simvollarına hörmət sırf hüquqi vəzifələrdən fərqli olaraq, güclü ideoloji çalara da malikdirlər. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 324-cü maddəsində Azərbaycan Respublikasının Dövlət bayrağı və ya Azərbaycan Respublikasının Dövlət gerbi barədə təhqiredici hərəkətlərə görə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə növündə cəza tətbiqini nəzərdə tutur.

Vətəni müdafiə vəzifəsi yalnız vətəndaşlara aid olan mükəlləfiyyəti ifadə edir. Vətəni müdafiə daha çox hüquqi vəzifə olsa da, müəyyən qədər əxlaq və vətənsevərliklə də bağlıdır. Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsindən aydın olduğu kimi, vətəni müdafiə daha çox hərbi xidmət kimi başa düşülür. Həqiqətdə isə vətəni müdafiə geniş anlayışdır və hərbi xidmət olmasa da vətəni müdafiə məqsədilə müəyyən fəaliyyətə cəlb olunma da bu vəzifə ilə ehtiva edilir (məsələn, şəxsin əmək mükəlləfiyyətinə cəlb edilməsi). Lakin vətəni müdafiənin ən əsas və bariz forması hərbi xidmət olduğuna görə Konstitusiya vətəni müdafiə anlayışından bəhs edərkən, haqlı olaraq, hərbi xidməti vətəni müdafiə vəzifəsinin ən əsas forması kimi konstruksiya edir. Bir qayda olaraq, vətəni müdafiə hərbi xidmət şəklində kişilərin vəzifəsi hesab olunur. Lakin cari qanunvericilik qadınların vətəni müdafiəsini nəinki istisna etmir, əksinə, onu bir vəzifə kimi nəzərdə tutur. Ancaq qadınların vətəni müdafiə vəzifəsi hərbi xidmət şəklində həyata keçirilmir. Doğrudur, qadınların hərbi hissələrdə tibbi-sanitar, şəfqət bacılığı fəaliyyətinə cəlb olunması vətəni müdafiə vəzifəsinin tərkib hissəsidir. Lakin vətəni müdafiə vəzifəsinin başlıca forması olan hərbi xidmət qadınlar üçün vəzifə deyil,

hüquqdur. Başqa sözlə, bütün vətəndaşlar vətəni müdafiə vəzifəsini daşıyır, lakin onun ayrı-ayrı formalarına münasibətdə əhalinin müxtəlif qrupları arasında fərqlər vardır. Deyildiyi kimi, kişilər üçün vətəni müdafiənin əsas forması olan hərbi xidmət də vətəni müdafiə vəzifəsinin tərkib hissəsidir və hər bir kişi vətəni müdafiə vəzifəsini ən azı məhz bu formada realizə edir. Qadınlar üçün isə vətəni müdafiə vəzifəsi artıq hərbi xidmət formasında deyil. Onlar üçün hərbi xidmət, sadəcə olaraq, hüquqdur və onlar istəsələr, vətəni müdafiə vəzifəsinin bu formasını seçib realizə edə bilərlər. Əhalinin hərbi xidmət üçün yararlı olmayan qisminin vətəni müdafiə vəzifəsi əmək mükəlləfiyyəti, arxa cəbhədə müəyyən vəzifələr yerinə yetirmə şəklində təzahür edir. Qanunvericiliyə görə, vətəni müdafiənin əsas forması olan hərbi xidmət kişilərin vəzifəsidir və hərbi xidmətdən azad olmaq üçün əsası olmayan hər bir kişi hərbi xidmətdən keçməlidir. Azərbaycan Respublikasında hərbi xidmət 3 noyabr 1992-ci il tarixli «Hərbi xidmət haqqında» və 10 iyun 1992-ci il tarixli « Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında» qanunlarla tənzimlənir. Qanunvericiliyə görə, 18 yaşından 35 yaşına qədər hərbi çağırışdan azad olma üçün möhləti olmayan hər bir kişi hərbi mükəlləfiyyət daşıyır. Müddətli həqiqi hərbi xidmətə çağırışdan aşağıdakı şəxslər azad edilirlər:

1) Fəlsəfə doktoru, elmlər doktoru elmi dərəcəsi olan vətəndaşlar;

2) Səhhətinə görə dinc dövrdə həqiqi hərbi xidmətə yararsız, müharibə dövründə məhdud yararlı, yaxud hərbi uçotdan çıxarılmaqla hərbi xidmətə yararsız sayılmış çağırışçılar;

3) Alternativ xidmət (əmək mükəlləfiyyəti) keçməyə göndərilmiş çağırışçılar;

4) 35 yaşı tamam olanadək müxtəlif səbəblər üzündən müddətli həqiqi hərbi və ya alternativ xidmət keçməmiş çağırışçılar;

5) Ağır və ya xüsusilə ağır cinayət törətdiklərinə görə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş vətəndaşlar;

6) Azərbaycan Respublikasında (habelə keçmiş SSRİ-də) həqiqi hərbi xidmət keçmiş vətəndaşlar;

7) Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman).

Aşağıdakı şəxslər müddətli həqiqi hərbi xidmətə çağırılmırlar:

1) İctimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması və azadlıqdan məhrumetmə növündə cəza çəkən vətəndaşlar;

2) Əvvəllər törətdiyi cinayətə görə məhkumluğu üzərindən götürülməmiş yaxud məhkumluğu ödənilməmiş vətəndaşlar;

3) Barəsində olan cinayət işi üzrə təhqiqat və ya istintaq aparılan, yaxud barəsində olan cinayət işi məhkəmədə baxılan vətəndaşlar.

Hərbi xidmət bir sıra hallarda təxirə salınır. Bu zaman təxirə salmaya səbəb olan hallar aradan qaldırıldıqdan sonra şəxs hərbi xidmətə çağırıla bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsinin II hissəsində alternativ xidmətdən söhbət gedir. Alternativ xidmət institutu şəxsiyyət və dövlət arasında hərbi xidmətə münasibətlə bağlı baş verəcək anlaşılmazlığı aradan qaldırmaq üçün qurulan mexanizmdir. Bəzən fərdin inamı, əqidəsi ona hərbi xidmətdən keçməyə im-

kan vermir. Məsələn, xristianlığın, buddizmin bir çox təriqətləri insana qarşı hər cür əsaslarla silah işlədilməsini və belə təlimləri rədd edir. Bu zaman paradoksal bir vəziyyət yaranır. Hüquqi dövlətdə fərd öz iradəsi ziddinə hər hansı fəaliyyətə məcbur edilməməli və ona öz dini əqidəsinin tələblərini yerinə yetirməyə imkan verilməlidir. Əgər dövlət bunları nəzərə almadan dini əqidəsinə görə hərbi xidmət keçmək istəməyən vətəndaşı məcburən hərbi mükəlləfiyyətə cəlb edirsə, deməli, fərdin dini azadlığını, öz dininə görə yaşamaq imkanını pozur. Bu isə hüquqi dövlətdə yolverilməzdir. Eyni zamanda fərdi hərbi xidmət vəzifəsini yerinə yetirməkdən imtina etməyə görə məsuliyyətə cəlbetmə əsasları yaranır ki, bu zaman ortaya çıxan ikinci problem fərdin öz daxili inamına görə məsuliyyətə cəlb olunmasıdır. Belə ki, fərd daxili inamına görə hərbi xidmətdən boyun qaçırır, dövlət isə onu vəzifəsini yerinə yetirməməyə görə məsuliyyətə cəlb edir. Bu davranışın səbəbi əqidə olduğundan son nəticədə şəxs mahiyyətcə daxili inamına görə məsuliyyətə cəlb edilmiş olur. Göründüyü kimi, burada hüquqi vəzifənin yerinə yetirilməməsi zəminində dövlətlə fərd arasında münaqişə yaranır və biri hüquqi vəzifənin məcburiliyinə istinad edirsə, digəri hüquqi dövlətdə fikir, əqidə plüralizminə və öz əqidəsinə istinad edir. Bu vəziyyəti aradan qaldırmaq üçün hərbi xidməti əvəz edən, bir növ fərd və dövləti barışdıran xüsusi mexanizm yaradılır. Belə ki, həm fərdin (fərd hərbi xidmət keçmir), həm də dövlətin tələbi (fərd hüquqi vəzifəsini yerinə yetirir) ödənilir. Hər iki tərəfin marağının ödənilməsinə isə hüquqi vəzifənin məzmununun dəyişdirilməsi yolu ilə nail olunur. Alternativ xidmət zamanı fərd hərbi birləşmələrdə deyil, başqa müəssisələrdə dövlət üçün hərbi xidmətə bərabər tutulan işləri yeri-

nə yetirir (məsələn, müəyyən müddət sanitar kimi çalışma). Alternativ xidmət vəzifəsi hər cür fikirlə deyil, birbaşa dini əqidə ilə bağlıdır. Bir qayda olaraq, fərdin fəlsəfi, əxlaqi baxışları deyil, məhz dini əqidəsi alternativ xidmət üçün əsas rolunu oynayır.

Vətəndaşların vəzifələri sırasında tarix və mədəniyyət abidələrinin qorunması xüsusi yer tutur.

Azərbaycan Respublikası Konstitusiyasının 77-ci maddəsində nəzərdə tutulan tarix və mədəniyyət abidələrinin qorunması vəzifəsi 10 aprel 1998-ci il tarixli «Tarix və mədəniyyət abidələrinin qorunması haqqında» Qanunda dəqiqləşdirilir. Qanunda memarlıq və arxeoloji, numizmatik, epiqrafik, antropoloji materiallar, tarixi yerlər, əşyalar, binalar, dini abidələr və s. tarix və mədəniyyət abidələri kimi müəyyənləşdirilir. Təbiidir ki, bu dərəcədə geniş predmetlərlə bağlı olan vəzifəni təşkil edən konkret hərəkətlər həddən çox müxtəlif olacaqdır və onların hamısını birbaşa müəyyənləşdirmək qeyri-mümkündür. Bu obyektlərin hər birinə münasibətdə vətəndaşlardan bir çox hallarda tamam fərqli davranış tələb olunur. Bəzi hallarda aktiv hərəkətlər tələb olunduğu halda, başqa halda, sadəcə, passiv davranış şəklində hansısa qaydaya riayət etmək tələb oluna bilər. Odur ki, bu vəzifə digər vəzifələrdən fərqli olaraq nisbətən qeyri-dəqiqdir və özündə ən müxtəlif çeşidli hərəkətləri birləşdirir. Məsələn, tarix və mədəniyyət abidələri, tarixi binalar özəlləşdirilə bilməz. Numizmatik materiallar isə şəxsi mülkiyyətdə ola bilər (burda artıq mülkiyyətçinin maraqları ilə cəmiyyət maraqlarının uzlaşdırılması problemləri yaranır). Ancaq numizmatların konkret vəzifələrini qanunvericilik müəyyən etmir. Tarixi və memarlıq abidələri hesab olunan binalardan istifadə edənlərin isə vəzi-

fələri qanunvericilikdə müəyyənləşdirilir. Belə ki, bu abidələrin daxili və xarici quruluşunda onların tarixi dəyərinə xələl gətirəcək əsaslı dəyişikliklərin edilməsinə icazə verilmir. Tarix və mədəniyyət abidələrinin dövlət qeydiyyatı aparılır. Tarix və mədəniyyət abidələrinin, antik əşyaların ölkə ərazisindən kənara çıxarılması yalnız xüsusi məqsədlərlə və qanunla müəyyənləşdirilmiş qaydalar çərçivəsində həyata keçirilir.

Ətraf mühitin qorunması vəzifəsi Azərbaycan Respublikası Konstitusiyasının 78-ci maddəsində təsbit olunub. Ətraf mühiti qorumaq hər kəsin vəzifəsi elan olunsa da, bu vəzifənin yerinə yetirilməsində əsas yük ətraf mühitlə bağlı fəaliyyət göstərən və ya fəaliyyəti ətraf mühitə əsaslı təsir edən subyektlərin üzərinə düşür (məsələn, kimyəvi məhsullar istehsal edən müəssisələr). Sıravi vətəndaşların ətraf mühiti qoruma vəzifəsi, bir qayda olaraq, qanunla müəyyən edilmiş məhdudiyyətlərə riayət etməklə realizə olunur. Bir sıra subyektlərin üzərinə isə aktiv şəkildə müəyyən hərəkətlər etmək vəzifəsi qoyulur (məsələn, müxtəlif müəssisələrin öz tullantılarına nəzarət etməsi). Ətraf mühitin qorunmasında qeyri-hökumət təşkilatlarının, əhali arasında aparılan təbliğatın rolu da böyükdür. Beynəlxalq səviyyədə yaşıl sülh təşkilatı (yaşıllar hərəkatı «qrinpis») ətraf mühitin qorunması ilə məşğul olur və onun yerli təşkilatları, ardıcılları bəzən hökumətə təsir göstərəcək qədər geniş imkanlara malik olurlar. «Ətraf mühitin mühafizəsi haqqında» 8 iyun 1999-cu il tarixli qanunda təbiətdən istifadəyə məhdudiyyətlər qoyulması imkanı, təbii ehtiyatların kadastrı və qeydiyyatının aparılması, monitorinq keçirilməsi imkanları nəzərdə tutulur. 24 mart 2000-ci il tarixli «Xüsusi mühafizə olunan təbiət zonaları və obyektləri haqqında»

qanunda dövlət qoruqları, yasaqlıqlar və s. obyektlərin mühafizəsi və istifadə qaydalarından söhbət gedir. Torpaq qanunvericiliyində də torpaqdan səmərəli istifadəni şərtləndirən və torpaq istifadəçilərinin üzərinə qoyulan çoxsaylı vəzifələr əks olunur (səmərəli istifadə etmək, məhsuldarlığını artırmaq və s.). Su, yerin təki, meşə və s. bu kimi irimiqyaslı təbiət kompleksləri ilə bağlı qanunvericilik aktlarında da müvafiq olaraq istifadəçilərin vəzifələri konkretləşdirilir. Göründüyü kimi, ətraf mühitin qorunması vəzifəsi ən müxtəlif aktlarda əks olunaraq çoxsaylı ümdə vəzifələr şəklində dəqiqləşdirilir. Vəzifələr qorunan obyektdən asılı olaraq ən müxtəlif formalarda təzahür edir ki, bu da ətraf mühitin qorunması ilə bağlı vəzifələrin mürəkkəbləşməsinə gətirib çıxarır. Məsələn, 30 iyun 1998-ci il tarixli «Sənaye və məişət tullantıları haqqında» qanunda vəzifələr tətbiq olunan texnika və tullantılara verilən tələblər şəklində müəyyən olunur. Burada göstərilir ki, hər bir tullantı növü ayrıca saxlanılmalı, bu tullantıların saxlanılma yeri lazımi səviyyədə olmalıdır və s. 4 iyun 1995-ci il tarixli «Heyvanlar aləmi haqqında» qanunda isə göstərilir ki, vətəndaşlar və hüquqi şəxslər yalnız lisenziyada göstərilən fəaliyyətlə məşğul olmalı, istifadə zamanı təbii sistemlərin bütövlüyünə xələl gətirməyən üsullardan istifadə etməli, heyvanların yaşadığı mühitin pisləşməsinə yol verməməlidirlər. Ətraf mühitin qorunması ilə bağlı hüquq subyektlərinin bu cür geniş və çoxsaylı vəzifələri yerinə yetirməsinə xüsusi dövlət orqanları nəzarət edir. Eyni zamanda bu nəzarətlə bağlı səlahiyyətlərin yerinə yetirilməsində ovçuluqla bağlı və s. bu kimi ictimai əsaslarla fəaliyyət göstərən təşkilatların da xüsusi rolu vardır.

Qanunazidd vəzifələrin icrasına yol verilməməsi, yuxarıda göstərildiyi kimi, vəzifə kimi təsbit olunsa da, əslində bütün sistemin əsasında duran prinsipdir. Bu prinsip onu ifadə edir ki, birincisi, bütün vəzifələr qanunvericilikdə əks olunmalıdır; ikincisi, qanunda əks olunmayan hər hansı davranış formasının vəzifə kimi icrası tələb oluna bilməz və nəhayət üçüncüsü, vəzifələr konstitusiyaya uyğun gəlməlidirlər. Vəzifələrin qanunvericilikdə əks olunması onların dəqiqliyinin müəyyənləşdirilməsi üçündür. Elə bu dəqiqlik də vəzifəni hüquqi vəzifə kimi mümkün edir. Qanunvericilikdə müəyyənləşsə də, kimə yönəldiyi, necə realizə olunduğu və realizə edilməsinə kim tərəfindən nəzarət edildiyi bilinməyən, pozulduqda nəticələri bəlli olmayan heç bir məcburi davranışa vəzifə demək olmaz. Vəzifələrin qanunvericilikdə təsbiti həm də onların hüquqiliyini şərtləndirir. Qanunda olmayan davranış forması özbaşınalığa yol açа bilər və onun hüquqiliyi bəlli deyil. Dövlət isə qanunda əks olunan vəzifələrin yerinə yetirilməsində maraqlı olduğundan bu vəzifələrdə cəmiyyətin maksimum marağını, istəyini nəzərə alır, elə bununla da onların hüquqa uyğunluğu, insan təbiəti ilə uzlaşması təmin edilir və vəzifə həyata vəsiqə qazanır. Aydındır ki, çoxluğun qəbul etmədiyi davranışı vəzifə kimi təsbit etmək onun qeyri-hüquqiliyinə dəlalət edir. İstənilən vətəndaş qanunda əks olunmayan davranışın edilməsini ondan tələb etdikdə bundan imtina edə bilər. Çünki qanunla müəyyən edilməyən vəzifənin kimin mənafeyi naminə və niyə müəyyən edilməsi bəlli deyil. Belə qeyri-müəyyən hərəkət birbaşa hüquqazidd hərəkət də ola bilər. Cinayət qanunvericiliyinə görə, qanunsuz əmrin və deməli, bu əmrdən doğan öhdəliyin yerinə yetirilməməsi cinayət məsuliyyətinə sə-

bəb olmur. Konstitusiya bütün hüquq sisteminin güzgüsü olduğu üçün vəzifələrin də, belə demək mümkünsə, səmərəliliyini, hüquqiliyini müəyyən etmək üçün əsas götürülür. Hər bir vəzifə Konstitusiyada əks olunan normalara uyğun gəlməlidir. Bu onların hüquqiliyinin göstəricisidir. Vəzifələr bir-biri ilə uzlaşmalıdır. Eyni bir predmetlə bağlı davranışın müxtəlif tərəflərini əks etdirən vəzifələr bir-birinə tamam zidd olan hərəkətləri tələb edə bilməz. Məsələn, torpağın qorunması ilə bağlı vəzifə ilə müəyyənləşdirilirsə ki, torpaq istifadəçisi torpağın məhsuldarlığının yüksəldilməsi qayğısına qalmalıdır, buna paralel olaraq torpağın yalnız təyinatına görə istifadəsi vəzifəsi müəyyən edilə bilər. Torpağın məhsuldarlığının yüksəldilməsi üçün ondan istənilən şəkildə istifadəyə yol vermək olmaz, çünki təyinatına görə istifadə olunmayan torpağın məhsuldarlığı da artmaz. Başqa sözlə, məhsuldarlığın artırılması torpağın təyinatına görə istifadə ilə bağlı olduğuna görə qanun torpağın məhsuldarlığının artırılması vəzifəsinə paralel olaraq torpağın bu məqsədlə hər cür, hətta təyinatına zidd olan üsullardan istifadə edilməsi vəzifəsini qoya bilməz. Bu vəzifələr birbirinə ziddir. Vəzifələrin Konstitusiyaya və qanunvericiliyə uyğunluğunu müxtəlif dövlət orqanları praktikada ortaya çıxan problemlərlə bağlı öz səlahiyyətləri dairəsində həll edirlər. Konstitusiyaya və qanunlara zidd olan, lakin qanunvericilikdə vəzifə kimi əks olunmuş davranış norması hüquq subyekti üçün müxtəlif problemlər yaradır və onlar ləğv edilməlidir.

Məsuliyyət vəzifənin yerinə yetirilməməsi zamanı ortaya çıxacaq hüquqi nəticələri ehtiva edir. Vəzifə yalnız o zaman real olur ki, onun yerinə yetirilməsi müəyyən bir vasitə ilə stimulaşdırılır. Məsuliyyət, sadəcə, vəzifə-

nin yerinə yetirilməməsi zamanı ortaya çıxan hüquqi nəticə deyil, həm də aşağı sosiallaşma səviyyəsinə malik bir çox fərdlərdə vəzifənin yerinə yetirilməsi ilə bağlı psixoloji motivasiyanı stimullaşdıran mühüm elementdir. Sirr deyil ki, insanların bir çoxu vəzifələrini onun mahiyyətini, cəmiyyətə və son nəticədə onun özünə xeyrini başa düşdüyünə görə deyil, sadəcə, məsuliyyət qorxusu altında yerinə yetirirlər. Məsuliyyət kifayət qədər geniş anlayışdır və fəlsəfədə, sosiologiyada, o cümlədən hüquqda işlədilir. Hüquqi məsuliyyət yalnız qanunla müəyyənləşdirilir, onun əmələ gəlməsinin və tətbiqinin dəqiq əsasları olur. Hüquqdan kənar hüquqi məsuliyyət mövcud deyil. Hüquqi məsuliyyət insan davranışlarına görə yaranır və həmişə də hüquq pozunutusunu törətmiş şəxs üçün arzuolunmaz nəticələr doğurur. Hüquqi məsuliyyət anlayışı daim inkişafdadır və hər bir hüquq sahəsi öz münasibətlərinin xüsusiyyətlərindən irəli gələn hüquq məsuliyyəti mexanizmi işləyib hazırlayıb. Məsuliyyət mütləq baş vermiş hüquq pozuntusunun xarakterinə uyğun gəlməli, qorunan münasibətlərin xüsusiyyətləri nəzərə alınmalıdır. Əks təqdirdə məsuliyyət nəinki səmərəli olmaz, həm də arzuolunmaz nəticələr verə bilər. Əsasən, hüquq ədəbiyyatında sahə aidiyyətinə görə məsuliyyətin cinayət, mülki, inzibati məsuliyyət kimi növləri fərqləndirilir. Son illərdə konstitusion məsuliyyət anlayışı işlənməkdədir. Cinayət məsuliyyəti daha çox cəza verilməsində əks olunur. Bu məsuliyyət tədbirləri ən ağır tədbirlərdir və bu da onun ən təhlükəli hüquq pozuntusuna -cinayətə görə tətbiq olunmasından irəli gəlir. Mülki məsuliyyət daha çox bərpaedici xarakterlidir. Bu zaman məsuliyyət tədbiri çərçivəsində subyektlər hüquq pozuntusu baş verənə qədər olan vəziyyətə qaytarılır və ya bir tə-

rəfə dəyən zərər digər tərəfin hesabına ödənilir. Cinayət məsuliyyətində təqsir mühüm əhəmiyyətə malikdir, mülki məsuliyyətdə isə bu ikinci plana keçir. İnzibati məsuliyyət nisbətən kiçik hüquq pozmaları ilə - inzibati xətalarla bağlıdır. Buna görə də burada tətbiq olunan məsuliyyət tədbirləri daha yüngüldür. İnzibati məsuliyyət xüsusilə operativlik tələb etdiyindən onun tətbiqi qaydası sadələşdirilib və məhkəmədən kənar tətbiqi mümkündür. İntizam məsuliyyəti, bir qayda olaraq, əmək münasibətlərində müəssisədaxili intizam qaydalarının pozulmasına görə tətbiq edilir. Bir neçə məsuliyyət tədbirinin birgə və ya ayrılıqda tətbiqi mümkündür. Məsuliyyətin hər bir halda, adətən, 3 əsası olur:

1) faktiki əsas (hüquq pozuntusu);

2) hüquqi əsas (pozuntunun tövsif olunduğu norma);

3) prosessual əsas (bir qayda olaraq, inzibati məsuliyyətdə olur).

Konstitusion hüquqi məsuliyyət bir çox hallarda siyasi proseslərlə üzvi surətdə bağlıdır və hələlik bu məsuliyyətlə bağlı hüquqşünaslıqda sabit və ümumi qəbul olunmuş nəzəriyyə formalaşmayıb. Bundan başqa, prosessual hüquq sahələrində tətbiq olunan spesifik məsuliyyət tədbirləri mövcuddur.

VI FƏSİL

VƏTƏNDAŞLIQ

§ 1. Vətəndaşlıq anlayışı və vətəndaşlığın prinsipləri

Vətəndaşlıq konstitusiya hüququnda əlaqə kimi başa düşülür. Ancaq bu əlaqə dövlətlə şəxs arasındakı münasibətləri ifadə edir və sırf hüquqi anlayışdır. Vətəndaşlıq faktiki vəziyyətlə şərtlənmir və qanunvericilikdə formalaşdırılan qaydada əmələ gəlir. Vətəndaşlıq şəxslə dövlət arasında qarşılıqlı hüquq və vəzifələrin mövcudluğunda təzahür edən sabit, möhkəm, siyasi-hüquqi əlaqədir. Azərbaycan Respublikasının Konstitusiyasında vətəndaşlıq institutunun əsasları hüquq kimi 52-ci və 53-cü maddələrdə nəzərdə tutulmuşdur. Konstitusiyanın 52-ci maddəsində Azərbaycan Respublikasının vətəndaşına belə anlayış verilir: «Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır». Göründüyü kimi, Konstitusiyada verilən anlayış doktrinal anlayışdan bir qədər fərqlənsə də, əsas əlamətlər üst-üstə düşür. 53-cü maddədə vətəndaşlığın əsas təminatları nəzərdə tutulur. Şəxs vətəndaşlıqdan məhrum edilə, ölkədən qovula, başqa dövlətə verilə bilməz və Azərbaycan Respublikası öz vətəndaşını harada yaşamasından asılı olmayaraq müdafiə edir. Vətəndaşlığın pozitiv-hüquqi anlayışında «dövlətə mənsubiyyət» ifadəsi işlədilir. Əslində isə vətəndaşlıq anlayışı ilə dövlətə mənsubiyyət biri-birinə yaxın, lakin fərqli anlayışlardır. Ancaq hal-hazırda bu anlayışlar arasındakı fərqlər silinir və demək olar ki, bütün ölkələrin qanunvericiliyində dövlətə mənsubiyyət və vətəndaşlıq anlayışları sino-

nimlər kimi işlədilir. Vətəndaşlıq anlayışı sosial-faktiki və ya bioloji xüsusiyyətlərlə heç bir halda şərtlənmir. Baxmayaraq ki, vətəndaşlıq bir qayda olaraq doğulan zaman əmələ gəlir, bu institutun faktiki hallarla birbaşa əlaqəsi yoxdur və insanların milli mənsubiyyətləri, mənəvi-əxlaqi kamilliyi, yaşayış şəraitləri ilə bağlı deyil. Vətəndaşlıq bu hallardan asılı olmadan fərdlə dövlət arasında daim inkişaf edən, məzmunu zənginləşən, geniş əlaqəni ifadə edir. Vətəndaşlıq fərdlə dövlət arasındakı bütün digər münasibətlərin bazasını, bir növ platformasını təşkil edir. Vətəndaşlığı olmayan şəxsin hüquq və vəzifələri əhəmiyyətli dərəcədə azalır, praktik fəaliyyətində müxtəlif çətinliklər meydana çıxır. Bütün bunlara baxmayaraq, fərdlərin əksəriyyəti vətəndaşlığı, belə demək mümkünsə, hər an duymurlar. Vətəndaşlıq onların bir dövlətdə yaşaması və tam dəyərli insan kimi fəaliyyəti üçün son dərəcədə zəruri olsa da adi, gündəlik həyatda bu hiss olunmur. Bütün bunlar ondan irəli gəlir ki, fərd doğulan kimi vətəndaşlıq əldə edir və sonradan ömrü boyu onu saxlayır. Artıq şəxs üçün vətəndaşlıq vərdiş olunmuş və buna görə də hiss olunmayan faktiki vəziyyətə, şəraitə dönür. Halbuki vətəndaşlıqdan məhrumetmə dərhal özünü göstərir və o, dövlətlə bağlılığı, hüquq və vəzifələrinə xitam verilməsi faktı ilə üz-üzə qalır. Siyasi hüquq və azadlıqlardan istifadə artıq mümkün olmur, fərdin vətəndaş kimi başqa dövlətlər qarşısında müdafiəsi aradan qalxır, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə münasibətdə tətbiq olunan mexanizm işə düşür və fərd onun fəaliyyətinə əsaslı dərəcədə təsir edən dəyişikliyi hiss edir.

Vətəndaşlıq dövlətə münasibətdə fərdin qarşısında geniş imkanlar açır. Bir çox hüquq və vəzifələrin realizəsi

mümkün olur və hüquqla birbaşa nizamlanan və ya çox yayğın şəkildə nizamlanan fəaliyyət növlərinə, sosial aktivliyə imkan yaradır (məsələn, siyasi proseslərdə aktiv iştirak imkanı, dövlət orqanlarının fəaliyyətini izləmək və müxtəlif şəkillərdə reaksiya imkanı). Vətəndaşlığın məzmununu konkret olaraq müəyyən etmək qeyri-mümkündür. Burada, sadəcə olaraq, subyektlər bəllidir. Bir tərəfdə şəxs, digər tərəfdə dövlət durur. Ancaq onların arasındakı münasibətlər daim dəyişir və inkişaf edir. Şəxs bütün həyatı boyu tutduğu vəzifədən, yaşından, dövlət qarşısındakı xidmətlərindən asılı olaraq, az və ya çox dərəcədə dəyişikliyə uğrayan hüquq və vəzifələrə malik olur. Hərbi xidmətdə ikən fərdin hərbi qulluqçulara məxsus hüquq və vəzifələri əmələ gəlir və hərbi xidmətdən sonra xitam olunur, ailə qurduqdan sonra valideyn kimi müəyyən güzəştlər yaranır, xaricə ezam olunduqda bu ezamiyyətlə bağlı hüquq və vəzifələr sisteminə müəyyən əlavələr olur, məxfi xidmət orqanlarına daxil olduqda isə əlavə məhdudiyyətlər yaranır və s. Bir sözlə, bütün həyatı boyu fərdin fəaliyyəti onun hüquqi statusunda əks olunur. Bunların hamısı vətəndaşlığın tərkib hissəsidir. Ancaq vətəndaşlıq bu cür rəngarəng, dinamik status dəyişiklikləri ilə bitmir. Vətəndaşlıq həm də özündə, nə qədər qəribə də olsa, bu rəngarəng, geniş sistemin özəyini, dəyişməyən hissəsini qoruyub saxlayır, həmçinin şəxsin dəyişən fərqli sahə hüququ statuslarının modelini təşkil edir. Hər şey dəyişsə də, vətəndaşlıq dəyişmir. Bütün digər dəyişikliklər vətəndaşlığın müəyyənləşdiyi hüdudlar çərçivəsində və ona uyğun baş verir. Elə buna görə də vətəndaşlıq möhkəm, sabit əlaqədir. Bu sabitlik onun dəyişməzliyində əks olunur. Vətədaşlıq, bir növ hüquqi statusda baş verən ən müxtəlif məsələlər-

dən irəli gələn kəskin dəyişiklikləri biri-biri ilə əlaqələndirən, onları uzlaşdıran və bu yolla da fərdin hüquqi statusundakı qaçılmaz dəyişikliklər arasındakı əlaqəni təmin edən sistemdir. Hər bir şəxs, bir qayda olaraq, doğulan andan vətəndaşlığı əldə edir və əgər öz arzusu ilə onu dəyişmək istəməzsə dünyasını dəyişənə qədər onu saxlayır. Nə dəyişiklik baş verirsə versin, fərdi vətəndaşlıqdan məhrum etmək Azərbaycan Respublikasında qeyri-mümkündür. Vətəndaşlıq institutuna vətəndaşlıqdan müvəqqəti çıxarılma və ya müvəqqəti olaraq vətəndaşlığı saxlama kimi anlayışlar tamamilə yaddır. Bu əlaqə ömürlükdür və ona xitam verildikdə də birdəfəlik yox olur. Fərdin doğulduğu andan yaranan və o ölənə qədər mövcud olan vətəndaşlığın daimiliyi bir zərurətdir. Vətəndaş hətta dünyasını dəyişəndən sonra da onunla bağlı bütün hüquqi sənədlər arxivləşdirilir və o, dövlətin sabiq vətəndaşı kimi xatırlanır, yeri gəldikcə onunla bağlı hüquq münasibətləri meydana çıxır (məsələn, vərəsəlik hüququ ilə bağlı münasibətlər, onun adının müvafiq hallarda əbədiləşdirilməsi və s.).

Daimi olmayan vətəndaşlıq dövlətlə şəxs arasında əlaqələrin zəif olmasını ifadə edir ki, bu halda da bütün hüquqi status əsasli şəkildə zərər çəkəcəkdir. Şəxsin vətəndaşlığı qarşılıqlı hüquq və vəzifələrdə əks olunur. Bu vətəndaşlığın prinsipial müddəasıdır və vətəndaşlıqda dövlət və şəxsin bərabər səviyyəli subyektlər olmasını ifadə edir. Bunun əksinə, orta əsrlərdə mövcud olmuş təbəəçilik anlayışı birtərəfli idi. Təbəənin dövlət qarşısında vəzifələri vardı, lakin hüquqları yox idi. Dövlət təbəəyə münasibətdə üstün idi. Bundan başqa, təbəəçilik fərdlə kral, hökmdar, bir sözlə, dövlətin başında duran şəxs arasındakı əlaqəni nəzərdə tuturdu. Təbəə krala sadiq olma-

ğa borclu idi. Başqa sözlə, təbəəçilik münasibətində şəxslərarası hüquqdan kənar münasibətlərin də elementi var idi. İndinin özündə də bir sıra konstitusiyalı monarxiyalarda (Yaponiya, Böyük Britaniya) ənənə üzrə «təbəə» sözü işlədilir, ancaq bu sözün məzmunu artıq vətəndaşlıqdan heç nə ilə fərqlənmir. Vətəndaşlıqda həm dövlətin vətəndaş qarşısında, həm də vətəndaşın dövlət qarşısında müəyyən hüquq və vəzifələri vardır. Bu hüquq və vəzifələr vəhdət halında mövcuddur və onları birbirindən tam fərqləndirmək qeyri-mümkündür. Həm dövlət, həm də vətəndaş biri-birinə münasibətdə bərabərdirlər və heç nə səbəbsiz yerə onlardan birinə digəri qarşısında üstünlük vermir. Vətəndaşın məhkəmə vasitəsilə birbaşa dövlətin özünə qarşı iddia qaldırmaq hüququ vardır. Vətəndaş dövlət qarşısında məsuliyyət daşıdığı kimi, dövlət də vətəndaşın qarşısında məsuliyyət daşıyır. Əlbəttə ki, reallıqda heç də hər şey idealda nəzərdə tutulduğu qaydada olmur. Bir qayda olaraq, dövlətin vətəndaşa görə imkanları daha çoxdur və buna görə də, adətən, dövlətin xeyrinə bu münasibətlərdə istər-istəməz üstünlük yaranır. Hüquqi dövlətdə həm dövlət, həm də vətəndaş biri-birinin inkişafında maraqlı olduğuna görə (dövlətin inkişafı vətəndaşın, vətəndaşın inkişafı dövlətin inkişafından asılıdır) vətəndaşlıqdakı bu bərabərlik saxlanılır. Çünki hər iki subyektin sabit inkişafını onların müəyyən dərəcədə muxtariyyatı təmin edir ki, bu muxtariyyat da digər subyekt tərəfindən pozulduqda inkişafda ləngimə yaranır.

Dövlətlə vətəndaş arasındakı əlaqələr özünün təbiətinə görə hüquqidir. Bütün bu əlaqələr hüquq normalarında əks olunur və dövlət də vətəndaşa münasibətdə özünü hüquqla məhdudlaşdırır. Əlaqənin hüquqi olmasının mü-

bahisə törətmədiyi halda, bəzən onun siyasi xarakterə malik olmasını bütün müəlliflər qəbul etmir. Bəzi fikirlərə görə vətəndaşlıq siyasi olmamalıdır, çünki dövlətə siyasi cəhətdən bağlılıq vətəndaşın fikir plüralizmini boğur və bununla totalitar dövlətə zəmin hazırlayır. Bəzən isə əlaqənin siyasi xarakterə malik olması, sadəcə, dövlətin siyasi həyatında və idarə edilməsində iştirak imkanı kimi izah edilir.

Vətəndaşlıq və dövlətə mənsubiyyət anlayışları da fərqləndirilir. Ancaq iş burasındadır ki, dövlətə mənsubiyyət keçmiş SSRİ-də və müasir Qərbdə fərqli məna çalarlarına malik idi və onların işlənməsi müxtəlif səbəblərlə şərtlənirdi. SSRİ-də rəsmi hüquq doktrinası vətəndaşlığa dövlətə mənsub olma kimi anlayış verərkən, şəxsin dövlətdən asılılığı və bu asılılığın dövlət tərəfindən müəyyənləşdirilməsi nəzərdə tutulurdu. SSRİ-nin son illərinə doğru hüquqi dövlət ideyasının yayılması, vətəndaş və dövlətin qarşılıqlı münasibətlərinə yeni aspektdən baxılması vətəndaşlıq anlayışına da düzəlişlər edilməsini şərtləndirmişdir. Qərbdə isə indi də sinonim kimi vətəndaşlıq (citizenship) və dövlətə mənsubiyyət (nationality) anlayışları işlədilir. Vətəndaşlıq fərdlə dövlətin bərabər subyektlər olmasını ifadə etdiyi halda, dövlətə mənsubiyyət anlayışında fərdlər dövlətə aid edilir və fərdlə qarşılıqlı əlaqələrdə dövlət onlardan üstün mövqedə olmaqla bütün məsələləri özü müəyyən edirdi. Qərbdə bu anlayışın ortaya çıxmasına koloniализm səbəb olmuşdur. Bir qayda olaraq, qərb dövlətlərinə məxsus koloniyaların sakinləri vətəndaşlığa deyil, dövlət mənsubiyyətinə malik idilər. Əksinə, metropoliyanın öz əhalisi vətəndaşlar hesab olunurdu (məsələn, Fransanın dənizaşırı departamentlərinin sakinləri). Ancaq zaman keçdikcə bu anlayış da

zərurətin aradan qalxmasına görə öz əhəmiyyətini itirmişdir. Hal-hazırda bu anlayış qərbdə şəxsin öz ölkəsinə istədiyi vaxt gəlib - getməsini və fərdin xaricdə öz ölkəsi tərəfindən müdafiə olunması hüququnu bildirir.

Vətəndaşlıq, bir qayda olaraq, bir dövlətlə olan əlaqələri ehtiva edir. Ancaq hüquqda ikili vətəndaşlıq (bipatrizm) anlayışı da var. İkili vətəndaşlıq şəxsin eyni zamanda iki və daha artıq dövlətin vətəndaşı olmasını ifadə edir. İkili vətəndaşlığı olan şəxs eyni zamanda bir neçə dövlət qarşısında hüquq və vəzifələrə malik olur və hər iki dövlət də onu xaricdə öz vətəndaşı kimi müdafiə etməlidir. İki ölkənin vətəndaşı olmaq həm fərd, həm də dövlət üçün müəyyən problemlər yaradır. Bu zaman hərbi xidmət, vergilərin ödənilməsi, dövlət orqanlarında xidmət, nikah və s. məsələlərlə bağlı problemlər yaranır. İkili vətəndaşlığa münasibət müxtəlifdir. Bəzi dövlətlər ikili vətəndaşlığı qəbul edir və onların vətəndaşları eyni zamanda başqa dövlətin də vətəndaşı ola bilərlər. İkili vətəndaşlığı qəbul etməyən dövlətlərin vətəndaşları eyni zamanda başqa bir dövlətin vətəndaşı ola bilsə də yalnız ikili vətəndaşlığı qəbul etməyən dövlətin qarşısında məhz həmin dövlətin vətəndaşlığından irəli gələn öhdəliklər daşıyır. Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyi dövlətimizdə ikili vətəndaşlığı tanımır.

Hüquqda fərdin vətəndaşlığının olmaması da mümkündür. Əgər fərd hər hansı dövlətin vətəndaşlığından çıxarsa və başqa dövlətin də vətəndaşlığını qəbul etməzsə, bu zaman vətəndaşlığı olmama (apatrizm) əmələ gəlir. Vətəndaşlığı olmayan şəxslər heç bir dövlətlə sıx əlaqələrə malik olmur. Bir qayda olaraq, ikili vətəndaşlıq və vətəndaşlığı olmama hüquqda anomaliya sayılır. Bu problemlər, bir qayda olaraq, ikili vətəndaşlığı tanıyan dövlətlər

arasında bağlanılan müqavilələr əsasında və ikili vətəndaşlıqla bağlı beynəlxalq hüquqi müqavilələr üzrə həll edilir.

Vətəndaşlıq müəyyən prinsiplərə söykənir. Bu prinsiplər ölkənin vətəndaşlıq konsepsiyasından asılı olaraq, birbirindən fərqlənir. Vətəndaşlığın prinsipləri dövlətin vətəndaşlığa münasibətini əks etdirir. Eyni zamanda iki universal prinsip mövcuddur ki, bu prinsiplər hər ölkənin öz daxili pozitiv-hüquq prinsiplərindən fərqli olaraq, vətəndaşlıqla bağlı bütün ölkələrdə müxtəlif formalarda tətbiq edilir. Bu prinsiplər vətəndaşlığın əldə edilməsi əsaslarını ifadə edir. Buraya torpaq hüququ prinsipi (Jus soli) və qan hüququ prinsipi (Jus sanguinus) aiddir. Torpaq hüququ prinsipinə görə, şəxs harada doğulursa oranın da vətəndaşlığını əldə edir. Qan hüququ prinsipinə görə isə şəxsin valideynləri hansı ölkənin vətəndaşlarıdırsa, doğulan uşaq da həmin ölkənin vətəndaşı hesab olunacaqdır. Bir sıra ölkələrdə yalnız bir prinsip tətbiq olunur. Bir çox ölkələr isə hər iki prinsipi birləşdirərək (prinsiplərin kombinasiyası) tətbiq edirlər. Azərbaycan Respublikasının Konstitusiyasında hər iki prinsip birləşdirilib. Konstitusiyanın 52-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır (burada torpaq hüququ prinsipi və qan hüququ prinsipi eyni səviyyədə nəzərdə tutulur). Eyni zamanda valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxs də Azərbaycan Respublikasının vətəndaşı hesab olunur. Vətəndaşlıqla bağlı digər prinsiplər 30 sentyabr 1998-ci il tarixli «Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikasının Qanununda təsbit olunmuşdur. Bu prinsiplər vətəndaşlığın

təminatı rolunu oynayır və Konstitusiyanın 53-cü maddəsində də qismən təsbitlənibdir. Bu prinsiplərə aşağıdakılar aiddir:

(1) Ayrılmaz vətəndaşlıq. Bu prinsip Konstitusiyanın 53-cü maddəsində əks olunub. Burada göstərilir ki, vətəndaşlıqdan çıxarılma qeyri-mümkündür və vətəndaş xarici dövlətə qovula və ya verilə bilməz.

(2) Bərabər vətəndaşlıq. Bərabər vətəndaşlıq prinsipinə görə, vətəndaşlar hansı əsaslarla vətəndaşlığı əldə etməsindən asılı olmayaraq biri-birinə və dövlətə münasibətdə bərabərdirlər. Dini, irqi, milli mənsubiyyət, cins, məşğuliyyət, siyasi əqidə, yaşayış yeri və s. vətəndaşlıqda şəxsin hüquqi statusunun genişləndirilməsi və ya məhdudlaşdırılması üçün əsas kimi çıxış edə bilməz.

(3) Vahid vətəndaşlıq. Vahid vətəndaşlıq adı çəkilən qanunun 10-cu maddəsində təsbitlənib. Bu prinsipə görə, Azərbaycan Respublikasının vətəndaşı eyni zamanda bir başqa dövlətin vətəndaşı ola bilməz. Bu o deməkdir ki, Azərbaycan Respublikası ikili vətəndaşlığı qəbul etmir. Bu qaydadan istisna ancaq beynəlxalq müqavilələrdə nəzərdə tutulan hallarda və Azərbaycan Respublikası Konstitusiyanın 109-cu maddəsinin 32-ci bəndinə müvafiq surətdə həll edilmiş hallarda mümkündür.

(4) Vətəndaşın müdafiəsi. Bu prinsip Konstitusiyanın 53-cü və «Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» qanunun 2-ci maddəsində təsbit olunub. Vətəndaş harada olmasından asılı olmayaraq öz dövləti tərəfindən müdafiə olunur. Dövlət vətəndaşının xaricdə müdafiəsi üçün zəruri tədbirlər görməlidir.

Vətəndaşların müdafiəsi ilə bağlı bu cür prinsiplərin müəyyənləşdirilməsi və vətəndaşlığa belə əhəmiyyət verilməsi ondan irəli gəlir ki, dövlətin real gücü, sadəcə, or-

dusunun, elminin, iqtisadiyyatının inkişafı ilə deyil, həm də vətəndaşların ona olan münasibəti ilə müəyyənləşdirilir. Öz dövlətini sevən vətəndaşlar dövlətin dayağıdır və ölkədaxili sabitliyin təmin olunmasında onların mühüm rolu var. Bundan başqa, vətəndaş dövlətin, əgər belə demək mümkünsə, «insan kapitalını» təşkil edir. Bu kapitalın çoxsaylılığı, ictimai-siyasi həyatda aktivliyi dövlətin inkişafını şərtləndirən amillərdəndir.

§ 2 .Vətəndaşlığın əldə olunması və xitamı əsasları

Qeyd etdiyimiz kimi, vətəndaşlıq fərd doğulduğu anda yaransa da, onun dəyişdirilməsi mümkündür. Odur ki, qanunvericilikdə vətəndaşlığın yaranması və xitamı mexanizmini işə salan hüquqi faktlar əks olunur və vətəndaşlığın əldə edilmə üsulları müəyyənləşdirilir. Bir qayda olaraq, vətəndaşlıq fərdin öz istəyi, arzusu əsasında dəyişdirilə bilər. Bir sıra ölkələrdə vətəndaşlığın xitamı üçün hüquqi fakt rolunu hüquq pozuntusu oynayır. Məsələn, Böyük Britaniyada və Küveytdə törədilən cinayət şəxsin vətəndaşlıqdan məhrum edilməsi üçün əsas ola bilər.

Son illər vətəndaşlığın əldə edilməsi fərdlər üçün hüquq sayılır. Yəni artıq vətəndaşlığın verilməsi dövlət üçün diskresion səlahiyyət deyil. Şəxsə vətəndaşlığın verilməsindən imtina üçün əsaslar yoxdursa, dövlət bu vətəndaşlığı verməlidir. Vətəndaşlığın əldə edilməsinin əsas üsulları aşağıdakılardır:

1) **Filiasiya** - fərdin doğulduğu andan dərhal vətəndaşlıq əldə etməsinə deyilir.

2) **Naturalizasiya** - fərdin könüllü olaraq bir dövlətin vətəndaşlığını qəbul etməsinə deyilir.

3) **Optasiya** - fərdin bir neçə dövlətin vətəndaşlığından birini seçib qəbul etməsinə deyilir.

4) **Transfert** - dövlətlər arasında ərazi dəyişmələri zamanı və ya yeni dövlət yarandıqda müvafiq ərazidə olan əhalinin bütövlükdə yeni dövlətin vətəndaşlığını əldə etməsinə deyilir.

Bu üsulları, bir qayda olaraq, hüquqda müstəsna üsullar (optasiya və transfert) və adi üsullar adı altında (filiasiya və naturalizasiya) qruplaşdırırlar. Optasiya və transfert nadir hallarda təsadüf olunan və əsasən beynəlxalq hüquqda tətbiq olunan üsullardır. Naturalizasiya və filiasiya isə geniş yayılmışdır. Filiasiya üsulu ilə vətəndaşlığa qəbul üçün xüsusi prosedura müəyyənləşdirilməyib. Burada hüquqi fakt hər hansı hüquqi mexanizmi işə salmır, sadəcə, doğulma faktı özü vətəndaşlığın əmələ gəlməsi üçün kifayətdir. Naturalizasiya isə, əksinə, müəyyən şərtlər çərçivəsində və hüquqi proseduradan keçməklə realizə olunur. Naturalizasiyanın realizə qaydası və şərtləri ölkədən - ölkəyə fərqlənir. Optasiya üsulu ilə vətəndaşlığın əldə edilməsi üçün mütləq fərdin bir neçə vətəndaşlığa qəbul şansı olmalıdır ki, fərd bunlardan birini seçə bilsin. Transfert özünün kütləviliyi ilə fərqlənir və burada vətəndaşlığın əmələ gəlməsi üçün sadələşdirilmiş mexanizm vardır. Yeni dövlətin yaranması və ya ərazinin başqa dövlətə verilməsi vətəndaşlıq yaradır (xüsusi proseduradan keçmədən).

«Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» qanununda bu əsaslar müxtəlif formalarda nəzərdə tutulub. Qanunun 11-ci maddəsinə görə, vətəndaşlığın əldə edilməsi əsasları bunlardır:

1) Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulduqda (filiasiya);

2) Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edildikdə (naturalizasiya);

3)Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulan əsaslar olduqda (optasiya və transfert).

Azərbaycan Respublikasının vətəndaşlığına bu qanun qüvvəyə minənə qədər Azərbaycan Respublikasının vətəndaşı olan şəxslər, 1992-ci il yanvarın 1-dək Azərbaycan Respublikasının və ya başqa dövlətin vətəndaşı olmayan, lakin Azərbaycan Respublikasında yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər, 1988-ci il yanvarın 1-dən 1992-ci il yanvarın 1-dək Azərbaycan Respublikasının ərazisində məskunlaşmış qaçqınlar və qanunvericiliyə müvafiq surətdə Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş şəxslər mənsubdur. Qaçqınlar Azərbaycan Respublikasının vətəndaşı hesab olunsalar da, tərk etdikləri dövlətə qayıtmaq hüququnu itirmirlər.

Vətəndaşlığı təsdiq edən dövlət sənədlərinə aşağıdakılar aiddir:

1) Doğum haqqında şəhadətnamə;

2) Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi;

3) Azərbaycan Respublikası vətəndaşının pasportu.

Doğum haqqında şəhadətnamə vətəndaş doğulduqda müəyyən yaşa qədər müvəqqəti olaraq verilən sənəddir. Şəxsiyyət vəsiqəsi yalnız dövlət daxilində tətbiq edilir. Pasport isə əksinə, Azərbaycan Respublikasının hüdudlarından kənara çıxdıqda istifadə olunur və 3 kateqoriyaya ümumvətəndaş, xidməti, diplomatik pasporta bölünür.

Vətəndaşın müəyyən müddətə yaşamaq, işləmək və başqa məqsədlər üçün xaricə getməsi, xarici ölkədə nikaha daxil olması və ya nikaha xitam verilməsi onun vətəndaşlığının xitam olunmasına səbəb ola bilməz. Azərbaycan Respublikasının ərazisində vətəndaşlığı olmayan şəxslərdən doğulan uşaq və ya Azərbaycan Respublikasının ərazisində olan, lakin valideynləri naməlum olan uşaq da Azərbaycan Respublikasının vətəndaşı hesab olunur. Azərbaycan Respublikasının vətəndaşları naturalizasiya qaydasında vətəndaşlığa bərpa oluna bilərlər (repatriasiya).

«Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Qanuna görə (14-cü maddə), naturalizasiya olunmaq istəyən fərd Azərbaycan Respublikasının dövlət dilini bilməlidir; Azərbaycan Respublikasının ərazisində son beş il ərzində fasiləsiz olaraq qanuni əsaslarla yaşamalıdır; qanuni gəlir mənbəyi olmalıdır; Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət olunması barədə öhdəlik götürməlidir. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 20-ci bəndinə görə, vətəndaşlıq məsələlərini Prezident həll edir. Bunun üçün vətəndaşlıq məsələləri ilə bağlı komissiya fəaliyyət göstərir. Bu qanunun 14-cü maddəsinə görə, fərd konstitusion quruluşu zorla dəyişdirməyə, dövlətin ərazi bütövlüyünü pozmağa yönələn çağırışlarla, dövlət təhlükəsizliyinə, ictimai asayişin qorunmasına, əhalinin sağlamlığına və ya mənəviyyatına zərər vuran fəaliyyət göstərərsə, irqi, dini və milli müstəsnalığı təbliğ edərsə, terrorçuluq fəaliyyəti ilə əlaqəsi olarsa, ona Azərbaycan Respublikasının vətəndaşlığı verilmir.

Vətəndaşlıq fərdin özünün istəyi əsasında vətəndaşlığı itirdikdə, beynəlxalq müqavilələrdə nəzərdə tutulan qay-

dada xitam olunur. Vətəndaşlıqdan çıxmaq barədə vəsatət qaldıran şəxsin vəsatəti, əgər onun dövlət qarşısında icra edilməmiş öhdəlikləri, hüquqi və fiziki şəxslərin mənafeləri ilə bağlı olan əmlak öhdəlikləri varsa, rədd edilə bilər. Şəxs cinayət məsuliyyətinə cəlb edilibsə, şəxsin barəsində qüvəyyə minmiş və icra edilməli olan məhkəmə hökmü varsa və ya şəxsin vətəndaşlıqdan çıxması dövlət təhlükəsizliyi mənafelərinə ziddirsə, bu hallar aradan qalxana qədər vətəndaşlıqdan çıxmağa yol verilmir. Əgər şəxs vətəndaşlığı əldə edərkən zəruri məlumatları qəsdən saxtalaşdırmışsa, yaxud saxta sənəd təqdim etmişdirsə, o, əldə etdiyi Azərbaycan Respublikasının vətəndaşlığını itirir. Şəxs vətəndaşlığa qəbul olunduqda və çıxdıqda dövlət rüsumu ödəyir.

Qanun həm də valideynlərin hüquqi statusundan (vətəndaş, əcnəbilər və vətəndaşlığı olmayan şəxs), uşaqlarla valideynlər arasındakı münasibətlərdən (övladlığa götürülən, doğma) çıxış edərək valideynlərin vətəndaşlığı dəyişdikdə uşaqların da vətəndaşlığı məsələsini həll edir. 14 yaşından 18 yaşınadək uşaqların vətəndaşlığı ancaq onların razılığı ilə dəyişdirilə bilər. 14 yaşına çatmamış uşaqların vətəndaşlığı qanuna əsasən həll edilir. Valideynlər Azərbaycan Respublikasının vətəndaşlığını qəbul etdikdə uşaqları da Azərbaycan Respublikasının vətəndaşlığını qəbul edir. Ancaq bir valideyn məlumdursa və o da Azərbaycan Respublikasının vətəndaşlığını qəbul edərsə, onların uşaqları da Azərbaycan Respublikasının vətəndaşlığını əldə edir. Əgər valideyn Azərbaycan Respublikasının vətəndaşlığından çıxarsa və üzərində qəyyumluq müəyyən edilmiş uşağının böyüdülməsində iştirak etmirsə, bu zaman onun uşağı qəyyum və ya himayəçinin vəsatəti ilə vətəndaşlığı saxlayır. Valideynlərdən

yalnız biri Azərbaycan Respublikasının vətəndaşlığını əldə edərsə, bu zaman əcnəbi valideynin razılığı ilə uşaq Azərbaycan Respublikasının vətəndaşlığını əldə edə bilər. Əgər digər valideyn vətəndaşlığı olmayan şəxsdirsə, uşaq Azərbaycan Respublikasının vətəndaşlığını əldə edir. Valideynlərdən yalnız biri Azərbaycan Respublikasının vətəndaşlığından çıxırsa, uşaq Azərbaycan Respublikasının vətəndaşlığını saxlayır. Vətəndaşlıqdan çıxan valideyn vətəndaşlıqda qalan valideynin razılığı ilə uşağın vətəndaşlığını dəyişə bilər. Azərbaycan Respublikasının vətəndaşı əcnəbi uşağını övladlığa götürərsə, uşaq Azərbaycan Respublikasının vətəndaşlığını qəbul edir. Əgər valideynlərdən biri vətəndaşlığı olmayan şəxsdirsə, uşaq bu halda da Azərbaycan Respublikasının vətəndaşlığını əldə edir. Əgər valideynlərdən biri əcnəbidirsə, bu zaman övladlığa götürülən uşaq əcnəbi valideynin razılığı ilə Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilir. Əgər uşaq vətəndaşlığı olmayan şəxsdirsə və valideynlərindən də biri vətəndaşlığı olmayan şəxsdirsə, onda uşaq Azərbaycan Respublikasının vətəndaşı olur. Övladlığa götürülən uşağın vətəndaşlığı yoxdursa, valideynlərdən də biri əcnəbidirsə, bu zaman uşaq əcnəbi valideynin razılığı ilə Azərbaycan Respublikasının vətəndaşı ola bilər. Əgər uşağı övladlığa götürən hər iki valideyn əcnəbidirsə, uşağın vətəndaşlığına onların vəsatəti əsasında xitam verilir. Azərbaycan Respublikasının vətəndaşı olan uşağı övladlığa götürən valideynlərin yalnız biri əcnəbidirsə, bu zaman uşaq Azərbaycan Respublikasının vətəndaşlığını saxlayır. Övladlığa götürənlərin vəsatəti ilə uşaq Azərbaycan Respublikasının vətəndaşlığından çıxa bilər. Azərbaycan Respublikasının vətəndaşı olan uşağı övladlığa götürən valideynlərdən hər ikisi və-

təndaşlığı olmayan şəxsdirsə, yaxud biri Azərbaycan Respublikasının vətəndaşı, digəri isə vətəndaşlığı olmayan şəxsdirsə, uşaq Azərbaycan Respublikasının vətəndaşlığını saxlayır.

Əgər qanunla Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr arasında ziddiyyət yaranarsa, bu zaman beynəlxalq müqavilələr tətbiq edilir. Göründüyü kimi, qanun şəxsin vətəndaşlıqda qalmasını maksimum təmin etməyə çalışır. Bu da onunla bağlıdır ki, qanun şəxsin mənafeyini müdafiə etməyə borcludur və vətəndaş dövlət üçün böyük əhəmiyyətə malikdir.

§ 3. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi statusu

Dövlətin ərazisində yalnız həmin ölkənin vətəndaşları yaşamır. Müxtəlif məqsədlərlə başqa-başqa ölkələrin vətəndaşları xarici dövlətdə yaşayır və fəaliyyət göstərirlər. Bəzən bu şəxslərin fəaliyyəti dövlətə və cəmiyyətə əsaslı dərəcədə təsir edəcək imkanlara malik olur. Bir ölkənin hüquqi, fiziki şəxsləri, adətən digər dövlətin iqtisadiyyatında, ictimai həyatında mühüm yer tuta bilər. Əcnəbilərin gətirdiyi mədəniyyət, davranış tərzi, əxlaq, din yerli əhaliyə təsir edir və müəyyən dəyişikliklərə səbəb olur. Hazırda dünya ölkələrinin iqtisadiyyatında, mədəniyyətində və digər sahələrdə geniş inteqrasiya prosesi gedir. Deməli, burada insan faktoru əsas yer tutur. Buna görə də konstitusiya hüququnda həm də əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin hüquqi statusu tənzimlənir. Qeyri-vətəndaş anlayışı özündə iki qrup fərdləri əhatə edir. Buraya xaricilər və ya əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və ya apatridlər daxildir. Hüquqda bu məfhumların hamısı «əcnəbilər və vətəndaşlığı olmayan

şəxslər» söz birləşmələri ilə ehtiva edilir. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin hüquqi statusunun əsasları Azərbaycan Respublikası Konstitusiyasının 69-cu və 70-ci maddələrində nəzərdə tutulub. Konstitusiyanın 69-cu maddəsində əcnəbilərə dair göstərilir ki, onlar qanunla və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri də yerinə yetirməlidirlər. Onların hüquq və vəzifələri yalnız beynəlxalq hüquq normalarında nəzərdə tutulan qaydada məhdudlaşdırıla bilər. Əcnəbilərlə bağlı üç hüquqi rejim mövcuddur: liberal rejim, xüsusi rejim, milli rejim. Liberal hüquqi rejimdə dövlət əcnəbilərə öz vətəndaşlarına görə daha çox imkanlar verir. Xüsusi rejimdə əcnəbilərin imkanları vətəndaşların imkanlarından məhdud olur. Milli rejimdə isə əcnəbilərin hüquqi vəziyyəti bəzi istisnalarla vətəndaşların hüquqi statusuna bərabərləşdirilir. Azərbaycan Respublikasında milli rejim qüvvədədir.

Siyasi sığınacaq hüququ da yalnız əcnəbilərlə əlaqədar nəzərdə tutulub. Siyasi sığınacaq hüququ ancaq beynəlxalq hüquq normalarına uyğun həyata keçirilir. Siyasi sığınacaq hüququna müvafiq olaraq, siyasi əqidəsinə, habelə Azərbaycan Respublikasında cinayət sayılmayan əmələ görə təqib edilən şəxslərin başqa dövlətə verilməsinə yol verilmir.

Əcnəbilərə tətbiq edilən bütün hüquqlar və məhdudiyyətlər vətəndaşlığı olmayan şəxslərə də şamil edilir. Vətəndaşlığı olmayan şəxslər, bir qayda olaraq, başqa dövlətin vətəndaşı olmayan və Azərbaycan Respublikasının vətəndaşı olması ilə bağlı sübutları olmayan şəxslərdir. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsi

insanların bərabərliyini müəyyən edir. Əgər qadınla kişi öz ölkələrinin qanunvericiliyinə görə qeyri-bərabərdirlərsə, Azərbaycan Respublikasında olduqları müddət ərzində bu aradan qalxacaqdır. «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında» 13 mart 1996-cı il tarixli qanuna görə, əcnəbilər hansı dövlətin vətəndaşı olmasından asılı olmayaraq, Azərbaycan Respublikasında bərabərdirlər. Onlara verilən hüquqlardan Azərbaycan Respublikasının mənafeyinə zidd olmayacaq şəkildə istifadə etməlidirlər. Qanunvericilkdə əcnəbilər «Azərbaycan Respublikasının ərazisində daimi yaşayan» və «Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşayan» adı altında iki qrupa bölünürlər. Ancaq şəxsin hər hansı kateqoriyaya aid edilməsi Azərbaycan Respublikasının ərazisində nə qədər yaşama müddəti ilə deyil, Azərbaycan Respublikası ilə qarşılıqlı əlaqələrinin intensivliyi ilə müəyyənləşdirilir. Qanunda Azərbaycan Respublikası ərazisində daimi yaşayan əcnəbilərin əmək fəaliyyəti ilə bağlı hüquqları, mənzil hüququ, tibbi yardım və təhsil hüququ daimi yaşamayan əcnəbilərdən fərqli olaraq, Azərbaycan Respublikasının vətəndaşlarının hüquqlarına bərabər tutulur. Mülki Məcəllənin 9-cu maddəsinə görə, qanunda başqa hal nəzərdə tutulmayıbsa, onun müddəaları əcnəbilərə də tətbiq edilir. Qanunvericilik, bir qayda olaraq, müəyyən edilən qaydaların qarşılıqlı olmasını, yəni başqa ölkədə də bizim vətəndaşalara qarşı eyni qaydaların müəyyənləşdirilməsini tələb etmir. Ancaq bu ümumi qaydadan istisnalar vardır. Belə ki, 6 iyun 2000-ci il tarixli «Beynəlxalq xüsusi hüquq haqqında» qanunun 7-ci maddəsinə görə, əgər Azərbaycan Respublikasının xaricdəki vətəndaşlarına retorsiya (xüsusi məhdudiyyətlər) müəyyən edilərsə, həmin ölkənin vətəndaşlarına mü-

nasibətdə Azərbaycan Respublikasında müvafiq icra hakimiyyəti orqanı tərəfindən retorsiya müəyyən edilə bilər. Əcnəbilər Azərbaycan Respublikasında təhsil hüququna, daimi yaşayırlarsa, sosial təminat hüququna, ödənişsiz təhsil hüququna, mənzil hüququna (mənzilin mülkiyyətindən asılı olmayaraq) malikdirlər. Əcnəbilərin əmək fəaliyyəti ilə məşğul olmaları xüsusi qaydada nizamlanır ki, bu da Azərbaycan Respublikasında sahibkarlıqla məşğul olan şəxslərə şamil edilmir. Onlar prosessual hüquqlardan maneəsiz istifadə edirlər. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə bir sıra məhdudiyyətlər də müəyyənləşdirilib. Belə ki, onlar Azərbaycanda hərbi xidmətə çağırıla bilməzlər. Siyasi fəaliyyətlə, dini təbliğatla da məşğul olmaq onlara qadağan edilib. Onlar siyasi hüquq və azadlıqlardan bir qayda olaraq istifadə etmirlər. Əcnəbilər hakim, prokuror, notarius və s. bir sıra vəzifələrdə işləyə bilməzlər. 8 dekabr 1999-cu il tarixli «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» Azərbaycan Respublikası Qanunun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə» qanuna görə, əcnəbilərin xüsusi qeydiyyat qaydası nəzərdə tutulur. Bu şəxslərə qeydiyyat vəsiqəsi verilir və əgər əcnəbi Azərbaycan Respublikasında bir aydan artıq müddətə qalacaqsa, bu zaman ona mənzil sahəsi verən vətəndaşın ərizəsi də tələb olunur (qeydiyyat üçün).

Siyasi sığınacaq hüququ vətənində özünün siyasi baxışlarına və ya dini əqidəsinə görə təqib olunan şəxslərə verilir. Qeyd etmək lazımdır ki, siyasi sığıncağın hüquq kimi nəzərdə tutulmasına baxmayaraq, bu məsələ diskresion qaydada dövlət tərəfindən həll edilir. Sığınacaq hüququ «İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 14-cü maddəsində də əks olunub. Siyasi sığınacaq veril-

məsi məsələləri 1967-ci il tarixli «Territorial sığınacaq haqqında Deklarasiya» ilə tənzimlənir. Azərbaycan Respublikasının ərazisində sığınacaq almaqla Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlik və konsulluqlarında sığınacaq almanı fərqləndirmək lazımdır. Baxmayaraq ki, dövlətin konsulluğu, səfirliyi onun ərazisi sayılır və diplomatik immunitetə malikdir, 1961-ci il tarixli «Dipolmatik əlaqələr haqqında Vyana Konvensiyası»nın 41-ci maddəsinə görə, diplomatik nümayəndəliklərin qeyri-təmsilçilik məqsədlər üçün istifadə edilməsi yolverilməzdir. Siyasi sığınacaq hüququndan sui-istifadə edilməməsi üçün ona müxtəlif məhdudiyyətlər qoyulmuşdur. BMT-nin Nizamnaməsində nəzərdə tutulmuş məqsəd və prinsiplər əleyhinə siyasi cinayətlər törətmiş şəxslərə siyasi sığınacaq hüququ verilmir. Bu hüquq terror aktları törədən, irqi-ayrıseçkilik (aparteid) çıxışları edən, ictimai qaydanı pozan və əhalinin sağlamlığı, mənəviyyatı üçün təhlükəli olan şəxslərə şamil edilmir. Siyasi sığınacaq almış şəxslərlə bağlı «non-refoulement» prinsipi əsas götürülür ki, bu prinsipə görə də siyasi sığınacaq almış şəxs ərazisində onu təhlükə gözləyən dövlətə qaytarıla bilməz. Ölkə ərazisini qanunsuz tərk etmiş şəxslərə münasibətdə (əgər siyasi sığınacaq üçün əsas yoxdursa) immiqrasiyanı nəzarətdə saxlamaq məqsədilə bu prinsip şamil edilmir. Belə şəxslər dərhal öz ölkələrinə qaytarılır. Ancaq bunu deportasiyadan fərqləndirmək lazımdır. Azərbaycan Respublikasının inzibati xətalarla bağlı məsələləri tənzimləyən qanunvericiliyində deportasiya əcnəbilərə münasibətdə tənbeh tədbiri kimi nəzərdə tutulur. Azərbaycan Respublikasında deportasiya üçün əsas dövlət təhlükəsizliyi və hüquq qaydasının pozulması, əcnəbilərin hüquqi vəziyyəti ilə bağlı qanunvericiliyin kobud şəkildə pozulma-

sıdır. Siyasi sığınacaq almış şəxsləri qaçqınlardan da fərqləndirmək lazımdır. 1951-ci il tarixli «Qaçqınların statusu haqqında Konvensiya» və 1967-ci il tarixli «Qaçqınların statusu haqqında protokol»a görə, qaçqınlar aşağıdakı xüsusiyyətlərə malikdirlər:

1) öz ölkələrindən kənarda yerləşirlər;

2) öz ölkələrinə qayıtmaq və ya onun müdafiəsindən istifadə etmək istəmirlər;

3) bu imtinanın səbəbi öz ölkələrində onları gözləyən təqib və təhlükə ilə bağlıdır;

4) onların öz ölkələrində təqibi dini, irqi, milli ayrıseçkilik səbəbindəndir.

21 may 1999-cu il tarixli «Qaçqınların və məcburi köçkünlərin hüquqi statusu haqqında» Azərbaycan Respublikası Qanununa görə, yuxarıda göstərilən əsaslar olduqda, hətta şəxs Azərbaycan Respublikasının ərazisinə qeyri-qanuni gələrsə belə, mümkün qədər tez daxili işlər orqanlarına müraciət etdiyi təqdirdə məsuliyyətdən (sərhəd qaydalarını pozduğuna görə) azad edilir. Qanun qaçqınların statusu məsələsi həll edilənə qədər onların başqa dövlətə verilməsini qadağan edir. Şəxs qaçqın statusundan yalnız məhkəmənin qərarı ilə məhrum edilə bilər (qanunda göstərilən əsaslar üzrə) və ancaq bu zaman deportasiya edilməsi mümkündür. Şəxs törətdiyi hər bir əmələ görə xarici dövlətə verilə bilməz. BMT-nin 45-ci sessiyasında (14 dekabr 1990-cı il) səs vermədən qəbul olunmuş «Ekstradisiya haqqında nümunəvi-tipik müqavilə»də hansı əməllərə görə dövlətlərin cinayət törətmiş şəxsləri biri-birinə verməsinin mümkünlüyü aydın göstərilir. Buraya, əsasən, hər iki ölkənin qanunvericiliyi ilə cəzaladırılmalı olan və iki ildən az olmayan müddətə azadlıqdan məhrumetmə cəzası tətbiq olunan cinayətlər aiddir. Artıq

cəzasını çəkməkdə olan şəxslərin başqa dövlətə verilməsinə yalnız o hallarda yol verilir ki, şəxsin cəza müddətinin qurtarmasına 4-6 aydan çox qalmamış olsun. Əgər şəxs siyasi fikrinə, əqidəsinə görə təqsirləndirilirsə, onun başqa dövlətə verilməsi qeyri-mümkündür. Nümunəvi müqavilədə ekstradisiyadan imtinanın aşağıdakı başqa halları göstərilir:

1) Əgər sorğu verilən dövlətdə şəxsin irqi, etnik, siyasi baxışlarına görə təqib olunması ilə bağlı əsaslı dəlillər varsa;

2) Əgər tələb olunan şəxs tələb edən dövlətdə qəddar, yolverilməz işgəncələrə məruz qalmışsa, cəza kimi şərəf və ləyaqəti alçaldan üsullar tətbiq edilmişsə və ya cinayət prosesində «Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt»ın 14-cü maddəsində nəzərdə tutulan heç bir hüququna təminat verilməmişdirsə.

VI BÖLMƏ
SEÇKİ SİSTEMİ

§ 1. Sosial-siyasi mahiyyəti

Seçki sistemi hər bir sivil ölkədə konstitusiya hüququnun ən əsas institutlarından biridir. Dünyanın müxtəlif ölkələri bu sistemə xüsusi diqqət yetirirlər. Seçki sistemi nəinki hüquqi əhəmiyyətə malikdir, həm də hakimiyyətin formalaşdırılmasına birbaşa aidiyyəti olduğundan, bir siyasi institutdur və siyasi əhəmiyyətə malidkir. Seçkinin bir institut kimi sistem adlandırılması da təsadüfi deyil. O, sistemin bütün əlamətlərinə malikdir və digər sistemlərlə üzvi əlaqədədir. O da sistem kimi müxtəlif ünsürlərdən (elementlərdən, subyektlərdən, subyektlərarası münasibətlərdən, bu münasibətlərlə bağlı dəyərlərdən və s.) təşkil olunub və bu ünsürlər arasında sabit, qırılmaz əlaqə mövcuddur. Bütün sistemlər kimi, seçki sistemində də hər hansı bir ünsürə, elementə edilən təsir rezonans kimi sistemin digər bütün ünsürlərinə yayılır. Başqa sözlə, seçki sisteminin subyektlərində sosial-psixoloji dəyişikliyin baş verməsi, dərhal başqa ünsürlərə-dəyərlərə təsir edəcək. Subyektlərin (insanların) tərkibində liberal-demokratik baxışlı şəxslərin çoxalması dəyərlərə də təsir edəcək (seçkilərə həqiqi və sivil hakimiyyətin əldə olunması üsulu kimi baxılsa) və bütövlükdə seçki sisteminin əhəmiyyətini artıracaqdır.

Seçki sistemi sosial-siyasi aspektdə hamı tərəfindən razılaşdırılmış və riayət olunduqda hamı üçün məcburi nəticələr doğuran qaydaların məcmusudur. Seçki sistemi hakimiyyətin əldə edilməsinin yeganə sivil vasitəsidir, siyasi mədəniyyət yoludur. Bu yolun dəyəri onun formallığında-

dır. Hamı tərəfindən razılaşdırılmış oyun qaydalarına riayət edilməsi (seçkilərin düzgün keçirilməsi) nəticəsində seçkilərin nəticələri ümumməcburi sayılır. Seçki sistemi istənilən sosial qrupa, təbəqəyə hakimiyyət uğrunda mübarizəsini realizə etməyə və qalib gələrsə, onu əldə edəcəyinə təminat verən açıq sistemdir. Cəmiyyətin və dövlətin müəyyən etdiyi istənilən subyekt təşkilatlanmaqla (siyasi partiyalar, partiya blokları) seçkilərdə hakimiyyət uğrunda mübarizədə iştirak edə bilər. Seçkilərin son məqsədi dövlət hakimiyyətini əldə etmək və onu təşkil etməkdir. Kökü Fransa maarifçiliyinə gedib çıxan xalq suverenliyi nəzəriyyəsinə görə hakimiyyətin yeganə mənbəyi xalqdır. Seçkilər xalq hakimiyyətinin birbaşa təzahürünün hüquqi formasıdır. Seçkilərdə qalib gələn subyekt xalqdan könüllü şəkildə hakimiyyəti realizə etmək üçün alır. Seçkilər dövlət hakimiyyətinin legitimləşdirilməsinin formal əsasıdır. Seçkilərdə xalqın səsini qazananlar qalib olurlar. Deməli, xalq onları seçib və onlardan başqa heç kimin dövlət hakimiyyətini təşkil etməyə haqqı yoxdur. Dövlət hakimiyyətinə münasibətdə seçkilər formalaşdırıcı əsas kimi çıxış edir. Seçkilərin açıq sistem olması, yəni cəmiyyətin müəyyən qrup və şəxsləri üçün deyil, qoyulan şərtləri ödəyən istənilən subyektin iştirakı üçün imkan yaradılması nəinki hakimiyyəti gücləndirən amil kimi seçkinin əhəmiyyətini artırır, həm də hakimiyyətin formalaşdırılması zəminində əmələ gələcək sosial ziddiyyətləri aradan qaldırır. Seçkilər bu əsasla da cəmiyyətdə hakimiyyət iddiasında olan qrupların mənafeyini qismən konsolidasiya, ehtiva edir və hakimiyyət uğrunda gedən cəmiyyətdaxili mübarizəni yeganə düzgün məcraya salır, bu mübarizədəki tendensiyaları üzə çıxarır.

§ 2. Hüquqi mahiyyəti

Seçkilərin əhəmiyyəti cəmiyyət üçün kifayət qədər böyükdür. Burada konkret şəxslərin deyil, bütün cəmiyyətin mənafeyindən söhbət gedir. Buna görə də seçki sistemi ümumi hüquq sahələrinin bir institutudur. Hakimiyyətin təşkili və realizə edilməsi, onunla cəmiyyət, şəxsiyyət və müxtəlif növ kollektivlər arasında olan ən əsas münasibətlər konstitusiya hüququ ilə nizamlandığına görə bu institut da konstitusiya hüququ ilə nizama salınır. İstənilən hüquqi məsələ bu və ya digər dərəcədə normativlik problemlərinə toxunur. Seçki sisteminin də hüquqi mahiyyətindən danışarkən o, normativlik aspektində araşdırılmalıdır. Seçki sistemi dövlət tərəfindən müəyyən edilmiş, dövlət hakimiyyətinin ilkin təşkilinin, formalaşdırılmasının hamı üçün məcburi olan mexanizmi, qaydasıdır. İstər-istəməz belə bir sual meydana çıxır: bəs niyə ilkin təşkilinin? Ona görə ki, dövlət hakimiyyəti yalnız seçkilərdə təşkil olunmur. Yerlərə icra hakimiyyəti başçısının təyini də müəyyən mənada hakimiyyətin təşkilidir. Dövlət orqanlarının yaradılması və digər orqanlarla qarşılıqlı əlaqələrinin müəyyən edilməsi də hakimiyyətin təşkilidir. Ancaq bu artıq hakimiyyətin ilkin deyil, bir növ sonrakı təşkilidir. Dövlət hakimiyyətinin təşkili ardıkəsilməz hüquqi-siyasi prosesdir. Seçkilər bu təşkilatlanmanın ən əsas parametrlərini və hakimiyyəti həyata keçirəcək sosial qüvvələri, onların təşkilatını (siyasi partiyaları) müəyyən edir. Yerdə qalan nisbətən ikinci dərəcəli təşkilati məsələlər artıq arasıkəsilməz və inkişaf edən proses kimi dövlət quruculuğunda həyata keçirilir. Seçkilərdə hakimiyyətin təşkili əsasdır, çünki məhz seçkilərdə qalib gələn siyasi qüvvələrin ideyası, proqramı sonradan hakimiyyət

orqanlarının bilavasitə mərkəzdə və yerlərdə necə təşkilatlanacağını, onların qarşılıqlı münasibətlərini müəyyən edir. Hüquqi institut kimi seçkilərin yüksək dərəcədə formalaşdırılması, ən kiçik təfərrüatlarına qədər dövlət müdaxiləsi (normalarla bütün təfərrüatların nəzərə alınması) çoxsaylı qanunqüvvəli aktların olması ilə fərqlənir. Seçki sistemi hüquqi institut kimi həm maddi, həm də sözün geniş mənasında prosessual institutdur. Seçki sistemi biri-birindən dəqiq və kəskin fərqləndirilən nisbi-müstəqil mərhələlər şəklində qurulur və həyata keçirilir. Bu mərhələlərdən hər hansı birinin düzgün realizə olunmaması bütövlükdə seçkilərə mənfi təsir edir, bir çox hallarda isə onun nəticələrinin ləğvinə gətirib çıxarır. Seçki sistemi insanların dövlət hakimiyyətini təşkil etməkdə real iştirakına imkan verən və dövlətin qəbul etdiyi yeganə hüquqi mexanizmdir. Bu mexanizmin əsası, nüvəsi vətəndaşların Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsində əks olunan seçki hüququdur. Bütün seçki sistemi bu hüqüqun realizə edilməsinə yönəlib və bu hüquq olmadan seçki sistemi əsassızdır. Seçki sistemi ümumilikdə xalqın hakimiyyəti formalaşdırmasının hüquqi təzahürü olsa da, bu sistem, ümumiyyətlə, mücərrəd xalq, millət anlayışları ilə işləmir. Cəmiyyət fərdlərdən ibarət olduğuna görə seçki hüququ da hər bir konkret seçiciyə yönəlib. Seçkilərdə iştirak etməklə vətəndaş özünün siyasi marağını cəmiyyətin qəbul etdiyi formada realizə edir. Ən əhəmiyyətlisi isə budur ki, marağın bu cür realizəsi digər şəxslərin, çoxluğun maraqları ilə üst-üstə düşdükdə lazım olan nəticə verir. Seçki sistemi cəmiyyətin və dövlətin fərdə verdiyi və öz siyasi marağını realizə etməyin üsulu, prosedurasıdır. Əlbəttə, yalnız seçkidə səs verməklə şəxsin siyasi maraqları, dövlət orqanlarının işində maraq-

lılığı bitmir. Daha çox iddialı olanlar başqa vasitədən - siyasi fəaliyyətdən istifadə edə bilərlər. Seçki hüququ cəmiyyət üzvünə, fərdə verilən və öz marağını realizə etmənin minimum həddidir. Nəzərə alsaq ki, heç də cəmiyyətin bütün üzvləri siyasətlə maraqlanmırlar və onda aktiv iştirak etmirlər, həmçinin bir çoxunun intellektual - psixoloji səviyyəsi siyasi proseslərə çox dumanlı və qeyri-dəqiq reaksiya verməni şərtləndirir, onda seçki hüququnu ən optimal minimum kimi qəbul etmək olar. Əksəriyyətin siyasi marağı, sadəcə, rəğbəti olan siyasi qüvvəni hakimiyyətdə görməkdən ibarətdir. Seçki sistemi bu minimum marağı realizə etmənin mexanizmidir.

Seçki sisteminin əsasları həmişə konstitusiyalarda təsbitlənir. Bütün başqa məsələlər digər qanunvericilik aktlarında nəzərdə tutulur. Seçki sistemi cəmiyyətdəki siyasi ab-havaya ən həssas olan sistemdir. Onun əsasları (konstitusiya səviyyəsində) dəyişməsə də, bu əsasların realizəsi bəzən hakimiyyətə yeni qüvvənin gəlməsi ilə dəyişilir və arzuolunan şəklə salınır.

Bu baxımdan seçki sisteminin funksiyalarının xüsusi əhəmiyyəti vardır. Funksiya hüquqda, ümumiyyətlə, fəaliyyətin əsas istiqamətləri kimi başa düşülür. Seçki sisteminin funksiyaları, onun izlədiyi məqsəd, realizə edilməsi zamanı dominantlıq, öncüllük təşkil edən istiqamətlərdir. Seçki sistemi aşağıdakı funksiyalara malikdir:

1) Hakimiyyətin formalaşdırılmasının və legitimləşdirilməsinin formal-hüquqi əsası kimi çıxış edir;

2) Siyasi qüvvələrin ölkənin inkişafında irəli sürdükləri proqramları və siyasi əhval-ruhiyyəni aşkara çıxarır;

3) Xalqa bilavasitə dövlət hakimiyyətinə təsir etmək imkanı verir.

§ 3. Seçki sistemi anlayışı və prinsipləri

«Seçki sistemi» anlayışı ikili məna daşıyır. Buna görə də onu həm dar mənada seçki sistemi, həm də geniş mənada seçki sistemi kimi tədqiq edirlər. Geniş mənada seçki sistemi hər hansı bir ölkədə seçkilərin hazırlanması və keçirilməsi mexanizmini bildirir və həmin ölkədə seçkilərin keçirilməsi zamanı yaranan hüquq münasibətlərinin məcmusundan ibarət olur. Bu baxımdan hər bir ölkənin müxtəlif qanunlarla tənzimlənən öz seçki sistemi vardır. Dar mənada seçki sistemi dedikdə isə seçkidə qazanılmış səslərə müvafiq olaraq mandatların namizədlər arasında bölünməsi qaydası, üsulu anlaşılır. Bu mənada iki əsas və bir neçə əlavə seçki sistemləri vardır. Dünyanın bir çox ölkələrində dar mənada seçki sistemi müxtəlif konfiqurasiyalarla biri-birini təkrarlayır.

Seçki qanunvericiliyi hər ölkənin konstitusiyasından, qanunlarından və digər nomativ hüquqi aktlarından ibarətdir. Konstitusiyalarda, adətən, seçki sisteminin ən əsas əlamətləri, parametrləri müəyyən edilir. Qanunlar isə öz növbəsində bu parametrlərin realizəsi yollarını, formalarını və qaydalarını tənzimləyən ən mürəkkəb və eyni zamanda ən bəsit normaları müəyyən edir. Seçki sisteminin ən əsas problemləri də elə qanunvericilik səviyyəsində həll olunur. Ancaq bilavasitə realizə zamanı seçki sisteminin bir çox problemləri yaranır ki, bunlar da, adətən, idarəçilik xarakterli məsələlər olduğundan qanunlar vasitəsi ilə deyil, digər normativ hüquqi aktlar səviyyəsində səlahiyyətli orqanlar tərəfindən həll olunur. Seçki qanunvericiliyinin özünə daxili iyerarxiya xasdır. Qanunlar konstitusiyaya, digər normativ hüquqi aktlar isə hər ikisinə uyğun gəlməlidir. Hər bir ölkədə seçki sistemi həmin

ölkənin siyasi rejiminə, onun demokratikliyi səviyyəsinə uyğun olaraq qurulur. Bu da ondan irəli gəlir ki, seçki sistemi birbaşa hakimiyyətlə, siyasətlə bağlıdır. Seçki sistemi elə siyasətlə bağlı olduğuna görədir ki, konstitusiya səviyyəsində müəyyənləşdirilmiş əsaslar istisna olmaqla, seçkilərlə bağlı cari qanunvericilik dinamikdir və tez-tez dəyişir. Seçkinin sistemliliyi ondan irəli gəlir ki, bu mexanizmin daxili ünsürləri biri-biri ilə sıx şəkildə bağlıdır və onlardan birinin dəyişməsi, sadəcə, seçkinin özünə deyil, seçki əsasında formalaşdırılan dövlət orqanlarına, onların fəaliyyətinə belə təsir edir. Məsələn, prezidentin dolayı yolla seçilməsi onu birbaşa xalqdan mandat almaqdan və beləliklə, qanunverici hakimiyyətə qarşı duran güclü orqan olmaqdan məhrum edir. Qanunverici hakimiyyətin majoritar sistem əsasında formalaşdırılması siyasi partiyaların fəaliyyətini seçki sistemində nisbətən arxa plana keçirir və konkret aktiv fərdləri irəli çəkir. Bir neçə seçicinin bir neçə səsə malik olması mütləq digərlərində də bir neçə səsin olmasını tələb edir, çünki əks təqdirdə seçki demokratik olmayacaqdır. Seçki mərhələlərindən birinin düzgün keçirilməməsi və ya nədəsə sui-istifadə halları sonrakı mərhələlərdə mütləq özünü büruzə verməlidir. Təbliğat zamanı sui-istifadə səsverməyə birbaşa təsir göstərəcəkdir. Səslərin düzgün hesablanmaması ikinci (bəzən üçüncü) tur mexanizmini işə salacaqdır və s.

Seçki sistemində bir tərəfdə dövlət, digər tərəfdə isə xalq durur. Lakin konkret olaraq seçki sistemində bu, dövlət orqanları və vətəndaşlar arasındakı münasibətlər kimi təzahür edir. Seçki sistemi elə bir mexanizmdir ki, bu zaman fərdlərin iradə təzahürü dövlət üçün məcburi nəticələr doğurur. Vətəndaş burada hansı siyasi qüvvənin hakimiyyəti formalaşdırmasını arzuladığını bildirir, dövlət

isə öz taleyini həmin siyasi qüvvələrə tapşırır. Konkret seçki münasibətlərində vətəndaş, dövlət orqanları iştirak edir. Bu münasibətlərdə vətəndaşın hüququ səsvermədə iştirak etmək, dövlət orqanlarının vəzifəsi isə bu iştirakı təmin etməkdir. Vətəndaş seçki qanunvericiliyi ilə üzərinə qoyulmuş vəzifələrə riyaət etməlidir. Seçki sistemini təşkil edən münasibətlər özünün yüksək dərəcədə formallaşdırılması (qanunda dəqiq nəzərdə tutulması), ayrı-ayrı mərhələlərdə subyektlərin bu mexanizmdə rolunun, işinin dəyişməsi ilə də xarakterizə olunur. Məsələn, səsvermə prosesində əsas rol vətəndaşlara məxsusdur. Dövlət orqanlarının rolu burada səsvərməni təmin etməkdən ibarətdir (asayişi qorumaq, səsvermənin qeydiyyatı və uçotunu aparmaq və s.). Bundan fərqli olaraq, səslərin hesablanması zamanı aktivlik dövlət orqanlarının əlinə keçir. Təbliğat prosesində isə siyasi qüvvələr xüsusilə aktivlik göstərirlər. Bütün bunların nəticəsində seçki sistemi dinamik və mürəkkəb bir sistemə çevrilir. Seçki sistemi siyasi qüvvələrlə birbaşa bağlı olsa da, dövlət siyasətin seçkilərin gedişinə təsirini mümkün qədər neytrallaşdırmağa çalışır və bunun üçün ən müxtəlif vasitələrdən istifadə edir (seçki orqanları üzvlərinin neytrallığından tutmuş bu orqanların tərkibində siyasi qüvvələrin bərabər təmsil olunmasına qədər bir çox vasitələr).

Seçkidə, səsvermədə iştirak edən şəxslərin məcmusu - elektorat adlanır. Elektorat - əhalinin seçkilərdə iştirak etmək imkanına malik olan, bu və ya digər siyasi qüvvəyə münasibətini ifadə edə bilən hissəsidir. Elektoratın seçkilərdə iştirakına və qeydiyyatına görə üç növü vardır:

1) *Potensial elektorat* – seçkilərdə iştirak etmək hüququna malik olan, seçkilərdə iştirak etməsindən asılı ol-

mayaraq qanunla müəyyən edilən şərtləri ödəyən bütün şəxslərin məcmusu;

2) *Hüquqi (yuridik) elektorat* - seçici kimi dövlət orqanları tərəfindən qeydiyyata alınmış (seçici siyahılarına daxil edilmiş) şəxslərin məcmusu;

3) *Faktiki elktorat* - seçkilərdə gəlib iştirak etmiş, səs vermiş şəxslərin məcmusu.

Bir qayda olaraq, bunlar heç vaxt üst-üstə düşmür və həmişə müvafiq sıra üzrə biri digərindən azsaylı olur.

Hər bir dövlətdə müxtəlif orqanlar, sosial təsisatlar seçkilərlə formalaşdırılır. Ali dövlət orqanları və yerli özünüidarəetmə orqanları da bir qayda olaraq, seçkilərlə yaradılır. Azərbaycan Respublikasında da belədir. Azərbaycan Respublikasında seçkilər yolu ilə qanunverici orqan, ali icra hakimiyyəti başçısı - prezident, yerli özünüidarəetmə orqanları formalaşdırılır. Hər üç orqanın seçkiləri özünəməxsus xüsusiyyətlər nəzərə alınmaqla analojidir. Bəzi ölkələrdə (məsələn, ABŞ-nin bir sıra ştatlarında) məhkəmə hakimiyyəti orqanları da seçkilərlə yaradılır, ancaq bu üsul çox yayılmayıb. Dövlət hakimiyyətinin formalaşdırılması üsulu kimi ayrı-ayrı ictimai təşkilatlarda seçkiləri fərqləndirmək lazımdır. Təşkilatlarda seçkilər və onların qaydası bu təşkilatların daxili işidir və onun dövlət hakimiyyətinə aidiyyəti yoxdur.

Seçki sistemi müəyyən prinsiplərə söykənir. Bu prinsiplər seçkilərin mahiyyətini müəyyən edir, onun özəyini təşkil edir. Bütün təşkilati məsələlər də bu prinsiplərə uygun həll olunur. Seçki prinsipləri seçkilərin keyfiyyətinə, gedişinə belə təsir etməyə qadirdir və bir qayda olaraq, onlar konstitusiyada nəzərdə tutulurlar. Azərbaycan Respublikasında seçki sisteminin prinsipləri Konstitusiyanın 83-cü maddəsində və 101-ci maddəsinin I hissəsində nə-

zərdə tutulub. Hər iki maddədə nəzərdə tutulanlar azacıq istisna ilə eynidir. Konstitusiyanın 83-cü maddəsinə görə, Milli Məclis ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilir. Bu prinsiplərdən ilk üçü seçki hüququnu xarakterizə edir, digər üçü isə səsvermə prosesini müəyyən edir. Bu prinsiplərdən əlavə, qanunvericilikdə əks olunan prinsiplər də var. Məsələn, 27 may 2003-cü il tarixli «Azərbaycan Respublikasının Seçki Məcəlləsi»nin 2.5-ci maddəsində aşkarlıq prinsipindən söhbət gedir. Orada göstərilir ki, seçkilərin və referendumun hazırlanması və keçirilməsi, səsvermənin yekunlarının, seçkilərin və referendumun nəticələrinin müəyyən edilməsi açıq və aşkar həyata keçirilir. Seçki Məcəlləsində, həmçinin seçkilərin və referendumların keçirilməsinin məcburiliyi prinsipi də öz əksini tapmışdır (maddə 7). Seçkilərin gedişi daim kütləvi informasiya vasitələrində işıqlandırılır və müşahidəçilər seçkilərin keçirilməsinə nəzarət edirlər.

Ümumi seçki prinsipinə görə, istisnasız olaraq Azərbaycan Respublikasının hər bir vətəndaşı qanunla qoyulan tələbləri ödəyirsə, seçki hüququna malikdir. Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsinə görə, hakimlərin, din xadimlərinin və s. şəxslərin seçki hüququ məhdudlaşdırıla bilər. Bu prinsip hamı üçün eyni olan müəyyən ilkin şərtlərin (seçkiyə buraxılmaq üçün) təsbit edilməsi yolu ilə həyata keçirilir. Əsrin əvvələrində qadınların seçki hüququnun olmaması bu prinsipin pozulması kimi səciyyələndirilir.

Bərabər seçki hüququ prinsipi hamının seçkinin nəticələrinə eyni dərəcədə təsir imkanına malik olmasını ifadə edir. Bu prinsip vətəndaşların malik olduğu səslərin sayının eyni olması ilə təmin edilir. Əgər bir vətəndaşın iki

səs hüququ varsa, deməli, bütün başqa vətəndaşlarda da iki səs hüququ olmalıdır. Anqlo-sakson hüquq sistemli ölkələrdə bu prinsip, bir qayda olaraq «bir şəxs - bir səs» formulu kimi qəbul olunur. Bu prinsipin pozulması (plüral votum), adətən, müxtəlif səbəblərlə bağlıdır. Məsələn, Böyük Britaniyada 1945-ci ilə qədər şəxs həm yaşadığı yerdə, həm də əgər başqa yerdə əmlakı vardırsa, orada səs verə bilərdi ki, belə şəxslərin artıq iki səs hüququ əmələ gəlirdi.

Birbaşa seçki hüququ onu ifadə edir ki, şəxslər birbaşa seçiləcək naimzədə səs verirlər. Arada heç bir mərhələ olmur və onların səsi həlledicidir. Bu prinsip dünyanın bir çox ölkələrində tətbiq olunur. Əksinə, yəni şəxsin seçilən şəxsə, namizədə deyil, onu seçəcək şəxsə səs verməsi bir çox ölkələrdə dolayı seçki sisteminin əsasını təşkil edir. Bu sistemdə (dolayı seçki sistemi) birbaşa seçki hüququ tətbiq edilmir. ABŞ-da vətəndaşlar birbaşa prezidentə səs vermirlər. Onlar ABŞ Prezidentini seçəcək şəxslərə (seçkiçilərə) səs verir, sonra da bu şəxslər (seçkiçilər) prezidentliyə namizədlərə səs verir. Türkiyədə də prezident dolayı yolla seçilir. Onu birbaşa vətəndaşlar deyil, parlament seçir. Birbaşa seçkilərdə vətəndaşların iradəsinin təhrif edilməsi təhlükəsi olmur və burada namizədin seçilməsi birbaşa vətəndaşlardan asılı olduğuna görə daha demokratik prinsip sayılır.

Sərbəst səsvermə vətəndaşın səsvermə hüququnun könüllü realizə edilməsi imkanını bildirir. Vətəndaş səsvermə məsələsində tamamilə azaddır. O, özü istəsə səs verə bilər, istəmədiyi halda isə bundan imtina edə bilər. Bu prinsip də bəzi ölkələrdə tətbiq olunmur. Məsələn, Türkiyə və Yunanıstanda seçkilərdə iştirak etmək sərbəst deyil, məcburidir. Bu ölkələrdə seçkilərdə iştirak etməyəni

cəza və ya digər məsuliyyət tədbiri gözləyir. Bu cür məcburiyyət tədbirləri ilə qanunverici absenteizmin (seçkilərdə iştirak etməkdən kütləvi şəkildə əhalinin yayınması) qarşısını almağa çalışır. Absenteizm kifayət qədər təhlükəli olub, dövlət hakimiyyətini zəruri sosial bazadan məhrum edir.

Şəxsi səsvermə onu ifadə edir ki, vətəndaşlar yalnız özləri bilavasitə səs verə bilərlər. Kimsə kiminsə adından səs verə bilməz. Bu, başqasının adından səs verən şəxsin bundan sui-istifadəsinin qarşısını almaq üçündür.

Gizli səsvermə onu ifadə edir ki, vətəndaşın səsverməsi, kimə və necə səsverməsi müşahidə oluna bilməz və səsvermə zamanı ona nəzarət edilməsi qəti qadağandır. Səsvermə üçün vətəndaş müvafiq yerə daxil olduqdan sonra onun yanına daxil olmaq, ondan kiməsə səs verməsini tələb və ya xahiş etmək qanunvericiliklə cinayət məsuliyyətinə səbəb olur.

Seçki sistemində mühüm yeri həm də onun prinsipləri ilə sıx bağlı olan senzlər tutur. Senzlər seçki prinsiplərinin təmin edilməsinə yönəlməklə bərabər, həm də seçkinin mahiyyətindən doğan nöqsanları aradan qaldırmaq, bir növ seçkiləri korrektə etmək məqsədi güdür. Seçki senzləri öz mahiyyətini mövcud sosial sistemdən asılı olaraq dəyişir. Hal-hazırda bütün təbəqələr seçkilərdə sərbəst iştirak edir və senzlərin də funksiyası dəyişmişdir. Seçkinin təbii çatışmazlığı ondan irəli gəlir ki, seçkidə geniş insan kütləsi iştirak edir. Kütlə öz təbiəti etibarilə idarə olunandır və siyasi texnologiyalardan, kütlənin psixoloji xüsusiyyətlərindən istifadə edib, onun mənafeyi ziddinə hakimiyyətə gəlmək mümkündür. Bu isə seçkilərin əsl təyinatını təhrif edir və mənfi nəticələr yaradır. Odur ki, qanunvericilikdə nöqsanlardan doğan potensial

təhlükəni aradan qaldırmaq məqsədi ilə senzlər müəyyənləşdirilir. Senzlər həm aktiv seçki hüququna (seçmək hüququ), həm də passiv seçki hüququna (seçilmək hüququ) aiddir. Seçki sistemlərindəki əsas senzlər bunlardır:

1) Yaş senzi. Bu senz şəxsdə müəyyən təcrübənin olması, onun siyasi fəaliyyət üçün lazımi yaş həddini təmin etməsi məqsədini güdür. Respublikamızda aktiv seçki hüququ üçün yaş senzi 18, passiv seçki hüququ üçünsə bələdiyyə seçkilərində 21, Milli Məclisə seçkilərdə 25-dir. Prezidentliyə namizədlər üçün isə bu senz, Konstitusiyanın 100-cü maddəsinə görə, 35 yaşdır.

2) Təhsil senzi - prezidentliyə namizədlərdən ali təhsilin olmasını tələb edir.

3) Oturaqlıq senzi - prezidentliyə namizədlərdən Azərbaycan Respublikası ərazisində on ildən artıq daimi yaşamalarını tələb edir.

Prezidentliyə namizədin həm də başqa dövlətlər qarşısında öhdəliyi, ikili vətəndaşlığı, ağır cinayətlərə görə məhkumluğu olmamalıdır. Bir sıra senzlər tarixi inkişaf prosesində aradan çıxmışdır. Məsələn, əmlak senzi, demək olar ki, tətbiq edilmir.

§ 4. Seçki sisteminin növləri

Seçki sisteminin növləri anlayışı dar mənada başa düşülür. Seçki sisteminin növləri tarixi inkişaf prosesində seçkilərdə ortaya çıxan nöqsanların aradan qaldırılması üçün meydana gəlmişdir. Bu cür təkmilləşdirilmələrin aparılmasına başlıca səbəb seçki nəticələrində əhalinin iradəsinin tam əks oluna bilməməsidir. Başqa sözlə, əhalinin kimə səs verməsi bəzən seçkinin nəticələrini müəyyən edə bilmir. Azlıqda qalan hissənin səsləri daim itir. Bunun qarşısını almaq, yəni səslərin itməməsi və onların

seçkilərin nəticələrində maksimum dərəcədə obyektiv əks olunması üçün müxtəlif seçki sistemləri ortaya çıxmışdır. Seçki sisteminin iki əsas növü vardır: majoritar seçki sistemi və proporsional seçki sistemi.

Majoritar sözü fransız sözüdür və «çoxluq» mənasını verir. Adından da göründüyü kimi, bu sistemdə kim çoxluğun səsini qazanarsa, o da seçilir. Majoritar sistemin özünün də aşağıdakı növləri vardır:

1) İxtisaslaşdırılmış majoritar sistem;
2) Mütləq majoritar sistem;
3) Nisbi majoritar sistem.

İxtisaslaşdırılmış majoritar sistem mütləq və nisbi majoritar sistemlərlə müqayisədə seçicilərin daha böyük səs çoxluğunu tələb edir. Məsələn, 24 avqust 2002-ci il tarixində referendum yolu ilə dəyişikliklər edilənədək Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin 2-ci hissəsinə əsasən, Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin 23 səs çoxluğu ilə seçilirdi. Hal-hazırda isə Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir.

Mütləq majoritar sistemdə seçicilərin ümumi sayının yarıdan çoxunun səsini qazanan şəxs seçilir. Burada da ümumi sayın yarıdan çoxu anlayışı müxtəlif ölkələrin qanunvericiliyində bir-birindən fərqlənir. Bu, bir qayda olaraq, birincisi, qeydə alınan seçicilərin ümumi sayının yarıdan çoxu; ikincisi, verilən səslərin ümumi sayının yarıdan çoxu; üçüncüsü, verilmiş və etibarlı sayılan səslərin yarıdan çoxu deməkdir. Mütləq majoritar seçki sistemində, bir qayda olaraq seçkilərdə iştirakın minimum faizi müəyyənləşdirilir və bu faizdən aşağı seçicilər iştirak edərsə, seçki baş tutmamış hesab olunur.

Mütləq majoritar sistemdə, adətən, bir dəfəyə seçicilərin yarıdan çoxunun səsini almaq çox çətin olduğundan bir çox hallarda bu mümkün olmur və yenidən ikinci tur adlanan səsvermə keçirilir. İkinci turda artıq birinci turda ən çox səs qazanan iki namizəd iştirak edir və bu dəfə seçki nisbi majoritar sistem üzrə həyata keçirilir.

Nisbi majoritar seçki sistemində isə seçkidə iştirak edən digər namizədlərə nisbətən səs çoxluğu qazanan şəxs seçilmiş sayılır. Burada isə seçkidə iştirak edənlərin yarıdan çoxunun səsini qazanmaq tələb olunmur. Qazanılan səslər ümumi verilən səslər içərisində çox az da ola bilər. Mütləq majoritar seçkilərdə şəxs 50%-dən çox səs qazanmalıdır (50%+1). Nisbi majoritar seçkidə əgər A-50 min, B-30 min, C isə 40 min səs toplayarsa, bu halda A seçilmiş sayılacaqdır. Burada A seçkidə iştirak edənlərin yarıdan çoxunun səsini toplaya bilməyib (mütləq majoritar sistemdə əsas şərt). Lakin o, ayrı-ayrılıqda B-dən və C-dən daha çox səs toplayıb. Baxmayaraq ki, B və C-nin birgə səsləri (40 min + 30 min = 70 min) A-nın topladığı səslərdən çoxdur (A-50 min səs yığıb), yenə də A seçiləcək, çükni o, digər namizədlərə görə çox səs yığıb.

Majoritar sistemdə, bir qayda olaraq ölkə təkmandatlı dairələrə bölünür. Yəni ölkə ərazisi müxtəlif hissələrə bölünür və hər bir hissədən (sahədən) ancaq bir şəxs seçilə bilər (hər bir sahəyə ancaq bir mandat ayrılır.) Majoritar sistemdə çoxmandatlı dairələr də yaradıla bilər, lakin bu, bir qayda olaraq, çox nadir hallarda tətbiq edilir. Majoritar sistemin əsas, həm də ümumi xarakterli mənfi cəhəti odur ki, burada seçicilərin azlıqda qalan hissəsinin səsi itir və ümumiyyətlə, təmsil olunmur. Bu sistemin müsbət cəhəti budur ki, burada seçici ilə namizəd arasında birbaşa əlaqə olur, seçici tanıdığı şəxsə səs verir. Ma-

joritar sistem qanunverici orqanın daxilində regional maraqların qabarması üçün zəmin yaradır. Mütləq majoritar sistemin müsbət cəhəti isə ondan ibarətdir ki, burada seçilən şəxsin arxasında həqiqi sosial baza olur və o çoxluğa söykənir. Onun mənfi cəhəti budur ki, seçkilərə daha çox xərc çəkilir və birinci turda heç də dərhal nəticə əldə olunmur. İkinci turda isə, bir qayda olaraq, birinci tura nisbətən daha az seçici iştirak edir. Odur ki, ikinci turda, adətən, nisbi majoritar sistem tətbiq olunur. Nisbi majoritar sistemin müsbət cəhəti ondan ibarətdir ki, burada birinci turda nəticə əldə edilir. Mənfi cəhəti isə odur ki, seçilən şəxs bir çox hallarda azlığa söykənir, çoxluğun iradəsini təmsil edə bilmir, yəni sosial bazası zəif olur. Buna görə də bir çox ölkələr qarışıq sistemi tətbiq edir, yəni hər iki sistemi müxtəlif konfiqurasiyalarda realizə edirlər.

Azərbaycan Respublikasında Konstitusiyanın 83-cü maddəsinə görə, Azərbaycan Respublikasının Milli Məclisi majoritar seçkilərlə formalaşdırılır. Qanunvericiliyə görə, deputatlar nisbi majoritar seçki sistemi üzrə seçilir. Göründüyü kimi, Azərbaycan Respublikasında majoritar seçki sisteminə üstünlük verilmişdir.

Proporsional seçki sistemi ilk dəfə olaraq 1889-cu ildə Belçikada tətbiq edilib. Bu sistemdə seçicilər ayrı-ayrı şəxslərə deyil, partiyalara onların müəyyən etdiyi siyahılar vasitəsilə səs verir. Burada hər bir partiya ona verilmiş səslərin sayına proporsional olaraq parlamentdə yer götürür, partiyaların topladığı səs mühüm rol oynayır, lakin bundan da əhəmiyyətlisi seçki kvotasıdır. Seçki kvotası partiyanın bir namizədinin seçilməsi üçün tələb olunan minimum səs miqdarıdır. Seçki kvotasının müəyyən edilməsi mandatların bölüşdürülməsinə birbaşa təsir edir. Proposional seçki siste-

mində kiçik partiyalar seçkilərdə iştirak edib yer götürmək imkanı əldə edirlər. Proposional seçki sistemində bütün ölkə, bir qayda olaraq, vahid çoxmandatlı dairədən ibarət olur. Yəni ölkə tək bir dairə hesab olunur və bu dairədən seçilmək üçün müvafiq sayda mandat müəyyənləşir. Hər bir partiya topladığı səsdən və daha çox da seçki kvotasından asılı olaraq, müxtəlif sayda mandat əldə edə bilər.

Proposional sistemdə mandatların xırda partiyalar arasında çox parçalanmaması üçün iri partiyaların mənafeyini güdən seçki baryeri müəyyən edilir. Seçki baryeri elə səs faizidir ki, bu faizdən az səs toplayan partiya sonradan mandatların bölüşdürülməsinə buraxılmır. Seçki baryeri həm də qanunverici orqanın daxilində fraksiyalaşmanı zəiflədir.

Siyasi partiyalar bu seçkilər zamanı öz siyahılarını birləşdirə və ayıra bilərlər. Partiya siyahılarında namizədlərin yerinin dəyişdirilməsi də mümkündür. Siyasi partiyalar seçkilərdə birləşib blok yaradaraq iştirak edə bilərlər. Blok öz adından vahid siyahı təqdim edir. Bəzən bu sistemdə panaşaj tətbiq edilir. Panajaş onu ifadə edir ki, seçici bir neçə ayrı-ayrı siyahıda olan şəxslərə səs verir və ya özü siyahıya yeni namizəd əlavə edir. Bu sistem çox nadir hallarda tətbiq olunur.

Seçki kvotasının müəyyən edilməsi müxtəlif üsullarla həyata keçirilir. Mandatların bölüşdürülməsi üçün proporsional sistemdə seçki kvotası və bölüşdürücülər metodundan istifadə edilir. Ən sadə kvota müəyyənləşdirilməsi metodunu ingilis hüquqşünası T.Her təklif etmişdir. Onun metoduna görə (bəzən buna təbii kvota da deyilir), verilən səslərin ümumi miqdarı mandatların sayına bölünür və seçki kvotası əldə edilir. Bundan sonra isə hər bir partiyanın nə qədər mandat götürdüyünü bilmək üçün hər bir partiyanın ayrılıqda topladığı səslərin sayı kvotaya bölü-

nür. Alınan nəticə ilə götürülən mandatın sayı uyğun gəlir. Lakin bu metodun çatışmayan cəhəti ondadır ki, burada partiyalar arasında bölünməyən səslər qalığı yaranır. T.Her kvotasının təkmilləşdirilməsi nəticəsində ingilis hüquqşünası Henri Drupun və Bazel Universitetinin professoru Hohenbax-Bişofun seçki kvotaları yarandı. Drup kvotası [[x:(y+1)]]+1 düsturu ilə, Hohenbax-Bişof kvotası isə x:(y+1) düsturu ilə müəyyən olunur. Bunu bir misalla göstərək: təsəvvür edək ki, səkkiz mandatlı seçki dairəsində beş partiya mübarizə aparır. Ümumi verilən səslərin miqdarı 400 000-dir. A partiyası 126 min, B-94 min, C-88 min, D-65 min, E isə 27 min səs alıb. Her kvotası bu zaman belə olacaq: 400 000:8=50 000. Bölgünün nəticələrinə görə, A partiyası 2 yer, (A partiyasının topladığı səs 126 000:50 000, qalıq: 26 000), B 1 yer (94 000:50 000, qalıq: 44 000), C 1 yer (88 000:50 000, qalıq: 38 000), D 1 yer (65 000:50 000, qalıq: 15 000) götürür. E partiyası isə mandat götürə bilmir (27 000: 50 000, qalıq: 27 000). Göründüyü kimi, səkkiz mandatdan ancaq beşi bölünə bildi. İstifadə olunmamış qalıq kimi qalan səslərin cəmi 150 mindir. Hohenbax-Bişof sistemi ilə kvota müəyyənləşdirilməsi başqa nəticə verəcəkdir. Burada kvota 44 444-dür (400 000:(8+1)=44 444). Müvafiq olaraq A partiyası 2 yer, (126:44 444, qalıq: 37 112), B 2 yer (94 000: 44 444, qalıq: 5 112), C 1 yer (88 000: 44 444, qalıq: 43 556), D 1 yer (65000: 44 444, qalıq: 20 556) mandat alır. E partiyası isə yer ala bilmir (27 000:44 444=0, qalıq: 27 000). Göründüyü kimi, nəticələr fərqlidir və bu dəfə də 133 336 qalıq səs qalır. Bundan sonra qalıq səslərin partiyalar arasında bölüşdürülməsi üçün müxtəlif qaydalardan istifadə edirlər. Bu qaydalardan ən böyük qalıq qaydasına görə, ən çox hansı partiyalardan

qalıq qalıbsa, yerdə qalan qalıq səslər onlar arasında paylanır. Birinci misalda Her sistemi üzrə ilk olaraq B, C, E partiyaları səs alır. A, B və C partiyalarının hər biri 2 yer, D və E partiyaları isə hərəsi 1 yer götürə bilir. İkinci misalda Hohenbax-Bişof sistemində ən çox qalıq A və B partiyalarındadır. Bu zaman A 3, B və C 2, D 1 yer götürür, E isə mandat ala bilmir. E partiyası təmsil olunmur və onun elektoratının səsi heçə enir. Ən böyük ortaq qalıq qaydasına görə, bölünməyən səslər o partiyalara verilir ki, onların ilkin bölgüdən sonrakı nəticələrinin üzərinə 1 gəldikdə böyük qalıq qalır. Bu cür bölgüdən də sonra səslərin tam bölünməsini təmin etmək çətin olur.

Bölüşdürücülər metodu mandatları tamamilə bölməyə imkan verir. Bu zaman əldə olunan nəticələr (partiyaların topladıqları səslər) ardıcıl olaraq müəyyən rəqəmlərə bölünür (ixtiyari götürülmüş rəqəmlər), azalan qayda üzrə yerləşdirilir (çoxdan aza doğru). Partiyanın nə qədər böləni olarsa, onun sayına uyğun da mandat götürür, çünki bölüşdürücülərin sayı çoxdur. 1882-ci ildə Belçikanın Qent Universitetinin professoru Viktor Dont səsləri sadə ədədlərə bölməyi təklif etdi (1,2,3,4 və s.). Fransız tədqiqatçısı Sent-Laqüe birinci bölüşdürücü 1.4 olmaqla səsləri tək rəqəmlərə bölməyi təklif etmişdir (3,5, 7 və s.). Dont metodunu misalla belə izah etmək olar:

Bölüş-	**P a r t i y a l a r**				
dürücülər	**A**	**B**	**C**	**D**	**E**
1	126 000	94 000	88 000	65 000	27 000
2	63 000	47 000	44 000	32 500	13 500
3	42 000	31 333	29 333	21 666	9000
4	32 000	23 500	22 000	16 250	6750

Bu cədvəldə kursivlə verilmiş rəqəmlər toplanılan səslərin sayının bölünməsi nəticəsində alınan nəticələrdir. Hər bir partiya kursivdəki rəqəmlərin sayına uyğun yer götürür. Ardıcıllıq üzrə azalan qaydada yerləşdirdikdə ən kiçik rəqəmin 42 000 olduğu görünür. Mahiyyətcə elə bu seçki kvotasıdır. Diqqətlə baxdıqda aydın olur ki, kursivlə ayrılan rəqəmlərin sayı mandatların sayına bərabərdir (8 mandat 5 partiya arasında bölünürdü). Deməli, partiyaların səsləri ayrı-ayrılıqda ixtiyari götürülən rəqəmlərə bölünür və ardıcıl olaraq azalan qayda üzrə yerləşdirilir. Sıra sayı ilə mandatların sayına uyğun gələn rəqəm (bu halda azalan ardıcıllıqla yerləşdirdikdə: 42 000) seçki kvotasını təşkil edir. Bu kvotadan hər bir partiyanın ayrılıqda topladığı səslərin içərisində nə qədər çox olarsa, bir o qədər də çox yer götürür.

Şərh edilənlərlə yanaşı, başqa seçki sistemləri var və bunlara aşağıdakılar aiddir:

1) Kumulyativ seçki sistemi. Bu sistemdə seçici bir neçə səsə malik olur və bu səsləri istəsə bir namizədə verə bilər, istəsə də bir neçə namizədin arasında bölüşdürə bilər.

2) Yarıproporsional sistem. Bu sistemdə vahid çoxmandatlı seçki dairəsi üzrə seçici partiya siyahısına deyil, hər hansı bir partiyadan olan bir namizədə səs verir. Ən çox səs toplayan namizəd seçilmiş sayılır.

3) Preferensial sistem. Burada seçici vahid çoxmandatlı seçki dairəsində, sadəcə, siyahıya səs vermir, həm də siyahıda ən çox kimə üstünlük verdiyini qeyd edir (preferensiya). Sonradan səslər hesablanarkən ilk olaraq ən çox preferensiyaya malik olan namizədlər arasında bölünür.

§ 5.Seçki prosesi və seçki mərhələləri

Seçki sistemi müəyyən mərhələlər şəklində realizə olunur. Seçki prosesi seçki mərhələlərinin məcmusundan ibarətdir. Seçki prosesi dedikdə qanunla dəqiq şəkildə tənzim olunan müxtəlif sosial təsisatlara, dövlət orqanlarına seçkilərin hazırlanması və keçirilməsi qaydalarının məcmusu başa düşülür. Mərhələlər seçki prosesinin elə hissələridir ki, onların biri-digərindən nisbi müstəqilliyə malikdir və hər biri də müəyyən hüquqi nəticələr doğurur. Bu mərhələlər seçki prosesinin ayrı-ayrı təşkilati problemlərini həll edir və birlikdə son mərhələ - səsvermə mərhələsi üçün hazırlıq rolunu oynayırlar. Bu mərhələlər içərisində ən vacibi də səsvermə və səslərin hesablanması mərhələləridir. Bu mərhələlərdə baş verən qanun pozuntuları seçkilərin legitimliyinə birbaşa təsir göstərir. Seçki prosesində seçki hərəkətləri də fərqləndirilir. Seçki hərəkətləri konkret hüquqi nəticələri doğuran və qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün həyata keçirilən tədbirləri əhatə edir. Bu tədbirlər qanunda nəzərdə tutulur. Seçki prosesi mərhələlər üzrə hərəkət edir. Bu mərhələlər aşağıdakılardır:

1) Seçkilərin təyin edilməsi;
2) Seçki dairələrinin və məntəqələrinin yaradılması;
3) Seçki orqanlarının yaradılması;
4) Seçicilərin qeydiyyatı;
5) Namizədlərin irəli sürülməsi;
6) Təbliğat kompaniyası;
7) Səsvermə;
8) Səslərin hesablanması və nəticələrin müəyyənləşdirilməsi;
9) İkinci tur;

10) Seçkilərin nəticələrinin elan edilməsi.

Bu mərhələlər həm Milli Məclis, həm də prezident və bələdiyyə seçkilərində, demək olar ki, eynidir. İkinci tur mərhələsi həmişə olmur. Əgər birinci turda seçkilər baş tutarsa, ikinci tura ehtiyac aradan qalxır. Seçki qanunvericiliyi onun hansı orqana aid olmasından asılı olmayaraq, yuxarıda göstərilən mərhələləri tənzimləyir və bir sıra digər təşkilati problemləri nizama salır.

Azərbaycan Respublikasının Milli Məclisinə seçkiləri Azərbaycan Respublikasının Prezidenti təyin edir. Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər hər 5 ildən bir noyabr ayının birinci bazar günü keçirilir. Prezidentliyə seçkilər də hər 5 ildən bir keçirilir. Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 178.1-ci maddəsinə müvafiq olaraq seçki günü Prezidentin Konstitusiya ilə müəyyən olunmuş səlahiyyət müddəti başa çatdığı son ilin oktyabr ayının üçüncü həftəsinin çərşənbə günü seçki günü hesab olunur. Seçkilərin keçirilməsi günü seçki gününə azı 60 gün qalmış Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən təyin edilir. Əgər prezidentin səlahiyyəti müəyyən olunmuş müddətdən əvvəl başa çatarsa, növbədənkənar seçkilər keçirilir. Bu halda seçkilər Mərkəzi Seçki Komissiyası çərşənbə gününə təyin edilir və 3 ay müddətində keçirilir. Azərbaycan Respublikası Milli Məclisinə seçkilər səsvermə gününə azı 60 gün qalmış elan edilir. Seçkilər haqqında qərar onun qəbul olunduğu gündən ən geci 2 gün ərzində dərc edilməlidir. Seçkilərin elan edilməsi rəsmi olaraq seçkilərə hazırlıq üçün prosesin başlandığını bildirir və siyasi qüvvələrin seçkilər üçün öz qüvvələrini səfərbərliyə almasına imkan yaradır.

Mərkəzi Seçki Komissiyası, seçicilər barəsində məlumatlar əsasında, hər beş ildən bir vahid seçicilər siyahısı

tərtib edildikdən sonra 30 gün müddətində seçki dairələrinin yaradılması sxemini və onun qrafik təsvirini təsdiq etməlidir. Həmin dövr ərzində Seçki Məcəlləsinin tələbləri nəzərə alınaraq seçki dairələrinin yaradılması sxemini və onun qrafik təsviri yenidən təsdiq edilə bilər. Seçki dairələri seçkilərin keçirilməsindən bilavasitə əvvəl yaradılırsa, seçki dairələrinin yaradılması sxemini və onun qrafik təsviri seçkilər gününə ən azı 55 gün qalmış təsdiq edilməli və seçki gününə azı 50 gün qalmış dərc edilməlidir. MSK seçkilərin həyata keçirilməsini təşkil edən və ona rəhbərlik edən müstəqil dövlət orqanıdır. O, namizədləri qeydə alır, seçkilərə nəzarət edir, seçki komissiyalarına hüquqi, metodiki yardım göstərir, təkrar seçkilər keçirilməsini təmin edir və s. səlahiyyətləri həyata keçirir. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 24-cü maddəsinə görə MSK 18 üzvdən ibarətdir. MSK üzvləri Milli Məclis tərəfindən seçilir. MSK-nın 6 üzvü deputatları Milli Məclisdə çoxluq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyanı, 6 üzvü heç bir siyasi partiyaya mənsub olmayan və onların namizədliklərini təqdim edən deputatları, 6 üzvü isə deputatları Milli Məclisdə azlıq təşkil edən və onların namizədliklərini təqdim edən siyasi partiyaları təmsil edirlər. MSK üzvləri Milli Məclis tərəfindən seçilir.

Seçki dairələri və məntəqələri seçkilərin keçirildiyi ərazi vahidləridir. Bəzən seçkilər ərazi prinsipi üzrə deyil, istehsalat prinsipi üzrə təşkilatlanır. Bu zaman seçicilər işlədikləri yerdə səs verirlər. Seçki ərazisi ilə inzibati ərazi vahidləri üst-üstə düşməyə də bilər. Qanunvericiliyə görə, aralarında sərhəd olmayan inzibati ərazi vahidləri üzrə birmandatlı seçki dairələrinin yaradılmasına yol verilmir. MSK Azərbaycan Respublikasının Seçki Məcəl-

ləsinin 29.1-ci maddəsinə müvafiq olaraq 125 birmandatlı seçki dairəsi yaradır. Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan seçicilər birmandatlı dairələr üzrə siyahıya alınmırlar. Çünki onlar Milli Məclisin deputatlarının və bələdiyyə üzvlərinin seçkiləri üzrə səsvermədə iştirak etmirlər.

Seçki dairələri aşağıdakı tələblər çərçivəsində yaradılır:

-Azərbaycan Respublikasının inzibati ərazi vahdinin hüdudları çərçivəsində orta təmsilçilik normasından 5%, yolu çətin və ucqar yerlərdə isə 10%-dən çox (az) olmamaq şərti ilə onların ərazisində qeydə alınmış seçicilərin sayı birmandatlı seçki dairələrində təqribən bərabər olmalıdır;

-aralarında sərhəd olmayan inzibati ərazi vahidləri üzrə seçki dairəsinin yaradılmasına yol verilmir.

Seçki dairələri seçki məntəqələrinə bölünür. Seçki məntəqələrində ən azı 50, ən çoxu isə 1500 nəfər seçici ola bilər. Seçki məntəqələri bələdiyyə qurumlarının ərazilərində səsvermənin keçirilməsi və səsvermənin hesablanmasını təmin etmək məqsədilə yaradılır. Seçki məntəqələri bilavasitə seçkilərdən əvvəl yaradılırsa, onlar səsvermə gününə ən azı 50 gün qalmış təşkil edilir. Seçicilərin sayı 50-dən az olduqda müstəsna hal kimi ərazi seçki komissiyasının qərarı ilə seçki məntəqəsi təşkil edilə bilər.

Seçki əraziləri təşkil edildikdən sonra bu ərazilərdə seçkilərin keçirilməsi prosesinə nəzarət edən orqanlar yaradılır. Müvafiq olaraq dairə seçki komissiyaları və məntəqə seçki komissiyaları təşkil olunur. Dairə seçki komissiyaları məntəqə seçki komissiyalarını MSK ilə əlaqələndirən həlqədir və bir çox məsələlərdə məntəqə seçki ko-

missiyaları dairə seçki komissiyalarına tabedirlər. Məntəqə seçki komissiyalarının təşkili ilə dairə seçki komissiyaları məşğul olur. Dairə seçki komissiyaları Prezident seçkiləri zamanı ərazi seçki komissiyaları adlandırılsa da, mahiyyətcə digər seçkilərdə mövcud dairə komissiyalarından heç nə ilə fərqlənmir. Dairə seçki komissiyaları bilavasitə seçkilərdən əvvəl yaradılırsa, onlar səsvermə gününə azı 50 gün qalmış təşkil edilməlidir. Dairə seçki komissiyaları 9 üzvdən ibarət tərkibdə təşkil olunur. Məntəqə seçki komissiyaları bilavasitə seçkilərdən əvvəl yaradılırsa, onlar səsvermə gününə ən azı 40 gün qalmış təşkil edilməlidir. Məntəqə seçki komissiyaları müvafiq dairə seçki komissiyaları tərəfindən 6 üzvdən ibarət tərkibdə təşkil edilir. Dairə seçki komissiyası MSK tərəfindən, məntəqə seçki komissiyası isə dairə seçki komissiyası tərəfindən formalaşdırılır. Dairə və məntəqə seçki komissiyalarının tərkibi Mərkəzi Seçki Komissiyasının tərkibinə müvafiq olaraq müəyyən edilir. MSK-da qeydə alınmış siyasi qüvvələr dairə və məntəqə seçki komissiyalarına məşvərətçi səs hüquqlu üzv təyin edə bilərlər.

Hakimlər, prokurorlar, dövlət və bələdiyyə orqanlarının seçkili və vəzifəli şəxsləri, deputatlığa namizədlər, məşvərətçi hüquqlu üzvlər və s. parlament seçkilərində dairə və məntəqə seçki komissiyasının üzvü ola bilməzlər. Prezident və parlament seçkilərində namizədlərin qohumları, onların vəkilləri, müşahidəçiləri, namizədin birbaşa tabeçiliyində olan şəxslər və s. komissiya üzvü ola bilməzlər. Onlar komissiyaların sənədləri ilə tanış olmaq, ondan çıxarışlar almaq, iclas zamanı sual vermək və mahiyyəti üzrə cavab almaq hüququna malikdirlər. Seçkilərin hazırlanması zamanı əsas işindən azad edilmiş üzvün əməkhaqqı dövlət hesabına ödənilir. Seçkilərin keçirilməsi dövründə

onlar ölkə ərazisində pulsuz gediş-gəliş hüququndan istifadə edir, ərazi prokurorunun razılığı olmadan məsuliyyətə cəlb edilə bilməz, işəgötürənin təşəbbüsü ilə öz vəzifəsindən azad edilə və ya başqa işə keçilirə bilməz. Seçki komissiyasının üzvü öz səlahiyyətlərindən yazılı surətdə imtina etdikdə, Azərbaycan Respublikasının vətəndaşlığını itirdikdə, haqqında qanuni qüvvəyə minmiş ittiham hökmü olduqda, vəfat etdikdə, məhkəmə hökmü ilə xəbərsiz itkin düşmüş və ya ölmüş elan edildikdə və s. hallarda komissiya üzvlüyündən azad edilir. Seçki komissiyalarının hərəkətlərindən verilən şikayətlərə MSK baxır. Seçicinin birbaşa məhkəməyə şikayət etmək hüququ da var. Komissiyaların səlahiyyətləri, əsasən, oxşardır. Ümumiyyətlə, onlar seçkiqabağı təşviqat üçün şərait yaradır, seçki bülletenlərini aşağı komissiyalara çatdırır, səsvermə otaqlarının və qutularının hazırlanmasını təmin edir, seçkilərin gedişinə nəzarət edir və səsləri hesablayır, aşağı komissiyaların göndərdiyi protokolları ümumiləşdirir (dairə seçki komissiyaları) və s. Hər üç növ orqana keçirilən seçkiləri idarə edən komissiyaların səlahiyyətləri bir sıra xüsusiyyətlər nəzərə alınmaqla üst-üstə düşür. Aydındır ki, MSK ən çox səlahiyyətə malik orqandır və əsas səlahiyyətlər də ona məxsusdur (seçkilərin yekun nəticələrinin müəyyənləşdirilməsi və elanı, onların etibarsız elan edilməsi, təkrar və əlavə seçkilər və s.).

Seçicilərin seçki hüquqlarının təmin olunması üçün onlar qeydiyyata alınır və seçici siyahısına daxil edilirlər. Vahid seçicilər siyahısı Mərkəzi Seçki Komissiyası tərəfindən aparılır. Hər il seçicilər siyahısının dəqiqləşdirilməsi ilə bağlı məlumatları Seçki Məcəlləsinin 46.12-ci maddəsinə müvafiq olaraq məntəqə seçki komissiyaları dairə seçki komissiyaları vasitəsilə Mərkəzi Seçki Komis-

siyasına təqdim edirlər. Vahid seçicilər siyahısı seçki məntəqələri, seçki dairələri və bütövlükdə Azərbaycan Respublikası üzrə aparılır. Vahid seçicilər siyahısına Azərbaycan Respublikasının hüdudlarından kənarda yaradılan məntəqə seçki komissiyalarının təsdiq etdikləri seçici siyahısılarının məlumatları daxil edilmirlər. Seçicilərin daimi siyahısı hər bir seçki məntəqəsi üzrə məntəqə seçki komissiyası tərəfindən Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi formada hər il mayın 30-dək təsdiq edilir və səsvermə gününə azı 25 gün qalmış dəqiqləşdirilir. Bu müddətdən sonra səsvermə gününədək seçici siyahısına seçici yalnız məhkəmənin qərarı əsasında əlavə edilə bilər. Daimi seçici siyahılarına müvafiq icra hakimiyyəti orqanlarının və bələdiyyə qurumu başçılarının, hərbi hissə komandirlərinin aktiv seçki hüququna malik olan seçicilər haqqında təqdim etdikləri məlumatlar daxil edilir. Məntəqə üzrə tərtib olunmuş ilkin seçici siyahılarının birinci nüsxəsi müvafiq akt tərtib edilməklə məntəqə seçki komissiyasında saxlanılır, ikinci nüsxəsi isə hər il fevralın 5-dən gec olmayaraq, lakin səsvermə gününə azı 25 gün qalmış dairə seçki komissiyasına verilir. Seçki dairəsi üzrə ilkin seçici siyahıları hər il martın 5-dən gec olmayaraq iki nüsxədə tərtib edilir, dairə seçki komissiyasının sədri və katibləri tərəfindən imzalanır, seçki komissiyasının möhürü ilə təsdiq edilir və hər il aprelin 5-dək Mərkəzi Seçki Komissiyasına təqdim edilir. Mərkəzi Seçki Komissiyası seçici siyahılarında uyğunsuzluq tapdıqda, onlar düzəldilir və sonradan mayın 25-dək məntəqə və dairə seçki komissiyaları tərəfindən təsdiq edilir. Vətəndaşın seçki məntəqəsi üzrə seçici siyahısına daxil edilməsi üçün həmin vətəndaşın yaşayış yeri və ya olduğu yer üzrə qeydiyyatını aparan orqanın müəyyənləş-

dirdiyi müvafiq seçki məntəqəsinin ərazisində daimi yaşaması (seçkilərin elan olunması günündən əvvəlki 12 ayın azı 6 ayı ərzində seçki məntəqəsinin ərazisində yaşaması) faktı əsas götürülür.

Seçici bir məntəqə üzrə siyahıya daxil edilir. Seçkilər günü müvafiq seçki məntəqəsinin ərazisindəki xəstəxana, sanatoriya və istirahət evlərində olan şəxslər olduqları yer üzrə seçici siyahısına daxil edilirlər. Daha sonra siyahı vətəndaşların tanış olması üçün əlverişli yerdən asılır. Seçici siyahıları əlifba qaydasında 2 nüsxə tərtib edilir. Azərbaycan Respublikasından xaricdə olan şəxslərin siyahısı müvafiq konsulluq və ya səfirliyin məlumatları əsasında tərtib edilir. Qeydə alınan seçicilər hüquqi elektoratı təşkil edir.

Namizədlərin irəli sürülməsi hüququ vətəndaşlara, seçicilərin təşəbbüs qruplarına, siyasi partiyalara və siyasi partiyaların bloklarına məxsusdur. Siyasi partiyaların seçkilərdə iştirakı ilə bağlı heç bir məhdudiyyət nəzərdə tutulmamışdır. Onlar seçki prosesinin əsas iştirakçılarından biri kimi Seçki Məcəlləsinin 2.6 və 49.1-ci maddələrində nəzərdə tutulan şərtlərə riayət etməlidirlər. Siyasi partiyalar blokları siyasi partiyaların ittifaqıdır. Siyasi partiyalar blokunun yaradılması üçün ən azı 2 siyasi partiyanın razılaşması tələb olunur. Bloka daxil olan partiya seçkilərdə müstəqil çıxış etmir. Seçicilərin təşəbbüs qrupuna daxil olan vətəndaşların say tərkibinə məhdudiyyət qoyulmur. Onların öz səlahiyyətli qrupları və müşahidəçiləri olur və bu şəxslər onları seçkilərdə təmsil edirlər. Namizədlərin irəli sürülməsi ilə bağlı ərazi seçki komissiyasına bildiriş təqdim edilir. Prezident seçkilərində isə bütün sənədlər birbaşa MSK-ya təqdim edilir. Namizədlər irəli sürülərkən qanunvericiliklə qoyulan senzlər nəzərə

alınmalıdır. Məsələn, ali təhsili olmayan şəxsin prezidentliyə namizədliyinin irəli sürülməsi yol verilməzdir. Müvafiq yaşa çatmayan şəxsin deputatlığa namizədliyi irəli sürülə bilməz. Bu senzlər pozulduqda, namizədlik ümumiyyətlə heç bir halda qeydə alına bilməz. Əksinə, seçki qanunvericiliyinin qoyduğu tələblər pozularsa, onlar vaxtında düzəldilə bildiyi təqdirdə namizədlər qeydə alınır (lazımi qədər imza toplanmaması zamanı, sənədlərdən birinin təqdim olunmaması zamanı). Namizədlərin irəli sürülməsi üçün müəyyən sayda seçici imzası tələb olunur. Müvafiq komissiyaya namizədlə bağlı xəbər verdikdən sonra seçici imzalarının toplanması prosesi başlayır. Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə 450 imza, prezident seçkilərində 40 000-dən az olmayan sayda imza toplanmalıdır. Prezident seçkiləri zamanı 60-dan az olmayan seçki dairəsinin hər birinin ərazisindən azı 50 imza toplanmalıdır. Bələdiyyə seçkilərində isə toplanan imzalar yaşayış yerindəki əhalinin sayından asılıdır. Belə ki, 99.999-dan çox əhalisi olan ərazidə 150, 49.999-dan çox əhalisi olan ərazidə 100, 19.999-dan çox əhalisi olan ərazidə 75, 9.999-dan çox əhalisi olan ərazidə 50, 4.999-dan çox əhalisi olan ərazidə 30, 4.999-dan az əhalisi olan ərazidə 15 seçici imzası tələb olunur. Bir şəxsin bir neçə namizəd üçün imza atmasına yol verilir. Prezident seçkiləri zamanı bir seçici yalnız bir namizədin müdafiəsi üçün imza ata bilər. Seçicinin imzasını almaq məqsədilə onun ələ alınması, ona təzyiq edilməsi yolverilməzdir. Toplanılan imzalar tələb olunan sənədlərlə birlikdə müvafiq komissiyaya təqdim edilir. Daha sonra isə komissiya bu sənədləri yoxlayır və onların qanunvericiliyə uyğun gəlməsini müəyyən edərsə, təklif edilən namizəd qeydə alınır. Prezident və parlament seçkilərində namizədin qeydiyyatı

üçün təqdim edilən sənədlərin yoxlanılması üçün MSK ekspert xidməti də daxil olmaqla bir çox vasitələrdən istifadə edir. Namizədlər bütün hüquq və vəzifələrdə bərabərdilər. Seçkilər ərzində namizədlər öz xidməti vəzifələrini icra etməkdən azad edilir və öz vəzifə imkanlarından seçkilər üçün istifadə etməyə haqqı yoxdur. Namizədlər təbliğat apara bilərlər. Vəzifəli şəxslər, kütləvi informasiya vasitələri redaksiyalarında işləyən jurnalistlər və yaradıcı işçilər qeydə alınmış namizədlərdirsə, yaxud qeydə alınmış namizədlərin, siyasi partiyaların vəkil edilmiş şəxsləri, səlahiyyətli nümayəndələridirsə, seçkilərin gedişinə kütləvi informasiya vasitələrində işıqlandırılmasında onların iştirakı qadağan edilir. Seçkilər ərzində onlar ezamiyyətə göndərilə, hərbi toplanışa çağırıla bilməz. Namizədlikləri ərzində onlar ictimai nəqliyyat vasitələrindən pulsuz istifadə edirlər.

Seçkiqabağı təşviqat səsvermə gününə 23 gün qalmış başlayır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır. Səsvermə günü və ondan əvvəlki gün təşviqat aparılmasına yol verilmir. Təbliğat kütləvi informasiya vasitələri, seçkiqabağı tədbirlər, audiovisual yazı və digər təbliğat materiallarının yayılması, debatlar, diskussiyalar və qanunla qadağan edilməmiş digər vasitələrlə aparılır. Seçkiqabağı təbliğat zamanı bundan sui-istifadə edərək dövlət quruluşunu zorla devirməyə çağırışlar etmək, irqi, dini, milli ayrıseçkiliyi təbliğ etmək, dərc olunmuş illüstrasiya materialları və xüsusi hazırlanmış seçki nişanları istisna olmaqla namizədlər, onların səlahiyyətli nümayəndələri üçün pul vəsaitləri, hədiyyələr, qiymətli əşyalar vermək, malların güzəştli satışını həyata keçirmək və ya güzəştli və əvəzsiz xidmət göstərmək (məlumat xidmətindən başqa) yol verilməzdir. Dövlət hakimiyyəti orqan-

larına, bələdiyyələrə, hərbi hissə, təşkilat və idarələrə, xeyriyyə və dini təşkilatlara, onların təsis etdikləri təşkilatlara, seçki komissiyalarına və onların üzvlərinə, bələdiyyə və hərbi qulluqçulara təbliğat aparmaq qadağandır. Qanunvericiliklə müəyyən edilmiş qaydada bütün namizədlərə dövlət mülkiyyətində olan televiziya və radio kanallarında pulsuz efir vaxtı ayrılır. Seçkiqabağı təbliğatda namizədlərin bərabərliyini təmin etmək üçün qanunvericilikdə təbliğatla bağlı müxtəlif məhdudiyyətlər müəyyənləşdirilir. Dövlətin müvafiq reyestrlərinə salınmış mədəniyyət obyektləri sayılan bina və avadanlıqlar təbliğat üçün istifadə edilə bilməz. Teleradio kanalları bütün namizədlərə bərabər şərtlərlə pulsuz efir vaxtı ayıra bilərlər. Müxtəlif informasiya vasitələrində təbliğatın ardıcıllığı MSK tərəfindən püşkatma yolu ilə müəyyənləşdirilir. Təbliğat kampaniyası dövlət tərəfindən və namizədlərin özləri tərəfindən maliyyələşdirilir. Bunun üçün namizədlərin, qeydə alınmış namizədlərin, namizəd irəli sürmüş və ya namizədi qeydə alınmış siyasi partiyaların, siyasi partiyalar bloklarının seçki fondları yaradılır, banklarda xüsusi hesablar açılır və bu hesablarda toplanan pullar ancaq təbliğat məqsədilə istifadə oluna bilər. Xarici təşkilatlara və vətəndaşlara, vətəndaşlığı olmayan şəxslərə, beynəlxalq təşkilat və hərəkatlara, dövlət və bələdiyyə orqanlarına, müəssisə və təşkilatlarına, hərbi hissələrə, idarə və təşkilatlara, xeyriyyə və həmkarlar ittifaqları təşkilatlarına seçkiqabağı təbliğat kampaniyasının maliyyələşdirilməsi prosesində iştirak etmək qadağandır.

Səsvermə seçki mərhələləri içərisində həlledici mərhələdir. Bu mərhələdə baş verən pozuntu bütün əvvəlki mərhələlərə də təsir edir. Səsvermə mərhələsi, demək olar ki, bütün seçkilərdə eynidir. Bu mərhələ qanunveri-

cilikdə dəqiqliklə tənzim olunur. Seçkilərin təyinatı məhz səsvermə mərhələsində üzə çıxır. Səsvermə seçkilərin keçirildiyi gün saat 8-dən 19-a qədər davam edir. Bunun üçün əvvəlcədən seçki bülletenləri komissiyalara paylanır. Seçki bülletenlərinin sayı seçici siyahılarına daxil edilmiş vətəndaşların sayının 90 faizindən az, 0,5 faizindən isə artıq ola bilməz. Səsverməyə azı 25 gün qalmış kütləvi informasiya vasitələrində səsvermə yeri və vaxtı haqqında məlumat verilir. Səsvermə otaqlarına səsvermənin gizliliyini təmin edən kabinələr quraşdırılmalıdır. Səsvermə başlanan zaman məntəqə seçki komissiyasının sədri səsvermə üçün məntəqəni açıq elan edir və boş seçki qutularını müşahidəçilərə göstərib möhürləyir. Daha sonra məntəqə seçki komissiyasının üzvlərini səsverməyə başlamağa dəvət edir. İstənilən vətəndaş öz şəxsiyyətini təsdiq edən sənədi təqdim edərək seçki bülleteni alır və yazıların düzgünlüyünü yoxlayaraq imza edir. Daha sonra kabinəyə daxil olub səs verir. Seçki bülletenini müstəqil yazıb doldurmaq imkanı olmayan şəxs komissiya üzvlərindən və müşahidəçilərdən başqa istədiyi şəxsi kömək üçün kabinəyə dəvət edə bilər. Üzrlü səbəblərdən seçkilərdə iştirak etməyə gələ bilməyən şəxslər üçün hazırlanmış xüsusi seçki qutuları onların olduğu yerə aparılır və həmin şəxslər səs verirlər. Bu seçki qutuları səsvermədən sonra açıla bilər. Polisin yalnız asayişi təmin etmək məqsədilə seçki komissiyasının sərəncamı ilə məntəqəyə daxil olmağa haqqı vardır. Seçki komissiyasının verdiyi sərəncamların yerinə yetirilməsi zəruridir. Komissiya sədri olmadıqda onu müavini, o da olmadıqda komissiyanın katibi onu əvəz edir. Seçkinin gedişini hər hansı şəkildə pozan şəxs dərhal məntəqədən kənarlaşdırılır. Seçici bülleteni doldurarkən səhv etdiyini bildirdikdə, komissiya üz-

vündən ona yeni bülleten verilməsini xahiş edə bilər. Bu halda seçiciyə yeni bülleten verilir, sıradan çıxmış bülleten sonradan ləğv edilir və bu barədə ayrıca akt tərtib olunur.

Səsvermə müddəti başa çatdıqda komissiyanın sədri «yalnız seçki bülleteni alan və səsvermə otağında olan seçicilər səs verə bilərlər» elanını verir. Seçki qutuları açılmamışdan əvvəl səsvermə otağındakı müşahidəçilərin müşahidəsi ilə istifadə edilməmiş seçki bülletenləri sayılır və ləğv edilir. Həmin seçki bülletenlərinin sayı protokolda qeyd edilir. İlk öncə qutuların möhürləri və salamatlığı yoxlanılır və sonra qutular növbə ilə açılır, əvvəlcə daşınan, sonra tərpənməz qutular açılır. Bülletenlərin sayılması fasiləsiz olaraq davam etdirilir. İlk növbədə daşınan seçki qutuları açılır. Onlardakı bülletenlərin sayı məntəqədən kənar səs vermək üçün ərizə vermiş seçicilərin sayından çox ola bilməz. Daşınan seçki qutularındakı bülletenlərin sayı ərizə vermiş şəxslərin sayından çox olarsa, seçki komissiyasının qərarı ilə bütün bülletenlər etibarsız hesab olunur. Səsləri hesablayarkən ən əvvəl qeyri-müəyyən formada olan, rəsmi hazırlanmamış, komissiya tərəfindən təsdiqlənməmiş, eləcə də etibarsız hesab olunan bülletenlər ayrılır. Seçicinin öz iradəsini bülletendə ifadə etməsini müəyyənləşdirmək mümkün olarsa, bülleten etibarlı sayılır. Şübhəli hallar səsvermə yolu ilə həll edilir. Səslərin hesablanması ilə əlaqədar protokollar tərtib edilir.

Milli Məclisə seçkilər zamanı qeydə alınmış namizədlərin lehinə verilən səslərin sayı bərabər olduqda seçkilər baş tutmamış hesab olunur. Bundan başqa həm parlament, həm də prezident seçkilərində seçkilərin nəticələri aşağıdakı hallarda etibarsız hesab edilir:

1) seçki məntəqələrinin 25hissəsindən çoxunda səsvermənin nəticələri etibarsız sayıldıqda;

2) məhkəmənin qərarı ilə.

Seçki Məcəlləsinin 240-cı maddəsinə müvafiq olaraq bələdiyyə seçkilərinin nəticələri də müvafiq səbəblərdən etibarsız hesab edilir.

Bələdiyyə seçkilərində namizədlərin topladıqları səslərin sayı bərabər olarsa, dairə seçki komissiyası tərəfindən bələdiyyə seçkiləri baş tutmamış hesab edilir. Prezidentliyə namizədlərdən hansı səsvermədə iştirak edən seçicilərin 12-dən çoxunun səsini alarsa, o da seçilmiş sayılır. İkinci tur yalnız birinci turda seçkilər baş tutmadıqda həyata keçirilir. Bu zaman təkrar səsvermə ümumi seçkilərdə səsvermə günündən sonra ikinci bazar günü keçirilir. Təkrar seçkilər isə ilkin seçkilərin nəticələri Konstitusiya Məhkəməsi tərəfindən etibarsız və ya baş tutmamış hesab edilərsə və Azərbaycan Respublikasının Prezidenti seçilməzsə, MSK-nın qərarı ilə təyin olunur.

Seçkilərin nəticələri elan olunmamışdan əvvəl onlar yoxlanılır. MSK seçkilərin nəticələrini müəyyən etdikdən sonra onlar Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə göndərilir. Konstitusiya Məhkəməsi Milli Məclisə seçkilərin nəticələrinin düzgünlüyünü yoxlayır və təsdiq edir, prezident seçkilərinin nəticələrini isə elan edir. Seçkilərin nəticələri dərc edilir.

§ 6. Referendum

Referendum xalqın iradəsinin birbaşa təzahür etdiyi hüquqi institutdur. Referendumda əhali ayrı-ayrı şəxslərə səs vermir, bu və ya digər məsələyə münasibətini bildirir. Referendum nəticəsində bir çox hallarda qanunlar qəbul olunduğundan bəzən onu birbaşa qanunyaradıcılığı

adlandırırlar. Referendum mahiyyətinə görə əhalinin dövlət idarəetməsində iştirakını təmin edən mexanizmdir. Ancaq bu zaman əhali, belə demək mümkünsə, hər idarəçilik qərarına deyil, ölkə üçün ən mühüm, ən əhəmiyyətli qərarlara münasibət bildirir. Bir qayda olaraq, referenduma çıxarılan məsələlər dövlət və cəmiyyət həyatı üçün taleyüklü məsələlər olur. Bu problemlər dövlətin və cəmiyyətin hər bir fərdin mənafeyinə dolayısı ilə də olsa toxunduğuna görə onlar referenduma çıxarılırlar. Referendumda xalqın iradəsi birbaşa təzahür edir. Burada artıq xalqın seçdiyi və onun iradəsini təhrif edə biləcək şəxslər yoxdur. Referendumun keçirilməsi hər bir dövlətdə dəqiq tənzimlənir. Bu da ondan irəli gəlir ki, referendum xalq iradəsini olduğu kimi aşkara çıxarmağa imkan verən ən mühüm məsələlər üzrə xalqın istəyinin, fikrinin üzə çıxdığı bir mexanizmdir. Burada xalq iradəsinin təhrif olunması və ya ondan sui-istifadə edilməsi bütün cəmiyyət və dövlət üçün ağır nəticələr verə bilər. Referendum bir çox xüsusiyyətlərinə görə seçkilərə oxşar olduğundan, onun nizamlanması seçki qanunvericiliyində müəyyənləşdirilmiş prosedura bənzəyir. Referendum müxtəlif növlərə malikdir. Predemetinə görə referendum konstitusion hüquqi, inzibati-hüquqi və s. ola bilər. Bu, referenduma çıxarılan məsələnin xarakterindən asılıdır.

Özünün keçirilməsinə görə referendum məcburi və fakultativ ola bilər. Məcburi referendumun keçirilməsi bir növ dövlət orqanları üçün vəzifədir. Məcburi referendum hər hansı bir məsələnin yalnız və yalnız referenduma çıxarılmaqla həlli üsuludur. Məcburi referendumun predmeti mütləq qanunla dəqiq şəkildə müəyyənləşdirilir. Azərbaycan Respublikasının Konstitusiyasının 3-cü maddəsinə görə, bura konstitusiyanın qəbul edilməsi və dəyişdiril-

məsi və Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi məsələləri daxildir. Bu məsələlər üzrə mütləq referendum keçirilməlidir ki, elə bu da məcburi referendumdur.

Fakultativ referendum dövlət orqanının nöqteyi-nəzərindən asılı olaraq, keçirilməsi məcburi olmayan referendumdur. Bu zaman dövlət orqanı konkret məsələ üzrə referendumun keçirilib-keçirilməyəcəyini müəyyənləşdirir. Konstitusiyanın 3-cü maddəsinin I hissəsinə görə, Azərbaycan xalqı öz mənafeyi və hüquqları ilə bağlı istənilən məsələni referendumla həll edə bilər. Burada artıq fakultativ referendumdan söhbət gedir. Fakultativ referendum üçün qoyulan yeganə şərt onun xalqın mənafeyi ilə bağlı olmasıdır.

Referendum özünün hüquqi nəticələrinə görə qəti və məşvərətçi ola bilər. Qəti referendumun nəticəsi dövlət və onun orqanları üçün məcburidir. Məşvərətçi referendumun nəticələri isə məcburi deyil və dövlət sonradan məsələnin həlli zamanı onu nəzərə almaya bilər. Məcburi referendumlar həmişə həm də qəti referendumdurlar, əks təqdirdə onların keçirilməsinin bir nəticəsi olmazdı. Məşvərətçi referendum, adətən, xalqın nəyəsə münasibətini öyrənmək istəyəndə keçirilir. Bu zaman qəbul olunacaq qərara əhalinin verəcəyi reaksiya müəyyən olunur və nəticələr də dövlət orqanları üçün məcburi olmadığından dövlətin qərarı dəyişmək, olduğu kimi saxlamaq, ona düzəlişlər etmək və öncədən qərara mənfi münasibət göstərildiyi halda, buna qarşı tədbirlər görmək imkanı olur.

Referendum qanunvericilik aktına münasibətdə qanunaqədərki və qanundansonrakı növlərə ayrılır. Qanunaqədərki referendum qanunverici orqanda referendumla bağlı akt qəbul olunmamışdan əvvəl keçirilir. Qanundansonrakı

referendum isə artıq qəbul olunmuş qanunu xalqın təsdiqinə vermək funksiyası daşıyır. Bir qayda olaraq, onun nəticələri məcburi olur.

Referendum özünün keçirilməsi miqyasına görə yerli, regional və ümumdövlət səviyyəsində olur. Yerli referendum ancaq müəyyən ərazinin əhalisinin mənafeyi ilə bağlı keçirilir. Ümumdövlət referendumu isə müvafiq olaraq bütün cəmiyyətin mənafeyi ilə bağlı məsələlər üzrə keçirilir. Azərbaycan Respublikasında yerli rəy sorğusu «Bələdiyyələrin statusu haqqında» qanunun 26-cı maddəsinə görə, əhalinin yerli özünüidarəetmədə iştirakının bir formasıdır. Yerli rəy sorğusu haqqında qərarı bələdiyyə, nizamnaməsinə uyğun olaraq, öz təşəbbüsü ilə və ya əhalinin tələbi əsasında qəbul edir.

Referendumun keçirilməsi seçkilərin keçirilməsi ilə analojidir. Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 18-ci bəndinə və 109-cu maddəsinin 18-ci bəndinə görə, referendum təyin etmək hüququ Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Milli Məclisnə mənsubdur. Referendum haqqında çıxarılan qərarda referendumun keçirilməsi tarixi və referenduma çıxarılan məsələ və ya məsələlər göstərilir, referendumu maliyyələşdirmə qaydası müəyyən olunur və referendumun keçirilməsi ilə əlaqədar digər məsələlər göstərilir. Referendum dövlət büdcəsindən maliyyələşdirilir. Konstitusiyanın mətninə dəyişikliklər edilməsi ilə bağlı referenduma çıxarılan məsələlərdə əvvəlcədən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin rəyi alınır. Referendum zamanı Mərkəzi, dairə və məntəqə referendum komissiyaları funksiyalarını müvafiq seçki komissiyaları həyata keçirir. MSK mərkəzi referendum komissiyasının funksiyalarını yerinə yetirir

və faktiki olaraq referendumu MSK keçirir. Referendum komissiyaları referendumun keçirilməsi işinə rəhbərlik edir, referendumun maddi-texniki məsələlərini həll edir, referendumun yekunlarını müəyyənləşdirirlər. MSK referendumun keçirilməsində bütün digər komissiyalara rəhbərlik edir, onlar üçün məcburi göstərişlər, metodik tövsiyyələr verir, referendum keçirilməsi üçün ayrılmış maliyyə vəsaitlərinin xərclənməsinə nəzarət edir, aşağı komissiyaların qanunsuz qərarlarını ləğv edir və s. səlahiyyətləri həyata keçirir. Referendumda iştirak etmək hüququ olan vətəndaş vahid seçici siyahısına daxil edilir (bu barədə əvvəlki paraqrafda məlumat verilmişdir). Referendumun gedişində müşahidəçilər iştirak edir. Səsvermə yeri və vaxtı haqqında əvvəlcədən kütləvi informasiya vasitələrində məlumat verilir. Səsvermə seçkilərdə olduğu kimi həyata keçirilir. Səsvermənin baş tutmaması əsasları da oxşardır. Referendumun son nəticələrini referendumdan sonra 25 gündən gec olmayaraq MSK elan edir. Referendumun nəticəsi 20 gün müddətində dərc edilir. Referendum nəticəsində qəbul olunmuş qərar qətidir və dərc edildiyi gün qüvvəyə minir. Referendumla qəbul olunan qərar ancaq referendum yolu ilə dəyişdirilə bilər. O, Azərbaycan Respublikasının bütün ərazisində məcburi qüvvəyə malikdir. Referendumun gedişi zamanı onun nəticələrinə təsir edən qanun pozuntuları baş veribsə və referendum məntəqələrinin 25 hissəsindən çoxunda səsvermənin nəticələri etibarsız sayıldıqda, referendumun nəticələri etibarsız sayılır.

VII BÖLMƏ

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HAKİMİYYƏTİ ORQANLARI

VII FƏSİL

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ

Konstitusiya hüququ dövlətin əsaslarını sadəcə olaraq təsbit etmir. Hər bir dövlətin atributlarından biri onun öz dövlət orqanlarına malik olmasıdır. Dövlət orqanları dövləti bir növ özündə maddiləşdirən, onu personifikasiya edən vasitələrdir. Adi vətəndaşların dövlət haqqında təsəvvürləri məhz dövlət orqanlarının fəaliyyəti əsasında formalaşır. Dövlət orqanları dövlətin öz funksiyalarını həyata keçirməsi üçün yaratdığı xüsusi təşkilatdır. Bu orqanlar dövlətin funksiyalarını realizə etmək üçün bütün vasitələrə - təşkilati və hüquqi vasitələrə, müəyyən kadr potensialına malik olmalıdır. Dövlət orqanları hər bir dövlətdə fərdidir. Doğrudur, bu və ya digər dövlətdə eyni funksiyaları yerinə yetirən, eyni cür adlanan dövlət orqanları vardır, lakin bu dövlət orqanları nə öz səlahiyyətlərinə, nə də öz iş metodlarına görə heç vaxt eyni olmurlar. Dövlət orqanları da bütün digər sosial təsisatlar kimi cəmiyyətdə mövcuddur və aydındır ki, onun da hərəkətverici qüvvəsi insanlardır.

İstənilən dövlət orqanı onu digər sosial təsisatlardan fərqləndirən müəyyən əlamətlərə malikdir. Elə bu əlamətlər də onu dövlət orqanı kimi xarakterizə etməyə əsas verir. Dövlət orqanı, hər şeydən əvvəl, dövlət tərəfindən yaradılır. Bundan başqa, dövlət orqanı hakimiyyə-

ti həyata keçirir. Cəmiyyətdə mövcud olan heç bir başqa təsisatın dövlət hakimiyyətini həyata keçirməyə, onu realizə etməyə əsası yoxdur. Dövlət hakimiyyətini həyata keçirmək imkanı dövlət orqanlarının ən əsas əlamətidir. Dövlət orqanı hakimiyyəti realizə etdiyindən dövlət adından çıxış edir. Onun fəaliyyəti dövlətin məcburetmə gücü hesabına təmin olunur. Dövlət orqanlarının hüquqi statusu normativ-hüquqi aktlarda, hüquqla müəyyən olunur. Onlar qanunla müəyyən edilmiş dəqiq səlahiyyətlərə malikdir. Bu səlahiyyətlər vasitəsilə də o, dövlətin hakimiyyətini, onun funksiyalarını həyata keçirir.

Dövlət orqanlarının hamısı birgə bir sistem, mexanizm kimi mövcuddurlar. Bu vahid sistemdə dövlət orqanları arasında iyerarxiya üzrə qurulmuş müəyyən əlaqələr vardır. Dövlət orqanı bir növ bütövlükdə dövlətin struktur vahididir. Bu sistemə daxil olan bütün struktur vahidləri müxtəlif yollarla eyni bir məqsədə - dövlətin məqsədlərini, hakimiyyəti realizə etməyə çalışırlar. Bu da sistemin vahidliyini təmin edir. Bu sistemdən kənarda dövlət orqanını nəzərdən keçirmək düzgün olmazdı. Çünki məhz sistem daxilində dövlət orqanları öz fəaliyyət sahəsində nisbi müstəqilliyə malik subeyktlər kimi çıxış edir.

Beləliklə, dövlət orqanı dövlət tərəfindən qanuna müvafiq olaraq yaradılan, onun adından çıxış edən və onun hakimiyyətini, funksiyalarını həyata keçirən dövlət mexanizminin nisbi müstəqil struktur vahidi və ya həlqəsidir. Bu anlayış dövlət mexanizminə və dövlət orqanlarının bu mexanizmdə rolunun necə anlaşılmasına əsaslanır və hüquqi-institusional yanaşma tərzini əks etdirir.

Bundan əlavə, dövlət orqanlarına sosioloji aspektdən yanaşma da mövcuddur. Bu halda dövlət orqanı xüsusi təşkilatlanmış, dövlət qərarları qəbul etmək səlahiyyəti-

nə malik kollektiv, insan məcmusu kimi başa düşülür. Hər iki anlayış eyni kateqoriyanın müxtəlif aspektlərini əks etdirir.

«Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanununda dövlət orqanına belə anlayış verilmişdir: «Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilmiş hüdudlarda Azərbaycan Respublikasının məqsəd və funksiyalarını həyata keçirən, qanunvericiliyə uyğun olaraq yaradılmış dövlət qulluqçularının qurumu dövlət orqanıdır». Məzmunundan göründüyü kimi, bu anlayış bütövlükdə yuxarıda şərh olunanlarla uzlaşır.

Yuxarıda göstərildiyi kimi, dövlət orqanlarının hərəkətverici qüvvəsi vətəndaşlardır. Bu insanlar müəyyən prosedurdan keçərək (seçki və ya təyinat), dövlət adından danışmaq, onun hakimiyyətini həyata keçirmək imkanı əldə edirlər. Hüquqi cəhətdən bu, onların təşkilatlanmasında (iyerarxiya münasibətləri, dəqiq müəyyənləşdirilmiş hüquqi status) digər sosial təsisatlara münasibətdə bütöv, müstəqil orqanizm kimi çıxış etməsində təzahür edir.

Dövlət orqanlarının sistemliliyi onların mexaniki deyil, müəyyən nizama, daxili qaydaya tabe olan bir struktur kimi təşkil olunmasını, qurulmasını tələb edir. Bu cür dəqiq təşkilatlanma olmadan dövlət orqanlarının birgə qarşılıqlı fəaliyyət göstərməsi qeyri-mümkündür. Hakimiyyət orqanları sistemində müxtəlif səlahiyyətlərə, hüquqi statusa malik olan orqanlar mövcuddur. Onların bir çoxu eyni bir predmetə, problemlə bağlı fərqli səlahiyyətlərə malikdirlər. Mürəkkəb ictimai proseslərdə bu orqanlar arasında ziddiyyət yaranmasın deyə onlar iyerarxiya əlamətlərinə malikdirlər. İyerarxiya əlaməti onu bildirir ki, aşağı orqanlar müəyyən əsaslar üzrə daha yuxarı orqan-

ların göstərişlərinə tabedir və onun göstərişlərini yerinə yetirməlidir (şaquli münasibətlər). Bundan başqa, dövlət mexanizmində üfüqi münasibətlər də mövcuddur. Xarakterinə görə fərqli olan, lakin dövlət hakimiyyəti orqanları ilə eyni pillədə duran orqanlar arasında münasibətlər üfüqi münasibətlərdir. Üfüqi münasibətlər əlaqəyə girən tərəflərin hüquqi statusca bərabərliyinə əsaslanır. Dövlət orqanları içərisində bütün sistemə rəhbərlik edən, həm səlahiyyətlərinə, həm də sistemə təsir imkanlarına görə digər orqanlardan fərqlənən orqanlar ali hakimiyyət orqanlarıdır. Bu orqanlar ya əhali tərəfindən birbaşa seçilir (məsələn, prezident, Milli Məclis), ya da öz səlahiyyətlərinə, hüquqi statusuna görə aid olduğu sistemdə aparıcı kimi, mərkəzi orqan kimi çıxış edir (məsələn, Konstitusiya Məhkəməsi məhkəmə orqanları sistemində). Digər bütün orqanlar bu və ya digər dərəcədə ya ali hakimiyyət orqanlarından tam asılıdır və onlar tərəfindən formalaşdırılır, ya da yuxarı orqanlar onların fəaliyyətinə birbaşa müdaxilə etməsə də, onlara görə müəyyən üstünlüklərə malikdirlər və bu üstünlüklər aşağı orqana təsir etməyə imkan verir. Məsələn, icra hakimiyyəti orqanları sistemi aşağıdan yuxarıya daha güclü iyerarxiyaya malikdir. Burada ali icra hakimiyyəti orqanı - prezident istənilən aşağı orqana iyeraxiyada tutduğu yerdən asılı olmayaraq, birbaşa göstəriş verə bilər. Əksinə, məhkəmə sistemində iyerarxiya bir qədər başqadır. Burada sistemdaxili bütün münasibətlər qanunla dəqiq formalaşdırılıb və prosessual münasibətlərdən başqa, yuxarı məhkəmənin aşağı məhkəməyə təsir imkanı yoxdur. İyerarxiyanın yuxarı pilləsində duran məhkəmə aşağı pillədə duran məhkəməyə onun fəaliyyəti ilə bağlı məcburi, konkret işin həlli ilə əlaqədar heç bir göstəriş verə bilməz. Yuxarı

məhkəmə orqanı ancaq aidiyyatı üzrə aşağı məhkəmənin çıxardığı qərarın qanuni və əsaslılığını yoxlaya bilər ki, bu da məhkəmə sistemində olan iyerarxiyanı əks etdirir. Göründüyü kimi, ali hakimiyyət orqanları ilə aşağı hakimiyyət orqanları arasındakı münasibətlər həmin orqanların fəaliyyətindən və metodlarından asılıdır.

Konstitusiya ali hakimiyyət orqanlarının yaradılmasını və fəaliyyətini nisbətən dəqiqliklə tənzim edir. Bu da təbiidir, çünki dövlətin, onun orqanlar sisteminin əsasını məhz bu orqanların özləri təşkil edir və dövlət siyasətinin formalaşdırılmasında onların müstəsna əhəmiyyəti vardır. Dövlətə ən çox təsir etmək imkanı olan məhz ali hakimiyyət orqanlarıdır.

§ 1. Milli Məclis qanunverici orqan kimi

Azərbaycan Respublikasında hakimiyyət bölgüsünə uyğun olaraq, dövlət hakimiyyəti özünün üç əsas funksiyası üzrə bölünməklə təşkil edilir. Hər bir funksiya ayrı orqanda lokalizə edilir və bu orqan digər funksiyanı daşıyan orqanlara münasibətdə onun müstəqilliyini təmin edən müəyyən səlahiyyətlərə malik olur. Azərbaycan Respublikasında belə orqanlardan biri Azərbaycan Respublikasının Milli Məclisidir.

Milli Məclis ən əsas və aparıcı dövlət orqanlarından biridir. Buna səbəb odur ki, ölkədə hamının riayət etməli olduğu hüquq normalarını məhz bu orqan yaradır. Bununla belə, Milli Məclis digər ali hakimiyyət orqanları ilə (prezident və Konstitusiya Məhkəməsi) eyni səviyyədə durur və onlarla olan münasibətləri də bərabərlik əsasında qurulur. Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 81-ci maddəsinə görə, qanunvericilik hakimiyyətini həyata keçirir.

Bizim konstitusiyada birbaşa göstərilməsə də, bir çox ölkələrin konstitusiyalarında qanunverici orqanın həm də ümumxalq təmsilçiliyi orqanı olması əks olunur. Azərbaycan Respublikasında da qanunverici orqan təmsilçi orqandır və bütün xalqın adından çıxış edə bilər. Qanunverici orqanların bu iki əsas funksiyası (qanunvericilik və təmsilçilik) müxtəlif cür təmin olunur və bu funksiyaların özü də müəyyən fərqli realizə formalarına malikdir. Məsələn, dünyanın bir çox ölkələrində qanunvericilik funksiyasını yalnız parlament deyil, parlamentlə yanaşı, onunla az-çox əlaqəsi olan digər orqanlar da həyata keçirir. Məsələn, İtaliya və Yunanıstanda parlamentin komissiyaları bir sıra məsələlər üzrə özləri qanun qəbul etmək səlahiyyətinə malikdirlər. İndoneziyada, Türkmənistanda parlamenti və bir sıra vəzifəli şəxsləri öz içinə alan daha bir orqan (parlamentüstü) - Xalq Maslahatı (Türkmənistan) və Konqress (İndoneziya) də qanunlar qəbul edir. Təmsilçilik funksiyası, adətən, hər hansı orqanla bölünmür və birbaşa parlament tərəfindən həyata keçirilir. Azərbaycan Respublikasında parlament Sovet İttifaqı zamanında da mövcud olmuşdur.

Konstitusiyalarda, adətən, parlament üzvlərinin (parlamentarilərin) statusunun əsasları nizama salınır. Bununla da konstitusiya parlamentə təsir edir. Bundan başqa, qanunverici orqanın səlahiyyətləri və fəaliyyət formaları da orada əks olunur. Azərbaycan Respublikasının Konstitusiyasına görə, parlament 125 nəfərdən ibarətdir. Məhz seçilməsi parlamentə təmsilçilik və qanunvericilik funksiyalarını həyata keçirmək üçün imkan verir. Seçilmək əhalinin daha çox arzuladığı şəxslərin parlamentə düşməsinə, ən müxtəlif sosial təbəqələrin parlamentdə yer almasına səbəb olur ki, bu da qanunverici orqana təmsilçi-

lik funksiyasını yerinə yetirməyə imkan verir. Parlamentin seçilməsi qaydası onun fəaliyyətinə və tərkibinə kəskin təsir etdiyindən konstitusiyalar, adətən, seçkinin əsaslarını müəyyən edir. Azərbaycan Respublikasının Konstitusiyasının 83-cü maddəsinə görə, Milli Məclis majoritar seçki sistemi, ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər. 24 avqust 2002-ci il tarixli referendumla Konstitusiyaya dəyişikliklər edilənədək Milli Məclis majoritar və proporsional seçki sistemləri əsasında təşkil olunurdu. Seçki sistemləri ölkənin inkişafından, siyasi sistemindən asılı olaraq müəyyən edilir. Bir çox hallarda hər iki seçki sisteminin mənfi tərəflərini aradan qaldırmaq üçün hər iki əsas seçki sistemi birləşdirilir və müəyyən nisbətlə tətbiq edilir. Buna misal olaraq Almaniya Federativ Respublikasını, Rusiya Federasiyasını göstərə bilərik. Azərbaycan Respublikasında parlament nisbi majoritar seçki sistemi əsasında formalaşdırılır.

Hər bir parlament müəyyən müddətə seçilir. Tərkibi yeniləşməyən parlament diktatordan yalnız özünün say tərkibinə görə fərqlənir. Parlamentin yeniləşməsi müəyyən məqsədlə bağlıdır. Birincisi, parlamentin bürokratikləşməsinin və cəmiyyətdən aralanmasının qarşısı alınır. İkincisi, vaxtaşırı cəmiyyətin yeni fikir və ideylarını özündə cəmləyən, yeni sosial maraqları əks etdirən insanlar parlamentə daxil olur, yəni parlamentin cəmiyyətdəki maraqları adekvat əks etdirməsi və zamanla onun uyğunlaşması təmin edilir. Üçüncüsü, artıq seçici korpusu üçün arzuolunmaz şəxslər parlamentdən kənarlaşdırılır.

Müxtəlif ölkələrdə parlamentin fəaliyyət müddəti azçox bir-birindən fərqlənir. Bir sıra ölkələrdə parlament

rotasiya qaydasında yenilənir. Məsələn, ABŞ-də parlamentin yuxarı palatası olan Senatın tərkibinin 1/3 hissəsi hər 2 ildən bir yenilənir və bunun da nəticəsində parlamentə daim cəmiyyətin yeni fikir və maraqlarını təmsil edən üzvlər daxil olur.

Parlamentlər quruluş etibarilə ikipalatalı və birpalatalı olur. İkipalatalı parlamentin palataları, adətən, onun müəyyən fərqlərə malik olan iki hissəyə bölünməsini ifadə edir. Bu palatalar bir-birindən ya səlahiyyətlərinə, ya yaradılma qaydasına, ya da fəaliyyət müddətinə və formasına görə müəyyən fərqlərə malik olurlar. Parlamentin palatalara bölgüsü tarixi inkişafın nəticəsidir və ilk olaraq yuxarı palata parlamentə qarşı duran monarxın tərəfdarlarından təşkil olunurdu. Yuxarı palata, adətən, monarxın maraqlarını müdafiə etməliydi. Tarxi inkişafın sonrakı dövrlərində mütləq monarxiyanın aradan çıxması, federal dövlətlərin yaranması monarxın maraqlarını müdafiə etməli olan yuxarı palatanın da öz funksiyasını dəyişməsinə gətirib çıxardı. Hal-hazırda yuxarı palata, adətən, federal dövlətlərdə olur və federasiya subyektlərinin maraqlarına xidmət edir. Palatalar arasındakı fərqlər də getdikcə azalır. Bəzi unitar dövlətlərdə də yuxarı palata qalmaqdadır. Bu halda yuxarı palata daha çox aşağı palataya münasibətdə onun qanunlarını bir növ süzgəcdən keçirir və tələsik qəbul oluna biləcək qanunların qarşısını alır.

Azərbaycan Respublikası unitar dövlətdir və parlamenti də birpalatalıdır. Müqayisə üçün qeyd edək ki, Rusiya Federasiyası federal quruluşa malikdir və parlamentin yuxarı palatası - Federasiya Şurası federasiya subyektlərinin maraqlarını təmsil edir. Ona görə də burada hər

federasiya subyektindən iki nümayəndə (biri icra hakimiyyətindən, digəri qanunverici orqandan) təmsil olunur.

Parlamentin lazımi şəkildə formalaşdırılması üçün konstitusiya parlamentə seçiləcək şəxslər üçün müəyyən senzlər nəzərdə tutur. Bu senzlər orta əsrlərdə olduğu kimi insanların haqqını məhdudlaşdırmağa deyil, əksinə, onların hüquqlarının layiqli realizə edilməsini təmin etməyə yönəlib. Belə ki, bu senzlər əslində seçkilərin mahiyyətindən doğan obyektiv çatışmazlıqları korrektə edir. Azərbaycan Respublikası Konstitusiyasının 85-ci maddəsinə görə, yaşı 25-dən aşağı olmayan hər bir vətəndaş parlamentə seçilə bilər. İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilmiş şəxslər, ağır cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər deputat seçilə bilməzlər. Bu məhdudiyyətlərin hər biri sistemdə müəyyən rola malikdir. Məsələn, digər hakimiyyət orqanlarında işləməklə əlaqədar qoyulan məhdudiyyət hakimiyyət bölgüsü prinsipini, din xadimləri ilə əlaqədar məhdudiyyət isə dünyəvilik prinsipini təmin etmək üçündür. Yaş məhdudiyyəti isə şəxsin zəruri dünyagörüşünə və həyat təcrübəsinə malik olması üçündür. Bunlar olmadan, aydındır ki, təmsilçilik qüsurlu olacaq.

Azərbaycan Respublikası Konstitusiyasının 86-cı maddəsinə görə, Konstitusiya Məhkəməsi seçkilərin düzgünlüyünü yoxlayır və təsdiq edir ki, bu da seçkilərin saxtalaşdırılmasının qarşısını alır. Konstitusiya Məhkəməsi

obyektiv və bitərəf orqan kimi seçkilərə hüquqi qiymət verməlidir.

Hər bir parlament müəyyən şəkildə fəaliyyət göstərir. Parlamentlər, bir qayda olaraq, peşəkar əsaslarla daimi fəaliyyət göstərir. Azərbaycan Respublikasının parlamenti Konstitusiyanın 88-ci maddəsinə görə, sessiyalar qaydasında fəaliyyət göstərir. Bu dövrdə parlament qanun layihələrinə baxır və qanunlar qəbul edir, digər məsələləri həll edir. Milli Məclis hər il iki növbəti yaz və payız sessiyaları keçirir. Yaz sessiyası fevralın 1-də başlanır və mayın 31-dək davam edir. Payız sessiyası isə sentyabrın 30-da başlanır və dekabrın 30-dək davam edir. Sessiyanın seçkidən sonra başlanması üçün 83 deputatatın səlahiyyətlərinin təsdiqi zəruridir. Bu cür say məhdudiyyətinin qoyulmasında məqsəd müəyyən bir azlığın parlament adından danışması və onun funksiyalarını yerinə yetirməyə cəhd etməsinin qarşısını almaqdan ibarətir.

Parlament daxilində deputatların tam və sərbəst öz vəzifələrini yerinə yetirməsi üçün onlara müəyyən imtiyazlar verilir. Bu imtiyazlar deputat immuniteti və indemnitetindən ibarət olub, onun statusunun tərkib hissəsidir. Deputat immuniteti Konstitusiyanın 90-cı maddəsində, indeminitet isə Konstitusiyanın 91-ci maddəsində təsbit olunmuşdur. İmmunitet deputatın müəyyən hüquqi təsir vasitələrindən azad olmasını ifadə edir. Belə ki, cinayət başında yaxalanma halları istisna olmaqla, deputat cinayət məsuliyyətinə cəlb edilə bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz və s. Cinayət başında yaxalandıqda isə onun tutulması üçün xüsusi qayda müəyyən edilir. İndemnitet daha çox fikir və söz azadlığı ilə bağlıdır və deputatın bu

hüquqlarının həyata keçirilməsi üçün əlavə təminatlar müəyyən edir. Söz və fikir azadlığı deputat fəaliyyəti üçün xüsusi əhəmiyyətə malikdir. Deputat Milli Məclisdə fəaliyyətinə və söylədiyi fikirlərə görə məsuliyyətə cəlb edilə bilməz. İndemnitet anlayışına, həmçinin deputatın öz fəaliyyətinə görə haqq (məvacib) almaq hüququ da daxildir.

Qanunverici orqan işini bilavasitə özü təşkil edir. Parlamentin daxilində işin nizamlanması üçün Milli Məclisin Daxili Nizamnaməsi mövcuddur.

Milli Məclis komitələr və komissiyalar yaratmaqla da fəaliyyət göstərir. Milli Məclisin komitələri onun tərkib hissəsidir və qanunvericilik prosesində mühüm rola malikdirlər. Müxtəlif qanunvericilik sahələri üzrə ixtisaslaşan komitələr Milli Məclis Aparatının, mütəxəssislərin və ekspertlərin xidmətindən də istifadə etməklə qanunvericilik prosesində xüsusi biliklərin olmamasından yaranan boşluqları doldurur.

Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyətinin hüquqi formaları qanunlar və qərarlardır. Milli Məclisin fəaliyyəti, bir qayda olaraq, bu iki növ aktda rəsmiləşdirilir.

Konstitusiya qanunları da qanunların xüsusi növüdür, lakin Milli Məclisin normayaradıcılıq fəaliyyətində adi qanunlar üstünlük təşkil edir. Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin II hissəsinə görə, Azərbaycan Respublikası Prezidentinin seçkiləri, Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər və Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının statusu və referendum haqqında məsələlərə dair qanunlar 83 səs çoxluğu ilə, qalan məsələlərə dair qanunlar isə 63 səs çoxluğu ilə qəbul edilir. Əslində qanunvericilik akt-

larının bu cür fərqləndirilməsi sırf nəzəri xarakter daşıyır, çünki bu növ aktlar arasında hər hansı bir hüquqi fərq yoxdur. Qanunlarda hər hansı məsələnin nəyə görə başqa cür deyil, məhz bu cür nizamlanması göstərilmir, yəni nizamasalma arqumentasiya edilmir, bununla belə, artıq qanunvericilik praktikasında bu cür qanuna da rast gəlmək olar. Məsələn, hazırda hüquqi qüvvəsini itirmiş olsa da "Mərkəzi Seçki Komissiyası haqqında qanuna dəyişiklik edilməsi haqqında" 1 iyul 2000-ci il tarixli qanun buna misal ola bilər. Bu qanun özündə dəyişikliyin edilməsi zərurətini müəyyən edir (arqumentasiya), daha sonra edilən dəyişikliyi müəyyənləşdirirdi. Bu qanun Azərbaycan Respublikasında müxalifət qüvvələrin qanunla onlara verilmiş imkandan sui-istifadəsinə qarşı qəbul olunmuşdur və onun qəbulu xüsusi halla şərtlənmişdir. Güman etmək olar ki, bu praktika (arqumentasiya olunmuş qanun) gələcəkdə də xüsusi hallar ortaya çıxdıqda, qanunverici orqanın verdiyi reaksiya forması kimi istifadə oluna bilər.

Qərarlar isə Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin birinci hissəsinin I-V bəndlərində nəzərdə tutulan məsələlərdən başqa, həmin maddədə təsbit olunmuş digər məsələlər üzrə qəbul edilir. Konstitusiyanın 95-ci maddəsinin 3-cü hissəsinə müvafiq olaraq, Azərbaycan Respublikasının Milli Məclisinin səlahiyyətlərinə aid edilən digər məsələlərə, Azərbaycan Respublikasının Milli Məclisinin işinin təşkili ilə əlaqədar məsələlərə, Azərbaycan Respublikasının Milli Məclisinin münasibətinin bildirilməsi zəruri olan məsələlərə dair də qərarlar qəbul edilir.

§ 2. Milli Məclisin səlahiyyətləri

Hər bir dövlət hakimiyyəti orqanının hüquqi statusunun ən vacib əlaməti və xüsusiyyəti onun səlahiyyət dairəsi ilə ölçülür. Məhz səlahiyyətlər vasitəsilə biz onun orqanlar sistemində tutduğu yerini müəyyən edirik və onun digər orqanlara təsiri ilə bağlı mülahizələr yürüdürük. Konstitusiya parlamentin səlahiyyətlərini iki qrupa ayırır: Milli Məclisin müəyyən etdiyi ümumi qaydalar və Milli Məclisin həll etdiyi məsələlər. Əslində Konstitusiyanın 94-cü maddəsində bir səlahiyyətin - qanun vermək, məcburi qayda müəyyən etmək səlahiyyətinin məzmunundan söhbət gedir. Ümumi qayda müəyyən edilməsi Milli Məclis tərəfindən hüquq norması müəyyən edilməsini nəzərdə tutur. Milli Məclisin həll etdiyi məsələlər onu hakimiyyətin digər budaqları ilə əlaqələndirən və hakimiyyət bölgüsündə iştirak etməyə imkan verən səlahiyyətlərindən təşkil olunub. Milli Məclisin müəyyən etdiyi ümumi qaydalar isə qanunvericilik funksiyasının həyata keçirilməsi - norma yaradıcılığı ilə bağlıdır.

Öz səlahiyyətləri sisteminə görə parlamentlər 3 qrupa bölünür:

1) Məhdud səlahiyyətli parlamentlər.
2) Qeyri-məhdud səlahiyyətli parlamentlər.
3) Nisbi-məhdud səlahiyyətli parlamentlər.

Məhdud səlahiyyətli parlamentlərin səlahiyyətləri qanunvericilikdə dəqiq müəyyənləşdirilir və onların genişləndirilməsi imkanı olmur. Bu tip parlamentlərin səlahiyyətləri, ümumiyyətlə, az olur və onların digər hakimiyyət orqanlarına təsir imkanı zəifdir. Məsələn: İran parlamenti və s.

Qeyri-məhdud səlahiyyətli parlamentlərin səlahiyyətləri qismən qanunvericilikdə dəqiqləşdirilir və digər ha-

kimiyyət budaqlarına aid edilməyən bütün məsələlərin həlli bu orqana tapşırılır. Qeyri-məhdud səlahiyyətli parlamentə klassik misal Böyük Britaniya parlamentidir. Burada parlamentin aliliyi prinsipi hökm sürür və ingilis hüquqşünaslarının yumoru ilə deyilsə: "Britaniya parlamenti kişini qadına və ya əksinə, qadını kişiyə çevirməkdən başqa hər şeyə qadirdir."

Nisbi məhdud səlahiyyətli parlamentlərin səlahiyyətləri qanunvericilikdə dəqiq müəyyənləşdirilir, bununla belə, onların artırılması üçün mexanizm də mövcud olur. Azərbaycan Respublikasının parlamenti bu qrupa daxildir. Belə ki, Konstitusiyanın 94-cü və 95-ci maddələrinin III və IV hissələrində həmin maddələrə əlavələr edilməsinin mümkünlüyü müəyyənləşdirilir. Başqa sözlə, Milli Məclisin səlahiyyətləri genişləndirilə bilər.

Səlahiyyətlər Milli Məclisin faktiki fəaliyyət imkanlarını, dövlət idarəetməsinə təsirini birbaşa müəyyən edir. Səlahiyyətlər müxtəlif cür qruplaşdırılır. Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsində Milli Məclisin qanun vermək səlahiyyətinin predmetindən söhbət gedir və Milli Məclisin hansı məsələlər üzrə norma yaradacağı müəyyənləşdirilir. Bütün maddə norma müəyyən etmək səlahiyyətinin məzmunundan ibarətdir. Bu maddədə göstərilənlər üzrə Milli Məclis yalnız norma müəyyən edir və buradakı bəndlərin realizə edilməsi üçün edilən hərəkətlər xaraktercə eynidir (qanunun qəbulu prosedurası). Buradan açıq-aydın görünür ki, Milli Məclisin sosial həyatın çox geniş sahələri üzrə norma yaratmaq imkanları vardır. Buraya dövlət həyatından tutmuş (məhkəmə, notariat, müdafiə və hərbi qulluq və s.) bir çox sosial əhəmiyyətli məsələlər daxildir (referendum, bələdiyyə seçkiləri və statusu, ailə məsələləri və

s.). Məhz burada göstərilən sferalar üzrə qanun vermək səlahiyyətini həyata keçirməklə Milli Məclis dövlət siyasətinin əsaslarını formalaşdırır.

Konstitusiyanın 95-ci maddəsində əks olunan səlahiyyətlər isə yekcins deyildir. Onlar arasında fərqlər daha çoxdur. Bununla belə, bu səlahiyyətlər qanunverici orqana icra hakimiyyətinə nəzarət imkanı verir. Milli Məclisin həll etdiyi məsələlər elə qurulub ki, bunlar icra hakimiyyəti başçısının çoxşaxəli fəaliyyətinin müxtəlif sferalarına müəyyən dərəcədə nəzarət etməyə imkan verir. Məsələn, prezidentin müraciətinə əsasən Milli Məclisin sülh bağlanması və müharibə elan edilməsi məsələlərinə razılıq verməsi (95-ci maddənin 17-ci bəndi), diplomatik nümayəndəliklərin təsis edilməsi (prezidentin təqdimatı əsasında), dövlətlərarası müqavilələrin təsdiq və ləğv edilməsi icra hakimiyyətinin xarici siyasət fəaliyyətinə nəzarət etməyə imkan verir. Dövlət büdcəsinin təsdiqi və onun icrasına nəzarət, Milli Bankın İdarə Heyətinin vəzifəyə təyin olunan üzvlərinin prezidentin təqdimatı əsasında vəzifəyə təyin və azad edilməsi maliyyə sahəsində icra hakimiyyətinin fəaliyyətinə nəzarət etmək üçündür. Bu sahədə Milli Məclisin tam müstəqilliyini təmin etmək, yəni onun icra hakimiyyətinin məlumatlarından asılı vəziyyətə düşməməsi üçün ona Hesablama Palatası yaratmaq imkanı verilmişdir. Məhkəmə hakimiyyətinə münasibətdə icra hakimiyyətinin fəaliyyətini nəzarətdə saxlamaq üçün məhkəmə sisteminin başında duran orqanların hakimləri və baş prokuror Milli Məclisin razılığı ilə təyin edilir. Nazirlər Kabineti başçısının - Baş nazirin təyininə razılıq verməklə Milli Məclis icra hakimiyyətinin ən əsas orqanına nəzarət edir. Prezidentin xüsusilə vacib fərmanları (məsələn, fövqəladə vəziyyət və

hərbi vəziyyət tətbiq edilməsi ilə bağlı fərman) Milli Məclisin təsdiqinə verilir. Bu səlahiyyətlərin Milli Məclis tərəfindən həyata keçirilməsi elə onların tamamilə qanunverici orqanın səlahiyyəti olması demək deyil.

Tarixi təkamül prosesində ali hakimiyyət orqanları arasında şəraitdən, dövrdən, ölkənin siyasi sistemindən asılı olaraq, fəaliyyət sahələri biri-birinə qovuşur, yaxınlaşır və ya tamam ayrılıb təcrid olunur. Bu cür fəaliyyət sahələrinin kəsişməsi xarakterə bir orqana məxsus olan səlahiyyətin başqa orqana verilməsi şəklində təzahür edir. Bu cür səlahiyyətlər sistemində yayınmaların olması hakimiyyət bölgüsü çərçivəsində müxtəlif orqanların qarşılıqlı sıx əlaqəsini təmin etmək üçün zəruridir. Odur ki, qanunverici orqanda da mahiyyətcə ədalət mühakiməsinə xas olan səlahiyyət (amnistiya, impiçment məsələsini mahiyyəti üzrə həll etmək) bir çox ölkələrin qanunverici orqanlarında vardır və bu xüsusiyyətlər Azərbaycan Respublikasının da qanunverici orqanına xasdır. Belə səlahiyyətlərə amnistiya, impiçmentdə iştirak, nəzarətlə bağlı (icra hakimiyyətinə xas olan səlahiyyət kimi) səlahiyyətlər daxildir.

Bir sıra ölkələrdə səlahiyyətlərin delegiyası institutu nəzərdə tutulur. Səlahiyyətlərin delegiyası bir orqanın ona məxsus olan səlahiyyətlərin realizə olunması imkanını başqa orqana verməsidir. Səlahiyyətlərin delegiyası, adətən, qanunverici orqanla icra hakimiyyəti arasında olur (bir qayda olaraq, qanunvericinin səlahiyyətləri icra hakimiyyəti orqanlarına ötürülür). Bu mexanizmin qurulmasında əsas məqsəd operativlik və informasiyanın peşəkar analizini tələb edən məsələlərlə bağlı baş verən mümkün problemləri aradan qaldırmaq üçün səlahiyyətin daha geniş imkanlı və məsələyə tez reaksiya verə bilən

orqana ötürülməsidir. Delegiya, həmçinin səlahiyyətlər sistemində baş verən potensial kolliziyaların qarşısını almaq üçün də istifadə olunan mexanizmdir. Bir çox ölkələrdə bələdiyyələrin inkişafı və idarəçilikdə üzərinə düşən yükün gələcəkdə artması nəzərə alınaraq, icra hakimiyyəti orqanlarının öz səlahiyyətlərini onlara delegiya etməsi imkanı nəzərdə tutulur. Bu cür qayda Azərbaycan Respublikasının Konstitusiyası ilə də nəzərdə tutulur. Belə ki, Konstitusiyanın 144-cü maddəsinin II-ci hissəsinə görə, bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri tərəfindən əlavə səlahiyyətlər də verilə bilər. Bu səlahiyyətlərin həyata keçirilməsi üçün bələdiyyə üzrə müvafiq zəruri maliyyə vəsaiti də ayrılmalıdır. Belə səlahiyyətlərin həyata keçirilməsinə müvafiq olaraq qanunvericilik və icra hakimiyyətləri nəzarət edirlər.

§ 3. Milli Məclisin fəaliyyəti

Bütün digər dövlət orqanları kimi, Milli Məclis də fəaliyyəti və fəaliyyət formaları dəqiq nizamlanan orqandır. Dövlət hakimiyyəti orqanları sistemində tutduğu yerə görə onun fəaliyyəti yalnız cari qanunvericilikdə deyil, həm də konstitusiya səviyyəsində tənzimlənir. Fəaliyyət, Milli Məclisin öz funksiyalarını həyata keçirməsi üçün qanunla təsbit edilmiş üsul və vasitlərdən istifadə edərək, ona verilmiş imkanları realizə etməsidir. Bu fəaliyyətə hakimiyyət bölgüsü çərçivəsində nəzarət edilir, onun nəticələri hüquqi fakt hesab olunur və müəyyən dəyişikliklərə səbəb olur. Dövlət orqanlarının fəaliyyəti qanunla müəyyən edilən məcrada daim, arası kəsilmədən davam edən prosesdir. Milli Məclisin də fəaliyyəti belədir. Lakin nəzərə almaq lazımdır ki, Milli Məclisin fəaliyyətinin bütün istiqamətləri konstitusiya ilə tənzimlən-

mir. Bu fəaliyyətin bir sıra istiqamətləri cari qanunvericilikdə təsbit olunmuşdur. Milli Məclisin daxili təşkilatlanması və onun fəaliyyətinin bir sıra aspektləri Milli Məclisin Daxili Nizamnaməsi ilə müəyyənləşdirilir.

Dövlət orqanlarının fəaliyyəti qanunla müəyyənləşdirilmiş şəkildə, müxtəlif üsullarla həyata keçirilir ki, bu üsullar da fəaliyyətin formaları hesab olunur. Fəaliyyət formaları istifadə olunan metodlara görə iki hissəyə bölünür: təşkilati fəaliyyət formaları və hüquqi fəaliyyət formaları. Bir çox hallarda hər iki fəaliyyət növü təşkilati-hüquqi formalar adı altında birləşdirilir. Bu da ondan irəli gəlir ki, bölgü çox şərtidir və hər iki fəaliyyət formaları, demək olar ki, təcrid olunmadan, bir-biri ilə vəhdət halında mövcuddurlar. Təşkilati və hüquqi formalar bir-birini şərtləndirir və onlardan birinin olmaması artıq fəaliyyətin bir hüquqi fəaliyyət kimi digərlərindən fərqlənməməsi deməkdir. Təşkilati fəaliyyət formaları fəaliyyətin nəticələri ilə birbaşa bağlı deyildir. Onlar daha çox proses şəklində çıxış edirlər və əsas vəzifə də qarşıya qoyulan məqsədə çatmaq üçün dinamik şəkildə fikir mübadiləsi etməyə nail olmağın yollarını aşkara çıxarmaqdır. Təşkilati fəaliyyət formaları qanunla nə qədər dəqiq nizamlansa da, həmişə qanunvericilik burada sərbəstlik üçün mümkün qədər çox yer qoyur.

Milli Məclisin təşkilati fəaliyyət formalarına onun sessiyaları və komitələrinin iclasları daxildir. Hüquqi fəaliyyət formalarının isə nəticələri qeyd (təsbit) edilir. Hüquqi fəaliyyət formaları qəbul olunmuş qərarlara hüquqi qüvvə verən, onları hüquqi şəklə salan formalardır. Qanunvericlik hüquqi formaların müəyyənləşdirilməsində həmişə dəqiqliyə can atır, çünki burada ortaya çıxan hər hansı boşluq, problem qəbul olunan qərarda bilavasitə

əks olunacaqdır. Hüquqi fəaliyyət formaları fəaliyyətin xarakterindən, növündən asılı olaraq, bir çox hallarda fərqləndirilir. Başqa sözlə, fəaliyyət formalarının diferensiasiyası prosesi gedir. Milli Məclisin hüquqi fəaliyyət formalarına qanunlar və qərarlar daxildir. Lakin nəzərə almaq lazımdır ki, bu formalar yalnız vəhdətdə mövcuddur. Hüquqi forma (qanun) təşkilati formanı yaradır, ləğv edir (qanunla komitələr təşkil olunur və ona uyğun fəaliyyət göstərir) və əksinə, təşkilati formaların nəticəsi hüquqi formaları ərsəyə gətirir (Milli Məclisin sessiyalarında qanun və qərar qəbul olunur).

Milli Məclisin bilavasitə funksiyalarını həyata keçirmək üçün onun sessiyalarından istifadə olunur. Sessiya qanunla müəyyənləşdirilmiş elə zaman kəsiyidir ki, bu dövr ərzində Milli Məclis öz funksiyalarını bilavasitə yerinə yetirir, yəni qanunları qəbul edir, onlara dəyişikliklər, əlavələr edir və müvafiq hallarda onları ləğv edir, səlahiyyətinə aid olan digər məsələlər üzrə qərarlar qəbul edir. Sessiyaların keçirilməsi üçün müəyyən sayda şəxsin (deputatın) olması (Milli Məclisin seçkidən sonra ilk iclasının keçirilməsi üçün 83 deputatın səlahiyyətinin tanınması və ya sessiyanın iclaslarında kvorum olması üçün 83 deputatın iştirakı) vacibdir. Sessiyalar iki növə bölünür: növbəti sessiyalar və növbədənkənar sessiyalar. Növbəti sessiya qanunvericilikdə müəyyənləşdirilmiş ardıcıllıqla keçirilən sessiyadır. Növbədənkənar sessiyalar, qanunvericilikdə nəzərdə tutulmuş müddətdən daha tez, bu müddətlə üst-üstə düşmədən və sessiyalararası vaxtda keçirilən sessiyalardır ki, onlar, bir qayda olaraq, qısamüddətli olur. Növbədənkənar sessiyalar bir növ dövlət səviyyəsində müəyyən hadisəyə Milli Məclisin dərhal reaksiya verməsi üçün nəzərdə tutulan təşkilati for-

madır. Növbədənkənar sessiya Prezidentin və ya 42 deputatın tələbi əsasında Milli Məclisin sədri tərəfindən çağrılır. Elə onlar da növbədənkənar sessiyanın gündəliyini müəyyən edir və həmin məsələlərə baxdıqdan sonra növbədənkənar sessiyanın işi bitir. Əks təqdirdə növbədənkənar sessiyadan sui-istifadə ehtimalı yaranır ki, bu zaman ondan adi sessiya kimi istifadə oluna bilər.

Milli Məclisin sessiyalarının iclasları açıq keçirilir. Milli Məclisin 83 deputatının tələbi ilə və ya Azərbaycan Respublikası Prezidentinin təklifi ilə Milli Məclisin sessiyasının qapalı iclası keçirilə bilər.

Bir çox ölkələrdə qanunverici orqan sessiyalar qaydasında deyil, daimi əsaslarla fəaliyyət göstərir. Sessiyalar arasında əlaqə iki prinsip əsasında qurulur. Birincisi «kontinuitet» (davam edən) sessiyadır. Bu zaman keçən sessiyada müzakirə olunan məsələ əvvəldən deyil, saxlanıldığı mərhələdən başlanır. İkincisi «diskontinuitet» (davam etməyən) sessiyadır ki, bu zaman keçən sessiyada saxlanılan məsələ yenə də başlanğıcından müzakirə olunmağa başlayır. Sessiyaların keçirilməsinin digər məsələləri daxili nizamnamədə əks olunur. Sessiyalarda qanunvericilik prosesi (hüquqi forma) realizə olunur. Bu zaman deputatların fikir bildirmək, qanun layihələri təklif etmək və s. hüquqları vardır.

Sessiyalardan başqa daha bir vacib təşkilati forma Milli Məclisin komitələrinin fəaliyyətidir. Milli Məclisin komitələri köməkçi funksiyaları yerinə yetirmək, ümumiyyətlə, Milli Məclisə öz başlıca funksiyasını həyata keçirməkdə yardım etmək məqsədilə yaradılan təşkilati formadır. Komitələr Milli Məclisin ayrı-ayrı qanunvericilik səlahiyyətini həyata keçirdiyi müvafiq sahələr üzrə yaradılır. Bu komitələr dinamikdir və onların sayı azala və ya

arta bilər. Komitələr Milli Məclisin fəaliyyətindəki peşəkarlığı təmin edən sistemdir. Milli Məclis komitələrlə yanaşı komissiyalar da yarada bilər. Komitələrin və komissiyaların yaradılması əsasları eyni olsa da, onlar fərqli məqsədlər üçün yaradılırlar. Komissiyalar Milli Məclisin fəaliyyəti zamanı ortaya çıxan və xüsusi diqqət yetirilməsi tələb olunan məsələlərlə bağlı yaradılır. Komitələrin mövcudluğu qanunvericilikdə ortaya çıxan faktorlardan asılı deyil və onlar həmişə müxtəlif konkret adlar altında fəaliyyət göstərir. Qanun layihələrinin ilkin analizi və onlarla bağlı araşdırma işləri məhz burada həyata keçirilir. «Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında» 10 iyul 1998-ci il tarixli qanununun 2-ci maddəsinə görə, komitələr:

1) deputatların təklif etdiyi qanun və qərar layihələrinin ilkin müzakirəsini təşkil edir və Milli Məclisdə baxılmasına dair rəy verir, qanun və qərar layihləri hazırlayır;

2) ümumxalq müzakirəsinə çıxarılacaq qanun layihələri ilə bağlı daxil olmüş təklifləri ümumiləşdirir və Milli Məclisə təqdim edir;

3) birinci və ikinci oxunuşda qəbul edilmiş qanun layihələri üzərində iş aparır və onları ikinci və üçüncü oxunuşa hazırlayır;

4) Konstitusiyanın 95-ci maddəsinə əsasən Milli Məclisin səlahiyyətlərinə daxil olan məsələlərə baxır və rəy verir;

5) Milli Məclisin qanunvericilik işləri planına dair öz təkliflərini verir;

6) ildə iki dəfə - yaz və payız sessiyalarının əvvəlində öz işi barədə hesabat verir.

Komitələr növbəti sessiyanın başlanmasına azı bir həftə qalmış özünün iş planını təsdiq edir. Komitələr iclaslar keçirir. Bu iclaslar qapalı da keçirilə bilər. Komitələrin iclasları rəy və qərarlar qəbul edir. Bu orqanın üzvləri deputatlardır və onlar üzv kimi müəyyən hüquq və vəzifələrə malikdirlər. Bu hüquq və vəzifələr deputatın hüquq və vəzifələri ilə üst-üstə düşür. Komitələrin işində peşəkarlığı təmin etmək üçün onun iclaslarına mütəxəssislər, ekspertlər və s. dəvət oluna bilər. Deputatlar komitələrə üzv olmalıdırlar. Komitələrin üzvlərinin sayı 5-dən az, 20-dən çox ola bilməz. Bundan başqa, üzvlərinin sayı 15-dən çox olan komitələr köməkçi komitə yarada bilər (Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin 36-cı maddəsi).

Qanuna görə Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakı komitələri yaradır:

1) Hüquq siyasəti və dövlət quruculuğu komitəsi;
2) Təhlükəsizlik və müdafiə komitəsi;
3) İqtisadi siyasət komitəsi;
4) Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi;
5) Aqrar siyasət komitəsi;
6) Sosial siyasət komitəsi;
7) Regional məsələlər komitəsi;
8) Elm və təhsil komitəsi;
9) Mədəniyyət komitəsi;
10) İnsan hüquqları komitəsi;
11) Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi.

Hər bir komitə ona aid edilmiş məsələlərlə bağlı qanun layihələri hazırlayır və başqa səlahiyyətləri həyata keçirir. Komitələrin birgə iclaslar keçirməsi də mümkün-

dür. Bu komitələr Milli Məclisin qanunvericilik funksiyasını həyata keçirməyə yardım edirlər.

Milli Məclis öz fəaliyyətini həyata keçirmək üçün müvafiq orqanlar da yarada bilər. Buna Hesablama Palatasını misal göstərmək olar. Bu Palata büdcəyə nəzarətlə bağlı Milli Məclisin funksiyasını yerinə yetirməyə xidmət edir. Bundan başqa, Milli Məclis bir sıra komissiyalar da yaradır ki, onların işi əsasən Milli Məclisin daxili fəaliyyətini təmin etməkdən ibarətdir. Onlar qanunvericilik funksiyası ilə əlaqəsi olmayan komissiyalardır. Belə komissiyalara Milli Məclisin deputatlarının öz vəzifə borclarını yerinə yetirməsinə nəzarət edən İntizam komissiyasını və Milli Məclisdə səsvermə zamanı hesablama məsələlərini təşkil edən Hesablayıcı komissiyanı aid etmək olar. Hər iki komissiya 7 üzvdən ibarət tərkibdə 1 il müddətinə seçilir və yalnız Milli Məclisin sessiyalarında fəaliyyət göstərir.

Milli Məclisin fəaliyyətinin hüquqi formalarına qanunlar, qərarlar qəbul etməkdən ibarət olan qanunvericilik prosesi aiddir. Fəaliyyətin hüquqi formaları qəbul olunan nəticənin xarakterindən asılı olaraq fərqlənir. Qanunvericilik prosesi Milli Məclisin hüquqi aktların hazırlanması və qəbulu prosesidir. Qanunlar və qərarlar isə bu fəaliyyətin nəticəsi kimi ortaya çıxan və əldə edilən nəticənin hüquqi formasıdır. Konstitusiyanın 93-cü maddəsində Milli Məclisin qəbul etdiyi aktlardan söhbət gedir. Konstitusiyanın həmin maddəsinə görə, Milli Məclis öz səlahiyyətlərinə aid məsələlər üzrə Konstitusiya qanunları, qanunlar və qərarlar qəbul edir. Konstitusiya qanunu Konstitusiyaya edilən əlavələrdir. Belə qanunlar adi qanunlardan özünün hüquqi qüvvəsinə görə üstündür və konstitusiyanın tərkib hissəsi hesab olunur. Qanun ən

mühüm ictimai münasibətləri tənzimləyən və dövlətin məcburetmə qüvvəsi hesabına realizəsi təmin edilən normativ hüquqi aktdır. Qanun həmişə normativ olmalıdır. Bundan başqa, Konstitusiyada adı birbaşa çəkilməsə də, üzvi qanunlar adlanan kateqoriya da mövcuddur. Üzvi qanunlar qəbul olunması Konstitusiya ilə nəzərdə tutulan qanunlardır. Məsələn Konstitusiyanın 101-ci maddəsinin VI hissəsində həmin maddənin tətbiqi qaydası haqqında ayrıca qanunun qəbul olunması şərti müəyyən edilir. Bu qanun üzvi qanun hesab olunur. Üzvi qanunlar, bir qayda olaraq, konstitusiyanın müddəalarını dəqiqləşdirir və inkişaf etdirir. Qanunlarda digər hakimiyyət budaqlarına məxsus orqanlara konkret tapşırıqlar nəzərdə tutula bilməz. Konstitusiyanın 94-cü maddəsində göstərilən bütün məsələlər üzrə qanunlar qəbul edilir. 94-cü maddədə nəzərdə tutulan məsələlərin hamısı norma müəyyən etməklə nizamlanır. Qanun normativ tənzimləmənin hüquqi təsbitolunma forması kimi çıxış edir. Məsələnin əhəmiyyətindən asılı olaraq, qəbul olunan qanunlar müxtəlif səs çoxluğu ilə qəbul olunur. Belə ki, prezident seçkiləri, Milli Məclisə seçkilər və Milli Məclisin deputatlarının hüquqi statusu, referendumla bağlı qanunlar 83 səs çoxluğu ilə qəbul edilir. Yerdə qalan bütün məsələlər üzrə qanunlar 63 səs çoxluğu ilə qəbul edilir. Qanunların müxtəlif səs çoxluğu ilə qəbul edilməsi, konstitusiyanın ruhundan belə görünür ki, onların qanunvericilik sistemində yerinə təsir etmir. Bütün qanunlar eyni hüquqi qüvvəyə malikdir.

Konstitusiya qanunları istisna təşkil edir. Konstitusiya qanunları nəinki daha yüksək səs çoxluğu ilə qəbul edilir, həm də onların qəbulu prosedurası daha mürəkkəbdir. Konstitusiyanın 156-cı maddəsində birbaşa göstərilir

ki, Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr Konstitusiya qanunları şəklində qəbul edilir və bunun üçün 95 səs çoxluğu lazımdır. Konstitusiya qanunları Milli Məclisdə aradan 6 ay keçmək şərti ilə iki dəfə səsə qoyulur. Həm birinci, həm də ikinci səsvermədən sonra Konstitusiya qanunu imzalanmaq üçün prezidentə təqdim olunur. Bundan başqa, adi qanunlardan fərqli olaraq, Konstitusiya qanunlarına qoyulan veto mütləq vetodur, yəni Milli Məclis tərəfindən onun dəf edilməsi mexanizmi yoxdur və onlar prezident tərəfindən imzalanmadığı təqdirdə heç cür qüvvəyə minə bilməz.

Qanunlar normativ nizamasalma vasitəsi olsa da, onlardan daha geniş məqsədlər üçün istifadə edilir. Bir çox hallarda qanunlar həm də başqa - başqa aktları təsdiq edən, onları qüvvəyə mindirən vasitə kimi çıxış edir. Milli Məclis qanunlardan əlavə normativ xarakterli akt kimi əsasnamə və nizamnamələri qəbul edir və onları da qanunla təsdiq edir.

Qərarlar da 63 səs çoxluğu ilə qəbul edilir. Qərarların 63 səs çoxluğu ilə qəbul olunmasına baxmayaraq, onların qanunlardan aşağı qüvvəyə malik olması bu aktların təyinatı ilə bağlıdır. Qərarlar qanun kimi prezident tərəfindən imzalanmır. Onlar individual (qeyri-normativ) nizamasalma vasitəsidir. Konstitusiyanın 95-ci maddəsində əks olunan məsələlər birdəfəlik, konkret həll olunan məsələlərdir və onların hüquqi təsbitlənmə vasitəsi kimi isə qərarlar çıxış edir. Qərarlar sadəcə sırf hüquqi məsələlərin həlli üsulu deyil. Bəzən siyasi xarakterli məsələlərin həlli üçün də qərarlar qəbul olunur. Qərarlardan yalnız biri xüsusilə mürəkkəb qəbulolunma mexanizminə malikdir və eynilə Konstitusiya qanunları kimi 95 səs çoxluğu ilə qəbul olunur. Bu da impiçmentin nəticəsində

qəbul olunan qərardır. Bu qərarın da qəbul olunmasının bu cür mürəkkəbliyi onun təyinatı ilə bağlıdır. Aydındır ki, impiçment kimi vacib bir məsələni 63 səs çoxluğu ilə həll etmək bu prosesdən sui-istifadə olunmasına, onun səmərəsiz mexanizminin qurulmasına səbəb olardı. Bundan başqa, sırf siyasi məqsədlərlə bəyanatlar, müraciətlər də qəbul olunur ki, bu aktlar hüquqi akt hesab olunmasa da, onların təsdiqi üçün qərarlardan istifadə olunur. Qanunlardan fərqli olaraq, qərarlar qanunvericilik sisteminə daxil deyil. Qanun və qərarlar özündə başqa qayda nəzərdə tutulmayıbsa, dərc olunduğu vaxtdan qüvvəyə minir.

§ 4. Qanunvericilik prosesi

Qanunvericilik prosesi, artıq qeyd edildiyi kimi, hüquqi aktların qəbulu prosedurudur. Ancaq bu proses qanunvericilikdə özünün əhəmiyyətinə görə dəqiq şəkildə tənzim olunur. Milli Məclisin qanunvericilik fəaliyyəti məhz bu prosedura - fəaliyyət çərçivəsində həyata keçirilir. Qanunvericilik prosesi normativ hüquqi aktların hazırlanması, layihələrin Milli Məclisdə müzakirəsi və qəbulunu bildirir. Qanun layihələri istənilən hər kəs tərəfindən təklif edilə bilməz. Qanun layihəsi təklif edə bilmək imkanına qanunvericilik təşəbbüsü hüququ deyilir. Adətən, qanunvericilik təşəbbüsü hüququna ali dövlət hakimiyyəti orqanları malik olur. Bir sıra ölkələrdə isə vətəndaşların da müəyyən bir hissəsi imza toplamaqla müzakirəyə qanun layihəsi çıxara bilər. Azərbaycan Respublikasında qanunvericilik təşəbbüsü hüququna deputatlar, prezident, Ali Məhkəmə, Azərbaycan Respublikasının Prokurorluğu, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi malikdir. Konstitusiyada nəzərdə tutulan bu sub-

yektlərdən başqa "İnsan hüquqları üzrə Müvəkkil (ombudsman) haqqında" Azərbaycan Respublikası Qanununun 1.5-ci maddəsinə müvafiq olaraq Ombudsman da qanun layihəsi təklif edə bilər. 18 mart 2009-cu il tarixli referendumla Konstitusiyanın 96-cı maddəsinə əlavə edilərək 40 min seçki hüququna malik Azərbaycan Respublikası vətəndaşının da qanunvericilik təşəbbüsü hüququ tanınmış oldu.

Qanunvericilik prosesində, adətən, ilkin layihə müzakirələr ərzində dəfələrlə dəyişdirilir. Bu zaman ona qanun layihəsini təklif etmiş şəxsdən əlavə bir çox şəxslərin təklifi ilə dəyişikliklər olunur. Konstitusiyanın 96-cı maddəsinin II hissəsinə görə Prezidentin, Ali Məhkəmənin, Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşının, Azərbaycan Respublikası Prokurorluğunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəyə təqdim etdiyi qanun layihələri müzakirəyə təqdim olunmuş şəkildə çıxarılır və səsə qoyulur. Belə qanun layihələrinə dəyişikliklər onu irəli sürən orqanın razılığı ilə edilə bilər. Bu cür məhdudiyyətin qoyulmasında məqsəd qanun layihəsini irəli sürən subyektin qanunda əks olunan marağının gözlənilməsidir. Aydındır ki, qanun layihəsini irəli sürən subyekt qanunu öz istədiyi şəkildə təqdim edir və bu zaman müəyyən maraqlardan çıxış edir. Qanunvericilik təşəbbüsü hüququnun da əhəmiyyəti elə bundadır ki, o, qanunvericilik təşəbbüsü hüququna malik olan subyektlərin yalnız bu yolla ödənilməsi mümkün olan maraqlarının realizə edilməsi üçün bir vasitədir. Layihəyə edilən dəyişikliklərin qanun layihəsini təklif edən subyektin maraqlarına zidd ola bilməsi və onun maraqlarına toxunması ehtimalı belə məhdudiyyət qoyulmasına səbəb olmuşdur. Lakin nəzərə almaq

lazımdır ki, dövlət orqanları nə qədər ictimai maraqlardan çıxış etsələr də, təbii olaraq, bürokratik aparatın bir hissəsi kimi, bəzən onların öz maraqları olur və bunların tam təmin olunması üçün qanunvericilik təşəbbüsündən istifadə edilməsi mümkündür. Buna görə də bu cür hər hansı bir marağın neytrallaşdırılması üçün bu layihələrə dəyişiklik edilməsi imkanı da saxlanılmışdır. Hər bir halda Milli Məclis qanun layihəsi ilə razılaşmadığı təqdirdə onu qanun kimi qəbul etməyə bilər. Odur ki, dəyişikliklər edilməsi imkanı bir növ mümkün konfliktin aradan qaldırılması vasitəsi kimi çıxış edir. Qanun layihələri 6 ay müddətində baxılır, müzakirə edilir və onlarla bağlı müəyyən qərar qəbul edilir. Prezident, Ali Məhkəmə, Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşı, Azərbaycan Respublikası Prokurorluğu və Naxçıvan Muxtar Respublikasının Ali Məclisi üçün bu müddət qısaldılaraq iki ay müəyyən edilmişdir. Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşı istisna olmaqla digər subyektlərin təqdim etdiyi layihələr təcilidirsə, yəni onların çox qısa müddət ərzində qəbul olunmasında və ya ona münasibət bildirilməsində qanunvericilik təşəbbüsündən istifadə edən subyekt maraqlıdırsa, bu zaman həmin müddət 20 gün təşkil edir.

Konstitusiyaya görə Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası qanunla müəyyən edilir.

Qanunvericilik təşəbbüsü hüququ həm də ümumölkə səviyyəsində normativ bazanın formalaşdırılmasında iştirak imkanıdır. Milli Məclis hər sessiyasının əvvəlində özünün qanunvericilik işləri planını təsdiq edir. Milli Məclisə daxil olmuş qanun və qərar layihələri Milli

Məclisin Aparatında qeydiyyata alınır və Milli Məclisin sədri onların baxılması üçün müddət təyin edərək müvafiq komitələrə göndərir. Əgər qanun layihəsi bir neçə komitəyə göndərilirsə, bu zaman onlardan biri aparıcı təyin edilir. Milli Məclisdə baxılan layihələrlə bağlı bir və ya bir neçə işçi qrupu yaradıla bilər. Layihələrin sayı birdən çoxdursa, onlar birgə müzakirə olunur. Komitənin tapşırığı ilə layihə hüquqi, filoloji və tələb olunan digər ekspertizalardan keçirilir və onun qəbul olunması ilə əlaqədar dəyişdirilməsi zəruri olan normativ hüquqi aktların siyahısı hazırlanır. Verilən qeyd və təkliflərə komitənin iclaslarında baxılır. Bir layihə üzərində işləyən bir neçə komitə arasında fikir ayrılığı əmələ gələrsə, aparıcı komitənin fikri əsas götürülür. Aparıcı komitənin fikri ilə razılaşmayan komitənin fikri Milli Məclisin həmin məsələyə həsr olunmuş iclasında deputatlara yazılı şəkildə çatdırılır. Hazırlanmış layihə Milli Məclisin gündəliyinə daxil edilmək üçün iclasa dəvət olunan şəxslərin siyahısı ilə birgə Milli Məclisin sədrinə təqdim edilir.

Qəbul olunan qanun layihələri Milli Məclisdə bir neçə aspektdən müzakirə olunur. Bunun üçün də qanun layihələrinin fərqli müzakirə növləri müəyyən olunur ki, buna da qanunun oxunuşu deyilir. Qanunların oxunuşu biri-birindən özünün nəticələrinə və müzakirə olunan məsələyə görə fərqlənir. Qanun üç oxunuşdan keçir. Qanun layihəsinin birinci oxunuşu zamanı onun qəbul edilməsinin zəruriliyi, əsas müddəaları müzakirə edilir, qanun layihəsinin ümumi konsepsiyasına qiymət verilir. Müzakirə layihənin təşəbbüsçüsünün və aparıcı komitənin nümayəndəsinin məruzələri ilə başlanır. Bundan sonra komitələrdə layihəyə baxılarkən onların arasında fikir ayrılığı əmələ gəlmişsə, layihə ilə razı olmayan komitə-

nin rəyini həmin komitənin nümayəndəsi oxuyur. Qanun layihəsinə birinci oxunuşda baxılması nəticəsində Milli Məclis aşağıdakı qərarlardan birini qəbul edir:

1) layihə birinci oxunuşda qəbul edilsin və söylənilmiş təkliflər və iradlar nəzərə alınmaqla onun üzərində iş davam etdirilsin (bu qərar protokol qaydasında qəbul edilir);

2) layihə qəbul edilməsin;

3) qanun qəbul edilsin.

Qanun layihəsinin birinci oxunuş üçün dərc edilməsi və ümummilli müzakirəyə çıxarılması da mümkündür. Birinci oxunuşda qəbul edilmiş qanun layihəsinə dair təklifləri və iradları aparıcı komitə öyrənir və ümumiləşdirir. Aparıcı komitə layihəyə təklif olunan dəyişikliklərin Azərbaycan Respublikası Konstitusiyasına uyğun olub-olmamasını müəyyənləşdirmək üçün müstəqil ekspertiza təyin edə bilər. Layihəyə təklif edilən dəyişikliklərin Azərbaycan Respublikası Konstitusiyasına zidd olması müəyyənləşdirildikdə, aparıcı komitə bu barədə dəyişikliyin müəllifinə xəbər verir. Dəyişiklik vermiş şəxslər müzakirə zamanı dəyişiklikləri dəqiqləşdirə və ya geri götürə bilərlər. Layihənin ayrı-ayrı maddələri üzrə qruplaşdırılmış dəyişikliklərə aparıcı komitənin iclasında baxılır və komitə bu dəyişikliklərlə razı olduqda onları layihənin mətninə daxil edir. Yenidən işlənilmiş qanun layihəsi ikinci oxunuşda baxılmaq məqsədilə Milli Məclisin iclasının gündəliyinə salınmaq üçün Milli Məclisin sədrinə göndərilir.

İkinci oxunuşa azı 5 gün qalmış qanun layihəsi onun təşəbbüsçüsünə göndərilir. Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi aparıcı komitənin nümayəndəsinin məruzəsi ilə başlanır. Məruzəçi komitədə layihəyə baxılma-

sının nəticələri haqqında məlumat verir. Layihənin ikinci oxunuşda müzakirəsi, bir qayda olaraq, qanun layihəsi təşəbbüsçüsünün və ya onun nümayəndəsinin çıxışı ilə davam edir. Daha sonra ikinci oxunuşda müzakirə edilən qanun layihəsinin əsas kimi qəbul edilməsi barədə protokol qaydasında qərar qəbul edilir. Bu cür qərar qəbul edilməzsə, qanun layihəsi qəbul edilməmiş sayılır. Qanun layihəsi əsas kimi qəbul olunduqdan sonra Milli Məclisin iclasına sədrlik edən deputatlardan qanun layihəsində edilmiş dəyişikliklərə etirazların olub-olmamasını öyrənir. Bu cür etirazlar olduqda onları qısaca əsaslandırmaq üçün hər deputata 3 dəqiqəyədək vaxt verilir. Məruzəçi həmin etirazlara cavab verir və qanun layihəsi maddə-maddə müzakirə edilir. Bundan sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilir. İkinci oxunuşda qəbul edilmiş qanun layihəsi müzakirə zamanı müəyyənləşdirilmiş daxili ziddiyyətlərin aradan qaldırılması və redaktə edilməsi üçün aparıcı komitəyə qaytarılır. Bu iş başa çatdıqdan sonra aparıcı komitə üçüncü oxunuş üçün hazırlanmış qanun layihəsini Milli Məclisin sədrinə göndərir. Milli Məclisin sədri qanun layihəsini üçüncü oxunuşda baxılması üçün Milli Məclisin iclasının gündəliyinə salır. Qanun layihəsi üçüncü oxunuşu zamanı bütövlükdə səsə qoyulur. Qanun layihəsinin üçüncü oxunuşu zamanı onun mətnində dəyişikliklər edilə bilməz. Müstəsna hallarda Milli Məclisin iclasında iştirak edən deputatların əksəriyyətinin tələbi ilə üçüncü oxunuşda olan qanun layihəsi ikinci oxunuşa qaytarıla bilər. Qanun layihəsi üçüncü oxunuşda qəbul edildikdən sonar Prezidentə imzalanmaq üçün göndərilir və o, prezidentin etirazını doğurarsa, Milli Məclisdə ona yenidən baxılır. Azərbaycan Respublikası Prezidentinin qaytardığı qanunu Milli Məc-

lisin sədri müvafiq aparıcı komitənin və ya xüsusi yaradılmış komissiyanın rəyinə göndərir. Həmin aparıcı komitə və ya komissiya məsələyə 10 gün müddətində baxıb Milli Məclisə aşağıdakı qərarlardan birinin qəbul olunmasını təklif edir:

1) qanun Azərbaycan Respublikası Prezidentinin təklif etdiyi dəyişikliklərlə qəbul edilsin;

2) Azərbaycan Respublikası Prezidentinin qanunun məqsədəuyğun olmaması barədə təklifi qəbul edilsin;

3) qanun qəbul edilmiş redaktədə saxlanılsın.

Milli Məclisin sədri bu rəyi aldıqdan sonra Azərbaycan Respublikası Prezidentinin qaytardığı qanunu təkrar baxılmaq üçün Milli Məclisin növbəti iclasının gündəliyinə salır və dərhal bu barədə Azərbaycan Respublikası Prezidentinə xəbər verir. Qanuna təkrar baxılmasına Azərbaycan Respublikası Prezidentinin nümayəndəsinin çıxışı ilə başlanılır. Bundan sonra Milli Məclisin aparıcı komitəsinin və ya xüsusi yaradılmış komissiyasının rəyi oxunur. Prezident məsələni qanunun məqsədəuyğun olmaması kimi qoyursa, birinci bu təklif səsə qoyulur və Milli Məclisin deputatlarının azı 63 səs çoxluğu ilə qəbul edildikdə, qanun qəbul edilməmiş sayılır. Həmin təklif qəbul edilməzsə, qanunun təkrarən qəbul edilməsi haqqında təklif səsə qoyulur. Azərbaycan Respublikası Konstitusiyasının 110-cu maddəsinin ikinci hissəsinə uyğun olaraq, Milli Məclis 83 səs çoxluğu ilə qəbul edilən qanunu 95 səs çoxluğu ilə, 63 səs çoxluğu ilə qəbul edilən qanunu isə 83 səs çoxluğu ilə yenidən qəbul edərsə, qanun təkrarən qəbul edilmiş sayılır və dərc olunmaq üçün 7 gündən gec olmayaraq Azərbaycan Respublikasının Prezidentinə göndərilir. Azərbaycan Respublikasının Prezidenti qanunda dəyişikliklər edilməsi təklifi ilə onu

Milli Məclisə qaytararsa, bu zaman təklif birinci səsə qoyulur. Təklif zəruri səs çoxluğu topladıqda qanun Prezidentin təklif etdiyi dəyişikliklərlə qəbul olunmuş sayılır. Azərbaycan Respublikası Prezidentinin təklifi tələb olunan səs çoxluğu almazsa, qanunun Milli Məclis tərəfindən qəbul edilmiş redaktədə saxlanılması haqqında məsələ səsə qoyulur. Təkrarən qəbul olunmuş qanun dərc olunmaq üçün 7 gündən gec olmayaraq Azərbaycan Respublikasının Prezidentinə göndərilir.

§ 5. Deputatın hüquqi statusu

Deputat Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. Deputat xalq tərəfindən onu təmsil etmək üçün seçilir və buna görə də onlara xüsusi səlahiyyətlər verilir. Deputatın hüquqi statusu Azərbaycan Respublikasının Konstitusiyasında, həmçinin «Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi» və «Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında» Azərbaycan Respublikasının Qanunlarında əks olunmuşdur.

Deputatların hüquqi statusu qanunvericilikdə müxtəlif konsepsiyalar əsasında qurulur. Keçmiş Sovet İttifaqında deputatların fəaliyyətinə peşəkar fəaliyyət kimi baxılmırdı və onlar əsas iş yerlərini saxlamaqla, istehsalatdan ayrılmadan qanunvericiliklə bağlı səlahiyyətləri həyata keçirirdilər. Onların işi ictimai iş kimi qəbul olunurdu.

Deputat statusunun müəyyənləşdirilməsində seçicilərlə deputatların arasında əlaqələrin necə qurulması da böyük əhəmiyyətə malikdir. Bu əlaqələr deputat mandatına birbaşa təsir göstərir və onu müəyyən edir. Deputat, demək olar ki, dünyanın əksər ölkələrində, sadəcə, seçildiyi yerin deyil, bütün millətin təmsilçisi sayılır və hər

hansı yerin əhalisi tərəfindən onun vəzifəsindən kənarlaşdırılması imkanı yoxdur. Deputat, seçildikdən sonra seçiciyə münasibətdə tam azaddır və onun qarşısında öz fəaliyyətinə görə hüquqi məsuliyyət daşımır. Belə ki, deputat-seçici əlaqəsi nəticəsində deputat azad mandat alır və seçicidən asılı olmadan müstəqil şəkildə fəaliyyət göstərir. Bu zaman seçicilər deputatla görüşə və ona öz fikirlərini çatdıra bilərlər, ancaq bunların heç biri deputat üçün öhdəlik deyil və deputat onları yerinə yetirmədiyi təqdirdə onun üçün məsuliyyət yaratmır. Bunun əksinə, bəzi ölkələrdə, o cümlədən keçmiş Sovet İttifaqının rəsmi hüquq doktrinasında da deputat, hər şeydən öncə, seçildiyi regionun təmsilçisi sayılırdı və onu seçən şəxslərlə seçildikdən sonra da əlaqə saxlayırdı. Bu əlaqələr deputatın öz seçiciləri qarşısında məsuliyyət daşımasında çıxış edirdi. Bu halda artıq seçicilərin deputata verdiyi tapşırıqlar onun üçün hüquqi nəticə yaradırdı və yerinə yetirilmədiyi təqdirdə arzuolunmaz nəticələr doğururdu. Seçicilər deputata həll olunmaq üçün öz problemləri ilə əlaqədar tapşırıqlar verir, deputat da onları qanunverici orqanda müzakirəyə çıxarmaqla həll etməyə çalışırdı. Ona verilən tapşırıqları yerinə yetirmədiyi təqdirdə deputatın seçicilər tərəfindən geri çağırılması, yəni deputat mandatından məhrum edilməsi təhlükəsi yaranırdı. Buna imperativ deputat mandatı deyilir. İmperativ deputat mandatı ilk dəfə Fransa inqilabı zamanı meydana gəlmiş və Paris Kommunasında tətbiq edilmişdir. İmperativ mandatın əsas məqsədi deputatın fəaliyyətinin səmərəli olmasını, seçicilərlə əlaqəsinin daim saxlanmasını təmin etməkdir. Lakin belə qəbul olunur ki, bu zaman deputat ümummilli məsələlərin həllindən yayınır və daha çox öz seçicilərinin verdiyi tapşırıqlarla məşğul ol-

maqla qanunverici orqanda regionçuluğa səbəb olur. Sovet İttifaqının praktikasında imperativ mandat daim qanunvericilikdə təsbit edilsə də, özünü doğrultmadı və praktikada, demək olar ki, çox nadir hallarda tətbiq edilirdi.

Azad deputat mandatı deputat işinin peşəkar iş kimi başa düşülməsi ilə sıx bağlıdır. Bu konsepsiyaya görə, deputat təmsilçiliklə peşəkar səviyyəsində məşğul olan şəxsdir və onun fəaliyyətinin hər hansı bir şəkildə məhdudlaşdırılmasına yol vermək olmaz. Bundan başqa, deputat bütün xalqı təmsil etdiyinə görə o, konkret seçicilər qrupu, müəyyən region qarşısında məsuliyyət daşımamalıdır. Azərbaycan Respublikasında hal-hazırda azad deputat mandatı tətbiq edilir. İmperativ deputat mandatının elementi isə bələdiyyə üzvlərinin statusunda saxlanılmışdır. Qanunvericiliyə görə, bələdiyyənin seçilmiş üzvləri öz fəaliyyətlərinə görə seçicilər qarşısında hesabat verirlər.

Deputatın səlahiyyət müddəti Konstitusiyada müəyyənləşdirilir. Konstitusiyanın 84-cü maddəsinə görə, deputatın səlahiyyət müddəti Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyət müddəti ilə məhdudlaşır. Azərbaycan Respublikası Milli Məclisinin deputatlığından çıxanın yerinə yeni seçkilər keçirilərsə, yeni seçilən deputatın səlahiyyət müddəti deputatlıqdan çıxanın qalan səlahiyyət müddəti ilə məhdudlaşır. Milli Məclisin səlahiyyətinin bitməsinə 120 gündən az müddət qalarsa, deputatlıqdan çıxanın yerinə yeni seçkilər keçirilmir. Deputatın səlahiyyət müddəti yeni seçilən Milli Məclisin ilk iclas günü bitir. Deputatlığa namizəd 25 yaşa çatmalı və qanunla müəyyənləşdirilmiş digər şərtlərə cavab verməlidir. Deputatlığa seçilmək istəyən şəxslər üçün qoyulan

məhdudiyyətlər də Konstitusiyada öz əksini tapmışdır. Belə ki, 85-ci maddəyə görə, ikili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti orqanlarında qulluq edən, elmi-pedaqoji, yaradıcılıq fəaliyyəti istisna olmaqla başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır cinayətə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilə bilməzlər. Burada qoyulan məhdudiyyətlərin bir çoxu qanunvericilikdə əks olunan prinsipləri təmin etmək məqsədi ilə qoyulmuşdur, digərləri isə deputatın şəxsiyyəti və işi ilə bağlıdır (lazımi keyfiyyətləri təmin etmək üçün). Belə ki, deputata icra və məhkəmə hakimiyyəti orqanlarında çalışmaqla bağlı məhdudiyyət qoyulması hakimiyyət bölgüsü prinsipinin tələbidir. Deputata başqa yerdə çalışmağa icazə verilməməsi ondan irəli gəlir ki, deputatın fəaliyyəti artıq peşəkar fəaliyyət kimi nəzərdən keçirilir. Deputatın qanunverici orqanda fəaliyyəti onun üçün əsas iş yeri hesab edilir. Din xadimləri ilə bağlı qoyulan məhdudiyyət dövlətin dünyəviliyi prinsipi ilə bağlıdır. Fəaliyyət qabiliyyətsizliyinin məhdudiyyət kimi nəzərdə tutulması hüquqi məntiqdən irəli gəlir. Fəaliyyət qabiliyyətsizliyi olan şəxslər öz hərəkətləri ilə özlərinə hüquq əldə edə və vəzifələr daşıya bilməz. Aydındır ki, belə şəxslərin deputat olması üçün hüquqi imkanları yoxdur. Cinayət törətmək və cəza çəkməklə bağlı məhdudiyyətlər deputatın şəxsiyyəti ilə bağlıdır. Deputat o dərəcədə sosiallaşmış şəxs olmalıdır ki, ən azından ağır cinayət törətməsin. Bir qay-

da olaraq, cinayət törədən şəxslərin əksəriyyəti aşağı sosiallaşma dərəcəsinə malik olur.

Deputatın fəaliyyətinə xitam verilməsi əsasları da Konstitusiyanın 89-cu maddəsində təsbit edilib. Deputat seçkilər zamanı səslər düzgün hesablanmadıqda, Azərbaycan Respublikası vətəndaşlığından çıxdıqda və ya başqa dövlətin vətəndaşlığını qəbul etdikdə, cinayət törətdikdə və məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda, dövlət orqanlarında vəzifə tutduqda, din xadimi olduqda, sahibkarlıq, kommersiya və başqa ödənişli fəaliyyətlə məşğul olduqda (elmi-pedaqoji və yaradıcılıq fəaliyyəti istisnadır), özü imtina etdikdə mandatını itirir. Bunun üçün Milli Məclisin deputatı mandatından məhrumetmə haqqında qərar qəbul edir. Deputatın mandatını itirməsinin bəzi əsasları da Milli Məclisin Daxili Nizamnaməsində nəzərdə tutulubdur.

Deputatın hüquqi statusunu şərti olaraq 3 hissəyə bölmək olar:

1) Deputatın hüquq və vəzifələri;
2) Deputatın seçicilərlə əlaqəsi;
3) Deputat fəaliyyətinin təminatları.

Deputatın hüquq və vəzifələrinin əsasını Konstitusiyanın 90 və 91-ci maddələrində təsbit edilən immunitet və indemnitet təşkil edir. 90-cı maddəyə görə, deputat toxunulmazlıq hüququna malikdir və o, cinayət başında yaxalanma hallarından başqa, cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula bilməz, barəsində inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz. Cinayət başında yaxalandıqda deputatın tutulmasının xüsusi mexanizmi var. Cinayət başında yaxalanan deputat barədə dərhal Azərbaycan Respublikasının Baş prokuroruna məlumat verilməlidir.

Deputatın toxunulmazlığına baş prokurorun təqdimatı əsasında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən xitam verilir və bundan sonra adi qaydada məsuliyyətə cəlb olunur. Milli Məclisin sədri, bir qayda olaraq, deputat haqqında təqdimatı əvvəlcə Milli Məclisin İntizam komissiyasına göndərir və komissiyada bu məsələyə baxılır. Komissiya təqdimata dair rəy qəbul edir. Rəydə deputat toxunulmazlığına xitam verilib-verilməməsi barədə İntizam komissiyasının qənaəti söylənilir. Milli Məclis bu barədə məsələlərə, bir qayda olaraq, deputat toxunulmazlığına xitam verilməsi barədə təqdimat olan deputatın iştirakı ilə baxır. Bu məsələ Milli Məclisin iclasında müzakirə edilərkən deputatın ittiham edildiyi cinayətdə təqsirli olub-olmaması məsələsi müzakirə edilə bilməz. İclasda iştirak edən deputatlar yalnız deputat toxunulmazlığına xitam verilməsi barədə Azərbaycan Respublikası Baş prokurorunun təqdimatında kifayət qədər əsasların olub-olmamasını aydınlaşdıra və bu məqsədlə Azərbaycan Respublikasının Baş prokuroruna suallar verə bilər, deputat toxunulmazlığına xitam verilməsinin lehinə və ya əleyhinə çıxış edə bilərlər. Milli Məclis 63 səs çoxluğu ilə deputat toxunulmazlığına xitam verə bilər.

İndemnitet deputatın fəaliyyətində sərbəstliyi təmin etmək məqsədi güdür. Deputat Milli Məclisdəki fəaliyyətinə görə, səsverməyə və söylədiyi fikrə görə məsuliyyətə cəlb oluna bilməz və razılığı olmadan bu hallarla bağlı ondan izahat, ifadə tələb oluna bilməz.

Deputatın Milli Məclisin və onun orqanlarının iclaslarında iştirak etmək, Milli Məclisin orqanlarına seçmək və seçilmək, qanunvericilik təşəbbüsü hüququnu həyata keçirmək, deputat sorğusu vermək, məlumat almaq və yay-

maq, vəzifəli şəxslər tərəfindən təxirə salınmadan qəbul edilmək səlahiyyətləri vardır. Deputatın Milli Məclisin bütün iclaslarında həlledici səs hüququ vardır. O, müzakirə olunan məsələ ilə əlaqədar fikrini bildirə, təkliflərini və qeydlərini verə bilər. Milli Məclis sədrinin razılığı ilə Milli Məclisin iclaslarında bəyanat və müraciətlərlə çıxış edə bilər. Deputatın ən əsas işi ilə birbaşa bağlı hüququ qanunvericilik təşəbbüsü hüququdur. Bu hüququ o, yeni qanun və qərar layihələrinə təklif verməklə, mövcud olanlara düzəlişlərlə bağlı təklif verməklə, qanunun qüvvədən düşməsi haqqında layihə təklif etməklə və s. şəkildə həyata keçirir. Deputat öz səlahiyyətləri çərçivəsində icra və məhkəmə orqanlarına, Baş prokurora, özünüidarəetmə orqanlarına və onların şəxsi heyətinə, Milli Bankın İdarə Heyətinə, Hesablama Palatasına sorğu verə bilər. Sorğuya bir ay müddətində rəsmi surətdə yazılı cavab verilməlidir. Deputat prezidentin fərman və sərəncamları, Nazirlər Kabinetinin qərar və sərəncamları ilə, Milli Məclisin qəbul etdiyi sənədlərlə təmin olunur. Onun çıxışları Milli Məclisin iclasının protokolları və stenoqramlarında dərc olunur.

Deputat həm də müəyyən vəzifələrə malikdir. O, vəzifəsini icra edərkən vətəndaşların hüquq və azadlıqlarını qorumalı, konstitusiya və qanunları rəhbər tutmalı, Azərbaycan Respublikasının mənafelərini qorumalı, deputat etikasını gözləməli, yəni qanunazidd hərəkətlərə, şərəf və ləyaqəti alçaldan, kobud və ləyaqətsiz söz və davranışlara yol verməməlidir. Milli Məclisin və onun komissiyalarının iclaslarında iştirak etməlidir. Üzrsüz səbəbdən Milli Məclisin iclaslarını buraxan deputat parlamentdaxili məsuliyyətə cəlb edilə bilər. Ümumiyyətlə,

Milli Məclisin deputatı aşağıdakı hallarda parlamentdaxili məsuliyyətə cəlb oluna bilər:

- Milli Məclisin və onun komitə və komissiyalarının iclaslarının aparılmasına mane olduqda;
- Milli Məclisin və onun komitə və komissiyalarının iclaslarında çıxış edənlərin sözünü kəsdikdə;
- Milli Məclisin və onun komitə və komissiyalarının iclaslarında sakitliyi və iş qaydasını pozduqda;
- Milli Məclisin və onun komitə və komissiyalarının iclaslarında insanın şərəf və ləyaqətini alçaldan kobud, təhqiramiz sözlərə və hərəkətlərə yol verdikdə, qanunsuz hərəkətlərə çağırdıqda;
- Milli Məclis deputatının yüksək adına xələl gətirən hərəkətlər etdikdə;
- Milli Məclisin və onun komitə və komissiyalarının iclaslarında üzürsüz səbəbdən iştirak etmədikdə.

Deputat seçicilərlə müntəzəm əlaqə saxlamalıdır. Bunun üçün onun iş gününün müəyyən vaxtı qəbul saatı kimi ayrılır və həmin vaxtlarda deputat seçiciləri qəbul edir. Deputat seçiciləri qəbul etmək üçün olduğu bütün rayon və şəhərlərdə rabitə vasitələri ilə təchiz edilmiş otaqla təmin edilməlidir. Deputat seçicilərin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçün qanunla ona verilmiş səlahiyyətlər çərçivəsində dövlət orqanları, yerli özünüidarəetmə orqanları qarşısında məsələ qaldıra bilər. Bütün dövlət orqanları deputata köməklik göstərməlidirlər. Deputatın yerli və mərkəzi icra və məhkəmə orqanlarına etdiyi müraciətlərə 15 gündən gec olmayaraq cavab verilməlidir.

Deputat hər ay vəzifə maaşı və səlahiyyətlərinin yerinə yetirilməsi ilə əlaqədar xərclərinin ödənilməsi üçün vergilərdən azad olunan pul təminatı alır. Deputat nüma-

yəndəlik səlahiyyətlərini yerinə yetirməsinə görə hər il özünün iki aylıq vəzifə maaşı məbləğində müavinat alır. Deputatlar hərbi çağırışdan və toplanışdan azaddırlar. Onların həyatı və sağlamlığı 5 illik vəzifə maaşı məbləğində dövlət büdcəsi hesabına icbari sığorta edilir.

Deputat Azərbaycan Respublikası ərazisində dövlət mülkiyyətində olan dəmir yolu, hava, avtomobil, su nəqliyyatında, gediş-gəliş sənədlərini növbədənkənar əldə edir. Deputatlıq fəaliyyəti ilə bağlı Bakı şəhərinin hüdudlarından kənara gedən deputat nəqliyyat vasitələri ilə təmin edilir. Səlahiyyət müddəti ərzində deputata xidməti mənzil, bu mümkün olmadıqda isə yaşayış xərclərinin ödənilməsi üçün pul təminatı verilir (Milli Məclisin müəyyən etdiyi qaydada).

Deputatlara, həmçinin diplomatik pasport verilir. Onların səlahiyyət müddəti iş stajına daxil edilir və müalicə olunması, istirahəti üçün məzuniyyətə buraxıldıqda iki aylıq vəzifə maaşı məbləğində müavinət verilir. Səlahiyyət müddəti qurtardıqdan sonra sabiq deputat işə düzələnədək 1 il müddətində hər ay deputatın əmək haqqının 80 faizi məbləğində müavinat alır. Pensiya yaşına çatmış sabiq deputat əmək haqqının 80 faizi məbləğində pensiya alır və deputatın orta aylıq əmək haqqının artımındakı sonrakı dəyişikliklər həmin məbləğə şamil edilir.

Deputat səlahiyyətlərinin həyata keçirilməsinə maneçilik törədən dövlət orqanlarının vəzifəli şəxsləri müvafiq məsuliyyət daşıyırlar. Bu orqanların deputata bilərəkdən yalan məlumat verib-verməməsi məhkəmə qaydasında müəyyənləşdirilir. Deputata hər hansı yolla, üsulla qeyri-qanuni təsir göstərən şəxs də məsuliyyətə cəlb olunur.

VIII FƏSİL

İCRA HAKİMİYYƏTİ

§ 1. Prezidentlik institutu

Konstitusiyanın təsis etdiyi hər bir dövlət orqanının hüquqi statusunun özəyini, hər şeydən əvvəl, birincisi, onun funksional vəzifəsinin ümumən təyin və müəyyən edilməsi və ikincisi, onun dövlət hakimiyyəti sistemində yeri təşkil edir. İkinci əlamət törəmə olsa da, bunun müstəqil hüquqi mənası vardır, çünki dövlət hakimiyyəti quruculuğu sisteminin konsepsiyası onda ifadə olunur.

Azərbaycan Respublikası Prezidentinin dövlət başçısı kimi statusunun hüquqi təyinatı Azərbaycan Respublikası Konstitusiyasının 8-ci maddəsində təsbit edilmişdir.

Azərbaycan dövlətçiliyinin inkişafında Prezident hakimiyyəti institutu qısa tarixə malikdir. Azərbaycanda Prezident institutu 1990-cı ildə təsis olunmuşdur. Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsində bəyan olunur ki, Azərbaycan Respublikasında dövlət hakimiyyəti qanunverici, icra və məhkəmə hakimiyyəti budaqlarına bölünmə əsasında həyata keçirilir. Qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir. İcra hakimiyyəti isə Azərbaycan Respublikasının Prezidentinə mənsubdur. Məhkəmə hakimiyyətinə gəldikdə isə onu Azərbaycan Respublikasının məhkəmələri həyata keçirirlər.

Qanunverici, icra və məhkəmə hakimiyyətlərini fərqləndirən Azərbaycan Respublikası Konstitusiyası hakimiyyətin bu budaqlarından hər birini müstəqil fəaliyyət göstərən müvafiq orqana (və ya orqanlara) həvalə edir (7-ci maddə, dördüncü hissə).

Hakimiyyətlərin bölünməsi prinsipi hələ XVII əsrdə İngiltərədə inqilab dövründə levellerlər tərəfindən irəli sürülmüşdür, sonra isə Con Lokk, Monteskyö və digər mütəfəkkirlərin təlimlərində nəzəri inkişafla əsaslandırma yoluna qədəm qoymuşdur.

Bu prinsip həyat qabiliyyətli olduğunu göstərdi və sivil ölkələrin konstitusiyalarında öz təcəssümünü tapdı. Dövlət hakimiyyətinin ayrı-ayrı hakimiyyət budaqları arasında bölgüsü isə avtoritar tendensiyalar və dövlətin yüksək vəzifəli şəxsləri tərəfindən sui-istifadəyə maneçilik göstərən qüdrətli amil rolunu oynayır.

Sovet dövlətinin tarixində obyektiv olaraq Prezident institutuna yer yox idi. 1918-ci ilin RSFSR Konstitusiyası, 1924-cü ilin SSRİ Konstitusiyası və SSR İttifaqının sonrakı konstitusiyaları oktyabr çevrilişinin «Bütün hakimiyyət Sovetlərə» şüarına uyğun olaraq, kollektiv dövlət rəhbərliyi prinsipini təsbit etmişdir. Üstəlik sovet konstitusiya nəzəriyyəsi və praktikası bu yaxınlara kimi Prezident institutunun məqsədəuyğunluğunu əhəmiyyətli dərəcədə müəyyən edən hakimiyyət bölgüsü ideyasını qətiyyətlə rədd edirdi.

70-ci illərin əvvəlrində və 80-ci illərin ortalarında bir sıra sovet hüquqşünas alimlərinin (A.A.Mişinin, S.A.Yeqorovun, A.S.Deyevin, M.A.Krutoqolovun və s.) əsərləri yalnız xarici dövlətlərdə Prezident institutunun tədqiqinə həsr olunmuşdu.

1985-ci ildən sonra SSRİ-də ictimai-siyasi və dövlət hüquq institutlarının təkmilləşdirilməsi ilə bağlı problemlərin qızğın müzakirəsi nəzərəçarpacaq dəyişikliklərə gətirib çıxardı. Onların arasında hakimiyyətin bölünməsi, dövlət orqanları sisteminin formalaşmasının optimal variantlarının müəyyənləşdirilməsi, onların fəaliyyət göstər-

məsi, habelə hüquqi dövlətin formalaşdırılması kimi məsələlər var idi. Qeyd olunan həmin məsələlər siyasi sənədlərdə, habelə dövlətşünas nəzəriyyəçilərin əsərlərində öz əksini tapdı.

Qeyd etdiyimiz kimi Azərbaycan dövlətçiliyinin inkişafında Prezident institutu nisbətən qısa tarixə malikdir. Azərbaycan Respublikasında Prezident institutu təsis olunandan sonra bu problemə həsr olunmuş bir neçə məqalə işıq üzü gördü. Lakin Azərbaycan Respublikasında Prezident institutunun təsis edilməsinin nəzəri və tarixi şərtlərini, onun ali hakimiyyət orqanlarının rolunu keyfiyyətcə dəyişilməsinə təsirini nəzərdən keçirən xüsusi tədqiqat işləri hələlik yoxdur. Azərbaycan Respublikası Prezidentinin konstitusion-hüquqi statusu, səlahiyyətləri və məsuliyyətinin dərin təhlili hələ kifayət qədər öyrənilməmişdir.

Azərbaycan Respublikası MDB üzvü olan ölkələr arasında birincilər sırasında Prezident institutunu təsis etmişdir. Lakin məlum təcrübəyə baxmayaraq, mahiyyət etibarı ilə bu institut hələ də formalaşma mərhələsini yaşayır. Nəzərdən keçirilən institutun səmərəliliyinin yüksəldilməsində prezidentin şəxsi keyfiyyətləri heç də az rol oynamır.

§ 2. Prezidentlik institutunun tarixi-hüquqi təhlili

Dövlət başçısı funksiyasının prezidentin üzərinə qoyulması respublikada Prezident idarəçiliyi formasının faktiki tətbiqi demək deyildir. Odur ki, istər nəzəriyyədə və istərsə də praktikada parlament, prezident və «yarıprezident» idarəetmə formaları fərqləndirilir. Dövlət başçısı konstitusion orqan olmaqla dövləti ölkənin daxilində və xaricində təmsil edən ali vəzifəli şəxsdir.

Parlament formasının əsasları İngiltərədə, öz proqramını təqdim edən müxtəlif siyasi partiyaların seçicilərin səs-

ləri uğrunda mübarizə apardığı bir ölkədə meydana gəlmişdir. Seçkilərdə qalib gələn partiya əvvəl parlamentin özəyini, sonra hökuməti formalaşdırır. İdarəetmə forması kimi prezidentli respublika 1787-ci ildə Filadelfiyada (ABŞ) Konstitusion Konventdə təsbit olunmuşdur.

Dövlət başçısı təkbaşına və kollegial olur. Birinci halda dövlət başçısı monarx və yaxud prezident olur, ikinci halda isə parlament tərəfindən seçilən orqandır. Qərb ölkələrində (konstitusiyalı monarxiyalar istisna olmaqla) təkbaşına Prezident institutu fəaliyyət göstərir. Lakin parlamentli (İtaliya, Almaniya, Yunanıstan) və prezidentli respublikalarda (ABŞ, Meksika, Argentina, Braziliya və s.) prezidentin rolu fərqləndirilir. Bu aşağıdakı şəkildə ifadə olunur:

Birincisi, bu, bir qayda olaraq, kifayət qədər məhdud, əsasən nümayəndəlik funksiyalarına malik olan və parlament (və yaxud digər nümayəndəli orqan) tərəfindən seçilən dövlət başçısıdır. Məsələn, Almaniya prezidentinin səlahiyyətləri dövlət başçısı simasında çıxış edən İspaniya kralının səlahiyyətlərindən də azdır.

İkincisi, bu, dövlət rəhbərliyinin bütün sahələrini real olaraq öz əlində saxlayan «güclü prezidentdir». Dövlət başçısının bütün prezidentlər tərəfindən həyata keçirilən ənənəvi funksiyaları ilə yanaşı (məsələn: xarici əlaqələrdə dövlətin təmsil olunması, qanunların imzalanması, əfv edilmə və s.), bir sıra ölkələrdə prezidentə ali icra hakimiyyəti səlahiyyətləri də verilir. Prezident hökuməti formalaşdırır və bununla da böyük dövlət aparatını idarə edir. Bütün mühüm dövlət vəzifələrinə (o cümlədən məhkəmələrə) təyinatlar ondan asılıdır. Əhali tərəfindən seçilən prezident parlamentdən asılı deyildir və əksinə, parlamentə - qanunvericilik prosesinə təsir göstərmək imkanı-

na malikdir. Prezident silahlı qüvvələrə ali rəhbərliyi həyata keçirir. Bu və ya digər səlahiyyətlər prezidenti dövlət hakimiyyətinin və idarəetməsinin həyata keçirilmə mexanizminin başlıca fiquruna çevirir.

Qarışıq sistemlər də mövcuddur. Bu halda xalq bir seçkidə icra hakimiyyətinin başçısı - prezidenti, digər seçkidə isə partiyalardan deputatları seçir. Onların arasında qalib çıxan partiya parlamentin nüvəsini təşkil edir və prezidentə tabe olan hökuməti formalaşdırır. Belə sistem Fransada fəaliyyət göstərir. Parlamentar model, hər şeydən əvvəl, hakimiyyət eşalonlarında birliyi nəzərdə tutur, baş nazirin və onun kabinetinin təyinatına isə parlamentdə səs çoxluğu alınması nəticəsində nail olunur. O vaxta qədər ki, hökumət qanunvericilərin əksəriyyətinin dəstəyinə nail olur, qanun layihələrinin parlamentə baxılmaq üçün təqdim olunması da daxil olmaqla öz funksiyalarını yerinə yetirir. Lakin bu dəstək tükəndikdə hökumət istefaya gedir.

Parlamentli respublikalarda prezidentin öz səlahiyyətlərini yerinə yetirməsi hökumətin mövqeyi ilə sıx əlaqədardır. Məsələn, İtaliya Konstitusiyasının 83-cü maddəsinə uyğun olaraq, qanunqüvvəli aktlar və qanunda göstərilən digər aktlar Nazirlər Şurası sədrinin imzası ilə təsdiq olunur. Almaniya Federativ Respublikasının Konstitusiyasında elə bir norma nəzərdə tutulmuşdur ki, respublika prezidentinin göstərişlərinin və sərəncamlarının qüvvədə olması üçün onların federal kansler və müvafiq federal nazir tərəfindən kontrassiqnasiyası zəruridir. Bununla bərabər, bu heç də həmin ölkələrdə prezidentlərin rolunun əhəmiyyətsiz olmasına dəlalət etmir. Belə ki, bir sıra hallarda prezidentin müstəsna preroqativinə daxil olan səlahiyyətləri konstitusiya ilə təsbit olunmuşdur. İtaliyada prezident tərəfindən parlament palatasına hökumətin qa-

nun layihələrinin təqdim olunmasına icazə vermək, konstitusiyada nəzərdə tutulmuş hallarda referendum keçirmək, vəzifəli şəxsləri təyin etmək və s. hüququ verilmişdir. Respublika prezidenti İtaliya dövlətinin başçısıdır və milli birliyi təmsil edir. Hər bir parlamentar dövlətdə olduğu kimi, o parlamentin qəbul etmiş olduğu qanunları, habelə qanunqüvvəli qərar və dekretləri elan edir, mülki və hərbi vəzifəli şəxsləri təyin edir, xarici dövlətlərdə diplomatik nümayəndələri akkreditə edir və belə nümayəndələr onun yanında akreditə olunur, eləcə də beynəlxalq müqavilələri imzalayır. İtaliyanın Prezidenti Nazirlər Şurasında, Ali Magistratura Şurasında sədrlik edir, əfv hüququna malikdir, fərqlənmə nişanları verir.

Burada parlamentə münasibətdə respublika prezidenti iki əsas səlahiyyətə malikdir:

- barəsində söhbət gedən qanun layihələrinin təkrar nəzərdən keçirilməsini tələb etmək;
- palataların birini və yaxud hər ikisini buraxmaq.

Prezident palatalardan birini və yaxud hər ikisini yalnız onların sədrlərini dinlədikdən sonra buraxa bilər. Lakin prezident onların fikirlərinə riayət etməyə borclu deyildir. Yeganə istisna ondan ibarətdir ki, prezidentin səlahiyyət müddətinin başa çatmasına qalan 6 ay ərzində palataların buraxılmasına yol verilmir. Sadalanan səlahiyyətlərə aşağıdakıları da əlavə etmək lazımdır. Prezident silahlı qüvvələrin ali baş komandanıdır, konstitusiyada nəzərdə tutulmuş hallarda referendum təyin edir, parlamentin qərarı ilə müharibə vəziyyəti elan edir.

Beləliklə, parlamentli respublikada icra hakimiyyəti qanunverici hakimiyyətin tam nəzarəti altındadır ki, bu da hakimiyyətin iki budağı arasında ziddiyyəti minimuma endirir. Belə sistemə malik olan dövlətlərdə, Qərbi Avro-

panın demək olar ki, bütün ölkələrində, həmçinin Avstraliya, Kanada və Yaponiyada inflyasiyanın səviyyəsi aşağıdır, büdcə daha yaxşı balanslaşdırılmışdır, milli valyutalar nisbətən sabitdir, bu ölkələr daxili və xarici problemlərin azlığı ilə seçilir. Lakin fikrimizcə, parlamentar respublikalar müəyyən çatışmazlıqlardan da uzaq deyildir. Birinci nöqsan partiya sisteminin rəngarəngliyindən ibarətdir ki, bu da parlamentli respublikanın kövrəkliyinə, hökumətlərin qeyri-sabitliyinə rəvac verir. İkinci nöqsan isə icra hakimiyyəti tərəfindən əks təsirə məruz qalmayan sadə parlament çoxluğunun yaratmağa qadir olduğu istibdad təhlükəsidir.

Nəticə ondan ibarətdir ki, parlamentli respublikanın hakimiyyət forması kimi səmərəliliyi və sabitliyi parlamentdə yerlər uğrunda yarışan siyasi partiyaların xarakterindən asılıdır.

Hakimiyyət forması kimi prezidentli respublikanın üstünlüyü ondan ibarətdir ki, ümumi və birbaşa seçkilər yolu ilə seçilmiş prezident özündə bütün ölkənin ümummilli səylərini və insanların vahid dövlətə məxsusluğu hissini təcəssüm etdirir. Prezidentlik sistemi parlamentar sistemə nisbətən siyasi sabitliyin daha yüksək səviyyəsinə təminat verir, çünki hökumət (prezident) konstitusiya ilə müəyyən olunan müddətə seçilir.

ABŞ-nin Konstitusiyasında deyilir: «İcra hakimiyyəti prezident tərəfindən həyata keçirilir...» (2-ci maddə, 1-ci bölmə). ABŞ Prezidenti dövlətin və hökumətin başçısıdır. Onun geniş səlahiyyətləri vardır. Bütün dövlət idarə aparatı onun bilavasitə tabeliyindədir. ABŞ Konstitusiyası ölkə prezidentinə icra hakimiyyətinin geniş səlahiyyətlərini verir. O, «qanunlara dəqiq əməl olunmasını təmin edir və Birləşmiş Ştatların bütün vəzifəli şəxslərinin səlahiyyət-

lərini müəyyən edir» (2-ci maddə, 3-cü bölmə). Ali vəzifəli şəxs kimi o, dövləti digər dövlətlərlə münasibətlərdə təmsil edir, səfirləri təyin edir (senatın razılığı ilə) və onları geri çağırır. Prezident xarici dövlətlərlə danışıqlar aparmaq və beynəlxalq müqavilələr bağlamaq hüququna malikdir. O, silahlı qüvvələrin və milli qvardiyanın ali baş komandanıdır, bu funksiya nominal deyil, həm də real olaraq fəaliyyət göstərir.

ABŞ Prezidenti dövlət başçısı kimi nazirləri (senatın razılığı ilə), həmçinin Ali Məhkəmənin üzvlərini və digər ali vəzifəli şəxsləri təyin edir. Aşağı vəzifəli şəxslər prezident tərəfindən təkbaşına, senatın məsləhəti və razılığı olmadan təyin edilir. Prezident Konqresin fövqəladə sessiyasını çağırmaq hüququna malikdir və Konqresin qəbul etdiyi qanunları təsdiq və dərc edir. Hökumətin başçısı kimi o, icra aparatına bilavasitə rəhbərlik edir, habelə hər bir icra departamentinin rəhbərindən istənilən məsələ üzrə yazılı mülahizələri tələb edə bilər (2-ci maddə, 2-ci bölmə).

Beləliklə, ABŞ hökuməti prezidentin yanında dövlət başçısının müxtar sərəncam verdiyi kabinetdir. Kabinet Konqresin palataları qarşısında məsul deyildir. Qanunverici orqan kabinetə etimadsızlıq göstərə bilməz.

Fransada isə hökumət sanki «ikiqat tabelikdədir», onu prezident formalaşdırır və fəaliyyətinə də özü nəzarət edir. Lakin kabinet parlament qarşısında da məsuldur. Hökumətdə xüsusi rol baş nazirə mənsubdur. O, nazirlərin işini əlaqələndirir, bu işə nəzarət edir, ən mühüm aktların tərtibi barədə (büdcə, iqtisadi planlar və s.) onlara göstərişlər verir. Baş nazirin idarəetmə sahəsində fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. O, qanunların icrasını təmin edir .

Keçmiş sovet respublikalarında, o cümlədən Azərbaycan Respublikasında prezident hakimiyyətinin təsis

olunması bir çox amillərlə bağlı olub aşağıdakılarla şərtlənirdi:

- inzibati amirlik sisteminin ləğv olunması və Kommunist Partiyasının onun təbiətinə xas olmayan dövlət hakimiyyəti funksiyasından kənarlaşdırılması ilə bağlı olan cəmiyyətin siyasi strukturunda keçid dövründə baş verən dəyişikliklər;

- mərkəz və respublikalar arasında narazılıqları dərinləşdirən və SSRİ-nin bir sıra respublikalarında prezident vəzifələrinin təsis edilməsinə gətirib çıxaran, sonradan ona fövqəladə səlahiyyət verməklə SSRİ Prezidenti vəzifəsinin təsis edilməsi yolu ilə ittifaq səviyyəsində hakimiyyəti gücləndirmək səyləri;

- Xalq Deputatları Sovetinin bir sıra təşkilati-siyasi, hüquqi, maliyyə səbəbləri üzündən mərkəzdə və yerlərdə hakimiyyəti səmərəli həyata keçirmək imkanlarını müntəzəm olaraq itirməsi;

- suverenlik ideyalarını müdafiə edən siyasi qüvvələrin sıx birləşdirilməsinin zəruriliyi, respublikanın bütövlüyünün qorunub-saxlanması və milli dövlətçiliyin inkişafı.

§ 3. Prezidentin hüquqi statusunun ümumi xarakteristikası

Konstitusiya ilə təsis olunan istənilən dövlət orqanının hüquqi statusunun xarakteristikasının əsası onun funksional təyinatının ümumiləşdirilmiş müəyyənedici definisiyasının təsbit edilməsindən və dövlət hakimiyyəti orqanları sistemində ona ayrılan yerdən ibarətdir. Sonuncu əlamət törəmə olsa da, müstəqil hüquqi əhəmiyyətə malikdir, çünki özündə Azərbaycan Respublikası Konstitusiyasının əsasında dövlət hakimiyyəti sisteminin qurulmasını əks etdirmişdir.

Bu əsas götürülərsə, Azərbaycan Respublikası Prezidentinin statusunun təhlilinə münasibətdə başlanğıc hüquqi təyinetmə Azərbaycan Respublikası Konstitusiyasının 8-ci maddəsindən və Konstitusiyanın mətnində Azərbaycan Respublikası Prezidentinə həsr olunmuş xüsusi fəsildən ibarətdir.

Konstitusiyanın 8-ci maddəsi müəyyən edir ki, Azərbaycan Respublikası Prezidenti Azərbaycan dövlətinin başçısıdır. O, ölkənin daxilində və xaricində Azərbaycan dövlətini təmsil edir. Azərbaycan Respublikası Prezidenti Azərbaycan xalqının birliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyinə təminat verir. Azərbaycan Respublikası Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin və ərazi bütövlüyünün, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısıdır. Azərbaycan Respublikasının Prezidenti məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır. Konstitusiyanın 7-ci maddəsinin III hissəsinə və 99-cu maddəsinə görə Azərbaycan Respublikasında icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur.

Prezidentə dövlət başçısı statusu verilməsi obyektiv səbəblərdən irəli gəlmişdir. Hər şeydən əvvəl, bunu istər ölkə daxilində, istərsə də beynəlxalq münasibətlərdə personifikasiyalaşdırılmış təmsilçiliyin səviyyəsinin yüksəldilməsi tələb edirdi. Prezidentin dövlət başçısı kimi tanınması dünyanın bir çox ölkələrinin konstitusiyalarında ənənəyə çevrilmişdir. Belə definisiya keçmiş SSRİ Prezidentinin statusunun müəyyən edilməsində də tətbiq olunmuşdu. Prezidentlik institutunun belə xüsusiyyətləri MDB-nin əksər ölkələrinin konstitusiyalarında öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Konstitusiyasına müvafiq olaraq, ölkə prezidenti dövlət hakimiyyəti orqanları siste-

mində xüsusi yer tutur. Lakin bu müddəa prezident hakimiyyətinin digərlərindən yuxarıda dayandığını təfsir etməyə əsas vermir. Hər bir hakimiyyət budağı Konstitusiyada təsbit olunmuş səlahiyyətləri yerinə yetirir, digər hakimiyyət budaqları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir, digər hakimiyyət budaqlarına və prezidentə müəyyən təsir dəstəkləri ilə təmin olunmuşdur. Konstitusiyada hakimiyyət budaqlarının balanslaşdırılmış qarşılıqlı fəaliyyətinə imkan verən zəruri sistem mövcuddur. Onların arasında tabeçilik münasibətləri yoxdur. Prezident öz səlahiyyətlərini heç kəsdən asılı olmayan iradəsi əsasında həyata keçirir. Onun səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının çərçivəsində reallaşdırılır.

Azərbaycan Respublikası Konstitusiyasında Azərbaycan Respublikası Prezidentinin avtoritar hakimə çevrilməsinin qarşısının alınmasını hüquqi cəhətdən təmin edən normalar sistemi mövcuddur. Onlar Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin beş illik müddətə məhdudlaşdırılmasından, onun ümumxalq seçkisi qaydasında seçilməsindən, seçkilərin alternativ xarakterindən, prezidentin vəzifədən kənarlaşdırılmasının mümkünlüyündən və s. ibarətdir.

Azərbaycan Respublikası Prezidenti öz funksiyalarını reallaşdırarkən yalnız Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş səlahiyyətlərdən istifadə edir və Konstitusiya çərçivəsində fəaliyyət göstərir. Bu, Azərbaycan Respublikası Prezidentinin dövlətin daxili və xarici siyasətinin əsas istiqamətlərinə dair funksiyalarına da aiddir. Bu funksiya isə Azərbaycan Respublikasının Konstitusiyasına müvafiq olaraq formalaşır.

§ 4. Prezidentin səlahiyyətləri

Prezident, onun dövlət başçısı kimi statusundan irəli gələn və ona öz funksiyalarını yerinə yetirmək imkanı verən geniş konstitusion səlahiyyətlərə malikdir. Prezidentin dövlət hakimiyyəti orqanlarının formalaşdırılması ilə bağlı səlahiyyətləri vardır. Belə səlahiyyətlərin həcmi aşağıdakı səbəblərlə şərtlənir:

1) Ümumxalq seçkiləri yolu ilə prezident olmuş şəxsin proqramı seçicilər tərəfindən dəstəkləndiyindən o, dövlət hakimiyyəti orqanlarının formalaşdırılmasında müəyyən səlahiyyətlərə malik olmalıdır. Öz proqramının reallaşdırılması vəzifəsi icra orqanlarının üzərinə düşdüyündən bu orqanların formalaşdırılmasına münasibətdə prezidentin səlahiyyətlərinin daha əhəmiyyətli olması;

2) Azərbaycan Respublikasının hər hansı dövlət orqanının öz «yaradılışına» görə hakimiyyətin hər hansı bir qoluna borclu olmasına yol verməyən Azərbaycan Respublikasının Konstitusiya quruluşunun əsasını təşkil edən prinsiplərdən biri kimi hakimiyyət bölgüsü prinsipinin olması.

Odur ki, Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq, dövlət hakimiyyəti orqanlarının formalaşdırılmasında həm prezident, həm də parlament - Milli Məclis fəaliyyət göstərir. Buna iki yolla nail olunur. Prezident müəyyən vəzifəli şəxsləri təyin edir, Milli Məclis isə öz mövqeyini bildirir (bəyənir və ya əksinə); prezident vəzifəyə şəxsin namizədliyini irəli sürür, Milli Məclis isə onun təqdim olunan vəzifəyə təyin edilməsi barədə müvafiq qərar qəbul edir.

İcra hakimiyyətinin formalaşdırılmasına münasibətdə isə qeyd olunan səbəblər üzündən prezidentin səlahiyyətləri daha genişdir.

Prezident Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə Azərbaycan Respublikasının Baş nazirini vəzifəyə təyin edir; vəzifədən azad edir (109-cu maddə, 4-cü bənd);

- Azərbayjan Respublikası Nazirlər Kabinetinin üzvlərini vəzifəyə təyin edir və vəzifədən azad edir, zəruri hallarda Azərbaycan Respublikası Nazirlər Kabinetinin iclaslarına sədrlik edir (109-cu maddə, 5-ci bənd);

-Azərbaycan Respublikası Nazirlər Kabinetinin istefası haqqında qərar qəbul edir (109-cu maddə, 6-cı bənd);

-Azərbaycan Respublikasının dövlət büdcəsində icra hakimiyyəti üçün nəzərdə tutulmuş xərclər çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanları yaradır (109-cu maddə,7-ci bənd);

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının aktlarını ləğv edir *(109-cu maddə, 8-ci bənd).*

Məhkəmə hakimiyyəti orqanlarına münasibətdə Prezident Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi və Azərbaycan Respublikasının apellyasiya məhkəmələri hakimlərinin vəzifəyə təyin edilməsi haqqında Azərbaycan Respublikasının Milli Məclisinə təqdimatlar verir; Azərbaycan Respublikasının digər məhkəmələrinin hakimlərini vəzifəyə təyin edir; Azərbaycan Respublikasının Baş prokurorunu Azərbaycan Respublikasının Milli Məclisinin razılığı ilə vəzifəyə təyin və vəzifədən azad edir.

Azərbaycan Respublikasının Milli Məclisinin fəaliyyəti ilə bağlı olan bir sıra səlahiyyətlər də Konstitusiya ilə prezidentə həvalə edilmişdir. O, Azərbaycan Respublikasının Milli Məclisinə seçkiləri təyin edir. Prezident Azər-

baycan Respublikasının qanunlarını imzalayır və dərc edir; nisbi (konstitusiya qanunlarına münasibətdə mütləq) veto hüququna malikdir; Milli Məclisə qanun layihələri göndərir; normativ hüquqi aktların Azərbaycan Respublikası Konstitusiyasına müvafiq gəlməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək hüququna malikdir.

Azərbaycan Respublikası Prezidenti qanunları ona təqdim olunmuş gündən başlayaraq 56 gün ərzində imzalayır. Qanun Azərbaycan Respublikası Prezidentinin etirazını doğurursa, o, qanunu imzalamayıb etirazları ilə birlikdə göstərilən müddət ərzində Azərbaycan Respublikasının Milli Məclisinə qaytara bilər.

Konstitusiya qanunları Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmazsa, qüvvəyə minmir. Azərbaycan Respublikasının Milli Məclisi 83 səs çoxluğu ilə qəbul edilən qanunları 95 səs çoxluğu ilə, 63 səs çoxluğu ilə qəbul edilən qanunları isə 83 səs çoxluğu ilə yenidən qəbul edərsə, belə qanunlar təkrar səsvermədən sonra qüvvəyə minir (110-cu maddə).

Prezident yalnız icra hakimiyyətinin formalaşdırılması sahəsi ilə deyil, eləcə də icra hakimiyyətinin fəaliyyəti ilə bağlı olan geniş səlahiyyətlərə malikdir. İcra səlahiyyətlərinin həyata keçirilməsinin təşkili məqsədi ilə Azərbaycan Respublikası Prezidenti Azərbayan Respublikasının Nazirlər Kabinetini formalaşdırır. Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanıdır (Azərbaycan Respublikası Konstitusiyasının 114-cü maddəsinin 2-ci hissəsi). Azərbaycan Respublikasının Nazirlər Kabinetinin fəalliyyət qaydasını Azərbaycan Respublikası Prezidenti müəyyən edir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin səlahiyyətləri aşağıdakılardır:

-Azərbaycan Respublikasının dövlət büdcəsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

-Azərbaycan Respublikası dövlət büdcəsinin icrasını təmin edir;

-Maliyyə-kredit və pul siyasətinin həyata keçirilməsini təmin edir;

-dövlətin iqtisadi proqramlarının həyata keçirilməsini təmin edir;

-dövlətin sosial təminat proqramlarının həyata keçirilməsini təmin edir;

-nazirliklərə və digər mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik edir, onların aktlarını ləğv edir;

-Azərbaycan Respublikası Prezidentinin onun səlahiyyətlərinə aid etdiyi digər məsələləri həll edir (119-cu maddə).

Yeni seçilmiş Azərbaycan Respublikası Prezidenti vəzifəsini tutduğu və səlahiyyətlərini icra etməyə başladığı gün Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinə istefa verir.

Yerlərdə icra hakimiyyətini yerli icra hakimiyyəti başçıları həyata keçirirlər. Yerli icra hakimiyyəti başçılarını Azərbaycan Respublikası Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir. Yerli icra hakimiyyətlərinin səlahiyyətlərini Azərbaycan Respublikası Prezidenti müəyyən edir.

Dövlət başçısı kimi Azərbaycan Respublikası Prezidenti xarici siyasət və hərbi sahədə də geniş səlahiyyətlərə malikdir. O, ölkənin xarici siyasətinin əsas istiqamətlərini müəyyən edir, danışıqlar aparır və beynəlxalq müqavilələri imzalayır.

Azərbaycan Respublikası Prezidenti xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndəliklərin təsis edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinə təqdimat verir, Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndələrini təyin edir və geri çağırır, xarici dövlətlərin diplomatik nümayəndələrinin etimadnamə və övdətnamələrini qəbul edir, dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlayir, dövlətlərarası və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələri təsdiq və ləğv olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir, təsdiqnamələri imzalayır.

Xarici siyasət kursunu həyata keçirərkən Prezident bilavasitə Xarici İşlər nazirini prinsipial məsələlər üzrə təlimatlandırır, digər ölkələrin başçıları ilə birbaşa əlaqələr saxlayır, o cümlədən xarici ölkələrə dövlət səfərləri edir, öz ölkəsində xarici dövlətlərin başçılarını qəbul edir, qarşılıqlı maraqların müəyyən edilməsi, əməkdaşlıq yaradılması məqsədi ilə nüfuzlu beynəlxalq təşkilatlarda və onların mərkəzlərində çıxış edir, həmsərhəd ölkələrin və digər dövlətlərin başçıları ilə müntəzəm telefon danışıqları aparır, mühüm beynəlxalq müşavirələrdə şəxsən iştirak edir və i.a.

Prezident digər ölkələrin dövlət və hökumət başçıları ilə prinsipial məsələlər üzrə şəxsən danışıqlar aparır. Prezidentin tapşırığı ilə diplomatik danışıqları onun təyin etdiyi şəxslər və nümayəndə heyətləri apara bilər. O, Azərbaycan Respublikası adından ən mühüm beynəlxalq müqavilələri imzalayır.

Azərbaycan Respublikasının Konstitusiyasının 109-cu maddəsinin 16-cı bəndinə müvafiq olaraq onun yanında

akkreditə olunan (başqa sözlə etimadlı) xarici ölkələrin diplomatik nümayəndələrinin (səfirlərin, elçilərin və s.) etimadnamələrini və övdətnamələrini (rəsmi məktub formasında xüsusi sənəd) qəbul edir. Bu etimadnamələr xarici ölkələrin başçılarından Azərbaycan Respublikasının başçısına (Prezidentə) təqdim edilir.

Etimadnamələrin təqdim olunmasında, adətən, Xarici İşlər naziri və Prezidentin xarici siyasət məsələləri üzrə dövlət müşaviri iştirak edir. Diplomatik nümayəndə özünün, mənsub olduğu dövlətin, öz dövlətinin başçısının adını bildirir, etimadnaməni və özünün məsul əməkdaşlarını Azərbaycan Respublikasının Prezidentinə təqdim edir. Etimadnamə təqdim olunandan sonra, adətən, prezident yeni səfirlə qısa söhbət edir. Övdətnamələr konkret diplomatik nümayəndənin səlahiyyətlərinin yerinə yetirilməsinə xitam verir.

Azərbaycan Respublikası Prezidenti Azərbaycan Respublikasının hərbi doktrinasını Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir. O, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanıdır, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ali komanda heyətini vəzifəyə təyin edir və vəzifədən azad edir, Azərbaycan Respublikası Təhlükəsizlik Şurasını yaradır, Azərbaycan Respublikası vətəndaşlarının müddətli hərbi xidmətə çağırılması və müddətli hərbi xidmətdə olan hərbi qulluqçularının ehtiyata buraxılması barədə qərarlar qəbul edir, ümumi və qismən səfərbərlik elan edir, habelə səfərbərlik üzrə çağrılanları tərxis edir, Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə müharibə elan edir və sülh bağlayır, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsinə razılıq verilməsi barədə Azərbaycan Respublikasının Milli Məcli-

sinə təqdimat verir, ali hərbi və ali xüsusi rütbələr verir, Azərbaycan Respublikasının dövlət büdcəsində bu məqsədlər üçün nəzərdə tutulmuş xərclər çərçivəsində xüsusi mühafizə xidmətləri yaradır.

Azərbaycan Respublikası Prezidenti Azərbaycan Respublikası ərazisinin müəyyən hissəsi faktik işğal olunduqda, xarici dövlət və ya dövlətlər Azərbaycan Respublikasına müharibə elan etdikdə, Azərbaycan Respublikasına qarşı real silahlı təhlükə yarandıqda, Azərbaycan Respublikasının ərazisi blokadaya alındıqda, habelə belə blokada üçün real təhlükə olduqda Azərbaycan Respublikasının bütün ərazisində və ayrı-ayrı yerlərində hərbi vəziyyət elan edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir.

Azərbaycan Respublikası Prezidenti təbii fəlakətlər, epidemiyalar, epizootiyalar, böyük ekoloji və başqa qəzalar baş verdikdə, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasına, dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə yönəldilən hərəkətlər edildikdə, zorakılıqla müşayiət olunan kütləvi ixtişaşlar yarandıqda, vətəndaşların həyatı və təhlükəsizliyi, yaxud dövlət təsisatlarının normal fəaliyyəti üçün qorxu törədən digər münaqişələr meydana gəldikdə Azərbaycan Respublikasının ayrı-ayrı yerlərində fövqəladə vəziyyət tətbiq edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir (112-ci maddə).

Konstitusiya referendum təyin edilməsini Prezidentin səlahiyyətinə aid edir (109-cu maddə, 18-ci hissə). Lakin bu o demək deyildir ki, Prezident bu hüquqa malik olan yeganə subyektdir. Bu səlahiyyət Konstitusiyaya müvafiq olaraq Milli Məclisə də verilmişdir. Prezident, Konstitusi-

yaya və Seçki Məcəlləsinə müvafiq olaraq referendum təyin edir.

Dövlət başçısı kimi Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətinə vətəndaşlıq məsələsinin həlli, siyasi sığınacaqlar verilməsi, Azərbaycan Respublikasının dövlət təltifləri ilə təltif edilmə, fəxri adların verilməsi, əfvin həyata keçirilməsi məsələləri də aid edilmişdir.

Prezident öz funksiyalarının və səlahiyyətlərini reallaşdırmaq məqsədi ilə hüquq yaradıcılığı fəaliyyətini həyata keçirir. O, Azərbaycan Respublikasının bütün ərazisində icra üçün icbari olan fərman və sərəncamlar qəbul edir. Prezidentin aktları Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına zidd olmamalıdır.

Azərbaycan Respublikası Prezidenti öz səlahiyyətlərini həyata keçirmək üçün Azərbaycan Respublikası Prezidentinin Administrasiyasını təşkil edir (109-cu maddə, 13-cü bənd). Prezidentin Administrasiyasına onun rəhbəri başçılıq edir. Administrasiya özündə dövlət hakimiyyəti orqanını təcəssüm etdirmir. Onun funksiyasına bütün zəruri təşkilati, informasiya, məsləhət-hüquqi, maddi-texniki və digər çoxsahəli şəraitin təmin edilməsi daxildir. Bunlar olmadan dövlət başçısının səlahiyyətlərini, Azərbaycan Respublikası Prezidentinin dövlət hakimiyyətinin digər orqanları ilə əlaqəsini həyata keçirmək mümkün deyildir.

Azərbaycan Respublikası Prezidenti, eləcə də Azərbaycan Respublikası Milli Məclisinə təsdiq etmək üçün Azərbaycan Respublikasının dövlət büdcəsini təqdim edir (109-cu maddə, 2-ci bənd), Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verir, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyəti üzvləri sırasından

Azərbaycan Respublikası Mərkəzi Bankının sədrini təyin edir (109-cu maddə, 10-cu bənd).

§ 5. Prezidentin hüquqi aktları

Azərbaycan Respublikasında prezident müəyyən hüquqi aktlar verir. Bu hüquqi aktlar prezidentin gündəlik fəaliyyətini özündə əks etdirir. Ümumiyyətlə, hüquq ədəbiyyatında bu aktlar müxtəlif cür qiymətləndirilir. Hələlik Azərbaycanda bu hüquqi aktların təbiəti, onların hüquqi aktlar sistemində yeri haqqında ədəbiyyatda sabit fikir formalaşmayıb.

Azərbaycan Respublikası Konstitusiyasının 113-cü maddəsində prezidentin verdiyi hüquqi aktlar müəyyən edilir. Həmin maddənin birinci hissəsinə görə, prezident ümumi qaydalar müəyyən etdikdə fərmanlar, başqa məsələlər barəsində isə sərəncamlar verir. Bu aktlar icra hakimiyəti başçısının fəaliyyətinin hüquqi təzahürü kimi, onun qərarlarının hüquqi forması kimi mühüm əhəmiyyətə malikdir. Vaxtilə sovet hüquq ədəbiyyatında bu cür hüquqi aktlar haqqında nəzəri fikirlər mövcud idi. Lakin Sovet İttifaqında icra hakimiyyəti hazırda qəbul olunan şəkildə mövcud olmadığından bu dövlətdə hazırda başa düşülən mənada icra hakimiyyətinin aktlarından danışmaq bir qədər çətin görünə bilər. Bununla belə, bu gün dövlət icra hakimiyyəti orqanlarının aktları sayılan normativ və qeyri-normativ aktlar o vaxt da mövcud olmuş və bu aktların nəzəri əsasları, onların sistemdə yeri və s. kimi məsələlər o zaman da işlənib hazırlanmışdır. Məhz bu nəzəriyyələr müasir MDB dövlətlərində bu tip aktlarla bağlı olan normaların əsasında durur. Odur ki, ilk növbədə bu ədəbiyyatdan istifadə etmək, ona istinad etmək və ondan yararlanmaq lazımdır. Sovet İttifaqında bu aktlar

idarəçilik aktları adlanırdı və inzibati hüquq elminin tədqiq etdiyi vacib problemlərdən biri hesab olunurdu. Hələ o vaxtdan ədəbiyyatda onların mahiyyəti və rolu haqqında vahid fikirlər olmamışdır. Bu aktlar dövlət iradəsinin hüquqi təzahür forması, dövlət orqanları fəaliyyətinin hüquqi forması, göstəriş və s. kimi qəbul olunurdu.

Bu gün də prezidentin hüquqi aktları öz hüquqi əhəmiyyətinə görə digər aktlardan geri qalmır. Prezidentin verdiyi hüquqi aktlar onun səlahiyyətlərinin təzahür formasıdır. Bu hüquqi aktlarda ali dövlət idarəetmə orqanı kimi prezidentin iradəsi təzahür edir ki, bu da dövlət orqanının fəaliyyəti üçün həddən çox vacibdir. Bu aktlar vasitəsilə prezident hüquq tətbiq edir. Prezidentin şifahi dediyi hər hansı bir söz onun şəxsi iradəsinin ifadəsi kimi qavrana bildiyi halda, fərman və sərəncam bunu istisna edir. Fərman və sərəncamda nəyin əks olunmasından asılı olmayaraq, o mütləq həyata keçirilməlidir. Bu aktlarda dövlət iradəsi maddiləşir (normativ aktlarda şəxsi iradənin dövlət iradəsi kimi verilməsi və ya qarışdırılması nəzərdən keçirilmir). Bir anlığa təsəvvür edək ki, prezident mühüm əhəmiyyətli sosial problemi şifahi göstərişlər yolu ilə həll edir. Aydındır ki, bu zaman məsələnin bütün xırdalıqları nəzərdə tutula bilməz. Bundan başqa, deyilənlərin hələ ki, normativ hüquqi aktlar sisteminə daxil olunması müşahidə edilməyib. Halbuki bu iki faktor prezident üçün, dövlət iradəsini təmsil edən və normativ qaydalar müəyyən edən dövlət orqanı üçün çox vacibdir. Hər hansısa bir şəkildə prezidentin qərarı rəsmiləşdirildikdə, hər şeydən əvvəl, informasiyanın sabitliyi təmin edilmiş olur. Yəni informasiya itmir, dəyişdirilə bilməz və onu təhrif etmək çətin olur. Rəsmi hüquqi akt dövlət iradəsinin normalaşdırılmasının əsası kimi çıxış edir. Qa-

nunla müəyyən edilmiş formada verilməklə konkret məsələnin həlli ilə bağlı qərar normativ aktlar sisteminə daxil olur və hər dəfə aid olduğu məsələnin həlli ilə bağlı ortaya problem çıxdıqda nizamlayıcı norma kimi çıxış etmək xüsusiyyəti qazanır. Bunun da nəticəsində dövlət iradəsi normativ etalon kimi çıxış edir. Başqa sözlə, prezidentin konkret qərarı fərman şəklində verilməklə onun şəxsi iradəsini deyil, məhz dövlət iradəsini ifadə edir, informasiyanı sabit olaraq saxlayır və onun hamı üçün eyni dərəcədə anlaşılmasını təmin edir, konkret qərarı normativləşdirir, onu qanunvericilik sisteminin normasına və ya normaları məcmusuna çevirir.

Konstitusiyada göstərilir ki, fərman ümumi qayda müəyyən etmək məqsədilə verilir. «Ümumi qayda» ifadəsini konstitusiyanın ruhuna uyğun olaraq, norma kimi başa düşmək olar. Beləliklə, prezident norma müəyyən edərkən və ya hər hansı məsələni normativ olaraq nizamlayarkən fərman, birdəfəlik konkret hüquq münasibətlərini nizamlayarkən isə sərəncam verir. Bunu ondan da görmək olar ki, konstitusiya istisna qaydasında bütün digər məsələlərin sərəncamla nizamlanacağını müəyyən edir. Bu məntiqi olaraq da belədir. Əgər bütün norma yaradıcılığının təzahür forması kimi istisnasız olaraq fərman müəyyən edilirsə, onda yerdə qalan ancaq fərdi hüquqi nizamlama olur ki, bu da digər məsələlər adı altında sərəncamla realizə olunur. İlkin anlayışın bu cür verilməsinin düzgünlüyünü Konstitusiyanın 148-ci maddəsində müəyyən edimliş normativ hüquqi aktların siyahısı da təsdiq edir. Burada normativ hüquqi akt kimi ancaq fərmanın adı çəkilir, sərəncam isə göstərilmir. Biz bu anlayışı aşağıda dəqiqləşdirəcəyik.

Fərman və sərəncamlar məzmunca müxtəlifdir. Onların məzmununa ən müxtəlif məsələlər daxildir. İlk baxışdan fərmanlar sırf hüquq məsələlərini həll etməlidirlər. Lakin fərmanlar həm də siyasi hadisələrə qiymət verilməsində, siyasi məsələlərin hüquqi instituta və normaya çevrilməsində də mühüm rol oynayır. Fərmanların məzmunca bu cür müxtəlifliyinin səbəbi prezidentin səlahiyyətlərinin xüsusiyyətlərindən irəli gəlir. Prezidentin səlahiyyətləri həyatın ən müxtəlif sahələrini əhatə edir. Fərmanlar da bu səlahiyyətlərin realizə formasıdır. Aydındır ki, səlahiyyətlərin müxtəlifliyi onların realizə vasitəsi olan və özündə konkret səlahiyyətin realizə edilməsi tədbirlərini nəzərdə tutan fərmanlarda da əks olunmalıdır. Fərmanların məzmun müxtəlifliyi, gələcəkdə də görəcəyimiz kimi, onların təsnifatına, hətta təbiətinə belə əsaslı şəkildə təsir edir. Prezidentin fərmanlarına nəzər salanda görürük ki, müxtəlif qanunların qəbulu ilə əlaqədar verilən və həmin qanunun tətbiqini özündə əks etdirən fərmanlar sayca çoxluq təşkil edir. Məsələn, «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 14 iyun 1996-cı il və yaxud «Qiymətli kağızlar haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Prezientin 9 sentyabr 1998-ci il tarixli fərmanlarını buna misal göstərmək olar. Bu cür fərmanların, demək olar ki, hamısında əsasən qanunun tətbiqi ilə bağlı ortaya çıxan yeni səlahiyyətlər qanunun özündə işlədilən bəzi anlayışların təfsiri vasitəsilə bölüşdürülür, konkret tədbirlər və bu tədbirləri həyata keçirən orqanlar müəyyən edilir. Adı çəkilən fərmanla bağlı müəyyən edilir ki, qanunun 29-cu maddəsinin 4-cü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlirini Nazirlər Kabintei

həyata keçirir. Eyni zamanda bu fərmanın 1-ci hissəsində qanunun icrası ilə bağlı Nazirlər Kabinetinin hansı tədbirləri həyata keçirəcəyi müəyyən edilir. Bu fərmanlar sırf hüquqi fərmanlardır. Bu cür fərmanlarda qoyulan məsələnin arqumentasiyası zərurəti və siyasi qiymət, yaxud nəyəsə rəsmi mövqe müəyyən etmə, fikir bildirmə yoxdur. Bu cür fərmanların hamısının məzmunu öz strukturuna görə eynicinslidir: əvvəl qanunun realizə olunması üçün hansı orqanın nə kimi tədbirlər həyata keçirəcəyi müəyyən edilir, daha sonra isə qanunun özünün tələbinə görə dəqiqləşdirmə tələb edən müddəaları dəqiqləşdirilir. Bir sıra fərmanlar var ki, əksinə, onlar yuxarıda söhbət gedən fərmanlardan kəskin şəkildə fərqlənir. Bu cür fərmanlar özünün həm məzmununa, həm də əhəmiyyətinə görə fərqlidir. Bu tip fərmanlar, fikrimizcə, tam hüqüqi deyil. Belə fərmanlarda müəyyən sosial-siyasi hadisələrə qiymət verilir və konkret norma müəyyən edilir. Məsələn, «Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında» 6 mart 2000-ci il tarixli fərman buna bariz misaldır. Bu tip fərmanlarda ilk öncə sonradan normalaşdırılacaq müddəanın arqumentasiyası - əsaslandırılması verilir. Yuxarıda adı çəkilən fərmanın böyük bir hissəsi Azərbaycanda qadın probleminə toxunur, orta əsr Azərbaycan qadınından danışılır, Sovet İttifaqı dövründə, ikinci dünya müharibəsi illərində fədakarlıq etmiş qadınların, eləcə də məşhur elm-incəsənət xadimlərinin adı çəkilir, Dağlıq Qarabağ problemində qadınların rolundan danışılır və ən nəhayət, bütün bunların əsasında onların dövlət idarəetməsində əməli iştirakını təmin etmək məqsədilə bir qərara gəlinir. Məhz fərmanın ikinci hissəsi başqa fərmanlarla qismən oxşardır: müəyyən tədbirlər, bu tədbirləri həyata keçirən subyekt müəyyən edilir. Göründüyü kimi, bu-

rada müəyyən sosial faktora rəsmi qiymət verilir və bu qiymətin realizə olunması üçün konkret tədbirlər müəyyən edilir. Digər növ qərarlardan fərqli olaraq, siyasi-hüquqi qərarların, demək olar ki, hamısında fikrin bu cür ətraflı və ardıcıl əsaslandırılması özünü göstərir. Fərmanın nəticə - qərar hissəsi istisna edilərsə, yerdə qalan hissə, demək olar ki, hər hansı bir siyasi fikrin əsaslandırılmasından və ya müəyyən hadisənin təsvirindən heç nə ilə fərqlənmir. Azərbaycanlıların soyqırımı ilə bağlı, 20 Yanvar hadisələrinə qiymət verilməsi ilə bağlı fərmanlar da mahiyyətcə eynitiplidirlər. Bu qəbildən olan bütün fərmanlarda ilk öncə qəbul olunacaq, normativləşdiriləcək fikir, qərar ciddi şəkildə əsaslandırılır. Belə siyasi - hüquqi fərmanlarda fikrin əsaslandırılması zərurətinin haradan doğduğunu və ümumiyyətlə, normativ hüquqi akt üçün bunun nə qədər zəruri olduğunu müəyyən etmək çətindir. Məsələ bundadır ki, kişi və qadının bərabərliyini heç bir əsaslandırma olmadan da eyni tədbirləri fərman verməklə həyata keçirmək olardı. Ən azından ona görə ki, konstitusiya kişi və qadının bərabərliyini nəzərdə tutur. Fikrimizcə, bu cür fərmanlarda əsaslandırma zərurəti iki halla şərtlənir: birincisi, baş verən sosial-siyasi hadisənin əhəmiyyəti, cəmiyyətin və dövlətin həyatında rolu və ikincisi, normalaşdırılan müddəanın özünün ənənəvi olaraq hüquqla nizamlanmaması. Xocalı soyqırımı, Azərbaycanın tarixində Qarabağ problemində ən ağrılı və əhali arasında geniş reaksiya doğuran bir hadisə olub. 20 Yanvar nəinki əhali arasında müəyyən reaksiya doğurdu, həm də müstəqilliyə aparan yolda, bir növ, katalizator rolunu oynadı. Bu cür siyasi hadisələr, adətən, hüquqla nizama salınmır. Çünki burada hüquqi baxımdan nizama salınacaq hər hansı bir münasibət mövcud deyildir. Ortaya çıxan və hüquq normala-

rı ilə nizamlanacaq bütün münasibətlər bilavasitə hadisənin özüylə yox, onun nəticələri ilə bağlı olur (məsələn, vurulmuş zərərin aradan qaldırılması). Buna görə də hadisənin nizamlanması zərurəti əsaslandırılır. Bundan başqa, hadisənin siyasi olmasını açıqlamaq, ona qiymət verilməsini tələb edir. Konkret qiymət verilmədən siyasi hadisənin niyə məhz başqa cür deyil, bu cür nizama salınmasını, sadəcə olaraq, qeyri-mümkündür. Bu cür fərmanlarda da siyasi hadisələrə arqumentasiya vasitəsi ilə qiymət verilir və qəbul olunacaq normanın niyə məhz başqa cür deyil, bu cür qəbul olunması motivasiya edilir. Bu tip fərmanlarda, hər şeydən əvvəl, xalqın, konkret hadisəyə münasibəti əks olunur və onun hüquqi təzahürü olan normalar müəyyən edilir. Elə bu da imkan verir ki, sonradan bu cür fərmanlar digərlərindən fərqli olaraq, siyasi təbliğatda istifadə edilsin.

Fərmanların daha bir növü kimi təsdiqedici fərmanları fərqləndirmək olar. Təsdiqedici fərmanlar, adından da göründüyü kimi, müəyyən bir şeyin edilməsini təsdiq edir. Bu tip fərmanlar məzmunca sadə quruluşa malikdir və çox az hallarda özündə əsaslı arqumentasiyanı ehtiva edir. Məsələn, «X.B.Yusifzadənin "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında» fərmanda ancaq bir cümlə əks olunub: «Azərbaycan neft və qaz sənayesinin inkişafındakı böyük xidmətlərinə görə Xoşbəxt Bağı oğlu Yusifzadə "İstiqlal" ordeni ilə təltif edilsin». Göründüyü kimi, bu fərmanda ancaq nəyə görə verilməsi haqqında məlumat vardır. «Ş.Q.Əsgərovun "Şöhrət" ordeni ilə təltif ediməsi haqqında», «Ə.B. Məmmədovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında» fərmanlar da konkret, bir dəfə realizə olunan hərəkətləri nəzərdə tutur. Onlar məzmununa görə o mənada hüquqidir ki, bu səlahiyyətlər hüquqauyğun şə-

kildə həyata keçirilir. Bu fərmanlar heç bir norma müəyyən etmir və yalnız bir dəfə yaranmış fərdi münasibəti nizamlayır, hətta nizamlamaqdan başqa da münasibətin özünü yaradır. Bu fərmanlar da kifayət qədər çoxsaylıdır. Onları məzmunca fərqləndirən yalnız mükafatın verildiyi obyektdir. Bu cür fərmanlarda oxşarlıq bütün digər fərmanlardan daha çoxdur ki, bu da məzmunun sadəliyi hesabına baş tutur. Fərmanların məzmunca bu cür bölgüsü ümumiyyətlə, şərtidir.

Bir sıra fərmanlar var ki, onlar daha çox təşkilati münasibətləri nizama salır. Bu tip fərmanlar həm sırf hüquqi, həm də təsdiqedici fərmanlara aid edilə bilər, çünki onlar yeni orqanın formalaşdırılması əsaslarını özündə əks etdirir, onun fəaliyyət əsaslarının olduğunu təsdiq edir. Məsələn, «X.İ.Hacıyevin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri təyin edilməsi haqqında» fərman bu şəxsin həm səlahiyyətlərini təsdiq edir, həm də Konstitusiya Məhkəməsinin fəaliyyəti üçün zəruri olan təşkilati məsələləri həll edir.

Fərmanların hüquqi təbiəti, onların inzibati hüquqi akt sayılması məsələləri də bir qədər mürəkkəbdir.

Konstitusiya birmənalı olaraq fərmanları normativ hüqüqi akt hesab etməyə imkan verir. Bunun üçün iki əsas var: birincisi, 113-cü maddə müəyyən edir ki, prezident ümumi qayda müəyyən etdikdə fərman, digər məsələlərlə bağlı isə sərəncam verir; ikincisi isə ondan ibarətdir ki, 148-ci maddə də normativ hüqüqi aktlar sistemində prezidentin aktlarından ancaq onun fərmanlarının adı çəkilir. Prezidentin bir sıra aktları, ümumiyyətlə, normativ hüqüqi akt anlayışına uyğun gəlir və heç bir problem doğurmur. Lakin bir sıra fərmanlar var ki, onu ümumiyyətlə normativ hüquqi akt saymaq qeyri-mümkündür. Xüsusilə

təsdiqedici fərmanlar bu qəbildəndir. Bu fərmanlar ancaq bir dəfə tətbiq olunur. Onların yönəldiyi subyekt, yuxarıda qeyd etdiyimiz kimi, bəllidir. Bu tip fərmanlar, adətən, fərdi, birdəfəlik münasibətləri nizamlayır. Əslində burada başqa tip problemlər də ortaya çıxır ki, bu da normativ hüquqi akt anlayışının müəyyən edilməsi ilə bağlıdır.

Vaxtilə Sovet İttifaqında bu anlayışın nəzəri əsasları işlənərkən normativ hüquqi aktın iki əsas əlaməti bütün mübahisəli əlamətlərdən seçilərək hüquqşünaslar tərəfindən razılaşdırılmışdır. Bu əlamətlər normativ hüquqi aktların dəfələrlə tətbiq olunmasından və adresatın (aktın yönəldiyi subyektin) tərkibinin və sayının qeyri-müəyyənliyindən ibarətdir. Lakin SSRİ-nin də praktikasında bu meyarlar əsasında növü tam olaraq müəyyən edilə bilinməyən aktlar mövcud idi. Belə ki, SSRİ Nazirlər Sovetinin qərarları tez-tez özündə dəfələrlə tətbiq olunan, ancaq yönəldiyi subyektin dairəsi dəqiq müəyyən olunmuş normaları nəzərdə tuturdu. Bu da o dövrdə inzibati hüquqi aktlarda çox təsadüf edilirdi. Bu gün də anoloji hal müşahidə olunur. Prezidentin bir çox fərmanları özündə dəfələrlə tətbiq olunmalı normalar müəyyən edir, eyni zamanda Nazirlər Kabinetinə birdəfəlik tədbirləri həyata keçirməyi tapşırır. Bundan başqa, konkret olaraq bir dəfə tətbiq olunan fərmanlar üçün də o zaman belə bir fikir meydana gəlmişdir ki, bu fərmanlar və ya aktlar əslində özünəməxsus, spesifk normativ aktlardır. Onlar konkret şəxsə yönəlsə də, uzunmüddətli və fasiləsiz tətbiq üçün nəzərdə tutulur və şəxsin həmin aktla müəyyən edilmiş hüquqi statusunda dəyişiklik baş verənə qədər qüvvədə qalır. Burda müəyyən həqiqət var, doğrudan da, nazir vəzifəyə fərmanla təyin olunursa, bu təyinatın bilavasitə həyata keçirilməsindən sonra fərmanın qüvvədən düşəcəyini gözlə-

mək məntiqi deyil (fərdi-hüquqi, birdəfəlik hüquqi aktlar üçün xarakterik əlamət), çünki o zaman həmin fərmanla - aktla yaranan münasibətlər də xitam olunmalı və deməli, yenicə təyin olunan nazir də vəzifədən getməlidir (fəaliyyətinin hüquqi əsası aradan qalxdığına görə). Bu mənada yalnız hər hansı bir dövlət orqanının yaradılmasını müəyyən edən akt normativ akt olmalıdır, çünki həmin orqan ləğv edilənə kimi qüvvədə qalır, həmin orqanın fəaliyyətinin əsasını təşkil edir. Bu müddəa şəxslərə verilən təltif, mükafat və s. ilə bağlı aktlara da şamil edilirdi. Bu paradoksallığı aradan qaldırmaq üçün bir qrup mütəxəssislər bu cür aktları qarışıq aktlar adlandırmağı və xüsusi növ akt kimi təsnif etməyi təklif edirdi. Azərbaycan Respublikası Konstitusiyası bu mənada qismən uğurlu norma müəyyən etmişdir. Onun 113-cü maddəsində ümumi qayda anlayışının müəyyən edilməsi imkan verir ki, təsdiqedici fərmanları birmənalı olaraq ümumi qayda müəyyən etməli olan aktların siyahısından istisna edək. Çünki normativ hüquqi akt anlayışına necə yanaşılırsa-yanaşılsın, bunları əslində fərman hesab etmək olmaz, ona görə ki, onlar heç bir şəkildə ümumi qayda müəyyən etmirlər. Hər hansı bir şəxsi təltif etdikdə, kimisə vəzifəyə təyin etdikdə bunu nəzərdə tutan akt uzun müddət qüvvədə qalıb (mükafat alınana kimi və s.) konkret təltifin saxlanılması, istifadəsi, kiminsə vəzifədə qalması əsası kimi çıxış edə bilər, lakin bu aktlar heç bir halda ümumi qayda müəyyən etmir. Bundan başqa, fərmanlar 148-ci maddədə qanunvericilik sisteminə daxil edilirlər. Qanunvericilik sisteminə isə ancaq normativ hüquqi aktlar daxildir. Prezident aktlarından bura ancaq fərman daxildir, ona görə ki o, ümumi qayda müəyyən edir. Biz artıq burada ümumi qayda ilə 148-ci maddədə nəzərdə tutulan mənada nor-

mativ hüquqi akt anlayışı arasında bir əlaqəni müşahidə edirik. Deməli, buna müvafiq olaraq təsdiqedici fərmanlar normativ hüquqi aktlar deyil. Beləliklə, təsdiqedici fərmanlar normativ hüquqi akt anlayışından birmənalı şəkildə istisna edilir.

Qanunların tətbiqi ilə bağlı fərmanların təsnifatını müəyyən etmək problem məsələdir. Bu fərmanların bəzi bəndləri hüquqi norma müəyyən edir və qanunun eyni cür anlaşılmasını və eyni cür tətbiqini təmin edir. İkinci qrup bəndlərdə isə konkret tədbirlər müəyyən edilir. Bu cür tədbirlər bir dəfə həyata keçirilir. Bu fərmanları vaxtilə ədəbiyyatda təklif olunduğu kimi, qarışıq aktlar adlandırmaq məqsədəuyğundur. Bəzi mütəxəssislər bu tip aktları fərdi və ya normativ hüquqi aktlara aid etməyi irəli sürürdülər. Ancaq bu təklif qəbul olunmamışdır. Siyasi-hüquqi fərmanlar da öz quruluşuna görə qarışıq fərmanlar hesab oluna bilər. Əslində bu fərmanların normativ hüquqi akt olub-olmaması məsələsi özünə məxsusdur. Bu tip fərmanların arqumentasiya hissəsi öz təbiətinə, mahiyyətinə görə sadəcə olaraq normativləşdirilə bilməz (baxmayaraq ki, fərmanda əks olunur). Çünki insan fikirlərinin ardıcıllığı iradədən kənardır və onu məcburetmə vasitələri ilə təmin etmə hüquqi nizamasalmanın imkanları xaricindədir. Başqa sözlə, heç kəs məcbur edilə bilməz ki, 20 Yanvar və ya azərbaycanlıların soyqırımı gününü müəyyən edən fərmandakı fikirləri məhz o cür, orada göstərilən ardıcıllıqla qəbul etsin. Şəxslər, ümumiyyətlə, o fikirləri qəbul etməyə də bilər. İnsanlar bu tip qərarlarda gəlinən nəticə ilə razılaşa bilərlər, lakin kimisə başqa cür deyil, məhz fərmanda əks olunan arqumentasiya ardıcıllığı ilə düşünməyə məcbur etmək qeyri-mümkündür. Biz nəticə ilə razılaşa bilərik (fərmanda qəbul olunan tədbirlər), lakin həmin

nəticəni almaq üçün öz fikirlərimizi başqa cür qura və mülahizə yürüdə bilərik. Həmin qərarlardakı arqumentasiyanı dəyişdirmək fərmanın tədbirlər nəzərdə tutulan hissəsinə heç bir təsir etmir. Qadınlarla əlaqədar fərmanda qurulan arqumentasiya beynəlxalq qadın hərəkatına, gender problemlərinə istinadən də verilə bilərdi. Bununla belə, nəticə dəyişməyə də bilərdi. Odur ki, bu cür aktların normativliyindən danışarkən ancaq nəticə hissəsinin normativ olub-olmamasından söhbət getməlidir. Bu hissədə isə, adətən, konkret tədbirlər və onu həyata keçirən orqanlar nəzərdə tutulur. Məntiqi olaraq belə nəticə alınır ki, bu fərmanlar daha çox qeyri-normativdir, hüququn tətbiqi xarakterlidir. Lakin digər tərəfdən də bu fərmanlarda normativlik olur. Məsələn, müəyyən günün hər il bayram və ya soyqırım günü kimi qeyd olunması müəyyən edilir və həyata keçirilir. Yəni dəfələrlə tətbiq olunur (normativlik əlaməti).

Fərmanlar bilavasitə konstitusiyada göstərilməsə də, inzibati hüquqi aktlardır. Azərbaycan SSR-in Konstitusiyasında mərkəzi icra hakimiyyəti orqanlarının qanun əsasında və onların icrası üçün normativ hüquqi aktlar verməsi nəzərdə tutulurdu. Bu cür aktlar hüquqda qanunqüvvəli aktlar adlanırdı. Bu aktları qanunlardan ayıran əsas fərq onların öz hüquqi qüvvəsinə görə qanunlardan aşağı olması idi. Bəzən onlara hüququn tətbiqi aktları da deyilirdi. Bu da səbəbsiz deyildir. Çünki bir çox müddəaları konkretləşdirilməli olan qanunların icrası üçün mütləq onun müvafiq müddəalarını dəqiqləşdirən başqa bir akt tələb olunurdu.

Praktikada prezidentin fərmanları çox tez-tez qanun əsasında və qanunun icrası üçün verilir. Bunu sübut etməyə ehtiyac yoxdur. Prezident, adətən, qanunun tətbiqi ba-

rədə fərman verir ki, bu fərman da qanun əsasında verilir (qanun olmasa, müvafiq fərman da olmaz) və qanun üçün verilir (qanunun tətbiqi məqsədilə onun göstərişləri dəqiqləşdirilir.) Lakin fərman istisnasız olaraq qanun üçün verilmir. Prezidentin səlahiyyətlərinə aid bir çox başqa məsələlər üçün də fərman verilir və bu fərman heç bir qanuna əsaslanmır, hər hansı bir aktı dəqiqləşdirmir. Başqa sözlə, fərman özü bilavasitə birinci, ilkin nizamasalma mənbəyi kimi çıxış edir. Bu isə fərmanların əhəmiyyətini ikiqat artırır. Həm qəbul olunan qanunların bir çoxu məhz fərman vasitəsilə dəqiqləşdilirdikdən sonra tam tətbiq olunmaya yararlı olur, həm də fərman müstəqil, heç bir şeydən asılı olmayan nizamasalma vasitəsi kimi çıxış edir. Fərmanlarla geniş ictimai münasibətlər dairəsi nizama salınır.

Fərmanların lazım olduğu kimi verilmə məsələsi də diqqətdən yayınmamalıdır. Fərman ancaq ümumi qayda müəyyən edilərkən verilə bilər. Özündə ümumi qaydalar və birdəfəlik tətbiq olunan müddəalar müəyyən edən qarışıq fərmanların verilməsi Konstitusiyanın 113-cü maddəsinə uyğundur, çünki bu aktlarda birdəfəlik müddəalar ümumi qaydaların realizəsi üçün müəyyən edilir və onun tətbiqi vasitəsi rolunu oynayır. Lakin bundan fərqli olaraq, ümumi qayda müəyyən etməyən təsdiqedici fərmanların verilməsi Konstitusiyanın 113-cü maddəsinə ziddir. İlk baxışda burada ancaq ad dəyişikliyi var. Başqa sözlə, sərəncam adlanmalı akt fərman adlanır. Bu, sadəcə olaraq, ad dəyişikliyi deyil. Əslində bu aktın formasının pozulmasıdır. Hüquq ədəbiyyatında qəbul olunmuş fikrə görə, aktın adı onun formasını ifadə edir. Aktın forması isə onun ən mühüm əlamətlərindən biridir. Konkret halda bu o deməkdir ki, normativ hüquqi akt məzmunca qeyri-nor-

mativ məzmunu əhatə edir. Və ya əksinə, qeyri normativ hüquqi akt məzmunca normativ məzmunu nəzərdə tutur. Bu halda ziddiyyət o zaman bariz şəkildə nəzərə çarpır ki, heç bir norma müəyyən etməyən akt adına görə normativ hüquqi aktlar sisteminə daxil olur. Əksinə olması da mümkündür. Normativ hüquqi akt adına görə qanunvericilik sisteminə daxil olmur. Bu da qanunvericilik sistemində qarışıqlıq yaradır. Heç bir norma müəyyən etməyən fərmanlar formal-hüquqi definisiyaya görə qanunvericilik sisteminə daxildir. Əslində isə bu fərmanlar heç bir norma müəyyən etmədiyindən onlar qanunvericilik sisteminə daxil ola bilməz. Bu cür ziddiyyətin aradan qaldırılması qanunvericilik sistemində sistemliyin daha da sabit olmasını təmin edərdi.

Prezidentin verdiyi ikinci növ hüquqi aktlar onun sərəncamlarıdır. Fərmanlardan fərqli olaraq, bu aktların məzmunu ümumi şəkildə olsa da müəyyən edilmir. Fərmanlarla ümumi qaydalar verilir. Sərəncamlarla isə digər məsələlər həll olunur (başqa məsələlər barəsində sərəncamlar qəbul edilir). Məntiqin üçüncü - istisna qanununu bura tətbiq etməklə belə bir nəticəyə gəlmək olar ki, prezidentin səlahiyyətləri ya normativ qaydada, konkret münasibəti norma müəyyən edib nizamlamaqla həyata keçirilir, ya da fərdi nizamlamaqla konkret hal fərdi inzibati aktla hüququn təsirinə məruz qalır. Ümumi qaydalar sözü norma müəyyən etməklə ictimai münasibətin nizamlanmasını istisnasız olaraq fərmana aid edir. Yerdə ancaq fərdi nizamasalma üsulu qalır. Bu da sərəncamın hesabına həyata keçirilir. Üçüncü yol yoxdur, o istisna olunur və deməli, «digər məsələlər» sözü fərdi nizamlamadan başqa, hər hansı bir şeyi ehtiva edə bilməz. Prezidentin bütün sərəncamları demək olar ki, hər hansı şəxsi vəzifəyə

təyin etmək və ya mükafatlandırmaqla bağlıdır. Məsələn, Azərbaycan Respublikası Prezidentinin «F.Ə.Məmmədovun Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini vəzifəsindən azad edilməsi haqqında» 25 iyun 1999-cu il tarixli 174 nömrəli sərəncamı. Və ya Azərbaycan Respublikası Prezidentinin «M.İ.Qarabağlının Mingəçevir Şəhər İcra hakimiyyəti başçısı təyin edilməsi haqqında» 28 iyun 1999-cu il tarixli 176 nömrəli sərəncamı.

Bəzi sərəncamlar sırf hüquqi fərmanlara analojidir. Məsələn, «Təhsil sahəsində İslahat proqramının təsdiq eilməsi haqqında» Prezidentin sərəncamı. Sərəncam həm də prezident səlahiyyətlərinin müvvəqəti olaraq bu və ya digər məqsədlərlə delegiya olunmasının hüquqi forması, onun rəsmiləşdirilməsi vasitəsi kimi çıxış edir. Məsələn, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə Belarus Respublikasının DİN-i ilə əməkdaşlıq haqqında saziş imzalamaq səlahiyyətinin verilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Sırf hüquqi (qanunun tətbiqi üçün verilən) fərmanlarda həyata keçirilən səlahiyyət bölgüsündən fərqli olaraq, sərəncamda delegiya edilən səlahiyyətlər təfsirdən yaranmır, hər hansı bir orqana daimi deyil, ancaq müvvəqəti olaraq verilir, konkret bir hal üçün nəzərdə tutulur. Fərmanlarla sərəncamlar arasında dəqiq yox, yalnız şərti fərqləndirmə aparmaq olar. Artıq formalaşmış praktika nəticəsində ancaq konstitusion müddəalar əsasında fərqləndirmə özünü doğrultmur (fərman-normativ, sərəncam-fərdi). Fikrimizcə, bunları bir-birindən ancaq həll etdikləri məsələlərin əhəmiyyətinə görə fərqləndirmək olar. Çünki bir sıra hallarda onlar anoloji, yalnız əhəmiyyətinə görə fərqlənən məsələləri həll edir. Belə ki, fərman kimi sərəncam da bir

başqa aktı təsdiq etmək məqsədilə verilə bilər. Praktikada hər hansı məsələni normativ nizama salan sərəncama çox nadir olsa da rast gəlmək olar. Səlahiyyətlər, adətən, yekcins olduğundan onların içərisində növ müxtəliflikləri fərqləndirmək çətinlik yaradır. Bunun üçün əsaslı tədqiqat aparmaq və empirik materialları analiz etmək lazımdır.

Deyilənləri ümumiləşdirərək aşağıdakı nəticələrə gəlmək olar:

1. Prezidentin iki növ hüquqi aktı arasında kəskin fərq yoxdur.

2.Bu aktlar vasitəsilə həm hüquqi, həm də sosial-siyasi problemlərə münasibət bildirilir.

3. Hal-hazırda fərmanlardan getdikcə daha çox istifadə olunur.

§ 6. Yerli icra hakimiyyəti orqanlarının təşkili

Yerlərdə icra hakimiyyəti orqanları prezident tərəfindən təşkil olunur. Lakin nəzərə almaq lazımdır ki, heç də bütün növ yerli icra hakimiyyəti orqanlarının başçıları prezident tərəfindən vəzifəyə təyin olunmur. Konstitusiyanın 124-cü maddəsinə görə, yerlərdə icra hakimiyyətini prezidentin vəzifəyə təyin və azad etdiyi icra hakimiyyəti başçıları həyata keçirirlər. Onların səlahiyyətlərini də Azərbaycan Respublikasının Prezidenti müəyyən edir. Yerli icra hakimiyyəti başçıları dövlət idarəetməsini yerli səviyyədə həyata keçirən əsas orqandır. İnzibati-ərazi vahidlərində idarəetmənin həyata keçirilməsinin ağırlığı onun üzərinə düşür. Bu orqanları yerli səviyyəli digər icra hakimiyyəti orqanlarından fərqləndirmək lazımdır.

İcra hakimiyyəti orqanları sahə və ümumi səlahiyyətli orqanlar olmaqla iki hissəyə ayrılır. Sahə orqanları konk-

ret sahələr üzrə fəaliyyət göstərirlər (məsələn, səhiyyə, təhsil, təhlükəsizlik və s.). Onların səlahiyyətləri yalnız bir sahəyə aiddir. Ümumi səlahiyyətli orqanların səlahiyyətləri isə idarəetmənin bütün sahələrinə aid olur. Yerli icra hakimiyyətləri haqqında 16 iyun 1999-cu il tarixli Əsasnaməyə görə, yerli icra hakimiyyəti başçıları prezidentin qarşısında məsul olan ümumi səlahiyyətli orqanlardır. Sahə orqanlarının inzibati-ərazi vahidlərində təşkilini sahə mərkəzi orqanı həyata keçirir. Prezident isə yalnız yerlərdə icra hakimiyyəti başçılarını təyin edir. Bu da təsadüfi deyil. Yerli icra hakimiyyəti başçıları ümumi səlahiyyətli orqan olduqlarına görə onları təyin etmək və nəzarətdə saxlamaq inzibati-ərazi vahidində bütün idarəçiliyə nəzarət etmək deməkdir. Yerli icra hakimiyyəti başçıları yerli səviyyədə idarəçiliyi həyata keçirən və xalqa ən yaxın olan dövlət idarəçiliyi sisteminin əsas struktur vahididir. İdarəetmənin aşağı səviyyələrində problemlərin necə həll olunması birbaşa onlardan asılıdır. Onlar yerli, sahə icra hakimiyyəti orqanlarına nəzarət edir və onların fəaliyyətini əlaqələndirirlər. Yerli icra hakimiyyəti başçıları ildə ən azı bir dəfə prezidentə öz fəaliyyətləri barədə hesabat verir. Naxçıvan Muxtar Respublikasında isə onlar həm də Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinə hesabat verirlər.

Yerli icra hakimiyyəti başçıları aşağıdakı prinsiplər əsasında fəaliyyət göstərir:

-vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi;

-müvafiq ərazinin əhalisinin rifahının yaxşılaşdırılması naminə iqtisadiyyatın, sosial və mədəni sahələrin inkişafının təmin edilməsi;

-qanunçuluq;

-dövlət mənafeləri ilə yerli mənafelərin uzlaşdırılması;

-aşkarlıq və ictimai rəyin nəzərə alınması.

İcra hakimiyyəti başçıları eyni zamanda başqa ödənişli vəzifə tuta bilməz və elmi, pedaqoji, yaradıcılıq fəaliyyəti istisna olmaqla, kommersiya fəaliyyəti ilə məşğul ola bilməzlər. Onlar din xadimləri də ola bilməzlər. Yerli icra hakimiyyəti başçılarının əsas vəzifələri aşağıdakılardır:

1) prezidentin tapşırıqlarını yerinə yetirir;

2) təsdiq edilmiş yerli proqramların həyata keçirilməsi üçün tədbirlər görür;

3) öz aparatını təşkil edir və onun tabeçiliyində olan orqan və şöbələrin qərarları konstitusiyaya zidd olduqda ləğv edir;

4) səlahiyyətinə aid məsələlərlə bağlı müqavilələr bağlayır;

5) vətəndaşların yazılı və şifahi şəkildə təkliflər vermək, ərizə ilə müraciət etmək hüquqlarını həyata keçirmək üçün şərait yaradır, vətəndaşların qəbul olunmasını təşkil edir;

6) icra hakimiyyəti orqanlarında işçilərin yerləşdirilməsini və onların ixtisas artırmasını təşkil edir;

7) işçilərə münasibətdə həvəsləndirmə və intizam tədbirlərini həyata keçirir;

8) seçkilərin, referendumların keçirilməsini, təşkil edilməsini təmin edir;

9) müvafiq icra hakimiyyəti orqanları qarşısında ərazinin inkişafına dair məsələ qaldırır, təkliflər verir;

10) rayonu, şəhəri dövlət orqanları ilə münasibətlərdə rəsmi protokol tədbirlərində təmsil edir;

11) fəaliyyətilə bağlı əhaliyə müntəzəm məlumat çatdırılması məqsədilə kütləvi informasiya vasitələrində məlumat verilməsini təmin edir və s.

Yerli icra hakimiyyəti başçılarının yanında onun səlahiyyətlərinin həyata keçirilməsinə dair təkliflərin hazırlanması məqsədilə məşvərətçi şura yaradılır. Bu şuraya icra hakimiyyəti başçısı, onun müavinləri, icra hakimiyyəti başçısının mülahizəsinə əsasən aparat və şöbə rəhbərləri və s. daxildir. Şura ayda iki dəfədən az olmayaraq iclas keçirir.

Rayon tabeli şəhərlərdə, kənd və qəsəbələrdə icra hakimiyyətini icra hakimiyyəti başçısının təyin etdiyi nümayəndə həyata keçirir. Yerli icra hakimiyyəti başçıları öz səlahiyyətləri daxilində sərəncam və əmrlər verirlər. Bu aktları yuxarı icra hakimiyyəti orqanı ləğv edə bilər.

Yerli icra hakimiyyətinin əmlakına dövlət büdcəsindən ayrılan ödəmələr, dövlət yaşayış fondu, dövlət yaşayış fondu evlərində olan qeyri-yaşayış binaları, mühəndis-komunikasiya, infrastruktur obyektləri, istehlakçılara bilavasitə kommunal xidmət göstərən və müvafiq ərazidə yerləşən və qanunvericilklə müəyyən edilmiş qaydada onların sərəncamına verilən digər əmlak daxildir. Yerli icra hakimiyyətlərinin sərəncamında torpaq sahələri, təbii obyektlər, maliyyə aktivləri, qeyri-yaşayış binaları, müəssisələr, digər əmlak kompleksləri, təhsil, mədəniyyət, səhiyyə, idman müəssisələri, müvafiq ərazinin iqtisadi inkişafının, əhalinin kommunal-məişət və sosial-mədəni tələbatının ödənilməsi üçün digər əmlak ola bilər. Yerli icra hakimiyyəti başçısı məqsədli fondlar üzərində sərəncam verə bilər. Dövlət əmlakı yerli icra hakimiyyətinin operativ idarəetməsində və ya tam təsərrüfat səlahiyyətində ola bilər. Yerli icra hakimiyyətlərinin qeyri-hökumət təşkilatları ilə əlaqəsi qanun və müqavilə əsasında qurulur. Yerli icra hakimiyyəti başçıları müvafiq ərazinin kompleks sosial-iqtisadi inkişafında bütün müəssisələrin və təşkilat-

ların iştirakını və qarşılıqlı əlaqəsini təmin edirlər, istehsal və sosial infrastrukturun, təbiəti mühafizə tədbirlərinin maliyyələşdirilməsi, tikintisi, təmiri və saxlanılması məqsədi ilə könüllülük əsasında fiziki və hüquqi şəxslərin vəsaitlərini cəlb edə, həmin vəsaitləri yerli icra hakimiyyətinin vəsaitləri ilə birləşdirə bilərlər. Yerli icra hakimiyyətinin geniş səlahiyyətləri vardır. Bu səlahiyyətləri aşağıdakı kimi qruplaşdırmaq olar:

-büdcə, planlaşdırma, maliyyə sahəsində səlahiyyətlər;

-sərəncamda olan əmlak, habelə ərazidə yerləşən müəssisə və idarələrlə bağlı səlahiyyətlər;

-memarlıq fəaliyyəti, tarix və memarlıq abidələrinin qorunması sahəsində səlahiyyətlər;

-kənd təsərrüfatı, torpaqdan istifadə, təbiəti mühafizə sahəsində səlahiyyətlər;

-qaçqın və məcburi köçkünlərlə bağlı səlahiyyətlər;

-yaşayış məntəqələrinə, küçə və meydanlara ad verilməsi ilə bağlı səlahiyyətlər;

-tikinti, nəqliyyat və rabitə sahəsində səlahiyyətlər;

-mənzil-kommunal təsərrüfatı, ticarət və digər xidmətlərin təşkili ilə bağlı səlahiyyətlər;

-əhaliyə sosial-mədəni xidmətlərin göstərilməsi sahəsində səlahiyyətlər;

-əhalinin sosial-müdafiəsi sahəsində səlahiyyətlər;

-qanunçuluğun təmin edilməsi, vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində səlahiyyətlər.

Göründüyü kimi, yerli icra hakimiyyəti başçıları həyatın, demək olar ki, bütün sahələrini əhatə edən səlahiyyətlərə malikdirlər. Bu səlahiyyətləri Azərbaycan Respublikasının Prezidenti müəyyən edir.

IX FƏSİL

MƏHKƏMƏ HAKİMİYYƏTİ

§ 1. Məhkəmə hakimiyyətinin xüsusiyyətləri

Məhkəmə hakimiyyəti dövlət hakimiyyətinin budaqları sırasında öz səlahiyyətlərinə və fəaliyyətinin hüquqi formalarına görə digərlərindən ciddi şəkildə fərqlənir. Vaxtilə Ş.L.Monteskyö hakimləri ancaq qanun tətbiq edən orqan kimi qiymətləndirirdi. Müasir dövrdə roman-german hüquq sistemli ölkələr üçün bu, bəlkə də, keçərlidir, ancaq anqlo-sakson hüquq sistemli ölkələr üçün bu müddəa özünü doğrultmur. Bu ölkələrdə məhkəmə sadəcə hüququ tətbiq etmir, özü hüquq yaradıcılığı ilə məşğul olur, hüququ tətbiq edərək sosial sistemə uyğunlaşdırır ki, bu da onun çəkisini artırır. Məhkəmə hakimiyyəti dövlət hakimiyyət budağı olsa da, ənənəvi olaraq siyasi hakimiyyətdən aralanır. O, dövlət siyasətini formalaşdırmır, əksinə, siyasətdən təcrid edilir. Eyni zamanda ondan yeri gələndə siyasi təzyiq vasitəsi kimi də istifadə edirlər. Məhkəmə hakimiyyəti digər dövlət orqanlarından fərqli olaraq, əhaliyə ən çox yaxın olanıdır. Məhz bu hakimiyyət budağının fəaliyyəti əhalidə hüquq haqqında təsəvvürün formalaşmasında müstəsna rol oynayır. Heç bir hakimiyyət budağından onun qədər obyektiv olmaq tələb edilmir və heç bir hakimiyyət orqanı dövlətə münasibətdə onun qədər müstəqillik imkanına malik deyildir.

Məhkəmə hakimiyyəti orqanlarının digər hakimiyyət budaqlarına məxsus orqanlarla oxşar və fərqli cəhətləri vardır. Onun oxşar tərəfləri dövlət orqanına məxsus olan ümumi əlamətlərdən ibarətdir. Fərqləri isə təyinatından irəli gəlir. Məhkəmə hakimiyyətini və onun orqanlarını

digər hakimiyyət budaqlarından fərqləndirən əsas cəhətlər aşağıdakılardır:

1) məhkəmə hakimiyyətinin və orqanlarının əsas və bilavasitə məqsədi insan hüquq və azadlıqlarını müdafiə etməkdir;

2) məhkəmə hakimiyyəti maksimum siyasətdən təcrid edilir;

3) məhkəmə hakimiyyəti orqanları arasında iyerarxiya yalnız prosessual çərçivədə mövcuddur, lakin onların hər biri tam müstəqildir;

4) məhkəmə hakimiyyəti orqanları, bir qayda olaraq, polisistemlilik prinsipi əsasında təşkil olunur;

5) məhkəmə hakimiyyəti orqanları prosessual formada fəaliyyət göstərirlər;

6) onların fəaliyyəti kazuistik xarakterlidir;

7) onlar digər iki dövlət hakimiyyəti orqanları tərəfindən qanunvericilikdə nəzərdə tutulan qaydada təşkil olunurlar.

Bütün bu xüsusiyyətlər az və ya çox dərəcədə müxtəlif şəkillərdə və harada təşkil olunmasından asılı olmayaraq, bütün məhkəmə hakimiyyəti orqanlarına məxsusdur. Məhkəmədən başqa, heç bir orqan insan hüquqlarının müdafiəsi ilə bilavasitə məşğul olmur. Bütün digər orqanlar ya normayaradıcılıq, ya da həm normayaradıcılıq, həm də idarəçilik fəaliyyəti ilə məşğul olduğu halda, məhkəmələr ancaq və ancaq insan hüquq və azadlıqlarını, mövcud qaydanı müdafiə edir. Elə bu da, məhkəmələrə yüksək status verir. Məhkəmələr ədalət mühakiməsini həyata keçirən yeganə orqandır. Ədalət mühakiməsi isə sosial münaqişələrin xüsusi orqan tərəfindən qanunla müəyyənləşdirilmiş prosessual qaydada baxılıb həll edilməsidir. İnsan hüquq və azadlıqları hansı sahədə, necə və hansı

şəraitdə pozulmasından asılı olmayaraq məhkəmələr tərəfindən müdafiə olunur. Məhkəmələr insan hüquqlarını hər hansı şəraitdən və haldan asılı olmayaraq müdafiə edən dövlət orqanlarıdır. Hər bir hüquq istisnasız olaraq məhkəmədə müdafiə oluna bilər. Əlbəttə, hüquq və azadlıqların müdafiəsinin məhkəmədən kənar başqa vasitələri də vardır, lakin onların heç biri məhkəmələr qədər etibarlı və hüquqi cəhətdən yüksək qüvvəyə malik müdafiə vasitəsi deyil, çünki yalnız məhkəmə müdafiə üçün hüquqi vasitələrə malikdir (prosessual vasitələr, hər iki tərəfin çəkişmə prinsipi əsasında iştirakı).

Məhkəmə hakimiyyətinin fəaliyyəti zamanı qoyulan əsas şərtlərdən biri onun işlərə obyektiv baxmasıdır. Lakin obyektivliyə müxtəlif faktorlar mənfi təsir edir ki, bunların da ən başlıcası siyasətdir. İnsanların hüquq və azadlıqlarının müdafiəsi zamanı siyasi motivlər, siyasi rejimdən irəli gələn nöqsanlar mənfi təsir etməsin deyə, məhkəmə hakimiyyəti siyasətdən təcrid edilir. Bunun üçün, bir qayda olaraq, hakimlərin hüquqi statusuna və məhkəmə sisteminin özünün təşkil olunması üsullarına siyasi faktoru neytrallaşdıran mexanizmlər əlavə edilir. Məsələn, hakimlərin siyasi fəaliyyətdə iştirak etməməsi, məhkəmələrin bütün hakimiyyət budaqlarının iştirakı ilə formalaşdırılması, hakimlərin dəyişilməzliyi və s.

Məhkəmə hakimiyyəti orqanları bir-birinə münasibətdə də müstəqil olmalıdırlar. Bununla yanaşı, onların bir sistem kimi təşkil olunması tələb edir ki, bu sistemin ünsürləri arasında müəyyən əlaqələr də olsun. Bu əlaqələr işlərin obyektiv, tam həlli, yuxarı instansiyalara müraciət zamanı zəruridir. Odur ki, məhkəmə hakimiyyətində orqanların təşkili zamanı, onlar arasında əlaqələr qurularkən

əsas kimi bu əlaqələrin hər bir məhkəmənin müstəqilliyinə ziyan gətirməməsi götürülür.

Məhkəmə hakimiyyətində də iyerarxiya var, lakin bu iyerarxiya icra hakimiyyətində olan iyerarxiyadan kəskin şəkildə fərqlənir. İcra hakimiyyətində iyerarxiya aşağı orqanın yuxarı orqandan asılılığına əsaslanır. Bu asılılıq onda əks olunur ki, aşağı orqan yuxarı orqanın verdiyi göstərişləri yerinə yetirməlidir və yuxarı orqan istənilən vaxt aşağı orqanın fəaliyyətinə müdaxilə edə bilər. Məhkəmə hakimiyyətində isə iyerarxiya yuxarı orqanın aşağı orqana göstəriş verməsinə deyil, müdafiə vasitələrinin genişliyinə, imkana əsaslanır. Yuxarı məhkəmə aşağı məhkəmənin çıxardığı aktı yoxlaya, dəyişə və işi yenidən icraata qaytara bilər. Məhkəmə hakimiyyətində iyerarxiya bu cür yuxarı məhkəmənin aşağı məhkəməyə nisbətən geniş səlahiyyətli olmasına və onun aşağı məhkəmənin çıxardığı qərarlarla iş imkanına əsaslanır. Bu iyerarxiyada işin mürəkkəbliyinin və digər faktorların da əhəmiyyəti var ki, bu da işin fərqli məhkəmələrə aidiyyətində təzahür edir. Məhkəmə hakimiyyətində iyerarxiya məhkəmələr arasında prosessual aidiyyət və instansiya üzrə işə baxılması məsələlərindən uzağa getmir. Heç bir yuxarı məhkəmə aşağı məhkəmənin işinə müdaxilə edə bilməz və konkret işin mahiyyəti üzrə həlli üçün göstəriş verə bilməz. Yalnız aşağı məhkəmə qərarı qəbul etdikdən sonra yuxarı məhkəmə yuxarı instansiya kimi bu işin qanuni və əsaslı olmasını yoxlaya və yenə də yalnız prosessual əsaslar olarsa, işi birinci instansiyaya qaytara bilər. Lakin heç bir halda işin necə həll olunması ilə bağlı göstəriş verə bilməz, ona aid olmayan işi alıb başqa məhkəməyə verə bilməz. Bununla da məhkəmə hakimiyyətində iyerarxiya münasibətləri məhdudlaşır.

Məhkəmə hakimiyyətinin təşkilinə təsir edən faktorlardan ən əsası onun predmetinin xüsusiyyətləridir. Buna görə də harada olmasından asılı olmayaraq, məhkəmə hakimiyyəti orqanları iki prinsip əsasında - monosistemlilik və polisistemlilik əsasında qurulur. Monosistemlilik onu bildirir ki, bütün növ işlərə yalnız bir növ məhkəmələr tərəfindən baxılır. Məhkəmə sistemi yalnız instansiya üzrə təşkilatlanır. Şaquli təşkilatlanma, yəni aşağı məhkəmədə baxılan işə yuxarı məhkəmədə şikayət əsasında baxıla bilər. Burada məhkəmə sistemi, predmetin xüsusiyyətləri nəzərə alınaraq, bir çox hallarda daxilən təşkilatlanır (mülki kollegiya, inzibati kollegiya və s.) Polisistemlilik əsasında qurulan məhkəmə sistemlərində hər növ və ya bir qrup işlər kateqoriyası üçün ayrıca məhkəmə orqanları yaradılır (inzibati məhkəmələr, mülki məhkəmələr və s). Hər növ məhkəmə orqanları özü ayrıca sistem formalaşdırır və özünün ali məhkəməsi, prosessual forması olur. Polisistemlikdə məhkəmələr sadəcə instansiyalar üzrə deyil, həm də işlərin sahə aidiyyəti üzrə təşkilatlanır və bir işə ancaq onun aid olduğu məhkəmədə baxılması mümkündür (şaquli və üfiqi təşkilatlanma). Dünyanın heç bir ölkəsində mütləq, yalnız monosistemlilik əsasında təşkil olunan məhkəmələr yoxdur. Bütün məhkəmələrin təşkili zamanı işlərin xüsusiyyətləri nəzərə alınmalıdır. Polisistemlilik prinsipi ölkədən-ölkəyə kəskin fərqli variantlara malikdir.

Azərbaycan Respublikasında da məhkəmə hakimiyyəti bu prinsip əsasında təşkil olunur. Burada ümumi yurisdiksiyalı məhkəmələr (cinayət və mülki işlərə birinci instansiyada baxan məhkəmə orqanları), ağır cinayət işləri üzrə məhkəmələr, inzibati-iqtisad məhkəmələri fəaliyyət

göstərir. Hər iki sistemin mənfi və müsbət tərəfləri vardır.

Məhkəmənin işi ciddi və dəqiq şəkildə reqlamentləşdirilir. Burada bütün mümkün variantlar, yayınmalar və onlara cavab reaksiyası nəzərdə tutulur. Məhkəmənin fəaliyyətinin prosessual forması onu ifadə edir ki, məhkəmə əldə etdiyi hər şeyi dəqiq, qanunla müəyyənləşdirilmiş qaydada araşdırır və müvafiq qanuna əsaslanmış nəticəyə gəlir. Məhkəmənin istifadə etdiyi üsullar onun üçün spesifikdir və başqa orqanlarda yoxdur. Burada qanuna uyğun olmayan hər şey istisna edilir və məhkəmənin öz nöqteyi-nəzərincə fəaliyyət imkanı, demək olar ki, yoxdur.

Kazuistik xarakter, adətən, roman-german ölkələrinə aiddir. Məhkəmənin fəaliyyəti və onun nəticələri, sadəcə, baxılan işə aiddir və zaman-məkan çərçivəsində məhduddur. Məhkəmə norma müəyyən etmir, onun bir qərarı oxşar işlərə şamil edilmir və məhkəmə hər dəfə yeni işə baxdıqda nə qədər oxşar olsa belə, əvvəlki qərarları yeni işə tətbiq edə bilməz. Çıxarılan qərar sadəcə həmin işə aiddir və məhkəmə də işdə olan hallarla məhdudlaşır. Bu hallardan kənara çıxmağa, işə birbaşa aidiyyəti yoxdursa, başqa məsələlərə toxunmağa və sonrakı fəaliyyət üçün əhəmiyyətə malik norma-göstəriş formulə etməyə, Konstitusiya Məhkəməsi istisna olmaqla, məhkəmələr haqlı deyildir.

§ 2. Məhkəmə hakimiyyətinin təşkilinin konstitusion prinsipləri

Yuxarıda göstərildiyi kimi, məhkəmə hakimiyyətinin təşkili müəyyən prinsiplərə əsaslanır. Bu prinsiplər sadəcə başlanğıc, çıxış nöqtəsi kimi müəyyən əhəmiyyətə malikdir. Mürəkkəb bir sistem olan məhkəmənin fəaliyyəti və onun qurulması üçün yuxarıda qeyd olunan iki

ümumi prinsipdən başqa, məhkəmə hakimiyyətinin simasını müəyyən etməyə imkan verən, onun parametrlərini formalaşdıran daha dəqiq prinsiplərə də ehtiyac var. Bu prinsiplər isə konstitusiyada və qanunvericilikdə təsbit olunmuşdur və bunlara uyğun olaraq, məhkəmə hakimiyyəti qurulur. Məhkəmə hakimiyyətinin prinsipləri konstitusiyada müxtəlif cür əks olunur. Azərbaycan Respublikasının Konstitusiyasının 127-ci maddəsi «Hakimlərin müstəqilliyi, ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri» adlansa da, prinsiplərin yalnız bu maddədə sadalananlarla məhdulaşdığını söyləmək olmaz. Konstitusiyanın özündən normalarda birbaşa əks olunmayan digər prinsipləri də ayırmaq olar. Bütün prinsiplər ya məhkəmələrin təşkilinə, ya onların fəaliyyətinə, ya da məhkəmə hakimiyyətinin açarı olan hakimin hüquqi statusuna aiddir. Bu üç aspektdə konstitusiya məhkəmə hakimiyyətinin prinsiplərini müəyyən etməklə onların təşkili əsaslarını müəyyən edir. Bu bölgü şərtidir və bir prinsip digərinə də aid ola bilər. Bu cür şərtilik və ya prinsipin dolayı yolla başqa məsələlərə də aid olması ondan irəli gəlir ki, məhkəmə hakimiyyəti sistemdir və bu sistemin bütün ünsürləri, o cümlədən prinsipləri bir-biri ilə sıx bağlıdır. Əlbəttə, hakimlərin müstəqilliyi prinsipi hakimlərin hüquqi statusuna aid olsa da, bu prinsipin məhkəmənin fəaliyyətinə təsir etməyəcəyini düşünmək qeyri-mümkündür. Bundan başqa, məhkəmə hakimiyyətinin bu konstitusion, əsas prinsiplərindən əlavə, onun sahə prinsiplərini də fərqləndirmək mümkündür. Sahə prinsipləri artıq cari qanunvericilikdə təsbit olunur və yalnız bir məhkəmə sisteminə aiddir. Məsələn, ədalət mühakiməsinin təqsirsizlik prezumpsiyasına əsaslanması konstitusiya icraatı üçün özünü doğrultmur. Konstitusiya icraatında bu

prinsip tətbiq olunsa belə, onun başqa növ icraatlardan kəskin fərqlənmək və ya ən azı onlara nisbətən çox cüzi tətbiq olunmaq məsələsi var.

Məhkəmə hakimiyyətinin konstitusiyada təsbit olunan əsas prinsipləri aşağıdakılardır:

1) Məhkəmələrin (hakimlərin) müstəqilliyi. Bu prinsip onu ifadə edir ki, hakimlər hər hansı yuxarı göstərişlə bağlı deyil, icraatında olan işi yalnız konstitusiya və qanun əsasında həll edir. İşin həlli zamanı qanunun tələbindən irəli gələn faktorlar istisna olmaqla, heç bir şey iş üçün əhəmiyyətə malik hal kimi nəzərə alına bilməz və işə digər maraqların, mənafelərin təsir etməsinə hakim imkan verməməlidir. Həll olunan hər bir işdə hakim ancaq qanunun iradəsini əsas götürməli və qanunun tələbini yerinə yetirməlidir. Hakimə hər hansı şəkildə işlə bağlı təzyiq edilməsi, onun ələ alınması qəti yolverilməzdir. Müstəqillik bir çox təşkilati-hüquqi vasitələr hesabına təmin olunur. Bunlardan biri elə Konstitusiyanın 127-ci maddəsinin I hissəsində əks olunan hakimlərin səlahiyyət müddəti ərzində dəyişməzliyidir. Bundan başqa, hakimlərin müstəqilliyini təmin etmək üçün cari qanunvericilikdə bir çox digər vasitələrdən də istifadə edilir (məsələn, onların maddi-məişət, iş şəraitinin yaxşılaşdırılması, siyasətdən təcrid edilməsi və s.).

2) İşlərə obyektiv baxılması. Bu prinsip yuxarıdakı prinsipdən fərqli olaraq, hakimlərin hüquqi statusuna deyil, daha çox məhkəmə fəaliyyətinə aiddir. Konstitusiyanın 127-ci maddəsinin II hissəsində bu prinsip daha geniş şəkildə formulə edilmişdir: işlərə qərəzsiz, ədalətlə, faktlara əsasən və qanuna müvafiq baxılması. Bu prinsip məhkəmələr üçün xüsusilə vacibdir. Məhkəmənin ədalət mühakiməsini nə dərəcədə düzgün aparması birbaşa bu

prinsipdən asılıdır. Çünki bu prinsip məhkəmənin fəaliyyətinin, belə demək mümkünsə, keyfiyyət xüsusiyyətlərini, onun meyarlarını müəyyənləşdirir. İşə obyektiv baxılması onu ifadə edir ki, hər bir işin həlli zamanı siyasi, ideoloji və s. nöqteyi-nəzərdən qiymətləndirmə aparıla, işə bu aspektlərdən yanaşıla bilməz. İşə baxılarkən yalnız işdə olan faktlar araşdırılır və faktlar, sübutlar qanunun qoyduğu meyarlar əsasında da qiymətləndirilir. İşə baxarkən hər hansı hissdən (qəzəb, paxıllıq, rəhm və s.) çıxış edərək faktları tədqiq etmək, bir tərəfə özünün şəxsi-əxlaqi prinsiplərinə görə mülayim mövqedə olmaq, digər tərəfə yenə də həmin meyarlara görə qəddarcasına yanaşmaq işə qərəzli baxmaq deməkdir. Buna yol verilmir və faktlar sadəcə sübutlar əsasında araşdırılıb ciddi elmi dəlillərlə, müddəalarla izah olunmalıdır. İctimai fikirdən, əxlaqdan, dindən çıxış edərək şəxsin əməlinin hüquqauyğunluğunun qiymətləndirilməsi məqbul hesab olunmur. Hər iki tərəfin verdiyi faktlar eyni dərəcədə tədqiq olunmalı və hər iki tərəfə də eyni imkanlar yaradılmalıdır ki, iş obyektiv tədqiq olunsun.

3) Məhkəmələrin fəaliyyətinə təsir edilməsinin yolverilməzliyi. Məhkəmələrin fəaliyyətinə dolayı və ya düzünə hər hansı şəkildə işin məqsədyönlü şəkildə həll edilməsi üçün təsir edilməsi qadağandır. Bu prinsipi əslində, hakimlərin müstəqilliyi prinsipinin neqativ tərəfinin əks olunması kimi də qəbul etmək olar, çünki hakimlərin müstəqilliyi onlara hər hansı bir təsirin istisna olunmasını tələb edir. Konstitusiyada bunun neqativ tərəfinin də əks olunmasını prinsipin əhəmiyyəti ilə izah etmək olar. Hakimlər işə baxarkən onlara qeyri-qanuni üsullarla təzyiq edilməsi və onların ələ alınması qadağandır. Bunun qarşısını almaq üçün hakimlərin işdə maraqlı olarkən kə-

narlaşdırılması institutu və s. mexanizmlər müəyyən edilir. Nəzərə almaq lazımdır ki, bu prinsip hakimlərə vəkillərin təsirini nəzərdə tutmur. Vəkillər yalnız sübutlar əsasında hakimə təsir edərək onda işlə bağlı daxili inamın formalaşmasını müəyyən edirlər ki, bu da heç bir məntiqə əsaslanmayan, qorxu, aldatma yolu ilə hakimə təzyiqdən fərqli bir anlayışdır. Bundan başqa, vəkilin bu təsirdə məqsədi insan hüququnu qorumaqdırsa, əksinə, qeyri-qanuni təzyiqdə məqsəd kiminsə marağının ödənilməsidir ki, bu da çox zaman digər tərəfin hüququnun tapdalanması deməkdir. Təsadüfi deyil ki, konstitusiyanın 127-ci maddəsinin III hissəsində qanuna zidd təsirdən söhbət gedir.

4) Ədalət mühakiməsinin vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilməsi. Bu prinsip işə obyektiv baxılması prinsipində də tərəflərin hüquq bərabərliyi şəklində təkrar olunur. Qanun və məhkəmə qarşısında bərabərlik, işə baxılması zamanı faktiki-sosial faktorların nəzərə alınmamasını bildirir. Lakin söhbət burada hər cür faktordan deyil, qanunda nəzərdə tutulmayan faktorlardan gedir. Hər kəs bir vətəndaş kimi başqaları ilə bərabər və eyni hüquqlara malikdir ki, bu da onların məhkəmədə müvafiq işə baxılması zamanı kiməsə üstünlük verilməsini istisna edir. İşə baxılması zamanı şəxsin sosial vəziyyəti, cəmiyyətdə tutduğu yer və ona olan münasibət nəzərə alına bilməz. Kiminsə işinə qohumluq əlaqələrinə görə qanunun qoyduğu tələblərdən kənara çıxmaqla baxılırsa, bu artıq bərabərliyin pozulmasıdır. Bərabərlik prinsipi məhkəmə işinə aidiyyəti olmayan faktların və ümumi mücərrəd əxlaqi mülahizələrin hüquqi fakt kimi nəzərə alınmasını istisna edir. Qanunvericilikdə hər kəsə eyni dərəcədə özünü müdafiə imkanı yara-

dılır. Sübutların tədqiqində vətəndaşlar tutduqları prosessual mövqedən asılı olaraq, azacıq fərqlənən eyni imkanlara malikdir. Qanunda öncədən nə müdafiə, nə də ittiham tərəfinə işin həlli zamanı heç bir məsələdə üstünlük verilmir. Məhkəmə hər iki tərəfə eyni münasibət göstərməlidir.

5) İş icraatının açıq aparılması. Bütün məhkəmələrdə işlər açıq - aşkar aparılır. Bu prinsip vasitəsilə məhkəmənin birbaşa cəmiyyətə təsir potensialı nəzərə alınır. İşlərin açıq aparılması o deməkdir ki, qanunla müəyyənləşdirilmiş əsas olmadığı halda istənilən şəxs gedib məhkəmədə işin gedişini müşahidə edə bilər. Qapalı baxılmayan işin mətbuat orqanlarında, telekanallarda işıqlandırılmasına, onun təhlil edilməsinə icazə verilir. İş icraatının açıq aparılması məhkəmə və istintaq sirrinin də hamı üçün açıq olması demək deyil. Bu cür sirr olan məlumatlar işin açıq və ya qapalı baxılmasından asılı olmayaraq gizli saxlanılır ki, bu da işin baxılmasına qarşı olan mümkün maneələri aradan qaldırmaq üçündür. Bir çox hallarda istintaq sirri məhkəmənin gedişində istifadə edilir və bununla da sirr olmaqdan çıxır. Lakin əgər belə məlumatlar şəxsin mənafeyinə, dövlət, peşə, kommersiya sirrinin açılmasına səbəb olarsa və ya şəxsi, ailə sirrinə zərər yetirə bilərsə, hakim işin qapalı icraatda baxılmasını təmin etməlidir. Hər bir halda məhkəmə tərəflərin vəsatəti əsasında işdə belə halların olub-olmamasını müəyyən edir. Qapalı icraatda işdə iştirak edən şəxslərdən başqa, heç kim məhkəmə iclasına buraxılmır.

İcraatın açıq aparılması prinsipi məhkəmələri ictimaiyyət üçün qapalı orqan olmaqdan çıxarır və hakimlərin məsuliyyətini artırır. Çünki hər bir halda açıq icraatda olanlara daim ictimaiyyət müəyyən dərəcədə reaksiya verir

və hakimlərin işini əxlaq, mənəviyyat, cəmiyyətin əsas dəyərləri aspektindən qiymətləndirir. Göründüyü kimi, bu prinsip ictimaiyyətlə məhkəmə arasında ikitərəfli təsiri həyata keçirməyə imkan verir.

6) Məhkəmə icraatının bilavasitəliliyi. Bilavasitəlilik konstitusiyada neqativ üsulla əks olunub. Konstitusiyanın 127-ci maddəsinin VI hissəsinə görə, qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, cinayət işlərinin qiyabi icraatına yol verilmir. İşin icraatının bilavasitəliliyi, göründüyü kimi, işə qiyabi baxılmasının əksidir. Məhkəmə iş üzrə tədqiq olunan halları bilavasitə qavramalıdır. İşin müsbət və hərtərəfli həlli üçün icraatın bilavasitəliliyi prinsipi onu ifadə edir ki, işdə olan hallar, faktlar bilavasitə qavranılmalıdır. İbtidai istintaqda kimin necə və nə cür dindirilməsindən, sübutların necə tədqiq olunmasından asılı olmayaraq, mümkün olduğu qədər sübut üçün əhəmiyyət kəsb edən bütün hallar məhkəmədə yenidən tədqiq olunur. İbtidai istintaqın nəticələri məhkəmə üçün məcburi deyil və hakimlər bilavasitə iş üzrə müəyyən nəticəyə gələrkən istintaq materiallarından daha çox öz araşdırmaları əsasında əldə etdikləri faktlara əsaslanırlar. Lakin bu hər zaman mümkün olmur. Bəzən sübutların daşınması mümkün olmur, bəzən sübutlar uzun müddət qalmır və ya tərəflərdən biri işin gedişində müxtəlif səbəblərdən iştirak etmir və s. İşin gedişində bu cür halların ortaya çıxması artıq iş icraatında qiyabiliyin yaranması deməkdir. Qiyabi icraat qanunvericilikdə məhdudlaşdırılaraq tətbiq olunur. Çünki qiyabi icraat iş üzrə həmişə istər-istəməz faktların birtərəfli tədqiqi deməkdir (şahidlərin olmaması, tərəflərdən birinin iştirak etməməsi, sübutların bilavasitə araşdırıla bilməməsi və s.). Qiyabi icraat bəzən sanksiya kimi də tədbiq olunur (yalnız mülki icraatda).

Məsələn, cavabdehin qəsdən işi uzatmaq üçün gəlmədiyi hallarda məhkəmə onun iştirakı olmadan işə baxa bilər. Konstitusiyada müvafiq prinsip, göründüyü kimi, daha çox cinayət işlərinə aiddir. Digər icraat növlərində işə qiyabi icraatda baxılmasını daha çox məhkəmə işin hallarından çıxış etməklə müəyyən etdiyi halda (yalnız və yalnız qanun çərçivəsində) yol verilir və burada qiyabi icraat heç vaxt şəxslər üçün sanksiya kimi tətbiq oluna bilməz (mülki icraatdan fərqli olaraq). Bu da onunla bağlıdır ki, cinayət icraatında taleyüklü məsələlər həll olunur.

7) İcraatın çəkişmə prinsipinə söykənməsi. Ümumiyyətlə, məhkəmə prosesində araşdırmanın üsulundan asılı olaraq iki sistem fərqləndirilir: 1) çəkişməli sistem; 2) inkivizisyon sistem. İnkvizisyon sistem onu ifadə edir ki, burada əsas iş hakimin üzərinə düşür (sübutların araşdırılması və qiymətləndirilməsi). Təqsirsizliyi sübutetmə vəzifəsi müttəhimin üzərinə düşür. Sübutları o toplayır və məhkəməyə verir. Müttəhim işin gedişində nisbətən zəif fiqurdur. Burada, əsasən, qiyabi şəkildə, bir çox hallarda onun iştirakı olmadan sübutlar araşdırılır və qiymətləndirilir.

Çəkişmə sistemində, əksinə, əsas iş vəkillərin üzərinə düşür. Bu sistemdə vəkillər sübutları tədqiq edir və nəticələrə gəlirlər, onlar aktiv fiqurlardır. Hakimin əsas işi isə prosessual qaydaların pozulmamasına riayət etməkdir. O əsasən, sırf hüquqi məsələləri həll edir. Çəkişmə prinsipi hələ sovet dövründən bütün prosessual sahələrdə əsas kimi götürülürdü. Lakin bu prinsip xalis şəkildə deyil, dəyişdirilmiş, inkivizisyon prosesin xüsusiyyətləri əlavə edilməklə hibrid hala salınmışdı. İndi də Azərbaycan Respublikasının qanunvericiliyində çəkişmə prinsipinin tam şəkildə tətbiqini söyləmək çətindir. Sovet prosessual hü-

qunun varisi olan Azərbaycan prosessualistikası hələ də inkivizisyon sistemin elementlərini əks etdirir. Sovet hüquq məktəbində, ümumiyyətlə, çəkişmə prinsipi bir qədər dar mənada başa düşülürdü və adətən, məhkəmə baxışında sübutların araşdırılması mərhələsinin bəzi xüsusiyyətlərini öz içinə alırdı.

Çəkişmə prinsipinə görə, hər bir tərəf öz sübutlarını təqdim edir, sübutların araşdırılmasında yaxından iştirak edir və prosesdə öz mövqeyini müəyyən etməkdə sərbəstdir. Tərəflər biri-birinin sübutlarını təkzib etmək üçün sübutlar gətirir, digər tərəfin sübutuna və ya mövqeyinə münasibətini bildirir, məhkəmənin çıxaracağı qərara dair öz təkliflərini verir. Şəxs öz təqsirini etiraf edə və ya inkar edə bilər. Hər iki tərəfə sübutetmə üçün bərabər imkanlar yaradılmalıdır.

8) İcraatın mərhələsindən asılı olmadan müdafiə hüququnun təmin olunması. Hər bir kəs məhkəmədə özünü müdafiə hüququna malikdir. Müdafiə zəruri hüquqi biliyi olmayan insanlar üçün məhkəmədə mənafeyinin təmin olunmasının başlıca vasitəsidir. Yalnız müdafiə olduqda işin hərtərəfli və obyektiv araşdırılması mümkündür. Çünki bir çox faktlar məhz müdafiənin səyi nəticəsində obyektiv qiymətləndirilir. Bundan başqa, müdafiə qarşı tərəfin təqdim etdiyi sübutların aşkara çıxarılmamış, görünməmiş tərəflərini də aşkarlamağa imkan verir.

Məhkəmə icraatı müxtəlif mərhələlərdən ibarətdir və bu mərhələlər hərəsi müxtəlif məqsədlər üçün yaradıldığından bir-birindən kəskin fərqlənir. Eyni zamanda bu mərhələlər vahid ədalət mühakiməsi sisteminin tərkib hissəsidir və hamısı birgə işin obyektiv araşdırılmasına xidmət edir. Odur ki, bütün bu mərhələlərdə müdafiənin olması zərurəti ortaya çıxır. Bir mərhələdə şəxsin müda-

fiə olunmaması ondan sonrakı mərhələdə gəlinən nəticələrin, araşdırmadan asılı olmadan, nöqsanlı olması deməkdir. Odur ki, Konstitusiya prosesin bütün mərhələlərində şəxsə müdafiə imkanı verir. Müdafiə proses başlayandan işə düşür və proses müxtəlif instansiyalardan keçib qurtaranacan davam edərək işin gedişi zamanı ortaya çıxan faktların birtərəfli qiymətləndirilməsinin qarşısını alır. İcraatın hər bir mərhələsində müdafiə fərdin müdafiə hüququnun tam həyata keçirilməsi deməkdir. Şəxs onu müdafiə edən şəxslə münasibətdə geniş imkanlara malikdir.

9) Ədalət mühakiməsinin təqsirsizlik prezumpsiyasına söykənməsi. Ədalət mühakiməsinin söykəndiyi ən əsas prinsiplərdən biri təqsirsizlik prezumpsiyasıdır. Təqsirsizlik prezumpsiyası digər prinsiplər kimi, sadəcə bir prinsip kimi yox, hüquqlarla əlaqəli şəkildə konstitusiyada əks olunmuş prinsipdir. Belə ki, Konstitusiyanın 63-cü maddəsində təqsirsizlik prezumpsiyasının məzmunu açılır. Təqsirsizlik prezumpsiyası yığcam şəkildə aşağıdakı kimi başa düşülə bilər. Birincisi, heç kəs məhkəmədə təqsiri qanunla müəyyənləşdirilmiş qaydada sübuta yetirilməyənə qədər hər hansı bir cinayəti törətməkdə təqsirli bilinə bilməz. Şəxsin təqsirli olmasına əsaslı şübhələr olsa belə, o, təqsirli hesab oluna bilməz. İkincisi, şəxs təqsirsiz olduğunu sübuta yetirməyə borclu deyil. Onun təqsirli olması dövlətin müvafiq orqanı tərəfindən sübuta yetirilməlidir. Üçüncüsü, qanunu pozmaqla əldə edilmiş dəlillər sübut hesab olunmur və işin həllində nəzərə alınmır. Nəhayət dördüncüsü, yalnız məhkəmənin hökmü ilə şəxs təqsirli sayıla bilər. Təqsirsizlik prezumpsiyası müdafiəni real qüvvəyə çevirən, prosesi hərəkətə gətirən və çəkişmə prinsipini əhəmiyyətli edən prinsipdir. Doğrudan da, şəxsi istənilən vaxt, cüzi sübutlar əsasında təqsirli hesab

etmək mümkün olsaydı, onda adları çəkilən prinsiplərin heç birinin əhəmiyyəti olmazdı. Təqsirsizlik prezumpsiyası cinayət prosesi üçün xüsusilə müstəsna əhəmiyyətə malikdir və əsasən, bu sahədə tətbiq edilir. Təsadüfi deyildir ki, cinayət prosessual qanunvericiliyində təqsirsizlik prezumpsiyasının mahiyyəti açıldığı halda, mülki proses və konstitusiya icraatında bu prinsipin adı çəkilmir. Mülki prosesdə təqsirlilik prezumpsiyası tətbiq olunur. Konstitusiya icraatına isə özünün xüsusiyyətlərinə görə bu anlayış tətbiq olunmur.

10) Məhkəmə icraatının dili. Məhkəmə icraatı, bir qayda olaraq, Azərbaycan Respublikasının dövlət dilində aparılır. Lakin qanunvericilik icraatın çoxluq təşkil edən əhalinin dilində də aparılmasının mümkünlüyünü nəzərdə tutur. Prosesdə iştirak edən, lakin dövlət dilini bilməyən şəxslər dövlət hesabına tərcüməçi ilə təmin olunur və məhkəmə sənədlərindən çıxarışlar və s. onlara tərcümə edilərək verilir. Dövlət dilini bilməyən şəxsin öz ana dilində məhkəmədə ifadə vermək hüququ vardır.

Bundan başqa, konstitusiyada təsbit olunan prinsiplərdən ədalət mühakiməsinin yalnız məhkəmələr tərəfindən həyata keçirilməsini, ədalət mühakiməsinin ancaq qanunla müəyyənləşdirilmiş üsullar çərçivəsində aparılmasını, fövqəladə məhkəmələrin yaradılmasının yolverilməzliyini, məhkəmə orqanlarının ixtisaslaşmasını (polisistemlilik) da göstərmək olar. Konstitusiyanın 127-ci maddəsində birbaşa prinsip kimi əks olunmasa da, bu müddəalar bütün sistemin əsasını təşkil edir və məhkəmə hakimiyyənin təşkilini əsaslandıran prinsiplərdir.

Ədalət mühakiməsinin məhkəmələr tərəfindən həyata keçirilməsi o deməkdir ki, insan hüquqlarının qorunması ilə məşğul olan əsas və son instansiya məhkəmə sistemi-

dir. Məhkəməyə qədər başqa orqanlarda müdafiə mümkündür, lakin bu müdafiə məhkəmə müdafiəsinə qədər ilkin olur və adətən, onun qədər geniş imkanlı deyildir. Bu müdafiə həmin orqanın əsas işi deyil və məhkəmə müdafiəsinə nisbətən ikinci dərəcəlidir. Məhkəmənin qərarı yalnız məhkəmə sistemi daxilində dəyişdirilə bilər. Heç bir başqa orqan sosial konfliktləri həll etməkdə məhkəmələr qədər geniş üsullara və qanunla tanınan nüfuza malik deyildir. Məhkəmənin çıxardığı qərarlar digər orqanlar tərəfindən dəyişdirilə bilməz. Ədalət mühakiməsi yalnız qanunda göstərilən prosessual üsullarla həyata keçirilə bilər. Törədilən hüquq pozuntusunun hansı sahəyə aid olmasından asılı olaraq, bunun üçün ya cinayət prosesi, ya mülki proses, ya inzibati proses (inzibati - yurisdiksion proses), ya da konstitusiya icraatı tətbiq edilir. Bu cür fərqli üsulların müəyyən edilməsi işin bütün incəliklərini nəzərə almağa imkan verən mexanizmin zəruriliyindən doğur.

Fövqəladə məhkəmələr, adətən, xüsusilə geniş imkanlara malik, prosessual əlaqələrdən kənara çıxa bilən, yalnız qismən məhkəmə sayıla biləcək orqanlardır. Belə orqanlar, adətən, təzyiq vasitəsi kimi sosial gərginlik zamanı yaranır və qeyri-dəqiq fəaliyyət üsulu onlara istənilən şeyi etməyə imkan verir (məsələn, inqilab məhkəməsi və s). Bu cür məhkəmələrin yaradılmasının qadağan olunması hakimiyyət özbaşınalığının daha bir üsulundan vətəndaşlara təminat verilməsi deməkdir.

Azərbaycan Respublikasında məhkəmələr sahə əlaməti üzrə müxtəlif orqanlara bölünür. Hər bir məhkəmə orqanı fərqli dairədə işə baxır və həll edir. Onların bu cür ixtisaslaşması işin daha uğurla həlli üçündür.

§ 3. Məhkəmə hakimiyyəti orqanları

Məhkəmə hakimiyyəti müxtəlif məhkəmə orqanlarından təşkil olunur. Lakin məhkəmə hakimiyyətini bilavasitə həyata keçirənlər məhkəmələr deyil, hakimlərdir. Məhkəmələrdə hakimlərdən başqa texniki işçilər və s. çalışır və onların məhkəmə hakimiyyətini həyata keçirməyə heç bir aidiyyəti yoxdur. Məhkəmə hakimiyyətinin funksiyaları məhz hakimlərin işində təzahür edir və onlar da məhkəmə hakimiyyətini realizə edir. Azərbaycan Respublikasının Konstitusiyasına görə, məhkəmə hakimiyyətinə iki qrup orqanlar daxildir. Buraya bilavasitə məhkəmələrin özləri və prokurorluq aiddir. Prokurorluğun məhkəmə hakimiyyətində yeri məsələləsi hakimiyyət bölgüsündə analiz edildiyi üçün biz burada ona daha ətraflı toxunmayacağıq. Prokurorluğun işi məhkəmə hakimiyyəti ilə birbaşa bağlı deyil. Konstitusiyanın 133-cü maddəsinə görə, bu orqan mərkəzləşdirilmiş müstəqil orqandır. Təşkilati cəhətdən heç bir orqandan, o cümlədən məhkəmədən asılı deyildir. Konstitusiyanın 133-cü maddəsinə görə, prokurorluq qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir; qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır; məhkəmədə dövlət ittihamını müdafiə edir; məhkəmədə iddia qaldırır; məhkəmə qərarlarından protest verir. Prokurorluq üzərində ali hakimiyyət orqanlarının nəzarəti müəyyənləşdirilmişdir («Prokuroluq haqqında» Azərbaycan Respublikası Qanununa bax.)

Məhkəmə hakimiyyətinin əsas orqanı məhkəmələrdir. Məhkəmələr bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərirlər və yalnız onların səlahiyyətinə aid edilmiş məsələləri həll etməklə məşğuldurlar. Azərbaycan Respublika-

sının məhkəmə sistemində yuxarıda göstərildiyi kimi, polisistemlilik prinsipi qüvvədədir. «Məhkəmələr və hakimlər haqqında» 10 iyun 1997-ci il tarixli qanunun 19-cu maddəsinə görə, Azərbaycan Respublikasının məhkəmə sisteminə rayon (şəhər) məhkəmələri, ağır cinayətlər məhkəmələri, Naxçıvan Muxtar Respublikasının ağır cinayətlər məhkəməsi, hərbi məhkəmələr, inzibati-iqtisadi məhkəmələr, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, apellyasiya məhkəmələri, Azərbaycan Respublikasının Ali Məhkəməsi daxildir. Göründüyü kimi, inzibati ədliyyə, müstəqil təşkilati formaya malik olmasa da inzibati icraat inzibati-iqtisadi məhkəmələr tərəfindən həyata keçirilir. Cinayət işləri üzrə ədalət mühakiməsi isə ikiqat ixtisaslaşmaya məruz qalır. Belə ki, cinayət işləri üzrə ədalət mühakiməsi həm işin xarakterinə görə (ağır cinayətlərə dair), həm də işin aid olduğu dar sahəyə görə (hərbi məhkəmələr) ixtisaslaşır. Konstitusiya Məhkəməsi, ümumiyyətlə, xatırlanmır. Düzdür, Konstitusiya Məhkəməsi haqqında ayrıca qanun var, lakin bu məhkəmə də məhkəmə sisteminə aid olduğuna görə burada onun adı çəkilməliydi. Əslində məhkəmə hakimiyyətində polisistemlilik prinsipinin bu cür disproporsional şəkildə təşkilatlanması o qədər də müsbət hal deyil. İkinci dərəcəli funksiyaların ayrılmasına ehtiyac yox idi. Məsələn, cinayət işləri üzrə ədalət mühakiməsini həm işin xarakterinə görə, həm də işin aid olduğu dar sahəyə görə ixtisaslaşdırmaq məqsədəmüvafiq hesab oluna bilməz. Əvəzində inzibati məhkəmələrin təşkilatlanması məhkəmə sisteminin icra hakimiyyətinə nəzarətini gücləndirir. Məhkəmələrin ərazilər üzrə təşkili də eyni cür deyil. Belə ki, yerli məhkəmələr hər bir inzibati-ərazi vahidində təşkil olunur. Hərbi məhkəmələr ərazilər üzrə deyil, hər-

bi hissələr üzrə təşkil olunur. Yerli iqtisad məhkəmələri həm də azad iqtisadi zonalar üzrə təşkil oluna bilər.

Ümumi yurisdiksiyalı bütün məhkəmələrə, hərbi və inzibati-iqtisadi məhkəmələr də daxil olmaqla digər ixtisaslaşdırılmış məhkəmələrə ali instansiya kimi Ali Məhkəmə rəhbərlik edir. Apellyasiya məhkəmələri isə bütün növ işlər üzrə (mülki, iqtisadi və cinayət işləri, inzibati xətalar üzrə) apellyasiya orqanıdır. Göründüyü kimi, məhkəmə hakimiyyəti kifayət qədər mürəkkəb sistem şəklində təşkil olunmuşdur. Bu cür mürəkkəbliyin qarşısının alınması və məhkəmə hakimiyyəti daxilində təşkilatlanmanın səmərəli olması üçün ilk öncə ən əsas funksiyalar təşkil olunmuş və ixtisaslaşdırma aparılmışdır. Hər bir məhkəmə müstəqil hüquqi şəxsdir və onun üzərində dövlət gerbinin təsviri olan möhürü vardır.

Rayon (şəhər) məhkəməsi bir rayonun hüdudları daxilində təşkil olunur və həmin ərazidə baş vermiş mülki, cinayət, inzibati işlərə baxır. Rayon məhkəməsi məhkəmə statistikasını öyrənir, təhlil edir və ümumiləşdirir. Bu məhkəmələr sədrdən və hakimlərdən ibarət olur.

Ağır cinayətlər məhkəmələri birinci instansiya məhkəmələri kimi bu məhkəmələrin fəaliyyət dairəsinə aid edilmiş işlərə baxır. Bu cür cinayətin harada baş verməsindən asılı olaraq, onlar müvafiq ağır cinayətlər məhkəmələrində baxılır (Naxçıvan Muxtar Respublikasının ərazisində törədilmiş ağır cinayətlər Naxçıvan Muxtar Respublikasının Ağır cinayətlər Məhkəməsinin yurisdiksiyasındadır). Ağır cinayətlər məhkəməsi sədrdən, onun müavinindən və hakimlərdən ibarətdir. Bu məhkəmənin tərkibində andlılar məhkəməsinin yaradılması da mümkündür.

Hərbi məhkəmələr yalnız səlahiyyətlərinə aid edilmiş cinayət işlərinə baxırlar. Onlar silahlı qüvvələrin və başqa silahlı birləşmələrin sayı nəzərə alınmaqla onların yerləşdiyi inzibati ərazi vahidləri üzrə təşkil edilir. Məhkəmənin yurisdiksiyası təşkil olunduğu hərbi hissəyə şamil edilir.

Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi Naxçıvan Muxtar Respublikasının ali məhkəmə orqanı olmaqla qanunla müəyyən olunmuş qaydada ədalət mühakiməsini həyata keçirir. Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi qanunla səlahiyyətlərinə aid edilmiş işlər üzrə apellyasiya instansiyası məhkəməsidir. Onun tərkibində mülki kollegiya, inzibati-iqtisadi kollegiya, cinayət kollegiyası və hərbi kollegiya fəaliyyət göstərir.

Apellyasiya məhkəməsi rəyasət heyətindən, mülki, inzibati və iqtisadi mübahisələrə dair, cinayət və inzibati xətalara dair işlər üzrə yuxarı instansiya məhkəməsidir. Onun tərkibinə mülki, inzibati-iqtisadi, cinayət və hərbi kollegiya daxildir. Apellyasiya məhkəməsinin təşkili, olduğu yer və ərazi yurisdiksiyası Məhkəmə-Hüquq Şurasının təklifi nəzərə alınmaqla Konstitusiyanın 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq müəyyənləşdirilir.

Azərbaycan Respublikasının Ali Məhkəməsi sədrdən və onun müavinlərindən ibarət tərkibdə təşkil olunur. Onun kollegiyaları və plenumu vardır. Yuxarı instansiya məhkəmələrinin hamısında müvafiq kollegiyalar, rəyasət heyəti fəaliyyət göstərir. Daxili təşkilatlanmada yuxarı məhkəmələrin bu cür fərqlərə malik olması ondan irəli gəlir ki, onlar sistemə rəhbərlik edirlər və buna görə də onların üzərinə məhkəmə təcrübəsinin ümumiləşdirilməsi, hakimlərin intizam məsələlərinə riayət etməsinə nəzarət və s. bu kimi əlavə funksiyalar düşür. Bu əlavə funk-

siyaların da yerinə yetirilməsi üçün onların xüsusi kollegial orqanlara ehtiyacı vardır.

Məhkəmələrin daxilində inzibati funksiyaları onların sədrləri yerinə yetirirlər. Məhkəmə sədrləri məhkəmədə işin təşkilinə rəhbərlik edir, iclaslara sədrlik edir və işləri hakimlər arasında bölüşdürür, işə qəbul və işdən azad edilməsi məsələlərini və s. həll edir. Aşağı məhkəmələrin sədrləri yuxarı məhkəmələrə öz məhkəmələrində ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat verir, təcrbəni öyrənir və ümumiləşdirir, vətəndaşları qəbul edir və dinləyir, digər səlahiyyətləri yerinə yetirir. Məhkəmələrin rəyasət heyəti, bir qayda olaraq, sədrdən, məhkəmə daxilindəki kollegiyaların sədrlərindən təşkil olunur. Ali Məhkəmənin Plenumu Ali Məhkəmənin sədrindən, onun müavinindən, kollegiya sədrlərindən və hakimlərdən ibarət tərkibdə təşkil edilir. Rəyasət Heyəti və Ali Məhkəmənin Plenumu da məhkəmə təcrübəsini ümumiləşdirməklə, daxili təşkilati məsələləri həll etməklə məşğuldur.

Məhkəmə hakimiyyətinin fəaliyyətinin təmin olunması ilə icra hakimiyyətinin müvafiq orqanı məşğul olur. Bu icra hakimiyyəti orqanı Ədliyyə Nazirliyidir və məhkəmələrin təşkilati-texniki təminatı və s. məsələlərlə bağlı geniş səlahiyyətlərə malikdir. Ədliyyə Nazirliyi məhkəmə statistikasının aparılması, məhkəmə qərarlarının icrası, kargüzarlığın təmin edilməsi, hakimlərin əmək və sosial hüquqlarının təmin edilməsi, məhkəmələrdə əmək və icra intizamına riayət edilməsi üçün müvafiq tədbirlər görür. Ali Məhkəmə, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi və apellyasiya məhkəmələri istisna olmaqla, yerdə qalan bütün məhkəmələrdə bu orqan təşkilati təminat sahəsində işin təşkilini yoxlamaq səlahiyyətinə malik-

dir. Yenə də ali instansiya hakimləri istisna olmaqla, qanunvericilikdə nəzərdə tutulmuş əsaslar olduqda hakimlərin intizam məsuliyyətinə cəlb olunması üçün icraata başlayır.

Məhkəmələrin fəaliyyətinin hüquqi, təşkilati, informasiya, maddi-texniki maliyyə və təsərrüfat fəaliyyətini təmin etmək üçün onların özünün aparatı təşkl olunur və katibliyi fəaliyyət göstərir. Məhkəmələrin strukturunu, ştat cədvəlini, xərc smetasını, işçilərin əmək haqqını Ədliyyə Nazirliyi, yuxarı məhkəmə orqanlarında isə həmin məhkəmələrin sədrləri müəyyən edirlər.

§ 4. Hakimlərin hüquqi statusu

Hakimlər məhkəmə hakimiyyətinin təmsilçiləri, dövlət hakimiyyətini həyata keçirən xüsusi səlahiyyətli subyektləridir. Məhkəmə hakimiyyətini məhz onlar həyata keçirir və insanlarda hüquq, məhkəmə barədə təsəvvür, əsasən, onların davranışlarına əsasən formalaşır. Hakimlərin hüquqi statusu konstitusiya və cari qanunvericilikdə müəyyən edilir. Hakimlər də deputatlar kimi dövlət qulluqçusu hesab olunmurlar. Hakim vəzifəsi mühüm əhəmiyyətə malik, üzərinə ağır məsuliyyət və şərəfli öhdəlik düşən vəzifədir. Bu peşənin sahibləri qanun müəyyən etmir, qanunun icrasına nəzarət etmir, lakin insanlar, cəmiyyət və dövlət arasında olan münasibətləri, habelə qanunların öz aralarında olan məsələləri (konstitusiya nəzarətində - konstitusiya məhkəməsinin hakimləri) həll edirlər. Dövlətin ədalətliliyi ilə bağlı təsəvvürü məhz onlar formalaşdırır. Onlar qanunvericilik sistemini təftiş edir (konstitusiya nəzarətində), dövlət orqanlarının qanuna zidd qərarlarını ləğv edir və bunda təqsirli şəxsləri məsuliyyətə cəlb edir, mücərrəd və mürəkkəb, bəzən isə çox

dolaşıq mexanizmli normativ hüquqi aktların real münasibətlərə tətbiqi zamanı meydana çıxan ziddiyyətli məsələlərin həllini təmin edirlər. Onlar hüququ reallığa çevirən, insanların ədalət və hüquq haqqında fikirlərinə birbaşa təsir edən şəxslərdir. Müdrik kəlamlardan birində deyildiyi kimi, dövlətin yaşaması onun müəlliminə, həkiminə və hakiminə möhtacdır. Buna görə də bütün dövlətlərdə hakimlərin hüquqi statusu dəqiqliklə tənzimlənir, onlar üçün əlavə təminatlar müəyyən edilir və bu statusun əsasları hökmən konstitusion prinsiplərə söykənir.

Konstitusiyanın 126-cı maddəsində hakim olmaq üçün qoyulan şərtlər sadalanır. Bu şərtlər hansı məhkəmədə çalışmasından asılı olmayaraq, bütün hakimlərə aiddir. Hakim olmaq üçün şəxs 30 yaşa çatmalı, seçkilərdə iştirak etmək hüququna malik olmalı, ali hüquq təhsilli və hüquqşünaslıq ixtisası üzrə 5 ildən artıq iş təcrübəsinə malik olan Azərbaycan Respublikasının vətəndaşı olmalıdır. Hakimlər bir qayda olaraq başqa heç bir seçkili və təyinatlı vəzifə tuta bilməz, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməzlər (Məhkəmə - Hüquq Şurasının üzvlüyünə təyin olunma istisna təşkil edir). Onların siyasi partiyalara üzv olması, vəzifə maaşından, habelə elmi, pedaqoji və yaradıcılıq fəaliyyətinə görə aldığı vəsaitdən başqa məvacib alması qadağandır. Bu cür şərtlərin qoyulması hakimliyə namizədin arzuolunan olmasını təmin etməklə bağlıdır. Hakimlər də toxunulmazlıq hüququna malikdirlər. Onlar vəzifədə olduqları müddətdə dəyişməzdirlər və yalnız qanunla nəzərdə tutulmuş qaydada onların səlahiyyətlərinə xitam verilə bilər. Hakimlər cinayət törətdikdə onların vəzifədən kənarlaşdırılması məsələsi Prezident tərəfindən Ali

Məhkəmənin rəyi əsasında Milli Məclisin qarşısında qaldırıla bilər. Bununla bağlı rəyini Ali Məhkəmə 30 gün müddətində təqdim etməlidir. Buradan göründüyü kimi, hakimin vəzifədən kənarlaşdırılmasında hər üç hakimiyyət budağı iştirak edir. Qeyd etmək lazımdır ki, vəzifədən kənarlaşdırmada yuxarı instansiya məhkəmələrinin hakimləri üçün bir qədər fərqli mexanizm nəzərdə tutulub ki, bu da onların vəzifədən kənarlaşdırılması üçün tələb olunan səs çoxluğunda təzahür edir. Belə ki, Konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin hakimlərinin vəzifədən kənarlaşdırılması üçün Milli Məclisin deputatlarının 83 səs çoxluğu, bütün digər hakimlərin vəzifədən kənarlaşdırılması üçün isə 63 səs çoxluğu tələb olunur. Hakimlərin statusu, demək olar ki, eynidir. Lakin onların arasında müəyyən fərqlərə də rast gəlmək mümkündür. Konstitusiya Məhkəməsi hakimlərinin hüquqi statusu «Konstitusiya Məhkəməsi haqqında» 23 dekabr 2003-cü il tarixli qanunla, bütün digər hakimlərin statusu isə, əsasən, «Məhkəmələr və hakimlər haqqında» 10 iyun 1997-ci il tarixli qanunla və prosessual qanunvericiliklə tənzimlənir. Bununla belə, hakimlərin statusunun eyniliyi adı çəkilən qanunun 92-ci maddəsində nəzərdə tutulub. Burada göstərilir ki, hakimlər işə baxarkən bir-biri ilə eyni statusa, hüquq və vəzifələrə malikdirlər və bir-birindən yalnız təyin olunma qaydasına, səlahiyyətlərinə və səlahiyyət müddətinə görə fərqlənirlər. Hakimlərin iş üzrə statuslarının eyniliyi polisistemlilik əsasında təşkil olunan məhkəmə hakimiyyətində vahidliyin təmin olunmasının əsas hüquqi vasitəsidir. Hakimlərin səlahiyyətləri və səlahiyyət müddəti isə bir hakim kimi onların işinə əsaslı təsir etmir. Bütün hakimlər işləri mahiyyəti üzrə baxıb həll edir və məhkəmə hakimiyyətini təmsil edirlər. Səlahiyyətlərdəki

fərqlər isə zərurətdən irəli gəlir və ayrı-ayrı instansiyalara məxsus, fərqli yurisdiksiyası olan məhkəmələrdə işin xüsusiyyətlərini nəzərə almaqdan doğur. Yuxarı instansiya məhkəmələrinin hakimləri Konstitusiyanın 109-cu maddəsinin 9-cu bəndinə görə, prezidentin təqdimatı əsasında Milli Məclis tərəfindən təyin edilir. Azərbaycan Respublikasının digər məhkəmələrinin hakimləri vəzifəyə prezident tərəfindən təyin edilir. Hakimlər vəzifəyə başlamazdan əvvəl Ali Məhkəmənin Plenumu qarşısında and içirlər. Konstitusiya Məhkəməsinin hakimləri isə Milli Məclisin qarşısında and içirlər. Bu ondan irəli gəlir ki, Konstitusiya Məhkəməsi məhkəmə hakimiyyətində ən yuxarı yerdə duran orqandır. O, məhkəmə hakimiyyətindən hüquq yaradıcılığına birbaşa təsir etmək imkanı olan yeganə orqandır.

Hakim vəzifəsinə hakimlər ilk dəfə 5 il müddətinə təyin olunurlar. Bu müddətin sonunda hakimlərin fəaliyyəti qiymətləndirilir. Qiymətləndirmə nəticəsində hakimin fəaliyyətində peşəkar çatışmazlıq aşkar edilməzsə Məhkəmə-Hüquq Şurasının təklifi ilə onun səlahiyyətləri son yaş həddinə - 65yaşınadək uzadılır. Son yaş həddinə çatmış hakimin peşəkarlığından istifadə edilməsinə ehtiyac olduqda onun səlahiyyət müddəti 70 yaşınadək artırıla bilər. İşə baxılan müddətdə hakimlərin səlahiyyət müddəti bitərsə, həmin işin bitməsinə qədər hakimin səlahiyyəti uzadılır ki, bu da prosesdə ləngimə olmaması və işin səmərəli həlli ilə bağlıdır. Hakimin öz razılığı olmadan onu səlahiyyət müddəti ərzində dəyişmək qeyri - mümkündür. Hakimlər müstəqillik, dəyişilməzlik, toxunulmazlıq, öz mənafelərini təmsil edən təşkilatlarda birləşmək, eləcə də dövlət tərəfindən təhlükəsizliyinin, mülkiyyətinin qorun-

ması və sosial müdafə hüququna malikdirlər. Bundan başqa, hakimlər aşağıdakı hüquqlara malikdirlər:

- qanunla üzərlərinə qoyulmuş vəzifələrin həyata keçirilməsi ilə əlaqədar öz sərəncamlarının yerinə yetirilməsini vəzifəli şəxslərdən, fiziki və hüquqi şəxslərdən tələb etmək;
- qanun pozuntusunun törədilməsinə kömək göstərən səbəb və şəraitin aradan qalıdırılması haqqında dövlət orqanlarına, digər təşkilatlara və vəzifəli şəxslərə təqdimat vermək;
- ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar vəzifəli və digər şəxslərdən məlumat almaq;
- intizam məsuliyyətinə cəlb edilməsi ilə bağlı şikayət vermək;
- öz xahişi ilə tutduğu vəzifədən azad edilməsi barədə ərizə vermək və s.

Hakimlərin əsas vəzifələri isə aşağıdakılardır:

- ədalət mühakiməsini həyata keçirərkən qanunların tələblərinə dəqiq və dönmədən əməl etmək, məhkəmə fəaliyyətinin mənəvi və tərbiyəvi təsirini təmin etmək, ədalətli və qərəzsiz olmaq;
- müşavirə otağının sirrini qorumaq, qapalı məhkəmə iclaslarında müəyyən olunmuş məlumatları gizli saxlamaq;
- ədalət mühakiməsinin nüfuzuna, hakimin yüksək adına, şərəf və ləyaqətinə xələl gətirən hər hansı hərəkəti etməkdən çəkinmək.

Hakimlər hərbi çağırışdan və toplantılardan azaddırlar. Hakimlər mənzillə təmin olunur və onların vəzifə maaşı digər vəzifəli şəxslərin vəzifə maaşına uyğun olaraq verilir. Hakimin həyatı və sağlamlığı dövlət büdcəsi hesabına 5 illik əmək haqqı məbləğində sığorta edilir. Hakim-

lərə məxsus əmlak xidməti fəaliyyəti ilə əlaqədar məhv olarsa, yaxud zədələnərsə, bu zaman onlara dəymiş ziyan tam həcmdə ödənilir. Onlar dövlət tibb xidməti ilə təmin olunurlar.

Hakimlərin səlahiyyətinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilə bilər:

- öz arzusu ilə vəzifədən çıxmaq barədə yazılı ərizə verdikdə;
- hakim vəzifəsindən kənarlaşdırıldıqda;
- fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən müəyyən edildikdə;
- vəfat etdikdə;
- məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə;
- hakim vəzifəsinə namizədlər üçün müəyyən edilmiş tələblərə uyğun gəlmədiyi aşkar edildikdə;
- tutduğu vəzifə ilə bir araya sığmayan fəaliyyətlə məşğul olduqda;
- Azərbaycan Respublikasının vətəndaşlığından çıxdıqda, başqa dövlətin vətəndaşlığını qəbul etdikdə və ya digər dövlət qarşısında öhdəlik götürdükdə;
- altı aydan artıq müddətdə xəstəliyi ilə əlaqədar vəzifəsini yerinə yetirməsinin qeyri-mümkünlüyü barədə Ali Məhkəmə tərəfindən təşkil edilmiş xüsusi həkim komissiyasının müvafiq rəyi olduqda;
- təqvim ili ərzində iki dəfə intizam cəzası verildikdə
- işlərə baxarkən qanunvericiliyin tələblərini dəfələrlə kobudcasına pozduqda.

Hakimlər barəsində həvəsləndirmə və intizam tədbirlərinin görülməsi də qanunvericilikdə nəzərdə tutulur. Əgər hakim işlərə baxarkən qanunvericiliyin tələblərini kobud surətdə pozarsa, məhkəmə etikasına riayət etməz-

sə, əmək intizamını kobudcasına pozarsa, hakim adına ləkə gətirən ləyaqətsiz hərəkətə yol verərsə, onun barəsində intizam tədbirləri həyata keçirilə bilər.

§ 5. Konstitusiya nəzarəti

Konstitusiyada səlahiyyəti, fəaliyyət istiqamətləri daha ətraflı şəkildə təsbit olunmuş yeganə məhkəmə hakimiyyəti orqanı Azərbaycan Respulikasının Konstitusiya Məhkəməsidir. Konstitusiyada bu məhkəmə orqanın səlahiyyətlərinin dəqiq tənzimlənməsi, sadəcə, onun əhəmiyyətindən irəli gəlmir. Konstitusiyada bu yolla konstitusiya nəzarəti institutu tənzim olunur. Başqa sözlə, Konstitusiya Məhkəməsi vasitəsilə konstitusiya nəzarəti həyata keçirilir. Konstitusiya nəzarəti Azərbaycan Respublikasının hüquq sistemində yeni institutdur və hələlik ətraflı tədqiq olunmamışdır.

Bu institutun əsasları orta əsrlərdə təşəkkül tapmağa başlayıb və İngiltərədə fəaliyyət göstərən gizli şuranın fəaliyyəti ilə bağlı olub. Bu orqan ingilis koloniyalarında qəbul olunan aktların İngiltərədəki aktlara uyğunluğunu yoxlayırdı. Lakin müasir anlamda bu institutun yaranması yalnız XIX-XX əsrlərə təsadüf edir. Məhz bu dövrdə ABŞ-də konstitusiya yaradıcıları konstitusiya nəzarəti institutunun nəzəri əsaslarını işləməyə başladılar. 1803-cü ildə ilk dəfə Marşalın rəhbərliyi ilə Ali Məhkəmə konstitusiya nəzarətinin əsaslarını formulə edən və məhkəmələrə konstitusiya nəzarətini həyata keçirməyə imkan verən qərar çıxardı. Buna qədər bir neçə iş olmuşdusa da, onların heç birində konstitusiya nəzarətinin əsasları müəyyən edilmirdi. Daha sonralar isə Avropada H. Kelzenin konstitusiya nəzarəti ilə bağlı nəzəriyyəsi ortaya çıxdı və ilk dəfə Avstriyada pozitiv hüquqa çevrildi. Bun-

dan sonra konstitusiya nəzarəti demokratik təsisat kimi həyata vəsiqə qazandı. Konstitusiya nəzarətinə qısaca belə anlayış vermək olar: bu, normativ hüquqi aktların konstitusiyaya uyğunluğunun yoxlanılması prosesidir. Bu kiçik anlayışın arxasında bütün qanunvericilik sisteminə nəzarət, bu sistemi təftiş etmə, ali hakimiyyət orqanları arasında konfliktlərin həlli normalarının təfsiri vasitəsilə birbaşa praktikanı istiqamətləndirmə kimi əhəmiyyətli səlahiyyətlər vardır. Buna görə də bütün dövlətlərdə konstitusiya nəzarəti konstitusiya nəzarəti orqanlarının vasitəsilə konstitusion səviyyədə tənzimlənir. Konstitusiya nəzarəti yalnız və yalnız hakimiyyət bölgüsünün qəbul olunduğu demokratik ölkələrdə mümkündür. Çünki məhz bu dövlətlərdə konstitusiya məhkəmələrinin fəaliyyəti üçün sistemli əsas olur.

Konstitusiya nəzarəti zəruriliyini əsaslandıran bir neçə nəzəriyyə vardır. İnstitusional nəzəriyyəyə görə, konstitusiya siyasi sistemin əsas oyun qaydalarını müəyyənləşdirir və buna görə də sistemdə olan bütün digər normalar ona uyğun gəlməlidir. Bu uyğunluğu isə xüsusi orqan həyata keçirməlidir. Üzvi konstitusiya nəzarəti nəzəriyyəsinə görə, konstitusiya ən ali hüquqi qüvvəyə malik, xalq tərəfindən qəbul olunan akt kimi dövlət və şəxsiyyət əlaqələrini müəyyən edir. Bu sistemdə konstitusion normaların yaratdığı tarazlığın pozulmaması üçün cari hüquq normalarının ona uyğunluğu yoxlanılmalıdır. Müxtəlif dövlətlərdə hansı konsepsiya əsasında qanunvericiliyin qurulmasından asılı olmayaraq, konstitusiya nəzarəti həmişə hüquqi aktların, bir sıra ölkələrdə isə vəzifəli şəxslərin və dövlət orqanlarının davranışının konstitusiyaya uyğunluğunun yoxlanması ilə bağlıdır və hakimiyyət bölgüsünün realizə mexanizmində mühüm yer tutur. Konsti-

tusiya nəzarəti vasitəsilə qanunvericilik sistemində olan kolliziyalar aradan qaldırılır (zidd normanın ləğv edilməsi və ya dəyişdirilməsi ilə), hüququn tətbiqi praktikasında ahəngdar, məntiqi inkişaf təmin olunur (anlaşılmaz normaların şərhi ilə), sosial-siyasi subyektlərin arasındakı konfliktlərin qarşısı alınır (hakimiyyət orqanları arasında səlahiyyət bölgüsü mübahisələrini həll etməklə). Göründüyü kimi, konstitusiya nəzarəti mühüm funksiyaları yerinə yetirir. Buraya ali hakimiyyət orqanları arasında kəskin mübarizədə son söz demək imkanının da olmasını əlavə etsək (impiçment zamanı, bəzi ölkələrdə parlamentin buraxılması və etimadsızlıq votumu ilə bağlı məsələlərlə əlaqədar səlahiyyətlər və s.), onda onun əhəmiyyəti aydın olar. Buna görə də bu orqanın formalaşdırılmasında, bir qayda olaraq, əsas hakimiyyət budaqlarının hamısı iştirak edir.

§ 6. Konstitusiya nəzarəti orqanları və nəzarətin növləri

Konstitusiya nəzarəti orqanları və onların fəaliyyət proseduru müxtəlif növlərə malikdir. Bu cür növ müxtəlifliyi də onların fərqli dövlətlərdə müxtəlif cür konstruksiya edilməsi ilə bağlıdır. Konstitusiya nəzarəti orqanları ya ancaq parlament tərəfindən (AFR), ya hər üç hakimiyyət budağının iştirakı ilə (Fransa), ya da parlament və İcra hakimiyyətinin iştirakı ilə (Azərbaycan Respublikası) formalaşdırılır. Konstitusiya nəzarəti orqanları özünün statusuna görə hər bir halda müstəqil olur və siyasətdən təcrid edilir. Lakin digər məhkəmələrdən fərqli olaraq, bəzi hallarda siyasi xarakterli səlahiyyətlərə malik olduğundan onların siyasətdən tam təcridi, ümumiyyətlə, qeyri-mümkündür (impiçmentlə bağlı səlahiy-

yətlər). Bu orqanlar ali dövlət orqanları sisteminə aiddir və onu təşkil edən şəxslərə hakimlər üçün müəyyənləşdirilən senzlər müəyyənləşdirilir. Konstitusiya nəzarəti orqanlarında hakimlərin sayı da müxtəli olur və adətən, 7-16 şəxs arasında tərəddüd edir. Səlahiyyət müddəti isə 6-12 il arasındadır (Yunanıstanda səlahiyyət müddəti daha az-2 ildir). Bəzən məhkəmənin tərkibi rotasiya qaydasında yenilənir. Bir qayda olaraq, konstitusiya nəzarəti orqanlarında sədrlər aparıcı şəxs kimi daha geniş səlahiyyətə malik olurlar və səslər bərabər bölündükdə onların səsi həlledici olur. Konstitusiya nəzarəti orqanları ölkədən-ölkəyə fərqli səlahiyyətlərə malikdirlər. Hətta onların əsas səlahiyyətləri hesab olunan normativ aktların konstitusionluğunu yoxlamaq və normativ aktlara təfsir vermək müxtəlif məhkəmələrdə fərqli həcmdə olur. Bir ölkədə bütün növ normativ aktların konstitusiyaya uyğunluğu yoxlana bildiyi halda, başqa bir ölkədə yalnız normativ aktların yarısı konstitusiya nəzarətinə aiddir. Üçüncü bir ölkədə isə normativ aktlarla yanaşı, vəzifəli şəxslərin fərdi inzibati-hüquqi aktlarının da konstitusiya nəzarəti qaydasında yoxlanması mümkündür (məsələn, Avstriyada).

Konstitusiya nəzarəti orqanları iki növə bölünür: məhkəmə orqanları və kvaziməhkəmə orqanları. Konstitusiya nəzarətinin məhkəmə orqanları məhkəmələrin iş üsullarından istifadə edirlər. Onların fəaliyyəti dəqiq şəkildə tənzim olunur və çıxardıqları aktlar, bir qayda olaraq, məcburi olur. Kvaziməhkəmə orqanları necə adlanmasından asılı olmayaraq (şura, məhkəmə və s.), onların fəaliyyəti qanunvericilikdə nisbətən səthi tənzim olunur. Onların çıxardığı qərarlar - aktlar, adətən, məcburi deyil, tövsiyyəedici olur, yəni həmin qərarın icrası məcburi de-

yil. Bu orqanlar, əsasən, məruzə əsasında işə baxırlar və məhkəmələrdəki qədər geniş iş metodları olmur (ekspert dəvət etmək, sübutları tədqiq etmək və s.). Azərbaycan Respublikasında, Rusiya Federasiyasında, AFR-də konstitusiya məhkəməsi orqanları vardır. Fransa və Qazaxıstanda isə kvaziməhkəmə konstitusiya nəzarəti orqanları fəaliyyət göstərir (konstitusiya şuraları).

Konstitusiya nəzarəti müxtəlif cür təşkil olunur. Mərkəzləşdirilmiş konstitusiya nəzarəti, əsasən, roman-german hüquq sistemli ölkələr üçün xasdır. Bu ölkələrdə yalnız bir orqan konstitusiya nəzarəti funksiyasını həyata keçirir və onun aktları bütün ölkə ərazisində qüvvədədir. Mərkəzləşdirilməmiş konstitusiya nəzarəti olan ölkələrdə isə konstitusiya nəzarətini aşağıdan yuxarı bütün məhkəmələr həyata keçirir. Bu zaman son söz yuxarı məhkəmə orqanına məxsus olur (ABŞ). Anqlo-sakson ölkələrində, adətən, xüsusi konstitusiya nəzarəti orqanı olmur. Burada ümumiyurisdiksiyalı bütün məhkəmə orqanları konstitusiya nəzarətini həyata keçirir. Ancaq elə ölkələr də var ki, orada konstitusiya nəzarətini yalnız ümumi yurisidiksiyalı Ali Məhkəmə həyata keçirir. Hər iki sistemin özünün müsbət və mənfi cəhətləri vardır. Məsələn, mərkəzləşdirilməmiş nəzarətdə aşkar olunan ziddiyyətlərə dərhal reaksiya vermək mümkündür. Lakin burada konstitusiya nəzarəti sistemsiz olur, bir çox hallarda isə müxtəlif məhkəmələrin çıxardığı aktlar bir-birinə uyğun gəlmir və konstitusiya nəzarətində fikir müxtəlifliyi yaranır. Bunun əksinə, mərkəzləşdirilmiş konstitusiya nəzarəti olan ölkələrdə konstitusiya nəzarətinin vahidliyi və sistemliliyi təmin edilir, lakin sistemdə mövcud olan problemləri aşkara çıxarmaq çətin olur və onların aradan qaldırılması müəyyən vaxt aparır.

Konstitusiya nəzarəti prosesə çıxarılan aktların hüquqi qüvvəsinə, onların xarakterinə və digər amillərə görə fərqlənir. Konkret işlə bağlı olması ilə əlaqədar konkret nəzarət və mücərrəd nəzarət fərqləndirilir. Konkret nəzarət konkret cinayət və ya mülki işin gedişində aşkar olunan ziddiyyətlərin aradan qaldırılması ilə bağlıdır. Bu zaman iş yarımçıq saxlanılır, konstitusiyaya zidd olan norma problemi həll olunur, nəticədə isə cinayət və ya mülki iş davam edir. Mücərrəd nəzarətin hər hansı bir mülki və cinayət, yaxud başqa işə aidiyyəti yoxdur. Burada norma hər hansı bir iş çərçivəsində, konkret halla əlaqədar, ümumiyyətlə, onun bütün hallarda konstitusiyaya zidd olub-olmaması məsələsi yoxlanılır. Birinci nəzarətin müsbət tərəfi budur ki, burada konkret işin incəlikləri, bütün xüsusiyyətləri nəzərə alınaraq ziddiyyət problemi həll olunduğuna görə qəbul olunan qərar, bir qayda olaraq, vəziyyəti tam tənzim edir. Lakin bu zaman qərar konkret işin halları ilə məhdudlaşır və mümkün ola bilən digər ziddiyyətli halları nəzərə ala bilmir. Mücərrəd nəzarətdə mənfi tərəf bundan ibarətdir ki, burada ziddiyyətli normanın aşkara çıxarılması çətindir və onlar, bir qayda olaraq, konkret işlərdən kənarda aşkara çıxarılıb aradan qaldırıldığına görə normanın ziddiyyətliliyi məsələsi kifayət qədər ümumidir, dəqiq konturlara malik deyil (hansı hallarda, necə, ən çox hansı məsələlərdə ziddiyyət olur və s.). Bu da problemin aradan qaldırılması zamanı məsələnin düzgün həll olunmaması ehtimalını artırır. Onun müsbət tərəfi budur ki, bu nəzarət növündə ziddiyyət birdəfəlik aradan qaldırılır və mümkün halların hamısını ehtiva edir.

Bundan başqa, nəzarətin qanunun özünə münasibətdə nə zaman həyata keçirilməsindən asılı olaraq ilkin nəzarət və sonrakı nəzarət fərqləndirilir. İlkin nəzarət zamanı

qanun qəbul olunub qüvvəyə minməmişdən əvvəl yoxlanılır. Sonrakı nəzarətdə isə, əksinə, qanun qüvvəyə minib reallizə olunmağa başladıqdan sonra yoxlanılır. İlkin nəzarətin müsbət cəhəti budur ki, qanunvericilikdə baş verə biləcək potensial ziddiyyət aradan qaldırılır və sonradan qanunvericilik sistemində ziddiyyətin aradan qaldırılması ilə bağlı bir çox normalara dəyişiklik edilməsi zərurəti olmur. Bunun mənfi tərəfi isə bunda təzahür edir ki, nəzərdən qaçırılan nöqsan sonradan aşkara çıxarsa, o artıq yalnız qanunvericilik prosesi çərçivəsində dəyişdirilə bilər ki, bu da ləng və konstitusiya nəzarətini əvəz edə bilməyəcək bir prosesdir. Sonrakı nəzarətin müsbət tərəfi ondan ibarətdir ki, aşkara çıxarılan ziddiyyət normalar sistemində artıq fəaliyyət göstərdiyi zaman aşkar olunur və nəyin nəyə zidd olması, ziddiyyətin səbəbləri daha dəqiq müəyyən edilir. Bundan başqa, sonrakı nəzarətdə istənilən vaxt yeni ortaya çıxan ziddiyyətə operativ müdaxilə imkanı olduğuna görə ziddiyyətlərin sistemdə qalmayacağı aydındır. Ancaq bu nəzarətin mənfi tərəfi bundan ibarətdir ki, dəyişdirilən və ya ləğv edilən ziddiyyətli norma ilə bağlı sistemdə mövcud bütün digər çoxsaylı normaların realizə edilməsində müxtəlif problemlər ortaya çıxır və bir çox hallarda bu cür nəzarət özündən sonra qanunvericilikdə çoxsaylı və irimiqyaslı dəyişikliklərlə müşayiət olunan izlər qoyur. Bu da qanunvericilik sistemində ünsürlərarası münasibətlərin sabitləşməsinə mənfi təsir göstərir.

Konstitusiya nəzarətinin daha bir növü formal və maddi nəzarətdir. Maddi nəzarət formal nəzarətə münasibətdə üstünlüyə malikdir. Formal nəzarətdə qanun normalarının konstitusiyaya və hər hansı başqa qanuna zidd olması deyil, qanunun və ya normativ aktın qəbulu prosedura-

sının düzgünlüyü yoxlanılır. Aydındır ki, bu zaman normalar arasındakı ziddiyyət kənarda qalır. Maddi nəzarətdə, əksinə, daha çox normalar arasında olan real ziddiyyətlər yoxlanılıb aradan qaldırılır.

Konstitusiya nəzarətinin daha bir növü nəzarətin nəticələrinə görə fərqləndirilir. Əgər nəzarət nəticəsində çıxarılan akt dövlət orqanları üçün məcburidirsə, bu məcburi nəzarətdir. Çıxarılan qərar yalnız tövsiyyə xarakteri daşıyırsa, bu fakultativ nəzarətdir.

Nəzarətin hansı subyekt tərəfindən həyata keçirilməsindən asılı olaraq siyasi nəzarət və məhkəmə nəzarəti fərqləndirilir. Siyasi nəzarəti qanun qəbul edən orqan (parlament) həyata keçirir. Məhkəmə nəzarətini isə xüsusi orqanlar həyata keçirir. Siyasi nəzarətdə işin obyektiv həllinə siyasi motivlər mənfi təsir etdiyinə görə məhkəmə nəzarəti üstün hesab olunur. Hal-hazırda Kubada siyasi nəzarət saxlanılmaqdadır.

Konstitusiya nəzarətinin növləri bir çox ölkələrdə müxtəlif kombinasiyalar şəklində tətbiq edilir. Buna səbəb bir neçə nəzarət növünün tətbiqi ilə konstitusiya nəzarətinin səmərəli olmasını təmin etməkdir. Hansı nəzarət növlərinin seçilməsi isə konstitusiya nəzarəti orqanlarının səlahiyyətlərinə aid edilmiş məsələlərin xarakteri ilə deyil, həm də siyasi faktorların təsiri ilə müəyyənləşdirilir. Məsələn, Qazaxıstan Respublikasında əvvəl qərarları məcburi olan Konstitusiya Məhkəməsi yaradılmışdır. Lakin Qazaxıstan parlamentinə keçirilən seçkiləri etibarsız hesab etdikdən sonra bu orqan yeni qanunla qərarları məcburi qüvvəyə malik olmayan Konstitusiya Şurasına çevrildi.

Azərbaycan Respublikasında konstitusiya nəzarəti Konstitusiya Məhkəməsi tərəfindən həyata keçirilir.

Konstitusiyanın 130-cu maddəsinin 2-ci hissəsinə əsasən, Konstitusiya Məhkəməsinin hakimlərini Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təyin edir. Konstitusiya Məhkəməsi 9 hakimdən ibarətdir və onlar 15 il müddətinə təyin olunurlar. Azərbaycan Respublikasında konstitusiya nəzarəti yuxarıda şərh etdiyimiz sonrakı, məcburi, mərkəzləşdirilmiş, mücərrəd, konkret və maddi nəzarət formalarında həyata keçirilir. Bütün qanunlar yalnız qəbul olunduqdan sonra konstitusiyaya uyğunluğu baxımından yoxlanıla bilər (sonrakı). Konstitusiya Məhkəməsinin qərarları qətidir və heç bir orqan tərəfindən dəyişdirilə, ləğv eldiə bilməz (məcburi). Konstitusiya nəzarətini Azərbaycan Respublikasında yalnız Konstitusiya Məhkəməsi həyata keçirir (mərkəzləşdirilmiş). Baxılan ziddiyyətlər hər hansı bir konkret işdən kənar, onunla bağlı olmadan araşdırılır (mücərrəd), eyni zamanda fərd hər hansı konstitusion hüququnun müəyyən qanunla pozulmasını hesab edərsə, icraatda tətbiq olunan qanunun onun hüququnu pozması və konstitusiyaya zidd olması barədə Konstitusiya Məhkəməsinə sorğu verə bilər (konkret, Cinayət Prosessual Məcəlləsi, 445-ci maddə). Konstitusiyaya uyğunluğu yoxlanılan qanunların qəbulu prosedurası deyil, ziddiyyətli olması güman olunan maddənin özünün qəbul olunma qaydaları və s. məsələlər nəzərə alınmadan yoxlanılır (maddi).

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Konstitusiyanın 130-cu maddəsinə görə, aşağıdakı səlahiyyətlərə malikdir:

- qüvvədə olan qanunların, Prezidentin fərman və sərəncamlarının, Milli Məclisin qərarlarının, Nazirlər Kabinetinin qərar və sərəncamlarının, mərkəzi icra hakimiy-

yəti orqanlarının normativ hüquqi aktlarının konstitusiyaya uyğunluğunu yoxlamaq;

- Prezidentin fərmanlarının, Nazirlər Kabinetinin qərarlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktlarının qanunlara uyğunluğunu yoxlamaq;

- Nazirlər Kabinetinin qərarlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktlarının prezidentin fərmanlarına uyğunluğunu yoxlamaq;

- Qanunla nəzərdə tutulmuş hallarda Ali Məhkəmənin qərarlarının konstitusiyaya və qanunlara uyğunluğunu yoxlamaq;

- bələdiyyə aktlarının konstitusiyaya, qanunlara, prezidentin fərmanlarına, Nazirlər Kabinetinin qərarlarına uyğunluğunu yoxlamaq;

- Azərbaycan Respublikasının qüvvəyə minməmiş dövlətlərarası müqavilələrinin konstitusiyaya uyğunluğunu, hökumətlərarası müqavilələrin konstitusiya və qanunlara uyğunluğunu yoxlamaq;

- Naxçıvan Muxtar Respublikası Konstitusiyasının, qanunlarının, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunu yoxlamaq;

- Naxçıvan Muxtar Respublikasının qanunlarının, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin qərarlarının Azərbaycan Respublikasının qanunlarına uyğunluğunu yoxlamaq;

- Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin qərarlarının prezidentin fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına uyğunluğunu yoxlamaq;

- qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrə baxmaq;

- Konstitusiyanın və qanunların şərh edilməsi və digər səlahiyyətlər (məsələn, impiçment, rəy).

Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ Azərbaycan Respublikasının Prezidentə, Azərbaycan Respublikasının Milli Məclisinə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikası Prokurorluğuna, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məxsusdur.

Göründüyü kimi, Konstitusiya Məhkəməsi geniş səlahiyyətlərə malikdir və bu səlahiyyətlər vasitəsilə o, qanunvericilik sistemini tam nəzarətdə saxlayır. Bu səlahiyyətlərin bir qrupu (səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələri həll etmə) belə bir nəticəyə gəlməyə imkan verir ki, Konstitusiya Məhkəməsi həm də dövlət orqanları arasında arbitr rolunda çıxış edir. O sadəcə qanunvericilk sisteminə deyil, dövlət orqanlarının səlahiyyətlərinə də təsir etmək imkanına malikdir. Konstitusiya nəzarətinə Azərbaycan Respublikasında yalnız normativ hüquqi aktlar aiddir. Konstitusiya Məhkəməsinin çıxardığı qərarların bəziləri norma yaradır (ziddiyyətlərin yoxlanması ilə, təfsirlə əlaqədar qərarlar). Bir sıra qərarları isə, əksinə, norma yaratmasa da, hüquqi fakt kimi başqa bir sosial prosesin hüquqiliyini təsdiq edir və onu legitimləşdirir (məsələn, seçkilərin nəticələrinin təsdiq edilməsi). Bu o deməkdir ki, Konstitusiya Məhkəməsi dövlətin siyasi proseslərin hüquqa uyğunluğunu qiymətləndirməsində və siyasi sistemə nəzarətdə mühüm vasitəsi kimi də çıxış edir.

VIII BÖLMƏ
NAXÇIVAN MUXTAR RESPUBLİKASI

Azərbaycan Respublikası özünün ərazi quruluşuna görə unitar dövlətdir. Məlum olduğu kimi, unitar dövlət mərkəzdən asılı olan, müstəqilliyə malik olmayan ərazi vahidlərindən təşkil olunur. Ərazi vahidləri ancaq mərkəz tərəfindən onların səlahiyyətlərinə ayrılmış məhdud məsələlərin həllində müstəqildirlər və ortaya çıxan bütün problemlər ancaq mərkəzdən həll edilir. Unitar dövlətlərdə ərazi vahidləri ali hakimiyyət strukturlarına (qanunverici orqan, prezident, məhkəmə) malik olmurlar. Bütün bu əlamətlər Azərbaycanda da vardır və bundan əlavə, Azərbaycan mərkəzləşdirilmiş unitar dövlətdir, yəni yerli ərazi vahidlərinə vəzifəli şəxslər əhali tərəfdən seçilmir, mərkəzdən təyin olunur və onlar səlahiyyətlərini yerli əhalidən asılı olmadan həyata keçirirlər. Lakin bütün bunlarla yanaşı, Azərbaycan Respublikasında onun ərazi quruluşunun özünəməxsusluğunu şərtləndirən bir ərazi qurumu - muxtar respublika da vardır. Muxtariyyət, ümumiyyətlə, hər hansı dövlətdə idarəolunması müəyyən səbəblər üzündən daha mürəkkəb olan və digər hissələrdən fərqlənən ərazilərin idarəolunmasının bu mürəkkəbliyi və xüsusiyyətləri nəzərə alınmaqla təşkil olunmasıdır. Burada əsas məqsəd optimal idarəetmənin təşkilidir. Bunun üçün isə mərkəzdən, yəni muxtariyyəti təşkil edən dövlətdən özünün maraqları ilə üst-üstə düşüb-düşməməsindən asılı olmayaraq, ərazinin idarəçiliyinə təsir edə biləcək faktorları nəzərə almaq tələb olunur. Məhz bu məqsədlə də konkret bir əraziyə real vəziyyətdən çıxış edərək müxtariyyət, yəni müəyyən dərəcədə müstəqillik verilir. Bu müstəqillik isə

ərazinin əhalisinə və ya yerli elitaya öz maraqlarını da idarəçilikdə nəzərə almağa və eyni zamanda mərkəzin iradəsi əleyhinə getməməyə imkan verir. Bu yolla da həm mərkəzin stabillik və optimal idarəetməyə olan marağı ödənilir, həm də muxtariyyətdə maraqlı olan sosiumun, əhalinin və ya onun bir hissəsinin mərkəzin verdiyi müstəqillik çərçivəsində öz maraqları naminə hərəkət etmək ehtiyacları nəzərə alınır. İdarəçilik nöqteyi-nəzərindən bu, idarəedən subyektin idarəolunan üçün müəyyən etdiyi və müdaxilədən təminat verdiyi davranış sferasıdır. Eyni zamanda idarəedən (bu halda Azərbaycan Respublikası) idarəolunana (Naxçıvan Muxtar Respublikası) elə fəaliyyət sferalarında müstəqil davranış imkanı verir ki, bu davranış idarəedənin həyati əhəmiyyətli maraqlarına toxunmur, yəni sırf daxili xarakterli məsələlər olur. Məsələn, Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikası tərkibindən çıxması imkanı Azərbaycan Respublikasının maraqlarına toxunduğundan belə imkan nəzərdə tulumamışdır.

Hər bir muxtariyyət həm optimal və məqsədyönlü idarəetməni, həm də mərkəzin idarəçilik resurslarına qənaətetməni nəzərdə tutur. Mərkəz hər hansı ərazi vahidinə muxtariyyət verməklə təşkilati məsələlərdə ortaya çıxan və hökmən nəzərə alınmasını tələb edən xüsusiyyətləri nəzərə almaqdan yayınır (bu xüsusiyyətlər artıq muxtar ərazi qurumunun öz orqanları tərəfindən nəzərə alınır və onun müstəqil fəaliyyət göstərdiyi sferaya aiddir) və bununla da idarəçilik resurslarının artıq sərfinin qarşısı alınır. Hər bir muxtariyyətin təşkili müəyyən əsasa malik olmalıdır. Belə əsas olmadan muxtariyyətin təşkili sadəcə dövlət üçün əlavə yükdür. Muxtariyyətin təşkilinə əsas olan bütün amilləri, başlıca olaraq, iki qrupa bölmək olar. Bunlar coğrafi və sosial əsaslardır. Bir çox halda hər iki

qrup əsaslar bir-birilə kəsişir. Coğrafi əsaslar dedikdə, bir qayda olaraq, ərazinin yerləşməsi, dövlət sərhədləri, geosiyasi səbəblər, iqlim və s. nəzərə alınırsa, sosial səbəblər dedikdə, əsasən, etnik-demoqrafik amillər, yəni fərqli etnosların mövcudluğu, din, əhalinin sıxlığı, inkişaf və s. amillər nəzərə alınır.

Naxçıvan Muxtar Respublikasının əhalisi ilə Azərbaycan Respublikasının digər ərazilərində yaşayan əhali arasında heç bir etnik fərq yoxdur. Deməli, Naxçıvan Muxtar Respublikasının muxtariyyətinin müasir dövrdə yeganə səbəbi onun müəyyən geosiyasi məkanda olmasıdır. Lakin bu hələ kifayət deyil. Kommunikasiya vasitələrinin inkişaf etdiyi müasir dövrdə eyni dövlətin ərazi hissələrinin biri-birindən aralı yerləşməsi ancaq böyük məsafələr olduqda özünü doğrulda bilər (məsələn, vaxtilə Fransanın dənizaşırı departamentlərində olduğu kimi). Məsələ bundadır ki, Naxçıvan Muxtar Respublikasının muxtariyyət statusu birdən-birə formalaşmayıb və özünün əsaslarına görə XX əsrin əvvələrinə gedib çıxır. Aydındır ki, həmin dövrdə formalaşan muxtariyyət öz dövrünün əlamətlərini az-çox özündə əks etdirməliydi. Həmin dövr Rusiya-Türkiyə-Azərbaycan münasibətləri, Ermənistanın torpaq iddiaları bu muxtariyyətin yaranmasına həlledici təsir göstərmişdir. 1921-ci ildə iki müqavilə imzalanmışdır. Bunlardan biri 16 mart Moskva, digəri isə 13 oktyabr Qars müqavilsədir. Daha sonra isə SSRİ-nin tərkibində Naxçıvan Muxtar Respublikası statusunu dəyişməklə inkişaf etmiş, 9 fevral 1924-cü ildə Naxçıvan Muxtar Diyarı Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilmiş, ən nəhayət, 1990-cı ildə Muxtar Respublika adlanmışdır. 1995-ci il Konstitusiyası da Naxçıvanın muxtariyyət statusunu saxladı. Bu da zərurətdən irəli gəlirdi. Gərgin mü-

naqişə vəziyyəti və Azərbaycan Respublikasının digər ərazi hissələri ilə birbaşa əlaqədə olmaması ona öz daxili problemlərinin həllində və yaranmış çətin şəraitdən çıxış üçün muxtariyyat verilməsini tələb edirdi. Naxçıvanın muxtar dövlət olmasına baxmayaraq, Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir və bu, təşkilati-hüquqi cəhətdən kifayət qədər təmin olunmuşdur. Belə ki:

1. Naxçıvan Muxtar Respublikasının dövlət quruşuluşunun əsasları Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilir.

2. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən konstitusiya qanunu ilə təsdiq olunur.

3. Naxçıvan Muxtar Respublikasının heç bir siyasi səlahiyyətə malik deyil. Başqa sözlə, Azərbaycan Respublikasına münasibətdə onun siyasi sferada həyati əhəmiyyətli hər hansı məsələni həll etmək imkanı yoxdur. Naxçıvan Muxtar Respublikası özünün ərazi quruluşuna görə bütün Azərbaycan kimi unitardır. Lakin onun idarəçilik quruluşu, yəni ali hakimiyyət orqanlarının təşkili və onlar arasındakı münasibətlərin qaydası bir qədər fərqlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 134-cü maddəsinə görə, Naxçıvan Muxtar Respublikası Azərbaycanın tərkibində muxtar dövlətdir. Ümumiyyətlə, bu anlayış hüquqi cəhətdən yanlış olmasa da, özünün ifadəsinə görə bir qədər mübahisəlidir. Çünki dövlət heç vaxt muxtar olmur. Dövlət tam suveren bir sosial-siyasi institutdur. Naxçıvanın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olduğundan, bütün başqa ərazilərdə olduğu kimi, mərkəzin qəbul etdiyi aktlar Naxçıvan Muxtar Respublikasında da məcburi qüvvəyə malikdir və iyerarxiyaya uyğün müəyyən yer tutur. Naxçıvan Muxtar Respublikasının ali

hakimiyyət orqanları arasındakı münasibətlər hakimiyyət bölgüsü zəminində Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilir. Bütün digər təfərrüatlar isə Naxçıvan Muxtar Respublikasının Konstitusiyında əks olunur. Bir sıra məsələlərdə, ümumiyyətlə, Azərbaycan Respublikasında və Naxçıvan Muxtar Respublikasında paralellik vardır. Həm Azərbaycan Respublikasında, həm də Naxçıvan Muxtar Respublikasında qanunverici hakimiyyəti kollegial, xalq tərəfindən seçilən orqanlar həyata keçirir. Məhkəmə hakimiyyətini mərkəzdən formalaşdırılan və instansiyalara bölünən məhkəmələr həyata keçirir. Ancaq icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasında onun ali vəzifəli şəxsi - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri və Nazirlər Kabineti həyata keçirir.

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının 1-ci maddəsinə görə, Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır. Naxçıvan Muxtar Respublikasında ali vəzifəli şəxs fəaliyyət göstərir. Ali vəzifəli şəxs eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. Ali vəzifəli şəxs bir növ qanunverici hakimiyyətin rəhbəri ilə icra hakimiyyəti başçısı arasında keçid mövqedə duran şəxsdir. Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi, əsasən, icra hakimiyyəti başçıları üçün xarakterik olan səlahiyyətlərə malikdir. O həm də təmsilçilik funksiyasına malikdir. Ali vəzifəli şəxs Naxçıvan Muxtar Respublikasının dövlət və ictimai-siyasi həyatının mühüm məsələləri barədə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat verir. O, qanunları imzalayır və dərc edir, dövlət hakimiyyət orqanlarının qarşılıqlı fəaliyyətini təmin edir, büdcədə nəzərdə tutulmuş çərçivədə icra hakimiyyəti orqanları yaradır, Nax-

çıvan Muxtar Respublikasının Ali Məhkəməsi, Apellyasiya Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının ümumi və ixtisaslaşdırılmış məhkəmələrinin hakimlərinin vəzifəyə təyin və azad olunması ilə bağlı, vətəndaşlıqla bağlı, əfvedilmə məsələləri ilə bağlı təkliflər verir, habelə ümumi və qismən səfərbərliyin həyata keçirilməsini təmin edir, fəxri adları təsis edir və təltif edir, Naxçıvan Muxtar Respublikasının ərazisində fövqəladə və hərbi vəziyyət elan olunması haqqında təkliflər verir və digər səlahiyyətləri həyata keçirir. Ali Məclisin sədri kimi o, Ali Məclisin növbədənkənar sessiyalarını çağırır, Ali Məclisin iclaslarına sədrlik edir, Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə prezident tərəfindən təqdim olunmuş şəxsin namizədliyini Ali Məclisə təqdim edir, Naxçıvan Muxtar Respublikasının Baş nazirinin təklifinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə üzvlüyə namizədləri Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim edir, Ali Məclisin sədr müavinlərinin seçilməsi və vəzifədən kənarlaşdırılması barədə Ali Məclisə təkliflər verir, Ali Məclisin müəyyən etdiyi qaydada onun işini təşkil edir və s.

Naxçıvan Muxtar Respublikasının muxtariyyəti hal-hazırda özünü doğruldur. Blokada şəraitində yerli xarakterli məsələlərin həlli üçün operativ qərarlar qəbul olunması tələb olunur ki, muxtariyyətin verdiyi sərbəstlik belə qərarların səmərəli olmasının zəruri şərti kimi çıxış edir. Ali vəzifəli şəxs və onun mövcudluğundan yaranan xüsusiyyətlər istisna olmaqla, Naxçıvan Muxtar Respublikasının ali hakimiyyət orqanlarının təşkili və fəaliyyəti qaydası Azərbaycan Respublikasında müvafiq orqanların təşkili və fəaliyyətinə oxşardır. Səlahiyyətlərinin analizindən görünür ki, Naxçıvan Muxtar Respublikasının ali vəzifəli

şəxsi mahiyyətcə iki funksiyanı yerinə yetirmək üçün nəzərdə tutulmuşdur: ali vəzifəli şəxs icra hakimiyyətinin təkbaşına yerinə yetirilməli olan səlahiyyətlərini icra etməlidir, başqa sözlə, prezidenturanın olmamasından yaranan boşluğu doldurmalıdır və mərkəzi hakimiyyətlə muxtar respublikanın hakimiyyət orqanlarını əlaqələndirməlidir. Buna görə də o, geniş səlahiyyətlərə malikdir.

Naxçıvan Muxtar Respublikasının ali hakimiyyət orqanlarının yurisdiksiyasında siyasi məsələlər yoxdur. Yəni siyasi xarakterli hər hansı bir məsələni Naxçıvan Muxtar Respublikasının orqanları həll edə bilməz. Bu həm də o deməkdir ki, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycan Respublikası arasında qarşılıqlı əlaqələrin müəyyənləşdirilməsi birtərəfli qaydada Azərbaycan Respublikası tərəfindən həyata keçirilir. Naxçıvan Muxtar Respublikası bu münasibətlərin müəyyənləşdirilməsində hər hansı bir şəkildə iştirak etmir. Bu da təbiidir, çünki Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkib hissəsidir və ona tabedir.

Ali Məclisin yurisdiksiyasına verilən məsələlər iqtisadiyyat və sosial-ekoloji problemlərlə bağlıdır. Buraya Ali Məclisə seçkilər, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının inkişaf istiqamətləri, sosial təminat, ətraf mühitin qorunması, turizm, səhiyyə, elm, mədəniyyət aiddir. Bu məsələlərlə bağlı Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qanun qəbul edir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Nazirlər Kabinetinin hesabatını dinləyir və ona etimadsızlıq göstərə bilər. Azərbaycan Respublikasının Milli Məclisindən fərqli olaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi muxtar respublikanın Nazirlər Kabinetinin tərkibini təsdiq edir.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti icra orqanı olsa da, icra hakimiyyətinə aid səlahiyyətlər ali vəzifəli şəxslə bölüşdürüldüyündən icra funksiyalarını təklikdə realizə etmir. Onun səlahiyyətləri Azərbaycan Respublikasının Nazirlər Kabinetinin səlahiyyətlərinə uyğun gəlir. Naxçıvan Muxtar Respublikasının büdcəsi də mərkəzi büdcənin əsasında formalaşdırılır və bu da onun iqtisadi cəhətdən Azərbaycan Respublikasına bağlılığını təmin edən şərtlərdən biridir. Eyni zamanda Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ölkədəki vahid icra hakimiyyəti sisteminin tərkib hissəsi olduğundan və operativ fəaliyyətində nəzərdə tutulmayan problemlərin ortaya çıxması ehtimalı olduğundan Azərbaycan Respublikası Prezidenti tərəfindən ona əlavə səlahiyyətlər verilməsi imkanı da nəzərdə tutulmuşdur. Naxçıvan Muxtar Respublikasının ərazisində həm Azərbaycan Respublikasının, həm də Naxçıvan Muxtar Respublikasının öz qanunvericilik aktları qüvvədədir .

Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyətlərinin başçılarını Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti təyin edir. Naxçıvan Muxtar Respublikasında qəbul olunan aktlar Azərbaycan Respublikasının qanunvericilik sisteminə uyğun gəlməlidir. Naxçıvan Muxtar Respublikasının özünün də qanunvericilik sistemi vardır. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 48-ci maddəsinə görə, buraya Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, Naxçıvan Muxtar Respublikasının qanunları, ali vəzifəli şəxsin fərmanları, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin qərarları, mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları daxildir.

IX BÖLMƏ
YERLİ ÖZÜNÜİDARƏETMƏ

§ 1. Yerli özünüidarəetmənin anlayışı və prinsipləri

Ümumiyyətlə, dövlət idarəçiliyi özünün miqyasına və realizə olunma xüsusiyyətlərinə görə iki əsas növə ayrılır: mərkəzi dövlət idarəçiliyi və yerli dövlət idarəçiliyi. Bu iki növün arasında aralıq mövqedə duran regional idarəçilik də mövcuddur, lakin regional idarəçilik nadir hallarda xüsusi təşkilati formalara malik olur. Bu da onunla bağlıdır ki, idarəetmənin əsas funksiyaları regional səviyyədə deyil, mərkəzi və yerli səviyyədə həyata keçirilir. Buradan göründüyü kimi, söhbət dövlət idarəçiliyindən gedir. Lakin məsələ burasındadır ki, idarəçilik sadəcə, dövlətə xas olan fəaliyyət sahəsi və ya funksiya deyil. İdarəçilik iqtisadiyyatda, təbiətdə (ekosistemlərin daxili tənzimlənmə mexanizmi-daxili idarəçiliyi), ailədə və bir çox tamam fərqli sferalarda mövcuddur. Bu da ondan yaranır ki, idarəçilik sistem kimi təşkil olunan istənilən orqanizmin (sosial, dövlət, bioloji) əlamətidir. İdarə olunmayan (daxildən və ya xaricdən) sistemin olması qeyri-mümkündür. Bütün idarəçilik növləri içərisində ən mürəkkəbi və çoxşaxəlisi məhz dövlət idarəçiliyidir. Dövlət cəmiyyəti və bir çox digər sahələri idarə edir. Lakin idarəçilik idarəolunan obyektin və şəraitin qarşıya qoyulan məqsəddən kəskin şəkildə asılı olduğu bir fəaliyyətdir. Ona görə də iki çox yaxın sahədə belə idarəçilik bir-birindən çox fərqlənir və müxtəlifliyin nəzərə alınması dövlət idarəçiliyi üçün müstəsna əhəmiyyətə malikdir. Əks təqdirdə idarəçilik mümkün ola bilməz. Lakin bu, idarəçilikdə müəyyən problemlər yaradır. Dövlət bəzən

bu qədər çox müxtəlifliyi nəzərə almaq iqtidarında olmur. Bunun üçün onun imkanları azlıq edir və bu imkanlar bəzən düzgün bölüşdürülmür. Nəticədə dövlət üçün əlavə, bir qayda olaraq, mənfi nəticələr verən idarəçilik yükü ortaya çıxır. Bir növ dövlətin idarəetmə imkanlarına uyğun gəlməyən əlavə tənzimləmə sahəsi yaranır ki, dövlət bunun öhdəsindən çətinliklə gəlir. Bir çox hallarda da qarşıya qoyulan məqsədə nail olmaq olmur və ortaya yeni problemlər çıxır. Bundan yayınmağın hələlik ən faydalı yolu idarəçilik yükünün səmərəli şəkildə paylanmasıdır. Konkret olaraq bu, dövlət idarəetməsində idarə olunan obyektlərin bəzilərinə özü-özünü idarə etmək imkanının verilməsidir. Bunun üçün obyektin hansı sahələrdə, hansı həddə qərarlar qəbul edəcəyi müəyyənləşdirilir və dövlət operativ müdaxilə əsaslarını saxlamaqla həmin sahəyə toxunmur. Bunun hüquqi təzahürü muxtariyyatdır. Yerli dövlət idarəçiliyi də əslində belə bir zərurətdən doğmuşdur.

Yerli özünüidarə sadəcə bu səbəblərdən yaranmır. Yerli özünüidarəetmə qədim tarixə malikdir və onun yaranmasına səbəb təkcə dövlət idarəetməsində işlərin bərabər bölünməsi deyil. Yerli özünüidarəetmənin yaranması zərurəti həm də idarəetmənin özünün ümumi məqsədlərindən doğur. İstənilən idarəçilikdə məqsəd qarşıya qoyulmuş hədəflərə ən optimal, səmərəli üsullarla çatmaqdır. Dövlət idarəetməsində də bu belədir. Və bunun ən əsas üsullarından biri idarə olunan obyektin marağının nəzərə alınmasıdır. Bu zaman idarə olunanın marağının ödənilməsi qarşıya qoyulan məqsədlə və ya idarə edənin davranışı ilə əlaqələndirilir və nəticədə də idarə olunanın lazımi istiqamətdə müstəqil fəaliyyəti stimullaşdırılır. Bu zaman dövlət idarəetmənin əsas funksiyalarından bi-

ri olan daimi nəzarət funksiyasını yerinə yetirməkdən qismən azad olur. Özünüidarəetməni törədən zəruri səbəblərdən biri də yerli özünüidarəetmənin səmərəliliyi məsələsi olmuşdur. Muxtariyyat bütün bunların hamısını özündə birləşdirir və qarşıya qoyulan məqsədə çatmağa imkan verir. Yerli özünüidarəetmənin əmələ gəlməsi səbəbi də bu iki başlıca faktordur. Birincisi, dövlət öz işlərinin bir hissəsini müəyyən subyektlərə verir (müvəkkil edir) və bununla da, idarəçilik imkanlarına qənaət olunur, ikincisi, idarəçilik verilən subyektlərə məsələləri öz nöqteyi - nəzərincə və deməli, öz marağına uyğun həll etmək imkanı verməklə onun qarşıya qoyulan məqsədlərə çatmaq istəyini stimullaşdırır və beləliklə, özünüidarəetmənin səmərəli olması müəyyən qədər təmin olunmuş olur. Burada müəyyən bir qanunauyğunluq müşahidə olunur. Aydındır ki, yerli problemləri həmin yerin sakinlərindən daha yaxşı kimsə bilə bilməz. Bilsə belə, bu problemlərin həllində onlar qədər maraqlı ola bilməz, çünki əldə ediləcək müsbət nəticədə birbaşa yerli sakinlərin maraqları ödəniləcəkdir. Lakin yerli əhalinin marağı şəxsi deyil, ümumi-ictimai, kütləvi maraqdır və bu, ictimai maraqları təmin etməli olan dövlətin maraqları ilə üst-üstə düşür. Hətta region əhalisinin marağına dövlətin özünün regional marağı demək belə, özünü doğruldur. Dövlət yerli sakinləri idarəçilikdə maraqlı etməklə özünün də maraqlarını qismən ödəmiş olur. Çünki dövlətin həmin səmərəli idarəçiliklə bağlı marağı ödənilmiş olur. Deməli, dövlət idarəçilikdə idarəolunanı maraqlandırmaqla həm də öz maraqlarını qismən təmin etmiş olur. Bu da onda əks olunur ki, dövlət idarəçilik imkanlarına qənaət edilir və idarəolunan subyekt dövlətin maraqlarına daxil olan istiqamətdə hərəkət etməklə idarəçilik

məqsədlərinə nail olmanı tezləşdirir. Yerli idarəçilik dövlət orqanları tərəfindən həyata keçirilir. Bu zaman mərkəzdən verilən göstərişlər və özlərinin səlahiyyətləri çərçivəsində dövlət orqanları ərazinin problemlərini həll edirlər. Lakin yuxarıda göstərilən faktorlar (birincisi, dövlət idarəçilik imkanlarına qənaət və idarəçilik yükünün azaldılması, ikincisi, idarəetmənin daha da səmərəli olması və dövlət maraqlarının ödənilməsi) dövləti özünün idarəetmə funksiyasını müxtəlif qurumlarla bölüşdürməyə sövq edir. Nəticədə də yerli özünüidarəetmə ortaya çıxır.

Yerli özünüidarəetmə, bütün deyilənlərdən göründüyü kimi, qanunvericiliyin tutduğu mövqeyə baxmayaraq (halhazırda Azərbaycan Respublikasında qanunvericilik yerli özünüidarəetməni və dövlət idarəetməsini, zəruri əlaqələr istisna olmaqla, bir-birindən çox güclü təcrid edir), dövləti fəaliyyətə yaxın bir fəaliyyətdir. Yerli özünüidarəetmə dövlət idarəetməsindən bir qədər fərqlənir. Eynilə dövlət idarəçiliyi kimi bu idarəçilik də ictimai maraqların təmin edilməsinə yönəlib. Bunu o da sübut edir ki, yerli özünüidarəetmə bir sıra sırf dövlət hakimiyyəti funksiyalarına malikdir (vergi müəyyən etmək və yığmaq) və təbiətən yaxınlıqları imkan verir ki, dövlət orqanları öz səlahiyyətlərinin bir hissəsini yerli idarəçilik orqanları arasında bölüşdürsün. Onlar bir-birilə sıx əlaqədədirlər və birgə fəaliyyət göstərirlər. Yerli özünüidarəetmədə istənilən hər şey son nəticədə yerli dövlət idarəetməsinə birbaşa təsir göstərir və əksinə. Yerli özünüidarəetmə mahiyyətcə bu və ya digər ərazinin əhalisinə öz işlərini həll etmək üçün müəyyən muxtariyyatın verilməsidir. Burada yerli kollektivin marağı öz işlərinin həlli zamanı ona müstəqil davranmaq imkanı verməklə təmin edilir. Muxratiy-

yatın marağı stimullaşdıran vasitə kimi çıxış etməsinə səbəb odur ki, o, yerli kollektivə öz marağına uyğun davranış forması seçməyə imkan verir. Yerli özünüidarəetmə demokratik dövlətlərin əlamətlərindən biri halına gəlmişdir. Buna səbəb odur ki, o həm də vətəndaşların idarəçilikdə aktivliyini stimullaşdırır və bununla da vətəndaş cəmiyyətinin formalaşmasında qeyri-dövlət sosial təsisatların idarəçilikdə mühüm yer tutmasını təmin edir.

Yerli özünüidarəetməyə bir qədər fərqlərlə eyni anlayışlar verilir. Yerli özünüidarəetmə haqqında 15 oktyabr 1985-ci il Avropa Xartiyasının 3-cü maddəsində yerli özünüidarəetməyə belə bir anlayış verilir: yerli özünüidarə dedikdə yerli özünüidarəetmə orqanlarının qanun çərçivəsində, məsuliyyəti öz üzərinə götürərək, yerli əhalinin mənafeyi naminə ictimai işlərin böyük bir hissəsini nizama salmaq və onu idarə etmək hüququ və real bacarığı başa düşülür. Göründüyü kimi, Xartiyada da birbaşa göstərilir ki, yerli özünüidarə dövlət işlərinin yerinə yetirilməsidir. Lakin bu hər cür dövlət işinin deyil, öz taleyi ilə bağlı olan dövlət işlərinin idarə olunmasıdır («mənafeyi naminə» anlayışı bunu göstərir.). Başqa sözlə, dövlət yerli əhaliyə özünü idarə etmək imkanı verir. Əlamətlərdən biri də yerli özünüidarəetmənin qanun çərçivəsində və öz məsuliyyəti ilə həyata keçirilməsidir. Yerli özünüidarəetmə qanun çərçivəsindən kənar ola bilməz, çünki bunu dövlət müəyyən edib yerli əhaliyə verir. Məsuliyyət isə yerli özünüidarəetmənin atributiv əlaməti olan muxtariyyatdan yaranır. Muxtar subyekt davranışına görə yalnız özü məsuliyyət daşımalıdır. Anlayışa görə, yerli özünüidarəetmə nizamasalma və idarəetmə hüququdur. Burdan aydın olur ki, yerli özünüidarəetmə, sadəcə, icraedici-sərəncamverici (idarə etmək hüququ) fəaliyyəti

deyil, müəyyən qədər normayaradıcılığını da özündə ehtiva edir. Məcburi qayda müəyyən etmədən yerli özünüidarə orqanlarının tam muxtar olacağını düşünmək qeyri-mümkündür. Xartiyadakı real bacarıq ifadəsi yerli özünüidarəetmənin təminatlarını nəzərdə tutur. Qanunvericilik səviyyəsində təminatları olmayan, öz kadr, idarəçilik potensialını formalaşdırmaq üçün vasitələri olmayan yerli özünüidarəetmə yarımçıqdır və qarşıya qoyulan məqsədləri tam ödəyə bilməz. «Bələdiyyələrin statusu haqqında» 2 iyul 1999-cu il tarixli Azərbaycan Respublikası Qanunun 1-ci maddəsində verilən anlayışa görə isə, yerli özünüidarəetmə vətəndaşların fəaliyyətinin təşkilinin elə bir sistemidir ki, bu system onlara qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək və yerli əhalinin mənafeyi naminə Azərbaycan Respublikası Konstitusiyasının 144-cü maddəsinin II hissəsinə uyğun olaraq dövlət işlərinin bir hissəsini yerinə yetirmək imkanı verir. Xartiyadakı anlayışda olduğu kimi, burada da mənafe əlaməti, ondan törəmə olan, onun ifadə vasitəsi olan müstəqillik və sərbəstlik, qanunauyğunluq öz əksini tapır. Bundan əlavə, bütün qanunvericiliyin yerli özünüidarəetmə ilə bağlı konsepsiyasının əsas müddəalarından birini ifadə edən başqa bir əlamət də (qeyri-dövlət sistemi) artırılmışdır.

Yerli özünüidarəetmənin formalaşdırılma əsası da birbaşa həm Azərbaycan Respublikasının qanunvericiliyində, həm də adı çəkilən Xartiyada öz əksini tapıb. Buna səbəb odur ki, yerli özünüidarəetməni, həqiqətən, özünüidarəetmə kimi təşkil edən onun formalaşdırılma üsuludur. Yerli özünüidarəetmə ərazi kollektivinin və dolayısı ilə hər bir vətəndaşın dövlətlə və cəmiyyətlə qarşılıqlı mü-

nasibətlərində özünüifadə üsuludur. Tamamilə yuxarıdan təşkil edilməklə və təyinatla qurulan idarəçilik özünüidarəetmə adlana bilər, amma mahiyyətcə özünüidarəetmə ola bilməz. Odur ki, həm beynəlxalq aktlarda, həm də milli qanunvericiliyimizdə yerli özünüidarəetmənin təşkili üsulu kimi əhali tərəfindən seçilmə göstərilir. Deyilənlərə əsasən yerli özünüidarəetmənin əsas əlamətlərini ayırmaq olar:

1) Yerli özünüidarəetmə sistematik, ictimai fəaliyyət sferasıdır;

2) Bu fəaliyyət yerli sakinlərin mənafeləri ilə bağlıdır (bu mənafelərin idarəetmənin səmərəliliyi üçün nəzərə alınması);

3) Bu fəaliyyət bir qayda olaraq qeyri-dövlət fəaliyyətidir;

4) Onu xüsusi subyektlər - seçkili qeyri-dövlət orqanları həyata keçirir.

Yerli özünüidarəetmə müəyyən prinsiplərə söykənir. Bu prinsiplər yerli özünüidarəetmənin təşkili ilə bağlı qanunvericilik konsepsiyasını, onun təşkili məqsədlərini, müstəqilliyinin əsaslarını özündə yığcam şəkildə əks etdirir. Prinsiplər ölkədən - ölkəyə fərqlidir, ancaq bir sıra prinsiplər vardır ki, onlar beynəlxalq hüquqi aktlarda təsbit olunublar. Bu prinsiplər yerli özünüidarəçiliyi özünüidarəetmə kimi xarakterizə edir və onların fəaliyyəti üçün zəruri minimum təminatları əks etdirir. Yerli özünüidarəetmənin əsas prinsiplərinə aşağıdakılar aiddir:

1) Yerli özünüidarəetmənin əsasları konstitusion səviyyədə təsbit olunur. Bu da təsadüfi deyil, konstitusion səviyyədə təsbit edilmə yerli özünüidarəetməyə nə qədər əhəmiyyət verildiyini göstərir və onun qanunvericilik bazasının sabitliyini təmin edən vasitə kimi çıxış edir. Cari

qanunvericilik dəyişsə də, yerli idarəetmənin konstitusion səlahiyyətləri və konstitusion müddəalar dəyişə bilməz. Bu isə yerli özünüidarəetməni qanunvericiliyin və digər hakimiyyət orqanlarının dəyişən siyasətinin mənfi təsirinə məruz qalmaqdan xilas edir.

2) Yerli özünüidarəetmə öz səlahiyyətləri çərçivəsində tam müstəqil və sərbəstdir. Bu prinsip yerli özünüidarəetmə orqanlarının səlahiyyətlərinin toxunulmazlığında əks olunur. Onun səlahiyyətləri birbaşa konstitusiyada təsbit edilir və mürəkkəb dəyişdirilmə qaydasına malikdir. Bu səlahiyyətlər artırıla bilər (sadə üsulla - konstitusiyaya dəyişiklik edilmədən), amma heç bir orqan tərəfindən azaldıla bilməz və onların icrasına müdaxilə yolverilməzdir. Onun müstəqilliyi üçün qanunvericilik təşkilati, maliyyə və s. təminatlar nəzərdə tutur.

3) Yerli özünüidarəetmə orqanları yalnız seçkilər yolu ilə təşkil oluna bilər və ya ən azından mütləq seçkilər yerli özünüidarəetmənin təşkilində mühüm rol oynamalıdır. Yerli özünüidarəetmə mütləq seçkilərlə təşkil olunmalıdır ki, ərazi əhalisinin etibar etdiyi və onu daha yaxşı tanıyan adamlar yerli idarəetməyə qoşula bilsinlər. Yerli özünüidarəetmənin səmərəliliyi birbaşa seçkilərin nəticələrindən asılıdır. Seçkilərə qoyulan şərtlər və seçkilərin keçirilməsi qaydası digər hakimiyyət orqanlarına seçkilərin keçirilməsi qaydaları ilə oxşardır.

4) Yerli özünüidarəetmənin fəaliyyətinin real təminatları. Yerli özünüidarəetməyə müxtəlif vasitələrlə müstəqil fəaliyyət göstərmək üçün imkan yaradılmalıdır. Bütün bu prinsiplər bir-biri ilə sıx şəkildə bağlıdır və biri digərini tamamlayır. Məsələn, yerli özünüidarəetmənin səlahiyyətlərinin toxunulmazlığı onun müstəqilliyini şərtlən-

dirən amillərdən biridir və sonuncu prinsipi bunsuz tam mənasilə başa düşmək qeyri-mümkündür.

Prinsiplər daim inkişafdadır və dəyişə bilər. Onlar üst-üstə düşmür. Məsələn, Avropada yerli özünüidarəetmənin prinsiplərinə, bir qayda olaraq, aşağıdakıları aid edirlər:

- yerli özünüidarənin seçkilər əsasında formalaşdırılması;
- yerli özünüidarəetmə subyektlərinə verilən səlahiyyətlərin onların fəaliyyətinə uyğun gəlməsi;
- yerli özünüidarəetmənin müdafiəsi;
- yerli özünüidarə işçilərinin yüksək muxtariyyatı (müstəqillik);
- peşəkar və yaxşı hazırlanmış şəxsi heyət, münasib əmək haqqı;
- yerli özünüidarə nümayəndələrinin həvəsləndirilməsi və səlahiyyətlərini icra etmək üçün geniş imkanların verilməsi;
- yerli özünüidarəetmənin öz maliyyə vəsaitinin olması.

Bu prinsiplərdən göründüyü kimi, onlar, əsasən, az ümumiləşdirilmişdir və daha çox təşkilati məsələlərə diqqət yetirilməsindən xəbər verir. Bundan başqa, prinsiplər həm də bütövlükdə yerli özünüidarəetməylə bağlı olmur. Bir sıra prinsiplər var ki, onlar yerli özünüidarəetmə fəaliyyətinin ayır-ayrı əsasları ilə bağlıdır. Məsələn, bələdiyyələrin maliyyələşdirilməsi prinsipləri, bələdiyyələrin ərazi əsasları prinsipləri və s.

§ 2. Yerli özünüidarəetmənin formaları və onların hüquqi statusu

Yerli özünüidarəetmə, sadəcə, prinsiplərə söykənmir. Onu tam başa düşmək üçün mütləq yerli özünüidarənin

hüquqi statusunu da bilmək lazımdır. Çünki prinsiplər tam şəkildə yerli özünüidarənin qanunvericilikdə təsbitlənən statusunda açıqlanır. Yerli özünüidarəetmə müxtəlif formalara malikdir. Yerli özünüidarəetmənin formaları dedikdə yerli özünüidarəetmənin həyata keçirilmə üsulları başa düşülür. Yerli özünüidarəetmə nə cür həyata keçirilirsə-keçirilsin o, mütləq təşkilatlanmalıdır. Təşkilatlanma olmadan yerli özünüidarəetmənin həyata keçirilməsi qeyri-mümkündür. Özünüidarəetmənin formaları da bir-birindən özünün təşkilatlanma səviyyəsinə görə fərqlənirlər. Konstitusiyanın 142-ci maddəsində deyilir ki, yerli özünüidarəetməni bələdiyyələr həyata keçirir və bələdiyyələr də seçkilər yolu ilə təşkil olunur. «Bələdiyyələrin statusu haqqında» 2 iyul 1999-cu il tarixli qanunun IV fəsli «Vətəndaşların öz iradəsini birbaşa ifadə etməsi və yerli özünüidarəetmənin həyata keçirilməsinin digər formaları» adlanır. Qanunun analizindən belə nəticəyə gəlmək olar ki, yerli özünüidarəetmə məzmunca yerli özünüidarəetmənin müxtəlif formalarını və vətəndaşların öz iradəsini birbaşa ifadə etməsini özündə birləşdirir. Əhalinin öz iradəsini birbaşa ifadə etməsi yerli özünüidarəetmə forması kimi qiymətləndirilsə də, burada təşkilatlanma zəifdir. Yerli özünüidarəetmənin əsas təşkilati formaları bələdiyyələrdən və vətəndaşların yığıncaqlarından ibarətdir. Yerli özünüidarəetmənin digər formaları isə artıq əhalinin öz iradəsini birbaşa ifadəetmə vasitəsidir. Bunlara yerli rəy sorğusu, bələdiyyə seçkiləri, bələdiyyə aktları yaratmaq təşəbbüsü və s. aiddir. Yerli özünüidarəetmənin bütün bu formaları bir-birilə sıx şəkildə bağlıdır və hər biri fərqli xüsusiyyətlərə malikdir. Məsələn, bələdiyyə seçkisi vətəndaşların iradəsinin birbaşa ifadə forması olsa da, yalnız bir məqsədə - özünüidarəetmənin təşkilati forması

olan bələdiyyə orqanlarını formalaşdırmağa xidmət edir. Bələdiyyə isə yerli özünüidarəetmənin ən təkmil, təşkilatlanmış forması olsa da, vətəndaşların iradəsi onun fəaliyyətində dolayı ifadə olunur. Əksinə, yerli rəy sorğusu vətəndaşların iradəsini birbaşa ifadə etməyə imkan verir. Və ya göstərmək olar ki, bələdiyyələrin nizamnaməsi həm də vətəndaşların yığıncaqlarında qəbul edilir. Buna görə də, demək olar ki, yerli özünüidarəetmə formaları vahid bir sistem əmələ gətirir və ümumilikdə hamısı bir məqsədə xidmət edir. Bu sistem yerli xarakterli məsələlərin həllinə bütün ünsürləri vasitəsilə reaksiya verir. Başqa sözlə, yerli xarakterli məsələ həll olunarkən yerli özünüidarəetmənin formaları müxtəlif üsullarla həll olunan problemə uyğun olaraq işə düşür. Yerli özünüidarəetmənin belə forma müxtəlifliyi və onların bəzən bir yerli problem ilə əlaqədar paralel realizə olunması yerli məsələlərin mürəkkəbliyindən və qanunvericiliyin məqsədindən irəli gəlir. Qanunverici bu cür çoxformalı sistem yaratmaqla vətəndaşların iradəsini təhrif olunmadan maksimum üzə çıxarmağa çalışır. Məsələn, bələdiyyə orqanı (yerli özünüidarəetmənin bir forması) həll edilməsində çətinlik çəkdiyi məsələni tam həll etmək məqsədi ilə vətəndaşların yığıncağını keçirə bilər (yerli özünüidarəetmənin başqa formasının vətəndaşların iradəsini tam ifadə etməsi üçün tətbiqi). Vətəndaşların yığıncağında əldə edilən nəticələrin bütün ərazi kollektivinin iradəsini ifadə etməməsi ilə bağlı şübhələr yaranarsa, yerli rəy sorğusu keçirilir (bir başqa yerli özünüidarəetmə forması tətbiq olunur). Əgər yerli rəy sorğusu da əhali arasında konkret məsələ ilə bağlı vahid bir fikrin olmadığını aşkara çıxararsa və buna görə də bələdiyyələr qərar qəbul edə bilməzsə, onda vətəndaşların özləri bələdiyyə aktları yaratmaq tə-

şəbbüsündən istifadə edə bilərlər (yerli özünüidarəetmənin bir başqa forması işə düşür). Göründüyü kimi, yerli özünüidarəetmənin çoxformalılığı özünüidarəetmə prosesində ortaya çıxa biləcək mürəkkəb, çətin həll edilə bilən halları aradan qaldırmaq imkanına da malikdir. Ortaya çıxan hər hansı problemə yerli özünüidarəetmənin ən müxtəlif formalarını tətbiq etməklə onun uğurlu həllinə imkan yaranır.

Yerli özünüidarəetmənin ən əsas forması bələdiyyələrdir. Bu da ondan irəli gəlir ki, bələdiyyələr daha geniş imkanlara malik olurlar. Onların ciddi şəkildə təşkilatlanması, özünü maliyyələşdirmə imkanlarının olması və tədricən olsa da, özünüidarəetmə üzrə peşəkarcasına ixtisaslaşmaları problemlərə dərhal reaksiya verməyə, lazımi imkanları operativ şəkildə seçərək problemin həllinə cəlb etməyə imkan verir. Bələdiyyə ilə bələdiyyə orqanını fərqləndirmək lazımdır. Bələdiyyə, ərazisi də daxil olmaqla yerli özünüidarəetmənin bütün formalarını əhatə edən anlayışdır. Bələdiyyə orqanı isə yerli özünüidarəetmənin bələdiyyə tərəfindən yaradılan və yerli məsələləri həll etmək səlahiyyətinə malik qeyri-dövlət, seçkili orqandır. Lakin çox vaxt bələdiyyə deyildikdə bələdiyyə orqanları anlaşılır. Bələdiyyələr öz nizamnaməsinə malik olur və burada bələdiyyə üzvlərinin, onun işçilərinin səlahiyyətləri müəyyən edilir. Bələdiyyə orqanının üzvlərinin sayı bələdiyyədəki əhalinin sayından asılıdır. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 210.2-ci maddəsinə görə, əhalisi 500-dən az olan ərazilərdə 5 nəfər, əhalisi 500-dən 999-dək olan ərazilərdə 7 nəfər, əhalisi 1000-dən 4999-dək olan ərazilərdə 9 nəfər, əhalisi 5000-dən 9999-dək olan ərazilərdə 11 nəfər, əhalisi 10000-dən 19999-dək olan ərazilərdə 13 nəfər, əhalisi 20000-dən

49999-dək olan ərazilərdə 15 nəfər, əhalisi 50000-dən 99999-dək olan ərazilərdə 17 nəfər, əhalisi 100000-dən 299999-dək olan ərazilərdə 19 nəfər bələdiyyə üzvü seçilir. Lakin bələdiyyə orqanlarının say tərkibi müəyyən ərazinin say tərkibi ilə birbaşa bağlı olsa da, bələdiyyələrin özünün, ümumiyyətlə, yerli özünüidarəetmənin əhalinin say tərkibindən asılı olaraq, məhdudlaşdırılması qadağandır. Başqa sözlə, müəyyən ərazidə yaşayan şəxslərin sayı qanunda göstərilən say tərkibindən az və ya çox olması həmin ərazinin özünüidarəetmə hüququnun olmaması demək deyil. Lakin belə ərazilərdə bələdiyyə formalaşdırılarsa, qanunvericilikdə həmin bələdiyyə orqanının say tərkibini müəyyənləşdirməyə əsas verən norma nəzərdə tutulmayıb. Qanunvericiliyin ruhundan belə güman etmək olar ki, bu məsələ bələdiyyənin özünün mülahizəsinə görə həll olunur. Əhalinin daimi məskunlaşmadığı, habelə xarici ölkənin nümayəndəlikləri yerləşdiyi yerlərdə bələdiyyələr yaradıla bilməz. Ölkənin müdafiəsi və dövlət təhlükəsizliyinin təmin olunması məqsədi ilə müəyyən ərazilərdə yerli özünüidarəetmənin təşkili qanunla məhdudlaşdırıla bilər.

Bələdiyyələr öz iclasları, daimi və başqa komissiyaları vasitəsilə fəaliyyət göstərir. Bələdiyyə iclasları ayda bir dəfədən az olmayaraq çağırılır. Bələdiyyə iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Bu iclaslar bələdiyyə ərazisində yaşayan əhalinin azı 10 faizinin və ya bələdiyyə üzvlərinin üçdə iki hissəsinin təşəbbüsü ilə çağırılır. İclaslar protokollaşdırılır. Bələdiyyənin səlahiyyətlərini icra etmək üçün onun icra aparatı yaradılır. İcra aparatı bələdiyyənin sədrindən və onun qanunvericiliyə uyğun formalaşdırdığı struktur bölmələrdən və digər icra strukturlarından ibarətdir. Onun fəaliyyətinə

bələdiyyə sədri rəhbərlik edir. Əhaliyə xidmət, iqtisadi və sosial inkişaf proqramlarını həyata keçirmək üçün yaradılan icra strukturlarının rəhbərlərini bələdiyyə şurasının qərarına əsasən bələdiyyənin sədri təyin edir ki, bu da onun əhali ilə birbaşa, müntəzəm ünsiyyətdə olması ilə bağlıdır. Bələdiyyə şurası bələdiyyənin üzvlüyünə seçilmiş şəxslərdən təşkil olunan orqandır. Bələdiyyələr öz səlahiyyətinə aid məsələlərin qabaqcadan nəzərdən keçirilməsi, bələdiyyənin qərarlarının həyata keçirilməsinə yardım göstərilməsi, bələdiyyənin tabeliyində olan müəssisə, idarə və təşkilatların fəaliyyətinə nəzarət etməsi üçün daimi və başqa komissiyalar yarada bilər. Bu komissiyalar zərurət yaranarsa, səlahiyyəti daxilində fəaliyyətinin təmin olunması məqsədi ilə ekspertlər dəvət edə bilər. Bələdiyyə komissiyalarının əsas vəzifələri yerli əhəmiyyətli sosial, iqtisadi inkişaf, ekoloji və digər proqramları hazırlayıb bələdiyyənin və yerli əhalinin müzakirəsinə çıxarmaq, yerli əhəmiyyətli məsələləri müzakirə etmək, bələdiyyə iclaslarında müzakirə üçün proqramlar, arayışlar, qərar layihələri və başqa sənədləri hazırlamaq, bələdiyyə və onun icra aparatı üçün təkliflər hazırlamaq, seçicilərin tapşırıqlarının yerinə yetirilməsinin təşkilinə və yoxlanılmasına kömək etməkdən ibarətdir. «Bələdiyyələrin daimi və başqa komissiyaları haqqında» 14 aprel 2000-ci il tarixli əsasnaməyə görə, bu komissiyalar öz fəaliyyətində bələdiyyə ərazisində yaşayan əhalinin mənafe ümumiliyini əsas götürürlər. Bütün komissiyaların tərkibi ən azı üç bələdiyyə üzvündən ibarət olmalıdır. Bir bələdiyyə üzvü bir neçə daimi və başqa komissiyanın üzvü ola bilər. Komissiyalar ayda ən azı bir dəfə iclas keçirir. Onların təşkilati, informasiya, kargüzarlıq, maddi-texniki təminat məsələlərini bələdiyyənin icra aparatı hə-

yata keçirir. Bələdiyyələr səlahiyyətlərinə uyğun olaraq, yerli büdcə məsələləri komissiyası, yerli sosial məsələlər komissiyası, yerli ekologiya məsələləri komissiyası, hüquq məsələləri komissiyası yarada bilərlər. Komissiyaların üzvü onların fəaliyyətində iştirak etməyə, onlara kömək etməyə borcludur. Daimi komissiyanın işinə onun sədri rəhbərlik edir.

Bələdiyyələr öz fəaliyyətini əlaqələndirmək, hüquq və mənafelərini daha səmərəli həyata keçirmək məqsədilə ittifaqlar yarada bilərlər. Həmin ittifaqlar inzibati orqan deyil və bələdiyyələrin səlahiyyətlərini həyata keçirə bilməz. «Azərbaycan Respublikasında yerli özünüidarəetmə üzrə Əlaqələndirmə Şuraları haqqında Əsasnamə»yə (18 aprel 2000-ci il) görə, müxtəlif əraziləri təmsil edən ən azı 3 bələdiyyə belə bir şura yarada bilər və bir bələdiyyənin eyni zamanda rayon (şəhər), regional və respublika üzrə əlaqələndirmə şurasında üzv olmasına hüququ vardır. Bu əlaqələndirmə şuraları bələdiyyələrin səlahiyyətlərinə aid olan məsələlərin müzakirə edilməsi, həmin məsələlərlə əlaqədar ortaya çıxan problemlərin birgə həlli yollarının müəyyən edilməsi, səmərəli iş təcrübəsinin öyrənilib ümumiləşdirilməsi və yayılması, dövlət orqanları ilə bələdiyyələrin qarşılıqlı fəaliyyətinin uzlaşdırılması, yerli özünüidarə sisteminin inkişafı üzrə təkliflərin işlənib hazırlanması məqsədi ilə yaradılır. «Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında» 14 aprel 2000-ci il tarixli qanuna görə, bələdiyyələr onlarda yaranan sosial-iqtisadi vəziyyətlə əlaqədar, tarixi və digər yerli xüsusiyyətləri, müvafiq yerli əhalinin rəyini nəzərə almaqla birləşərək, yaxud ayrılaraq yeni bələdiyyə təşkil edə bilərlər. Birləşmək və ya ayrılmaq üçün rəy sorğusu keçirilir və müsbət nəticə əldə

edildikdə bələdiyyələrin birləşməsi haqqında qərar çıxarılır və Milli Məclisə təqdim edilir. Milli Məclis qanunvericiliyə uyğun olaraq, bununla bağlı qərar qəbul edir. Birləşmə və ya ayrılma zamanı mülkiyyət, maliyyə məsələlərini həll etmək üçün komissiyalar yaradılır. Bələdiyyələr birgə fəaliyyət göstərən zaman onların əraziləri dəyişmir. Bələdiyyələrin ləğvinə aşağıdakı hallar səbəb ola bilər:

1) Qanunvericilikdə nəzərdə tutulmuş qaydada bələdiyyənin yerləşdiyi müvafiq yaşayış məntəqəsi müvafiq uçot məlumatından çıxarıldıqda Azərbaycan Respublikasının Milli Məclisi bələdiyyə ərazilərinə qanunvericiliyə müvafiq surətdə dəyişiklik edir.

2) Müvafiq ərazidə əhali yerli özünüidarənin təşkilindən imtina etdikdə yerli rəy sorğusu keçirilir. Rəy sorğusu bələdiyyənin ləğv olunması barədə müsbət nəticə verdikdə, bələdiyyə tərəfindən onun ləğv edilməsi haqqında qərar qəbul edilir və baxılmaq üçün Milli Məclisə təqdim olunur.

Yerli əhəmiyyətli bütün məsələlərə dair yerli rəy sorğusu keçirilə bilər. Yerli rəy sorğusunun keçirilməsi haqqında qərarı bələdiyyə nizamnaməsinə uyğun olaraq, öz təşəbbüsü ilə və ya əhalinin tələbi əsasında qəbul edir. Bələdiyyə ərazisində yaşayan və seçkilərdə iştirak etmək hüququna malik bütün vətəndaşların yerli rəy sorğusunda iştirak hüququ vardır. Yerli rəy sorğusunda iştirak etmək könüllüdür. Səsvermə gizli və ya açıq keçirilə bilər və vətəndaşların öz iradəsini ifadə etməsi üzərində nəzarətə yol verilmir. Əhalisi 500 nəfərdən az olan bələdiyyələrdə yerli əhəmiyyətli məsələlərə münasibət bildirmək, təkliflər irəli sürmək, kollektiv rəy söyləmək, qərarlar qəbul etmək məqsədi ilə vətəndaşların yığıncaqları keçirilə

bilər. Yığıncaqlarda 18 yaşı tamam olmuş vətəndaşların iştirak etmək hüququ vardır. Belə yığıncaqlar bələdiyyə ərazisində yaşayan vətəndaşların azı 25 faizi iştirak etdikdə səlahiyyətlidir. Bələdiyyə aktları yaratmaq təşəbbüsü, yerli xarakterli məsələlərlə bağlı müəyyən layihələr hazırlamaq və qəbul olunmaq üçün bələdiyyəyə təqdim etmək hüququdur. Bələdiyyəyə verilən layihələr mütləq əhalinin nümayəndələrinin iştirakı ilə açıq iclaslarda müzakirə olunmalı və nəticələri rəsmən elan olunmalıdır. Bundan başqa, yerli özünüidarəetmədə əhalinin iradəsini birbaşa ifadə etməsinə kömək edən əlavə vasitələr kimi vətəndaşların bələdiyyələrə və onların vəzifəli şəxslərinə müraciət hüququ nəzərdə tutulub. Bələdiyyələr belə müraciətlərə mahiyyəti üzrə bir ay ərzində cavab verməlidirlər. Qanunvericilikdə yerli özünüidarəetmə formaları sadəcə bunlarla məhdudlaşmır. «Bələdiyyələrin statusu haqqında» qanunun 31-ci maddəsində dolayı yolla müəyyənləşdirilən prinsipə görə, konstitusiyaya və qanunvericiliyə zidd olmayan istənilən yerli özünüidarəetmə forması realizə edilə bilər. Bu o deməkdir ki, qanunvericilik yerli özünüidarəetmə formalarını hal-hazırda mümkün olanlarla məhdudlaşdırmır, gələcəkdə daha yeni formaların üzə çıxması ehtimalını nəzərə alıb, onların qanunvericilikdə nəzərdə tutulmaması halında belə konstitusiyaya və qanunvericiliyə zidd olmamaq şərtilə tətbiqinə imkan verir, yəni idarəçilik formalarının seçilməsində özünüidarəetmə subyektlərinə sərbəstlik verir.

§ 3. Bələdiyyə üzvlərinin hüquqi statusu və bələdiyyə qulluğu

Bələdiyyə dövlət orqanı deyil. Eyni zamanda o, mahiyyətcə dövlətə xas olan funksiyaları həyata keçirdiyinə

görə onu qeyri-hökümət təşkilatları ilə də eyniləşdirmək olmaz. Bələdiyyələr seçilməklə - əhalinin birbaşa iradəsi əsasında təşkilatlanır və həm təşkilatlanma üsulu, həm də məşğul olduğu fəaliyyət onun hüquqi statusunu özünəməxsus edir. Hər sosial təsisatın özünün statusu ilə onu yaradan, formalaşdıran insanların statusu arasında birbaşa əlaqə vardır. Təşkilatın məşğul olduğu fəaliyyət onun üzvlərinin (əlbəttə ki, təşkilat çərçivəsindəki statusunu) statusunu müəyyənləşdirir. Bu ondan irəli gəlir ki, təşkilat öz üzvləri vasitəsilə, onların fəaliyyəti hesabaına mövcuddur və təşkilatın məqsəd və vəzifələrinə uyğun gələn statusun əksinə olaraq onun üzvlərinin hüquqi statusu tamam başqa şərtlər çərçivəsində qurulsa, həmin sosial təsisat (dövlət orqanı, ictimai təşkilat), ümumiyyətlə, normal fəaliyyət göstərə bilməz. Aydındır ki, müstəqil olan orqanın üzvlərinin də hüquqi statusunda bu müstəqilliyi təmin edən vasitələr olmalıdır. Bələdiyyələrin idarəçilikdə və ictimai həyatda tutduğu özünəməxsus rol onun statusunu müəyyən edir və bu statusun xüsusiyyətləri eynilə bələdiyyə ilə az-çox bağlı olan adamların da statusunu müəyyənləşdirir. Bələdiyyələrin üzvlərinin və digər işçilərinin hüquqi statusunu anlamadan bələdiyyə haqqında, xüsusilə də onun daxili quruluşu haqqında, kadrları haqqında kifayət qədər təsəvvürə malik olmaq mümkün deyil. Bələdiyyə üzvlərinin hüquqi statusu səlahiyyətlər kimi bələdiyyə statusunun tərkib hissəsini təşkil edir, lakin əgər bələdiyyə səlahiyyətləri bu statusun fəaliyyətilə bağlı tərəfini əks etdirirsə, üzvlərin statusu bələdiyyə statusunun daxili quruluşu ilə bağlı tərəflərinə (bələdiyyə daxilində iş bölgüsü, tabeçilik, kadrlar və s.) aiddir. Başqa statuslar kimi bələdiyyə üzvlərinin, bələdiyyə işçilərinin hüquqi statusu da öz strukturuna görə

onların bu statusu əldə etmə və itirmə, xitam olunma əsaslarını, davranış imkanlarını (hüquq və vəzifələrini), onlara verilən təminatları (xidməti və sosial-şəxsi) əks etdirir.

Bələdiyyədə çalışan fərdlər qanunvericilikdə iki əsas qrupa bölünürlər: seçilmiş və təyin (və ya dəvət) olunmuş şəxslər. Hər qrupun daxilində də vəzifəli şəxsləri və müvafiq vəzifəyə malik olmayan şəxsləri fərqləndirmək olar. Seçilmiş şəxslər bələdiyyə seçkilərində qalib gəlib bələdiyyə üzvlüyünü əldə edən və səlahiyyət müddəti bələdiyyənin səlahiyyət müddəti ilə məhdudlaşan vətəndaşlardır. Təyin və ya dəvət olunan şəxslər isə seçkilərdə iştirak etmədən, kənardan dəvət olunan və ya bələdiyyənin qərarı əsasında müəyyən işə təyin olunan və fəaliyyət müddəti bələdiyyənin səlahiyyət müddətindən asılı olmayan vətəndaşlardır. Seçilmiş bütün şəxslərə (I qrup) bələdiyyə üzvü deyilir. Hər iki qrupun tərkibində vəzifəli şəxslər fərqləndirilir. Seçkili vəzifəli şəxs (I qrup) əhalinin bilavasitə və ya nümayəndələri vasitəsilə yerli özünüidarə orqanının öz tərkibindən seçdiyi, bələdiyyənin nizamnaməsinə uyğun yerli əhəmiyyətli məsələləri həll etmək səlahiyyətləri verilmiş vəzifəli şəxsdir. Bələdiyyə orqanlarının vəzifəli şəxsi (II qrup) yerli özünüidarə orqanlarında təşkilatçılıq, sərəncamverici funksiyalarını yerinə yetirən və dövlət qulluqçuları kateqoriyasına aid olmayan, əmək müqaviləsi üzrə işləyən şəxsdir. Seçkili vəzifəli şəxslərə bələdiyyənin sədri və onun müavini (və ya müavinləri) aiddir. Təyin olunan vəzifəli şəxslərə isə bələdiyyə müəssisələrinin, təşkilatlarının rəhbərləri, bələdiyyə idarələrinin rəisləri (bələdiyyə komissiyalarının üzvləri deyil) aiddir.

Bələdiyyə üzvləri bələdiyyə şurasında birləşirlər. Onların fəaliyyəti birbaşa bələdiyyənin təyinatının realizə olunması ilə bağlıdır və onlar bələdiyyə qulluqçuları hesab olunmur. Əksinə, bələdiyyənin təyin olunan vəzifəli şəxsi də daxil olmaqla bələdiyyə qulluqçuları bələdiyyənin işini həyata keçirmək üçün yardımçı funksiyaları həyata keçirirlər və bələdiyyənin əsas fəaliyyətinin təmin olunması ilə məşğuldurlar. Bələdiyyənin üzvləri arasında (bələdiyyə şurasında) tabeçilik - subardinasiya əlaqələri olmur. Onların hamısı birbaşa yerli əhalidən mandat alır və bu da onların birinin digərinə münasibətdə üstün olmasına əsas vermir. Yalnız bələdiyyə sədri bələdiyyə üzvləri arasından seçilərək (açıq və ya gizli səsvermə yolu ilə) bələdiyyənin iclaslararası dövründə bələdiyyəyə rəhbərlik səlahiyyətlərini həyata keçirir və bələdiyyənin işini əlaqələndirir. Bələdiyyə üzvünün bələdiyyə iclaslarında müzakirə olunan məsələlər barəsində çıxış etmək, təklif və düzəlişlər vermək, qeydlər etmək, çıxış edənlərə və təyin edilməsinə razılıq verilən namizədlərə suallar vermək, arayış vermək, səsvermədə iştirak etmək hüququ vardır. Bələdiyyə üzvü bələdiyyədən əmək haqqı alır və bələdiyyə onun əsas iş yeridir. Əmək haqqını bələdiyyədən almayan bələdiyyə üzvü öz fəaliyyətini həyata keçirərkən istehsal və ya xidmət fəaliyyətini dayandırmır. Bələdiyyə üzvü bələdiyyənin və tərkibinə seçildiyi daimi komissiyanın iclasları zamanı daimi iş yerində orta əmək haqqı saxlanılmaqla öz istehsal və ya xidməti vəzifəsini yerinə yetirməkdən azad edilir. Bələdiyyə üzvü bələdiyyənin, bələdiyyə iclasları arasındakı dövründə isə bələdiyyə sədrinin qabaqcadan razılığı olmadan əmək müqaviləsi ilə işlədiyi yerdə işəgötürənin təşəbbüsünə əsasən işdən çıxarıla bilməz, yaxud ona intizam tənbehi verilə

bilməz. Bələdiyyə üzvü 6 ayda bir dəfədən az olmayaraq seçicilərinə hesabat verir. Bələdiyyə üzvü daimi yaşamaq üçün bələdiyyə hüdudlarından kənara köçdükdə və ya başqa səbəblərdən öz bələdiyyə ərazisində bələdiyyə üzvlüyü vəzifəsini yerinə yetirə bilmədikdə bələdiyyə üzvlüyü səlahiyyətlərinin öhdəsindən götürülməsi haqqında ərizə verir. Bələdiyyənin növbəti yığıncağı bu ərizəyə baxıb müvafiq qərar qəbul edir və bu qərarı həmin bələdiyyə sakinlərinin nəzərinə çatdırır. Bələdiyyə üzvü hər hansı səbəbdən bələdiyyə üzvlüyündən çıxdıqda ərazidə müvafiq seçki keçirilir. Bələdiyyə üzvlərinin səlahiyyət müddəti seçkili bələdiyyə orqanının səlahiyyət müddəti ilə məhdudlaşır və onların öz səlahiyyətlərini maneəsiz həyata keçirməsi üçün qanunvericilikdə müxtəlif təminatlar nəzərdə tutulub. Bələdiyyə üzvünün səlahiyyətləri seçildiyi gündən başlayır və bələdiyyənin yeni tərkibinin işə başladığı gün qurtarır. Bələdiyyənin nizamnaməsinə uyğun olaraq, onlar öz səlahiyyətlərini daimi əsaslarla icra edə bilərlər.

Bələdiyyə sədri bələdiyyə üzvlərinin yarıdan çoxunun səs çoxluğu ilə seçilir. Bələdiyyənin sədri və onun müavinləri tutduğu vəzifədən vaxtından əvvəl azad edilə bilər. Bələdiyyə sədri əmr və sərəncamlar verir, bələdiyyənin qərarlarını imzalayır. Sədrin müavini ona aid edilmiş məsələləri həll edir, sədr olmadıqda onu əvəz edir. Bələdiyyə üzvünün barəsində məhkəmənin qanuni qüvvəyə minmiş hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qərarı olduqda, məhkəmə tərəfindən fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyətliliyi müəyyən edildikdə, Azərbaycan Respublikasının vətəndaşlığından çıxdıqda, başqa dövlətin vətəndaşlığını qəbul etdikdə və ya digər dövlət qarşısında öhdəlik götür-

dükdə, vəfat etdikdə, məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə onun səlahiyyətləri itirilir. Bələdiyyə üzvünün səlahiyyət müddəti bitdikdə onun səlahiyyətinə xitam verilir. Səlahiyyət müddəti bitməmiş bələdiyyə üzvünün səlahiyyətlərinə seçkilər zamanı səslər düzgün hesablanmadıqda, öz arzusu ilə bələdiyyə üzvlüyündən çıxmaq barədə ərizə verdikdə, bələdiyyə üzvlüyünə namizədlər üçün qanunla müəyyən edilmiş tələblərə uyğun gəlmədiyi aşkar edildikdə, qanunverici, icra və məhkəmə hakimiyyəti orqanlarında məsul vəzifə tutduqda, dörd aydan artıq müddətə xəstəliyi ilə əlaqədar vəzifəsini yerinə yetirməsinin qeyri-mümkünlüyü barədə məhkəmə tərəfindən təşkil edilmiş xüsusi həkim komissiyasının rəyi olduqda, bələdiyyə nizamnaməsində göstərilən müddətdə bələdiyyə iclaslarını üzrsüz səbəbdən buraxdıqda xitam verilə bilər. Bələdiyyə üzvlərinin səlahiyyətlərinə xitam verilməsi və itirilməsi məsələləri sadə səs çoxluğu ilə həll edilir.

Bələdiyyə üzvlərinin fəaliyyəti bələdiyyə qulluğu hesab olunmur. Bələdiyyə üzvlərinin bələdiyyə qulluqçusu hesab olunmamasına səbəb onların seçilməsidir. Mövcud konsepsiyaya görə, onlar seçilməklə birbaşa yerli əhalidən mandat əldə edirlər və buna görə də bələdiyyəni idarə etmək hüququ onlara məxsusdur. Onların işi müvəqqəti olaraq icrası onlara tapşırılmış ictimai iş hesab olunur. «Bələdiyyə qulluğu haqqında» 30 noyabr 1999-cu il tarixli qanuna görə, yerli özünüidarə orqanlarına təyin olunmaqla vəzifə tutan və ödənişli əsaslarla xidmət göstərən şəxs bələdiyyə qulluqçusu hesab olunur. Bələdiyyə sədri və bələdiyyənin icra aparatı struktur bölmələrinin rəhbərləri bələdiyyə qulluğu ilə bağlı təşkilati rəhbərliyi həyata keçirir və ixtisasartırma sahəsində işin

təşkili, bələdiyyə qulluqçularının yerdəyişməsi ilə bağlı təkliflər verilməsi, bələdiyyə tərəfindən qəbul edilmiş qərarların icra edilməsi ilə əlaqədar vəzifələr daşıyırlar. Xidmət, iqitsadi və sosial inkişaf proqramları ilə bağlı strukturlar istisna olmaqla, digər qulluqçuları bələdiyyə sədri birbaşa özü təyin edir. Bələdiyyə qulluqçularının aşağıdakı hüquqları vardır: işə qəbul etmək və işdən azad etmək səlahiyyətinə malik olan vəzifəli şəxsdən öz xidməti vəzifələrinin yazılı surətdə təsbit edilməsini və onların həyata keçirilməsi üçün zəruri şərait yaradılmasını tələb etmək; vəzifə səlahiyyətlərinin yerinə yetirilməsi üçün müvafiq orqan, idarə və təşkilatlardan zəruri məlumat və sənədləri almaq; səlahiyyətləri daxilində məsələlərin baxılmasında və onların həllində iştirak etmək; həmkarlar ittifaqları yaratmaq, onlara daxil olmaq və onları təmsil etmək; ixtisas dərəcəsini və peşə hazırlığını artırmaq; bələdiyyə qulluğunun təkmilləşdirilməsi üzrə təkliflər vermək; öz hüquq və azadlıqlarının müdafiəsinin təminatını tələb etmək. Onların vəzifələri isə bunlardır: öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etmək; qanunvericilikdə müəyyənləşdirilmiş müddətdə və qaydada vətəndaşların, müəssisə, idarə və təşkilatların müraciətlərinə baxmaq; rəhbərliyin qəbul etdiyi qərar və sərəncamları qanunvericilik çərçivəsində yerinə yetirmək; əmək və icra intizamına riayət etmək; yerli icra hakimiyyətinin müvafiq strukturları ilə fəaliyyətlərini əlaqələndirmək və yerli problemlərin həllində qarşılıqlı fəaliyyət göstərmək. Bələdiyyə qulluqçularına qanunverici, icra və məhkəmə orqanlarında vəzifə tutmaq, vəzifəsinin icrası ilə bağlı ona bəlli olan məlumatdan xidməti vəzifədən kənar məqsədlər üçün istifadə etmək qadağan edilir. Bələdiyyə qulluq-

çularına qanunvericilikdə nəzərdə tutulduğundan əlavə, bələdiyyənin maliyyə imkanları çərçivəsində müavinətlər, konpensasiyalar verilə bilər. Bələdiyyə nizamnaməsində qulluqçulara digər zəmanətlər və imtiyazlar verilməsi nəzərdə tutula bilər. Bələdiyyənin səlahiyyət müddətinin qurtarması bələdiyyə qulluqçularının vəzifədən azad edilməsi üçün əsas ola bilməz. Bələdiyyə qulluqçularının hərəkətlərindən bələdiyyələrin struktur bölmələrinin rəhbərlərinə və məhkəməyə şikayət vermək olar. Bələdiyyə qulluqçuları arasında tabeçilik əlaqələri olur. Onlar bələdiyyəyə və bələdiyyənin təyin olunan vəzifəli şəxslərinə aidiyyəti üzrə tabedirlər.

§ 4. Yerli özünüidarəetmənin səlahiyyətləri

Yerli özünüidarəetmə orqanları müxtəlif səlahiyyətlərə malikdir. Bu səlahiyyətlər vasitəsilə bələdiyyələr onlara aid funksiyaları yerinə yetirirlər. Yerli özünüidarəetmə orqanlarının əsas səlahiyyətləri Konstitusiyanın 144-cü maddəsində təsbit olunmuşdur. Bu maddədə göstərilir ki, yerli özünüidarəetmə orqanları, yəni bələdiyyələr:

- bələdiyyə üzvünün səlahiyyətlərinin tanınması, qanunla müəyyən edilmiş hallarda onların səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi;
- bələdiyyə reqlamentinin təsdiq edilməsi;
- bələdiyyə sədrinin və onun müavinlərinin, daimi və başqa komissiyaların seçilməsi;
- yerli vergilərin və ödənişlərin müəyyən edilməsi;
- yerli büdcənin və onun icraatı haqqında hesabatın təsdiq edilməsi;
- bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam vermə;

- yerli sosial müdafiə və sosial inkişaf proqramlarının qəbul və icra edilməsi;
- yerli iqtisadi inkişaf proqramlarının qəbul və icra edilməsi;
- yerli ekoloji proqramların qəbulu və icra edilməsi səlahiyyətlərini həyata keçirir.

Bundan başqa, bələdiyyələrə qanunvericilik və icra hakimiyyəti tərəfindən də əlavə səlahiyyətlər verilə bilər və onların həyata keçirilməsi üçün müvafiq orqan maliyyə vəsaiti ayırmalıdır. Göründüyü kimi, səlahiyyətlər dairəsi tam dəqiqləşdirilməyib. Əvvəla, qanunverici və icra hakimiyyəti orqanları onlara səlahiyyət verə bilər. İkincisi, qanunvericilikdə əsas səlahiyyətlərin realizə edilməsi üçün əlavə səlahiyyətlər də vardır. Hüquq ədəbiyyatında mövcud fikirlərə görə, dövlət orqanının bütün imkanlarını onun səlahiyyəti hesab etmək olmaz. Bunun üçün həmin imkan orqanın funksiyasını yerinə yetirməklə, onun xarici fəaliyyəti ilə birbaşa bağlı olmalıdır. Əgər qanunla verilən imkan daxili təşkilatlanma ilə bağlıdırsa, o, səlahiyyət hesab olunmamalıdır. Bu nöqteyi-nəzərdən çıxış etsək, Konstitusiyanın 144-cü maddəsinin 1-ci, 2-ci və 3-cü bəndlərini səlahiyyət kimi istisna etmək lazım gələcəkdir, çünki onlar birbaşa daxili təşkilati məsələlərə həsr olunub. Yerli özünüidarəetmənin səlahiyyətlərindən görünür ki, onlara verilən səlahiyyətlər yalnız sosial-iqtisadi və ekoloji sahədə fəaliyyət göstərmək üçündür. Bu səlahiyyətlər həm də bələdiyyənin özünü maliyyələşdirməsi üçün əsas kimi çıxış edir (xüsusilə də yerli vergi, büdcə və bələdiyyə mülkiyyəti ilə bağlı səlahiyyətlər). Yerli büdcə və bələdiyyə mülkiyyəti ilə bağlı səlahiyyətlərin tam realizə edilməsi üçün xüsusi mexanizm tələb olunur və buna görə də ayrıca qanunlar qəbul olunmuşdur. Belə

ki, hazırda «Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında», «Bələdiyyələrin əraziləri və torpaqları haqqında», «Bələdiyyələrin maliyyəsinin əsasları haqqında» bir sıra qanunlar qəbul edilmişdir. Digər səlahiyyətlər «Bələdiyyələrin statusu haqqında» qanununla tənzimlənir. Həmin qanunun 4-cü maddəsində yerli sosial müdafiə və sosial inkişaf proqramlarının qəbulu və icrası səlahiyyəti dəqiqləşdirilir. Göstərilir ki, bu proqramlar vətəndaşlar kateqoriyasına dövlət sosial təminatından əlavə sosial təminatlar müəyyən edir və onlar birdəfəlik və ya mütəmadi ola bilər. Bu proqramlarda məqsəd dövlətin həyata keçirdiyi sosial inkişaf proqramalarında nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli sosial inkişaf məsələlərini həll etməkdir. Həmin proqramlar məktəblərdə tərbiyə, təhsil, səhiyyə, mədəniyyət, yaşayış və qeyri-yaşayış binalarının saxlanılması və istifadə edilməsi, sanitariya müəssisələrinin təşkili, saxlanılması və inkişafı, mənzil tikintisi, yerli əhəmiyyətli su mənbələrindən istifadə, su təchizatının və kanalizasiya təsərrüfatının təşkili, saxlanılması və inkişafı, yanacaq təchizinin və satışının təşkili, yerli əhəmiyyətli yolların tikilməsi və saxlanılması, mərasim xidmətlərinin təşkili və qəbiristanlıqların qorunması, yerli nəqliyyat və rabitə xidmətinin təşkili, ticarət, ictimai iaşə və məişət xidmətinin təşkilinə şərait yaradılması, mədəniyyət müəssisələrinin inkişafına yardım göstərilməsi, tarix və mədəniyyət abidələrinin saxlanılması, kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün şərait yaradılması, kimsəsizlərə, xəstələrə, qocalara, maddi imkansızlara, valideyn himayəsindən məhrum olmuş, həmçinin istedadlı uşaqlara əlavə yardım göstərilməsi, əhalinin məşğulluğuna, adamların peşələri üzrə işlə təmin

olunmasına kömək göstərilməsini və yerli infrastrukturun digər sahələrini əhatə edə bilər.

Yerli iqtisadi proqramlarda da məqsəd eynidir və bu proqramlar da aqrar, sənaye, rabitə, nəqliyyat və digər sahələri əhatə edə bilər. İqtisadi inkişaf proqramlarında bələdiyyə torpaqlarından və dövlətin bələdiyyələrə verdiyi əmlakdan səmərəli istifadə yolları göstərilir. İqtisadi səlahiyyətlərin tərkib hissəsi kimi, qanunvericilikdə bələdiyyələrin öz hüquqi şəxslərini yaratması hüququ da nəzərdə tutulur. Bələdiyyələr yerli əhalinin mənafeyi naminə xarici iqtisadi fəaliyyətlə də məşğul ola bilərlər.

Ekoloji proqramlara yerli şəraitdə mövcud olan ekoloji tarazlığın qorunub saxlanılması, bələdiyyə ərazisinin yaxşılaşdırılması və abadlaşdırılması, məişət tullantılarının toplanması və emalı, suyun, havanın, torpağın hər cür çirklənmədən qorunması, qonşu bələdiyyələrlə birgə ekoloji tədbirlərin həyata keçirilməsi və yerli əhəmiyyətli digər tədbirlər daxil edilə bilər.

Yerli vergi və ödənişlərin müəyyən edilməsi səlahiyyəti həm də belə vergilərin yığılması imkanını bildirir. Bu vergi və ödənişlər yerli büdcənin gəlirlərini təşkil edirlər. Vergilərin vətəndaşların vəziyyətinə mənfi təsir etməsi imkanı nəzərə alınaraq, bu səlahiyyətdən istifadə qaydası bir qədər mürəkkəbləşdirilmişdir. Belə ki, Konstitusiyanın 145-ci maddəsinin III hissəsinə görə, yerli vergi və ödənişlərlə bağlı qərarlar bələdiyyə üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul olunur. «Bələdiyyələrin statusu haqqında» qanunun 43-cü maddəsinə görə, bələdiyyələr yerli rəy sorğusu yolu ilə vətəndaşların yığıncaqlarında və ya bələdiyyələrin rəyini nəzərə almaqla yerli əhəmiyyətli məsələlərin maliyyələşdirilməsi üçün sakinlərdən kö-

nüllü surətdə birdəfəlik vəsait verilməsini müəyyənləşdirə bilərlər.

Bütün vergilər və s. gəlirlər bələdiyyənin büdcəsinə daxil olur. Bələdiyyələr ölkə qanunvericiliyini nəzərə almaqla yerli vergilərin ödənilməsində güzəştlər də müəyyən edə bilərlər. Bələdiyyələr öz ərazisində hasil edilən təbii ehtiyatların istifadəçilərindən haqq alırlar.

Bələdiyyə mülkiyyəti yerli vergiləri, ödənişləri, vəsaitləri, büdcədənkənar fondları, bələdiyyə əmlakını, torpaqlarını, müəssisələrini, təşkilatlarını, bələdiyyə mənzil fondlarını və qeyri-yaşayış binalarını, dövlət və xüsusi mülkiyyətdə olmayan yolları, bələdiyyə təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrini əhatə edən daşınar və daşınmaz əmlakdan ibarət çox geniş bir anlayışdır. Bələdiyyə öz mülkiyyət obyektlərini fiziki və hüquqi şəxslərin daimi və ya müvəqqəti istifadəsinə verə bilər. Qanunauyğun olaraq bələdiyyələr yerli əhalinin mənafeyi naminə bələdiyyənin hüdudları daxilində olan torpaqlardan istifadə qaydalarını müəyyənləşdirə bilərlər. Bələdiyyə mülkiyyətinin istifadəsi qaydasını bələdiyyə və ya əhali özü müstəqil müəyyənləşdirir. Bələdiyyə mülkiyyətindən ancaq onun öz məqsədləri üçün istifadə oluna bilər. «Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında» qanuna görə, bələdiyyə əmlakının yaranma mənbələrinə qanunla ona verilən dövlət əmlakı, bələdiyyə fəaliyyəti nəticəsində əldə olunan və ya yaradılan əmlak, fiziki və hüquqi şəxslərin, beynəlxalq təşkilat və fondlar tərəfindən maddi yardım şəklində verilən əmlak, varisi olmayan və bələdiyyələrə keçməsi yolu ilə əldə olunan əmlak, bələdiyyələrə vəsiyyət edilən əmlak aiddir. Dövlət ilk növbədə bələdiyyələrin mülkiyyətinə onların fəaliyyətini təmin etmək üçün lazımi inzibati binalar, otaqlar

və avadanlıqlar verir. Əmlak bələdiyyə mülkiyyətinə (o əmlakdan istifadə üçün imkan yarandıqda) bələdiyyənin müraciəti əsasında verilir.

Bələdiyyənin ən vacib və onun müstəqilliyində mühüm əhəmiyyət kəsb edən səlahiyyəti bələdiyyənin yerli büdcə və onunla bağlı hesabatı təsdiq etmək səlahiyyətidir. Yerli büdcələr bələdiyyə büdcələrindən ibarətdir. Yerli büdcələrin formalaşdırılmasını, təsdiqini və istifadə olunmasını, onların icrasına nəzarəti bələdiyyələr müstəqil həyata keçirir. Yerli büdcələrin mədaxil və məxaric hissələrində yerli əhəmiyyətli məsələlərin həllinin və bələdiyyələrə icra hakimiyyəti tərəfindən verilən səlahiyyətlərin həyata keçirilməsinin maliyyələşdirilməsi ayrılıqda nəzərdə tutulur. «Bələdiyyələrin maliyyəsinin əsasları haqqında» qanununa görə, bələdiyyə maliyyəsinin iqtisadi əsaslarını bələdiyyə əmlakı, bələdiyyə torpaqları, yerli büdcə və büdcədənkənar fondlar, bələdiyyənin istehsal, xidmət və digər iqtisadi fəaliyyəti təşkil edir. Maliyyə vəsaitinin formalaşması və istifadəsi özünüidarəetmə, müstəqillik, aşkarlıq və yerli mənafenin respublika mənafeyi ilə uzlaşması prinsiplərinə əsaslanır. Vergilərdən başqa, büdcənin gəlirlərinə dövlət büdcəsindən verilən dotasiya və subvensiyalar, yardımlar, qrantlar və s. aiddir. Büdcənin xərclənməsi istiqamətləri də bələdiyyə tərəfindən müstəqil olaraq müəyyənləşdirilir. Yerli büdcə dövlət büdcəsinə daxil deyil və ona görə də dövlət məsuliyyət daşımır. Bələdiyyələr özünün hesablaşma və kassa əməliyyatlarının aparılması üçün müvəkkil bankı seçə və xəzinədarlığı yarada bilər. Bələdiyyələr öz büdcəsini tənzimləmək üçün dövlət büdcəsindən vəsait almaq hüququna malikdirlər. Bununla yanaşı, qanunvericilikdə yerli

büdcənin icrası ilə əlaqədar hesabatın təsdiq edilməsi mexanizmi (nəzarəti) yoxdur.

Yerli büdcələrin mədaxil hissəsi Azərbaycan Respublikasının dövlət büdcəsi qəbul edilərkən müvafiq bələdiyyələr üçün nəzərdə tutulur.

Bələdiyyələr özünün daxili fəaliyyətini nizamnamə ilə tənzimləyir. Bələdiyyə nizamnaməsində onun qanunla müəyyən edilmiş hüdudları və tərkibi, bələdiyyə orqanlarının adları, strukturu, səlahiyyətləri və formalaşdırılması qaydası, seçkili vəzifəli şəxslərin səlahiyyət müddəti, bələdiyyə aktlarının qəbul edilməsi və qüvvəyə minməsi qaydası, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin məsuliyyətinin əsas növləri, bələdiyyə üzvlərinin statusu, sosial təminatları, onların səlahiyyətlərinə xitam verilməsi qaydası, bələdiyyənin vəzifəli şəxslərinin hüquqları üçün təminatları, bələdiyyə qulluğunun təşkilinin şərtləri və qaydası, yerli özünüidarənin həyata keçirilməsinin iqtisadi və maliyyə əsasları, bələdiyyə mülkiyyətindən istifadə və sahiblik qaydaları və s. məsələlər öz əksini tapır. Bələdiyyənin nizamnaməsi dövlət qeydiyyatına alınır və bundan imtinaya yalnız o zaman yol verilir ki, onun nizamnaməsində Azərbaycan Respublikasının qanunvericiliyinə zidd müddəalar nəzərdə tutulmuş olsun. Bələdiyyənin nizamnaməsi qeydiyyata alındığı gündən qüvvəyə minir.

§ 5. Yerli özünüidarəetmənin təminatları

İstənilən hüquqi mexanizm, konstruksiya o zaman praktikada həyata keçirilir, işlək olur ki, bir neçə əsas şərti ödəmiş olsun. Bu şərtlərə hüquqi mexanizmin (konstruksiyanın) tələbata cavab verməsi (yaradıldığı məqsədə çatmaq üçün kifayət etməsi), onun realizə me-

xanizminin olması və təminatlar sistemi aiddir. Bu üç şərtdən birini ödəməyən istənilən hüquqi konstruksiya, institut əvvəl-axır tətbiq olunmayan ölü norma (institut, qanun və s.) kimi hüquq sistemindən kənarlaşdırılacaqdır. Deyilənlər bələdiyyələrə də aiddir. Bələdiyyələrin fəaliyyətinə təminat verən sistemin olmaması bu fəaliyyətin səmərəsiz olması deməkdir. Çünki kənar təsirlərdən, özünün daxili mənfi faktorlarından mühafizə olunmayan hər hansı institut getdikcə tətbiq olunma üçün yaramır və nəticədə qanunvericilik sistemində artıq yükə çevrilir. Yerli özünüidarəetmənin təminatları müxtəlifdir. Buraya hüquqi təminat, iqtisadi-maliyyə təminatı aiddir.

Bələdiyyələr hüququn müstəqil subyekti sayıldığına görə onlarla digər hüquq subyektləri arasında mübahisələr inzibati tabeçilik qaydasında həll edilə bilməz. Konstitusiyanın 146-cı maddəsinin birinci hissəsinə görə, bələdiyyələr öz səlahiyyətlərini həyata keçirməkdə müstəqildirlər, bu isə bələdiyyə ərazisində yaşayan vətəndaşlar qarşısında onların məsuliyyətini istisna etmir. 146-cı maddənin beşinci hissəsinə görə isə, bələdiyyələrlə bağlı istənilən mübahisə məhkəmələr tərəfindən həll edilir. Məhkəmələr müstəqil orqanlar olduğuna görə hər iki tərəfin faktlarını obyektiv qiymətləndirməli və qərar çıxarmalıdırlar. Bu isə mübahisənin həll olunması zamanı mümkün bürokratik həmrəyliyi (bir orqanın digər orqanla eyni bir sistemə aid olmasına görə onun tərəfini saxlaması) müəyyən qədər istisna edir. Konstitusiyanın 146-cı maddəsində göstərilir ki, bələdiyyələrin məhkəmələr tərəfindən müdafiəsinə, dövlət orqanlarının qərarları nəticəsində yaranan əlavə xərclərin ödənilməsinə təminat verilir. Lakin bələdiyyələrin məhkəmə qaydasında müdafiəsi mümkün mübahisələr üçün nəzərdə tutulur. Bələdiyyə-

nin gündəlik fəaliyyətində isə daima mübahisələr baş vermir. Onların arasıkəsilməz, daimi fəaliyyətini də təminat altına almaq lazımdır. Bələdiyyələrin bir növ dövlət orqanları tərəfindən immuniteti var. Onların fəaliyyətinin tam həyata keçirilməsi və dövlət orqanlarının yersiz müdaxilələrinin qarşısını almaq üçün, «Bələdiyyələrin statusu haqqında» qanunun 47-ci maddəsinə görə, yerli özünüidarənin qanunla müəyyənləşdirilmiş hüquqları məhdudlaşdırıla bilməz. Yalnız konstitusion quruluşun qorunması, ölkənin müdafiəsinin və dövlətin təhlükəsizliyinin təmin edilməsi məqsədilə vətəndaşların yerli özünüidarə hüququ qanuna əsasən dəqiq müəyyənləşdirilmiş müddətə məhdudlaşdırıla bilər. Məhdudlaşdırma ilə bağlı müddətin müəyyən edilməsi tələbi ondan irəli gəlir ki, dövlət orqanları məhdudlaşdırmadan sui-istifadə edə bilməsinlər. Bundan başqa, bələdiyyələrin qərarları məcburidir. Bələdiyyənin öz səlahiyyəti daxilində qəbul etdiyi qərar təşkilati-hüquqi formasından asılı olmayaraq, bələdiyyənin ərazisində yerləşən bütün hüquqi və fiziki şəxslər tərəfindən hökmən icra olunmalıdır. Bələdiyyənin qərarları onların özləri, eyni zamanda Azərbaycan Respublikasının Konstitusiyasının 130-cu maddəsinin 5-ci bəndinə əsasən Konstitusiya Məhkəməsi tərəfindən ləğv edilə bilər. Bununla yanaşı, bələdiyyələrin bu imkanlarından sui-istifadə etməməsi üçün, qanunun birbaşa göstərişinə görə, bələdiyyənin qəbul etdiyi qərarlar onun ərazisində yerləşən hüquqi və fiziki şəxslərin hüquq və səlahiyyətlərinin pozulmasına yönəldilə bilməz. Bələdiyyə qərarlarının icra edilməməsi məsuliyyətə səbəb olur. Bələdiyyələrin digər təşkilatlara göndərdiyi sorğu və müraciətlərə bir ay müddətində cavab verilməlidir. Bələdiyyələr müəyyən ərazilərdə yaradılır və bələdiyyənin ərazisinin daxili bölgüsü

ola bilər. Müəyyən bir ərazidə onun bölgüsündə dəyişiklik edilərsə, həmin ərazidə yerləşən bələdiyyənin rəyi nəzərə alınmalıdır. Bələdiyyənin ərazisində başqa bələdiyyə qurumu da ola bilər. Bu zaman onlar arasında tabeçilik predmetlərinin və səlahiyyətlərinin həddi qanunla həyata keçirilir.

Bələdiyyələrin fəaliyyətinin maliyyələşdirilməsi xüsusi əhəmiyyətə malikdir. Bu maliyyə bələdiyyə müstəqilliyinin real təminatlarından biridir. Buna görə də bələdiyyələrin maliyyə fəaliyyətinin təmin edilməsinə qanunvericilikdə xüsusi diqqət yetirilir. Dövlət orqanları bələdiyyələrə icra etmək üçün müəyyən səlahiyyətlər həvalə edərsə, həmin səlahiyyətlərin icrasına çəkiləcək maliyyə xərclərini də təmin etməlidir. Bələdiyyə mülkiyyətindən gələn gəlir onun büdcəsinə daxil olur və bu gəlir üzərində ancaq bələdiyyə sərəncam verə bilər. Bələdiyyə büdcəsinə müdaxilə yalnız qanunla nəzərdə tutulmuş hallarda mümkündür. Yerli büdcəyə dövlət zəmanət verir. Bu zəmanət investisiya və pul-kredit siyasəti əsasında istehsal sahəsinin inkişafına şərait yaratmaqdan və yerli sosial-iqtisadi inkişafı, yerli büdcə gəlirləri hesabına maliyyələşdirmək mümkün olmadıqda, yerli büdcə kəsirini ödəmək üçün dövlət büdcəsinin imkanlarını nəzərə alaraq əlavə gəlir mənbələrinin müəyyən edilməsi və ya dövlət büdcəsindən dotasiya və subvensiyaların ayrılmasından ibarətdir. İcra hakimiyyəti orqanlarının qəbul etdikləri qərarlar nəticəsində yerli büdcə gəlirlərinin azalması və ya xərclərinin artması baş verərsə, uyğun azalma və ya artma məbləğləri bu qərarları qəbul edən orqanlar tərəfindən kompensasiya olunur. Bələdiyyə yerli büdcənin icrasına, o cümlədən sərf edilən vəsaitin təsdiq edilmiş büdcə göstəricilərinə uyğunluğuna nəzarət edir və bunun

üçün müstəqil auditorları cəlb etmək hüququna malikdir. Qanunvericilik və icra hakimiyyəti orqanlarının bələdiyyələrə verdikləri səlahiyyətlərin həyata keçirilməsi üçün maliyyə vəsaitindən istifadəyə həmin orqanlar nəzarət edirlər. Yerli büdcələrin mədaxil hissəsi Azərbaycan Respublikasının dövlət büdcəsi qəbul edilərkən müvafiq bələdiyyələr üzrə hər il nəzərdə tutulur. Əgər yerli büdcənin mədaxil hissəsi göstərilən gəlir mənbələri hesabına minimum təmin edilə bilmirsə, onda Azərbaycan Respublikasının dövlət orqanları Azərbaycan Respublikasının dövlət büdcəsinin digər gəlir mənbələrini bələdiyyələrə verə bilərlər və bu zaman yerli büdcələrin əvvəlki ildən keçən sərbəst qalıqları hesaba alınmır. Qanunvericilikdə həm də bələdiyyələrin üzərinə dövlət tərəfindən qoyulmuş ümumi vəzifələrin yerinə yetirilməsi üçün təminatlar müəyyənləşdirilmişdir. Belə ki, bələdiyyələr onların məşğuliyyət dairəsinə aid edilmiş sahələrdə əhalinin əsas yaşayış tələbatının ödənilməsini dövlət sosial standartlarından aşağı səviyyədə təmin edə bilməzlər. Bu standartların yerinə yetirilməsində dövlət Azərbaycan Respublikasının vergilərinin və ayırmalarının müəyyən hissəsini yerli büdcələrin mədaxilinə təsbit etmək yolu ilə bələdiyyələrə kömək göstərə bilər.

§ 6. Bələdiyyə sistemləri

Bələdiyyə ərəb sözü olub «ölkə, ölkəni idarə edən yer» deməkdir. Bir çox Avropa dillərində bu sözün qarşılığı kimi «munisipiya» və ya «munisipalitet» sözü işlədilir. Latın mənşəli bu söz qədim Roma imperiyasında bizim eranın III əsrindən başlayaraq işlədilmişdir. Roma İmperiyasında İtaliyanın özündən kənarda yerləşən və ona tabe olan özünüidarəetmə hüququna malik şəhərlərə

(əhalisi qismən və ya tam həcmdə Roma vətəndaşlığını qəbul etmiş) munisipiya deyilirdi. O dövrdə şəhərlərin özünüidarə hüququ, indi qəbul olunduğu kimi, xalqın özünüidarəetmə hüququ ilə əlaqələndirilmirdi və təbiətinə görə demokratik təsisat deyildi. Bu yerli özünüidarəetmə zərurətdən doğurdu. Belə ki, İtaliya ərazisindən uzaqda yerləşən şəhərlərin mərkəzdən birbaşa idarə olunması çətinlik törədirdi və bu da yerli xarakterli işlərin idarə olunması üçün həmin şəhərlərə özünü idarə etmək imkanının verilməsini tələb edirdi.

Bələdiyyə bu anlayışın ümumi adıdır və müxtəlif dövlətlərdə fərqli şəkildə adlandırılır. Məsələn, İngiltərədə qraflıq şuraları, Fransada bələdiyyə şuraları (kommunalarda) və ümumi şuralar (departamentlərdə), İranda şura, Hindistanda pançayat və s. adlanır.

Bələdiyyələr məhz bu ideyaların həyata keçirilməsi zəminində ilk öncə Qərbdə yaranmış (çağdaş anlamda), sonralar müxtəlif ölkələrə yayılmışdır. Yerli özünüidarəetmə qədim tarixə malik olmasına baxmayaraq, özünüidarəetmənin demokratik vasitəsi kimi çox-çox sonralar formalaşıb. Bu mənada bələdiyyələr hüquqi dövlətə məxsus sosial təsisat, vətəndaş cəmiyyətinin qurulmasında vasitədir.

Bələdiyyələr və ya seçkili yerli özünüidarə orqanları yerli özünüidarəetmə sisteminin tərkib hissəsidir. Bu sistem yalnız bələdiyyələrlə məhdudlaşmır. Yerli özünüidarəetmə sisteminə lokal xarakterli məsələləri əhalinin özü tərəfindən həll etməyə imkan verən üsul və vasitələr, o cümlədən yerli referendum, yerli seçkilər və s. aiddir. Bələdiyyələr özü bir sistem kimi müstəqildir və dövlət orqanları sisteminə birbaşa daxil deyil. Bələdiyyələrin öz aralarında iyerarxiya münasibətləri yoxdur. Bu o demək-

dir ki, hər hansı bir bələdiyyə daha yuxarı inzibati-ərazi vahidinin bələdiyyəsinə tabe deyil. Bu muxtariyyat bələdiyyə fəaliyyətinin xarakterindən irəli gəlir. Bütün bunlar bələdiyyə sistemini tərkib ünsürləri bir-birindən asılı olmayan qeyri-üzvi sistem kimi xarakterizə etməyə imkan verir. Bələdiyyə idarəçiliyi sistemi həm seçkili orqanları, həm də onlara tabe olan yerli inzibati xidməti əhatə edir. Bələdiyyədə çalışan işçilərin əmək haqları, əsasən, yerli büdcədən ödənilir.

XX əsrin II yarısından başlayaraq müasir Avropada bir müddət bələdiyyələrlə bağlı iki konsepsiya - etatizasiya və dualizm konsepsiyaları mövcud olmuşdur. Etatizasiya (dövlətiləşdirmə) konsepsiyasına görə, bələdiyyələrin formalaşdırılmasında prinsipial fərqlər yoxdur və onlar əslində dövlət orqanlarının funksiyalarını yerinə yetirirlər. Bu konsepsiyaya görə, dövlət orqanları funksiyalarının ikiləşməsinin qarşısını almaq və daha səmərəli fəaliyyətə nail olmaq məqsədiylə bələdiyyələr ya ləğv olunmalı, ya da səlahiyyətləri məhdudlaşdırılmalıdır. Dualizm konsepsiyası bələdiyyələrin xüsusi statuslu orqan olmasını qəbul edir, habelə ümummilli mənafelərin qorunması üçün dövlət orqanlarının onların fəaliyyətinə müdaxiləsini tanıyır. Bu konsepsiyaya görə, idarəçilik getdikcə daha çox mürəkkəbləşən və xüsusi bilik tələb edən fəaliyyət növüdür. Qeyri-peşəkarlardan ibarət olan bələdiyyələrin fəaliyyətində isə bu amil nəzərdən qaçırılır. Bunun qarşısını almaq üçün dövlət orqanları bələdiyyə fəaliyyətinə müdaxilə etməlidirlər.

Bələdiyyə sisteminin təsnifatı üçün onun mərkəzi icra hakimiyyəti ilə qarşılıqlı münasibətləri və hansı inzibati-ərazi vahidində təşkil olunması meyar kimi götürülür.

Çağdaş dövrümüzdə bu əsaslarla 2 əsas və ümumi bələdiyyə sistemi fərqləndirilir:

1) Anqlo-sakson bələdiyyə sistemi. Bu bələdiyyələr, demək olar ki, bütün ərazi qurumlarında təşkil olunur. Bu sistemdə bələdiyyələrin fəaliyyətinə nəzarət etmək üçün xüsusi hakimiyyət nümayəndəsi yoxdur. Bələdiyyə sisteminə nəzarət icra hakimiyyətinin ayrı-ayrı sahələrin idarəçiliyi ilə məşğul olan ixtisaslaşmış orqanları vasitəsilə həyata keçirilir. Bu sistemdə nəzarətin bir forması kimi bələdiyyənin hüquqi vəziyyətini nizamlayan statuslara icra hakimiyyəti orqanlarının əlavələr etməsi imkanı vardır. Hökumət nəzarətinin digər forması bələdiyyələrin seçdiyi yerli məmurların müvafiq mərkəzi departamentdə təsdiq olunmasıdır. İngilis qraflıqlarında bələdiyyə nəzarətini Daxili İşlər Nazirliyinə tabe olan 2 məmur həyata keçirir. Ümumilikdə isə yerli özünüidarəetmənin təşkilinə nəzarəti Ətraf Mühitin Mühafizəsi Nazirliyi həyata keçirir. Bu nazirlik digər mərkəzi departamentlərlə nəzarət fəaliyyətinin koordinatoru kimi çıxış edir. Nəzarətin digər spesifik forması 1974-cü il qanununa görə, yerli idarəçilik administrasiyası üzrə komissarlığın formalaşdırılmasıdır. Bu qanunla İngiltərə və Uelsin yerli administrasiya üzrə 2 komissiyası təsis olunmuşdur. Maliyyə fəaliyyətinə nəzarət auditorlar vasitəsilə həyata keçirilir.

Anqlo-sakson bələdiyyə sistemi kollegial seçkili orqanı və peşəkar idarəçiliyi birləşdirən mürəkkəb forma kimi çıxış edir. Böyük Britaniyada və ABŞ-də nümayəndəli və icra hakimiyyəti orqanları arasında bütün konkret münasibətlər bələdiyyə sisteminin vahid strukturu kimi çıxış edir. Bu mənada hakimiyyətin bölünməsi prinsipi bu dövlətlərin bələdiyyə sisteminə şamil edilmir. Bu sistem-

də bələdiyyə üzvləri əvvəl çalışdıqları yerlərdə xidməti statuslarını saxlamış olurlar.

2) Avropa bələdiyyə sistemi. Bu sistemə mərkəzi hökumət tərəfindən yerli özünüidarə fəaliyyətinə nəzarət institutunun yaradılması, bir çox hallarda yerli idarəçiliklə yerli özünüidarəetmənin qovuşması, müxtəlif iyerarxiya həlqəsinə aid olan dövlət idarəçiliyi ilə yerli idarəetmənin birləşdirilməsi xasdır. Bu sistem çərçivəsində nisbi müstəqil sistemlər kimi fransız və alman bələdiyyə sistemləri fərqləndirilir. Bəzən bunlar müstəqil bələdiyyə sistemləri şəklində ayrı-ayrılıqda təqdim olunurlar. Buna səbəb, anqlo-sakson sistemi də daxil olmaqla, aparılan bölgünün ayrı-ayrı ölkələrdəki milli bələdiyyə quruluşlarını tam əhatə edə bilməməsidir. Fransada bələdiyyələr 2 inzibati ərazi vahidlərində - departamentlərdə və kommunalarda fəaliyyət göstərir. Həm departament bələdiyyəsi olan ümumi şuraya, həm də kommuna bələdiyyəsi sayılan kommunal şuraya nəzarəti prezident tərəfindən təyin olunan prefekt həyata keçirir. O, Daxili İşlər Nazirliyinə tabedir və bələdiyyələr üzərində inzibati və intizam nəzarətini həyata keçirir.

AFR-də bələdiyyə orqanları icmalarda şəhər şurası, rayonlarda isə kraystaqdır. Burda bələdiyyələrə nəzarəti dairə başçıları həyata keçirir. AFR-də 4 bələdiyyə modeli mövcuddur:

a) Cənubi alman modeli. Bu model Baden-Vürtemberq və Bavariyada fəaliyyət göstərir. Burda bələdiyyələr vahid kollegiyada - bələdiyyə şurasında birləşirlər. Əhali proporsional sayda şura üzvlərini və şuranın sədrini - burqomisteri seçir. Burqomister bələdiyyədə üstün mövqeyə malikdir.

b) Magistrat modeli. Bu model Şlezviq-Holşteyn, Hessen və Bremen şəhərlərində mövcuddur. Burda bələdiyyənin əsas orqanı onun öz tərkibindən seçilən magistratdır. Magistrat-kollektiv orqan olmaqla, fəaliyyətinə görə əmək haqqı almayan şəxslərdən təşkil olunub.

c) Burqomister modeli. Bu model Saarda, Şlezviq-Holşteynin kənd icmalarında geniş yayılıb. Burqomister şura tərəfindən seçilir.

d) Şimali alman şurası sistemi. Bu sistem şimali Reyn-Vestfal və bir qədər dəyişik formada Aşağı Saksoniyada fəaliyyət göstərir. Bu sistem özündə şuranı, icma direktorunu, idarəçilik komitəsini əhatə edir.

Ümumiyyətlə, Avropa bələdiyyə sistemində yerli seçkili orqanlar üzərində nəzarət mühüm əhəmiyyətə malikdir. Tarixən bu nəzarət inzibati qəyyumluq formasında olmuş, hazırda isə inzibati nəzarət formasındadır. İnzibati qəyyumluq münasibətində yerli icra orqanının və ya icra hakimiyyəti başçısının qərarı olmadan bələdiyyənin qərarı qüvvəyə minmir. İnzibati nəzarətdə isə bələdiyyənin qərarı icra orqanına təqdim olunur, qısa müddətə etiraz olunmazsa, akt qüvvəyə minir. Çıxarılmış qərarın ancaq qanuniliyi yoxlanılır və o, yalnız məhkəmə qaydasında baxıla bilər. İnzibati qəyyumluq hal-hazırda Fransanın dənizaşırı departamentlərində nəzarətin forması kimi istifadə olunur. Belə ki, burada yerli hökumətin tövsiyyəsi ilə qubernator yanında yerli idarəçilik məsələlərinə nəzarət üzrə komissarlıq yaradılır. Bu komissarlığın razılığı olmadan yerli bələdiyyələrin aktları qüvvəyə minmir. O nəinki bələdiyyələri buraxa bilər, hətta özü qanun verə bilər. Müasir Avropada nəzarətin daha demokratik növü kimi inzibati nəzarətdən istifadə olunur.

Müasir dövrdə Avropada bələdiyyələr yerli icra hakimiyyətinin formalaşdırılmasında iştirak edir ki, onların da 3 forması fərqləndirilir:

1) Parlamentar forma. Yerli icra hakimiyyəti bələdiyyələrdən seçilir. Məsələn, İngiltərədə şəhər şuraları lordları, qraflıq şuraları isə nümayəndələri 1 il müddətinə seçirlər. Bilavasitə bələdiyyələr vasitəsi ilə yerlərdə icra hakimiyyətinin formalaşdırılmasına Belçika və Hollandiya parlamentar monarxiyaları misal ola bilər. Burada monarx bələdiyyə üzvlərindən birini icra hakimiyyətinin nümayəndəsi kimi təsdiq edir. İtaliyada bələdiyyələrin icra orqanı olan cuntanın başçısı - mer seçilir və yalnız icra fəaliyyəti ilə məşğul olur. Göründüyü kimi, İtaliyada dövlət idarəçiliyi ilə bələdiyyə idarəçiliyi birləşdirilmişdir. Fransa bələdiyyələrinin I sessiyasında gizli səsvermə yolu ilə icra hakimiyyətinə məxsus funksiyaları yerinə yetirən merlər seçilir. Elə bunun nəticəsidir ki, İtaliya bələdiyyəsində merlərə, İngiltərə bələdiyyəsində lordlara, Fransa kommunal şuralarında merlərə eyni zamanda həm bələdiyyə, həm də yerli dövlət idarəçiliyi sisteminin tərkib hissəsi kimi baxılır. Göstərilən ölkələrdə bələdiyyəyə icra hakimiyyəti tərəfindən ayrıca nəzarət institutunun olması da bələdiyyəyə nəzarəti gücləndirir.

2) Prezident forması. Həm bələdiyyələr, həm də yerli icra hakimiyyəti bilavasitə yerlərdən seçilir və bələdiyyə ilə yerli icra hakimiyyəti arasında tarazlıq yaradılır. Bu sistem Yaponiyada mövcuddur. Burda prefekturanın qubernatoru, şəhərin meri, kəndin başçısı icra hakimiyyəti nümayəndəsi olmaqla yerlərdə seçilir. Bununla yanaşı, bütün inzibati-ərazi vahidlərində bələdiyyələr də seçilir. Qubernator bələdiyyəni buraxa bilər. Eyni zamanda bələ-

diyyə qubernatoru əsaslandırılmış qərarla vəzifəsindən kənarlaşdıra bilər.

3) Qarışıq sistem. Bu sistemdə yerli icra hakimiyyəti seçilmir, yuxarıdan təyin olunur və bələdiyyəyə münasibətdə üstünlüyə malikdir.

Yerli idarəetmənin daha spesifik forması Braziliyada mövcuddur. Burda federasiyaların ərazi qurumu olan munisipiyalarda bələdiyyələr təşkil olunur. Yerlərdə bələdiyyələr həm qanunverici, həm də icra hakimiyyətini əhatə edir. Federasiya səviyyəsində qanunverici hakimiyyəti bələdiyyələrin tərkibindən seçilən şəxslərdən ibarət munisipal palata, icra hakimiyyətini isə munisipal prefekt həyata keçirir. Beləliklə, Braziliyada yerlərdə ancaq özünüidarəetmə fəaliyyət göstərir. Bir sıra İsveçrə kantonlarında da yerli idarəçilik əhalinin ümumi yığıncağı tərəfindən həyata keçirilir. Cari inzibati işləri isə bu yığıncaqlarda seçilən başçılar aparır. Polşada aşağı inzibati-ərazi vahidinin yerli özünüidarəetmə sistemiylə yuxarı inzibati-ərazi vahidinin dövlət yerli idarəçiliyi birləşdirilir. Polşanın əsas inzibati-ərazi vahidləri olan qminalarda yerli özünüidarə orqanı sovetdir. Sovet yerli əhali tərəfindən 4 il müddətinə seçilir. Daha sonra isə onun başçısı voyta seçilir ki, voyta sovetin üzvü olmaya da bilər. Sovetlərə dövlət nəzarətini daha yuxarı inzibati-ərazi vahidi olan voevodluğun nazirlər kabineti tərəfindən təyin olunan başçı - voevoda həyata keçirir.

Bələdiyyələrin səlahiyyətləri də ayrı-ayrı ölkələrdə fərqlənir. Bu səlahiyyətlər aşağıdakı kimi qruplaşdırılır:

1) Maliyyə-iqtisadi sahədə səlahiyyətlər. Bunların içərisində ən əsası yerli büdcənin təsdiqi və icrasıdır.

2) İctimai qaydanı mühafizə sahəsindəki səlahiyyətlər. Bu səlahiyyətlər heç də bütün bələdiyyələrdə olmur. Elə

dövlətlər var ki, orda bələdiyyələrin bu tip səlahiyyətləri yoxdur. Bu səlahiyyətlər cinayət-axtarış fəaliyyətiylə bağlıdır.

3) Ətraf mühitin mühafizəsi və kommunal xidmətlə bağlı səlahiyyətlər. Bu tip səlahiyyətlərə nəqliyyatın inkişafı, mənzil tikintisi, su təchizatı və s. məsələlər aiddir.

4) Sosial sahədəki səlahiyyətlər. Xeyriyyə fəaliyyəti, qəyyumluq, xəstəxana tikintisi bu növ səlahiyyətlərə aiddir.

Rusiya Federasiyasında bələdiyyələrə dövlət orqanları səlahiyyətlərinin verilməsi imkanı nəzərdə tutulmuşdur. Bu cür səlahiyyətlərdən irəli gələn məsələləri həyata keçirərkən bələdiyyələr faktiki olaraq dövlət orqanı kimi çıxış edir.

Rusiya bələdiyyələri həm də ictimai qaydanı mühafizə səlahiyyətlərinə malikdir. Bu tip səlahiyyətlərin bələdiyyələrə verilməsinin əleyhdarları qeyd edir ki, ictimai qaydanı mühafizə sırf dövlət orqanı funksiyasıdır. Bələdiyyələr isə qeyri-dövlət orqanı olduğundan və onlarla dövlət orqanlarının fəaliyyətinin biri-birindən maksimum ayrılması üçün bu tip səlahiyyətlər bələdiyyələrə verilə bilməz. Braziliyada isə bələdiyyələrə hətta ərazi qurumları yaratmaq imkanı verilmişdir ki, bu da onların dövlətin ərazi quruluşuna təsir etməklə miqrasiya zamanı ortaya çıxan əhali sıxlığının qeyri-bərabər paylanması problemini həll etməyə imkan verir. Bir sıra dövlətlərdə paytaxtın xüsusi əhəmiyyətinə görə paytaxt bələdiyyəsi xüsusi hüquqi statusa malik olur, onun səlahiyyəti digər bələdiyyələrdən fərqlənir. Məsələn, Paris bələdiyyəsinin bütün digər fransız bələdiyyələrindən fərqli olaraq, ictimai qaydanı mühafizə sahəsində səlahiyyətləri yoxdur. Rusiyada "naukoqrad" adlanan şəhərəbənzər bələdiyyə qurumu

mövcuddur ki, burada Rusiya Federasiyasının elmi-istehsal kompleksləri və intellektual potensialı cəmlənmişdir. Bu bələdiyyənin hüquqi statusu 18 dekabr 1998-ci il tarixdə qəbul olunmuş xüsusi federal qanunla nizamlanır.

Bələdiyyələrin fəaliyyəti forması da bir-birindən fərqlənir. Onlar, əsasən, sessiya formasında fəaliyyət göstərirlər. Məsələn, ABŞ-də onlar həftədə bir, iki həftədə bir, yaxud ayda bir dəfə sessiyalarını keçirir. İngiltərədə bələdiyyə ayda bir dəfə çağrılır. Daha yuxarı səviyyədəki inzibati-ərazi vahidinin bələdiyyəsi nisbətən az sessiya keçirir. Məsələn, İngiltərə qraflıqlarında bələdiyyə rübdə bir dəfə, Fransız departamentlərində ildə iki dəfə çağrılır. Bələdiyyələr öz fəaliyyətinin operativliyini təmin etmək məqsədilə daimi köməkçi orqanlar yaradır.

Demək olar ki, hər yerdə bələdiyyə seçkiləri majoritar qaydada, İtaliyada isə proporsional qaydada keçirilir. Türkiyədə bələdiyyəyə seçkilər qarışıq seçki sisteminə əsaslanır.

Bir sıra ölkələrdə bələdiyyələr ümumdövlət səviyyəsində birləşərək onların ümumi maraqlarını müdafiə edən orqan formalaşdırır. İranda bu hətta konstitusiyada öz əksini tapıb. Əyalətlərin Ali Şurası adı altında formalaşdırılan bələdiyyələrin ümumiran təşkilatı qanunvericilik təşəbbüsü hüququna malikdir və bələdiyyələrin fəaliyyətini bir-birilə əlaqələndirir.

Türkiyədə, ümumiyyətlə, yerli idarəçilik mürəkkəb sistem əmələ gətirir və Osmanlı İmperiyası dövründən formalaşmağa başlamışdır. Osmanlı İmperiyasının mövcud olduğu dövrdə bələdiyyələr İstanbul kimi böyük şəhərlərdə yaradılırdı və "şehiremaneti" (şəhərin əmanət olunduğu yer, orqan) adlanırdı. Türkiyədə bələdiyyələr yerli özünüidarə orqanlarından yalnız biri kimi qarşımıza

çıxmaqdadır. Ümumiyyətlə isə, müasir Türkiyədə yerli idarəetmənin 3 əsas forması vardır:

1) vilayətil idarəçiliyi;
2) bələdiyyə idarəçiliyi;
3) köy (kənd) idarəçiliyi.

Vilayət-il idarəçiliyi Osmanlı dövründə yaradılmışdır. İdarəetmənin bu formasını bələdiyyə idarəetməsindən fərqləndirən başlıca əlamət onun başçısının-valinin mərkəzi idarənin təmsilçisi olmasıdır. O həm vilayət idarəetməsinə başçılıq edir, həm də yerlərdə mərkəzi hökuməti təmsil edir.

Bələdiyyə idarəçiliyi 30-cu illərdə qəbul olunmuş normativ aktlar bazasına əsaslanır. Burada əhalisi 2500 nəfərdən artıq olan inzibati-ərazi vahidlərində bələdiyyələr yaradılır. Bələdiyyələr özü də yaradıldığı şəhərdən asılı olaraq 2 növə bölünür: a) böyükşəhər bələdiyyəsi; b) normal bələdiyyə.

Böyükşəhər bələdiyyələri böyük şəhər hüquqi statusunu almış İstanbul, Ankara, İzmir kimi iri və inkişaf etmiş sənaye mərkəzlərində yaradılır.

Bütün digər şəhərlərin bələdiyyələri normal bələdiyyə hesab olunur. Bu bələdiyyələrin hüquqi statusunda prinsipial fərqlər yoxdur, amma maliyyə məsələlərində, mərkəzdən dotasiya ayrılması zamanı böyükşəhər bələdiyyələri üstünlük əldə edir. Bələdiyyələrlə bərabər, yerlərdə mərkəzi hakimiyyəti təmsil edən və təyin olunan icra başçıları - kaymakamlar fəaliyyət göstərir. Bələdiyyə seçkili orqan olsa da, müəyyən əsaslar olduqda (məsələn, fəaliyyətinin dövriliyi pozulduqda) Danıştay adlanan və inzibati mübahisələrə baxan yüksək məhkəmə tərəfindən buraxıla bilər. Göründüyü kimi, Türkiyə bələdiyyələrinə həm də məhkəmə orqanları nəzarət edir. Bələdiyyələrin

daimi icra orqanı bələdiyyə əncümənidir. Bələdiyyə rəisi birbaşa seçkilərlə seçilir. Bələdiyyə rəisi seçkili orqanın fəaliyyətində əsas rola malikdir. Bundan başqa, bələdiyyənin daha bir orqanı - bələdiyyə məclisi (bələdiyyə üzvlərinin ümumi yığıncağı) mövcuddur. Türkiyədə bələdiyyələr geniş səlahiyyətlərə malikdir. Bələdiyyəyə nəzarətin daha bir forması onun büdcəsinin Daxili İşlər Nazirliyində təsdiq olunmasıdır. Bələdiyyələrin bu və ya buna bənzər səbəblərlə mərkəzi hakimiyyət orqanlarının inzibati nəzarətinə tabe edilməsi hal-hazırda Türkiyədə yerli özünüidarəetmə prinsipinə zidd bir tendensiya kimi dəyərləndirilməkdədir. Buna qarşı irəli sürülən əsas arqument isə yerli özünüidarə orqanları üzərində nəzarətin yalnız məhkəmə nəzarəti olması fikridir. Bu prinsip həm də yerli özünüidarəetmə haqqında Avropa Xartiyasından irəli gəlməkdədir. Köy idarəetməsini kənddən seçilən seçkili orqan və onun icra orqanı - muxtarlar həyata keçirir.

X BÖLMƏ
DÖVLƏT VƏ HÜQUQ

§ 1. Sistemin nəzəri əsasları

Azərbaycan Respublikası Konstitusiyasının beşinci bölməsi «Hüquq və qanun» adlanır. Bu cür bölmə əvvəlki konstitusiyada, ümumiyyətlə yox idi. Burada dövlətin və ən əsas sosial nizamasalma vasitələrindən biri olan hüququn qarşılıqlı münasibətlərindən söhbət gedir. Bu da təsadüfi deyil. Hüquq yeganə nizamasalma vasitəsidir ki, dövlət onun vasitəsilə cəmiyyətə və onun ayrı-ayrı institutlarına təsir edir. Hüquqla qanun anlayışlarının bir-birindən fərqləndirilməsi Konstitusiyamızın söykəndiyi və qəbul etdiyi nəzəri əsaslardan - təbii hüquq nəzəriyyəsindən irəli gəlir. Məhz təbii hüquq nəzəriyyəsinə görə, qanun və dövlətin sanksiyalaşdırdığı hüquq normasından əlavə, onun uyğun gəlməli olduğu obyektiv mövcud olan hüquq norması da vardır. Bu aspektdə hüquq və qanun anlayışlarının fərqləndirilməsi özünü doğruldur. Bundan fərqli olaraq, pozitiv hüquq nəzəriyyəsi və onun ayrı-ayrı cərəyanları son nəticədə hüququ dövlətin müəyyən etdiyi və sanksiyalaşdırdığı norma ilə eyniləşdirdiyindən hüquq və qanun anlayışları arasındakı fərq itir. Hüquq burada dövlətin müəyyən etdiyi qanunların məcmusudur və dövlət də bu qaydaları müəyyən edərkən tam sərbəstdir. Başqa sözlə, hüquq qanundan kənar obyektiv bir nizamasalma vasitəsi kimi mövcud olmadığından hüquq və qanun anlayışlarının qarşılaşdırılması da, onlar arasındakı münasibətlərdən danışmaq da öz əhəmiyyətini itirir.

Azərbaycan Respublikasının Konstitusiyasında təbii hüquq nəzəriyyəsi qəbul olunur və ayrı-ayrı normalarda

inkişaf etdirilir. Konstitusiyanın 24-cü maddəsi bilavasitə bunun ifadəsidir. Burada insan hüquqlarının və azadlıqlarının sadalanan əlamətlərindən hər biri - toxunulmazlıq, ayrılmazlıq, pozulmazlıq və insanın doğulduğu andan onlara malik olması - məhz təbii hüquq nəzəriyyəsində insan hüquqlarının obyektiv təbiətini xarakterizə edən əlamətlərdir. Əlbəttə, təbii hüquq nəzəriyyəsinin müxtəlif cərəyanlarında insan hüquq və azadlıqlarının təbiiliyi, obyektivliyi əsasları bir-birindən müəyyən qədər fərqlənir, ancaq onların hamısı hüquq və azadlıqların dövlət tərəfindən insan üçün müəyyən edilməsini rədd edir və dövlətin bu hüquq və azadlıqları istədiyi vaxt insandan ala biləcəyi düşüncəsini qəbul etmirlər. İnsanın hüquq və azadlıqları onun sosial özünütəzahür vasitəsi kimi təbiətən ona doğulduğu andan xasdır və hər hansı bir subyektin əsas olmadan, öz nöqteyi-nəzərincə onu almağa, ləğv etməyə haqqı yoxdur. Konstitusiyanın 12-ci maddəsi də təbii hüquq və azadlıqlar nəzəriyyəsindən, hüquqi dövlət nəzəriyyəsindən qaynaqlanır. Dövlət insanın hüquq və azadlıqlarını ondan asılı olmayan dəyər kimi qəbul etdiyi təqdirdə (təbii hüquq nəzəriyyəsinin əsas müddəası), onları təmin etməyi vətəndaşla dövlət arasında yeganə optimal əlaqə kanalı kimi öz üzərinə götürür (hüquqi dövlətin əsas əlaməti). Bütün bu müddəalar hüquq və qanun bölməsində dəqiqləşdirilir. Burada təbii və pozitiv hüququn dialektikası təzahür edir, onların bir-birinə nisbəti açıqlanmaqla hüquq (təbii hüquq mənasında) və pozitiv hüquq (qanun) arasında nisbət dəqiqləşdirilir. Bu da təsadüfi deyil. Əslində dərindən analiz edilərsə, burada məhz pozitiv hüququn nizamlanması aydın olar (qanunlar, fərmanlar). Buna səbəb odur ki, müasir hüquq nəzəriyyələri daha təbii hüquq və pozitiv hüququ bir-birinə zidd və bir-

birini inkar edən kateqoriyalar kimi deyil, biri digərini tamamlayan və birgə mövcud olan anlayışlar kimi qəbul edir. Obyektiv hüquq məhz dövlət tərəfindən tanındıqda və formal təsbit olunub müdafiə olunduqda (pozitiv hüquqa çevrildikdə) hüququn ən əsas əlaməti olan dövlət müdafiəsi əlamətini qazanır. Qanuna gətirilməyən, formallaşdırılmayan və dəqiqləşdirilməyən hüquq dövlət müdafiəsindən məhrum, ümumi, mücərrəd mülahizələrdən başqa bir şey deyildir. Bu cür ümumi mülahizələri isə aydın səbəblər üzündən dövlətin müdafiəsi qeyri-mümkündür. Ona görə də hüquq əslində məhz qanuna gətirilməndən sonra hüquqa çevrilir. Pozitiv hüquq təbii hüququn elə mövcudluq formasıdır ki, dövlət bu formada onu qəbul edir. Lakin bu o demək deyil ki, təbii hüquq heç bir əhəmiyyəti olmayan mülahizələrdir. Təbii hüquq bəşəriyyətin uzun əsrlər boyu inkişaf prosesində topladığı ümumbəşəri dəyərlər kimi çıxış edir. Bu dəyərlər müxtəlif xalqların mütəfəkkirləri tərəfindən daha da inkişaf etdirilir. Qanunlar bu dəyərlərə, əxlaqi-mənəvi davranış normalarına uyğun olmalıdır. Ümumiyyətlə, təbii hüquq və pozitiv hüququn bu cür fərqləndirilməsi ikinci dünya müharibəsindən sonra kəskinləşdi. Təbii hüquq və pozitiv hüquq bir-birinə möhtacdır və onlar bir-birinə uyğun gəlməlidir. Məsələn, faşist Almaniyasında qəbul olunan bir çox qanunlar pozitiv mənada hüquq idi. Onlar dövlət tərəfindən müdafiə olunurdu və alman pedantizminə xas dəqiqliklə yerinə yetirilirdi. Lakin faşist Almaniyasının məhvi ilə bərabər onlar da məhv edildi, çünki insanlığın qəbul etdiyi rasional ümumbəşəri normalara - əxlaqi-mənəvi dəyərlərə zidd idi. Bu qanunlarda yəhudilərin diskriminasiyası, ari irqinin aliliyi legitimləşdirilirdi.

Konstitusiyanın hüquq və qanundan bəhs edilən bölməsində faktiki olaraq qanunvericilikdən danışılır. Qanunvericiliyin məcmusu ölkənin qanunvericilik sistemini əmələ gətirir. Buraya fərdi hüquqi aktlar daxil deyil. Onlar konkret bir dəfə əmələ gələn və subyektləri yalnız konkret şəxslər olan ictimai münasibətləri tənzimləyir. Fərdi hüquqi aktlar hüquq norması yaratmır, ona görə də onlar qanunvericilik sisteminə daxil deyil. Bizim ölkənin qanunvericilik sisteminə ancaq normativ hüquqi aktlar daxildir. Çünki onlar hamı üçün məcburi və dəfələrlə tətbiq olunan, dövlətin müdafiə etdiyi davranış normalarını müəyyən edir. Qanunvericilik sistemi ilə hüquq sistemi anlayışları üst-üstə düşmür. Qanunvericilk sistemi hüquq sisteminə qismən uyğun gələn, bir növ onun təzahür formasıdır. Qanunvericilik sisteminin elementi və ya vahidi qanundur. Hüquq sisteminin elementi isə hüquq normasıdır. Həm qanunvericilik, həm də hüquq sistemi sahələrə malikdir, lakin bu sahələrin ayrılma meyarları üst-üstə düşmür. Məsələn, inzibati hüquq hüquq sahəsidir, amma qanunvericilik sahəsi deyil. Mülki hüquq isə həm hüquq sahəsi, həm də qanunvericilik sahəsidir. Hüquq sisteminin formalaşmasına, əsasən, obyektiv faktorlar təsir etdiyi halda, qanunvericilik sistemi, əsasən, subyektiv faktorların təsiri altında formalaşır. Bundan əlavə, hüquq sahələrinin müstəqil sahə kimi ayrılma meyarı hüququn predmeti və metodudursa, qanunvericilik sahəsinin fərqləndirilmə meyarı ancaq predmetdir. Qanunvercilik sistemi müxtəlif növ normativ hüquqi aktların mexaniki yığını deyil, dəqiq, qarşılıqlı münasibətlər sisteminə və təsir mexanizminə malik olan bütöv bir sistemdir. Qanunvericilik sisteminin bir sistem kimi mövcudluğunu şərtləndirən iki amil vardır: birincisi, müxtəlif qanunlarla eyni predmetlərin ni-

zamlanması; ikincisi, aktlar arasında tabeçilik-iyerarxiya münasibətlərinin olması. İyerarxiya əlaməti qanunvericiliyi qanunların mexaniki yığınından fərqləndirən başlıca əlamətdir. Ona görə də konstitusiya məhz iyerarxiyanı formalaşdırmaqla bütövlükdə qanunvericiliyə təsir edir. Qanunvericilik sisteminə aşağıdakı anlayışı vermək olar: qanunvericilik sistemi ictimai münasibətləri tənzimləyən, biri-biri ilə iyerarxiya əlaqəsinə malik normativ hüquqi aktların məcmusudur. Konstitusiyanın X fəslində sadəcə olaraq qanunvericilik sistemi deyil, həm də ona verilən tələblər şərtlənir. Bu tələblər mətndə birbaşa əks olunmasa da, onu məntiqi yolla açıqlamaq mümkündür. Belə ki, iyerarxiya pilləsindəki akt ondan yüksəkdə duran akta zidd olmamalıdır. Hər bir akt haqq-ədalətə (Konstitusiyanın 149-cu maddəsi) əsaslanmalıdır. Bütün növ normativ hüquqi aktlar hüquqi qüvvəyə minmək üçün dərc olunmalıdır.

V bölmənin XI fəslində Konstitusiyanın dəyişdirilməsindən, XII fəslində isə ona əlavələr edilməsindən söhbət gedir. Bunun başlıca səbəbi odur ki, Konstitusiya ən əsas hüquqi aktdır və o, bütün qanunvericilik sisteminin əsasını müəyyən edir. Konstitusiya ən ali hüquqi qüvvəyə malik olduğundan onun dəyişdirilməsi, yeniləşdirilməsi üçün xüsusi şərtlər, əsaslar müəyyən edilir. Faktiki olaraq bu, konstitusiyanı digər hüquqi aktlardan fərqləndirən formal-hüquqi xüsusiyyətlərdən biridir. Ölkənin Konstitusiyası adi qanunlar kimi hər zaman qəbul edilə və dəyişdirilə bilməz. Adətən, konstitusiyalar bir ölkədə mövcud olan və həmin cəmiyyətin rişəsini, əsasını təşkil edən münasibətləri nizama salır. Bu münasibətlər öz təbiətinə görə sabitdir və kifayət qədər ləng dəyişir (əsasən cəmiyyətdə köklü sosial dəyişikliklər olanda). Onları təsbit edən

konstitusiya da öz inkişafı üçün uzun müddət tələb olunan bu münasibətləri təmin etməkdən ötrü kifayət qədər sabit olmalıdır. Konstitusiyaların yeniləşdirilməsinin mürəkkəb mexanizmi bununla əlaqədardır. Amma bu mürəkkəb mexanizm bütün ölkələrin konstitusiyalarına xas əlamət deyildir. Məsələn, Böyük Britaniya Konstitusiyasının yeniləşdirilməsi mexanizmi cari qanunlarda olduğu kimidir.

§ 2. Qanunvericilik sistemi

Qanunvericilik sistemi ölkədə qüvvədə olan bütün normativ hüquqi aktların məcmusundan, əgər belə demək mümkünsə, onların müəyyən olunmuş qaydada dövlət qeydiyyatına alınmış toplusundan ibarətdir. «Normativ hüquqi aktlar haqqında» 21 dekabr 2010-cu il tarixli Azərbaycan Respublikası Konstitusiya Qanununun 1-ci maddəsində normativ hüquqi akta belə anlayış verilmişdir: «Normativ hüquqi akt - tənzimlənməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə, qanunla və ya fərmanla dövlət orqanının səlahiyyətlərinə aid edilən məsələlər üzrə həmin dövlət orqanı tərəfindən və ya referendum yolu ilə qəbul edilmiş, hamı üçün məcburi davranış qaydalarını əks etdirən, qeyri-müəyyən subyektlər dairəsi üçün və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəddir». Normativ hüquqi aktlar Konstitusiyaya və onlardan daha yüksək hüquqi qüvvəyə malik olan başqa normativ hüquqi aktlara uyğun olmalıdır. Qanunvericilik sisteminə yuxarıda verilən anlayışdan göründüyü kimi, qanunvericilik sisteminin əsas əlaməti onun iyerarxiyaya malik olmasıdır. Bu iyerarxiyanı da aktların təbiəti şərtləndirir. Normativ hüquqi aktların iyerarxiya üzrə qruplaşdırılması tamamilə təbiidir və qanunvericili-

yin icrası prosesində ortaya çıxan bir çox məsələləri avtomatik olaraq həll etməyə imkan verir. Ümumiyyətlə, qanunvericilik sistemi mürəkkəb, dövrün təsiri altında dəyişən, obyektiv qanunauyğunluqları və subyektiv siyasi təmayülləri əks etdirən bir sistemdir. Bir çox münasibətlər öz xüsusiyyətlərindən asılı olaraq, bir və ya bir neçə akt tərəfindən, müxtəlif səviyyələrdə nizamlana bilər. Qanunvericilik sisteminin sabitliyi də ayrı-ayrı aktlar səviyyəsində heç vaxt eyni olmur. Məsələn, ən sabit akt konstitusiyadır. Ondan bir qədər geri qalan qanunlardır. Ən qeyri-sabit, tez-tez dəyişən aktlar isə icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarıdır, çünki ictimai münasibətləri daha dəqiqliklə, təfərrüatına qədər məhz onlar nizamlayır və münasibətlər sistemində olan kiçik dəyişiklik ilk öncə idarəçilik aktlarına və ya normativ inzibati hüquqi aktlara təsir edir. Qanunveircilik sisteminin bu cür müxtəlifliyini şərtləndirən hallar onu mürəkkəbləşdirir. Sistemdə hər bir normativ hüquqi aktın tutduğu yer, onu qəbul edən orqanın dövlət orqanları sistemində tutduğu yerlə və onun tənzim etdiyi ictimai münasibətlərin əhəmiyyətlilik dərəcəsi ilə müəyyən edilir. İyerarxiya iki cür təzahür edir: birincisi, hər akt özündən yuxarıda duran aktın müddəalarına uyğun gəlməlidir və ikincisi, bu aktlar arasında ziddiyyət olarsa, iyerarxiyanın yuxarı pilləsində duran aktın norması, müddəası tətbiq olunur. Nəzərə alsaq ki, ictimai münasibətlərin ayrı-ayrı tərəfləri müxtəlif aktlar tərəfindən fərqli səviyyələrdə nizamlanır və bu predmet eyniliyi də (eyni ictimai münasibət) aktlar arasında tez-tez ziddiyyətlər yaradır, onda iyerarxiyalı quruluşun nə qədər böyük əhəmiyyətə malik olduğu aydın olar. İyerarxiya, normativ hüquqi aktlar arasında ziddiyyətləri həll etmək və normativ hüquqi aktlarda nizamasal-

manı asanlaşdırmaq üçün müəyyən edilmiş bir prinsipdir. İyerarxiyanın müxtəlif pillələrində duran aktlar bir-birindən ancaq ziddiyyətli oxşar problemlərin həlli zamanı deyil, həm də nizamasalma xüsusiyyətlərinə görə də fərqlənir. İyerarxiyanın yuxarı müxtəlif pillələrində duran aktlar eyni bir məsələni, münasibəti nizama salırsa, bu halda aşağı pillədə duran akt yuxarı pillədə duran akta münasibətdə dəqiqləşdirici, konkretləşdirici kimi çıxış edir. Buna ən bariz misal Azərbaycan Respublikası Prezidentinin müxtəlif qanunların tətbiqi ilə əlaqədar verilən fərmanlarıdır. Adətən, fərmanlarda qanunda işlədilən bir sıra anlayışlar dəqiqləşdirilir və qanunun realizə edilməsi üçün zəruri tədbirlər müəyyən edilir. Bir qayda olaraq, konstitusiyada təsbit olunan müddəalar sonradan qanunlar və digər normativ hüquqi aktlar tərəfindən inkişaf etdirilir. Məsələn, konstitusiyada seçki hüququnun prinsipləri və nisbətən bir sıra vacib tərəfləri əks olunub (subyektlərə verilən tələblər və nəticələrin qiymətləndirilməsi). Bu normalar Milli Məclisin qəbul etdiyi seçki qanunvericiliyində (Milli Məclisə, Prezidentliyə, bələdiyyələrə seçkiləri tənzim edən Seçki Məcəlləsində) əsaslı şəkildə inkişaf etdirilir və hüquq institutu tam şəkildə qurulur. Daha sonra isə bilavasitə qanunun praktikada realizə olunması üçün tələb olunan çoxsaylı təfərrüatlarla bağlı normalar müvafiq orqanlar tərəfindən, bu halda MSK tərəfindən qəbul edilir (təlimatlar, nizamnamələr və s.). Beləliklə, normativ hüquqi aktlar ancaq ziddiyyətlərin həlli zamanı deyil, həm də məzmunda əks olunan informasiyanın verilməsinə görə fərqlənir. Qanunvericilik sisteminin əsas kütləsini icra hakimiyyəti orqanlarının qəbul etdiyi aktlar təşkil edir. Konstitusiya, referendumla qəbul olunmuş aktlar, beynəlxalq müqavilələr, qanunlar və bələdiy-

yə aktları istisna olmaqla yerdə qalan bütün aktlar icra hakimiyyəti aktlarıdır. İcra hakimiyyəti aktlarının öz arasında da iyerarxiya var. İcra hakimiyyətinin aktları qanunlara münasibətdə həmişə iyerarxiyanın aşağı pilləsində dursa da, heç də həmişə qanunların müddəalarını dəqiqləşdirici xarakterli olmur. Bu aktlar vasitəsilə müvafiq orqan, ümumiyyətlə, qanunla nizamlanmayan, ancaq onun səlahiyyətlərinə aid olan münasibətlərin ilkin nizamlanmasını da həyata keçirir.

Normativ hüquqi aktın adı - qanun, fərman, təlimat və s. sadəcə olaraq bu aktları fərqləndirmək üçün formal vasitələr deyil. Hüquq ədəbiyyatında qəbul olunmuş fikrə görə, aktın adı onun məzmununu, formasını (normativ və ya qeyri-normativ) yığcam şəkildə özündə əks etdirən simvol - vasitədir. Aktın adı vasitəsilə ünvanına onun məzmunu haqqında ilkin informasiya ötürülür. Buna görə də aktın adının düzgün olmaması (fərmanla nizamlanmalı münasibətləri sərəncamla nizamlamaq), sadəcə olaraq, ad dəyişikliyi kimi deyil, aktın müvafiq formada olmaması kimi qiymətləndirilir və aktın qüsurlu sayılması əsaslarından biridir. Bu cür yanlışlıqlar bəzən ciddi nəticələrə gətirib çıxarır. Nəzərə almaq lazımdır ki, akt məzmununa görə deyil, formasına - adına görə qanunvericilik sisteminə daxil edilir. Bu mənada fərmanla (normativ hüquqi akt forması) sırf fərdi, məsələnin birdəfəlik nizamlanması (sərəncam: qeyri-normativ hüquqi akt forması) sonradan qanunvericilik sistemində arzuolunmayan nəticələr verə bilər.

Normativ hüquqi aktlar xalqın və dövlətin iradəsini maddiləşdirir, özündə əks etdirir. Cəmiyyətin inkişafına və maraqlarına uyğun olaraq (xalqın iradəsi), dövlət, ictimai münasibətləri qanuna gətirir, tanıyır və müdafiə edir

(dövlətin iradəsi). Buna müvafiq olaraq, sistemdə ən yüksək yer məhz konstitusiyaya məxsusdur. O, xalqın iradəsini bilavasitə əks etdirir və referendum yolu ilə qəbul olunur. Ona görə də onun göstərişləri bütün digər qanunlar üçün məcburidir. Konstitusiyanın 147-ci maddəsində onun qanunvericilik sistemində yeri dəqiqləşdirilir. İstənilən normativ hüquqi aktla konstitusiya arasında ziddiyyət yaranarsa, bu zaman konstitusiyanın norması əsas götürülməlidir. Konstitusiyanın birbaşa hüquqi qüvvəyə malik olması onun norma və müddəalarının hər hansı bir digər akta möhtac olmadan, onun tərəfindən konkretləşdirilmədən bilavasitə müxtəlif həyati məsələlərə tətbiq olunma imkanını nəzərdə tutur. Bu müddəa xüsusilə vacibdir və konstitusiyanın inkişafında irəliyə doğru atılmış addımdır. Sovet konstitusiyalarında belə müddəalar yox idi və onlarda əks olunan bir çox müddəalar cari qanunvericilikdə öz əksini tapmayınca real tətbiq oluna bilmirdi. Konstitusiyanın birbaşa tətbiqi, ümumiyyətlə, mürəkkəb problemdir və öz həllini gözləyir. Bir sıra normaların birbaşa tətbiqi praktik olaraq mümkün olduğu halda (məsələn, impiçment, 107-ci maddə), bundan fərqli olaraq başqa qrup normaların birbaşa tətbiqi nəzəri olaraq belə çətindir. Məsələn, əqli mülkiyyət hüququnun və ya seçki hüququnun xüsusi qanunlar olmadan birbaşa tətbiq olunması, demək olar ki, mümkün deyil, çünki hüququn realizə qaydası, qorunma qaydası qanunla dəqiqləşdirilməlidir.

Sistemdə ikinci yerdə referendum yolu ilə qəbul olunmuş aktlar durur. Buna səbəb onların da konstitusiya kimi bilavasitə xalq tərəfindən qəbul olunmasıdır. Lakin onlar, konstitusiyaya münasibətdə, adətən, konkret məsələləri həll edirlər və burada nizamlanan münasibətlər konstitusion münasibətlər qədər əhəmiyyətli deyil. Yalnız

bir halda referendumla qəbul olunmuş aktların hüquqi qüvvəsi konstitusiyanın hüquqi qüvvəsinə bərabər sayılır ki, bu da Konstitusiyanın 3-cü maddəsinə uyğun olaraq, konstitusiyaya edilən dəyişikliklərdir. Referendumda xüsusi əhəmiyyətli məsələlər həll edilir.

Konstitusiyanın 148-ci maddəsinin I hissəsində birbaşa əks olunmasa da, qanunvericilik sistemində qanunlardan daha əvvəl beynəlxalq hüquqi aktlar durur. Bu maddənin II hissəsinə görə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr qanunvericiliyin tərkib hissəsidir. Konstitusiyanın 151-ci maddəsinə görə, qanunlar və digər aktlarla Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq aktlar arasında ziddiyyət olarsa, onda beynəlxalq aktın norması tətbiq edilir. Bütün digər ziddiyyətlər zamanı da iyerarxiyanın yuxarı pilləsində duran aktın göstərişləri tətbiq olunur. Bu isə onu deməyə əsas verir ki, qanunvericilik sistemində üçüncü yeri qanunlar deyil, əslində beynəlxalq müqavilələr tutur.

Qanunlar qanunvericilik sisteminin əsas elementidir. Onlar özündən yuxarıda duran aktların müddəalarını inkişaf etdirir, bəzən hər hansı bir institutun əsaslı şəkildə qurulması məhz qanun səviyyəsində həyata keçirilir. İcra hakimiyyətinin aktları qanunun müddəalarını dəqiqləşdirir və onların realizə edilməsinə xidmət edirlər. Qanun, qanunverici orqan tərəfindən qəbul edilən və onun səlahiyyətlərinə aid edilmiş məsələləri həll edən, ən mühüm ictimai münasibətləri tənzimləyən normativ hüquqi aktdır.

Qanunlardan sonrakı yeri iyerarxiyada icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları tutur. Prezidentin fərmanları onun səlahiyyətlərinə aid edilmiş məsələlərin normativ nizamlanması və nəzərdə tutulmuş qanunların icrası üçün verilən, onların müddəalarını dəqiqləşdirən

normativ hüquqi aktlardır. Nəzərə almaq lazımdır ki, qanunlardan fərqli olaraq, icra hakimiyyətinin normativ hüquqi aktları bir çox hallarda həm normativ, həm də qeyri-normativ hüquqi aktların əlamətlərini bildirir. Bu aktlar dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulur, eyni zamanda konkret ünvanı müəyyən edilir. Bəzən bu aktlarda bir dəfə tətbiq olunması nəzərdə tutulan çoxsaylı göstərişlər olur. Bu da təbiidir. Çünki icra hakimiyyəti orqanlarının aktları hüququn tətbiqi aktları olub, idarəçilik xarakterli məsələləri həll edir və bu məsələlərin bilavasitə həlli üçün məcburi təşkilati göstərişləri də özündə əks etdirir. Mərkəzi icra hakimiyyəti orqanları hər hansı sahənin idarəçiliyi ilə məşğul olan orqanlar sistemini idarə edən (həmin sahə üzrə) əsas orqandır. Məsələn, Təhsil Nazirliyi təhsil sahəsində dövlət idarəetməsini həyata keçirən orqanların başında durur və bu sahədə hamı üçün məcburi olan göstərişlər verir. Bu mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları tam şəkildə sistemləşdirilməyib və müxtəlifdir. Onların içərisində əsas yeri təlimatlar, əsasnamələr, nizamnamələr, qaydalar və s. tutur.

Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi də Azərbaycan Respublikasının qanunvericilik sisteminin tərkib hissəsidir. Naxçıvan Muxtar Respublikasının qanunvericilik aktları ancaq onun ərazisində tətbiq olunur. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi Azərbaycan Respublikasının qanunvericilik sisteminə uyğun olmalıdır, yəni onun aktlarına zidd gələ bilməz və iyerarxiya quruluşu oxşar olmalıdır. Başqa sözlə, Naxçıvan Muxtar Respublikasında da qanunvericilik sistemində aktların yeri eynilə Azərbaycan Respublikasında olduğu kimidir (konstitusiya, qanunlar, ali vəzifəli şəxsin fərman-

ları, icra hakimiyyətinin normativ hüquqi aktları). Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi ilə Azərbaycan Respublikasının qanunvericilik sisteminin iyerarxiyası Konstitusiyanın 130-cu maddəsinin III hissəsinin 7-ci bəndində nəzərdə tutulur. Yerli icra hakimiyyəti orqanları da öz səlahiyyətləri daxilində hər hansı məsələni həll etmək üçün qanunvericilik sisteminə daxil olmayan normativ xarakterli aktlar qəbul edə bilərlər. Belə aktlar qəbul olunduğu icra hakimiyyətinin ərazisi ilə məhdudlaşır və digər rayonun ərazisində tətbiq oluna bilməz.

Konstitusiyanın 149-cu maddəsi aktlar arasındakı iyerarxiyanın məzmununu açır və aktlara verilən tələbləri özündə əks etdirir. Normativ hüquqi aktların haqq-ədalətə və hüquqa əsaslanması bir qədər nəzəri-mücərrəd müddəadır və nəinki hüquq konsepsiyasında, eləcə də qanunvericilik praktikasında onun inkişaf etdirilməsi, məhkəmə praktikasında dəqiqləşdirilməsi lazımdır. Hüquqa və haqq-ədalətə əsaslanma bütün normativ hüquqi aktlara verilən və tələb formasında əks olunan prinsip kimi qəbul oluna bilər. Burada normativ hüquqi aktların məhz obyektiv hüquqa əsaslanmasından söhbət gedir. Bu anlayış konstitusiyanın özündə, qismən də olsa dəqiqləşdirilərək, buna bərabər mənafelərə bərabər münasibətlər formuləsi verilir. Lakın iş bundadır ki, bu anlayışın özünün də dəqiqləşdirilməyə ehtiyacı vardır. İnsanlar arasında mənafelər həddən çox müxtəlifdir və bu mənafelər heç vaxt bərabər ola bilməz. Hüquq normativ göstərişləri vasitəsilə insanların mənafelərini bərabərləşdirmir və bu qeyri-mümkündür. Hüquq, sadəcə olaraq, insanların mənafelərinin eyni dərəcədə, eyni həddə hüquq münasibətində təzahür etməsi imkanını təmin edir və bu yolla da real, faktiki olaraq mənafeləri bərabər olmayan şəxslər

(işəgötürən və işçi) üçün ədaləti təmin etmiş olur. Bunun ən bariz və universal hüquqi ifadəsi hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipidir. İşəgötürən və işçi bir-birilə müqavilə bağlayana qədər tamam fərqli məzmunlu və tamam fərqli sanbala malik mənafeləri təmsil edirlər. Lakın hüquq münasibətinə daxil olduqda hər ikisinin mənafeyi eyni dərəcədə müqavilə çərçivəsində təzahür edir. Müqavilə hər iki tərəfin mənafeyini tam əks etdirə bilməz, çünki onlar bir-birinə uyğun deyil. Müqavilə ancaq mənafenin bir hissəsini nəzərə alır və məhz bu hissələrin hesabına tərəflər arasında kompromis əldə edilir. Beləliklə, bərabər mənafelər deyil, bərabər münasibətlər ifadəsi daha düzdür, çünki münasibətlərdə subyektlərin bərabərliyi münasibətə qədər qeyri-bərabər olan mənafelərin bərabərləşdirilməsində təzahür edir.

Konstitusiyanın 149-cu maddəsinə görə, yalnız dərc edilən hüquqi aktların icrası məcburidir və ancaq subyektin vəziyyətini yüngülləşdirən aktların geriyə qüvvəsi var. Bu maddədə hər növ akt üçün ayrıca "yalnız dərc olunduqdan sonra məcburidir" ifadəsinin göstərilməsi özünü doğrultmur, çünki bu maddədən göründüyü kimi, o, ümumi, yəni bütün aktlara aid göstərişdir və konstitusiyanın lakonikliyinə xələl gətirir. Onun ayrıca bir bənddə formulə edilməsi daha düzgün olardı. 18 mart 2009-cu il tarixində referendum yolu Konstitusiyanın 149-cu maddəsinə yeni məzmunlu VIII hissə əlavə edilmişdir: Normativ hüquqi aktlar dərc edilməlidir. Heç kəs dərc edilməmiş normativ hüquqi aktın icrasına (ona riayət olunmasına) məcbur edilə bilməz və belə aktın icra olunmamasına (ona riayət olunmamasına) görə məsuliyyətə cəlb edilə bilməz. Normativ hüquqi aktların dərc edilməsi qaydası Konstitusiya qanunu ilə müəyyən edilir.

Konstitusiyanın 150-ci maddəsi bələdiyyə aktlarının məcburiliyini göstərir. Bələdiyyələr özü dövlət orqanı olmasa da, onların aktına dövlət orqanının aktı keyfiyyətləri verilir, qanunvericilik sisteminə daxil deyil, lakin qanunla müdafiə olunur. Bunu bələdiyyələrin ən yüksək dövlət təminatı hesab etmək olar. Bələdiyyə aktları onun ərazisində yaşayan vətəndaşlar və həmin ərazidə yerləşən hüquqi şəxslər üçün məcburidir. Bu əlaməti ilə o yerli icra hakimiyyəti orqanlarının aktlarına oxşayır.

§ 3. Beynəlxalq hüquqi aktların Azərbaycan Respublikasının qanunvericilik sistemində yeri

Müasir dünya dövlətləri inkişaf etdikcə qaçılmaz inteqrasiya beynəlxalq hüquq vasitəsilə onları daha da bir-birinə yaxınlaşdırır. Bir çox problemlərin qloballaşması və həll olunması üçün birgə səylər tələb etməsi, iqtisadi münasibətlərin inkişafı dövlətləri daha tez-tez, sıx şəkildə əlaqədə olmağa sövq edir. Bu gün digər dövlətlərdən təcrid olunmuş və ylanız öz daxili resursları hesabına yaşayan dövlət yoxdur. Beynəlxalq inteqrasiya genişmiqyaslı proses olmaqla yanaşı, müxtəlif sahələrdə fərqli şəkildə təzahür edir. Hüquqda dövlətlərarası yaxınlaşma ilk olaraq beynəlxalq ictimaiyyətlə münasibət və beynəlxalq hüquqla daxili hüququn əlaqəsi problemində özünü biruzə verməyə başladı. Mütləq suverenlik nəzəriyyəsinin zərurət üzündən inkarı, dövlətlərin qarşılıqlı asılılığı və onlar arasındakı münasibətlərin qaydaya salınması ehtiyacı da bu problemi gücləndirir. Beynəlxalq ictimaiyyətin sistem kimi formalaşmadığı, natural təsərüffatın hökm sürdüyü orta əsrlərdə, aydındır ki, bu gün anladığımız mənada beynəlxalq hüquq yox idi və belə problem də qoyula bilməzdi. Yalnız XIX-XX əsrlərdə dövlətlərarası ittifaqların

inkişafı, əlaqələrin genişlənməsi bir sıra birgə fəaliyyət növlərinin dövlətdaxili səviyyədə deyil, dövlətlərarası münasibətlər səviyyəsində nizamlanması ehtiyacı beynəlxalq hüququn inkişafı üçün şərait yaratdı. XIX əsrdən başlayaraq beynəlxalq hüquq və daxili hüququn nisbəti problemi vacib və praktik əhəmiyyətə malik problem kimi öyrənilməyə başlandı. Müasir dövrdə beynəlxalq hüquq və daxili hüquqla bağlı çoxlu nəzəriyyələr var, lakin son nəticədə onların hamısı iki əsas nəzəriyyənin müxtəlif variantlarıdır. Monizm nəzəriyyəsinin başlıca müddəalarına görə, beynəlxalq və daxili hüquq oxşardır. Onlar bu və ya digər məsələni tənzim edir, hər ikisi nizamasalma vasitəsidir və deməli, birbaşa qarşılıqlı təsir mümkündür. Monizm nəzəriyyəsi özü də iki əsas cərəyana bölünür ki, bu cərəyanlar arasında da əsas fərq beynəlxalq hüquqla daxili hüququn əlaqəsinin necə qurulmasındadır. Bu nəzəriyyənin əsasları İ.Kant, H.Kelzen tərəfindən işlənilib. Əsası Hegel tərəfindən qoyulmuş və H.Trippelin inkişaf etdirdiyi dualizm nəzəriyyəsinə görə, beynəlxalq hüquq və daxili hüquq tamam fərqli sistemlərdir. Beynəlxalq hüquq fərdlər arasındakı münasibətləri deyil, dövlətlər arasındakı münasibətləri tənzim edir. Ona görə də beynəlxalq hüququn dövlətdaxili hüquqla qarşılıqı əlaqəsi birbaşa mümkün deyil və beynəlxalq hüququn daxili hüquqa ehtiyacı var. Çünki məhz daxili hüquq normaları beynəlxalq hüquq normalarının realizəsini mümkün edir. İndinin özündə də beynəlxalq hüquq normalarının inkişafı ilə bu normaların realizə edilməsini təmin edəcək mexanizmlərin inkişaf tempi arasında kəskin fərq vardır. Beynəlxalq normaların inkişafı, qoyduğu problemlər bu normaların təmini sistemini qabaqlayır. Elə buna görə də bir çox hallarda, doğrudan da, daxili hüquq normaları beynəlxalq hü-

quq normalarının realizə edilməsinə (dövlət daxilində) həlledici təsir göstərir. Bu nəzəriyyələrin hər hansı birinin praktikada tanınması dövlətin qanunvericiliyinə əsaslı təsir edir. Beynəlxalq hüquqa münasibəti müəyyən etmək hər bir dövlətin suveren hüququdur. Monizm nəzəriyyəsinin qəbul edilməsi dövlətin hüquq tətbiqi orqanlarının gündəlik fəaliyyətində birbaşa beynəlxalq aktlara istinad etməsi deməkdir (açıq qanunvericilik sisteminə malik dövlətlər).

Dualizm nəzəriyyəsini qəbul edən dövlətlərdə məhkəmələr və digər orqanlar birbaşa beynəlxalq hüquq normalarına istinad etmir və hər hansı məsələnin nizamlanmasında beynəlxalq aktların birbaşa nizamlayıcı təsiri yoxdur. Beynəlxalq aktların normalarına münasibətdə belə dövlətlər geniş müstəqilliyə malikdirlər. Ona görə də bu nəzəriyyələrdən hər hansı birinin tanınması siyasi-hüquqi məsələdir. Çağdaş dövr monizm nəzəriyyəsinin dualizm nəzəriyyəsini sıxışdırdığı dövrdür. Artıq bir çox dövlətlərin konstitusiyaları rəsmi olaraq monizm nəzəriyyəsini qəbul edirlər.

Zaman keçdikcə beynəlxaq hüquqda insan hüquq və azadlıqlarının diqqət mərkəzinə çəkilməsi, bununla bağlı çoxlu optimal prosedur normaların qəbul olunması beynəlxalq huquqda insan hüquqları ilə bağlı normalara standart, qəlib xarakteri verilməsinə səbəb oldu. Bu faktor da monizm nəzəriyyəsinin yayılmasına gömək etmişdir. İlk olaraq beynəlxalq hüquqla daxili hüququn münasibətini müəyyən edən norma ABŞ-nin 1787-ci il Konstitusiyasının IV maddəsində əks olunub. Bu normaya görə, beynəlxalq hüquq ABŞ qanunvericiliyinin tərkib hissəsidir. Avropada ilk dəfə belə norma Almaniyanın 1919-cu il Konstitusiyasında nəzərdə tutulmuşdur. Məsələni mürəkkəb-

ləşdirən faktorlardan biri də budur ki, beynəlxalq hüququn özünə bütövlükdə deyil, ancaq hissələrinə görə daxili hüquqla onun arasında əlaqə müəyyənləşdirilir. Məlum olduğu kimi, beynəlxalq hüquq beynəlxalq müqavilə hüququna (yazılı mənbələr) və beynəlxalq adət hüququna (praktikada formalaşan mənbələr) bölünür. Dövlətlər də bir çox hallarda bunlardan yalnız birini daxili qanunvericiliyin tərkib hissəsi kimi tanıyır və münasibət müəyyənləşdirirlər. Məsələn, Fransanın 1958-ci il Konstitusiyasının 55-ci maddəsinə görə, beynəlxalq adət hüququ deyil, yalnız müqavilə və razılaşmalar (beynəlxalq müqavilə hüququ) ölkə hüququnun bir hissəsini təşkil edir. Bunun əksinə, qismən ABŞ istisna olmaqla, bütün anqlo-sakson hüquq sistemli ölkələrdə beynəlxalq müqavilə hüququ deyil, beynəlxalq adət hüququ dövlətdaxili hüququn tərkib hissəsidir. İngiltərədə beynəlxalq adət hüququnun ölkədaxili hüququn bir hissəsi hesab olunması üçün heç bir formal prosedura tələb olunmadığı halda, beynəlxalq müqaviləyə dövlətdaxili hüquq statusu verilməsi üçün parlamentin xüsusi qərarı tələb olunur. Azərbaycan Respublikasında da Konstitusiya zamanın tələbinə uyğun olaraq, beynəlxalq hüquqla milli hüququn münasibətini müəyyən edən norma nəzərdə tutur. Konstitusiyanın 7-ci, 10-cu və 12-ci maddələri, 95-ci maddəsinin birinci hissəsinin 4-cü bəndi, 109-cu maddəsinin17-ci və 30-cu bəndləri, 130-cu maddəsinin üçüncü hissəsinin 6-cı bəndi, onuncu hissəsi, 148-ci maddəsinin II hissəsi, 151-ci maddəsi və mıvafiq bəndləri beynəlxalq hüquqla bağlı müxtəlif məsələləri əks etdirir. Bunların içərisində mərkəzi yer tutan 10-cu, 148-ci (II hissəsi), 151-ci maddələrdir. Lakin müxtəlif ölkələrin praktikasından da aydın olur ki, yalnız konstitusiya normalarına istinadən beynəlxalq hüquq və daxili hü-

ququn münasibətini müəyyən etmək çətindir. Beynəlxalq hüququn daxili hüquqla əlaqələrini ifadə etmək üçün «milli-hüquqi implementasiya» termini işlədilir. Milli-hüquqi implementasiya beynəlxalq hüququn daxili qanunvericiliyə gətirilməsi prosesini və üsullarını bildirir. Milli-hüquqi implementasiya ancaq dövlətlər deyil, beynəlxalq təşkilatlar səviyyəsində də baş verir və beynəlxaq normaların şəraitə uyğunlaşdırılaraq birbaşa qanunda əks olunması, yaxud daxili qanunvericilikdə beynəlxalq hüquq normalarına uyğun normaların müəyyən edilməsində təzahür edir. Milli-hüquqi implementasiyanın əsas 3 üsulu fərqləndirilir: birincisi, inkorporasiya; ikincisi, istinad; üçüncüsü, resepsiya. Azərbaycan Respublikasında beynəlxalq hüquqa münasibətin müəyyənləşdirilməsi tədricən baş verən prosesdir. Əsasən, qanunverici və icra hakimiyyəti budağı beynəlxalq hüquqa münasibətdə müəyyən səlahiyyətlərə malikdir. Bununla belə, beynəlxalq hüquq normalarının daxili qanunvericiliklə sıx əlaqəsinin ən yaxşı barometri - göstəricisi məhkəmə fəaliyyətidir. Bir çox hallarda hakimiyyət orqanları beynəlxalq hüquq normalarının gələcək realizəsi ilə bağlı müəyyən tədbirlər kompleksi hazırlayır. Faktiki olaraq burada icra hakimiyyəti üstün mövqeyə malikdir. Bu isə o deməkdir ki, ümumiyyətlə, beynəlxalq hüquqla daxili hüququn ünsiyyəti, sadəcə, normaların təsbiti səviyyəsində deyil və təşkilati proseslərin baş verməsini də tələb edir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 8 iyul 1996-cı il tarixli «Azərbaycan Respublikası və Avropa Şurası arasında əməkdaşlığa dair tədbirlər proqramının həyata keçirilməsi haqqında» sərəncamı buna bariz misal ola bilər. Bu tədbirlər sırasında ekspertlərlə birgə bir sıra qanun layihələrinin beynəlxalq aktlara uyğunluğunun ekspertizasını

keçirmək nəzərdə tutulurdu. Beynəlxalq hüquqi aktların implementasiyası prosesinin nizamlanmasında Azərbaycan Respublikası Prezidentinin 16 avqust 1994-cü il tarixli «Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə qoşulma praktikasının qaydaya salınması üzrə tədbirlər haqqında» Sərəncamı mühüm rol oynamışdır. Bu proses 13 yanvar 1995-ci il tarixli «Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası, denonsasiyası haqqında» Qanun və 20 dekabr 1996-cı il tarixli «Azərbaycan Respublikasının hökumətlərarası müqavilələrinin bağlanması, icrası, denonsasiyası qaydalarının təsdiqi haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə tənzimlənir. Bundan əlavə, beynəlxalq xüsusi hüquq haqqında 6 iyun 2000-ci ildə Qanun qəbul olunmuşdur. Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin genişlənməsi onun çoxlu sayda müxtəlif müqavilələrə qoşulmasına gətirib çıxarıb. Bunların içərisində «Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt» (19 dekabr 1966-cı il), «Diplomatik əlaqələr haqda Vyana Konvensiyası» (18 oktyabr 1961-ci il), Beynəlxalq Əmək Təşkilatının bir çox konvensiyaları vardır. İnkorporasiyadan istifadə zamanı dövlət, adətən, beynəlxalq aktın tənzimlədiyi məsələni eyni üsulla tənzimləyən akt qəbul edir.

Resepsiya dövlətə beynəlxalq müqaviləyə qoşulmadığı halda onun müddəalarını qanunvericiliyinə gətirməyə imkan verir. Bu zaman beynəlxalq müqavilənin norması olduğu kimi daxili qanunvericilikdə təkrarlana, dəqiqləşdirilə, inkişaf etdirilərək qanunvericiliyə uyğunlaşdırıla bilər. Beynəlxalq aktların resepsiyası ən müxtəlif hüquq sahələrində baş verir. Resepsiya nisbətən dəqiq olmur, burada beynəlxalq aktla dövlətin daxili hüquqi aktı arasında birbaşa əlaqə tapmaq çətindir. Məsələn, Azərbaycan Res-

publikası 21 iyul 1992-ci il tarixli qərarı ilə «İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt»a qoşulub. Bu pakta qoşulan dövlətlər üçün qanunvericilikdə iqtisadi-sosial, mədəni hüquqların təsbit edilməsi vəzifəsini yaradır ki, bu da Konstitusiyada kifayət qədər geniş şəkildə əks olunmuşdur.

İstinad öz xarakterinə görə dövlətdaxili qanunvericiliyin göndərici və blanket maddələrinə oxşayır. Bu halda daxili qanunvericiliyə elə normalar əlavə edilir ki, onlar hər hansı hal üçün birbaşa beynəlxalq aktın tətbiq olunmasını müəyyən edir.

İstinad beynəlxalq hüquq normasını olduğu kimi saxlayan və onu qanunvericiliyə gətirən üsuldur. Konstitusiyanın 10-cu, 69-cu, 70-ci, 151-ci maddələrində beynəlxalq hüquqa istinad var. Bəzi fikirlərə görə, istinad edilən norma daxili hüquqi məsələni özü birbaşa tənzim etmir. Azərbaycan Respublikasının Konstitusiyası bizə belə bir fikir söyləməyə imkan verir ki, Azərbaycan Respublikasının qanunveirciliyinin tərkib hissəsi beynəlxalq adət hüququ deyil, beynəlxalq müqavilə hüququdur. Belə ki, Konstitusiyanın 148-ci maddəsinin II bəndinə görə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikası qanunvericiliyinin tərkib hissəsidir. Lakin Konstitusiyamızın beynəlxalq adət hüququna tam biganə qaldığını da söyləmək olmaz. Belə ki, 10-cu maddə də beynəlxalq münasibətlərin prinsipləri kimi hamılıqla qəbul edilmiş (beynəlxalq hüquq normalarında) prinsipləri nəzərdə tutur. Hamılıqla qəbul edilmiş prinsiplər beynəlxalq hüququn ümumi prinsipləridir ki, bunlar da beynəlxalq adət hüququnun əsasını təşkil edir. Beynəlxalq Məhkəmə hələ Nikaraqua ilə bağlı işində birbaşa müəyyən edir ki, beynəlxalq hü-

ququn ümumi prinsipləri dedikdə beynəlxalq adətlər başa düşülür. Məhkəmənin mövqeyinə görə, 1975-ci il Helsinki Müşavirəsinin Yekun Aktında əks olunan beynəlxalq hüququn ümumi prinsipləri beynəlxaq adət hüququnun ümumi normalarıdır. Azərbaycan Respublikasının Konstitusiyası da bu ümumi tanınmış prisiplər, yəni beynəlxalq adət hüququ əsasında başqa dövlətlərlə münasibətlərini qurur. Lakin Konstitusiyadan göründüyü kimi, bu yalnız beynəlxalq münasibətlərə nəzərən belə müəyyənləşdirilib. Elmi nəşrlərdə bəzən belə fikirlərə rast gəlmək olur ki, 151-ci maddə ilk baxışdan beynəlxalq hüquq normalarının primatını qəbul etsə də, əsas məqsəd beynəlxalq müqavilə ilə daxili normativ aktlar arasında mümkün kolliziyaları aradan qaldırmaqdır və əsasən, əlavə milli-hüquqi implementasiya tədbirlərinə ehtiyacı olmayan dövlətlərarası münasibətlərə birbaşa tətbiq oluna bilən müqavilələrə aiddir. Müəllifə görə, burada beynəlxalq hüququn ümumi yox, ancaq primatından söhbət gedə bilər.

İlk baxışdan Konstitusiyada beynəlxalq müqavilələrlə bağlı iki bir-birinə zidd norma mövcuddur. Belə ki, 151-ci maddə müəyyən edir ki, Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən digər aktlar istisna olmaqla, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir. Buradan belə nəticəyə gəlmək olar ki, beynəlxalq aktlar Azərbaycan Respublikasının qanunvericilik sistemində iyerarxiyada konstitusiyadan və referendumla qəbul edilmiş aktlardan sonrakı yeri tutur. Digər tərəfdən, 12-ci maddə bilavasitə müəy-

yən edir ki, bu Konstitusiyada sadalanan insan hüquq və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. Göründüyü kimi, ilk baxışda burada beynəxlaq hüquqi aktların konstitusion normalar üzərində bir növ üstünlüyü mövcuddur. Bəs əslində necə, doğrudanmı bu belədir? Yaranmış problemdən iki cür çıxış yolu vardır. Birinci yol sadə yoldur. Belə ki, «lex specialis derogat legi generale» (xüsusi qanun ümumi qanunu ləğv edir) prinsipinə görə, konstitusiyanın istisna nəzərdə tutması söylənilə bilər, yəni insan hüquqlarına münasibətdə Konstitusiyanın 151-ci maddəsində nəzərdə tutulanın əksinə olaraq beynəlxalq aktlara uyğun gəlməlidir. Bu cür anlam hər iki maddədəki uyğunluq anlayışının eyni cür başa düşülməsindən yarana bilər. Lakin bu yalnız ilk baxışda belədir. Konstitusiya ilə beynəlxalq aktlar arasındakı münasibətdən danışarkən konstitusiyanın mətnində işlədilən sözün eyni cür anlaşılmasından daha çox, qanunvericilik sistemi və beynəlxalq hüquqi aktlar sistemi çıxış nöqtəsi kimi götürülməlidir. Bundan başqa, 12-ci maddədə beynəlxalq aktlara uyğun tətbiq olunmaqdan, 151-ci maddədə isə beynəlxalq aktlarla daxili qanunvericilik aktlarının bir-birinə uyğunluğundan söhbət gedir. Hər şeydən əvvəl, nəzərə almaq lazımdır ki, beynəlxalq aktlar və konstitusiya tamam fərqli sistemlərə məxsusdur. Onların arasında əlaqə var, lakin bu əlaqə heç cür iyerarxiya şəklində təzahür etmir. İyerarxiyanın olması üçün aktların hər ikisi (konstitusiya və beynəlxalq aktlar) eyni bir məsələni müəyyən dəqiqliklə nizamlamalıdırlar. Bu cür tələb olunan dəqiqlik səviyyəsinin olmaması, yəni predmetə münasibətdə hər iki aktın konkret göstərişlər müəyyən etməməsi onların ümumiliyidir. Hər ikisi ümumi olan akt-

lar arasında isə faktiki olaraq iyerarxiya müəyyən etmək qeyri-mümkündür. Çünki normalar o dərəcədə dəqiq heç nə müəyyən etmir ki, sonradan bu dəqiq göstərişlər prosedura və qaydalar arasında ziddiyyəti aşkar edə bilsin. Konstitusiya müəyyən faktı konstatasiya edir, yəni hüququn olub-olmamasını təsis edir. Yerdə qalan bütün məsələlər, hüquqların realizə qaydası cari qanunvericiliyin üstünə düşür. Eynilə beynəlxalq aktlar da müəyyən hüquqların olmasını sadəcə təsbit edir, bir qayda olaraq, onların realizə olunması qaydası, mexanizmi haqda heç bir göstəriş əks etdirmir, ya da çox ümumi göstərişlər nəzərdə tutur (məsələn, ağlabatan müddət). Bu cür ümumi təsbit olunma faktı, sadəcə, onların arasında ziddiyyəti istisna edir (məsələn, həm beynəlxalq aktlar, həm də konstitusiya müəyyən hüquqların ancaq olmasını, mövcudluğunu müəyyən edir). Konstitusiyamızın insan hüquqları ilə bağlı bir çox normaları məhz bu təsbit eyniliyindən mətninə görə beynəlxalq aktların normalarını, demək olar ki, təkrarlayır. Yəni konstitusiya və beynəlxalq aktların xüsusiyyətləri onların arasında birbaşa iyerarxiya müəyyən etməyə imkan vermir. Qeyd etmək lazımdır ki, Konstitusiyanın 12-ci maddəsində insan hüquq və azadlıqlarının beynəlxalq aktlara zidd təsbitindən deyil, onların beynəlxalq aktlara uyğun tətbiq olunmasından söhbət gedir. Yəni uyğunluq tələbi milli qanunvericilikdə olduğu kimi, həm hüququn formalaşdırılmasına (təsbit olunmaya), həm də realizə olunmasına deyil, sadəcə realizə olunmasına aiddir. Bu da göstərdiyimiz kimi, bir çox hallarda məhz qanunvericilik tərəfindən dəqiq müəyyən edilir. Ziddiyyət yaransa da, ilk olaraq konstitusiya ilə beynəlxalq aktlar arasında deyil, qanunla beynəlxalq akt arasında yaranacaq, çünki ziddiyyətlərin mövcudluğu

üçün zəruri dəqiqliyə məhz o malikdir və burada da iyerarxiya münasibəti qurulur. Beynəlxalq akta zidd olan qanun həm də beynəlxalq akt qədər ancaq hüququ təsbit edən konstitusiyaya da ziddir. Əgər konstitusiyaya uyğun gələn akt yalnız beynəlxalq akta ziddirsə, deməli, konstitusiya da beynəlxalq akta ziddir. Beləliklə, Konstitusiyanın 12-ci və 151-ci maddələri arasında konstitusion normaların və beynəlxalq normaların xüsusiyyətlərinə görə ziddiyyət yoxdur və 12-ci maddə beynəlxalq hüquq normalarının insan hüquqları məsələsində konstitusiya üzərində üstünlüyünü nəzərdə tutmur. Bundan əlavə, Konstitusiyanın 130-cu maddəsinin üçüncü hissəsinin 6-cı bəndinə görə, Azərbaycan Respublikasının qüvvəyə minməmiş beynəlxalq müqavilələrinin (insan hüquqları ilə bağlı normalar da) konstitusiyaya uyğunluğu yoxlanılır. Göründüyü kimi, qurulan mexanizm konstitusiyanın beynəlxalq aktlara uyğunluğunun yoxlanmasını deyil, əksinə, beynəlxalq aktların konstitusiyaya uyğunluğunun yoxlanmasını nəzərdə tutur. Bu da nəzəri cəhətdən, ümumiyyətlə, konstitusiya ilə beynəlxalq aktlar arasında ziddiyyət olmasını istisna edir, çünki 130-cu maddənin X hissəsinə görə, Konstitusiyaya ziddiyyəti müəyyən edilən beynəlxalq müqavilələr, ümumiyyətlə, qüvvəyə minmir.

Beynəlxalq aktların daxili hüqunun bir hissəsi kimi tanınması o deməkdir ki, Azərbaycan Respublikasının hüquq tətbiq edən orqanları, o cümlədən məhkəmələri öz aktlarında birbaşa beynəlxalq normalara istinad edə bilərlər və əgər daxili qanunvericiliklə beynəlxalq akt arasında ziddiyyət olarsa, onda işə beynəlxalq aktın müddəaları tətbiq edilməlidir.

§ 4. Konstitusiyaya dəyişikliklər və əlavələr edilməsi qaydası

Hər bir ölkənin konstitusiyası həmin dövlətin və cəmiyyətin əsasını təşkil edən münasibətləri tənzimləyir. Bu münasibətlər də bütün digər ictimai münasibətlər kimi inkişaf edir və dəyişir, lakin başqa münasibətlərdən fərqli olaraq, onlar çox az hallarda dəyişikliyə uğrayır. Bu münasibətlərin əsaslı şəkildə dəyişikliyə uğraması dövlət və cəmiyyətin özünün ictimai-siyasi həyatında köklü dəyişikliklərin baş verməsidir (məsələn, dövlətin birləşməsi və ayrılması, inqilablar, çevrilişlər, cəmiyyətdə baş verən güclü iqtisadi dəyişiklər və s.). Lakin bununla yanaşı, həmin münasibətləri tənzimləyən konstitusiyalar yeni münasibətlərə uyğun olaraq öz-özünə dəyişilmir. Konstitusiya ölkənin ən əsas aktı olduğundan onu hakimiyyətə gəlib-gedən siyasi qüvvənin sui-istifadəsindən qorumaq üçün ona dəyişikliklər və əlavələrin edilməsinin xüsusi qaydası müəyyənləşdirilir. Konstitusiyaların sabitliyi xüsusi prosedura ilə təmin olunduğundan onlar tənzim etdiyi ictimai münasibətlərdəki dəyişikliklərdən, bir qayda olaraq, geri qalırlar. Bu cür qanunvericilik aktlarının sabitliyi ilə ictimai münasibətlərin inkişaf dinamikasının ziddiyyətə girməsi əslində bütün qanunvericiliyin əlamətidir. Qanun həmişə münasibətin sabit, dəyişməz tərəflərini taparaq onların hesabına ictimai münasibətə təsir edir. Hüquq norması dəyişkən ola bilməz, bu onun təbiətinə ziddir. Əks təqdirdə sabit, dəfələrlə tətbiq olunan norma da ola bilməzdi. Lakin ictimai münasibətlər də, əksinə, sabit deyil və daim inkişafdadır. Adi qanunların tənzim etdiyi ictimai münasibətlərin dəyişməsi dərhal hiss olunduğu halda, konstitusiyanın tənzimlə-

diyi münasibətlərdə bu belə deyildir. Bu münasibətlər başqa münasibətlərə nisbətən daha yüksək sabitliyə malikdirlər, bundan başqa, onlarda dəyişmə tədricən, hiss olunmadan getdiyinə görə, demək olar ki, çox vaxt nəzərə çarpmır. Bir çox hallarda dəyişikliklərin nəticələri artıq üzə çıxdığından konstitusiyada dəyişiklik etmək zərurəti ortaya çıxır ki, bu zaman qurulmuş dəyişiklik mexanizmindən istifadə olunur. Bütün bunlar onu deməyə əsas verir ki, birincisi, konstitusiyaya dəyişiklik və əlavələr edilməsi onun hüquqi mühafizəsi rejiminin tərkib hissəsidir; ikincisi, bu prosedur konstitusiyanı ictimai münasibətlərə uyğunlaşdırma vasitəsidir, bir növ dəyişikliklərə reaksiya vermə üsuludur.

Konstitusiyaya əlavələr və dəyişikliklər fərqləndirilir. Əlavələr mövcud normaları saxlamaqla hüquqi tənzimləmənin konstitusiya səviyyəsində dəqiqləşdirilməsidir. Məsələn, əgər Konstitusiyanın 3-cü maddəsində referendumla həll olunmalı məsələləri olduğu kimi saxlamaqla onların sırasına yalnız referendumla dəyişdirilməsi mümkün olan əlavə bir məsələ artırılırsa, onda belə dəyişiklik konstitusiyaya əlavə hesab ediləcəkdir. Dəyişikliklər isə, əksinə, normanın müddəalarının tamamilə yeniləşdirilməsini nəzərdə tutur. Məsələn, 3-cü maddədəki yalnız referendumla dəyişdirilməsi mümkün məsələlər bütövlükdə konstitusiyanın mətnindən çıxarılıb əvəzində tamamilə başqa - yeni məsələlər göstərilərsə, artıq bu, dəyişiklik olacaqdır. Konstitusiyaya dəyişikliklər mövcud normaların nizamasalmasındakı çətinlikləri aradan qaldırmaq məqsədi güddüyü halda, əlavələr tamam yeni konstitusion normalar müəyyən edir. Konstitusiyanın 153-cü maddəsinə görə, dəyişikliklərlə bağlı öncədən Konstitusiya Məhkəməsinin rəyi alınır. Bu cür qay-

da mümkün dəyişikliklərin konstitusiyanın mövcud normalarına uyğun gəlməsini təmin etmək üçündür. Artıq referendumla qəbul olunmuş aktın mətninə dair Konstitusiya Məhkəməsi qərar qəbul edə bilməz, çünki xalqın iradəsi ilə qəbul olunan müddəaya yalnız onun özü dəyişiklik edə bilər. Konstitusiyanın 1-ci, 2-ci, 6-cı, 7-ci, 8-ci və 21 -ci maddələrində dəyişikliklər və ya onların ləğv edilməsi haqqında, 3-cü fəsildə nəzərdə tutulmuş insan və vətəndaş hüquqları və azadlıqlarının ləğvi və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğundan daha artıq dərəcədə məhdudlaşdırılması haqqında təkliflər referenduma çıxarıla bilməz. Bu normalar digər konstitusion normalar üçün əsasdır.

Konstitusiyaya əlavələr Milli Məclisdə 95 səs çoxluğu ilə qəbul olunur. Bu əlavələr iki dəfə səsə qoyulur. Və hər iki səsvermədən sonra da Prezident tərəfindən imzalanmalıdır. Birinci səsvermə ilə ikinci səsvermə arasında 6 ay vaxt keçməlidir. Belə bir müddət ondan ötrü müəyyən edilib ki, əlavələrlə bağlı fikir sabitliyi olsun. Əgər əlavələrlə bağlı sabit fikir yoxdursa və ya tərəddüd varsa, aydındır ki, ikinci səsvermə zamanı mənfi nəticə alına bilər. Əlavələr konstitusiya qanunları şəklində qəbul edilir və konstitusiyanın tərkib hissəsidir. Əlavələrlə bağlı təklifləri Konstitusiyanın 157-ci maddəsinə müvafiq olaraq yalnız Prezident və Milli Məclisin 63 deputatı irəli sürə bilər. Konstitusiyanın 158-ci maddəsinə görə isə, Konstitusiyanın birinici bölməsində əks etdirilmiş müddəalarla əlaqədar Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr təklif edilə bilməz.

* * *

AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI

Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, təntənəli surətdə aşağıdakı niyyətlərini bəyan edir:

- Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;
- Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;
- vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;
- xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;
- ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək;
- ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Yuxarıda sadalanan ülvi niyyətlərlə ümumxalq səsverməsi - referendum yolu ilə bu Konstitusiya qəbul edilir.

BİRİNCİ BÖLMƏ
ÜMUMİ MÜDDƏALAR

I fəsil
XALQ HAKİMİYYƏTİ

Maddə 1. Hakimiyyətin mənbəyi

I. Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır.

II. Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir; bu isə beynəlxalq hüquqla müəyyənləşdirilmiş normaları istisna etmir.

Maddə 2. Xalqın suverenliyi

I. Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur.

II. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi - referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.

Maddə 3. Ümumxalq səsverməsi referendum yolu ilə həll edilən məsələlər

I. Azərbaycan xalqı öz hüquqları və mənafeləri ilə bağlı olan hər bir məsələni referendumla həll edə bilər.

II. Aşağıdakı məsələlər yalnız referendumla həll oluna bilər:

1)Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi və ona dəyişikliklər edilməsi;

2)Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi.

III. Aşağıdakı məsələlər üzrə referendum keçirilə bilməz:

1) vergilər və dövlət büdcəsi;

2) amnistiya və əfvetmə;

3) seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi müvafiq olaraq qanunvericilik və (və ya) icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmiş vəzifəli şəxslərin seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi.

Maddə 4. Xalqı təmsil etmək hüququ

Xalqın seçdiyi səlahiyyətli nümayəndələrindən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur.

Maddə 5. Xalqın vahidliyi

I. Azərbaycan xalqı vahiddir.

II. Azərbaycan xalqının vahidliyi Azərbaycan dövlətinin təməlini təşkil edir. Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz vətənidir.

Maddə 6. Hakimiyyətin mənimsənilməsinə yol verilməməsi

I. Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz.

II. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayətdir.

II fəsil

DÖVLƏTİN ƏSASLARI

Maddə 7. Azərbaycan dövləti

I. Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır.

II. Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.

III. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- Qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;
- İcra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;
- Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

IV. Bu Konstitusiyanın müddəalarına əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

Maddə 8. Azərbaycan dövlətinin başçısı

I. Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir. O, ölkənin daxilində və xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil edir.

II. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir.

III. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısıdır.

IV. Azərbaycan Respublikasının Prezidenti məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır

Maddə 9. Silahlı Qüvvələr

I. Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr və başqa silahlı birləşmələr yaradır.

II. Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir.

III. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali baş komandanıdır.

Maddə 10. Beynəlxalq münasibətlərin prinsipləri

Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur.

Maddə 11. Ərazi

I. Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir.

II. Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir.

III. Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç

bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.

Maddə 12. Dövlətin ali məqsədi

I. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, ***Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin*** təmin edilməsi dövlətin ali məqsədidir.

II. Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

Maddə 13. Mülkiyyət

I. Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur.

II. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti növündə ola bilər.

III. Mülkiyyətdən insan və vətəndaş hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin mənafeləri, şəxsiyyətin ləyaqəti əleyhinə istifadə edilə bilməz.

Maddə 14. Təbii ehtiyatlar

Təbii ehtiyatlar hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur.

Maddə 15. İqtisadi inkişaf və dövlət

I. Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir.

II. Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Maddə 16. Sosial inkişaf və dövlət

I. Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır.

II. Azərbaycan dövləti mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur.

Maddə 17. Ailə, uşaqlar və dövlət

I. Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir.

II. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir.

III. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər.

IV. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır.

V. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər.

VI. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir.

Maddə 18. Din və dövlət

I. Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Bütün dini etiqadlar qanun qarşısında bərabərdir.

II. İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin ***(dini cərəyanların)*** yayılması və təbliği qadağandır.

III. Dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır.

Maddə 19. Pul vahidi

I. Azərbaycan Respublikasının pul vahidi manatdır.

II. Pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququ yalnız Mərkəzi Banka mənsubdur. Azərbaycan Respublikasının Mərkəzi Bankı dövlətin müstəsna mülkiyyətindədir.

Maddə 20. Dövlətin borclarına qoyulan məhdudiyyətlər

Azərbaycan dövlətinə qarşı qiyama və ya dövlət çevrilişinə kömək məqsədi ilə alınmış borclar Azərbaycan Respublikası tərəfindən öhdəlik kimi qəbul edilə və ödənilə bilməz.

Maddə 21. Dövlət dili

I. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir.

II. Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir.

Maddə 22. Paytaxt

Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəridir.

Maddə 23. Azərbaycan dövlətinin rəmzləri

I. Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir.

II. Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

III. Azərbaycan Respublikası Dövlət bayrağının və Azərbaycan Respublikası Dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Dövlət himninin musiqisi və mətni Konstitusiya Qanunu ilə müəyyən edilir.

İKİNCİ BÖLMƏ

ƏSAS HÜQUQLAR, AZADLIQLAR VƏ VƏZİFƏLƏR

III fəsil

ƏSAS İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARI VƏ AZADLIQLARI

Maddə 24. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi

I. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır.

II. Hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir.

Maddə 25. Bərabərlik hüququ

I. Hamı qanun və məhkəmə qarşısında bərabərdir.

II. Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır.

III. Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

IV. Heç kəsə bu maddənin III hissəsində göstərilən əsaslara görə zərər vurula bilməz, güzəştlər və ya imtiyazlar verilə bilməz, yaxud güzəştlərin və ya imtiyazların verilməsindən imtina oluna bilməz.

V. Hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilir.

Maddə 26. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi

I. Hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır.

II. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir.

Maddə 27. Yaşamaq hüququ

I. Hər kəsin yaşamaq hüququ vardır.

II. Dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm cəzasının tətbiqi və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla, hər bir şəxsin yaşamaq hüququ toxunulmazdır.

III. Müstəsna cəza tədbiri kimi ölüm cəzası, tam ləğv edilənədək, yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı xüsusilə ağır cinayətlərə görə qanunla müəyyən edilə bilər.

IV. Qanunla nəzərdə tutulmuş zəruri müdafiə, son zərurət, cinayətkarın yaxalanması və tutulması, həbsdə olanın həbs yerindən qaçmasının qarşısının alınması, dövlətə qarşı qiyamın yatırılması və ya dövlət çevrilişinin qarşısının alınması, ölkəyə silahlı basqın edilməsi halları istisna olmaqla, insana qarşı silah işlədilməsinə yol verilmir.

Maddə 28. Azadlıq hüququ

I. Hər kəsin azadlıq hüququ vardır.

II. Azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər.

III. Qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər və Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər.

IV. Azərbaycan Respublikası vətəndaşının hər zaman maneəsiz öz ölkəsinə qayıtmaq hüququ vardır.

Maddə 29. Mülkiyyət hüququ

I. Hər kəsin mülkiyyət hüququ vardır.

II. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur.

III. Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

IV. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Əmlakın tam müsadirəsinə yol verilmir. Dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər.

V. Dövlət vərəsəlik hüququna təminat verir.

Maddə 30. Əqli mülkiyyət hüququ

I. Hər kəsin əqli mülkiyyət hüququ vardır.

II. Müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur.

Maddə 31. Təhlükəsiz yaşamaq hüququ

I. Hər kəsin təhlükəsiz yaşamaq hüququ vardır.

II. Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qadağandır.

Maddə 32. Şəxsi toxunulmazlıq hüququ

I. Hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır.

II. Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi və ***ailə həyatına*** müdaxilə etmək qadağandır. ***Hər***

kəsin şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır.

III. Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. ***Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz.***

IV. Hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.

V. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, hər kəs onun haqqında toplanmış məlumatlarla tanış ola bilər. Hər kəsin onun barəsində toplanmış və həqiqətə uyğun olmayan, tam olmayan, habelə qanunun tələbləri pozulmaqla əldə edilmiş məlumatların düzəldilməsini və ya çıxarılmasını (ləğv edilməsini) tələb etmək hüququ vardır.

Maddə 33. Mənzil toxunulmazlığı hüququ

I. Hər kəsin mənzil toxunulmazlığı hüququ vardır.

II. Qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz.

Maddə 34. Nikah hüququ

I. Hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır.

II. Nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz.

III. Nikah və ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlət çoxuşaqlı ailələrə yardım göstərir.

IV. Ər ilə arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur.

V. Valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar.

Maddə 35. Əmək hüququ

I. Əmək fərdi və ictimai rifahın əsasıdır.

II. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.

III. Heç kəs zorla işlədilə bilməz.

IV. Əmək müqavilələri sərbəst bağlanılır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz.

V. Məhkəmə qərarı əsasında şərtləri və müddətləri qanunla nəzərdə tutulan məcburi əməyə cəlb etmək, hərbi xidmət zamanı səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsi ilə əlaqədar işlətmək, fövqəladə vəziyyət və hərbi vəziyyət zamanı vətəndaşlara tələb olunan işləri gördürmək hallarına yol verilir.

VI. Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır.

VII. İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır.

VIII. Dövlət işsizliyin aradan qaldırılması üçün bütün imkanlarından istifadə edir.

Maddə 36. Tətil hüququ

I. Hər kəsin təkbaşına və ya başqaları ilə birlikdə tətil etmək hüququ vardır.

II. Əmək müqaviləsi əsasında işləyənlərin tətil etmək hüququ yalnız qanunla nəzərdə tutulmuş hallarda məhdudlaşdırıla bilər. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və digər silahlı birləşmələrdə xidmət edən hərbi qulluqçular və mülki şəxslər tətil edə bilməzlər.

III. Fərdi və kollektiv əmək mübahisələri qanunla müəyyənləşdirilmiş qaydada həll edilir.

Maddə 37. İstirahət hüququ

I. Hər kəsin istirahət hüququ vardır.

II. Əmək müqaviləsi ilə işləyənlərə qanunla müəyyən edilmiş, lakin gündə 8 saatdan artıq olmayan iş günü, istirahət və bayram günləri, ildə azı bir dəfə 21 təqvim günündən az olmayan ödənişli məzuniyyət verilməsi təmin edilir.

Maddə 38. Sosial təminat hüququ

I. Hər kəsin sosial təminat hüququ vardır.

II. Yardıma möhtac olanlara kömək etmək ilk növbədə onların ailə üzvlərinin borcudur.

III. Hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir.

IV. Təqaüdlərin və sosial müavinətlərin minimum məbləği qanunla müəyyən edilir.

V. Dövlət xeyriyyəçilik fəaliyyətinin, könüllü sosial sığortanın və sosial təminatın başqa növlərinin inkişafı üçün imkanlar yaradır.

Maddə 39. Sağlam ətraf mühitdə yaşamaq hüququ

I. Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır.

II. Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır.

III. Heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz.

IV. Dövlət ekoloji tarazlığın saxlanılmasına, yabanı bitkilərin və vəhşi heyvanların qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat verir.

Maddə 40. Mədəniyyət hüququ

I. Hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır.

II. Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır.

Maddə 41. Sağlamlığın qorunması hüququ

I. Hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır.

II. Dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür, sanitariya-epidemiologiya salamatlığına təminat verir, tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaradır.

III. İnsanların həyatı və sağlamlığı üçün təhlükə törədən faktları və halları gizlədən vəzifəli şəxslər qanun əsasında məsuliyyətə cəlb edilirlər.

Maddə 42. Təhsil hüququ

I. Hər bir vətəndaşın təhsil almaq hüququ vardır.

II. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir.

III. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir.

IV. Maddi vəziyyətindən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir.

V. Dövlət minimum təhsil standartlarını müəyyən edir.

Maddə 43. Mənzil hüququ

I. Heç kəs yaşadığı mənzildən qanunsuz məhrum edilə bilməz.

II. Dövlət yaşayış binalarının və evlərin tikintisinə rəvac verir, insanların mənzil hüququnu gerçəkləşdirmək üçün xüsusi tədbirlər görür.

Maddə 44. Milli mənsubiyyət hüququ

I. Hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır.

II. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz.

Maddə 45. Ana dilindən istifadə hüququ

I. Hər kəsin ana dilindən istifadə etmək hüququ vardır. Hər kəsin istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır.

II. Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz.

Maddə 46. Şərəf və ləyaqətin müdafiəsi hüququ

I. Hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır.

II. Şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz.

III. Heç kəsə işgəncə və əzab verilə bilməz. heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz. Özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz.

Maddə 47. Fikir və söz azadlığı

I. Hər kəsin fikir və söz azadlığı vardır.

II. Heç kəs öz fikir və əqidəsini açıqlamağa və ya fikir və əqidəsindən dönməyə məcbur edilə bilməz.

III. İrqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir.

Maddə 48. Vicdan azadlığı

I. Hər kəsin vicdan azadlığı vardır.

II. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır.

III. Dini mərasimlərin yerinə yetirilməsi, ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyildirsə, sərbəstdir.

IV. Dini etiqad və əqidə hüquq pozuntusuna bəraət qazandırmır.

V. Heç kəs öz dini etiqadını və əqidəsini ifadə etməyə (nümayiş etdirməyə), dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz.

Maddə 49. Sərbəst toplaşmaq azadlığı

I. Hər kəsin başqaları ilə birlikdə sərbəst toplaşmaq azadlığı vardır.

II. Hər kəsin başqaları ilə birlikdə müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək, piketlər düzəltmək hüququ vardır.

Maddə 50. Məlumat azadlığı

I. Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır.

II. Kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır.

III. Hər kəsin kütləvi informasiya vasitələrində dərc edilən və onun hüquqlarını pozan və ya mənafelərinə xələl gətirən məlumatı təkzib etmək və ya ona cavab vermək hüququna təminat verilir.

Maddə 51. Yaradıcılıq azadlığı

I. Hər kəsin yaradıcılıq azadlığı vardır.

II. Dövlət ədəbi-bədii, elmi-texniki və başqa yaradıcılıq növlərinin azad həyata keçirilməsinə təminat verir.

Maddə 52. Vətəndaşlıq hüququ

Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır.

Maddə 53. Vətəndaşlıq hüququnun təminatı

I. Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikası vətəndaşlığından məhrum edilə bilməz.

II. Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikasından qovula və ya xarici dövlətə verilə bilməz.

III. Azərbaycan Respublikası onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir.

Maddə 54. Cəmiyyətin və dövlətin siyasi həyatında iştirak hüququ

I. Azərbaycan Respublikası vətəndaşlarının cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək hüququ vardır.

II. Dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə müstəqil müqavimət göstərmək Azərbaycan Respublikasının hər bir vətəndaşının hüququdur.

Maddə 55. Dövlətin idarə olunmasında iştirak etmək hüququ

I. Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır. Bu hüququ onlar bilavasitə və ya nümayəndələri vasitəsilə həyata keçirə bilərlər.

II. Azərbaycan Respublikasının vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malikdirlər. Dövlət orqanlarının vəzifəli şəxsləri Azərbaycan Respublikasının vətəndaşları sırasından təyin edilirlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət qulluğuna qanunla müəyyənləşdirilmiş qaydada qəbul edilə bilərlər.

Maddə 56. Seçki hüququ

I. Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır.

II. Məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə, habelə referendumda iştirak etmək hüququ yoxdur.

III. Hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, bu Konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin seçkilərdə iştirak etmək hüququ qanunla məhdudlaşdırıla bilər.

Maddə 57. Müraciət etmək hüququ

I. Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hər bir

müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir.

II. Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarının və onların vəzifəli şəxslərinin, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, habelə ayrı-ayrı vətəndaşların fəaliyyətini və ya işini tənqid etmək hüququ vardır. Tənqidə görə təqib qadağandır. Təhqir və böhtan tənqid sayıla bilməz.

Maddə 58. Birləşmək hüququ

I. Hər kəsin başqaları ilə birləşmək hüququ vardır.

II. Hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir.

III. Heç kəs hər hansı birliyə daxil olmağa və ya onun üzvlüyündə qalmağa məcbur edilə bilməz.

IV. Azərbaycan Respublikasının bütün ərazisində və ya hər hansı hissəsində qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi güdən birliklər qadağandır. Konstitusiyanı və qanunları pozan birliklərin fəaliyyətinə yalnız məhkəmə qaydasında xitam verilə bilər.

Maddə 59. Azad sahibkarlıq hüququ

Hər kəs qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər.

Maddə 60. Hüquq və azadlıqların məhkəmə təminatı

I. Hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir.

II. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər.

Maddə 61. Hüquqi yardım almaq hüququ

I. Hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır.

II. Qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir.

III. Hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır.

Maddə 62. Məhkəmə aidiyyətinin dəyişdirilməsinə yol verilməməsi

Hər kəsin onun işinə qanunla müəyyən edilmiş məhkəmədə baxılması hüququ vardır. Şəxsin razılığı olmadan onun işinə başqa məhkəmədə baxılmasına yol verilmir.

Maddə 63. Təqsirsizlik prezumpsiyası

I. Hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta ye-

tirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır.

II. Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilmir.

III. Cinayətin törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsizliyini sübuta yetirməyə borclu deyildir.

IV. Ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz.

V. Məhkəmənin hökmü olmasa kimsə cinayətdə təqsirli sayıla bilməz.

Maddə 64. Bir cinayətə görə təkrarən məhkum etməyə yol verilməməsi

Heç kəs bir cinayətə görə təkrarən məhkum edilə bilməz.

Maddə 65. Məhkəməyə təkrar müraciət hüququ

Məhkəmənin məhkum etdiyi hər bir şəxsin öz barəsində çıxarılmış hökmə qanunla nəzərdə tutulan qaydada yuxarı məhkəmədə yenidən baxılması, habelə özünün əfv edilməsi və cəzasının yüngülləşdirilməsi haqqında müraciət etmək hüququ vardır.

Maddə 66. Qohumların əleyhinə ifadə verməyə məcbur etməyə yol verilməməsi

Heç kəs özünə, arvadına (ərinə) , övladlarına, valideynlərinə, qardaşına, bacısına qarşı ifadə verməyə məcbur edilə bilməz. Əleyhinə ifadə verilməsi məcburi olmayan qohumların tam siyahısı qanunla müəyyən edilir.

Maddə 67. Tutulan, həbsə alınan və cinayət törədilməsində təqsirləndirilən şəxslərin hüquqları

I. Səlahiyyətli dövlət orqanlarının tutduğu, həbsə aldığı, cinayət törədilməsində ***təqsirləndirdiyi*** hər bir şəxsə dərhal onun hüquqları bildirilir və tutulmasının, həbsə alınmasının və cinayət məsuliyyətinə cəlb edilməsinin səbəbləri izah edilir.

II. Cinayət törədilməsində təqsirləndirilən hər bir şəxs məhkum edilməzdən əvvəl dinlənilməlidir.

Maddə 68. Zərərin ödənilməsini tələb etmək hüququ

I. Cinayət, habelə hakimiyyətdən sui-istifadə nəticəsində zərər çəkmiş şəxsin hüquqları qanunla qorunur. Zərər çəkmiş şəxsin ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etmək və ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququ vardır.

II. Hər kəsin dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya hərəkətsizliyi nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsi hüququ vardır.

Maddə 69. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqları

I. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər.

II. Azərbaycan Respublikası ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqları yalnız beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq məhdudlaşdırıla bilər.

Maddə 70. Siyasi sığınacaq hüququ

I. Hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikası əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə siyasi sığınacaq verir.

II. Siyasi əqidəsinə görə, habelə Azərbaycan Respublikasında cinayət sayılmayan əmələ görə təqib edilən şəxslərin başqa dövlətə verilməsinə yol verilmir.

Maddə 71. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı

I. Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur.

II. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz. ***Hər kəsin hüquq və azadlıqları bu Konstitusiyada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır.***

III. Müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaq şərti ilə qismən və müvəqqəti məhdudlaşdırıla bilər. Həyata keçirilməsi məhdudlaşdırılan hüquq və azadlıqlar haqqında əhaliyə qabaqcadan məlumat verilir.

IV. Heç bir halda heç kəs din, vicdan, fikir və əqidəsini açıqlamağa məcbur edilə bilməz və bunlara görə təqsirləndirilə bilməz.

V. Bu Konstitusiyanın heç bir müddəası insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə yönəldilmiş müddəa kimi təfsir edilə bilməz.

VI. Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir.

VII. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir.

VIII. Heç kəs törədildiyi zaman hüquq pozuntusu sayılmayan əmələ görə məsuliyyət daşımır. Hüquq pozuntusu törədildikdən sonra yeni qanunla bu cür hərəkətlərə görə məsuliyyət aradan qaldırılmışsa və ya yüngülləşdirilmişsə, yeni qanun tətbiq edilir.

IX. Hər kəs qanunla qadağan olunmayan hərəkətləri edə bilər və heç kəs qanunla nəzərdə tutulmayan hərəkətləri etməyə məcbur edilə bilməz.

X. Dövlət orqanları yalnız bu Konstitusiya əsasında, qanunla müəyyən edilmiş qaydada və hüdudlarda fəaliyyət göstərə bilərlər.

IV fəsil

VƏTƏNDAŞLARIN ƏSAS VƏZİFƏLƏRİ

Maddə 72. Vətəndaşların vəzifələrinin əsası

I. Dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır. ***Hər kəsin üzərinə vəzifələr yalnız bu Konstitusiya ilə və ya qanunla qoyula bilər.***

II. Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir.

III. Qanunu bilməmək məsuliyyətdən azad etmir.

Maddə 73. Vergilər və başqa dövlət ödənişləri

I. Qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur.

II. Heç kəs qanunla nəzərdə tutulmuş əsaslar olmadan və qanunda göstərilmiş həcmdən əlavə vergilər və başqa dövlət ödənişləri ödəməyə məcbur edilə bilməz.

Maddə 74. Vətənə sədaqət

I. Vətənə sədaqət müqəddəsdir.

II. Vəzifəyə seçilmə və ya təyinat yolu ilə qanunvericilik, icra və ya məhkəmə hakimiyyəti orqanlarında işləyən şəxslər öz vəzifələrini dürüst və layiqincə yerinə yetirməməyə görə məsuliyyət daşıyırlar və qanunla müəyyən edilmiş hallarda and içirlər.

III. Vəzifəyə seçilmə və ya təyinat yolu ilə qanunvericilik, icra və ya məhkəmə hakimiyyəti orqanlarında işləyən, Azərbaycan Respublikası Konstitusiyasına sadiq qalacağına and içmiş şəxs dövlətə qarşı cinayətdə, o cümlədən dövlətə qarşı qiyamda və ya dövlət çevrilişində ittiham edilibsə və bu ittiham əsasında məhkum olunubsa, həmin vəzifədən getmiş sayılır və bir daha bu vəzifəni tuta bilməz.

Maddə 75. Dövlət rəmzlərinə hörmət

I. Hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə - bayrağına, gerbinə və himninə hörmət etməlidir.

II. Dövlət rəmzlərinə hörmətsizliyin nümayiş etdirilməsi qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Maddə 76. Vətəni müdafiə

I. Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər.

II. Vətəndaşların əqidəsi həqiqi hərbi xidmət keçməyə ziddirsə, qanunla müəyyən edilmiş hallarda həqiqi hərbi xidmətin alternativ xidmətlə əvəz olunmasına yol verilir.

Maddə 77. Tarix və mədəniyyət abidələrinin qorunması

Tarix və mədəniyyət abidələrini qorumaq hər bir şəxsin borcudur.

Maddə 78. Ətraf mühitin qorunması

Ətraf mühitin qorunması hər bir şəxsin borcudur.

Maddə 79. Qanuna zidd vəzifələrin icrasına yol verilməməsi

Heç kəs Azərbaycan Respublikasının Konstitusiyasına və ya qanunlarına zidd vəzifələrin icrasına məcbur edilə bilməz.

Maddə 80. Məsuliyyət

Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur.

ÜÇÜNCÜ BÖLMƏ
DÖVLƏT HAKİMİYYƏTİ

V fəsil
QANUNVERİCİLİK HAKİMİYYƏTİ

Maddə 81. Qanunvericilik hakimiyyətinin həyata keçirilməsi

Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir.

Maddə 82. Azərbaycan Respublikası Milli Məclisinin say tərkibi

Azərbaycan Respublikasının Milli Məclisi 125 deputatdan ibarətdir.

Maddə 83. Azərbaycan Respublikası Milli Məclisi deputatlarının seçkilərinin əsasları

Azərbaycan Respublikası Milli Məclisinin deputatları majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər.

Maddə 84. Azərbaycan Respublikası Milli Məclisi çağırışının səlahiyyət müddəti

I. Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının səlahiyyət müddəti 5 ildir. ***Müharibə şəraitində hərbi əməliyyatların aparılması Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirilməsini mümkün etmədikdə Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti hərbi əməliyyatların sonu-***

nadək uzadılır. Bu barədə qərar seçkilərin (referendumun) keçirilməsini təmin edən dövlət orqanının müraciətinə əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən qəbul edilir.

II. Azərbaycan Respublikası Milli Məclisinin hər çağırışının seçkiləri hər beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir.

III. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının səlahiyyət müddəti Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti ilə məhdudlaşır.

IV. Azərbaycan Respublikası Milli Məclisinin deputatlığından çıxanların yerinə yeni seçkilər keçirilərsə, yeni seçilən deputatın səlahiyyət müddəti deputatlıqdan çıxanın qalan səlahiyyət müddəti ilə məhdudlaşır.

Maddə 85. Azərbaycan Respublikası Milli Məclisinin deputatlığına namizədlərə aid tələblər

I. Azərbaycan Respublikasının yaşı 25-dən aşağı olmayan hər bir vətəndaşı qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilə bilər.

II. İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza

çəkən şəxslər Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilə bilməzlər.

Maddə 86. Azərbaycan Respublikası Milli Məclisi deputatlarının seçkilərinin nəticələrinin yoxlanılması və təsdiqi

Seçkilərin nəticələrinin düzgünlüyünü qanunla müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yoxlayır və təsdiq edir.

Maddə 87. Azərbaycan Respublikası Milli Məclisi deputatlarının səlahiyyətinin bitməsi

I. Azərbaycan Respublikası Milli Məclisi deputatlarının səlahiyyətləri Azərbaycan Respublikası Milli Məclisinin yeni çağırışının ilk iclas günü bitir.

II. Azərbaycan Respublikası Milli Məclisi deputatlığından çıxanların yerinə seçkilər Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyət müddətinin bitməsinə 120 gündən az müddət qalarsa, keçirilmir.

III. Azərbaycan Respublikasının Milli Məclisi 83 deputatının səlahiyyətləri təsdiq olunduqda səlahiyyətlidir.

Maddə 88. Azərbaycan Respublikası Milli Məclisinin sessiyaları

I. Azərbaycan Respublikasının Milli Məclisi hər il iki növbəti yaz və payız sessiyalarına yığılır.

Azərbaycan Respublikası Milli Məclisinin 83 deputatının səlahiyyətləri təsdiq edildikdən sonra Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası həmin gündən başlayaraq bir həftədən gec olmayaraq çağırılır.

Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdən sonra martın 10-dək onun 83 deputatının səlahiyyət-

ləri təsdiq edilməzsə, Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasının keçirilmə vaxtını Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi müəyyən edir.

II. Azərbaycan Respublikası Milli Məclisinin növbədənkənar sessiyalarını Azərbaycan Respublikası Milli Məclisinin sədri Azərbaycan Respublikası Prezidentinin və ya Azərbaycan Respublikası Milli Məclisinin 42 deputatının tələbi əsasında çağırır.

III. Azərbaycan Respublikası Milli Məclisinin növbədənkənar sessiyasının gündəliyini müvafiq olaraq onun çağırılmasını tələb edənlər müəyyənləşdirir. Bu gündəlikdəki məsələlərə baxıldıqdan sonra növbədənkənar sessiyanın işi bitir.

IV. Azərbaycan Respublikası Milli Məclisinin sessiyalarının iclasları açıq keçirilir. Azərbaycan Respublikası Milli Məclisinin 83 deputatının tələbi ilə və ya Azərbaycan Respublikası Prezidentinin təklifi ilə Azərbaycan Respublikası Milli Məclisinin sessiyasının qapalı iclası keçirilə bilər.

Maddə 89. Azərbaycan Respublikası Milli Məclisi deputatlığından məhrumetmə və Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının səlahiyyətlərinin itirilməsi

I. Azərbaycan Respublikası Milli Məclisinin deputatı aşağıdakı hallarda mandatından məhrum edilir:

1) seçkilər zamanı səslərin düzgün hesablanmadığı aşkar olunduqda;

2) Azərbaycan Respublikası vətəndaşlığından çıxdıqda və ya başqa dövlətin vətəndaşlığını qəbul etdikdə;

3) cinayət törətdikdə və məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda;

4) dövlət orqanlarında vəzifə tutduqda, din xadimi olduqda, sahibkarlıq, kommersiya və başqa ödənişli fəaliyyətlə məşğul olduqda (elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla);

5) özü imtina etdikdə.

II. Azərbaycan Respublikası Milli Məclisinin deputatları öz səlahiyyətlərini daimi icra edə bilmədikdə və qanunda nəzərdə tutulmuş digər hallarda onların səlahiyyətləri itirilir. Müvafiq qərarın qəbul edilmə qaydası qanunla müəyyən edilir.

Maddə 90. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının toxunulmazlığı

I. Səlahiyyət müddəti ərzində Azərbaycan Respublikası Milli Məclisi deputatının şəxsiyyəti toxunulmazdır. Azərbaycan Respublikası Milli Məclisinin deputatı səlahiyyət müddəti ərzində cinayət başında yaxalanma hallarından başqa, cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz. Azərbaycan Respublikası Milli Məclisinin deputatı cinayət başında yaxalanarsa tutula bilər. Belə olduqda Azərbaycan Respublikası Milli Məclisinin deputatını tutan orqan bu barədə dərhal Azərbaycan Respublikasının Baş prokuroruna xəbər verməlidir.

II. Azərbaycan Respublikası Milli Məclisinin deputatının toxunulmazlığına yalnız Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına əsasən Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə xitam verilə bilər.

Maddə 91. Azərbaycan Respublikası Milli Məclisi deputatının məsuliyyətə cəlb olunmasına qoyulan qadağanlar

Azərbaycan Respublikası Milli Məclisinin deputatları Azərbaycan Respublikası Milli Məclisindəki fəaliyyətinə, səsverməyə və söylədiyi fikrə görə məsuliyyətə cəlb oluna bilməzlər. Razılığı olmadan onlardan bu hallarla əlaqədar izahat, ifadə tələb edilə bilməz.

Maddə 92. Azərbaycan Respublikası Milli Məclisinin işinin təşkili

Azərbaycan Respublikasının Milli Məclisi öz iş qaydasını müəyyən edir və Milli Məclisin müvafiq orqanlarını yaradır, o cümlədən öz sədrini və onun müavinlərini seçir, ***komitələr və komissiyalar*** təşkil edir, Hesablama palatası yaradır.

Maddə 93. Azərbaycan Respublikası Milli Məclisinin aktları

I. Azərbaycan Respublikasının Milli Məclisi öz səlahiyyətlərinə aid məsələlər üzrə Konstitusiya qanunları, qanunlar və qərarlar qəbul edir.

II. Azərbaycan Respublikasının Milli Məclisində Konstitusiya qanunları, qanunlar və qərarlar bu Konstitusiya ilə nəzərdə tutulmuş qaydada qəbul edilir.

III. Azərbaycan Respublikası Milli Məclisinin deputatları səsvermə hüququnu şəxsən həyata keçirirlər.

IV. Qanunlarda və Azərbaycan Respublikası Milli Məclisinin qərarlarında icra hakimiyyəti və məhkəmə orqanlarına konkret tapşırıqlar nəzərdə tutula bilməz.

Maddə 94. Azərbaycan Respublikası Milli Məclisinin müəyyən etdiyi ümumi qaydalar

I. Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakı məsələlərə dair ümumi qaydalar müəyyən edir:

1) bu Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarından və azadlıqlarından istifadə, bu hüquqların və azadlıqların dövlət təminatı;

2) Azərbaycan Respublikası Prezidentinin seçkiləri;

3) Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər və Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının statusu;

4) referendum;

5) məhkəmə quruluşu və hakimlərin statusu; prokurorluq; vəkillik və notariat;

6) məhkəmə icraatı, məhkəmə qərarlarının icrası;

7) bələdiyyələrə seçkilər və bələdiyyələrin statusu;

8) fövqəladə vəziyyət rejimi; hərbi vəziyyət rejimi;

9) dövlət təltifləri;

10) fiziki və hüquqi şəxslərin statusu;

11) mülki hüquq obyektləri;

12) əqdlər, mülki müqavilələr, nümayəndəlik və vərəsəlik;

13) mülkiyyət hüququ, o cümlədən dövlət, xüsusi və bələdiyyə mülkiyyətinin hüquqi rejimi, əqli mülkiyyət hüququ; digər əşya hüquqları; öhdəlik hüququ;

14) ailə münasibətləri, o cümlədən himayəçilik və qəyyumluq;

15) maliyyə fəaliyyətinin əsasları, vergilər, rüsumlar və ödənişlər;

16) əmək münasibətləri və sosial təminat;

17) cinayətlərin və başqa hüquq pozuntularının müəyyən edilməsi, onların törədilməsinə görə məsuliyyətin təyin edilməsi;

18) müdafiə və hərbi qulluq;

19) dövlət qulluğu;

20) təhlükəsizliyin əsasları;

21) ərazi quruluşu; dövlət sərhədi rejimi;

22) beynəlxalq müqavilələrin təsdiqi və ləğvi;

23) rabitə və nəqliyyat işi;

24) statistika, metrologiya və standartlar;

25) gömrük işi;

26) ticarət işi və birja fəaliyyəti;

27) bank işi, mühasibat, sığorta.

II. Bu maddənin 2-ci, 3-cü, 4-cü bəndlərində göstərilən məsələlərə dair qanunlar 83 səs çoxluğu ilə, qalan məsələlərə dair qanunlar isə 63 səs çoxluğu ilə qəbul edilir.

III. Bu maddənin birinci hissəsinə Konstitusiya qanunu ilə əlavələr edilə bilər.

Maddə 95. Azərbaycan Respublikası Milli Məclisinin həll etdiyi məsələlər

I. Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətinə aşağıdakı məsələlərin həlli aiddir:

1) Azərbaycan Respublikası Milli Məclisinin işinin təşkili;

2) Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikası diplomatik nümayəndəliklərinin təsis edilməsi;

3) inzibati ərazi bölgüsü;

4) dövlətlərarası ***və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası*** müqavilələrin təsdiq və ləğv edilməsi;

5) Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası dövlət büdcəsinin təsdiq edilməsi və onun icrasına nəzarət;

6) Azərbaycan Respublikası prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkilinin seçilməsi;

7) Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının hərbi doktrinasının təsdiqi;

8) bu Konstitusiyada nəzərdə tutulmuş hallarda Azərbaycan Respublikası Prezidentinin fərmanlarının təsdiqi;

9) Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Baş nazirinin vəzifəyə təyin edilməsinə razılıq verilməsi;

10) Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikası Ali Məhkəməsi və Azərbaycan Respublikası apelyasiya məhkəmələri hakimlərinin təyin edilməsi;

11) Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Baş prokurorunun vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verilməsi;

12) Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təqdimatına əsasən Azərbaycan Respublikası Prezidentinin impiçment qaydasında vəzifədən kənarlaşdırılması;

13) Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən hakimlərin vəzifədən kənarlaşdırılması;

14) Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi;

15) Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası ***Mərkəzi Bankı*** İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

16) Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsinə razılıq verilməsi;

17) Azərbaycan Respublikası Prezidentinin müraciətinə əsasən müharibə elan edilməsinə və sülh bağlanmasına razılıq verilməsi;

18) referendum təyin edilməsi;

19) amnistiya.

20) bələdiyyələrin hesabatlarının dinlənilməsi.

II. Bu maddənin 1-5-ci bəndlərində göstərilən məsələlərə dair 63 səs çoxluğu ilə qanunlar, qalan məsələlərə dair isə bu Konstitusiyada başqa qayda nəzərdə tutulmayıbsa, eyni qaydada qərarlar qəbul edilir.

III. Bu Konstitusiyada Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətlərinə aid edilən digər məsələlərə, Azərbaycan Respublikası Milli Məclisinin işinin təşkili ilə əlaqədar məsələlərə, Azərbaycan Respublikası Milli Məclisinin münasibətinin bildirilməsi zəruri olan məsələlərə dair də qərarlar qəbul edilir.

IV. Bu maddənin birinci hissəsinə Konstitusiya qanunu ilə əlavələr edilə bilər.

Maddə 96. Qanunvericilik təşəbbüsü hüququ

I. Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququ (qanun layihələrini və başqa

məsələləri Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim etmək hüququ) Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına, Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Ali Məhkəməsinə, ***Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşına,*** Azərbaycan Respublikası Prokurorluğuna və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə mənsubdur.

II. Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, ***Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşının,*** Azərbaycan Respublikası Prokurorluğunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə verdiyi qanun və ya qərar layihələri müzakirəyə təqdim olunmuş şəkildə çıxarılır və səsə qoyulur.

III. Belə qanun və ya qərar layihələrində dəyişikliklər qanunvericilik təşəbbüsü hüququndan istifadə edən ***subyektin*** razılığı ilə edilə bilər.

IV. Qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, ***Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşının,*** Azərbaycan Respublikası Prokurorluğunun və ya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Azərbaycan Respublikası Milli Məclisinə təqdim etdiyi qanun və ya qərar layihələri iki ay ərzində səsə qoyulur.

V. Qanun və ya qərar layihəsini Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikası Prokurorluğu və ya Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təcili elan edibsə, bu müddət 20 gün təşkil edir.

VI. Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası qanunla müəyyən edilir.

VII. Qanun və qərar layihələri əsaslandırılmalı və onların qəbul edilməsinin məqsədləri göstərilməlidir.

Maddə 97. Qanunların imzalanmaq üçün təqdim olunması müddəti

I. Qanunlar qəbul edildiyi gündən 14 gün müddətində Azərbaycan Respublikasının Prezidentinə imzalanmaq üçün təqdim edilir.

II. Təcili elan olunan qanun layihəsi Azərbaycan Respublikasının Prezidentinə imzalanmaq üçün qəbul edildiyi gündən 24 saat ərzində təqdim edilir.

Maddə 98. Azərbaycan Respublikası Milli Məclisinin aktlarının qüvvəyə minməsi

Qanunun və Azərbaycan Respublikası Milli Məclisinin qərarının özündə başqa qayda nəzərdə tutulmayıbsa, qanun və qərar dərc edildiyi gündən qüvvəyə minir.

V I fəsil

İCRA HAKİMİYYƏTİ

Maddə 99. İcra hakimiyyətinin mənsubiyyəti

Azərbaycan Respublikasında icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur.

Maddə 100. Azərbaycan Respublikasının Prezidentliyinə namizədlərə aid tələblər

Yaşı otuz beşdən aşağı olmayan, Azərbaycan Respublikasının ərazisində 10 ildən artıq daimi yaşayan, seçki-

lərdə iştirak etmək hüququna malik olan, o cümlədən ağır cinayətə görə məhkum olunmayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Azərbaycan Respublikasının vətəndaşı Azərbaycan Respublikasının Prezidenti seçilə bilər.

Maddə 101. Azərbaycan Respublikası Prezidenti seçkilərinin əsasları

I. Azərbaycan Respublikasının Prezidenti ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir.

II. Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir.

III. Bu səs çoxluğu səsvermənin birinci dövrəsində toplanmayıbsa, səsvermə günündən sonra ikinci bazar günü səsvermənin ikinci dövrəsi keçirilir. İkinci dövrədə ancaq birinci dövrədə ən çox səs toplamış iki namizəd, yaxud ən çox səs toplamış və öz namizədliyini geri götürmüş namizədlərdən sonra gələn iki namizəd iştirak edir.

IV. Səsvermənin ikinci dövrəsində səs çoxluğu toplayan namizəd Azərbaycan Respublikasının Prezidenti seçilmiş sayılır.

V. Müharibə şəraitində hərbi əməliyyatların aparılması Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsini mümkün etmədikdə Azərbaycan Respublikası Prezidentinin səlahiyyət müddəti hərbi əməliyyatların sonunadək uzadılır. Bu barədə qərar seçkilərin (referendumun) keçirilməsini təmin edən dövlət orqanının müraciətinə əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən qəbul edilir.

VI. Bu maddənin tətbiqi qaydası qanunla müəyyən edilir.

Maddə 102. Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunları

Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunları haqqında məlumatı səsvermə günündən sonra *14 gün* ərzində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi rəsmən elan edir.

Maddə 103. Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxsin andı

I. Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxs Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunları haqqında məlumatın elan olunduğu gündən başlayaraq 3 gün ərzində Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə belə bir and içir: "Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm".

II. And içdiyi gündən Azərbaycan Respublikasının Prezidenti öz səlahiyyətlərinin icrasına başlamış sayılır.

Maddə 104. Azərbaycan Respublikası Prezidentinin öz səlahiyyətlərini daimi icra edə bilməməsi

I. Azərbaycan Respublikasının Prezidenti istefa verdikdə, səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdikdə, bu Konstitusiya ilə nəzərdə tutulmuş hallarda və qaydada vəzifəsindən kənarlaşdırıldıqda vaxtından əvvəl vəzifədən getmiş sayılır.

II. Azərbaycan Respublikasının Prezidenti istefa verdikdə onun istefa ərizəsi Azərbaycan Respublikasının

Konstitusiya Məhkəməsinə təqdim olunur. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi istefa ərizəsini Azərbaycan Respublikası Prezidentinin özünün verdiyinə əmin olduğu təqdirdə Azərbaycan Respublikası Prezidentinin istefasının qəbul olunması haqqında qərar qəbul edir. həmin andan Azərbaycan Respublikasının Prezidenti istefa verdiyinə görə vəzifədən getmiş sayılır.

III. Azərbaycan Respublikası Prezidentinin səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdiyi barədə məlumat verildikdə Azərbaycan Respublikasının Milli Məclisi bu faktın aydınlaşdırılması üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət edir. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi bu barədə qərarı hakimlərin 6 səs çoxluğu ilə qəbul edir. Əgər Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi bu faktı təsdiq etməzsə, məsələ bununla bitmiş sayılır.

Maddə 105. Azərbaycan Respublikasının Prezidenti vəzifədən getdikdə onun səlahiyyətlərinin icrası

I. Azərbaycan Respublikasının Prezidenti vaxtından əvvəl vəzifədən getdikdə üç ay ərzində növbədənkənar Azərbaycan Respublikasının Prezidenti seçkiləri keçirilir. Bu halda Azərbaycan Respublikasının yeni Prezidenti seçilənədək Azərbaycan Respublikasının Prezidenti səlahiyyətlərini ***Azərbaycan Respublikasının Baş naziri*** icra edir.

II. Bu müddət ərzində Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən ***Azərbaycan Respublikasının Baş naziri istefa verdikdə,*** səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdikdə

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini ***Azərbaycan Respublikası Milli Məclisinin Sədri icra edir.***

III. Bu maddənin ikinci hissəsində göstərilən səbəblərə görə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini ***Azərbaycan Respublikası Milli Məclisi Sədrinin*** icra etməsi mümkün olmadıqda Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin başqa vəzifəli şəxs tərəfindən icrası haqqında qərar qəbul edir.

Maddə 106. Azərbaycan Respublikası Prezidentinin toxunulmazlığı

Azərbaycan Respublikasının Prezidenti toxunulmazlıq hüququna malikdir. Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqəti qanunla qorunur.

Maddə 107. Azərbaycan Respublikası Prezidentinin vəzifədən kənarlaşdırılması

I. Azərbaycan Respublikası Prezidentinin vəzifədən kənarlaşdırılması təşəbbüsü Azərbaycan Respublikasının Prezidenti ağır cinayət törətdikdə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təşəbbüsü ilə Azərbaycan Respublikası Ali Məhkəməsinin 30 gün müddətində verilən rəyi əsasında Azərbaycan Respublikasının Milli Məclisi qarşısında irəli sürülə bilər.

II. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 95 səs çoxluğu ilə qəbul olunmuş qərar əsasında Azərbaycan Respublikasının Prezidenti vəzifədən kənarlaşdırıla bilər. Bu qərarı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri imzalayır. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi həmin qərarın im-

zalanmasına bir həftə ərzində tərəfdar çıxmazsa, qərar qüvvəyə minmir.

III. Azərbaycan Respublikası Prezidentinin vəzifədən kənarlaşdırılması haqqında qərar Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Azərbaycan Respublikasının Milli Məclisinə müraciət etdiyi gündən başlayaraq 2 ay ərzində qəbul olunmalıdır. Bu müddətdə göstərilən qərar qəbul edilməsə, Azərbaycan Respublikasının Prezidentinə qarşı irəli sürülmüş ittiham rədd edilmiş sayılır.

Maddə 108. Azərbaycan Respublikası Prezidentinin təminatı

I. Azərbaycan Respublikasının Prezidenti və onun ailəsi dövlət hesabına təmin edilir. Azərbaycan Respublikası Prezidentinin və onun ailəsinin təhlükəsizliyini xüsusi mühafizə xidmətləri təmin edir.

II. Əvvəllər Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxsin təminatı qaydaları Konstitusiya qanunu ilə müəyyən edilir.

Maddə 109. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri

Azərbaycan Respublikasının Prezidenti:

1) Azərbaycan Respublikasının Milli Məclisinə seçkiləri təyin edir;

2) Azərbaycan Respublikasının dövlət büdcəsini Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə təqdim edir;

3) dövlət iqtisadi və sosial proqramlarını təsdiq edir;

4) Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə Azərbaycan Respublikasının Baş nazirini vəzifəyə tə-

yin edir; Azərbaycan Respublikasının Baş nazirini vəzifədən azad edir;

5) Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvlərini vəzifəyə təyin və vəzifədən azad edir; zəruri hallarda Azərbaycan Respublikası Nazirlər Kabinetinin iclaslarına sədrlik edir;

6) Azərbaycan Respublikası Nazirlər Kabinetinin istefası haqqında qərar qəbul edir;

7) Azərbaycan Respublikasının dövlət büdcəsində icra hakimiyyəti üçün nəzərdə tutulmuş xərclər çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanları yaradır;

8) Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının aktlarını ləğv edir;

9) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi və Azərbaycan Respublikasının apelyasiya məhkəmələri hakimlərinin vəzifəyə təyin edilməsi haqqında Azərbaycan Respublikasının Milli Məclisinə təqdimatlar verir; Azərbaycan Respublikasının digər məhkəmələrinin hakimlərini vəzifəyə təyin edir; Azərbaycan Respublikasının Baş prokurorunu Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə vəzifəyə təyin və vəzifədən azad edir;

10) Azərbaycan Respublikası ***Mərkəzi Bankı*** İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verir; ***Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvləri sırasından Azərbaycan Respublikası Mərkəzi Bankının sədrini təyin edir;***

11) Azərbaycan Respublikasının hərbi doktrinasını Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir;

12) Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ali komanda heyətini vəzifəyə təyin və vəzifədən azad edir;

13) Azərbaycan Respublikası Prezidentinin Administrasiyasını təşkil edir və onun rəhbərini təyin edir;

14) Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkilinin seçilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinə təqdimat verir;

15) Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndəliklərinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinə təqdimat verir, Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndələrini təyin edir və geri çağırır;

16) xarici dövlətlərin diplomatik nümayəndələrinin etimadnamə və övdətnamələrini qəbul edir;

17) dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlayır, ***dövlətlərarası və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası*** müqavilələri təsdiq və ləğv olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir; təsdiqnamələri imzalayır;

18) referendum təyin edir;

19) qanunları imzalayır və dərc edir;

20) vətəndaşlıq məsələlərini həll edir;

21) siyasi sığınacaq verilməsi məsələlərini həll edir;

22) əfv edir;

23) dövlət təltifləri ilə təltif edir;

24) ali hərbi və ali xüsusi rütbələr verir;

25) ümumi və qismən səfərbərlik elan edir, habelə səfərbərlik üzrə çağırılanları tərxis edir;

26) Azərbaycan Respublikası vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hər-

bi xidmətdə olan hərbi qulluqçuların ehtiyata buraxılması barədə qərarlar qəbul edir;

27) Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasını yaradır;

28) Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsinə razılıq verilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verir;

29) fövqəladə və hərbi vəziyyət elan edir;

30) Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə müharibə elan edir və sülh bağlayır;

31) Azərbaycan Respublikasının dövlət büdcəsində bu məqsədlər üçün nəzərdə tutulmuş xərclər çərçivəsində xüsusi mühafizə xidmətləri yaradır;

32) Bu Konstitusiya ilə Azərbaycan Respublikası Milli Məclisinin və məhkəmə orqanlarının səlahiyyətlərinə aid edilməyən digər məsələləri icra qaydasında həll edir.

Maddə 110. Qanunların imzalanması

I. Azərbaycan Respublikasının Prezidenti qanunları ona təqdim olunmuş gündən başlayaraq 56 gün ərzində imzalayır. Qanun Azərbaycan Respublikası Prezidentinin etirazını doğurursa, o, qanunu imzalamayıb öz etirazları ilə birlikdə göstərilən müddət ərzində Azərbaycan Respublikasının Milli Məclisinə qaytara bilər.

II. Konstitusiya qanunları Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmazsa, qüvvəyə minmir. Azərbaycan Respublikasının Milli Məclisi 83 səs çoxluğu ilə qəbul edilən qanunları 95 səs çoxluğu ilə, 63 səs çoxluğu ilə qəbul edilən qanunları isə 83 səs çoxluğu ilə yenidən qəbul edərsə, belə qanunlar təkrar səsvermədən sonra qüvvəyə minir.

Maddə 111. Hərbi vəziyyət elan edilməsi

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası ərazisinin müəyyən hissəsi faktik işğal olunduqda, xarici dövlət və ya dövlətlər Azərbaycan Respublikasına müharibə elan etdikdə, Azərbaycan Respublikasına qarşı real silahlı hücum təhlükəsi yarandıqda, Azərbaycan Respublikasının ərazisi blokadaya alındıqda, habelə belə blokada üçün real təhlükə olduqda Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində hərbi vəziyyət elan edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir.

Maddə 112. Fövqəladə vəziyyət tətbiq edilməsi

Azərbaycan Respublikasının Prezidenti təbii fəlakətlər, epidemiyalar, epizootiyalar, böyük ekoloji və başqa qəzalar baş verdikdə, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasına, dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə yönəldilən hərəkətlər edildikdə, zorakılıqla müşayiət olunan kütləvi iğtişaşlar yarandıqda, vətəndaşların həyatı və təhlükəsizliyi, yaxud dövlət təsisatlarının normal fəaliyyəti üçün qorxu törədən digər münaqişələr meydana gəldikdə Azərbaycan Respublikasının ayrı-ayrı yerlərində fövqəladə vəziyyət tətbiq edir və bu barədə qəbul etdiyi fərmanı 24 saat müddətində Azərbaycan Respublikası Milli Məclisinin təsdiqinə verir.

Maddə 113. Azərbaycan Respublikası Prezidentinin aktları

I. Ümumi qaydalar müəyyən etdikdə Azərbaycan Respublikasının Prezidenti fərmanlar, başqa məsələlər barəsində isə sərəncamlar qəbul edir.

II. Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarında başqa qayda nəzərdə tutulmayıbsa, onlar dərc edildiyi gündən qüvvəyə minir.

Maddə 114. Azərbaycan Respublikası Nazirlər Kabinetinin statusu

I. Azərbaycan Respublikasının Prezidenti icra səlahiyyətlərinin həyata keçirilməsinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetini yaradır.

II. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanıdır.

III. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidentinə tabedir və onun qarşısında cavabdehdir.

IV. Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydasını Azərbaycan Respublikasının Prezidenti müəyyənləşdirir.

Maddə 115. Azərbaycan Respublikası Nazirlər Kabinetinin tərkibi

Azərbaycan Respublikası Nazirlər Kabinetinin tərkibinə Azərbaycan Respublikasının Baş naziri, onun müavinləri, nazirlər və başqa mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri daxildirlər.

Maddə 116. Azərbaycan Respublikası Nazirlər Kabinetinin istefası

Yeni seçilmiş Azərbaycan Respublikasının Prezidenti vəzifəsini tutduğu və səlahiyyətlərini icra etməyə başladığı gün Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinə istefa verir.

Maddə 117. Azərbaycan Respublikası Nazirlər Kabinetinin iclasları

Azərbaycan Respublikası Nazirlər Kabinetinin iclaslarına bir qayda olaraq Azərbaycan Respublikasının Baş naziri sədrlik edir.

Maddə 118. Azərbaycan Respublikası Baş nazirinin təyin edilməsi qaydası

I. Azərbaycan Respublikasının Baş nazirini Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə Azərbaycan Respublikasının Prezidenti təyin edir.

II. Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə namizədlik haqqında təklifi Azərbaycan Respublikasının Prezidenti onun öz vəzifələrinin icrasına başladığı gündən bir ay və ya Azərbaycan Respublikası Nazirlər Kabinetinin istefa verdiyi gündən iki həftə müddətindən gec olmayaraq Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim edir.

III. Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə namizədlik haqqında qərarı həmin namizədliyin təqdim edildiyi gündən bir həftədən gec olmayaraq qəbul edir. Göstərilən qayda pozularsa və ya Azərbaycan Respublikası Prezidentinin təqdim etdiyi namizədlərin Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin olunmasına üç dəfə razılıq verilməzsə, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Baş nazirini Azərbaycan Respublikası Milli Məclisinin razılığı olmadan təyin edə bilər.

Maddə 119. Azərbaycan Respublikası Nazirlər Kabinetinin səlahiyyətləri

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

- Azərbaycan Respublikası dövlət büdcəsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

- Azərbaycan Respublikası dövlət büdcəsinin icrasını təmin edir;

- maliyyə-kredit və pul siyasətinin həyata keçirilməsini təmin edir;

- dövlət iqtisadi proqramlarının həyata keçirilməsini təmin edir;

- dövlət sosial təminat proqramlarının həyata keçirilməsini təmin edir;

- nazirliklərə və digər mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik edir, onların aktlarını ləğv edir;

- Azərbaycan Respublikası Prezidentinin onun səlahiyyətlərinə aid etdiyi digər məsələləri həll edir.

Maddə 120. Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktları

I. Ümumi qaydalar müəyyən etdikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərarlar, başqa məsələlər üzrə sərəncamlar qəbul edir.

II. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarında başqa qayda nəzərdə tutulmayıbsa, onlar dərc edildiyi gündən qüvvəyə minir.

Maddə 121. Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvlüyünə namizədlərə dair tələblər

I. Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə yaşı 30-dan aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik, ali təhsilli, başqa dövlət qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikası vətəndaşı təyin edilir.

II. Azərbaycan Respublikası Baş nazirinin müavini, nazir, digər mərkəzi icra hakimiyyəti orqanının rəhbəri vəzifəsinə yaşı 25-dən aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik, ali təhsilli, başqa dövlət qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikası vətəndaşı təyin edilir.

Maddə 122. Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvlərinə aid tələblər

Azərbaycan Respublikasının Baş naziri, onun müavinləri, nazirlər, digər mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri heç bir başqa seçkili və ya təyinatlı vəzifə tuta bilməzlər, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməzlər, vəzifə maaşından, habelə elmi, pedaqoji və yaradıcılıq fəaliyyətinə görə aldığı vəsaitdən başqa məvacib ala bilməzlər.

Maddə 123. Azərbaycan Respublikası Baş nazirinin toxunulmazlığı

I. Səlahiyyət müddəti ərzində Azərbaycan Respublikası Baş nazirinin şəxsiyyəti toxunulmazdır.

II. Azərbaycan Respublikasının Baş naziri cinayət başında yaxalanma hallarından başqa tutula bilməz, cinayət

məsuliyyətinə cəlb edilə bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz.

III. Azərbaycan Respublikasının Baş naziri cinayət başında yaxalanarsa tutula bilər. Belə olduqda onu tutan orqan bu barədə dərhal Azərbaycan Respublikasının Baş prokuroruna xəbər verməlidir.

IV. Azərbaycan Respublikası Baş nazirinin toxunulmazlığına yalnız Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən xitam verilə bilər.

Maddə 124. Yerlərdə icra hakimiyyəti

I. Yerlərdə icra hakimiyyətini yerli icra hakimiyyətlərinin başçıları həyata keçirirlər.

II. İcra hakimiyyəti başçılarını Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

III. Yerli icra hakimiyyətlərinin səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti müəyyən edir.

VII fəsil

MƏHKƏMƏ HAKİMİYYƏTİ

Maddə 125. Məhkəmə hakimiyyətinin həyata keçirilməsi

I. Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər.

II. Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikası-

nın Ali Məhkəməsi, Azərbaycan Respublikasının apelyasiya məhkəmələri, Azərbaycan Respublikasının ümumi məhkəmələri və digər ixtisaslaşdırılmış məhkəmələri həyata keçirirlər.

III. Məhkəmə hakimiyyəti Konstitusiya, mülki və cinayət məhkəmə icraatı vasitəsilə və qanunla nəzərdə tutulmuş digər vasitələr ilə həyata keçirilir.

IV. Cinayət məhkəmə icraatında Azərbaycan Respublikasının Prokurorluğu və müdafiə tərəfi iştirak edir.

V. Məhkəmə quruluşu və məhkəmə icraatı qaydası qanunla müəyyən olunur.

VI. Məhkəmələrin səlahiyyətlərinin dəyişdirilməsi məqsədilə müəyyən olunmamış hüquqi üsulların tətbiq edilməsi və fövqəladə məhkəmələrin yaradılması qadağandır.

VII. Məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir.

Maddə 126. Hakimliyə namizədlərə aid tələblər

I. Yaşı 30-dan aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik olan, ali hüquq təhsilli və hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikası vətəndaşları hakim ola bilərlər.

II. Hakimlər heç bir başqa seçkili və təyinatlı vəzifə tuta bilməzlər, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməzlər, siyasi fəaliyyətlə məşğul ola bilməz və siyasi partiyalara üzv ola bilməzlər, vəzifə maaşından, habelə elmi, pedaqoji və yaradıcılıq fəaliyyətinə görə aldığı vəsaitdən başqa məvacib ala bilməzlər.

Maddə 127. Hakimlərin müstəqilliyi, ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri

I. Hakimlər müstəqildir, yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər və səlahiyyətləri müddətində dəyişilməzdirlər.

II. Hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar.

III. Hər hansı bir şəxs tərəfindən və hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhkəmə icraatına məhdudiyyət qoyulması, qanuna zidd təsir, hədə və müdaxilə edilməsi yolverilməzdir.

IV. Ədalət mühakiməsi vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilir.

V. Bütün məhkəmələrdə işlərin icraatı açıq aparılır.

İşə qapalı iclasda baxılmasına yalnız o halda icazə verilir ki, məhkəmə açıq icraatın dövlət, peşə və kommersiya sirrinin açılmasına səbəb olacağını güman edir, ya da vətəndaşların şəxsi və ya ailə həyatının məxfiliyini qorumaq zərurətinin mövcudluğunu müəyyən edir.

VI. Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, cinayət işlərinin qiyabi məhkəmə icraatına yol verilmir.

VII. Məhkəmə icraatı çəkişmə prinsipi əsasında həyata keçirilir.

VIII. Məhkəmə icraatının istənilən mərhələsində hər kəsin müdafiə hüququ təmin olunur.

IX. Ədalət mühakiməsi təqsirsizlik prezumpsiyasına əsaslanır.

X. Azərbaycan Respublikasında məhkəmə icraatı Azərbaycan Respublikasının dövlət dilində və ya müvafiq yerin əhalisinin çoxluq təşkil edən hissəsinin dilində apa-

rılır. İşin iştirakçısı olub məhkəmə icraatının aparıldığı dili bilməyən şəxslərin işin materialları ilə tam tanış olmaq, məhkəmədə tərcüməçi vasitəsi ilə iştirak etmək və məhkəmədə ana dilində çıxış etmək hüququ təmin edilir.

Maddə 128. Hakimlərin toxunulmazlığı

I. Hakimlər toxunulmazdırlar.

II. Hakim cinayət məsuliyyətinə yalnız qanunda nəzərdə tutulan qaydada cəlb oluna bilər.

III. Hakimlərin səlahiyyətlərinə yalnız qanunda nəzərdə tutulmuş əsaslara və qaydalara müvafiq surətdə xitam verilə bilər.

IV. Hakimlərin vəzifədən kənarlaşdırılması təşəbbüsünü hakimlər cinayət törətdikdə Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Ali Məhkəməsinin rəyi əsasında Azərbaycan Respublikasının Milli Məclisi qarşısında irəli sürə bilər. Müvafiq rəyi Azərbaycan Respublikasının Ali Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin sorğusundan sonra 30 gün müddətində təqdim etməlidir.

V. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi və Azərbaycan Respublikasının ***apellyasiya məhkəmələri*** hakimlərinin işdən kənarlaşdırılması haqqında qərar Azərbaycan Respublikasının Milli Məclisində 83 səs çoxluğu ilə qəbul edilir; başqa hakimlərin işdən kənarlaşdırılması haqqında qərar Azərbaycan Respublikasının Milli Məclisində 63 səs çoxluğu ilə qəbul edilir.

Maddə 129. Məhkəmə qərarları və onların icrası

I. Məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir.

II. Məhkəmə qərarının icra olunmaması qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

III. Məhkəmə qərarı qanuna və sübutlara əsaslanmalıdır.

Maddə 130. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi

I. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 9 hakimdən ibarətdir.

II. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimlərini Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təyin edir.

III. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Prokurorluğunun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sorğusu əsasında aşağıdakı məsələləri həll edir:

1) Azərbaycan Respublikası qanunlarının, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Azərbaycan Respublikası Milli Məclisinin qərarlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu;

2) Azərbaycan Respublikası Prezidentinin fərmanlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Azərbaycan Respublikası qanunlarına uyğunluğu;

3) Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Azərbaycan Respublikası Prezidentinin fərmanlarına uyğunluğu;

4) Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarlarının qanunda nəzərdə tutulmuş hallarda Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğunluğu;

5) bələdiyyə aktlarının Azərbaycan Respublikası Konstitusiyasına, Azərbaycan Respublikası qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) uyğunluğu;

6) Azərbaycan Respublikasının qüvvəyə minməmiş dövlətlərarası müqavilələrinin Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu; Azərbaycan Respublikasının hökumətlərarası müqavilələrinin Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğunluğu;

7) Naxçıvan Muxtar Respublikası Konstitusiyasının, qanunlarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarlarının və Nazirlər Kabinetinin qərarlarının Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu; Naxçıvan Muxtar Respublikası qanunlarının, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarının Azərbaycan Respublikası qanunlarına uyğunluğu; Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarının Azərbaycan Respublikası Prezidentinin fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına uyğunluğu;

8) qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələr.

IV. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Prokurorluğunun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sorğusu əsasında Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını şərh edir.

V. Hər kəs onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarından, bələdiyyə və məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada bu maddənin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən həll edilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədi ilə şikayət verə bilər.

VI. Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydada məhkəmələr insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət edə bilərlər.

VII. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili insan hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarından, bələdiyyə və məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada bu maddənin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən həll edilməsi

üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu verə bilər.

VIII. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi bu Konstitusiyada nəzərdə tutulmuş digər səlahiyyətləri də həyata keçirir.

IX. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi öz səlahiyyətlərinə aid edilən məsələlərə dair qərarlar qəbul edir. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı Azərbaycan Respublikası ərazisində məcburi qüvvəyə malikdir. ***Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları dərc edilməlidir.***

X. Qanunlar və digər aktlar, yaxud onların ayrı-ayrı müddəaları, Azərbaycan Respublikasının hökumətlərarası müqavilələri Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarında müəyyən edilmiş müddətdə qüvvədən düşür, Azərbaycan Respublikasının dövlətlərarası müqavilələri isə qüvvəyə minmir.

Maddə 131. Azərbaycan Respublikasının Ali Məhkəməsi

I. Azərbaycan Respublikasının Ali Məhkəməsi ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır; o, kasasiya qaydasında ədalət mühakiməsini həyata keçirir; məhkəmələrin praktikasına aid məsələlər üzrə izahatlar verir.

II. Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimlərini Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təyin edir.

III. Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarları dərc edilməlidir.

Maddə 132. Azərbaycan Respublikasının apelyasiya məhkəmələri

I. Azərbaycan Respublikasının apelyasiya məhkəmələri qanunla onların səlahiyyətlərinə aid edilmiş işlər üzrə yuxarı instansiya məhkəmələridir.

II. Azərbaycan Respublikasının apelyasiya məhkəmələrinin hakimlərini Azərbaycan Respublikası prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təyin edir.

Maddə 133. Azərbaycan Respublikasının Prokurorluğu

I. Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir; qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır; məhkəmədə dövlət ittihamını müdafiə edir; məhkəmədə iddia qaldırır; məhkəmə qərarlarından protest verir.

II. Azərbaycan Respublikasının Prokurorluğu ərazi və ixtisaslaşdırılmış prokurorların Azərbaycan Respublikası Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır.

III. Azərbaycan Respublikasının Baş prokurorunu Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə vəzifəyə təyin və vəzifədən azad edir.

IV. Azərbaycan Respublikası Baş prokurorunun müavinlərini, respublika ixtisaslaşdırılmış prokurorluqlara rəhbərlik edən prokurorları, Naxçıvan Muxtar Respublikasının Prokurorunu Azərbaycan Respublikası Baş prokuroru-

nun təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

V. Ərazi və ixtisaslaşdırılmış prokurorları Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Azərbaycan Respublikasının Baş prokuroru vəzifəyə təyin və vəzifədən azad edir.

VIII fəsil

NAXÇIVAN MUXTAR RESPUBLİKASI

Maddə 134. Naxçıvan Muxtar Respublikasının statusu

I. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir.

II. Naxçıvan Muxtar Respublikasının statusu bu Konstitusiya ilə müəyyən edilir.

III. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir.

IV. Azərbaycan Respublikası Konstitusiyası, qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları Naxçıvan Muxtar Respublikasının ərazisində məcburidir.

V. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi Naxçıvan Muxtar Respublikasının Konstitusiyası və qanunları müvafiq olaraq Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına; Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikası Konstitusiyasına, qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına zidd olmamalıdır.

VI. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Respublikasının prezidenti tərəfindən təqdim edilir və Konstitusiya Qanunu ilə təsdiq edilir.

Maddə 135. Naxçıvan Muxtar Respublikasında hakimiyyətlərin bölünməsi

I. Naxçıvan Muxtar Respublikasının qanunvericilik hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, məhkəmə hakimiyyətini Naxçıvan Muxtar Respublikasının məhkəmələri həyata keçirir.

II. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində, Naxçıvan Muxtar Respublikasının məhkəmələri isə Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə onların səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildirlər.

Maddə 136. Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi

Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir.

Maddə 137. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 45 üzvdən ibarətdir.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səlahiyyət müddəti 5 ildir.

III. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrini və onun müavinlərini seçir, daimi və digər komissiyalar təşkil edir.

Maddə 138. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müəyyən etdiyi ümumi qaydalar

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi aşağıdakılara dair ümumi qaydalar müəyyən edir:

1) Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər;

2) vergilər;

3) Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı istiqamətləri;

4) sosial təminat;

5) ətraf mühitin qorunması;

6) turizm;

7) səhiyyə, elm, mədəniyyət.

II. Bu maddədə göstərilən məsələlərə dair Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qanunlar qəbul edir.

Maddə 139. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin həll etdiyi məsələlər

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi aşağıdakı məsələləri həll edir:

1) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin işinin təşkili;

2) Naxçıvan Muxtar Respublikasının büdcəsinin təsdiqi;

3) Naxçıvan Muxtar Respublikasının iqtisadi və sosial proqramlarının təsdiqi;

4) Naxçıvan Muxtar Respublikası Baş nazirinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

5) Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərkibinin təsdiqi;

6) Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad.

II. Bu maddədə göstərilən məsələlərə dair Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərarlar qəbul edir.

Maddə 140. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti

I. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin tərkibini Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təsdiq edir.

II. Naxçıvan Muxtar Respublikasının Baş nazirini Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təyin edir.

III. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

- muxtar respublika büdcəsinin layihəsini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim edir;

- muxtar respublikanın büdcəsini icra edir;

- muxtar respublikanın iqtisadi proqramlarının həyata keçirilməsini təmin edir;

- muxtar respublikanın sosial proqramlarının həyata keçirilməsini təmin edir;

- Azərbaycan Respublikası Prezidentinin onun səlahiyyətlərinə aid etdiyi digər məsələləri həll edir.

IV. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti qərar və sərəncamlar qəbul edir.

Maddə 141. Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyəti

Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyətlərinin başçılarını Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti təyin edir.

DÖRDÜNCÜ BÖLMƏ

YERLİ ÖZÜNÜİDARƏETMƏ

IX fəsil

BƏLƏDİYYƏLƏR

Maddə 142. Yerlərdə özünüidarənin təşkili

I. Yerli özünüidarəni bələdiyyələr həyata keçirir.

II. Bələdiyyələr seçkilər əsasında yaradılır.

III. Bələdiyyələrin statusunun əsasları bu Konstitusiya ilə, bələdiyyələrə seçkilərin qaydaları isə qanunla müəyyən edilir.

Maddə 143. Bələdiyyələrin işinin təşkili

I. Bələdiyyə öz fəaliyyətini iclaslar, daimi və başqa komissiyalar vasitəsi ilə həyata keçirir.

II. Bələdiyyənin iclaslarını bələdiyyənin sədri çağırır.

Maddə 144. Bələdiyyələrin səlahiyyətləri

I. Bələdiyyələrin iclaslarında aşağıdakı məsələlər həll edilir:

1) bələdiyyə üzvlərinin səlahiyyətlərinin tanınması, qanunla müəyyən edilmiş hallarda onların səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi;

2) bələdiyyənin reqlamentinin təsdiq edilməsi;

3) bələdiyyənin sədrinin və onun müavinlərinin, daimi və başqa komissiyaların seçilməsi;

4) yerli vergilərin və ödənişlərin müəyyən edilməsi;

5) yerli büdcənin və onun icrası haqqında hesabatların təsdiq edilməsi;

6) bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam;

7) yerli sosial müdafiə və sosial inkişaf proqramlarının qəbul və icra edilməsi;

8) yerli iqtisadi inkişaf proqramlarının qəbul və icra edilməsi;

9) yerli ekoloji proqramların qəbul və icra edilməsI.

II. Bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri tərəfindən əlavə səlahiyyətlər də verilə bilər. Bu səlahiyyətlərin həyata keçirilməsi üçün bələdiyyə üzrə müvafiq zəruri maliyyə vəsaiti də ayrılmalıdır. Belə səlahiyyətlərin həyata keçirilməsinə müvafiq olaraq qanunvericilik və icra hakimiyyətləri nəzarət edirlər.

Maddə 145. Bələdiyyələrin qərarları

I. Bələdiyyənin iclaslarında baxılan məsələlərə dair qərarlar qəbul edilir.

II. Bələdiyyənin qərarları bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir.

III. Yerli vergilər və ödənişlər ilə bağlı qərarlar bələdiyyə üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilir.

Maddə 146. Bələdiyyələrin müstəqilliyinin təminatı

I. Bələdiyyələr öz səlahiyyətlərini həyata keçirməkdə müstəqildirlər, bu isə bələdiyyə ərazisində yaşayan vətəndaşlar qarşısında onların məsuliyyətini istisna etmir. Bələdiyyə üzvlərinin seçilməsi, səlahiyyətlərinin dayandırılması və ya səlahiyyətlərinə xitam verilməsi, bələdiyyələrin vaxtından əvvəl buraxılması halları və qaydası qanunla müəyyən edilir.

II. Bələdiyyələrin öz səlahiyyətlərini müstəqil həyata keçirməsi Azərbaycan dövlətinin suverenliyinə xələl gətirə bilməz.

III. Dövlət bələdiyyələrin fəaliyyətinə nəzarət edir.

IV. Qanunla müəyyən edilmiş hallarda və qaydada bələdiyyələr öz fəaliyyətləri barəsində Azərbaycan Respublikasının Milli Məclisinə hesabat təqdim edirlər.

V. Bələdiyyələrin məhkəmə tərəfindən müdafiəsinə, dövlət orqanlarının qərarları nəticəsində yaranan əlavə xərclərinin ödənilməsinə təminat verilir.

BEŞİNCİ BÖLMƏ

HÜQUQ VƏ QANUN

X fəsil

QANUNVERİCİLİK SİSTEMİ

Maddə 147. Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsi

I. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasında ən yüksək hüquqi qüvvəyə malikdir.

II. Azərbaycan Respublikasının Konstitusiyası birbaşa hüquqi qüvvəyə malikdir.

III. Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsasıdır.

Maddə 148. Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan aktlar

I. Qanunvericilik sistemi aşağıdakı normativ hüquqi aktlardan ibarətdir:

1) Konstitusiya;

2) referendumla qəbul edilmiş aktlar;

3) qanunlar;

4) fərmanlar;

5) Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları;

6) mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları.

II. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir.

III. Naxçıvan Muxtar Respublikasında həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyası və qanunları, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları hüquqi qüvvəyə malikdir.

IV. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi Azərbaycan Respublikasının qanunvericilik sisteminə uyğun olmalıdır.

V. Öz səlahiyyətləri daxilində yerli icra hakimiyyəti orqanları qanunvericilik sisteminə daxil olan aktlara zidd gəlməyən normativ xarakterli aktlar qəbul edə bilərlər.

Maddə 149. Normativ hüquqi aktlar

I. Normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalıdır.

II. Referendumla qəbul olunmuş aktlar yalnız dərc edildikdə onların tətbiqi və icrası vətəndaşlar, qanunvericilik, icra və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir.

III. Qanunlar Konstitusiyaya zidd olmamalıdır. Yalnız dərc edilmiş qanunların tətbiqi və icrası bütün vətəndaşlar, qanunvericilik, icra və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir.

IV. Azərbaycan Respublikası Prezidentinin fərmanları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına zidd olmamalıdır. Yalnız dərc edilmiş fərmanların tətbiqi və icrası bütün vətəndaşlar, icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir.

V. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına və Azərbaycan Respublikası Prezidentinin fərmanlarına zidd olmamalıdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları yalnız dərc edildikdə onların tətbiqi və icrası vətəndaşlar, mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir.

VI. Mərkəzi icra hakimiyyəti orqanlarının aktları Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına zidd olmamalıdır.

VII. Fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ hüquqi aktların qüvvəsi geriyə

şamil edilir. Başqa normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilmir.

VIII. Normativ hüquqi aktlar dərc edilməlidir. Heç kəs dərc edilməmiş normativ hüquqi aktın icrasına (ona riayət olunmasına) məcbur edilə bilməz və belə aktın icra olunmamasına (ona riayət olunmamasına) görə məsuliyyətə cəlb edilə bilməz. Normativ hüquqi aktların dərc edilməsi qaydası Konstitusiya qanunu ilə müəyyən edilir.

Maddə 150. Bələdiyyə aktları

I. Bələdiyyələrin qəbul etdikləri aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalı, Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) zidd olmamalıdır.

II. Bələdiyyənin qəbul etdiyi aktın icrası onun ərazisində yaşayan vətəndaşlar və onun ərazisində yerləşən hüquqi şəxslər üçün məcburidir.

Maddə 151. Beynəlxalq aktların hüquqi qüvvəsi

Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

XI fəsil

AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINDA DƏYİŞİKLİKLƏR

Maddə 152. Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklərin qəbul edilməsi qaydası

Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklər yalnız referendumla qəbul edilə bilər.

Maddə 153. Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklərin təklif edilməsi qaydası

Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişiklikləri Azərbaycan Respublikasının Milli Məclisi və ya Azərbaycan Respublikasının Prezidenti təklif etdikdə, təklif olunan dəyişikliklərə dair əvvəlcədən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəyi alınır.

Maddə 154. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin səlahiyyətlərinin məhdudlaşdırılması

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi referendumla qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklərə dair qərar qəbul edə bilməz.

Maddə 155. Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər təklif edilməsi təşəbbüsünün məhdudlaşdırılması

Bu Konstitusiyanın 1-ci, 2-ci, 6-cı, 7-ci, 8-ci və 21-ci maddələrində dəyişikliklər ***və ya onların*** ləğv edilməsi

haqqında, III fəslində nəzərdə tutulmuş ***insan və vətəndaş hüquqları və azadlıqlarının ləğvi və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğundan daha artıq dərəcədə*** məhdudlaşdırılması haqqında təkliflər referenduma çıxarıla bilməz.

XII fəsil

AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINA ƏLAVƏLƏR

Maddə 156. Azərbaycan Respublikasının Konstitusiyasına əlavələrin qəbul edilməsi qaydası

I. Azərbaycan Respublikası Konstitusiyasına əlavələr Azərbaycan Respublikasının Milli Məclisində 95 səs çoxluğu ilə Konstitusiya qanunları şəklində qəbul edilir.

II. Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr haqqında Konstitusiya qanunları Azərbaycan Respublikasının Milli Məclisində iki dəfə səsə qoyulur. İkinci səsvermə birinci səsvermədən 6 ay sonra keçirilir.

III. Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr haqqında Konstitusiya qanunları həm birinci, həm də ikinci səsvermədən sonra bu Konstitusiyada qanunlar üçün nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikası Prezidentinə imzalanmaq üçün təqdim olunur.

IV. Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr haqqında Konstitusiya qanunları Azərbaycan Respublikasının Prezidenti tərəfindən ikinci səsvermədən sonra imzalandıqda qüvvəyə minir.

V. Konstitusiya qanunları Azərbaycan Respublikası Konstitusiyasının ayrılmaz hissəsidir və Azərbaycan Respublikası Konstitusiyasının əsas mətninə zidd olmamalıdır.

Maddə 157. Azərbaycan Respublikası Konstitusiyasına əlavələrin təklif edilməsi təşəbbüsü

Azərbaycan Respublikasının Konstitusiyasına əlavələri Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikası Milli Məclisinin azı 63 deputatı təklif edə bilərlər.

Maddə 158. Azərbaycan Respublikasının Konstitusiyasına əlavələrin təklif edilməsi təşəbbüsünün məhdudlaşdırılması

Bu Konstitusiyanın birinci bölməsində əks etdirilmiş müddəalarla əlaqədar Azərbaycan Respublikası Konstitusiyasına əlavələr təklif edilə bilməz.

KEÇİD MÜDDƏALARI

1. Azərbaycan Respublikasının Konstitusiyası referendumla qəbul edildikdən sonra rəsmən dərc olunduğu gündən qüvvəyə minir. Bu Konstitusiyanın qüvvəyə mindiyi gündən 1978-ci il aprelin 21-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası (Əsas Qanunu) qüvvədən düşür.

2. Bu Konstitusiyanın qüvvəyə minməsinə qədər seçilmiş Azərbaycan Respublikasının Prezidenti bu Konstitusiya ilə Azərbaycan Respublikasının Prezidentinə aid edilmiş səlahiyyətləri həyata keçirir.

3. Bu Konstitusiyanın 101-ci maddəsinin 5-ci hissəsi bu Konstitusiya qəbul edildikdən sonra seçilən Azərbaycan Respublikası Prezidentinə şamil edilir.

4. Azərbaycan Respublikası xalq deputatlarının və Azərbaycan Respublikası Ali Sovetinin yaratdığı Milli

Məclisin səlahiyyətləri yeni seçilmiş Azərbaycan Respublikası Milli Məclisinin ilk iclas günü başa çatır.

Yeni seçilmiş Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası Azərbaycan Respublikası Milli Məclisinin azı 83 deputatının seçildiyi gündən bir həftə sonra keçirilir. Azərbaycan Respublikası Milli Məclisinin ilk sessiyası 1996-cı il mayın 31-dək davam edir.

1995-ci il avqustun 15-də qəbul edilmiş "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında" Azərbaycan Respublikası Qanununun 85-ci maddəsi bu Qanun əsasında seçilmiş Azərbaycan Respublikası Milli Məclisinin birinci çağırışının səlahiyyətləri bitənədək qüvvədədir.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Konstitusiyanın qüvvəyə mindiyi gündən bu Konstitusiyada müəyyən edilən səlahiyyətləri həyata keçirir.

6. Bu Konstitusiya qüvvəyə mindiyi gündən Azərbaycan Respublikası yerli Xalq Deputatları Sovetlərinin səlahiyyətlərinə xitam verilir.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə Azərbaycan Respublikasının yerli Xalq Deputatları Sovetlərinə aid edilmiş səlahiyyətləri yerli icra hakimiyyəti orqanları həyata keçirir.

7. Bu Konstitusiya qüvvəyə mindikdən sonra iki il müddətində yerli özünüidarə haqqında qanun qəbul edilməli və bələdiyyələrə seçkilər keçirilməlidir.

8. Bu Konstitusiyanın qəbul edildiyi günədək Azərbaycan Respublikasının ərazisində qüvvədə olan qanunlar və başqa normativ hüquqi aktlar bu Konstitusiyaya zidd olmayan hissədə öz qüvvəsini saxlayır.

9. Bu Konstitusiya qüvvəyə minənədək fəaliyyət göstərən Azərbaycan Respublikasının məhkəmələri ədalət

mühakiməsini bu Konstitusiyada müəyyən edilən səlahiyyətlərə və prinsiplərə uyğun həyata keçirir.

10. Bu Konstitusiya qüvvəyə mindiyi gündən bir il ərzində hakimlərin statusu, məhkəmə quruluşu və məhkəmə islahatı ilə əlaqədar Azərbaycan Respublikasının bu Konstitusiyaya uyğun olan qanunvericiliyi qəbul edilməlidir və Azərbaycan Respublikası məhkəmələrinin hakimləri yenidən təyin edilməlidir.

Həmin qanunvericilik qəbul edilənədək hakimlərin vəzifəyə təyin və vəzifədən azad edilməsi bu Konstitusiya qüvvəyə minənədək qüvvədə olan qanunvericilik əsasında həyata keçirilir.

11. Bu Konstitusiya qüvvəyə mindiyi gündən bir il müddətində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilməli və Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yaradılmalıdır. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yaradılanadək bu Konstitusiyada nəzərdə tutulmuş Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin səlahiyyətləri həyata keçirilmir. Bu Konstitusiyanın 130-cu maddəsinin üçüncü hissəsinin 7-ci bəndində nəzərdə tutulmuş məsələni Azərbaycan Respublikasının Ali Məhkəməsi həll edir.

12. Azərbaycan Respublikasının Ali Arbitraj Məhkəməsi bu Konstitusiyanın qüvvəyə mindiyi gündən Azərbaycan Respublikasının İqtisad Məhkəməsi adlanır və qüvvədə olan qanunvericiliklə müəyyən olunmuş səlahiyyətləri həyata keçirir.

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası təsdiq edilsin.

2. Bu Konstitusiya Qanunu imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının Prezidenti,
Heydər ƏLİYEV

Bakı şəhəri, 29 dekabr 1998-ci il
№ 603-IKQ

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ KONSTİTUSİYASI

Naxçıvanın muxtariyyatının əsasları hazırda qüvvədə olan 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il tarixli Qars beynəlxalq müqavilələri ilə qoyulmuşdur. Həmin beynəlxalq müqavilələrdə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olması bir daha bəyan edilərək Naxçıvanın ərazi hüdudları dəqiqləşdirilmişdir.

Naxçıvan 1921-ci il martın 16-dan başlayaraq əvvəlcə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan sonra Naxçıvan diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

1926-cı ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının ilk, 1937-ci ildə ikinci, 1978-ci ildə üçüncü Konstitusiyası qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikasının bu Konstitusiyasının əsasını Azərbaycan Respublikasının 1995-ci il 12 noyabrda ümumxalq səsverməsində- referendumda qəbul edilən Konstitusiyası təşkil edir.

Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikası Konstitusiyası ilə üzvü surətdə bağlı olan bu Konstitusiyası qəbul edilərkən təntənəli surətdə aşağıdakı niyyətlər bəyan edilir:

- Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;

- haqq-ədalətə, qanuna əsaslanaraq Naxçıvan Muxtar Respublikasının əhalisinin layiqli həyat səviyyəsini təmin etmək, güzəranını yaxşılaşdırmaq;

- Naxçıvan Muxtar Respublikasında Konstitusiya çərçivəsində demokratik, hüquqi, dünyəvi dövlət quruluşuna təminat vermək, qanunun aliliyini qorumaq.

Yuxarıda göstərilən ülvi niyyətlərlə bu Konstitusiya qəbul edilir.

I fəsil.
ÜMUMİ MÜDDƏALAR

Maddə 1. Naxçıvan Muxtar Respublikasının statusu

I. Naxçıvan Muxtar dövləti Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır.

II. Naxçıvan Muxtar Respublikasının statusunu Azərbaycan Respublikasının Konstitusiyası, 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il tarixli Qars beynəlxalq müqavilələri müəyyən edir.

Maddə 2. Muxtariyyatın əsasları

I. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının Konstitusiyası ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildir.

II. Naxçıvan Muxtar Respublikasının mənafeləri ilə bağlı olan bütün digər məsələlər Naxçıvan Muxtar Respublikası tərəfindən həll edilir, o şərtlə ki, bu məsələlərin həlli Azərbaycan Respublikasının dövlət orqanlarının səlahiyyətlərinə aid edilməyib.

III. Naxçıvan Muxtar Respublikasının səlahiyyətlərinə aid edilən məsələlərin həllində o, Azərbaycan Respublikasının ümumi mənafeləri ilə bağlıdır.

Maddə 3. Hakimiyyətlərin bölünməsi

I. Naxçıvan Muxtar Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi həyata keçirir;
- icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir;
- məhkəmə hakimiyyətini Naxçıvan Muxtar Respublikasının məhkəmələri həyata keçirir.

II. Bu Konstitusiyanın müddəalarına əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərirlər.

III. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və bu Konstitusiya ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində, Naxçıvan Muxtar Respublikası məhkəmələri isə Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildirlər.

Maddə 4. Dövlət Hakimiyyətinin mənimsənilməsinə yol verilməməsi

I. Naxçıvan Muxtar Respublikasında vətəndaşların heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz.

II. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayətdir.

Maddə 5. Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi

I. Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir.

II. Bu Konstitusiya ilə müəyyən olunan hallarda və qaydada Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi həm qanunvericilik, həm icra hakimiyyəti sahələrində aşağıdakı səlahiyyətləri həyata keçirir:

1) Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkiləri təyin edir;

2) Naxçıvan Muxtar Respublikası dövlət hakimiyyət orqanlarının qarşılıqlı fəaliyyətini təmin edir;

3) Naxçıvan Muxtar Respublikasının qanunlarını imzalayır və dərc edir;

4) Naxçıvan Muxtar Respublikasının dövlət və ictimai siyasi həyatının mühüm məsələləri barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə məlumat verir;

5) Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin istefası haqqında qərar qəbul edir;

6) Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsində icra hakimiyyəti üçün nəzərdə tutulmuş xərclər çərçivəsində mərkəzi icra hakimiyyəti orqanlarını yaradır;

7) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyaları arasındakı dövrdə Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifi ilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibinin fəaliyyətini təmin edir;

8) Naxçıvan Muxtar Respublikasını xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla, habelə başqa fiziki və hüquqi şəxslərlə münasibətdə təmsil edir;

9) Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsi,

Naxçıvan Muxtar Respublikası ümumi və ixtisaslaşdırılmış məhkəmələrin hakimlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə dair təkliflər verir;

10) Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin seçilməsi haqqında Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdimat verir;

11) Naxçıvan Muxtar Respublikasının yerli icra hakimiyyətləri başçılarının vəzifəyə təyin və vəzifədən azad edilməsinə dair Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir;

12) ali xüsusi rütbələrin verilməsinə dair Azərbaycan Respublikasının Prezidentinə təkliflər verir;

13) Naxçıvan Muxtar Respublikası prokurorunun, rayon, şəhər və ixtisaslaşdırılmış prokurorlarının vəzifəyə təyin və vəzifədən azad olunmasına dair təkliflər verir;

14) Naxçıvan Muxtar Respublikasında Azərbaycan respublikasının hərbi doktrinasını həyata keçirir, Azərbaycan respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisində yerləşmiş birləşmələrinin komandan heyətləri haqqında təklif verir;

15) vətəndaşlıq məsələlərinə dair təklif verir;

16) əfv edilmə məsələlərinə dair təklif verir;

17) Təhlükəsizlik Şurasını təsis edir və ona rəhbərlik edir;

18) ümumi və qismən səfərbərliyin həyata keçirilməsini təmin edir;

19) vətəndaşların müddətli hərbi xidmətə çağırılmasının və müddətli hərbi xidmətdən tərxis olunmuş hərbi qulluqçuların sosial müdafiəsinin təmin olunması tədbirlərinin həyata keçirilməsinə yardım edir;

20) Azərbaycan Respublikasının Prezidenti tərəfindən elan edilmiş fövqəladə və hərbi vəziyyət rejiminin həya-

ta keçirilməsinə yardım edir, Naxçıvan Muxtar Respublikasında fövqəladə və hərbi vəziyyət elan olunması məsələsinə dair təklif verir;

21) Naxçıvan Muxtar Respublikasının fəxri adlarını təsis edir, Azərbaycan Respublikasının dövlət təltifləri ilə təltif edilməsinə dair Azərbaycan Respublikasının Prezidentinə təklif verir;

22) Azərbaycan Respublikasının Prezidenti tərəfindən Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin səlahiyyətlərinə aid edilmiş digər məsələləri icra qaydasında həll edir.

III. Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikasının mənafeləri ilə bağlı iqtisadi və mədəni məsələlərdə, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş həddə və Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçıvan Muxtar Respublikasını təmsil edir.

IV. Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikasının dövlətçiliyinin varisliyini təmin edir.

V. Bu Konstitusiya ilə onun səlahiyyətinə aid edilən məsələlər üzrə Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi fərmanlar, başqa məsələlər barəsində isə sərəncamlar qəbul edir.

Maddə 6. Ərazi

Naxçıvan Muxtar Respublikasının ərazisi Azərbaycan Respublikasının dövlət sərhədləri hüdudunda vahiddir, toxunulmazdır və bölünməzdir.

Maddə 7. Əsas insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi

Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş əsas insan və vətəndaş hüquq və azadlıqlarının qorunması, gözlənilməsi və Azərbaycan Respublikası vətəndaşlarının vəzifələrinin icrasını təmin etmək Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarının əsas vəzifəsidir.

Maddə 8. Naxçıvan Muxtar Respublikasında vətəndaşların səsvermə hüququ

Naxçıvan Muxtar Respublikasının ərazisində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları seçmək və seçilmək hüququna malikdirlər.

Məhkəmələr tərəfindən fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə iştirak etmək hüququ yoxdur.

Hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, bu Konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin seçkilərdə iştirak etmək hüququ qanunla məhdudlaşdırıla bilər.

Maddə 9. Paytaxt

Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhəridir.

Maddə 10. Naxçıvan Muxtar dövlətinin rəmzləri

Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının dövlət bayrağı, gerbi və Azərbaycan Respublikasının dövlət himnidir.

II fəsil.

QANUNVERİCİLİK HAKİMİYYƏTİ

Maddə 11. Qanunvericilik hakimiyyətinin həyata keçirilməsi

Naxçıvan Muxtar Respublikasında qanunvericilik hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi həyata keçirir.

Maddə 12. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin say tərkibi

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 45 deputatdan ibarətdir.

Maddə 13. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının seçkilərinin əsasları

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər.

Maddə 14. Naxçıvan Muxtar Respublikası Ali Məclisi çağırışının səlahiyyət müddəti

I. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin hər çağırışının səlahiyyət müddəti 5 ildir.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin hər çağırışının seçkiləri hər beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir.

III. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının səlahiyyət müddəti Naxçıvan Muxtar Respub-

likası Ali Məclisinin çağırışının səlahiyyət müddəti ilə məhdudlaşır.

IV. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlığından çıxanların yerinə yeni seçkilər keçirilərsə, yeni seçilən deputatın səlahiyyət müddəti deputatlıqdan çıxanın qalan səlahiyyət müddəti ilə məhdudlaşır.

Maddə 15. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlığına namizədlərə aid tələblər

I. Naxçıvan Muxtar Respublikasının ərazisində daimi yaşayan, yaşı 25-dən aşağı olmayan hər bir Azərbaycan Respublikası vətəndaşı qanunla müəyyən edilmiş qaydada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilə bilər.

II. İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə deputat seçilə bilməzlər.

Maddə 16. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının seçkilərinin nəticələrinin yoxlanılması və təsdiqi

Seçkilərin nəticələrinin düzgünlüyü qanunla müəyyən edilmiş qaydada Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi tərəfindən yoxlanılır və təsdiq edilir.

Maddə 17. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının səlahiyyətinin bitməsi

I. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının səlahiyyətləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeni çağırışının ilk iclas günü bitir.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səlahiyyət müddətinin bitməsinə 120 gündən az müddət qalarsa Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlığından çıxanların yerinə seçkilər keçirilmir.

III. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 31 deputatın səlahiyyətləri təsdiq olunduqda səlahiyyətlidir.

Maddə 18. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyaları

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi hər il iki növbəti sessiyaya yığılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 31 deputatının səlahiyyətləri təsdiq edildikdən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclası həmin gündən başlayaraq bir həftədən gec olmayaraq çağırılır.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyaları Azərbaycan Respublikası Prezidenti, Azərbaycan Respublikası Milli Məclisi tərəfindən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 deputatının tələbi əsasında və ya öz təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən çağırılır.

III. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasının gündəliyini müvafiq olaraq onun çağırılmasını tələb edənlər müəyyənləşdirir. Bu gündəlik-

dəki məsələlərə baxıldıqdan sonra növbədənkənar sessiyanın işi bitir.

IV. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyalarının iclasları açıq keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 31 deputatının tələbi ilə və ya Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin təklifi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasının qapalı iclası keçirilə bilər.

Maddə 19. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlığından məhrumetmə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının səlahiyyətlərinin itirilməsi

I. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı aşağıdakı hallarda mandatından məhrum edilir:

1) seçkilər zamanı səslərin düzgün hesablanmadığı aşkar olunduqda;

2) Azərbaycan Respublikası vətəndaşlığından çıxdıqda və ya başqa dövlətin vətəndaşlığını qəbul etdikdə;

3) cinayət törətdikdə və məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda;

4) icra və məhkəmə hakimiyyəti sistemlərində qulluq etdikdə, din xadimi olduqda, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olduqda;

5) özü imtina etdikdə.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlığından məhrumetmə haqqında qərar qanunla müəyyən edilmiş qaydada qəbul edilir.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları öz səlahiyyətlərini daimi icra edə bilmədikdə və

qanunda nəzərdə tutulmuş digər hallarda onların səlahiyyətləri itirilir. Bu haqda müvafiq qərarın qəbul edilmə qaydası qanunla müəyyən edilir.

Maddə 20. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının toxunulmazlığı

I. Səlahiyyət müddəti ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının şəxsiyyəti Naxçıvan Muxtar Respublikasında toxunulmazdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı səlahiyyət müddəti ərzində cinayət başında yaxalanma hallarından başqa, cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı cinayət başında yaxalanarsa, tutula bilər. Belə olduqda, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatını tutan orqan bu barədə dərhal Naxçıvan Muxtar Respublikası prokuroruna xəbər verməlidir.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatının toxunulmazlığına yalnız Naxçıvan Muxtar Respublikası prokurorunun təqdimatına əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sadə səs çoxluğu ilə qəbul edilmiş qərarı ilə xitam verilə bilər.

Maddə 21. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının məsuliyyətə cəlb olunmasına qoyulan qadağanlar

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları Naxçıvan Muxtar Respublikası Ali Məclisindəki fəaliyyətinə, səsverməyə və söylədiyi fikrə görə məsuliyyə-

tə cəlb oluna bilməzlər. Razılığı olmadan onlardan bu hallarla əlaqədar izahat, ifadə tələb edilə bilməz.

Maddə 22. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin işinin təşkili

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi öz iş qaydasını müəyyən edir və Ali Məclisin müvafiq orqanlarını yaradır, o cümlədən öz sədrini və onun müavinlərini seçir, ***komitələr və komissiyalar t***əşkil edir.

Maddə 23. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aktları

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi öz səlahiyyətlərinə aid məsələlər üzrə qanunlar və qərarlar qəbul edir.

II. Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qanunlar və qərarlar Azərbaycan Respublikasının Konstitusiyası və bu Konstitusiya ilə müəyyən edilmiş qaydada qəbul edilir.

III. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları səsvermə hüququnu şəxsən həyata keçirirlər.

IV. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildir.

Maddə 24. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müəyyən etdiyi ümumi qaydalar

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi aşağıdakı məsələlərə dair ümumi qaydalar müəyyən edir:

1) Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər;

2) Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının statusu;

3) Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin statusu;

4)Azərbaycan Respublikasının iqtisadi və vergi siyasətinə uyğun olaraq vergilər;

5) Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı istiqamətləri;

6) sosial təminat;

7) ətraf mühitin qorunması;

8) turizm;

9) səhiyyə, elm və mədəniyyət;

10) Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə onun səlahiyyətinə aid edilən digər məsələlər.

II. Bu maddədə göstərilən məsələlərə dair Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qanunlar qəbul edir.

Maddə 25. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin həll etdiyi məsələlər

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi aşağıdakı məsələləri həll edir:

1) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin işinin təşkili;

2) Naxçıvan Muxtar Respublikasının büdcəsinin təsdiqi;

3) Naxçıvan Muxtar Respublikasının iqtisadi və sosial proqramlarının təsdiqi;

4) Naxçıvan Muxtar Respublikası Baş nazirinin vəzifəyə təyin edilməsi və vəzifədən azad edilməsi;

5) Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibinin təsdiqi;

6) Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə etimad;

7) Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsinin təqdimatı ilə Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin seçilməsi;

8) Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin təklifi ilə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin təyin edilməsi;

9) Bu Konstitusiyada nəzərdə tutulmuş hallarda Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin fərmanlarının təsdiqi;

10) Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə onun səlahiyyətinə aid edilən digər məsələlər.

II. Bu maddənin I hissəsinin 1-ci və 2-ci bəndlərində göstərilən məsələlərə dair qanunlar, qalan məsələlərə dair isə eyni qaydada qərarlar qəbul edilir.

Maddə 26. Qanunvericilik təşəbbüsü hüququ

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qanunvericilik təşəbbüsü hüququ (qanun layihələrini və başqa məsələləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə təqdim etmək hüququ) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarına, Naxçıvan Muxtar Respublikasının Baş nazirinə, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə və ***Naxçıvan Muxtar Respublikasının Prokurorluğuna*** mənsubdur.

II. Naxçıvan Muxtar Respublikası Baş nazirinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və ***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun*** qanunvericilik təşəbbüsü qaydasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verdiyi qanun və qərar layihələri müzakirəyə təqdim olunmuş şəkildə çıxarılır və səsə qoyulur.

III. Belə qanun və ya qərar layihələrində dəyişikliklər qanunvericilik təşəbbüsü hüququndan istifadə edən orqanın razılığı ilə edilə bilər.

IV. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının, Naxçıvan Muxtar Respublikası Baş nazirinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və ***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun*** Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etdiyi qanun və qərar layihələri iki ay ərzində səsə qoyulur.

V. Qanun və qərar layihəsini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, Naxçıvan Muxtar Respublikasının Baş naziri, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi və ***Naxçıvan Muxtar Respublikası Prokurorluğu*** təcili elan edibsə, bu müddət 20 gün təşkil edir.

VI. Qanun və qərar layihələri əsaslandırılmalı və onların qəbul edilməsinin məqsədləri göstərilməlidir.

Maddə 27. Qanunların və qərarların imzalanması

I. Qanunlar və qərarlar qəbul edildiyi gündən 10 gün müddətində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən imzalanır.

II. Təcili elan olunan qanun və qərar layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən qəbul edildiyi gündən 24 saat ərzində imzalanır.

Maddə 28. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aktlarının qüvvəyə minməsi

Qanunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarının özündə başqa qayda nəzərdə tutulmayıbsa, qanun və qərar dərc edildiyi gündən qüvvəyə minir.

Maddə 29. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə aid tələblər

I. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən seçilir, ona tabedir və ona hesabat verir. O, Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən geri çağırıla bilər.

II. Yaşı otuzdan aşağı olmayan, Naxçıvan Muxtar Respublikasının ərazisində beş ildən az olmayaraq daimi yaşayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin hər bir deputatı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilə bilər.

III. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin seçkisi qaydasını Naxçıvan Muxtar Respublikasının Ali Məclisi müəyyən edir.

Maddə 30. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin öz səlahiyyətlərini daimi icra edə bilməməsi

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri istefa verdikdə, səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini itirdikdə, müəyyən edilmiş müddətdə yeni sədr seçilənə qədər onun səlahiyyətlərinin icrası Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini, o da olmadıqda müavini tərəfindən yerinə yetirilir.

Maddə 31. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin vəzifədən kənarlaşdırılması

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin vəzifədən kənarlaşdırılması qaydası Naxçıvan Muxtar Res-

publikası Ali Məclisinin Daxili Nizamnaməsi ilə müəyyən edilir.

Maddə 32. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin səlahiyyətləri

I. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri:

1) Ali Məclisin növbədənkənar sessiyalarını çağırır;

2) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclaslarına sədrlik edir;

3) Naxçıvan Muxtar Respublikası Baş nazirinin vəzifəyə təyin edilməsi üçün Azərbaycan Respublikası Prezidenti tərəfindən təqdim olunmuş şəxsin namizədliyini Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim edir;

4) Naxçıvan Muxtar Respublikasının Baş nazirinin təklifinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə üzvlüyə namizədləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinə təqdim edir;

5) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı öz mandatından imtina etdikdə və qanunla müəyyən edilmiş digər hallarda onu deputat mandatından məhrum edir;

6) Naxçıvan Muxtar Respublikası Ali Məclisin sədri səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar qərar qəbul edir;

7) Naxçıvan Muxtar Respublikası Ali Məclisin sədr müavinliyinə namizədlərin seçilməsi və Ali məclisin sədr müavinlərinin vəzifədən azad edilməsi barədə Ali Məclisə təklif verir;

8) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müəyyən etdiyi qaydada Naxçıvan Muxtar Respublikası

Ali Məclisinin aparatını təşkil edir və onun rəhbəriliyini təyin edir;

9) Bu Konstitusiya ilə onun səlahiyyətlərinə aid edilən digər məsələləri həll edir.

Maddə 33. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktları

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri qərarlar qəbul edir.

III fəsil.
İCRA HAKİMİYYƏTİ

Maddə 34. Naxçıvan Muxtar Respublikasında İcra Hakimiyyəti

I. Naxçıvan Muxtar Respublikasında icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir.

II. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasının yuxarı icra orqanıdır.

III. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə tabedir və onun qarşısında müntəzəm hesabat verir.

Maddə 35. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin statusu

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Konstitusiyası, qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, qanunları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildir.

Maddə 36. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibi

I. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibinə Naxçıvan Muxtar Respublikasının Baş naziri, onun müavinləri, Naxçıvan Muxtar Respublikasının nazirləri və başqa mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri daxildirlər.

II. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibini Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təsdiq edir.

Maddə 37. Naxçıvan Muxtar Respublikasının Baş naziri

Naxçıvan Muxtar Respublikasının Baş nazirini Azərbaycan Respublikasının Prezidentinin təqdimatına əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təyin edir.

Maddə 38. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin iclasları

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin iclaslarına bir qayda olaraq Naxçıvan Muxtar Respublikasının Baş naziri sədrlik edir.

Maddə 39. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin səlahiyyətləri

I. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

- muxtar respublika büdcəsinin layihəsini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim edir;
- muxtar respublikanın büdcəsini icra edir;

- muxtar respublikanın iqtisadi proqramlarının həyata keçirilməsi təmin edir;

- muxtar respublikanın sosial proqramlarının həyata keçirilməsini təmin edir;

- nazirliklər və digər mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik edir, onların aktlarını ləğv edir;

- Azərbaycan Respublikası Prezidentinin onun səlahiyyətlərinə aid etdiyi digər məsələləri həll edir.

II. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iqtisadi və mədəni sahələrdə Naxçıvan Muxtar Respublikasını Azərbaycan Respublikasının Nazirlər Kabinetində təmsil edir.

Maddə 40. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aktları

I. Ümumi qaydalar müəyyən etdikdə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti qərarlar, başqa məsələlər üzrə sərəncamlar qəbul edir.

II. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aktları başqa qayda müəyyən edilməmişsə, dərc edildiyi gündən qüvvəyə minir.

Maddə 41. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvlüyünə namizədlərə aid tələblər

I. Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə yaşı 30-dan aşağı olmayan, ali təhsilli, seçkilərdə iştirak etmək hüququna malik, başqa dövlət qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşı təyin edilir.

II. Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini, nazir, digər mərkəzi icra hakimiyyəti orqanının rəhbə-

ri vəzifəsinə yaşı 25-dən aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik, ali təhsilli, başqa dövlət qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşı təyin edilir.

Maddə 42. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvlərinə aid tələblər.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvləri heç bir başqa seçkili və ya təyinatlı vəzifə tuta bilməzlər, elmi-pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməzlər, vəzifə maaşından, habelə elmi, pedaqoji və yaradıcılıq fəaliyyətinə görə aldığı vəsaitdən başqa məvacib ala bilməzlər.

IV fəsil.
MƏHKƏMƏ HAKİMİYYƏTİ

Maddə 43. Məhkəmə hakimiyyətinin həyata keçirilməsi

I. Naxçıvan Muxtar Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər.

II. Məhkəmə hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının ümumi və ixtisaslaşdırılmış məhkəmələri həyata keçirirlər.

III. Məhkəmə hakimiyyəti Azərbaycan Respublikasının Konstitusiyası, mülki və cinayət məhkəmə icraatı vasitəsilə və qanunla nəzərdə tutulan digər vasitələr ilə həyata keçirilir.

IV. *Cinayət məhkəmə icraatında* Naxçıvan Muxtar Respublikasının Prokurorluğu və müdafiə tərəfi iştirak edir.

V. Məhkəmə quruluşu və məhkəmə icraatı qaydası qanunla müəyyən olunur.

VI. Məhkəmələrin səlahiyyətlərinin dəyişdirilməsi məqsədi ilə müəyyən olunmamış hüquqi üsulların tətbiq edilməsi və fövqəladə məhkəmələrin yaradılması qadağandır.

VII. Məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir.

Maddə 44. Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi

I. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır; ***o, Naxçıvan Muxtar Respublikasının ərazisində apellyasiya qaydasında ədalət mühakiməsini həyata keçirir.***

II. Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi Naxçıvan Muxtar Respublikasında Konstitusiya nəzarətini tə'min edir. O, Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinin, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin sədrinin və Naxçıvan Muxtar Respublikası Prokurorluğunun sorğusu əsasında aşağıdakı məsələləri həll edir:

1) Naxçıvan Muxtar Respublikasının qanunlarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarlarının, Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin fərman və sərəncamlarının, Naxçıvan Muxtar Respublika-

sı Ali Məclisi sədrinin qərarlarının, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına uyğunluğu;

2) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarlarının, Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin fərman və sərəncamlarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin qərarlarının, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin sərəncamlarının, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Naxçıvan Muxtar Respublikasının qanunlarına uyğunluğu;

3) Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarının, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin fərman və sərəncamlarına uyğunluğu.

III. Hər kəs onun hüquq və azadlıqlarını pozan Naxçıvan Muxtar Respublikasının qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarından bu maddənin II hissəsinin 1-3-cü bəndlərində göstərilən məsələlərin Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi tərəfindən həll edilməsi üçün, habelə bələdiyyə və məhkəmə aktlarından Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədi ilə qanunla müəyyən edilmiş qaydada şikayət verə bilər.

IV. Naxçıvan Muxtar Respublikasında Konstitusiya nəzarətinin həyata keçirilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin aktlarından qanunla

müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə şikayət verilə bilər.

V. Naxçıvan Muxtar Respublikasının məhkəmələri insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı Naxçıvan Muxtar Respublikası qanunlarının şərh edilməsi haqqında qanunla müəyyən edilmiş qaydada Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə müraciət edə bilər.

VI. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimlərini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinin təklifi ilə Azərbaycan Respublikası Prezidenti təyin edir.

VII. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin qərarları dərc edilməlidir.

Maddə 45. Naxçıvan Muxtar Respublikasının İqtisad məhkəməsi

I. Naxçıvan Muxtar Respublikası İqtisad Məhkəməsi iqtisadi mübahisələrə baxılması üzrə məhkəmə orqanıdır.

II. Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsi hakimlərini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinin təklifi ilə Azərbaycan Respublikasının Prezidenti təyin edir.

Maddə 46. Naxçıvan Muxtar Respublikası Prokurorluğu

I. Naxçıvan Muxtar Respublikası Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir, qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır, məhkəmədə dövlət ittihamını müdafiə edir, məhkəmədə iddia qaldırır, məhkəmə qərarlarından protest verir.

II. Naxçıvan Muxtar Respublikası Prokurorluğu ərazi prokurorlarının Naxçıvan Muxtar Respublikası Prokurorunu və Azərbaycan Respublikasının Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır.

III. Naxçıvan Muxtar Respublikası Prokurorunu Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təklifi əsasında Azərbaycan Respublikası Baş prokurorunun təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin edir.

IV. Ərazi və ixtisaslaşdırılmış prokurorları Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Azərbaycan Respublikası Prezidentinə verilmiş təklifi və Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Azərbaycan Respublikasının Baş prokuroru vəzifəyə təyin və azad edir.

V fəsil.

QANUNVERİCİLİK SİSTEMİ

Maddə 47. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının hüquqi qüvvəsi

I. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Naxçıvan Muxtar Respublikasının digər normativ hüquqi aktları arasında ən yüksək hüquqi qüvvəyə malikdir.

II. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası birbaşa hüquqi qüvvəyə malikdir.

III. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Naxçıvan Muxtar Respublikası qanunvericilik sisteminin əsasıdır.

Maddə 48. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi

I. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi Azərbaycan Respublikasının qanunvericilik sisteminin tərkib hissəsidir.

II. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi Azərbaycan Respublikası qanunvericilik sisteminə uyğundur.

III. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi Naxçıvan Muxtar Respublikasının aşağıdakı normativ-hüquqi aktlardan ibarətdir:

1) Naxçıvan Muxtar Respublikasının Konstitusiyası;

2) Naxçıvan Muxtar Respublikasının qanunları;

3) Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinin fərmanları;

4) Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları;

5) Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları.

Maddə 49. Naxçıvan Muxtar Respublikasının normativ-hüquqi aktları

I. Normativ-hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə, bərabər münasibətə) əsaslanmalıdır.

II. Naxçıvan Muxtar Respublikasının qanunları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına zidd olmamalıdır, yalnız dərc edilmiş qanunların tətbiqi və icrası Naxçıvan Muxtar Respublikasında bütün vətəndaşlar, icra hakimiyyəti və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir.

III. Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinin fərmanları Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına zidd olmamalıdır, Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinin fərmanları yalnız dərc edildikdə Naxçıvan Muxtar Respublikasında onların tətbiqi və icrası vətəndaşlar, mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir.

IV. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına, Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin fərman və sərəncamlarına zidd olmamalıdır. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları yalnız dərc edildikdə Naxçıvan Muxtar Respublikasında onların tətbiqi və icrası vətəndaşlar, mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir.

V. Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının aktları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına, Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinin fərman və sərəncamlarına, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına və sə-

rəncamlarına, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının aktlarına zidd olmamalıdır.

VI fəsil.

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ KONSTİTUSİYASINA DƏYİŞİKLİKLƏR VƏ ƏLAVƏLƏR

Maddə 50. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklərin və əlavələrin qəbul edilmə qaydası

I. Naxçıvan Muxtar Respublikası Konstitusiyasına dəyişikliklər və əlavələr Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 35 səs çoxluğu ilə qəbul edildikdən sonra təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilir.

II. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr haqqında təklif Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 2 dəfə səsə qoyulur. İkinci səsvermə birinci səsvermədən 3 ay sonra keçirilir.

III. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr haqqında Konstitusiya qanunları həm birinci, həm də ikinci səsvermədən sonra təklif qanunlar üçün nəzərdə tutulmuş qaydada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə imzalamaq üçün təqdim olunur.

IV. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr Naxçıvan Muxtar Respublikası Konstitusiyasının ayrılmaz hissəsidir və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının əsas mətninə zidd olmamalıdır.

KEÇİD MÜDDƏALARI

1. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən qəbul edildikdən və Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiq edildikdən sonra rəsmən dərc olunduğu gündən qüvvəyə minir. Bu Konstitusiyanın qüvvəyə mindiyi gündən 1978-ci il mayın 30-da qəbul edilmiş Naxçıvan Muxtar Respublikasının Konstitusiyası (Əsas Qanunu) qüvvədən düşür.

2. Naxçıvan Muxtar Respublikasının xalq deputatlarının səlahiyyətləri yeni seçilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclas günü başa çatır.

Yeni seçilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclası Naxçıvan Muxtar Respublikası Ali Məclisinin azı 31 deputatının seçildiyinin elan edildiyi gündən sonra bir ay ərzində keçirilir.

3. 1995-ci il sentyabrın 12-də qəbul edilmiş "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 79-cu maddəsi bu Qanun əsasında seçilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1-ci çağırışının səlahiyyətləri bitənədək qüvvədədir.

4. Bu Konstitusiyanın qəbul edildiyi günədək Naxçıvan Muxtar Respublikasının ərazisində qüvvədə olan Naxçıvan Muxtar Respublikasının qanunları və başqa normativ-hüquqi aktları bu Konstitusiyaya zidd olmayan hissədə öz qüvvəsini saxlayır.

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA QANUNU

I fəsil

İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİN (OMBUDSMANIN) FƏALİYYƏTİNİN VƏ TƏYİN EDİLMƏSİNİN ƏSASLARI

Maddə 1. İnsan hüquqları üzrə müvəkkilin fəaliyyətinin əsasları

1.1. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili vəzifəsi (bundan sonra "Müvəkkil" adlandırılacaq) Azərbaycan Respublikası Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi üçün təsis edilir.

1.2. Müvəkkilin fəaliyyəti insan hüquqlarının müdafiəsini, pozulmuş insan hüquq və azadlıqlarının bərpasını təmin edən digər dövlət orqanlarının səlahiyyətlərini məhdudlaşdırmır və əvəz etmir.

1.3. Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının və Azərbaycan Respublikası hakimlərinin fəaliyyətinin yoxlanılması Müvəkkilin səlahiyyətlərinə aid deyil.

1.4. Müvəkkil əfv, vətəndaşlıq, siyasi sığınacaq verilməsi məsələlərinin həlli ilə bağlı Azərbaycan Respublikası Prezidentinə təkliflər verə bilər.

1.5. Müvəkkil Azərbaycan Respublikasının Milli Məclisinə insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə qanunların qəbul edilməsinə və ya yenidən baxılmasına dair təkliflər verə bilər. Müvəkkil Azərbaycan Respublikasının Milli Məclisinə amnistiya elan edilməsi barədə təklif verə bilər.

1.6. Müvəkkilin məhkəmələrdə süründürməçilik, sənədlərin itirilməsi və vaxtında verilməməsi, habelə məhkəmə qərarlarının icrasının gecikdirilməsi ilə əlaqədar insan hüquqlarının pozulmasına dair şikayətlərə baxmaq hüququ vardır.

1.7. Müvəkkilin fəaliyyəti aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət, qərəzsizlik prinsipləri əsasında qurulur.

Maddə 2. Müvəkkilin seçilməsi

2.1. Müvəkkili Azərbaycan Respublikası Prezidentinin təqdim etdiyi üç namizəd arasından Azərbaycan Respublikasının Milli Məclisi 83 səs çoxluğu ilə seçir.

2.2. Azərbaycan Respublikasının Milli Məclisi Müvəkkilin seçilməsi ilə bağlı qərarı qəbul etmədikdə, Azərbaycan Respublikasının Prezidenti 15 gün müddətində digər üç şəxsin namizədliyini Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir.

Maddə 3. Müvəkkilin namizədliyinə aid tələblər

3.1. Yaşı 30-dan aşağı olmayan, ali təhsilli, insan hüquqlarının müdafiəsi sahəsində təcrübəyə və yüksək əxlaqi keyfiyyətlərə malik olan Azərbaycan Respublikasının vətəndaşı Müvəkkil vəzifəsinə seçilə bilər.

3.2. İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, qanunvericilik, icra və məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır və xüsusilə ağır cinayətlərə görə məhkum olunmuş şəxs Müvəkkil ola bilməz.

3.3. Müvəkkil siyasi fəaliyyətlə məşğul ola və heç bir siyasi partiyanın üzvü ola bilməz. Müvəkkil hər hansı qeyri-hökumət təşkilatının rəhbərliyində təmsil oluna bilməz.

3.4. Müvəkkil vəzifəsinə seçildiyi gündən 5 gün müddətində onun statusuna uyğun olmayan fəaliyyəti dayandırmalıdır.

3.5. Müvəkkil vəzifəyə seçildiyi gün Azərbaycan Respublikası Milli Məclisinin iclasında and içir: "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili vəzifəsində səlahiyyətlərimi şərəf və ləyaqətlə yerinə yetirəcəyimə, Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına əməl edəcəyimə, müstəqil və qərəzsiz fəaliyyət göstərəcəyimə and içirəm".

Maddə 4. Müvəkkilin səlahiyyət müddəti

4.1. Müvəkkil 7 il müddətinə seçilir.

4.2. Eyni şəxs Müvəkkil vəzifəsinə iki dəfədən artıq seçilə bilməz.

4.3. Müvəkkilin səlahiyyət müddəti bitdiyi gün yeni Müvəkkil seçilmədikdə, o, səlahiyyətlərinin icrasını davam etdirir. Bu halda onun səlahiyyət müddəti yeni Müvəkkilin seçildiyi gündən bitmiş hesab olunur.

Maddə 5. Müvəkkilin müstəqilliyinin təminatları

5.1. Müvəkkil müstəqildir və yalnız Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına tabedir.

5.2. Müvəkkilin müstəqilliyinə aşağıdakı təminatlar verilir:

5.2.1. dəyişilməzliyi;

5.2.2. toxunulmazlığı;

5.2.3. hər hansı dövlət və ya yerli özünüidarə orqanı, vəzifəli şəxs tərəfindən onun fəaliyyətinə müdaxilə edilməsinin yolverilməzliyi;

5.2.4. maddi və sosial təminatlar.

5.3. Fövqəladə və ya hərbi vəziyyətin elan edilməsi Müvəkkilin fəaliyyətini dayandırmır və ya məhdudlaşdırmır.

Maddə 6. Müvəkkilin toxunulmazlığı

6.1. Müvəkkil səlahiyyət müddəti ərzində toxunulmazdır.

6.2. Müvəkkil səlahiyyət müddəti ərzində cinayət başında yaxalanma hallarından başqa, cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula və saxlanıla bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz. Müvəkkil cinayət başında yaxalanarsa, onu tutan orqan bu barədə 24 saat müddətində Azərbaycan Respublikası Baş prokuroruna və Azərbaycan Respublikasının Milli Məclisinə xəbər verməlidir.

6.3. Müvəkkilin toxunulmazlığına yalnız Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına əsasən Azərbaycan Respublikası Milli Məclisinin 83 səs çoxluğu ilə qəbul edilmiş qərarı ilə xitam verilə bilər.

6.4. Müvəkkilin toxunulmazlığı həmçinin onun mənzilinə, xidməti otağına, nəqliyyat və rabitə vasitələrinə, poçt-teleqraf yazışmalarına, şəxsi əmlakına və sənədlərinə də şamil edilir.

6.5. Müvəkkil işləmiş şəxs vəzifədən getdikdən sonra Müvəkkil səlahiyyətlərini həyata keçirdiyi dövrdəki fəaliyyətinə və söylədiyi fikirlərə görə toxunulmazdır. Bu dövrdə törətdiyi cinayətlərə və məhkəmə qaydasında inzibati tənbeh tədbirləri nəzərdə tutulmuş hüquq pozuntularına görə həmin şəxsin məsuliyyətə cəlb edilməsi bu Qanunun 6.3-cü maddəsində müəyyən olunmuş qaydada həyata keçirilir.

Maddə 7. Müvəkkilin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi

7.1. Müvəkkilin səlahiyyətlərinə Azərbaycan Respublikası Milli Məclisinin təşəbbüsü ilə və ya Azərbaycan Respublikası Prezidentinin təqdimatı əsasında Azərbaycan Respublikası Milli Məclisinin 83 səs çoxluğu ilə qəbul edilmiş qərarı ilə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

7.1.1. Müvəkkilə aid tələblər pozulduqda;

7.1.2. Müvəkkil öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdikdə;

7.2. Azərbaycan Respublikası Milli Məclisinin iclasında aşağıdakı hallar elan edildikdə, Azərbaycan Respublikası Milli Məclisinin sədri öz sərəncamı ilə Müvəkkilin səlahiyyətlərinə vaxtından əvvəl xitam verir:

7.2.1. Müvəkkil vəfat etdikdə;

7.2.2. Müvəkkil barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü olduqda;

7.2.3. Müvəkkil vəzifəsindən könüllü yazılı istefa verdikdə.

7.3. Müvəkkilin səlahiyyətlərinə vaxtından əvvəl xitam verildikdə, Azərbaycan Respublikasının Prezidenti 30 gün müddətində Azərbaycan Respublikası Milli Məclisinə yeni Müvəkkilin seçilməsi üçün üç şəxsin namizədliyini təqdim edir. Azərbaycan Respublikasının Milli Məclisi 15 gün müddətində Müvəkkilin seçilməsi ilə bağlı müvafiq qərar qəbul edir.

II fəsil

İNSAN HÜQUQLARININ POZULMASINA DAİR ŞİKAYƏTLƏRƏ BAXILMASI

Maddə 8. İnsan hüquqlarının pozulmasına dair şikayətlərin verilməsi qaydası

8.1. Müvəkkil Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, hüquqi şəxslərin (bundan sonra "ərizəçi" adlandırılacaq) insan hüquqlarının pozulmasına dair şikayətlərinə baxır.

8.2. Şikayəti insan hüquqları pozulmuş şəxsin razılığı ilə üçüncü şəxslər, o cümlədən qeyri-hökumət təşkilatları verə bilərlər. İnsan hüquqları pozulmuş şəxsin razılığını almaq mümkün olmadıqda (həmin şəxs vəfat etdikdə, fəaliyyət qabiliyyətini itirdikdə və s.), şikayəti üçüncü şəxslər və ya qeyri-hökumət təşkilatları razılıq almadan da verə bilərlər.

8.3. Dövlət orqanları Müvəkkilə şikayət verə bilməzlər.

8.4. Şikayət ərizəçinin hüquqlarının pozulduğu və ya ona bu barədə məlum olduğu gündən bir il müddətində verilə bilər.

8.5. Cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında, müvəqqəti saxlanılma yerlərində saxlanılan şəxslər tərəfindən ünvanlanmış şikayətlər senzuradan keçirilmədən 24 saat müddətində Müvəkkilə göndərilməlidir.

Maddə 9. İnsan hüquqlarının pozulmasına dair şikayətin məzmunu

9.1. İnsan hüquqlarının pozulmasına dair şikayətdə ərizəçinin adı, atasının adı, soyadı, ünvanı göstərilməli, eləcə də ərizəçinin hüquqlarını pozmuş qərar və ya hərəkətin (hərəkətsizliyin) mahiyyəti, şikayətin tərtib edilmə yeri, vaxtı və ərizəçinin imzası olmalıdır. Şikayətlə bağlı başqa materiallar və ya məhkəmə tərəfindən çıxarılmış qərar olduqda, şikayətə əlavə edilə bilər.

9.2. Şikayətdə ərizəçinin adı, atasının adı, soyadı, ünvanı göstərilmədikdə, müraciət anonim hesab edilir və həmin şikayətlərə, bu Qanunun 9.3-cü maddəsində göstərilən hallar istisna olmaqla, baxılmır.

9.3. Anonim şikayətdə göstərilən hallar kifayət qədər sübutlu və əsaslı faktlarla təsdiq edilirsə, həmin şikayətlər Müvəkkil tərəfindən baxılmaq üçün qəbul edilə bilər.

9.4. Şikayət şifahi verildikdə, Müvəkkil aparatının işçisi şikayətin məzmununu xüsusi blankda qeyd edir və ərizəçi həmin vərəqi imzalayır.

9.5. Ərizəçinin xahişi ilə Müvəkkil onun barəsində məlumatları gizli saxlamalıdır.

Maddə 10. İnsan hüquqlarının pozulmasına dair şikayətlə bağlı qərarın qəbul edilməsi

10.1. Ərizəçi tərəfindən insan hüquqlarının pozulmasına dair şikayət daxil olduqda, Müvəkkil aşağıdakı qərarlardan birini qəbul edə bilər:

10.1.1. şikayət baxılmaq üçün qəbul edilsin;

10.1.2. şikayətə baxılmasından imtina edilsin.

10.2. Müvəkkil şikayətə baxılmasından imtina etdiyi halda ərizəçiyə 10 gün müddətində yazılı şəkildə əsaslandırılmış cavab verir.

Maddə 11. İnsan hüquqlarının pozulmasına dair şikayətə baxılmasından imtina edilməsi üçün əsaslar

11.1. Müvəkkil aşağıdakı hallarda şikayətə baxmır:

11.1.1. bu Qanunun 8.4-cü maddəsinin tələbləri pozulduqda;

11.1.2. şikayət Müvəkkilin səlahiyyətlərinə aid olmadıqda;

11.1.3. bu Qanunun 9.3-cü maddəsində göstərilən hallar istisna olmaqla, şikayət anonim olduqda;

11.1.4. şikayətlə bağlı məhkəmə icraatı getdikdə;

11.1.5. təkrar təqdim edilmiş şikayətdə yeni məlumatlar, faktlar və sübutlar olmadıqda.

Maddə 12. İnsan hüquqlarının pozulmasına dair şikayətə baxılma qaydası

12.1. Müvəkkil insan hüquqlarının pozulmasına dair şikayətdə əks etdirilmiş halların araşdırılması zamanı barəsində şikayət verilən orqanın və ya vəzifəli şəxsin həmin şikayətlə bağlı mülahizələrini öyrənməlidir. 10 gün müddətində mülahizə Müvəkkilə təqdim edilməlidir.

12.2. İnsan hüquqlarının pozulmasına dair şikayətdə əks etdirilmiş halların araşdırılması zamanı Müvəkkilin aşağıdakı hüquqları vardır:

12.2.1. maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarına, hərbi

hissələrə, cəzaçəkmə müəssisələrinə, istintaq təcridxanalarına, müvəqqəti saxlanılma yerlərinə daxil olmaq; cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında, müvəqqəti saxlanılma yerlərində saxlanılan şəxslərlə görüşmək və təkbətək söhbət etmək; onların həmin yerlərdə saxlanılmasının qanuniliyini təsdiq edən sənədlərlə tanış olmaq;

12.2.2. dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarından, vəzifəli şəxslərdən zəruri məlumat, sənəd və materialları 10 gün müddətində almaq;

12.2.3. cinayət, mülki və inzibati işlərə dair qanuni qüvvəyə minmiş qərarlarla, həmçinin cinayət işlərinin başlanmasının rədd edilməsi barədə materiallarla tanış olmaq;

12.2.4. şikayətin araşdırılması zamanı vəzifəli şəxslərdən yazılı arayışlar almaq;

12.2.5. şikayətdə əks etdirilmiş halların yoxlanılması üçün müvafiq orqanlara tapşırıq vermək (yoxlama, qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) şikayət edilən orqana və ya vəzifəli şəxsə tapşırıla bilməz);

12.2.6. müvafiq dövlət orqanları və təşkilatlarına ekspert rəyinin hazırlanmasını tapşırmaq;

12.2.7. dövlət və yerli özünüidarə orqanlarının rəhbərləri və digər vəzifəli şəxsləri, hərbi hissələrin komandirləri, cəzaçəkmə müəssisələrinin, istintaq təcridxanalarının və müvəqqəti saxlanılma yerlərinin rəhbərliyi tərəfindən təxirə-salınmadan qəbul edilmək.

12.3. İnsan hüquqları pozulmuş şəxsin razılığı ilə xüsusi ictimai əhəmiyyət kəsb edən hallarda və ya öz hüquqlarını müstəqil şəkildə müdafiə etmək qabiliyyəti olmayan şəxslərin maraqlarına toxunulduğu hallarda Müvəkkil öz təşəbbüsü ilə araşdırma apara bilər.

12.4. Araşdırma zamanı şikayətdə qeyd olunmayan digər hallar aşkar edilərsə, araşdırma Müvəkkilin səlahiy-

yətlərinə aid olduqda, onun tərəfindən aparılır, onun səlahiyyətlərinə aid olmadıqda isə materiallar digər səlahiyyətli dövlət orqanlarına göndərilir.

12.5. Şikayətə 30 gün müddətində baxılır. Şikayətə baxmaq üçün əlavə yoxlama aparmaq və ya material tələb etmək zərurəti yarandıqda, müraciətə baxılma müddəti 30 gün də uzadıla bilər. Ərizəçinin yazılı razılığı ilə əlavə yoxlama aparmaq lazım gəldiyi halda müraciətin baxılma müddəti yenidən uzadıla bilər.

Maddə 13. İnsan hüquqlarının pozulmasına dair şikayətə baxılmanın nəticələri

13.1. Müvəkkil şikayətə baxılması ilə bağlı görülmüş tədbirlər və nəticələr barədə 5 gün müddətində ərizəçiyə yazılı surətdə məlumat verir.

13.2. Müvəkkil şikayətin araşdırılması zamanı insan hüquqlarının pozulması hallarını aşkar etdikdə, aşağıdakı tədbirləri həyata keçirə bilər:

13.2.1. qərar və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində insan hüquqlarını pozmuş dövlət və yerli özünüidarə orqanlarından, vəzifəli şəxslərdən həmin hüquqların bərpasını tələb etmək (müvafiq orqanlar, vəzifəli şəxslər 10 gün müddətində Müvəkkilə görülən tədbirlər barədə yazılı surətdə məlumat verməlidirlər. Məlumat verilmədiyi və ya Müvəkkilin tələbləri həyata keçirilmədiyi hallarda, Müvəkkil həmin təşkilatın yuxarı orqanına və ya digər dövlət orqanlarına müraciət edə bilər);

13.2.2. cinayət əlamətləri aşkar edildikdə, müvafiq orqanlara cinayət işinin başlanması barədə müraciət etmək;

13.2.3. əlavə kassasiya qaydasında şikayət etmək hüququna malik olan subyektlərə müraciət etmək;

13.2.4. qərar və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində insan hüquqlarını pozmuş vəzifəli şəxslərin intizam məsuliyyətinə cəlb edilməsi barədə müvafiq orqanlara təkliflər vermək;

13.2.5. insan hüquqlarının pozulması ilə əlaqədar aparılmış yoxlamaların nəticələri ilə kütləvi informasiya vasitələrini tanış etmək;

13.2.6. insan hüquqlarının pozulması xüsusi ictimai əhəmiyyət kəsb edən hallarda onların bərpası üçün Müvəkkilin səlahiyyətində olan təsir imkanları kifayət etmədikdə, Azərbaycan Respublikası Prezidentinə müraciət etmək, Azərbaycan Respublikası Milli Məclisi qarşısında məruzə ilə çıxış etmək;

13.2.7. dövlət və ya yerli özünüidarə orqanının, vəzifəli şəxsin qərarı və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində pozulmuş hüquqların bərpası üçün məhkəməyə müraciət etmək;

13.2.8. şəxsin hüquqları qüvvədə olan normativ aktlarla pozulduqda, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək.

Maddə 14. Müvəkkilin illik məruzəsi

14.1. Cari il bitdikdən sonra 2 aydan gec olmayaraq Müvəkkil ölkədə insan hüquqlarının qorunması haqqında Azərbaycan Respublikası Prezidentinə illik məruzəni təqdim edir və həmin məruzə ilə Azərbaycan Respublikası Milli Məclisi qarşısında çıxış edir.

14.2. İllik məruzədə insan hüquqlarını pozan, Müvəkkilin tələbləri ilə hesablaşmayan dövlət və yerli özünüidarə orqanlarının, vəzifəli şəxslərin adları çəkilir və bununla əlaqədar görülmüş tədbirlər barədə məlumat verilir.

14.3. Müvəkkilin illik məruzəsində insan hüquqlarının təmin edilməsi ilə əlaqədar ümumi fikir, rəy və tövsiyələr öz əksini tapmalıdır.

14.4. İllik məruzə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə, Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Azərbaycan Respublikasının Baş prokuroruna göndərilir.

14.5. Məruzə "Azərbaycan" qəzetində və "Azərbaycan Respublikasının qanunvericilik toplusu"nda dərc olunur.

Maddə 15. Müvəkkilin bəzi məlumatları gizli saxlaması

15.1. Müvəkkilin fəaliyyəti ilə əlaqədar ona məlum olmuş dövlət sirri təşkil edən məlumatların mühafizəsi "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq surətdə həyata keçirilir.

15.2. Şikayətdə əks etdirilmiş halların Müvəkkil tərəfindən araşdırılması zamanı ərizəçilərin şəxsi və ailə həyatı barədə bəlli olmuş məlumatların yayılmasına onların razılığı olmadan yol verilmir.

III fəsil

MÜVƏKKİLİN FƏALİYYƏTİNİN TƏŞKİLİ VƏ TƏMİNATLARI

Maddə 16. Müvəkkilin sosial, maliyyə və digər təminatları

16.1. Müvəkkil ***1800 manat*** məbləğində aylıq əmək haqqı alır.

16.2. Müvəkkil hərbi çağırışdan və hərbi toplantıdan azad edilir.

16.3. Müvəkkilə səlahiyyət müddəti ərzində diplomatik pasport verilir.

16.4. Müvəkkilə Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən olunmuş qaydada məzuniyyət verilir.

16.5. Müvəkkilin səlahiyyət müddəti onun ümumi, xüsusi və fasiləsiz iş stajına daxil edilir.

16.6. Müvəkkil məzuniyyətə çıxdığı vaxt onun müalicə olunması və istirahət etməsi üçün iki aylıq əmək haqqı məbləğində ona pul təminatı verilir.

16.7. Vaxtından asılı olmayaraq Müvəkkil vəzifəsində işləmiş şəxs pensiya yaşına çatdıqda, hazırkı dövrdə Müvəkkil üçün müəyyən edilmiş vəzifə maaşının 80 faizi məbləğində pensiya alır.

Maddə 17. Müvəkkilin aparatı və regional mərkəzləri

17.1. Müvəkkilin fəaliyyətinin hüquqi, təşkilati, elmianalitik, informasiya, maddi-texniki, maliyyə və təsərrüfat təminatının həyata keçirilməsi üçün onun aparatı yaradılır. ***Yerlərdə Müvəkkilin regional mərkəzləri yaradıla bilər.***

17.2. Müvəkkilin aparatı üzərində Azərbaycan Respublikasının Dövlət gerbi təsvir olunmuş möhür və blanklara malikdir.

17.3. Aparat və ***regional mərkəzlər*** Müvəkkil tərəfindən təsdiq olunan ***"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin aparatı və regional mərkəzləri haqqında"*** Əsasnaməyə uyğun fəaliyyət göstərir.

17.4. Müvəkkilin aparatının və ***regional mərkəzlərinin*** strukturu, ştat cədvəli və smeta xərcləri Müvəkkil tərəfindən müəyyən edilir.

Maddə 18. Müvəkkil aparatının və regional mərkəzlərinin işçilərinin hüquq və vəzifələri

18.1. Müvəkkilin aparatının və ***regional mərkəzlərinin*** işçilərini Müvəkkil işə götürür və işdən azad edir.

18.2. Müvəkkil aparatının və ***regional mərkəzlərinin*** işçilərinin hüquqları, vəzifələri və məsuliyyəti Azərbaycan Respublikasının Əmək Məcəlləsi, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanunu və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə müəyyən edilir.

Maddə 19. Müvəkkilin fəaliyyətinin maliyyələşdirilməsi

19.1. Müvəkkilin, onun aparatının və regional mərkəzlərinin fəaliyyəti Azərbaycan Respublikasının Dövlət Büdcəsi hesabına maliyyələşdirilir.

19.2. Müvəkkilin fəaliyyətinin maliyyələşdirilməsi üçün ayrılan illik vəsaitin tərkibində cari xərclərin məbləği əvvəlki maliyyə ilində bu məqsəd üçün nəzərdə tutulmuş məbləğdən az ola bilməz.

Azərbaycan Respublikasının Prezidenti,
Heydər ƏLİYEV

Bakı şəhəri, 28 dekabr 2001-ci il
№ 246-IIKQ

Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA QANUNU

Bu Konstitusiya Qanunu Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsini «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyaya uyğunlaşdırmaq məqsədi ilə qəbul edilir.

Maddə 1. İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin əsas şərtləri

1.1. Azərbaycan Respublikası Konstitusiyasının və bu Konstitusiya Qanununun heç bir müddəası dövlət orqanları, təşkilatlar və ya ayrı-ayrı şəxslər tərəfindən insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə və ya Azərbaycan Respublikası Konstitusiyasında və bu Konstitusiya Qanununda nəzərdə tutulduğundan daha artıq dərəcədə məhdudlaşdırılmasına yönəlmiş fəaliyyət və ya hərəkətlər üçün hüquqi əsas yaradan müddəa kimi şərh edilə və ya başa düşülə bilməz.

1.2. Heç kəs öz hüquqlarından və azadlıqlarından suiistifadə etməməlidir.

Maddə 2. Məhdudlaşdırılması qadağan olunan insan hüquqları

Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsində (müharibənin hüquqauyğun aparılması nəticəsində baş verən ölüm halları istisna olmaqla), 28-ci maddəsinin I hissəsində, 46-cı maddəsinin III hissəsində, 63-cü,

64-cü maddələrində və 71-ci maddəsinin VIII hissəsində nəzərdə tutulan hüquqlar məhdudlaşdırıla bilməz və onlara dair qeyd-şərtlər müəyyən edilə bilməz.

Maddə 3. Qanun əsasında insan hüquqlarının və azadlıqlarının məhdudlaşdırılmasına dair tələblər

3.1. Azərbaycan Respublikasının Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquqları və azadlıqları yalnız qanunla məhdudlaşdırıla bilər.

3.2. İnsan hüquqlarını və azadlıqlarını məhdudlaşdıran qanunda məhdudlaşdırılan hüquq və ya azadlıq, habelə Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddəsi göstərilməlidir.

3.3. İnsan hüquqlarına və azadlıqlarına qoyulan məhdudiyyətlər həmin hüquqların və azadlıqların mahiyyətini dəyişməməlidir.

3.4. İnsan hüquqlarına və ya azadlıqlarına qoyulan məhdudiyyətlər Azərbaycan Respublikasının Konstitusiyasında və bu Konstitusiya Qanununda nəzərdə tutulan qanuni məqsədə yönəlməli və həmin məqsədə mütənasib olmalıdır.

3.5. Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin III hissəsində göstərilən əsaslarla yanaşı, insan hüquqları və azadlıqları digər insanların hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə təminat verilməsi və onların müdafiə edilməsi məqsədi ilə məhdudlaşdırıla bilər.

3.6. Azərbaycan Respublikasının Konstitusiyasında göstərilən digər əsaslarla yanaşı, Konstitusiyanın 28-ci maddəsinin III hissəsində, 32-ci, 33-cü, 49-cu, 50-ci, 51-

ci, 58-ci maddələrində göstərilən hüquqlar və azadlıqlar və 47-ci maddəsində göstərilən söz azadlığı dövlət təhlükəsizliyi mənafeləri üçün, sağlamlığın və mənəviyyatın, digər şəxslərin hüquq və azadlıqlarının qorunması üçün, cinayətin qarşısının alınması məqsədi ilə; Konstitusiyanın 32-ci, 33-cü, 49-cu, 50-ci və 58-ci maddələrində göstərilən hüquqlar və azadlıqlar və 47-ci maddəsində göstərilən söz azadlığı həmçinin iğtişaşların qarşısının alınması üçün; Konstitusiyanın 28-ci maddəsinin III hissəsində, 49-cu, 50-ci və 58-ci maddələrində göstərilən hüquqlar və azadlıqlar, 47-ci maddəsində göstərilən söz azadlığı və 48-ci maddəsinin II hissəsində göstərilən hər hansı dinə etiqad etmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ həmçinin ictimai təhlükəsizliyin qorunması üçün; Konstitusiyanın 28-ci maddəsinin III hissəsində, 32-ci və 33-cü maddələrində göstərilən hüquqlar və azadlıqlar və 48-ci maddəsinin II hissəsində göstərilən hər hansı dinə etiqad etmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ həmçinin ictimai qaydanın təmin edilməsi üçün, Konstitusiyanın 32-ci və 33-cü maddələrində göstərilən hüquqlar və azadlıqlar həmçinin ölkənin iqtisadi rifahı mənafeləri üçün; Konstitusiyanın 47-ci maddəsində göstərilən söz azadlığı və 50-ci maddəsində göstərilən məlumat azadlığı həmçinin dövlətin ərazi bütövlüyü mənafelərinin təmin edilməsi məqsədi ilə, digər şəxslərin nüfuzu və ya hüquqlarının müdafiəsi üçün, məxfi qaydada əldə edilmiş məlumatın açıqlanmasının qarşısının alınması və ya məhkəmənin nüfuzunun və qərəzsizliyinin təmin edilməsi üçün; Konstitusiyanın 48-ci maddəsinin II hissəsində göstərilən hər hansı dinə etiqad etmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ sağlamlığın və ya mənəviy-

yatın və ya digər şəxslərin hüquq və azadlıqlarının qorunması məqsədi ilə məhdudlaşdırıla bilər.

Maddə 4. Şəxsin tutulmasına, həbsə alınmasına və ya azadlıqdan məhrum edilməsinə qoyulan məhdudiyyətlər

4.1. Aşağıdakı hallardan başqa və aşağıdakılardan fərqli qaydada heç kəs tutula, həbsə alına və ya başqa formada azadlıqdan məhrum edilə bilməz:

4.1.1. şəxsin səlahiyyətli məhkəmə tərəfindən məhkum olunduqdan sonra azadlıqdan məhrum edilməsi;

4.1.2. şəxsin məhkəmənin qanuni qərarına əməl etməməyə görə və ya qanunla nəzərdə tutulan hər hansı öhdəliyin yerinə yetirilməsini təmin etmək məqsədi ilə qanuni tutulması və ya həbs edilməsi;

4.1.3. şəxsin cinayət törətmiş olduğuna əsaslı şübhələr olduqda və ya onun hüquq pozuntusu törətməsinin və yaxud bu əməli törətdikdən sonra qaçıb gizlənməsinin qarşısını almağa əsaslı zərurət olduqda, səlahiyyətli məhkəmə orqanına gətirilməsi məqsədi ilə onun qanuni tutulması və ya həbs edilməsi;

4.1.4. yetkinlik yaşına çatmamış şəxsin tərbiyəvi nəzarət məqsədi ilə qanuni qərar əsasında azadlıqdan məhrum edilməsi və ya səlahiyyətli məhkəmə orqanına gətirilməsi üçün qanuni tutulması;

4.1.5. yoluxucu xəstəlikləri yaymasının qarşısını almaq məqsədi ilə şəxslərin, habelə ruhi xəstələrin, alkoqolizmə və narkomanlığa düçar olmuş şəxslərin və ya avaralıqla məşğul olanların qanuni tutulması;

4.1.6. şəxsin ölkəyə qanunsuz gəlməsinin qarşısını almaq məqsədi ilə qanuni tutulması və ya həbs edilməsi, yaxud barəsində məcburi çıxarılma və ya ekstradisiya

tədbirləri görülən şəxsin qanuni tutulması və ya həbs edilməsi.

4.2. Bu Qanunun 4.1-ci maddəsinə uyğun tutulmuş və ya həbs olunmuş hər bir şəxs dərhal, işə baxmaq və ya məhkəməyə qədər azad etmək səlahiyyətinə malik olan hakimin yanına gətirilir. Həmin şəxs qanunla müəyyən edilmiş müddətdə məhkəmə araşdırmasının aparılması və ya məhkəməyə qədər azad edilməsi hüququna malikdir.

4.3. Tutulma və ya həbsəalma nəticəsində azadlıqdan məhrum olunan hər bir şəxs məhkəmə araşdırmasının aparılması hüququna malikdir və bu zaman məhkəmə təxirə salmadan onun tutulmasının qanuniliyi məsələsini həll edir və əgər o, qanunsuz tutulubsa, onun azad olunması haqqında qərar çıxarır.

4.4. Tutulmuş və ya həbs edilmiş şəxs onun məhkəməyə gələcəyinə təminat verilməsi şərti ilə məhkəməyə qədər azad edilə bilər.

4.5. Bu Qanunun 4.1-ci maddəsinin göstərişlərinə zidd olaraq tutulan və ya həbs olunan hər bir şəxsin iddia ilə təmin olunan kompensasiya hüququ vardır.

4.6. Heç kəs yalnız hansısa mülki müqavilə öhdəliyini yerinə yetirməyə qadir olmadığına görə tutula, həbsə alına və ya azadlıqdan məhrum edilə bilməz.

Maddə 5. Şəxsin insan hüquqlarını və azadlıqlarını pozan qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının qərarlarından, bələdiyyə aktlarından Konstitusiya Məhkəməsinə şikayət vermək hüququ

Hər kəs onun hüquqlarını və azadlıqlarını pozan və Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-6-cı və 8-ci bəndlərində nəzərdə

tutulan qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının normativ qərarlarından və bələdiyyələrin normativ aktlarından qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə pozulmuş hüquq və azadlıqlarına dair şikayət verə bilər.

Maddə 6. Məhkəmələrin Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ

Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydada məhkəmələr insan hüquqlarının və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət edə bilərlər.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 dekabr 2002-ci il.
№ 404-II KQ.

Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA QANUNU

Bu Konstitusiya Qanunu Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin birinci hissəsinin 14-cü bəndində əks etdirilmiş Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun həyata keçirilməsi üçün əlavə təminatların yaradılması məqsədi ilə qəbul edilir.

Maddə 1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikasının Milli Məclisi qarşısında hesabatı

Azərbaycan Respublikasının Nazirlər Kabineti hər il Azərbaycan Respublikası Milli Məclisinin yaz sessiyasının beşinci iclasında Azərbaycan Respublikası Nazirlər Kabinetinin fəaliyyəti haqqında hesabat verir.

Maddə 2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən sorğu göndərilməsi

2.1. Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə onun səlahiy-

yətlərinə aid edilmiş məsələlərə dair sorğu ilə müraciət edə bilər.

2.2. Azərbaycan Respublikası Milli Məclisinin sorğusuna cavab Azərbaycan Respublikasının Nazirlər Kabinetini təmsil edən səlahiyyətli şəxs tərəfindən Azərbaycan Respublikası Milli Məclisinin iclasında bir aydan gec olmayaraq təqdim edilir.

Maddə 3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvlərinə Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının sorğuları

Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının sorğularına cavab vermək üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydaları ilə müəyyən edilmiş hallarda Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvləri Azərbaycan Respublikası Milli Məclisinin iclaslarında iştirak edirlər.

Maddə 4. Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikası Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun məhdudlaşdirilmasi

4.1. Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad göstərilməsi məsələsi Azərbaycan Respublikası Prezidentinin və ya Azərbaycan Respublikası Milli Məclisi deputatlarının seçkiləri gününə 6 aydan az qaldıqda müzakirəyə çıxarıla bilməz.

4.2. Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad göstərilməsi məsələsi eyni məsələyə dair birinci müzakirədən yalnız 6 ay keçdikdən sonra təkrarən yenidən müzakirəyə çıxarıla bilər.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 24 dekabr 2002-ci il.
№ 405-II KQ.

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinə əlavələr edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsi ilə həlli Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətinə aid edilmiş məsələlərə əlavə olaraq, Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin IV hissəsinə əsasən aşagidaki məsələlərin həll edilməsi Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətinə aiddir:

1. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin təyin edilməsi;

2. Azərbaycan Respublikası Dövlət Qulluğunu İdarəetmə Şurasinin üzvlərinin bir qisminin seçilməsi;

3. Azərbaycan Respublikası Dövlət Qulluğunu İdarəetmə Şurasi yaninda Korrupsiyaya Qarşi Mübarizə üzrə Komissiyanın üzvlərinin bir qisminin seçilməsi;

4. Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasinin üzvlərinin bir qisminin seçilməsi;

5. İctimai Televiziya və Radio Yayımları qurumunun Yayım Şurası üzvlərinin təyin edilməsi.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 may 2005-ci il.
№ 913-II KQD.

Beynəlxalq cinayətlərə görə məsuliyyət müəyyən edən qanunun qüvvəsinin geriyə şamil olunması haqqında

AZƏRBAYCAN RESPUBLİKASİNİN KONSTİTUSİYA QANUNU

Bu Konstitusiya Qanunu Azərbaycan Respublikasında sülh və insanlıq əleyhinə cinayətlərə, soyqırım və müharibə cinayətlərinə görə məsuliyyət nəzərdə tutan mövcud cinayət qanunvericiliyi normalarının tətbiqini "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın və "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın müvafiq müddəalarına uyğunlaşdırmaq məqsədi ilə qəbul edilir.

Maddə 1.

Azərbaycan Respublikası Konstitusiyasının heç bir müddəası hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına əsasən törədildiyi zaman cinayət sayılan əmələ (hərəkət və ya hərəkətsizliyə) görə hər hansı şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə və cəzalandırılmasına mane olan müddəa kimi şərh edilə və ya başa düşülə bilməz.

Maddə 2.

Bu Konstitusiya Qanununun 1-ci maddəsində nəzərdə tutulan əməli (hərəkət və ya hərəkətsizliyi) törətmiş şəxslərin cinayət təqibi yalnız həmin əmələ görə

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində məsuliyyət müəyyən edildikdən sonra həyata keçirilə bilər.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 dekabr 2006-cı il
№ 189-IIIKQ

Normativ hüquqi aktlar haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA QANUNU

Bu Konstitusiya Qanunu normativ hüquqi aktların hazırlanması, qəbul olunması, rəsmiləşdirilməsi, dərc edilməsi, qüvvədə olması, şərh edilməsi və sistemləşdirilməsi qaydalarını müəyyən edir.

I fəsil

ÜMUMİ MÜDDƏALAR

Maddə 1. Bu Konstitusiya Qanununda istifadə olunan əsas anlayışlar

1.0. Bu Konstitusiya Qanununda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1. normativ hüquqi akt - tənzimlənməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə, qanunla və ya fərmanla dövlət orqanının səlahiyyətlərinə aid edilən məsələlər üzrə həmin dövlət orqanı tərəfindən və ya referendum yolu ilə qəbul edilmiş, hamı üçün məcburi davranış qaydalarını əks etdirən, qeyri-müəyyən subyektlər dairəsi üçün və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəd;

1.0.2. qanunvericilik aktları - Azərbaycan Respublikasının qanunvericilik sistemini təşkil edən normativ hüquqi aktlar;

1.0.3. normativ xarakterli akt - bu Konstitusiya Qanununda nəzərdə tutulan dövlət və ya yerli özünüidarə orqanı tərəfindən qəbul edilmiş, məhdud subyektlər dairəsi üçün məcburi davranış qaydalarını əks etdirən və dəfələr-

lə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəd;

1.0.4. hüquqi akt - normativ hüquqi akt, normativ xarakterli akt və ya qeyri-normativ hüquqi akt;

1.0.5. qanunvericiliyin sistemləşdirilməsi - normativ hüquqi aktların nizama salınması, onların daxili uzlaşdırılmış vahid sistemə çevrilməsi üzrə fəaliyyət;

1.0.6. inkorporasiya - normativ hüquqi aktların məzmunu dəyişdirilmədən müəyyən qaydada toplularda (külliyyatlarda) birləşdirilməsi;

1.0.7. məcəllələşdirmə - normativ hüquqi aktların forma və məzmun baxımından yenidən işlənməsi yolu ilə vahid normativ hüquqi aktlarda birləşdirilməsi;

1.0.8. qanunlar külliyyatı - Azərbaycan Respublikasının qanunvericiliyini özündə birləşdirən sistemləşdirilmiş toplu;

1.0.9. qanunvericilikdə boşluqlar - konkret ictimai münasibətləri tənzimləyən qanunvericilik normalarının olmaması;

1.0.10. qanunun analogiyası - konkret ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları olmadığına görə həmin ictimai münasibətlərə oxşar ictimai münasibətləri tənzimləyən qanunvericilik normalarının tətbiq edilməsi;

1.0.11. hüququn analogiyası - yalnız konkret ictimai münasibətləri deyil, həm də oxşar ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları olmadığına görə həmin ictimai münasibətlərə qanunvericiliyin məğzinin, hüququn ümumi prinsiplərinin və ya hüququn konkret sahələrinə aid prinsiplərin tətbiq edilməsi;

1.0.12. normativ hüquqi aktların kolliziyası - eyni ictimai münasibətləri tənzimləyən qüvvədə olan normativ hüquqi aktların ziddiyyəti (uyğunsuzluğu);

1.0.13. normayaratma fəaliyyəti - normativ hüquqi aktların hazırlanması, ekspertizası, qəbul olunması, onlarda dəyişikliklər edilməsi, onların şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi üzrə fəaliyyət;

1.0.14. normayaratma fəaliyyətinin subyekti - normayaratma fəaliyyətində iştirak edən orqanlar (şəxslər);

1.0.15. qanunvericilik təşəbbüsü - Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin I hissəsi ilə müəyyən edilmiş subyekt tərəfindən qanun layihəsinin Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə rəsmən təqdim edilməsi;

1.0.16. normativ hüquqi aktın rəsmiləşdirilməsi - normativ hüquqi aktın səlahiyyətli şəxs tərəfindən imzalanması və Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi;

1.0.17. normayaratma orqanı - normativ hüquqi aktları qəbul etmək səlahiyyətinə malik olan dövlət orqanı;

1.0.18. normayaratma prosesi - dövlət orqanının normativ hüquqi aktların hazırlanması, qəbul olunması və qüvvəyə minməsi üzrə normayaratma fəaliyyəti;

1.0.19. normayaratma texnikası - normativ hüquqi aktların layihələrinin hazırlanması qaydalarının sistemi;

1.0.20. normativ hüquqi aktın açıqlanması - normativ hüquqi aktın rəsmi dövri mətbu nəşrdə dərc edilməsi, digər kütləvi informasiya vasitələrinin və ya başqa mümkün kommunikasiya vasitələrinin köməyi ilə rəsmi yayılması yolu ilə ümumi diqqətə çatdırılması;

1.0.21. lokal normativ hüquqi akt - qüvvəsi bir və ya bir neçə dövlət orqanının çərçivəsi ilə məhdudlaşan normativ hüquqi akt;

1.0.22. texniki normativ hüquqi aktlar - texniki reqlamentlər, bərqərar olmuş təcrübəni əks etdirən texniki məcəllələr, standartlar, o cümlədən Azərbaycan Respublikasının dövlət standartları, sahə standartları, texniki şərtlər, aviasiya qaydaları, zoogigiyena, baytarlıq, baytarlıq-sanitariya normaları və qaydaları, sanitariya normaları və qaydaları, gigiyena normativləri, farmakopeya məqalələri və normaları, yanğın təhlükəsizliyi qaydaları, texniki, sənaye, nüvə və radiasiya təhlükəsizliyinin təmin edilməsi normaları və qaydaları, təhlükəli yüklərin təhlükəsiz daşınması normaları və qaydaları, yerin təkinin qorunması və səmərəli istifadəsi normaları və qaydaları, ixtisaslaşdırılmış məlumat kitabçaları, texniki-iqtisadi məlumatların dövlət təsnifatı, dövlət statistika müşahidələrinin formaları və onların doldurulmasına dair göstərişlər, statistik göstəricilərin formalaşdırılması və hesablanması qaydaları, dövlət statistika müşahidələrinin təşkil edilməsinə və aparılmasına dair təlimatlar, idarə hesabat formaları və onların doldurulmasına dair göstərişlər, daşınmaz maddi tarixi-mədəni dəyərlərin qorunması zonalarının layihələri, Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə texniki normativ hüquqi aktlara aid edilmiş və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulan qaydada təsdiq edilmiş (qüvvəyə minmiş) digər normativ hüquqi aktlar;

1.0.23. normativ hüquqi aktda dəyişikliklərin edilməsi - normativ hüquqi akta onun müddəalarının mətnini dəyişən və ya əlavə normaların daxil edilməsi;

1.0.24. normativ hüquqi aktdan sui-istifadə imkanı - normativ hüquqi aktda korrupsiya təzahürləri üçün şəraitin yaranmasına kömək edən müddəaların mövcudluğu;

1.0.25. diskresion səlahiyyətlər - orqanın (şəxsin) öz mülahizəsinə görə tətbiq edə biləcəyi səlahiyyətləri;

1.0.26. dispozitiv imkan - orqanın (şəxsin) öz seçimi ilə davranış imkanı;

1.0.27. normativ hüquqi aktın hüquqi qüvvəsi - normativ hüquqi aktın müvafiq ictimai münasibətlərə tətbiqinin məcburiliyini, habelə onun digər normativ hüquqi aktlar barəsində üstünlüyünü və ya tabeliyini müəyyən edən xarakteristika.

Maddə 2. Normativ hüquqi aktlar və onların hüquqi qüvvəsi

2.1. Normativ hüquqi aktların növləri Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsi ilə müəyyən edilir.

2.2. Normativ hüquqi aktların hüquqi qüvvəsi Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin II, III, IV, V, VI hissələri və 151-ci maddəsi ilə müəyyən edilir.

2.3. Referendumla qəbul edilmiş akt (bundan sonra - referendum aktı), qanun, fərman və ya digər normativ hüquqi akt Azərbaycan Respublikasının Konstitusiyası ilə ziddiyyət təşkil etdikdə Azərbaycan Respublikasının Konstitusiyası tətbiq edilir.

2.4. Qanun, fərman və ya digər normativ hüquqi akt referendum aktı ilə ziddiyyət təşkil etdikdə referendum aktı tətbiq edilir.

2.5. Azərbaycan Respublikasının Mülki Məcəlləsi mülki hüquq normalarını əks etdirən digər məcəllə və qanun-

larla ziddiyyət təşkil etdikdə Azərbaycan Respublikasının Mülki Məcəlləsi tətbiq edilir.

2.6. Fərman və ya digər normativ hüquqi akt qanunla ziddiyyət təşkil etdikdə qanun tətbiq edilir.

2.7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları fərmanla ziddiyyət təşkil etdikdə fərman tətbiq edilir.

2.8. Mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə ziddiyyət təşkil etdikdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı tətbiq edilir.

2.9. Nizamnamələrin, əsasnamələrin, təlimatların, reqlamentlərin və qaydaların hüquqi qüvvəsi onları təsdiq edən normativ hüquqi aktın hüquqi qüvvəsi ilə müəyyən edilir.

2.10. Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarının normativ hüquqi aktlarının hüquqi qüvvəsi Azərbaycan Respublikası Konstitusiyasının 134-cü maddəsinin V hissəsi və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 49-cu maddəsinin II, III, IV və V hissələri ilə müəyyən edilir.

Maddə 3. Qeyri-normativ hüquqi aktlar və onların hüquqi qüvvəsi

3.1. Konkret (birdəfəlik) təşkilati, nəzarət və ya sərəncamverici tədbirlərin həyata keçirilməsi məqsədi ilə qəbul edilən və ya digər birdəfəlik tətbiq halları üçün nəzərdə tutulan hüquqi aktlar qeyri-normativ hüquqi aktlar sayılır.

3.2. Qeyri-normativ hüquqi aktlar müvafiq normativ hüquqi akt əsasında qəbul edilməlidir və onun müvafiq normasına istinad etməlidir.

3.3. Qeyri-normativ hüquqi aktlara aşağıdakılar aiddir:

3.3.1. Azərbaycan Respublikası Milli Məclisinin qərarları;

3.3.2. Azərbaycan Respublikası Prezidentinin sərəncamları;

3.3.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamları;

3.3.4. vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını həyata keçirən orqanların aktları;

3.3.5. bu maddənin birinci hissəsinə uyğun olaraq qeyri-normativ hesab edilən digər hüquqi aktlar.

Maddə 4. Normativ xarakterli aktlar və onların hüquqi qüvvəsi

4.1. Azərbaycan Respublikasının normativ xarakterli aktları aşağıdakılardır:

4.1.1. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərinə və IV hissəsinə əsasən qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları;

4.1.2. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarları, təlimatları və izahları;

4.1.3. Azərbaycan Respublikası Mərkəzi Bankının qərarları;

4.1.4. Məhkəmə-Hüquq Şurasının qərarları;

4.1.5. Milli Televiziya və Radio Şurasının qərarları;

4.1.6. yerli özünüidarə orqanlarının qərarları;

4.1.7. yerli icra hakimiyyəti orqanlarının qərarları.

4.2. Normativ xarakterli aktlar onların icra olunmamasına görə məsuliyyət müəyyən edə bilməz.

4.3. Normativ xarakterli aktlar müvafiq normativ hüquqi akt əsasında qəbul edilməlidir və onun müvafiq normasına istinad etməlidir.

4.4. Bu Konstitusiya Qanununun 4.1.1-ci maddəsində nəzərdə tutulan normativ xarakterli aktlar istisna olmaqla, digər normativ xarakterli aktlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə ziddiyyət təşkil edə bilməz.

Maddə 5. Bu Konstitusiya Qanununun tətbiq dairəsi

5.1. Bu Konstitusiya Qanunu Azərbaycan Respublikasının, o cümlədən Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarının normativ hüquqi aktlarının hazırlanması, qəbul olunması, rəsmiləşdirilməsi, dərc edilməsi, qüvvədə olması, şərh edilməsi və sistemləşdirilməsi qaydalarını müəyyən edir.

5.2. Bu Konstitusiya Qanunu referendum aktlarının hazırlanması, qüvvədə olması, şərh edilməsi və sistemləşdirilməsi qaydalarına şamil edilir.

5.3. Bu Konstitusiya Qanunu aşağıdakı aktların rəsmiləşdirilməsi, dərc edilməsi, qüvvədə olması, şərh edilməsi və sistemləşdirilməsi qaydalarına şamil edilir:

5.3.1. beynəlxalq müqavilələr;

5.3.2. texniki normativ hüquqi aktlar;

5.3.3. lokal normativ hüquqi aktlar;

5.3.4. normativ xarakterli aktlar.

Maddə 6. Normativ hüquqi aktlar sistemi

Normativ hüquqi aktlar onların iyerarxiyasının müəyyən edilməsi, qarşılıqlı uzlaşdırılması, habelə daxili uz-

laşdırma ilə səciyyələnən və ictimai münasibətlərin hüquqi tənzimlənməsini təmin edən Azərbaycan Respublikasının müvafiq qanunlar külliyyatının hazırlanması yolu ilə vahid sistemə salınır.

Maddə 7. Dövlət orqanlarının qəbul etdikləri normativ hüquqi aktlar barəsində hüquq varisliyi

7.1. Normativ hüquqi aktlar qəbul etmək hüququna malik olan dövlət orqanı yenidən təşkil edildikdə onun hüquq varisinə normativ hüquqi aktları qəbul etmək hüququ ilə yanaşı, səlahiyyətləri daxilində, əvvəllər qəbul edilmiş normativ hüquqi aktlarda dəyişikliklər etmək, həmin aktların qüvvəsini dayandırmaq və ləğv edilməsi səlahiyyəti verilir.

7.2. Dövlət orqanı ləğv edildikdə və ya onun hüquq varisi müvafiq normativ hüquqi aktları qəbul etmək hüququna malik olmamaqla yenidən təşkil edildikdə, əvvəllər qəbul edilmiş normativ hüquqi aktlarda dəyişikliklər etmək, həmin aktların qüvvəsini dayandırmaq və ləğv edilməsi səlahiyyəti yuxarı və ya digər dövlət orqanına verilir.

7.3. Müvafiq normativ hüquqi aktları qəbul edən dövlət orqanının statusunun dəyişdirilməsi əvvəllər qəbul edilmiş normativ hüquqi aktların qüvvəsinin itirilməsinə səbəb olmur.

7.4. Dövlət orqanının adı dəyişdirildikdə və ya bu orqan adının dəyişdirilməsinə səbəb olan birləşmə, qoşulma, çevrilmə yolu ilə yenidən təşkil edildikdə, əvvəlki adı əks etdirən normativ hüquqi aktlarda addəyişmə hissəsində dəyişikliklər edilməlidir. Belə dəyişikliklər edilənədək əvvəlki adı əks etdirən normativ hüquqi aktlar adı

dəyişdirilmiş (yeni yaradılmış) orqana tam həcmdə şamil olunur.

7.5. Dövlət orqanı bölündükdə və ya ayrıldıqda onun yenidən təşkili haqqında qərarda səlahiyyətlərin aydın bölgüsü nəzərdə tutulmalıdır və həmin qərar hansı normativ hüquqi aktların yeni yaradılmış hansı dövlət orqanlarına hansı həcmdə şamil edilməsini müəyyənləşdirməyə imkan verməlidir. Bu zaman bölünmə və ya ayrılma haqqında qərarı qəbul etmiş dövlət orqanı üç ay müddətində müvafiq normativ hüquqi aktlarda bütün zəruri dəyişiklikləri edilməsini təmin etməlidir.

Maddə 8. Normayaratma fəaliyyətinin əsas prinsipləri

8.0. Normayaratma fəaliyyəti Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin I hissəsində göstərilən prinsiplərlə yanaşı, aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

8.0.1. Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluq və qanunların üstünlüyü;

8.0.2. aşağı dövlət orqanlarının aktlarının yuxarı dövlət orqanlarının aktlarına uyğunluğu;

8.0.3. beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarının üstünlüyü;

8.0.4. mütənasiblik;

8.0.5. dövlət orqanlarının vətəndaşlar qarşısında cavabdehliyi;

8.0.6. normayaratma fəaliyyətinin demokratikliyi və şəffaflığı;

8.0.7. normativ hüquqi aktların ziddiyyətsizliyi;

8.0.8. insanların hüquq və azadlıqlarının, onların qanuni maraqlarının müdafiəsi və sosial ədalət;

8.0.9. ictimai münasibətlərin hüquqi tənzimlənməsinin sistemliliyi və kompleksliyi.

Maddə 9. Normayaratma orqanlarının fəaliyyətində aşkarlıq

9.1. Normayaratma orqanlarının fəaliyyətində aşkarlıq aşağıdakı vasitələrlə təmin edilir:

9.1.1. normayaratma orqanlarının fəaliyyəti və onların qəbul etdikləri normativ hüquqi aktlar haqqında fiziki və hüquqi şəxslərin məlumatlandırılması;

9.1.2. normativ hüquqi aktların rəsmi nəşrlərdə, digər kütləvi informasiya vasitələrində dərc edilməsi və ya onların digər üsullarla açıqlanması;

9.1.3. normativ hüquqi aktların layihələrinin normayaratma orqanlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsi.

9.2. Normayaratma orqanının qərarı ilə normativ hüquqi aktın layihəsi açıq (ictimai və ya peşəkar) müzakirəyə çıxarıla bilər.

II fəsil

NORMATİV HÜQUQİ AKTLARIN KOLLİZİYASI

Maddə 10. Normativ hüquqi aktların kolliziyasının həlli qaydaları

10.1. Normativ hüquqi aktların kolliziyası həll edilərkən bu Konstitusiya Qanununun 2-ci maddəsinin tələbləri nəzərə alınır.

10.2. Normativ hüquqi aktı qəbul edən dövlət orqanına ictimai münasibətlərin müəyyən sahəsinin tənzimlənməsində xüsusi səlahiyyət verilirsə, həmin dövlət orqanının

qəbul etdiyi normativ hüquqi akt eyni kateqoriyalı dövlət orqanının həmin sahə üzrə qəbul etdiyi normativ hüquqi aktına münasibətdə daha yüksək hüquqi qüvvəyə malikdir.

10.3. Ziddiyyət təşkil edən normativ hüquqi aktlar bərabər hüquqi qüvvəyə malikdirsə, konkret münasibətlərə sahə normativ hüquqi aktı tətbiq edilir, bu şərtlə ki, həmin münasibətlər eyni hüquqi tənzimləmə sahəsinə aiddir.

10.4. Eyni normativ hüquqi aktda ümumi və xüsusi normalar arasında ziddiyyət mövcud olduqda xüsusi norma tətbiq edilir.

10.5. Yeni normativ hüquqi akt eyni məsələ üzrə həmin dövlət orqanı tərəfindən əvvəllər qəbul edilmiş normativ hüquqi akta münasibətdə daha yüksək hüquqi qüvvəyə malikdir.

10.6. Eyni münasibətlər bir neçə norma ilə tənzimlənirsə və həmin normaları eyni vaxtda tətbiq etmək mümkündürsə, bu, normativ hüquqi aktların kolliziyası hesab edilmir.

10.7. Dövlət orqanlarının struktur bölmələri normativ hüquqi aktlar qəbul etmək hüququna malik deyildirlər.

10.8. Naxçıvan Muxtar Respublikasında normativ hüquqi aktların kolliziyası həll edilərkən bu Konstitusiya Qanununun 2-ci maddəsinin tələbləri nəzərə alınır.

Maddə 11. Normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması qaydalarının tətbiqinin ardıcıllığı

11.0. Normativ hüquqi aktların kolliziyası aşağıdakı ardıcıllıqla aradan qaldırılır:

11.0.1. birinci növbədə ardıcıl olaraq bu Konstitusiya Qanununun 2.3-2.8-ci maddələrinin normaları tətbiq edilir;

11.0.2. kolliziya aradan qaldırılmadıqda ikinci növbədə ardıcıl olaraq bu Konstitusiya Qanununun 10.2-10.5-ci maddələrinin normaları tətbiq edilir.

Maddə 12. Normativ hüquqi aktların kolliziyasının aradan qaldırılmasının üsulları

12.1. Normativ hüquqi aktların kolliziyası aşağıdakı üsullarla aradan qaldırılır:

12.1.1. normativ hüquqi aktın ləğv edilməsi;

12.1.2. normativ hüquqi aktda dəyişikliklər edilməsi;

12.1.3. normativ hüquqi aktların məcəllələşdirilməsi.

12.2. Normativ hüquqi aktların kolliziyasına yol verməmək məqsədi ilə yeni normativ hüquqi aktın qəbul olunması ilə əlaqədar ləğv edilməli, dəyişikliklər edilməli olan normativ hüquqi aktların (onların struktur elementlərinin) siyahısı həmin normativ hüquqi aktın yekun müddəalarında və ya əlavəsində əks etdirilməlidir.

12.3. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi normativ hüquqi aktın şərhi ilə bağlı qəbul etdiyi qərarında normativ hüquqi aktların kolliziyasını təsdiqləyərsə, həmin kolliziyanı aradan qaldırmaq məqsədi ilə bu Konstitusiya Qanununun 12.1.1-12.1.3-cü maddələrində göstərilən tədbirlər görülməlidir.

III fəsil

QANUNVERİCİLİKDƏ BOŞLUQLAR

Maddə 13. Hüququn analogiyasından və qanunun analogiyasından istifadə olunması qaydası

13.1. Konkret ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları olmadıqda hüququn analogiyasından və ya qanunun analogiyasından istifadə oluna bilər.

13.2. Əvvəlcə qanunun analogiyasından istifadə olunur. Konkret ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları olmadıqda həmin ictimai münasibətlərə oxşar ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları tətbiq edilir.

13.3. Mülki hüquq münasibətləri mülki qanunvericiliklə və ya tərəflərin razılaşması ilə birbaşa tənzimlənmədikdə və onlara tətbiq edilə bilən işgüzar adət olmadıqda həmin münasibətlərə, əgər bu onların mahiyyətinə zidd deyildirsə, oxşar münasibətləri tənzimləyən mülki qanunvericilik normaları tətbiq edilir.

13.4. Konkret ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları olmadığına görə həmin ictimai münasibətlərə oxşar ictimai münasibətləri tənzimləyən qanunvericilik normalarını tapmaq mümkün olmadıqda hüququn analogiyasından istifadə edilir. Bu zaman Azərbaycan Respublikasının Konstitusiyasında və qanunlarda təsbit edilmiş hüququn konkret sahələrinə aid prinsiplərdən və hüququn ümumi prinsiplərindən istifadə olunur. Hüququn analogiyası tətbiq edilərkən ədalət, insaf və mənəviyyat tələbləri nəzərə alınmalıdır.

13.5. Cinayət, inzibati xətalar və vergi qanunvericiliyində, məsuliyyətə cəlb olunma, hüquqların məhdudlaşdırılması və vəzifələrin müəyyən edilməsi hallarında hüququn analogiyasından və ya qanunun analogiyasından istifadə oluna bilməz.

Maddə 14. Qanunvericilikdə boşluqların aşkar edilməsi

14.0. Qanunvericilikdə boşluqlar aşkar edilərkən aşağıdakılar nəzərə alınmalıdır:

14.0.1. faktiki hal hüquqi tənzimləmə dairəsinə aid olmalıdır;

14.0.2. konkret ictimai münasibətləri tənzimləyən qanunvericilik normaları olmamalıdır;

14.0.3. faktiki hal qanunvericilikdə qismən tənzimlənməlidir (tam tənzimlənməməlidir).

Maddə 15. Hüququn analogiyasından və ya qanunun analogiyasından istifadə olunması haqqında qərar

15.1. Qanunvericilikdə boşluqları aşkar edən və bu Konstitusiya Qanununun 14-cü maddəsini tətbiq edən subyekt konkret ictimai münasibətlərin tənzimlənməsinin səlahiyyətlərinə aid edildiyi normayaratma orqanına bu barədə məlumat verməlidir.

15.2. Hüququn analogiyasından və ya qanunun analogiyasından istifadə olunması haqqında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

Maddə 16. Hüququn analogiyasından və ya qanunun analogiyasından istifadə olunmasını istisna edən hallar

16.0. Aşağıdakı hallarda hüququn analogiyasından və ya qanunun analogiyasından istifadə oluna bilməz:

16.0.1. qanunvericilikdə boşluqlar zahiri xarakter daşıdıqda;

16.0.2. normativ tənzimləmə zərurəti olmadıqda;

16.0.3. normativ tənzimləmə qanunla qadağan olunduqda;

16.0.4. normativ tənzimləmə mövcud olduqda.

IV fəsil

NORMATİV HÜQUQİ AKTLARIN NÖVLƏRİ

Maddə 17. Azərbaycan Respublikası Milli Məclisinin normativ hüquqi aktları

17.1. Azərbaycan Respublikası Konstitusiyasının 93-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Milli Məclisinin normativ hüquqi aktları qanunlar formasında qəbul edilir.

17.2. Tənzimlənməsi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsi və 95-ci maddəsinin II hissəsi ilə Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətlərinə aid edilmiş ictimai münasibətlər qanunla tənzimlənir.

17.3. Azərbaycan Respublikası Milli Məclisinin normativ hüquqi aktı qəbul olunduqda bu aktın istinad etdiyi Azərbaycan Respublikası Konstitusiyasının maddəsi göstərilməli və aktın həmin maddənin icrası məqsədi ilə qəbul olunduğu qeyd edilməlidir.

Maddə 18. Azərbaycan Respublikası Prezidentinin normativ hüquqi aktları

18.1. Azərbaycan Respublikası Konstitusiyasının 113-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin normativ hüquqi aktları fərman formasında qəbul edilir.

18.2. Azərbaycan Respublikası Prezidentinin fərmanları Azərbaycan Respublikasının Konstitusiyası ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinə aid edilmiş və normativ tənzimləmə predmeti olan məsələlər üzrə qəbul edilir.

18.3. Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul edilən əsasnamələr, nizamnamələr, qaydalar və norma nəzərdə tutan digər aktlar Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə təsdiq edilir.

18.4. Azərbaycan Respublikası Prezidentinin normativ hüquqi aktı qəbul olunduqda bu aktın istinad etdiyi Azərbaycan Respublikası Konstitusiyasının maddəsi göstərilməli və aktın həmin maddənin icrası məqsədi ilə qəbul olunduğu qeyd edilməlidir.

Maddə 19. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktları

19.1. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Konstitusiyasının 120-ci maddəsinin I hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikası Prezidentinin aktları əsasında və onların icrası məqsədi ilə Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikası Prezidentinin aktları ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə qərarlar formasında normativ hüquqi aktlar qəbul edir.

19.2. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən qəbul edilən əsasnamələr, nizamnamələr, qaydalar və norma nəzərdə tutan digər aktlar Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları ilə təsdiq edilir.

19.3. Azərbaycan Respublikasının Nazirlər Kabineti habelə mərkəzi icra hakimiyyəti orqanları tərəfindən həll edilə bilməyən məsələlər üzrə normativ hüquqi aktlar qəbul edir.

19.4. Normativ hüquqi akt Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən qəbul olunduqda bu norma-

tiv hüquqi aktın istinad etdiyi Azərbaycan Respublikası Konstitusiyasının maddəsi və ya Azərbaycan Respublikası Prezidentinin aktı göstərilməli və həmin aktın icrası məqsədi ilə qəbul olunduğu qeyd edilməlidir.

Maddə 20. Mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları

20.1. Mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları Azərbaycan Respublikası Prezidentinin aktları ilə nəzərdə tutulmuş hallarda və hədlərdə, yalnız Azərbaycan Respublikası Prezidentinin aktları ilə onların səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə qəbul edilə bilər.

20.2. Mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları qərarlar formasında qəbul edilir.

20.3. Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən qəbul edilən təlimatlar, əsasnamələr, nizamnamələr və qaydalar qərarlarla təsdiq edilir.

20.4. Normativ hüquqi akt mərkəzi icra hakimiyyəti orqanları tərəfindən qəbul olunduqda bu normativ hüquqi aktın istinad etdiyi Azərbaycan Respublikası Prezidentinin aktı göstərilməli və həmin aktın icrası məqsədi ilə qəbul olunduğu qeyd edilməlidir.

Maddə 21. Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarının normativ hüquqi aktlarının növləri

Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarının normativ hüquqi aktlarının növləri Naxçıvan Muxtar Respublikasının Konstitusiyası ilə müəyyən edilir.

V fəsil

AZƏRBAYCAN RESPUBLİKASININ NORMATİV HÜQUQİ AKTLARINDA BEYNƏLXALQ HÜQUQUN HAMILIQLA QƏBUL EDİLMİŞ PRİNSİP VƏ NORMALARININ VƏ AZƏRBAYCAN RESPUBLİKASININ TƏRƏFDAR ÇIXDIĞI BEYNƏLXALQ MÜQAVİLƏLƏRİN NORMALARININ HƏYATA KEÇİRİLMƏSİ

Maddə 22. Beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarının üstünlüyü

Azərbaycan Respublikası beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarının üstünlüyünü tanıyır və Azərbaycan Respublikası qanunvericiliyinin onlara uyğunluğunu təmin edir.

Maddə 23. Beynəlxalq müqavilələrlə normativ hüquqi aktların qarşılıqlı nisbəti

23.1. Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin II hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin tərkib hissəsidir.

23.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrin Azərbaycan Respublikasının normativ hüquqi aktlarına münasibətdə hüquqi qüvvəsi Azərbaycan Respublikası Konstitusiyasının 151-ci maddəsi ilə müəyyən edilir.

23.3. Azərbaycan Respublikasının tərəfdar çıxdığı hökumətlərarası müqavilələr həmin müqavilələrin Azərbaycan Respublikası üçün məcburiliyinə razılığın ifadə olunduğu normativ hüquqi aktlardan daha üstün hüquqi qüvvəyə malikdir.

23.4. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, həmin müqavilələrdə əks etdirilmiş normaların tətbiqi üçün dövlətdaxili normativ hüquqi aktın qəbul olunmasını tələb edən hallar istisna olmaqla, birbaşa tətbiq edilməlidir.

Maddə 24. Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərinin həyata keçirilməsinə yönəlmiş normativ hüquqi aktların qəbul edilməsinin əsasları

24.0. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin həyata keçirilməsinə yönəlmiş normativ hüquqi aktlar aşağıdakı hallarda qəbul edilir:

24.0.1. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin predmetini Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə tənzimlənməyən məsələlər təşkil etdikdə;

24.0.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi müvafiq normativ hüquqi akt qəbul edilmədən mümkün olmadıqda;

24.0.3. beynəlxalq müqavilənin tərəfləri müvafiq normativ hüquqi aktların qəbul edilməsi barədə razılığa gəldikdə.

VI fəsil

NORMATİV HÜQUQİ AKTA DAİR ÜMUMİ TƏLƏBLƏR

Maddə 25. Normativ hüquqi aktın tərtib edilməsi üslubu

25.1. Normativ hüquqi aktlar daxilən uzlaşdırılmalı, məntiqli qurulmalı və normayaratma texnikasına uyğun olmalıdır.

25.2. Normativ hüquqi aktın normaları ifadə edilərkən həm həddindən artıq ümumiləşdirilmiş, həm də həddindən artıq təfərrüatlı ifadələrə, eləcə də eyni məsələ ilə bağlı normativ göstərişlərin təkrarlanmasına və onların çoxluğuna yol verilməməlidir.

25.3. Normativ hüquqi aktın (onun struktur elementinin) adı yığcam olmalı, aydın ifadə edilməli və həmin aktın (struktur elementinin) əsas mahiyyətini əks etdirməlidir.

25.4. Normativ hüquqi aktın normaları yığcam şəkildə, əsasən təsdiq formasında və indiki zamanda ifadə edilməlidir.

25.5. Normativ hüquqi aktın mətnində istifadə edilən termin və anlayışlar aydın və birmənalı olmalıdır.

Maddə 26. Normativ hüquqi aktda normaların yerləşdirilməsinin ardıcıllığı

Normativ hüquqi aktın mətnində əvvəl ümumi, sonra isə daha konkret müddəalar yerləşdirilir.

Maddə 27. Normativ hüquqi aktların layihələrinin dövlət orqanları tərəfindən hazırlanmasının tənzimlənməsi

27.1. Normativ hüquqi aktların müxtəlif növlərinin layihələrinin hazırlanması qaydasının xüsusiyyətləri, onlar üçün texniki-hüquqi tələblər, habelə bu Konstitusiya Qanunu ilə tənzimlənməmiş digər məsələlər müvafiq olaraq Azərbaycan Respublikasının Milli Məclisi və Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qaydalarla müəyyən edilir.

27.2. Normativ hüquqi aktların layihələrinin hazırlanması qaydası normayaratma fəaliyyətinin subyektlərinin və normayaratma orqanlarının hüquqlarını məhdudlaşdıra bilməz.

VII fəsil

NORMATİV HÜQUQİ AKTIN STRUKTURU

Maddə 28. Normativ hüquqi aktların rekvizitləri

28.0. Normativ hüquqi aktların məcburi rekvizitləri aşağıdakılardır:

28.0.1. aktın növü (Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin fərmanı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı və s.);

28.0.2. hüquqi tənzimləmə predmetini əks etdirən normativ hüquqi aktın adı (sərlövhəsi);

28.0.3. aktın qəbul edildiyi tarix, yer və qeydiyyat nömrəsi;

28.0.4. müvafiq normativ hüquqi aktı rəsmi imzalamaq səlahiyyətinə malik olan şəxsin adı, soyadı, vəzifəsi və imzası.

Maddə 29. Normativ hüquqi aktın adı

29.1. Hər bir normativ hüquqi akt onun hüquqi tənzimləmə predmetini və əsas mahiyyətini əks etdirən ada malik olmalıdır.

29.2. Bir və ya bir neçə normativ hüquqi aktda dəyişikliklər edildikdə həmin dəyişiklikləri nəzərdə tutan aktın adında dəyişikliklər edilən normativ hüquqi aktın (aktların) adı (adları) göstərilməlidir.

Maddə 30. Normativ hüquqi aktın struktur elementləri

30.1. Normativ hüquqi aktın struktur elementləri preambuladan, bölmədən, fəsildən, maddədən, hissədən, bənddən, yarımbənddən və abzasdan ibarətdir.

30.2. Normativ hüquqi aktın mətni onun növündən asılı olaraq, bölmədə birləşən fəsillərə, fəsildə birləşən maddələrə, maddədə birləşən hissələrə, hissədə birləşən bəndlərə, bənddə birləşən yarımbəndlərə və yarımbənddə birləşən abzaslara bölünə bilər. Qanun, o cümlədən dəyişiklikləri nəzərdə tutan qanun, qanunla təsdiq edilən əsasnamə, nizamnamə, qayda və norma nəzərdə tutan digər akt maddələrə, digər normativ hüquqi aktlar, o cümlədən referendum aktı hissələrə bölünür. Məcəllədə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə digər struktur elementləri də ola bilər. Məcəllədə mündəricat verilməlidir. İri həcmli digər normativ hüquqi aktlarda da mündəricat verilə bilər.

30.3. Normativ hüquqi aktın preambulası onun qəbul edilməsinin səbəblərini, şərtlərini və məqsədlərini əks etdirən giriş hissəsidir. Preambulaya normativ göstərişlərin daxil edilməsinə yol verilmir.

30.4. Normativ hüquqi aktın bölməsi fəsilləri özündə birləşdirən struktur elementidir. Bölmə rum rəqəmi ilə nömrələnir, mahiyyətini əks etdirən, baş hərflərlə yazılan və sətrin ortasında yerləşdirilən ada malik olmalıdır.

30.5. Normativ hüquqi aktın fəsli maddələri özündə birləşdirən struktur elementidir. Fəsil ərəb rəqəmi ilə nömrələnir, mahiyyətini əks etdirən, baş hərflərlə yazılan və sətrin ortasında yerləşdirilən ada malik olmalıdır.

30.6. Normativ hüquqi aktın maddəsi hissələri özündə birləşdirən və tamamlanmış normativ müddəanı əks etdirən əsas struktur elementidir. Maddə ərəb rəqəmi ilə nömrələnir və rəqəmdən sonra nöqtə qoyulur. Maddə, o cümlədən qanunla təsdiq edilən əsasnamənin, nizamnamənin, qaydanın və norma nəzərdə tutan digər aktın maddəsi onun mahiyyətini əks etdirən və sətri hərflərlə yazılan ada malik olmalıdır. Dəyişiklikləri nəzərdə tutan qanunun və hər hansı əsasnaməni, nizamnaməni, qaydanı və norma nəzərdə tutan digər aktı təsdiq edən qanunun maddəsinin adı olmur.

30.7. Maddə olmayan normativ hüquqi aktda hissə bəndləri özündə birləşdirə bilən və tamamlanmış normativ müddəanı əks etdirən əsas struktur elementidir. Hissə (maddədə hissənin nömrəsinin birinci rəqəmi maddənin nömrəsini təkrarlamaqla) ərəb rəqəmi ilə nömrələnir və rəqəmdən sonra nöqtə qoyulur. Hissənin mətni sətri hərflərlə yazılır və nöqtə ilə tamamlanır. Normativ hüquqi aktla (qanun istisna olmaqla) təsdiq edilən əsasnamədə, nizamnamədə, qaydada və norma nəzərdə tutan digər aktda, mərkəzi icra hakimiyyəti orqanının normativ hüquqi aktında hissənin mahiyyətini əks etdirən, sətri hərflərlə yazılan və sətrin ortasında yerləşdirilən adı olmalıdır.

30.8. Normativ hüquqi aktın bəndi yarımbəndləri özündə birləşdirə bilən, hissənin nömrəsini təkrarlamaqla ərəb

rəqəmi ilə nömrələnən və rəqəmdən sonra nöqtə qoyulan struktur elementidir. Bəndin mətni sətri hərflərlə yazılır və nöqtəli vergül və ya nöqtə ilə tamamlanır.

30.9. Normativ hüquqi aktın yarımbəndi abzasları özündə birləşdirə bilən, bəndin nömrəsini təkrarlamaqla ərəb rəqəmi ilə nömrələnən və rəqəmdən sonra nöqtə qoyulan struktur elementidir. Yarımbəndin mətni sətri hərflərlə yazılır və nöqtəli vergül və ya nöqtə ilə tamamlanır.

30.10. Normativ hüquqi aktın abzası yarımbəndin tərkib hissəsi olan, ərəb rəqəmi ilə nömrələnən və rəqəmdən sonra nöqtə qoyulan struktur elementidir. Abzasın mətni sətri hərflərlə yazılır və nöqtəli vergül və ya nöqtə ilə tamamlanır.

30.11. Struktur elementləri ardıcıl və bütün normativ hüquqi akt üçün eyni qaydada nömrələnməlidir. Sətrin ortasında yerləşdirilməli olan struktur elementləri istisna olmaqla, struktur elementləri mətnin birinci sətrinin əvvəlində (abzas yarımbəndin mətninin birinci sətrinə münasibətdə) boş yer buraxılmaqla yerləşdirilir. Normativ hüquqi aktda maddənin hissəsinə, bəndinə və ya yarımbəndinə istinad edilərkən, onlar maddə adlandırılır.

30.12. Normativ hüquqi aktlarda bu maddədə göstərilən struktur elementlərindən onlara xas olmayan rəqəm və ya digər işarələrlə istifadə edilməsinə müstəsna hallarda və normativ hüquqi aktlarda xüsusi qeyd-şərtlər olduqda yol verilir.

Maddə 31. Məcəllələşdirilmiş normativ hüquqi aktların strukturunun xüsusiyyətləri

31.1. Məcəllələşdirilmiş normativ hüquqi aktın bölmələri ümumi və xüsusi hissələrdə birləşdirilə bilər.

31.2. Məcəllələşdirilmiş normativ hüquqi aktın ümumi hissəsi aşağıdakıları əks etdirməlidir:

31.2.1. əsas müddəalar (prinsiplər, anlayışların tərifi, əsas təsisatlar);

31.2.2. ixtisaslaşdırılmış normativ müddəalar (prezumpsiyalar, preyudisiyalar);

31.2.3. yüksək dərəcəli ümumiləşdirmə və sabitliklə səciyyələnən və xüsusi hissənin normalarının istifadəsi üçün hüquqi əsas yaradan digər ilkin normativ müddəalar.

31.3. Məcəllələşdirilmiş normativ hüquqi aktın xüsusi hissəsi aşağıdakıları ifadə edən normaları əhatə edə bilər:

31.3.1. mümkün və lazımi davranışın (hüquq və vəzifələr) növü və ölçüsü (qaydaları);

31.3.2. hüquq normalarının mümkün pozuntularının mənfi nəticələrinin (hüquqi məsuliyyətin) növü və ölçüsü.

Maddə 32. Normativ hüquqi aktlarda dəyişikliklərin edilməsinin texniki parametrləri

32.1. Normativ hüquqi aktın struktur elementi (bölməsi, fəsli, maddəsi, hissəsi və s.) qüvvədən düşmüş hesab edildikdə və ya ləğv edildikdə, o qüvvədə olan aktdan çıxarılır, lakin onun nömrəsi saxlanılır və normativ hüquqi aktın struktur elementlərinin (bölmələrin, fəsillərin, maddələrin, hissələrin və s.) nömrələri dəyişmir.

32.2. Normativ hüquqi akta yeni struktur element (bölmə, fəsil, maddə, hissə və s.) əlavə edildikdə, o, aktın struktur elementlərinin nömrələrini təkrarlamaqla əlavə nömrə ilə daxil edilir.

32.3. Bir neçə struktur elementlərindən ibarət struktur elementə edilən dəyişikliyin onu təşkil edən digər struktur elementlərə (hissənin bəndlərinə, bəndin yarımbəndlərinə və yarımbəndin abzaslarına) şamil edilmədiyi mö-

tərizədə göstərilməklə müəyyənləşdirilir və bu cür mötərizənin olmaması müvafiq dəyişikliyin bütövlükdə struktur elementi əhatə etdiyini bildirir.

Maddə 33. Normativ hüquqi aktlarda başqa aktlara istinad edilməsi və başqa aktların müddəalarının təkrarlanması

Zəruri hallarda normativ hüquqi aktda digər bərabər və ya daha yüksək hüquqi qüvvəyə malik olan normativ hüquqi aktların struktur elementlərinə istinadlara, habelə daha yüksək hüquqi qüvvəyə malik olan normativ hüquqi aktlara istinad etməklə, belə normativ hüquqi aktların ayrı-ayrı müddəalarının təkrarlanmasına yol verilir. Bu cür təkrarlanmada müvafiq normaya istinad olmalı, həmin norma dürüst ifadə edilməli və daha yüksək hüquqi qüvvəyə malik olan normativ hüquqi aktın normasının mənası dəyişdirilməməlidir.

Maddə 34. Normativ hüquqi aktların maddələrində başqa maddələrə istinad edilməsi

Hüquq normaları arasında qarşılıqlı əlaqəni pozmamaq və ya təkrarlara yol verməmək zərurəti olduğu hallarda normativ hüquqi aktın maddələrində həmin aktın başqa maddələrinə istinad edilə bilər.

Maddə 35. Sətiraltı qeydlər və əlavələr

35.1. Normativ hüquqi aktların (onların struktur elementlərinin) ayrıca struktur elementləri kimi onlara dair sətiraltı qeydlər ola bilər. Sətiraltı qeydlərdən, izahlardan və ya ixtisar edilmiş adlardan onlar normativ hüquqi aktın (onun struktur elementlərinin) mətninə yerləşdirilə bilmədikdə istifadə edilir.

35.2. Normativ hüquqi aktda cədvəllər, qrafiklər, xəritələr, sxemlər, siyahılar, illüstrasiyalar və s. göstərildikdə onlar əlavə formasında rəsmiləşdirilməli, normativ hüquqi aktın müvafiq struktur elementlərində isə həmin əlavələrə dair istinadlar olmalıdır.

Maddə 36. Normativ hüquqi aktda məsuliyyət tədbirlərinin nəzərdə tutulması

Dövlət və yerli özünüidarə orqanlarının, siyasi partiyaların, ictimai birliklərin, digər hüquqi şəxslərin, onların vəzifəli şəxslərinin, habelə fiziki şəxslərin vəzifələrini nəzərdə tutan aktlarda həmin vəzifələrin pozulmasına görə qüvvədə olan qanunvericiliklə məsuliyyət nəzərdə tutulmamışdırsa, bu cür məsuliyyət tədbirləri göstərilməlidir.

VIII fəsil

NORMAYARATMA PROSESİ

Maddə 37. Hüquq sisteminin sabitliyi

Qanunlarla və ya fərmanlarla digər hal nəzərdə tutulmadıqda, normativ hüquqi aktda onun qəbul edilməsindən sonra 6 aydan tez müddətdə dəyişikliklər edilməsinə daha yüksək hüquqi qüvvəyə malik olan normativ hüquqi aktın tələbləri və ya normativ hüquqi aktın hüquqi, linqvistik, iqtisadi, ekoloji, kriminoloji və ya maliyyə ekspertizasının rəyi əsasında yol verilir.

Maddə 38. Qanunvericilik təşəbbüsü hüququnun subyektləri

Qanunvericilik təşəbbüsü hüququ Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsi ilə müəyyən edilmiş subyektlərə mənsubdur.

Maddə 39. Normayaratma təşəbbüsünün subyektləri

39.1. Normayaratma təşəbbüsünün subyektləri onlara verilmiş səlahiyyətlərə uyğun olaraq normativ hüquqi aktın layihəsinin və ya onun hər hansı struktur elementinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi zərurəti haqqında təklifi bu Konstitusiya Qanununun 48-ci maddəsinə uyğun olaraq normayaratma orqanına təqdim etmək hüququ olan subyektlərdir.

39.2. Normayaratma təşəbbüsünün subyekti olmayan dövlət orqanları və vəzifəli şəxslər, habelə fiziki və hüquqi şəxslər normativ hüquqi aktın qəbul edilməsi ilə bağlı təkliflərini və ya normativ hüquqi aktın layihəsini Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müvafiq səlahiyyətlərə malik olan dövlət orqanlarına təqdim edə bilərlər. Bu halda bu Konstitusiya Qanununun 48-ci maddəsinə riayət olunmaya bilər.

Maddə 40. Normayaratma prosesinin mərhələləri

40.0. Normayaratma prosesi aşağıdakı mərhələlərdə, müəyyən olunmuş prosedura əməl etməklə həyata keçirilir:

40.0.1. normayaratma fəaliyyətinin planlaşdırılması;

40.0.2. normayaratma təşəbbüsü (normativ hüquqi aktın layihəsinin hazırlanması);

40.0.3. normativ hüquqi aktın qəbul edilməsi;

40.0.4. normativ hüquqi aktın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi;

40.0.5. normativ hüquqi aktın dərc edilməsi.

Maddə 41. Normativ hüquqi aktların layihələrinin hazırlanmasının planlaşdırılması

41.1. Normativ hüquqi aktların layihələrinin hazırlanması planlı əsasda həyata keçirilir.

41.2. Normativ hüquqi aktların layihələrinin hazırlanmasının planlaşdırılmasına normayaratma orqanları tərəfindən aşağıdakıların təsdiq edilməsi daxildir:

41.2.1. normativ hüquqi aktların layihələrinin hazırlanması haqqında müddəaları əks etdirən dövlət proqramları;

41.2.2. qanun layihələrinin hazırlanmasının illik planları və normativ hüquqi aktların layihələrinin hazırlanmasının digər planları.

Maddə 42. Normativ hüquqi aktların layihələrinin hazırlanması planlarının tərtib edilməsi qaydası

42.1. Müvafiq olaraq Azərbaycan Respublikasının Milli Məclisi və Azərbaycan Respublikasının Prezidenti qanun layihələrinin hazırlanmasının qarşılıqlı razılaşdırılmış illik planını tərtib edir. Qanun layihələrinin hazırlanmasının illik planında əhəmiyyətli və mürəkkəb qanun layihələrinin konsepsiyalarının hazırlanması nəzərdə tutula bilər.

42.2. Normayaratma orqanları dövlət proqramları və ya qanun layihələrinin hazırlanmasının illik planı əsasında normativ hüquqi aktların layihələrinin hazırlanması ilə bağlı öz planlarını tərtib və təsdiq edə bilərlər.

42.3. Normativ hüquqi aktların layihələrinin hazırlanması planları tərtib edilərkən normayaratma fəaliyyətinin subyektlərinin, digər maraqlı orqanların, elmi təşkilatla-

rın, habelə digər fiziki və hüquqi şəxslərin təklifləri nəzərə alına bilər.

Maddə 43. Dövlət proqramlarının və normativ hüquqi aktların layihələrinin hazırlanması planlarının həyata keçirilməsinə nəzarət

Dövlət proqramlarının və normativ hüquqi aktların layihələrinin hazırlanması planlarının həyata keçirilməsinə onları təsdiq etmiş normayaratma orqanları nəzarət edirlər.

Maddə 44. Normativ hüquqi aktların layihələrinin hazırlanmasının planlaşdırılması üzrə fəaliyyətdə aşkarlığın təmin edilməsi

44.1. Dövlət proqramları və normativ hüquqi aktların layihələrinin hazırlanması planları onları təsdiq etmiş normayaratma orqanlarının aktları üçün nəzərdə tutulmuş qaydada təsdiq və dərc edilir.

44.2. Təsdiq edilmiş dövlət proqramları və normativ hüquqi aktların layihələrinin hazırlanması planları məlumat üçün əlaqədar dövlət orqanlarına göndərilir.

Maddə 45. Normativ hüquqi aktın layihəsinin hazırlanması qaydası

45.1. Normativ hüquqi aktın layihəsinin hazırlanmasına aşağıdakılar daxil edilə bilər:

45.1.1. normayaratma təşəbbüsünə baxılması və layihənin hazırlanması üzrə qərarın qəbul edilməsi;

45.1.2. layihənin hazırlanmasının təşkilati-texniki və maliyyə təminatı;

45.1.3. zəruri materialların və məlumatların toplanması;

45.1.4. layihənin konsepsiyasının hazırlanması;

45.1.5. layihənin mətninin tərtib edilməsi;

45.1.6. layihənin razılaşdırılması;

45.1.7. hüquqi, linqvistik, maliyyə və digər zəruri ekspertizaların keçirilməsi.

45.2. Normayaratma orqanı normativ hüquqi aktın layihəsinin hazırlanmasını müstəqil surətdə həyata keçirə və ya normayaratma təşəbbüsünün digər subyektinin səlahiyyətlərinə aid edilən məsələlər üzrə həmin subyektə tapşıra bilər, habelə layihənin hazırlanmasına müvafiq mütəxəssisləri cəlb edə, bunun üçün xüsusi yaradılmış müvəqqəti komissiyalara və ya işçi qruplarına tapşırıq verə bilər.

45.3. Normativ hüquqi aktın layihəsi müvafiq dövlət orqanının hüquq xidmətinin mütləq iştirakı ilə hazırlanır.

Maddə 46. Normativ hüquqi aktın layihəsinin razılaşdırılması

46.1. Normativ hüquqi aktın layihəsinin razılaşdırılması Azərbaycan Respublikasının qanunvericiliyi ilə məcburi olduqda, habelə normativ hüquqi aktda Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada digər dövlət orqanları ilə bağlı normativ göstərişlər və (və ya) tapşırıqlar olduqda həmin layihə normayaratma orqanına təqdim edilməzdən əvvəl maraqlı dövlət orqanları ilə razılaşdırılmalıdır.

46.2. Normativ hüquqi aktın layihəsinin razılaşdırılması aşağıdakı vasitələrlə həyata keçirilir:

46.2.1. dövlət orqanı tərəfindən mövcud irad və təkliflər əsaslandırılmaqla və ya təklif edilən normativ göstərişlərlə razılaşmadıqda, normativ hüquqi aktın layihəsi və

ya onun ayrıca struktur elementi normayaratma texnikasının müəyyən edilmiş qaydalarına uyğun əlavə olunmaqla müvafiq layihəyə dair yazılı formada razılığın verilməsi və verilməməsi;

46.2.2. dövlət orqanının rəhbəri tərəfindən normativ hüquqi aktın layihəsinin vizalanması (ona dair irad və təkliflər olduqda onları əsaslandırmaqla və normativ hüquqi aktın layihəsi və ya onun ayrıca struktur elementinin təklif edilən redaksiyası normayaratma texnikasının müəyyən edilmiş qaydalarına uyğun əlavə edilməklə).

46.3. Normativ hüquqi aktın layihəsinin razılaşdırılması zamanı hüquqi cəhətdən əsaslandırılmamış irad və təkliflərə baxılmır.

46.4. Azərbaycan Respublikası Prezidentinin və ya Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktlarında digər hal nəzərdə tutulmadıqda, normativ hüquqi aktın layihəsinin razılaşdırılması zamanı dövlət orqanı tərəfindən müvafiq layihəyə dair razılıq verilməsi və ya verilməməsi layihənin müəyyən olunmuş qaydada alındığı gündən ən geci 60 gün keçənədək, onun vizalanması isə ən geci 5 gün keçənədək həyata keçirilir.

46.5. Razılaşdırılma haqqında məlumat bu Konstitusiya Qanununun 46.4-cü maddəsi ilə müəyyən edilmiş müddətdə təqdim edilmədikdə və bu zaman razılaşdırılma müddətinin uzadılması zərurəti və ya bu müddətin uzadılmasından imtina edilməsi əsaslandırılmaqla razılaşdırılma müddətinin uzadılması haqqında təklif olmadıqda, normativ hüquqi aktın layihəsi razılaşdırılmış hesab olunur.

46.6. Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təqdim

edilmiş qanun layihəsi bütün maraqlı dövlət orqanları ilə razılaşdırılmış hesab olunur.

46.7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarının layihəsi mərkəzi icra hakimiyyəti orqanları ilə razılaşdırılmalıdır, mərkəzi icra hakimiyyəti orqanının normativ hüquqi aktının layihəsi isə əlaqədar mərkəzi icra hakimiyyəti orqanları ilə razılaşdırılmalıdır.

Maddə 47. Normativ hüquqi aktın layihəsinin ekspertizası

Bu Konstitusiya Qanunu ilə ekspertizanın məcburi qaydada keçirilməsi nəzərdə tutulan hallar istisna olmaqla, normayaratma orqanının və ya Azərbaycan Respublikasının qanunvericilik aktları ilə səlahiyyətlər verilmiş digər dövlət orqanının qərarı ilə normativ hüquqi aktın layihəsi başqa ekspertizadan (maliyyə, iqtisadi, ekoloji, kriminoloji və s.) keçirilə bilər.

Maddə 48. Normativ hüquqi aktın layihəsinin normayaratma orqanına təqdim edilməsi

48.1. Normativ hüquqi aktın layihəsinin normayaratma orqanına təqdim edilməsi qaydası bu Konstitusiya Qanunu, Azərbaycan Respublikasının digər qanunvericilik aktları və müvafiq normayaratma orqanının aktları ilə müəyyən edilir.

48.2. Normayaratma orqanına təqdim edilən normativ hüquqi aktın layihəsinə, onun növündən asılı olaraq, aşağıdakılar əlavə edilir:

48.2.1. müşayiət məktubu və normativ hüquqi aktın qəbul edilməsi zərurətinin əsaslandırılması, o cümlədən maliyyə-iqtisadi əsaslandırılması;

48.2.2. normativ hüquqi aktın layihəsinin razılaşdırılması (vizalanması) haqqında məlumatı əks etdirən sənədlər;

48.2.3. normativ hüquqi aktın layihəsinə dair ekspert rəyləri;

48.2.4. normativ hüquqi aktın layihəsini hazırlamış şəxslərin siyahısı;

48.2.5. normativ hüquqi aktın layihəsinə aid digər sənədlər (layihəni təqdim edən subyektin qərarına əsasən).

48.3. Normativ hüquqi aktın qəbul olunması zərurətinin əsaslandırılmasına aşağıdakılar barədə məlumatlar daxil edilməlidir:

48.3.1. normativ hüquqi aktın layihəsinin hazırlanmasının məqsədləri, onun mövcud hüquqi tənzimləmədə dəyişikliklər edən struktur elementlərinin hüquqi tənzimləmə predmeti;

48.3.2. Azərbaycan Respublikası qanunvericiliyinin və onun tətbiqi təcrübəsinin, xarici dövlətlərin qanunvericiliyinin, kütləvi informasiya vasitələrində dərc olunmuş materialların, normativ hüquqi aktın layihəsinin hüquqi tənzimləmə predmetinə dair fiziki və hüquqi şəxslərin müraciətlərinin aparılmış təhlili;

48.3.3. normativ hüquqi aktın qəbul edilməsinin ehtimal olunan nəticələrinin proqnozlaşdırılması;

48.3.4. normativ hüquqi aktın qəbul edilməsi ilə əlaqədar ləğv edilməli, dəyişikliklər edilməli, habelə hazırlanmalı olan normativ hüquqi aktların (onların struktur elementlərinin) siyahısı.

48.4. Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilən qanun layihəsinə layihənin redaksiyasına dair ekspert rəyləri əlavə olunur. Bu zaman layihədə texniki

xarakter daşıyan dəyişikliklər edildikdə layihə təkrar ekspert rəylərinin alınması üçün göndərilmir.

48.5. Qanunda dəyişikliklər edilməsi haqqında qanun layihələrinə maddənin və ya qanunun digər struktur elementinin redaksiyası və layihə ilə qanuna təklif edilən dəyişikliklər nəzərə alınmaqla maddənin və ya qanunun digər struktur elementinin redaksiyası göstərilməklə müqayisəli cədvəl əlavə olunur.

48.6. Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim edilən qanun layihəsinə yalnız müşayiət məktubu əlavə olunur və bu Konstitusiya Qanununun 48.3-cü və 48.4-cü maddələrində göstərilən sənədlər Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında saxlanılır.

48.7. Normativ hüquqi aktın layihəsi normayaratma orqanına kağız daşıyıcısında və eyni zamanda elektron daşıyıcılarında mətn faylları formasında təqdim edilir.

IX fəsil

NORMATİV HÜQUQİ AKTIN LAYİHƏSİNİN, QANUNUN MƏCBURİ HÜQUQİ EKSPERTİZASI

Maddə 49. Normativ hüquqi aktın layihəsinin, qanunun məcburi hüquqi ekspertizasının keçirilməsi qaydası

49.1. Normativ hüquqi aktın layihəsi və Azərbaycan Respublikasının Prezidentinə imzalanmaq üçün təqdim edilən qanun məcburi hüquqi ekspertizadan keçirilməlidir.

49.2. Məcburi hüquqi ekspertiza, normativ hüquqi aktın növündən asılı olaraq, aşağıdakı qaydada keçirilir:

49.2.1. qanun layihələri - Azərbaycan Respublikası Milli Məslisinin işinin təşkilati təminatını həyata keçirən qurumun səlahiyyətli struktur bölməsi tərəfindən;

49.2.2. Azərbaycan Respublikasının Prezidentinə təqdim edilən normativ hüquqi aktların layihələri və imzalanmaq üçün təqdim edilən qanunlar - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının səlahiyyətli struktur bölməsi tərəfindən;

49.2.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar layihələri - Azərbaycan Respublikası Nazirlər Kabinetinin işinin təşkilati təminatını həyata keçirən qurumun səlahiyyətli struktur bölməsi tərəfindən;

49.2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələri - həmin orqanların hüquq xidmətləri tərəfindən.

Maddə 50. Normativ hüquqi aktların layihələrinə dair ümumi tələblər

50.0. Normativ hüquqi aktın layihəsinə dair ümumi tələblər aşağıdakılardır:

50.0.1. bu Konstitusiya Qanununun 8-ci maddəsində müəyyən edilən prinsiplərə uyğunluğu;

50.0.2. normativ hüquqi aktın normalarının normativ hüquqi aktın məqsəd və vəzifələrinə uyğunluğu;

50.0.3. normativ tənzimləmə predmetinə uyğunluğu;

50.0.4. normativ hüquqi aktın formasının və mahiyyətinin uyğunluğu;

50.0.5. daxili strukturun məntiqliliyi;

50.0.6. daxil edilməsi nəzərdə tutulan normaların qarşılıqlı ziddiyyətsizliyi;

50.0.7. bir dövlət orqanının digər dövlət orqanının səlahiyyətlərinə müdaxilə etməməsi;

50.0.8. normativ hüquqi aktın müvafiq səlahiyyətə malik olan normayaratma orqanı tərəfindən öz səlahiyyəti daxilində qəbul edilməsi;

50.0.9. normativ hüquqi aktın Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada və formada qəbul edilməsi;

50.0.10. normayaratma texnikasına uyğunluğu;

50.0.11. bu Konstitusiya Qanununun 37-ci maddəsinin tələblərinə riayət olunması.

Maddə 51. Məcburi hüquqi ekspertizanın rəyi

51.1. Məcburi hüquqi ekspertizanın rəyi bu Konstitusiya Qanununa əlavə olunmuş 1 nömrəli Əlavəyə uyğun tərtib edilir.

51.2. Normativ hüquqi aktın layihəsinə dair məcburi hüquqi ekspertizanın rəyində aşağıdakı nəticələrdən biri göstərilməlidir:

51.2.1. normativ hüquqi aktın layihəsi rədd edilir;

51.2.2. normativ hüquqi aktın layihəsi yenidən işlənilməsi üçün normayaratma təşəbbüsünün subyektinə qaytarılır;

51.2.3. normativ hüquqi aktın layihəsi dəstəklənir.

51.3. Qanuna dair məcburi hüquqi ekspertizanın rəyində, onun Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanması və ya imzalanmadan öz etirazları ilə birlikdə Azərbaycan Respublikasının Milli Məclisinə qaytarılması təklif edilir.

Maddə 52. Məcburi hüquqi ekspertizanın keçirilməsinin ardıcıllığı

Normativ hüquqi aktın layihəsinin, qanunun məcburi hüquqi ekspertizası məcburi linqvistik ekspertizadan və digər ekspertizalardan əvvəl keçirilməlidir.

X fəsil

NORMATİV HÜQUQİ AKTIN LAYİHƏSİNİN MƏCBURİ LİNQVİSTİK EKSPERTİZASI

Maddə 53. Normativ hüquqi aktın mətninə dair irəli sürülən linqvistik tələblər

Normativ hüquqi aktın mətni lakonik formada, normaların ziddiyyətli təfsirini istisna edən sadə və aydın dildə, Azərbaycan ədəbi dilinin və hüquq terminologiyasının rəsmi-işgüzar üslubuna əməl etməklə tərtib edilir.

Maddə 54. Normativ hüquqi aktın terminologiyası

54.1. Normativ hüquqi aktın terminologiyası aydın anlaşılan sözlərdən və söz birləşmələrindən istifadə etməklə formalaşdırılmalıdır.

54.2. Normativ hüquqi aktda eyni terminlər bir mənada işlədilməli və vahid formaya malik olmalıdır.

54.3. Normativ hüquqi aktda istifadə edilən terminlərin və onların tərifinin dəqiqləşdirilməsi zərurəti olduqda həmin aktda onların mənasını izah edən maddə (hissə, bənd) yerləşdirilir.

Maddə 55. Xüsusi nişanlanmalardan istifadə olunması

55.1. Normativ hüquqi aktda xüsusi nişanlanmalardan yalnız müvafiq xüsusi sahədə işlədilən mənada istifadə olunur.

55.2. Zərurət olduqda, xüsusi nişanlanmalar normativ hüquqi aktda izah edilir.

Maddə 56. Normativ hüquqi aktın mətninə dair üslub tələbləri

56.0. Normativ hüquqi aktın mətnində aşağıdakıların ifadə edilməsinə yol verilmir:

56.0.1. loru dili, Azərbaycan dilinin dialektləri və danışıq nitqinin ekspressiv formaları;

56.0.2. eyni mənada müxtəlif anlayışlar (terminlər);

56.0.3. Azərbaycan dilində eynimənalı sözlər və terminlər olduqda başqa dillərdən alınma sözlər;

56.0.4. anlaşılmaz söz birləşmələri, ümumiləşdirilmiş düşüncələr, çağırışlar, bədii müqayisələr, epitetlər, metaforalar;

56.0.5. abreviaturalar (məlum olanlar istisna olmaqla).

Maddə 57. Normativ hüquqi aktlarda ifadə edilən ixtisarlar və ümumiləşdirilmiş anlayışlar

57.1. Dövlət orqanlarının normativ hüquqi aktlarda ifadə edilən adları onların əsasnamələrinə (nizamnamələrinə), yaradılması, adlandırılması və adlarının dəyişdirilməsi haqqında aktlara tam uyğun olaraq göstərilir.

57.2. Dövlət orqanlarının ixtisar edilmiş adlarının ifadə olunmasına onların ixtisar edilmiş adları rəsmi olduqda və yalnız texniki normativ hüquqi aktlarda, qeyri-normativ hüquqi aktlarda, habelə stenoqramlarda, protokollarda, xidməti məktublarda, arayış xarakterli sənədlərdə, hüquqi aktlara dair mətndən kənar əlavələrdə yol verilir.

57.3. Dövlət orqanlarını ifadə edən ümumiləşdirilmiş anlayışlardan (sözlərdən, söz birləşmələrindən) normativ hüquqi aktlarda istifadə edilməsinə yalnız müvafiq ümumiləşdirilmiş anlayışın istənilən dövlət orqanına şamil olunduğu nəzərdə tutulan hallarda yol verilir. Normativ hüquqi

aktın mətnində dövlət orqanının adının dəfələrlə göstərilməsi tələb olunduqda və ya sözlər qrupu ilə ifadə olunan bu və ya digər anlayış dəfələrlə işlədildikdə bu dövlət orqanının və ya anlayışın adı ilk dəfə istifadə edilən müddəada tam verilir və bu zaman mötərizədə növbəti müddəalarda göstəriləcək ixtisar (şərti nişanlanma) qeyd olunur.

57.4. Tam adın göstərilməsi məqsədəuyğun olmadıqda dəfələrlə istinadlar edilən normativ hüquqi aktın adına da bu qayda tətbiq edilir.

Maddə 58. Normativ hüquqi aktlarda istinadların tətbiq edilməsi

Normativ hüquqi aktda həmin normativ hüquqi akta və ya onun struktur elementinə istinad yalnız "bu" sözündən istifadə etməklə edilir.

Maddə 59. Normativ hüquqi aktların layihələrinin məcburi linqvistik ekspertizasının rəyi

59.0. Normativ hüquqi aktın layihəsinə dair məcburi linqvistik ekspertizanın rəyində aşağıdakı nəticələrdən biri göstərilməlidir:

59.0.1. normativ hüquqi aktın layihəsi rədd edilir;

59.0.2. normativ hüquqi aktın layihəsi yenidən işlənilməsi üçün normayaratma təşəbbüsünün subyektinə qaytarılır;

59.0.3. normativ hüquqi aktın layihəsi dəstəklənir.

Maddə 60. Normativ hüquqi aktların layihələrinin məcburi linqvistik ekspertizasının forması

Məcburi linqvistik ekspertizanın rəyi normativ hüquqi aktın layihəsinin mətnində aparılan düzəlişlər formasında tərtib edilir.

XI fəsil

NORMATİV HÜQUQİ AKTLARIN (ONLARIN LAYİHƏLƏRİNİN) SUİ-İSTİFADƏYƏ MƏRUZ QALMASINA DAİR EKSPERTİZASININ KEÇİRİLMƏSİ

Maddə 61. Normativ hüquq aktların (onların layihələrinin) sui-istifadəyə məruz qalmasına dair ekspertizasının keçirilməsinin məqsədi

Məcburi hüquqi ekspertizadan keçirilən normativ hüquqi aktların layihələrində və Azərbaycan Respublikasının Prezidentinə imzalanmaq üçün təqdim edilən qanunlarda (bu fəslin məqsədləri üçün bundan sonra - normativ hüquqi aktlar (onların layihələri)) sui-istifadə təzahürləri üçün şərait yaranmasına kömək edən müddəaların əmələ gəlməsinin qarşısını almaq, onları aşkar etmək və aradan qaldırmaq məqsədi ilə normativ hüquqi aktların (onların layihələrinin) sui-istifadəyə məruz qalmasına dair ekspertizası keçirilir.

Maddə 62. Normativ hüquqi aktlarda (onların layihələrində) sui-istifadə amilləri

62.1. Bu Konstitusiya Qanununun məqsədləri üçün sui-istifadə amilləri dedikdə, normativ hüquqi aktın tətbiqi zamanı sui-istifadənin təzahürünə səbəb olan, o cümlədən sui-istifadə təcrübəsinin bilavasitə əsası olan, yaxud sui-istifadə əməllərinə legitim şərait yaradan, sui-istifadə əməllərinə yol verən və ya onlara təhrik edən normativ hüquqi aktların müddəaları (o cümlədən, normanın və hüquqi düsturların qüsurları) nəzərdə tutulur.

62.2. Özündə sui-istifadə amillərini ehtiva edən normalar (normativ hüquqi aktlar, onların layihələri) sui-istifadəyə məruz qalmış normalar (normativ hüquqi aktlar, onların layihələri) hesab edilir.

62.3. Tipik sui-istifadə amillərinə əsasən, tənzimləmə predmetindən asılı olmayaraq normativ hüquqi aktlarda (onların layihələrində) daha tez-tez rast gəlinən və şübhəsiz və ya böyük ehtimalla sui-istifadə təzahürlərinə səbəb olan sui-istifadə amilləri aid edilir.

62.4. Normativ hüquqi aktların layihələrinin hazırlanması və təkmilləşdirilməsi zamanı onlara bu Konstitusiya Qanununda qeyd edilən tipik sui-istifadə amillərinin və sui-istifadəyə məruz qalma təzahürlərinin, habelə sui-istifadəyə şərait yaranmasına səbəb olacaq digər müddəaların daxil edilməsinə yol verilmir.

Maddə 63. Sui-istifadə amillərinin növləri

63.0. Normativ hüquqi aktın (onun layihəsinin) ekspertizası aparılarkən aşağıdakı tipik sui-istifadə amilləri və sui-istifadəyə məruz qalma təzahürləri aşkar edilməli və aradan qaldırılmalıdır:

63.0.1. dövlət orqanının (vəzifəli şəxsin) səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar olan tipik sui-istifadə amilləri;

63.0.2. hüquqi boşluqların mövcudluğu ilə əlaqədar olan tipik sui-istifadə amilləri;

63.0.3. sistem xarakterli tipik sui-istifadə amilləri;

63.0.4. sui-istifadəyə məruz qalmanın tipik təzahürləri.

Maddə 64. Dövlət orqanının (vəzifəli şəxsin) səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar olan tipik sui-istifadə amilləri

64.1. Normativ hüquqi aktda dövlət orqanının (vəzifəli şəxsin) səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar olan tipik sui-istifadə amillərinə aşağıdakılar aiddir:

64.1.1. diskresion səlahiyyətlərin geniş olması;

64.1.2. səlahiyyətin dispozitiv imkan kimi müəyyənləşdirilməsi;

64.1.3. şəxsə məxsus hüquqların həyata keçirilməsi üçün ona lazım olduğundan daha yüksək tələblərin irəli sürülməsi;

64.1.4. fiziki və hüquqi şəxslərin hüquqlarından dövlət orqanı (vəzifəli şəxs) tərəfindən sui-istifadə edilməsi imkanı;

64.1.5. hüquqların həcminin əsassız dəyişdirilməsi;

64.1.6. qanundan irəli gələn normayaratmanın həddindən artıq sərbəst xarakter daşıması;

64.1.7. hüquqi-linqvistik sui-istifadəyə məruz qalma;

64.1.8. icra hakimiyyəti orqanının səlahiyyətindən kənar normativ hüquqi aktın qəbul edilməsi;

64.1.9. qanundakı boşluqların icra hakimiyyəti orqanının normativ hüquqi aktları ilə doldurulması.

64.2. Vəzifəli şəxsə qərar qəbul edilməsi zamanı öz mülahizələrinə görə hərəkət etmək imkanı verən normativ hüquqi aktdakı diskresion səlahiyyətlər özbaşına həyata keçirilə bilməz.

64.3. Normativ hüquqi aktda diskresion səlahiyyətlərin geniş olması nəticəsində qərar qəbul etmə müddətlərinin müəyyən edilməməsinə və ya bu müddətin qeyri-müəyyənliyinə, bu və ya digər qərarın qəbul edilməsi şərtləri-

nin və əsaslarının qeyri-müəyyənliyinə, müxtəlif dövlət orqanlarının səlahiyyətlərinin bir-birini təkrarlamasına yol verilmir.

64.4. Dövlət orqanı üçün hüquq və vəzifələr onun səlahiyyətlərini təşkil edir və bu səbəbdən normativ hüquqi aktda həmin orqanın hüququ konkret icraçının mülahizəsindən asılı olan bu və ya digər hərəkətlərin edilməsi, dispozitiv imkan kimi müəyyənləşdirilə bilməz. Normativ hüquqi aktda dövlət orqanının səlahiyyətlərinin həddindən artıq ümumiləşdirilmiş formada müəyyən edilməsinə, "orqan edə bilər", "bir qayda olaraq", "müstəsna hallarda yol verilir", "orqan öz səlahiyyətləri daxilində", "zərurət olduqda" və bunlara bənzər qeyri-müəyyən ifadələrdən istifadə olunmasına yol verilmir.

64.5. Normativ hüquqi aktda fiziki və hüquqi şəxslərin öz hüquqlarını həyata keçirməsi və ya vəzifələrini yerinə yetirməsi üçün zəruri olan tələblər (şərtlər) ağır və (və ya) çətin yerinə yetirilən tələblər (şərtlər) ola bilməz.

64.6. Normativ hüquqi aktda lazım olduğundan yüksək və artıq tələblərin irəli sürülməsinə, fiziki və hüquqi şəxslər tərəfindən təqdim edilən sənədlərin, yaxud başlanmış inzibati prosedur çərçivəsində ona imtina üçün əsasların açıq (natamam) siyahısının mövcudluğuna, hüququn həyata keçirilməsinə imtina üçün subyektiv qiymətləndirici ifadələrdən istifadə olunmasına yol verilmir.

64.7. Normativ hüquqi aktda fiziki və hüquqi şəxslərin hüquqlarının dəqiq (dürüst) nizamlanmaması yolu ilə vəzifəli şəxslər üçün diskresion səlahiyyətlərin və dispozitiv imkanların yaradılmasına yol verilmir. Normativ hüquqi aktda fiziki və hüquqi şəxslərə başlanmış inzibati prosedur çərçivəsində hərəkətlərin edilməsi üçün üsul və müddətlərin sərbəst seçimi əvəzinə yalnız hüquqların al-

ternativ seçilməsi imkanının nəzərdə tutulmasına yol verilmir.

64.8. Normativ hüquqi aktda vəzifəli şəxsin öz mülahizəsindən asılı olaraq fiziki və hüquqi şəxslər üçün ümumi qaydadan istisnalar müəyyənləşdirmək imkanı nəzərdə tutula bilməz. Normativ hüquqi aktda vəzifəli şəxslərə normativ hüquqi aktla nizamlanmayan güzəştlər, habelə qadağa və məhdudiyyətlər müəyyən etmək imkanı nəzərdə tutula bilməz.

64.9. Qanunda normaların həddindən artıq detallaşdırılması Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş icra və məhkəmə hakimiyyəti orqanlarının səlahiyyətlərinə müdaxiləyə gətirib çıxarmamalıdır.

64.10. Vəzifəli şəxsin diskresion səlahiyyətlərinin genişləndirilməsi üçün ikimənalı və təcrübədə az yerini tapan terminlərdən, məfhumlardan (anlayışlardan) və xülasələrdən, qiymətləndirmə xassəli kateqoriyalardan istifadə edilə bilməz.

64.11. İcra hakimiyyəti orqanı normativ hüquqi aktları yalnız öz səlahiyyətləri daxilində qəbul etməlidir və digər icra hakimiyyəti orqanının fəaliyyət dairəsinə müdaxilə edə bilməz.

64.12. Qanunun olmadığı halda digər normativ hüquqi aktla qanunun predmetini təşkil edən məsələlərin hüquqi tənzimlənməsinə və hamı üçün məcburi olan davranış qaydalarının müəyyənləşdirilməsinə yol verilmir.

Maddə 65. Hüquqi boşluqların mövcudluğu ilə əlaqədar olan tipik sui-istifadə amilləri

65.1. Hüquqi boşluqlar bu və ya digər məsələnin hüquqi tənzimlənməməsi nəticəsində, normativ hüquqi aktın tənzimləmə üçün istifadə edilmədiyi halda, habelə

normativ hüquqi aktın mətninə hüquq pozuntularına görə vəzifəli şəxslərin məsuliyyətini nəzərdə tutan və onların fəaliyyətinə nəzarəti tənzimləyən sui-istifadə əleyhinə preventiv normalar daxil edilmədikdə yaranır.

65.2. Hüquqi boşluqların mövcudluğu ilə əlaqədar olan tipik sui-istifadə amillərinə aşağıdakılar aiddir:

65.2.1. hüquqi tənzimləmədə boşluqların mövcudluğu;

65.2.2. inzibati prosedurların olmaması;

65.2.3. müsabiqə (hərrac) prosedurlarının olmaması;

65.2.4. konkret fəaliyyət sahəsində vəzifəli şəxslər üçün qadağa və məhdudiyyətlərin olmaması;

65.2.5. hüquqpozmaya görə vəzifəli şəxs üçün məsuliyyətin müəyyən edilməməsi;

65.2.6. dövlət orqanlarına, vəzifəli şəxslərə nəzarətin, o cümlədən ictimai nəzarətin müəyyənləşdirilməməsi;

65.2.7. informasiyanın şəffaflığı rejiminin pozulması.

65.3. Hüquqi tənzimləmədə boşluqların mövcudluğu hüququn tətbiqi zamanı boşluğun dövlət orqanının (vəzifəli şəxsin) mülahizəsinə görə doldurulmasına imkan verməməlidir. Bu və ya digər fəaliyyət növü üzrə dövlət orqanına həvalə edilmiş funksiyaların həyata keçirilməsi tənzimlənməlidir.

65.4. İnzibati akt həm vəzifəli şəxs üçün, həm də fiziki və hüquqi şəxslər üçün normativ hüquqi aktın mətnindən onlara əvvəlcədən məlum olan müəyyən prosedur üzrə qəbul edilməlidir və hərəkətlərin qayda və müddətləri müəyyən edilməlidir.

65.5. İmtiyaz verən konkret hüququn verilməsi (hüquqi vəziyyətin yaradılması) üçün namizədin seçilməsi ilə bağlı hərəkətlər müsabiqə (hərrac) prosedurlarına uyğun həyata keçirilməlidir. Konkret hüququn inzibati qaydada verilməsinə (hüquqi vəziyyətin inzibati qaydada yaradıl-

masına), habelə müsabiqələrin (hərracların) keçirilməsi zamanı diskresion səlahiyyətlərin geniş olmasına yol verilmir.

65.6. Normativ hüquqi aktda vəzifəli şəxslərin hüquq pozuntularına görə hüquqi məsuliyyətə dair aktlara uyğun gələn məsuliyyəti haqqında, habelə vəzifəli şəxslərin hərəkətindən (hərəkətsizliyindən) şikayət verilməsinin mümkünlüyü ilə bağlı normalar əks olunmalıdır.

65.7. Normativ hüquqi aktda dövlət orqanının (vəzifəli şəxslərin) daha çox əhəmiyyətli fəaliyyət istiqamətlərinə nəzarətin, o cümlədən ictimai nəzarətin mümkünlüyünü təmin edən normalar əks olunmalıdır.

65.8. Normativ hüquqi aktda dövlət orqanlarının informasiya açıqlığını təmin edən normalar əks olunmalıdır. Konkret məsələ üzrə qərar qəbul edilməsində əhəmiyyət kəsb edən informasiyanın fiziki və hüquqi şəxslər üçün qapalı informasiya kimi müəyyən edilməsinə, habelə normativ hüquqi aktda belə informasiyanın əldə olunmasının mümkünlüyünün və qaydasının müəyyən edilməməsinə yol verilmir.

Maddə 66. Sistem xarakterli tipik sui-istifadə amilləri

66.1. Sistem xarakterli tipik sui-istifadə amilləri normativ hüquqi aktın ayrı-ayrı normalarını deyil, onun bütün mətninin sistemli təhlili nəticəsində aşkar edilə bilən tipik sui-istifadə amillərini özündə ehtiva edir.

66.2. Sistem xarakterli tipik sui-istifadə amillərinə aşağıdakılar aiddir:

66.2.1. yanlış məqsəd və prioritetlər;

66.2.2. kolliziyalar;

66.2.3. məcbur edilmiş sui-istifadəyə məruz qalma.

66.3. Normativ hüquqi aktın hüquqi tənzimləmənin həqiqi tələblərinə uyğun gələn aydın məqsədləri və prioritetləri olmalıdır. Normativ hüquqi aktın qəbul edilməsi üçün obyektiv məqsədəuyğunluğun olmamasına, məsələnin zərurətdən artıq tənzimlənməsinə, normativ hüquqi aktın normalarının həmin aktın bəyan edilmiş məqsədləri ilə ziddiyyət təşkil etməsinə yol verilmir.

66.4. Digər normativ hüquqi aktla tam və ya qismən ziddiyyət təşkil edən normativ hüquqi aktda vəzifəli şəxslər üçün konkret halda tətbiq edilməli olan aktı sərbəst seçmək imkanının yaradılmasına, həmin kolliziyanın həlli mümkünlüyünün vəzifəli şəxsin iradəsindən asılı olmasına yol verilmir.

66.5. Daha üstün hüquqi qüvvəyə malik olan normativ hüquqi aktın sui-istifadəyə məruz qalmış normaları digər normativ hüquqi aktda sui-istifadəyə məruz qalmış normaların əks etdirilməsinə səbəb ola bilməz.

Maddə 67. Sui-istifadəyə məruz qalmanın tipik təzahürləri

67.1. Sui-istifadəyə məruz qalmanın tipik təzahürləri müəyyən şəraitdə artıq baş vermiş sui-istifadə faktları (sui-istifadə indikatorları) barədə xəbər verən və (və ya) sui-istifadə amillərinin yaranmasına (sui-istifadə qabağı amillər) şərait yaradan müddəaların birləşməsidir.

67.2. Sui-istifadəyə məruz qalmanın tipik təzahürlərinə aşağıdakılar aiddir:

67.2.1. normativ hüquqi aktın qəbul edilməsi zamanı formal-texniki şərtlərə riayət olunmaması;

67.2.2. normativ hüquqi aktın qəbul edilməsi müddətinin göstərilməməsi;

67.2.3. mənafelər balansının pozulması (yalnız bir qrup subyektlər üçün imtiyazların nəzərdə tutulması).

67.3. Formal-texniki xassəli tələblərin yerinə yetirilməməsinə, normativ hüquqi aktların hüquqi ekspertizası zamanı aşkar edilən pozuntuların aradan qaldırılmamasına, o cümlədən normativ hüquqi aktın qəbul edilməsi qaydasının və (və ya) formasının pozulmasına yol verilmir.

67.4. Normativ hüquqi aktın qəbul edilməsi müddətlərinin müəyyənləşdirilməməsinə, qəbul edilməsi nəzərdə tutulan normativ hüquqi aktın qəbul edilməsi əvəzinə məcburi davranış qaydalarının sərbəst inzibati mülahizə əsasında fərdi hüquq tətbiq etmə aktları ilə əvəzlənməsinə yol verilmir.

67.5. Mənafelər balansının pozulması nəticəsində bir subyektlər qrupunun zərərinə olaraq digər subyektlər qrupuna güzəştlərin və imtiyazların xüsusi norma müəyyən edilməsi yolu ilə verilməsinə yol verilmir.

Maddə 68. Normativ hüquqi aktların (onların layihələrinin) sui-istifadəyə məruz qalmasına dair ekspertiza keçirilməsinin əsas qaydaları

68.1. Normativ hüquqi aktların (onların layihələrinin) sui-istifadəyə məruz qalmasına dair ekspertizasının səmərəliliyi onun sistemliliyi, etibarlılığı və nəticələrinin yoxlanılmasının mümkünlüyü ilə müəyyənləşdirilir.

68.2. Normativ hüquqi aktların (onların layihələrinin) sui-istifadəyə məruz qalmasına dair ekspertizasının sistemliliyinin, etibarlılığının və nəticələrinin yoxlanılmasının təmin edilməsi üçün aşağıdakı qaydalara riayət olunmalıdır:

68.2.1. normativ hüquqi aktların (onların layihələrinin) sui-istifadəyə məruz qalmasına dair ekspertizası və onun nəticələrinin ifadə olunması eyniliklə - normativ hüquqi aktda (onun layihəsində) tipik sui-istifadə amilləri və sui-istifadəyə məruz qalmanın təzahürləri cədvəlində (bu Konstitusiya Qanununa 2 nömrəli Əlavə) göstərilən tərkib və ardıcıllıq üzrə aparılmalıdır;

68.2.2. hər bir tipik sui-istifadə amilləri və sui-istifadəyə məruz qalmanın təzahürləri onların normativ hüquqi aktın (onun layihəsinin) hər bir normasında mövcud olub-olmamasına dair yoxlanılmalıdır;

68.2.3. tipik sui-istifadə amilləri və sui-istifadəyə məruz qalmanın təzahürləri onların normativ hüquqi akta (onun layihəsinə) qəsdən və ya bilmədən daxil edilib-edilməməsindən asılı olmayaraq, bu səbəblərə qiymət vermədən aşkar edilir və göstərilir;

68.2.4. ekspertiza nəticəsində aşkar olunmuş istənilən tipik sui-istifadə amili və sui-istifadəyə məruz qalmanın təzahürü normativ hüquqi aktdan (onun layihəsindən) çıxarılmalıdır;

68.2.5. normativ hüquqi aktların (onların layihələrinin) sui-istifadəyə məruz qalmasına dair ekspertizasının nəticələri üzrə iş sui-istifadəyə məruz qalmaya dair ekspertizanın nəticələri üzrə rəylər əsasında müvafiq normativ hüquqi aktların hazırlanması və qəbul edilməsi üçün müəyyən edilmiş qaydada aparılır;

68.2.6. təhlil nəticəsində aşkar edilmiş sui-istifadəyə şərait yaradan qeyri-tipik müddəalar normativ hüquqi aktların (onların layihələrinin) sui-istifadəyə məruz qalmasına dair ekspertizasının nəticələri üzrə rəydə göstərilir və tipik sui-istifadə amilləri və sui-istifadəyə məruz qalma təzahürləri üçün müəyyən edilmiş qaydada çıxarılmalıdır.

68.3. Normativ hüquqi aktlarda (onların layihələrində) sui-istifadə amillərinin mövcud olmamasına dair bu Konstitusiya Qanununun tələbləri normativ hüquqi aktı (onun layihəsini) bilavasitə hazırlayan mütəxəssislər tərəfindən yerinə yetirilir.

Maddə 69. Normativ hüquqi aktların (onların layihələrinin) sui-istifadəyə məruz qalmasına dair ekspertizasının nəticələrinin rəsmiləşdirilməsi

69.1. Normativ hüquqi aktlarda (onların layihələrində) sui-istifadə amillərinin və sui-istifadəyə məruz qalma təzahürlərinin, sui-istifadənin təzahürləri üçün şərait yaranmasına kömək edən digər müddəaların mövcud olub-olmamasına dair nəticə aşağıdakı qaydada rəsmiləşdirilir:

69.1.1. normativ hüquqi aktın (onun layihəsinin) məcburi hüquqi ekspertizasının nəticələri üzrə rəyin tərkibində;

69.1.2. normativ hüquqi aktın (onun layihəsinin) məcburi hüquqi ekspertizasının nəticələri üzrə rəyinə əlavə olunan izahedici arayışda.

69.2. Normativ hüquqi aktda (onun layihəsində) sui-istifadənin təzahürləri üçün şərait yaranmasına kömək edən müddəalar aşkar edildikdə həmin müddəalar bu Konstitusiya Qanununun 69.1-ci maddəsində nəzərdə tutulan sənəddə bu Konstitusiya Qanunu ilə müəyyənləşdirilmiş ardıcıllıqla tipik sui-istifadə amilləri və sui-istifadəyə məruz qalma təzahürləri onların aşkar edildiyi struktur elementlər (bölmə, fəsil, maddə, hissə və s.) göstərilməklə izah edilir.

69.3. Bu Konstitusiya Qanununun 69.1-ci maddəsində nəzərdə tutulan sənəddə habelə digər tipik sui-istifadə

amillərinin və sui-istifadəyə məruz qalmanın digər təzahürlərinin, sui-istifadənin təzahürlərinə kömək edən digər müddəaların aşkar edilmədiyi göstərilir.

69.4. Normativ hüquqi aktda (onun layihəsində) aşkar edilmiş tipik sui istifadə amilləri və sui-istifadəyə məruz qalmanın təzahürləri ekspertizanın nəticələri üzrə hazırlanmış sənəddə bu Konstitusiya Qanununa əlavə edilmiş 2 nömrəli cədvəl şəklində göstərilir.

69.5. Normativ hüquqi aktda (onun layihəsində) sui-istifadənin təzahürlərinə kömək edən müddəaların aşkar edilmədiyi hallar istisna olmaqla, təhlil edilən normativ hüquqi aktın (onun layihəsinin) sui-istifadəyə məruz qalma dərəcəsi bütövlükdə sui-istifadəyə məruz qalmaya dair ekspertizanın nəticələrini əks etdirən sənəddə müəyyənləşdirilir.

69.6. Sui-istifadəyə məruz qalmaya dair ekspertizanın nəticələrini əks etdirən sənəddə sui-istifadənin təzahürlərinə şərait yaranmasına kömək edən müddəaların aşkar edildiyi normativ hüquqi aktın layihəsinin göstərilən iradlar nəzərə alınmaqla yenidən işlənməsi (normativ hüquqi aktda dəyişikliklər edilməsi) ilə bağlı tövsiyələr nəzərdə tutulmalıdır.

XII fəsil

NORMATİV HÜQUQİ AKTIN LAYİHƏSİNƏ BAXILMASI VƏ ONUN QƏBUL EDİLMƏSİ

Maddə 70. Normativ hüquqi aktın layihəsinə baxılması

70.1. Müəyyən edilmiş qaydada təqdim edilmiş normativ hüquqi aktın layihəsinə normayaratma orqanı tərəfindən baxılmalıdır.

70.2. Normayaratma orqanı normativ hüquqi aktın layihəsinə baxdıqdan sonra aşağıdakılardan birini edə bilər:

70.2.1. normativ hüquqi aktın layihəsinin bəyənilməsi və qəbul edilməsi;

70.2.2. əsaslar və səbəblər göstərilməklə layihənin rədd edilməsi;

70.2.3. normativ hüquqi aktın layihəsinin qəbul edilməsinin müəyyən müddətə təxirə salınması;

70.2.4. irad və təkliflər göstərilməklə layihənin yenidən işlənilmək üçün qaytarılması.

70.3. Qanun layihələrinə Azərbaycan Respublikasının Milli Məclisində üç oxunuşda baxılır.

Maddə 71. Normativ hüquqi aktın layihəsinin geri çağırılması

71.1. Normayaratma təşəbbüsünün subyekti təqdim etdiyi normativ hüquqi aktın layihəsini, zərurət olduqda, həmin layihə qəbul edilənədək geri çağırmaq hüququna malikdir.

71.2. Qanunvericilik təşəbbüsü hüququnun subyekti Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə təqdim etdiyi qanun layihəsini onun üçüncü oxunuşda baxılmasına qədər geri çağırmaq hüququna malikdir.

Maddə 72. Normativ hüquqi aktın qəbul edilməsi qaydası

72.1. Normativ hüquqi akt ona baxılmasından sonra normayaratma orqanı tərəfindən müvafiq normativ hüquqi aktlarla müəyyən edilmiş prosedura əməl edilməklə qəbul edilir.

72.2. Normativ hüquqi akt normayaratma orqanı tərəfindən dövlət dilində qəbul edilir.

Maddə 73. Qanunvericilik təşəbbüsü hüququnun həyata keçirilməsinin təminatları

73.1. Qanunvericilik təşəbbüsü hüququnun subyekti və ya onun səlahiyyətli nümayəndəsi Azərbaycan Respublikasının Milli Məclisində layihə üzərində aparılan işdə iştirak etmək hüququna malikdir.

73.2. Qanun layihəsi Azərbaycan Respublikasının Milli Məclisində layihədə edilmiş dəyişikliklərlə birlikdə aşağıdakılarla razılaşdırılmalıdır (rəy alınmalıdır):

73.2.1. qanun layihəsini təqdim etmiş qanunvericilik təşəbbüsü hüququnun subyekti ilə;

73.2.2. dəyişikliklər edilməsi dövlət vəsaitlərinin ixtisar edilməsinə, xərclərin yaranmasına və ya artırılmasına səbəb ola bildikdə Azərbaycan Respublikasının Prezidenti ilə və ya onun tapşırığı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə.

73.3. Bu Konstitusiya Qanununun 46.2-ci maddəsi ilə nəzərdə tutulan razılaşdırılma (rəy) nəticəsində Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilmiş dəyişikliklər qanun layihəsinin alındığı gündən on dörd gün keçənədək bu şərtlə həyata keçirilir ki, həmin qanun layihəsi üzrə məcburi hüquqi ekspertizanın keçirilməsi və qanun layihəsinə baxılmasının təcili elan edilməsi ayrı müddət tələb etməsin. Əlavə məlumatın alınması zərurəti olduqda, habelə xüsusilə mürəkkəb qanun layihələri üzrə rəyin hazırlanması və razılaşdırılmanın keçirilməsi (rəyin hazırlanması) üçün daha uzun müddət müəyyən edilə bilər.

73.4. Rəyə göndərilmədən və razılaşdırılmadan müvafiq qanun layihəsində dəyişikliklər (texniki xarakter daşıyan dəyişikliklər istisna olmaqla) edilməsinə yol verilmir.

73.5. Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunmuş qanun layihəsində dəyişikliklər edilmədikdə qanun layihəsi qanunvericilik təşəbbüsü hüququnun subyekti ilə təkrar razılaşdırılmır.

73.6. Azərbaycan Respublikasının Milli Məclisində birinci, ikinci və üçüncü oxunuşlarda baxılması üçün tam hazırlanmış qanun layihəsi qanunvericilik təşəbbüsü hüququnun subyektinə təqdim edilir.

Maddə 74. Normativ hüquqi aktın imzalanması

74.1. Normativ hüquqi aktın rəsmi imzalanması aşağıdakılar tərəfindən həyata keçirilir:

74.1.1. qanunlar və fərmanlar - Azərbaycan Respublikasının Prezidenti;

74.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları - Azərbaycan Respublikasının Baş naziri;

74.1.3. digər normativ hüquqi aktlar - aktı qəbul etmiş orqanın rəhbəri;

74.1.4. Azərbaycan Respublikasının qanunvericilik aktları ilə digər hal nəzərdə tutulmadıqda, aktı qəbul etmiş orqanın rəhbəri olmadıqda, onun vəzifələrini icra edən şəxs.

74.2. Qanun Azərbaycan Respublikasının Prezidentinə imzalanmaq üçün təqdim edildikdə qanunun ikinci nüsxəsinin son səhifəsində Azərbaycan Respublikası Milli Məclisinin sədrinin və ya onu əvəz edən şəxsin vizası qoyulur.

XIII fəsil

NORMATİV HÜQUQİ AKTLARDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ, ONLARIN LƏĞV EDİLMƏSİ

Maddə 75. Normativ hüquqi aktlarda dəyişikliklər edilməsi

75.1. Ad və ya rəqəm dəyişiklikləri edildiyi hallar istisna olmaqla, bir normativ hüquqi akt yalnız bir normativ hüquqi aktda dəyişikliklər edə bilər.

75.2. Yeni normativ hüquqi aktın qəbul edilməsi ilə əlaqədar olaraq zəruri hallarda qüvvədə olan normativ hüquqi aktlarda onları qəbul etmiş orqan tərəfindən müvafiq dəyişikliklər edilir.

Maddə 76. Normativ hüquqi aktların ləğv edilməsi qaydası

76.1. Normativ hüquqi aktın qəbul edilməsi ilə əlaqədar həmin akta daxil edilmiş normalara zidd olan və ya bu normalarla əhatə olunan, yaxud faktiki olaraq əhəmiyyətini itirən, həmin və ya daha aşağı hüquqi qüvvəyə malik olan bütün aktlar və ya onların struktur elementləri (bölmələr, fəsillər, maddələr, hissələr və s.) ləğv edilməlidir.

76.2. Normativ hüquqi aktın ləğv edilməsi barədə həmin aktı qəbul etmiş orqan tərəfindən və ya Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 8-ci bəndi və 119-cu maddəsinin yeddinci abzası ilə müəyyən edilmiş qaydada ayrıca norma qəbul edilir.

Maddə 77. Yeni normativ hüquqi aktın qəbul edilməsi ilə əlaqədar ləğv edilməli, dəyişikliklər edilməli, habelə hazırlanmalı olan normativ hüquqi aktların (onların struktur elementlərinin) siyahıları

77.1. Yeni normativ hüquqi aktın qəbul edilməsi zamanı bu Konstitusiya Qanununun 12.2-ci maddəsinin tələblərinə riayət olunmalıdır. Normativ hüquqi aktın qəbul edilməsi ilə əlaqədar ləğv edilməli, dəyişikliklər edilməli, habelə hazırlanmalı olan normativ hüquqi aktların (onların struktur elementlərinin) sayı çox olduqda onların siyahıları həmin normativ hüquqi aktın əlavəsində əks edilə bilər.

77.2. Normativ hüquqi aktın qəbul edilməsi ilə əlaqədar hazırlanmalı olan normativ hüquqi aktların (onların struktur elementlərinin) siyahısı olmadan layihələrinin hazırlanmasına yalnız bunun üçün bir ildən artıq müddət tələb edildikdə yol verilir. Bu halda müvafiq siyahının hazırlanması barədə tapşırıq hazırlanır və layihələrin normayaratma orqanına təqdim edilməsi müddəti müəyyən edilir.

XIV fəsil

AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

Maddə 78. Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydası

78.1. Hüquqi aktlar aparılması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təmin edilən Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə (bundan sonra - Hüquqi Aktların Dövlət Reyestri) daxil edilməlidir.

78.2. Hüquqi aktlar onları qəbul etmiş dövlət orqanı tərəfindən Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmək məqsədi ilə həmin aktların qəbul edildiyi gündən üç gün keçənədək göndərilir.

78.3. Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmək məqsədi ilə hüquqi aktlar kağız daşıyıcısında onların əslinin həqiqi surəti formasında və eyni zamanda elektron daşıyıcılarında mətn faylları formasında təqdim edilir.

78.4. Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmiş hüquqi aktlara Dövlət Reyestrinin qeydiyyat nömrəsi verilir.

78.5. Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədi ilə təqdim edilən mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarına və normativ xarakterli aktlara müvafiq hüquqi ekspertizanın rəyi əlavə olunur.

78.6. Naxçıvan Muxtar Respublikasının dövlət və yerli özünüidarə orqanlarının hüquqi aktları Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməlidir. Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestri Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin tərkib hissəsi hesab olunur.

Maddə 79. Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilən hüquqi aktların rekvizitləri

79.1. Hüquqi Aktların Dövlət Reyestrinə hüquqi aktların aşağıdakı rekvizitləri daxil edilir:

79.1.1. aktın növü;

79.1.2. qəbul edildiyi tarix;

79.1.3. qeydiyyat nömrəsi;

79.1.4. adı;

79.1.5. rəsmi dərc edildiyi mənbə (bu Konstitusiya Qanununun 85.1-ci maddəsində göstərilən aktlara münasibətdə);

79.1.6. qüvvəyə minmə tarixi;

79.1.7. Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu (kodları);

79.1.8. Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi;

79.1.9. hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix.

79.2. Dəyişikliklər edilmiş, ləğv edilmiş və ya qüvvədən düşmüş hüquqi aktlar üzrə Hüquqi Aktların Dövlət Reyestrinə həmin aktlarda dəyişikliklər etmiş, onları ləğv etmiş və ya qüvvədən düşmüş hesab etmiş hüquqi aktın rekvizitləri, habelə Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi və hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmə tarixi göstərilməklə müvafiq qeyd daxil edilir.

79.3. Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmiş hüquqi aktların mətnləri rəsmi dərc edilmiş hüquqi aktların mətnləri ilə birgə istinad üçün rəsmi mənbə hesab olunur.

79.4. Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmiş və rəsmi dərc edilmiş hüquqi aktların mətnləri arasında ziddiyyət olarsa Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmiş hüquqi aktın mətninə üstünlük verilir.

Maddə 80. Hüquqi Aktların Dövlət Reyestrinin strukturu

80.0. Hüquqi Aktların Dövlət Reyestri aşağıdakı bölmələrdən və fəsillərdən ibarətdir:

80.0.1. I bölmə - "Normativ hüquqi aktlar":

80.0.1.1. 1-ci fəsil - "Azərbaycan Respublikasının Konstitusiyası, referendum aktları və konstitusiya qanunları;

80.0.1.2. 2-ci fəsil - "Azərbaycan Respublikasının qanunları";

80.0.1.3. 3-cü fəsil - "Azərbaycan Respublikası Prezidentinin fərmanları";

80.0.1.4. 4-cü fəsil - "Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları";

80.0.1.5. 5-ci fəsil - "Mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları".

80.0.2. II bölmə - "Normativ xarakterli aktlar":

80.0.2.1. "Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərinə və IV hissəsinə əsasən qəbul edilmiş və hüququn analogiyasından və ya qanunun analogiyasından istifadə olunması haqqında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları";

80.0.2.2. "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarları, təlimatları və izahları";

80.0.2.3. "Azərbaycan Respublikası Mərkəzi Bankının qərarları";

80.0.2.4. "Məhkəmə-Hüquq Şurasının qərarları";

80.0.2.5. "Milli Televiziya və Radio Şurasının qərarları";

80.0.2.6. "Yerli özünüidarə orqanlarının qərarları";

80.0.2.7. "Yerli icra hakimiyyəti orqanlarının qərarları".

80.0.3. III bölmə - "Qeyri-normativ hüquqi aktlar":

80.0.3.1. "Azərbaycan Respublikası Milli Məclisinin qərarları";

80.0.3.2. "Azərbaycan Respublikası Prezidentinin sərəncamları";

80.0.3.3. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamları".

Maddə 81. Hüquqi Aktların Dövlət Reyestrinin nəşri

Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilən məlumatlar 3 ayda bir dəfə toplu şəklində dərc edilməlidir.

XV fəsil

NORMATİV HÜQUQİ AKTLARIN RƏSMİ DƏRC EDİLMƏSİ VƏ QÜVVƏYƏ MİNMƏSİ

Maddə 82. Normativ hüquqi aktların rəsmi dərc edilməsi qaydası

82.1. Azərbaycan Respublikasının normativ hüquqi aktları rəsmi dərc edilməlidir.

82.2. Normativ hüquqi aktların rəsmi dərc edilməsi dedikdə, onların mətninin rəsmi dövri mətbu nəşrdə dərc edilməsi yolu ilə, ictimai radio və televiziya kanallarında səsləndirilməsi yolu ilə ümumi diqqətə çatdırılması nəzərdə tutulur. Normativ hüquqi aktların ictimai radio və televiziya kanallarında səsləndirilməsi onların rəsmi dövri mətbu nəşrdə dərc edilməsini əvəz etmir.

82.3. Normativ hüquqi aktların rəsmi dərc edilməsi dövlət dilində həyata keçirilir.

82.4. Normativ hüquqi aktın digər dillərdə rəsmi dərc olunmasına yalnız həmin aktın müvafiq dövlət orqanı tərəfindən bu aktın qəbul edilməsi üçün müəyyən edilmiş qaydada təsdiq edilmiş müvafiq dilə tərcüməsi mövcud olduqda yol verilir.

82.5. Normativ hüquqi aktın rəsmi dərc edilməsi tarixi bu aktın yerləşdirildiyi rəsmi dövri mətbu nəşrin çıxdığı (ictimai radio və televiziya kanallarında səsləndirildiyi) gün hesab olunur.

82.6. Bu Konstitusiya Qanununun 85.1-ci maddəsində göstərilən normativ hüquqi aktlardan biri ayrı-ayrı vaxtlarda bir neçə üsulla rəsmi dərc edildikdə normativ hüquqi aktın rəsmi dərc edilməsi və qüvvəyə minməsi tarixi onun ilk dərc edilməsi tarixi ilə müəyyən edilir.

82.7. Normativ hüquqi aktların dövlət sirrini əks etdirən ayrı-ayrı müddəaları dərc edilmir.

82.8. Ayrı-ayrı müddəaları dövlət sirrini əks etdirən normativ hüquqi aktlar istisna olmaqla natamam normativ hüquqi aktların dərc edilməsinə yol verilmir.

82.9. Normativ hüquqi aktlar onların məcburi rekvizitləri göstərilməklə dərc edilir.

82.10. Naxçıvan Muxtar Respublikasının normativ hüquqi aktlarının rəsmi dərc edilməsi qaydası Naxçıvan Muxtar Respublikasının qanunu ilə müəyyən edilir.

Maddə 83. Normativ hüquqi aktın rəsmi dərc edilmə müddətləri və şərtləri

83.1. Qanunlar və fərmanlar Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalandıqdan sonra 72 saat müddətində rəsmi dərc edilməlidir.

83.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları qəbul edildikdən sonra 72 saat müddətində rəsmi dərc edilməlidir.

83.3. Digər normativ hüquqi aktlar Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsindən sonra hökmən rəsmi dərc edilməlidir.

83.4. Səlahiyyətli dövlət orqanlarından rəsmi nəşr orqanlarına (Hüquqi Aktların Dövlət Reyestrinin nəşri istisna olmaqla) daxil olmuş normativ hüquqi aktlar, bu Konstitusiya Qanununun 83.1-ci və 83.2-ci maddələrində nəzərdə tutulmuş normativ hüquqi aktlar istisna olmaqla, onların daxil olduğu gündən 5 gün gec olmayaraq dərc edilməlidir.

Maddə 84. Normativ hüquqi aktların qeyri-rəsmi nəşrlərdə və digər kütləvi informasiya vasitələrində açıqlanması

84.1. Normativ hüquqi aktlar qeyri-rəsmi nəşrlərdə dərc edilə, habelə televiziya və radio ilə ümumi diqqətə çatdırıla, məlumat yayılmasının digər üsulları ilə ötürülə bilər.

84.2. Natamam normativ hüquqi aktlar "Çıxarış" qeydi ilə dərc edilə bilər.

84.3. Normativ hüquqi aktların qeyri-rəsmi nəşrlərdə dərc edilməsi qeyri-rəsmi hesab edilir.

84.4. Normativ hüquqi aktın qeyri-rəsmi dərc edilməsi yalnız onun hüquqi məlumatın yayılması üzrə fəaliyyətə irəli sürülən tələblərə əməl olunmaqla rəsmi dərc edilməsindən sonra həyata keçirilir. Bu zaman hər bir normativ hüquqi akt üçün rəsmi dərc edilmə mənbəyi, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hüquqi məlumatın yayılması üçün xüsusi razılığa (lisenziyaya) zərurət olduqda, hüquqi məlumatın yayılması üçün belə xüsusi razılığın (lisenziyanın) verilmə nömrəsi və tarixi hökmən göstərilir.

Maddə 85. Normativ hüquqi aktların qüvvəyə minməsi

85.1. Qanunlar, fərmanlar və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları həmin aktlarda qüvvəyə

minmənin daha gec müddəti nəzərdə tutulmadıqda onların rəsmi dərc edildiyi gündən qüvvəyə minir.

85.2. Bu Konstitusiya Qanununun 85.1-ci maddəsində göstərilən aktlar istisna olmaqla, digər normativ hüquqi aktlar, həmin aktlarda qüvvəyə minmənin daha gec müddəti nəzərdə tutulmadıqda Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

85.3. Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə daha artıq müddət müəyyən edilməyibsə, xarici ticarət fəaliyyətini tənzimləyən normativ hüquqi aktda onun dərc edildiyi gündən 30 gün sonra qüvvəyə mindiyi göstərilməlidir. Müstəsna hallarda, beynəlxalq təşkilatların dərhal məlumatlandırılması şərti ilə, xarici ticarət fəaliyyətini tənzimləyən normativ hüquqi akt onda nəzərdə tutulmuş müddətdə qüvvəyə minə bilər.

XVI fəsil

NORMATİV HÜQUQİ AKTLARIN ZAMANA, MƏKANA VƏ ŞƏXSLƏRƏ GÖRƏ QÜVVƏSİ VƏ İCRASI

Maddə 86. Normativ hüquqi aktın zamana görə qüvvəsi

86.1. Normativ hüquqi akt onun mətnində digər hal nəzərdə tutulmadıqda müddətsiz qüvvədədir.

86.2. Normativ hüquqi akt və ya onun struktur elementləri üçün qüvvədə olmanın müddəti müəyyən edilə bilər. Bu halda normativ hüquqi aktda (struktur elementdə) onun qüvvədə olma müddəti və ya normativ

hüquqi aktın (onun struktur elementinin) ləğv edilməsinə səbəb olan hadisə göstərilməlidir. Göstərilən müddət başa çatdıqda və ya normativ hüquqi aktda göstərilən hadisə baş verdikdə normativ hüquqi akt (onun struktur elementi) avtomatik olaraq ləğv edilir. Müəyyən edilmiş müddət başa çatana qədər normativ hüquqi aktı qəbul etmiş orqan normativ hüquqi aktın (onun struktur elementinin) qüvvəsinin yeni müddətə uzadılması və ya ona müddətsiz statusunun verilməsi haqqında qərar qəbul edə bilər.

Maddə 87. Normativ hüquqi aktın geriyə qüvvəsi

87.1. Normativ hüquqi aktın geriyə qüvvəsi Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin VII hissəsi ilə tənzimlənir.

87.2. Fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquqi məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ hüquqi aktın qüvvəsi həmin normativ hüquqi aktda və ya onun qüvvəyə minməsi haqqında aktda birbaşa göstərilib-göstərilməməsindən asılı olmayaraq onun qüvvəyə minməsindən əvvəl əmələ gələn münasibətlərə şamil edilir.

87.3. Törədilməsi anında məsuliyyətə səbəb olmayan və ya daha yüngül məsuliyyətə səbəb olan əməllərə görə fiziki və hüquqi şəxslərin məsuliyyətinin yaranmasını və ya ağırlaşdırılmasını nəzərdə tutan normativ hüquqi aktın qüvvəsinin geriyə şamil edilməsinə yol verilmir.

Maddə 88. Normativ hüquqi aktların məkana və şəxslərə görə qüvvəsi

88.1. Normativ hüquqi aktlar Azərbaycan Respublikasının bütün ərazisində məcburi qüvvəyə malikdir.

88.2. Normativ hüquqi aktların qüvvəsi, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə nəzərdə tutulmuş hallar istisna olmaqla, Azərbaycan Respublikasının vətəndaşlarına və hüquqi şəxslərə, habelə Azərbaycan Respublikasının ərazisində olan əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə şamil edilir.

Maddə 89. Normativ hüquqi aktın qüvvəsinin itirilməsi

89.0. Normativ hüquqi akt (onun struktur elementi) aşağıdakı hallarda öz qüvvəsini itirir:

89.0.1. normativ hüquqi aktın (onun struktur elementinin) tətbiqi müddəti başa çatdıqda;

89.0.2. normativ hüquqi akt (onun struktur elementi) Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktları ilə nəzərdə tutulan hallarda ləğv edildikdə;

89.0.3. normativ hüquqi akt (onun struktur elementi) Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-3-cü və 6-cı, 7-ci bəndlərində nəzərdə tutulmuş hallarla əlaqədar Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı ilə qüvvədən düşmüş hesab edildikdə.

Maddə 90. Normativ hüquqi aktların rəsmi şərh edilməsi qaydası

90.1. Normativ hüquqi aktın məzmununda qeyri-müəyyənliklər və fərqlər, habelə tətbiqi təcrübəsində ziddiyyətlər aşkar edildikdə həmin aktı qəbul etmiş normayaratma orqanı və ya Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə uyğun ola-

raq Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi müvafiq normaları rəsmi şərh edir.

90.2. Normativ hüquqi akt şərh edildikdə onun normalarının məzmunu izah edilir və dəqiqləşdirilir, onların qanunvericilikdə yeri, habelə ictimai münasibətlərin eyni növünün müxtəlif aspektlərini tənzimləyən digər normalar ilə funksional və başqa əlaqələri müəyyən edilir.

90.3. Normativ hüquqi akt şərh edildikdən sonra aktda həmin şərh nəticəsində dəyişikliklər edilməsinə yol verilmir.

90.4. Genişləndirici və ya məhdudlaşdırıcı şərhə yalnız normativ hüquqi aktın mətni və mənası arasında açıq-aşkar fərq olanda yol verilir.

90.5. Normativ hüquqi aktın məzmununun izahı onun şərhi hesab edilmir.

Maddə 91. Normativ hüquqi aktların icrası şərtləri

Normativ hüquqi aktların qəbul edilməsində və qüvvəyə minməsindən sonra onların icrasının lazımi təşkili - qəbul edilmiş aktların məzmununun icraçıların diqqətinə vaxtında çatdırılması, aktların səlahiyyətli dövlət orqanları tərəfindən rəsmi şərhi, aktın məzmununun izahı, şərhlərin, praktiki vəsaitlərin nəşri, aktların icrasının maliyyə, maddi-texniki, hüquqi və təşkilati-texniki təminatı, aktların icra müddətlərinə əməl olunması təminatı həyata keçirilməlidir.

Maddə 92. Normativ hüquqi aktların icrasına nəzarət

Normativ hüquqi aktların icrasına nəzarət və yoxlanılması normayaratma orqanları (vəzifəli şəxslər) və müvafiq normativ hüquqi aktlarla nəzərdə tutulmuş xüsusi orqanlar (şəxslər) tərəfindən həyata keçirilir.

Maddə 93. Normativ hüquqi aktların icrasının yoxlanılması

93.1. Normayaratma orqanları (vəzifəli şəxslər) və digər səlahiyyətli xüsusi orqanlar (şəxslər) normativ hüquqi aktların icrasına nəzarət və onun yoxlanılması, habelə müraciətlərin təhlili əsasında normativ hüquqi aktların qüvvədə olmasının keyfiyyətini, qanuniliyini və səmərəliliyini müəyyən edirlər.

93.2. Normativ hüquqi aktlarda boşluqlar, daha yüksək hüquqi qüvvəyə malik olan aktlarla ziddiyyətlər, habelə daxili ziddiyyətlər və ya digər nöqsanlar aşkar edildikdə normayaratma orqanı (vəzifəli şəxslər) onları aradan qaldırmalı, digər səlahiyyətli xüsusi orqanlar (şəxslər) isə səlahiyyətli orqanlara müvafiq normativ hüquqi aktlarda dəyişikliklər edilməsi və ya onların ləğv edilməsi barədə təkliflər verməlidirlər.

Maddə 94. Normativ hüquqi aktların icra olunmamasına görə məsuliyyət

Normativ hüquqi aktların icra olunmamasında təqsirli bilinən şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun məsuliyyət daşıyırlar.

XVII fəsil

NORMATİV HÜQUQİ AKTLARIN İNKORPORASİYASI

Maddə 95. Azərbaycan Respublikasının qanunlar külliyyatı

95.1. Azərbaycan Respublikasının qanunlar külliyyatı Azərbaycan Respublikasının qanunvericilik aktlarının müntəzəm təzələnən və elektron formada nəşr edilən sistemləşdirilmiş toplusudur.

95.2. Azərbaycan Respublikasının qanunlar külliyyatının aparılması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təmin edilir.

Maddə 96. Normativ hüquqi aktların rəsmi toplu-ları və məcmuələri

96.1. Normativ hüquqi aktların icrasına kömək göstərmək məqsədi ilə normativ hüquqi aktların rəsmi toplu-ları və məcmuələri hazırlanır və nəşr edilir.

96.2. Normativ hüquqi aktların rəsmi topluları və məcmuələri bilavasitə normayaratma orqanları və ya onların tapşırığı ilə digər dövlət orqanları tərəfindən nəşr edilir.

Maddə 97. Normativ hüquqi aktların qeyri-rəsmi topluları və məcmuələri

97.1. Normativ hüquqi aktların qeyri-rəsmi topluları və məcmuələri fiziki və hüquqi şəxslər tərəfindən nəşr edilə bilər.

97.2. Normativ hüquqi aktların qeyri-rəsmi topluları və məcmuələri nəşr edildikdə normativ hüquqi aktın mətninin hansı rəsmi mənbədən götürüldüyü göstərilməlidir.

XVIII fəsil

YEKUN MÜDDƏALAR

Maddə 98. Bu Konstitusiya Qanununun qüvvəyə minməsi qaydası

98.1. Bu Konstitusiya Qanunu dərc edildiyi gündən qüvvəyə minir.

98.2. Bu Konstitusiya Qanunu qüvvəyə mindiyi gündən 1999-cu il noyabrın 26-da qəbul olunmuş "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvədən düşmüş hesab edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 dekabr 2010-cu il
№ 21-IVKQ.

ƏDƏBİYYAT

1. Abdullayev F. Azərbaycan Respublikasında konstitusiya icraatının nəzəri və praktiki problemləri. Bakı, Elm, 2009.

2. Əliyev Ş. Prezidentlik İnstitutu. Bakı, 1994.

3. Əsgərov Z. Naxçıvan MR-in konstitusiya səlahiyyətləri. BDU-nun «Xəbərlər»i, 1992, № 1.

4. Əsgərov Z. Hüquqi dövlətin konstitusiya əsasları. Bakı, «Qanunçuluq» jur., 1993, № 2.

5. Əsgərov Z. Konstitusiya hüquq normaları. Bakı, «Qanun» jur., 1993, № 3.

6. Əsgərov Z. Konstitusiya hüquq elminin mənbələrinin anlayışı və təsnifatı. «Qanun», 1996, №7

7. Əsgərov Z. Konstitusiya hüquq münasibətləri və onların subyektləri. Bakı, «Qanunçuluq» jur., 1996, №7

8. Əsgərov Z. Konstitusiyanın mahiyyəti haqqında. Bakı, «Qanunçuluq» jur., 1997, №12

9. Əsgərov Z. Naxçıvan Muxtar Respublikasının konstitusiya statusu. Bakı, 1999.

10. Əsgərov Z. Deputatın hüquqi statusu. Bakı Universitetinin Xəbərləri. 2003, №1.

11. Əsgərov Z., Nəsirov E., İsmayılov M., Məmmədov X. Azərbaycanın dövlət və hüququnun əsasları. Bakı, 2003 (dərs vəsaiti)

12. Əsgərov Z., Nəsirov E., İsmayılov M. Azərbaycan Respublikasının Konstitusiyası və hüququnun əsasları. Bakı, 2005. (dərslik)

13. Əliyev Ə. İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi. Bakı, 2009.

14. Nağıyev F. Konstitusiya hüququ. Mühazirə mətnləri. Bakı, 2009.

15. Xarici ölkələrin konstitusiya (dövlət) hüququ, prof. B.A.Straşunun redaktəsi ilə. Ümumi hissə. I-II cildlər. Bakı, 2007 (dərslik). (Azərbaycan dilinə tərcümə).

16. Xarici ölkələrin konstitusiya (dövlət) hüququ, prof. B.A.Straşunun redaktəsi ilə. Xüsusi hissə. III cild. Bakı, 2007 (dərslik). (Azərbaycan dilinə tərcümə).

17. Kemal Gözler Anayasa hukukunun metodolojisi. Bursa, "EKİN", 1999.

18. Kemal Gözler Anayasa hukukunun genel esasları (ders kitabı), Bursa, "EKİN", 2010.

19. Kemal Gözler Anayasa hukukuna giriş. Genel esaslar ve Türk Anayasa hukuku, Bursa, "EKİN", 2010.

20. Азаров А.Я. Права человека: Новое знание. М., Общ. Знание России, 1995

21. Алиев Ш. Научно-практический комментарий к Конституции Азербайджанской Республики, Баку, 2000.

22. Баглай М.В. Конституционное право Российской Федерации (учебник для вузов). М., Норма, 1998.

23. Барабашев Г.В. Местное управление. М., МГУ, 1996.

24. Барнашев А.М. Теория разделения властей: Становление, развитие, применение. Томск: Изд. Томского ун-та, 1998.

25. Боботов С.В. Конституционная юстиция (сравнительный анализ). М., 1994.

26. Выборы в Государственную Думу: правовые проблемы. М., 1995.

27. Гаджиев Х. Толкование норм Конституции и закона конституционними судами. «Озан», 2002.

28. Гражданское общество и правовое государство: предпосылки формирования. М., 1991.

29. Гусейнов Л.Г. Международная ответственность государств за нарушение прав человека. Киев, 2000.

30. Депутат парламента в зарубежных государствах. М., Юрид. лит., 1995.

31. Защита прав человека в современном мире. М., ИГП РАН, 1995.

32. Иностранное конституционное право. М., Юристь. 1996.

33. Институты самоуправления: Историко-правовое исследование. М., Наука, 1995

34. Исполнительная власть: Сравнительно-правовое исследование. М., 1995

35. Катков Д.Б., Корчиго Е.В. Избирательное право (учебное пособие). М., Юриспруденция, 2001.

36. Коваленко А.И. Конституционное право России. М., Право и закон. 1997.

37. Ковлер А.И. Избирательные технологии: российский и зарубежный опыт. М., ИГП РАН, 1995.

38. Козлова Е.И., Кутафин О.Е. Конституционное право России (учебник). 4-е издание. М., 2009.

39. Комментарий к Конституции Российской Федерации. М., Правовая культура. 1996.

40. Конституционное государство. Сборник статей. С.-Петербург, 1905.

41. Конституции зарубежных государств. Сборник. М., 1996.

42. Конституционное право (учебник). М., Новый юрист, 1998.

43. Конституционное (государственное) право: Справочник. М., Юрист, 1995.

44. Конституционное правосудие в странах СНГ и Балтии. М., Зерцало, 1998.

45. Конституция Российской Федерации. Комментарий. М., Юрид. Лит., 1994.

46. Конституция Российской Федерации. Проблемный комментарий. М., 1997.

47. Лившиц Р.З. Теория права. М., ВЮЗИ, 1988.

48. Люшер Ф. Конституционная защита прав и свобод личности. М., Прогресс, 1993.

49. Маклаков В.В. Избирательное право и избирательные системы буржуазных стран и развивающихся стран. Киев, Изд-во Киевского ун-та, 1976.

50. Маклаков В.В. Избирательное право и избирательные системы. М., ВЮЗИ, 1987.

51. Маклаков В.В. Конституционный контроль в буржуазных и развивающихся странах. М., ВЮЗИ, 1988.

52. Марк Дженис, Ричард Кей, Энтони Бредли. Европейское право в области прав человека. Практики и комментарии.

53. Михалева Н.А. Конституционное право зарубежных стран СНГ. М., Юристь, 1998.

54. Мишин А.А. Конституционное (государственное) право зарубежных стран. М., Белые Альвы, 1996.

55. Нудель М.А. Конституционный контроль в капиталистических государствах. М., Юрид. лит., 1968.

56. Общая теория прав человека. М., Норма, 1996.

57. Окуньков Л.А. Президент Российской Федерации. М., Норма, 1996.

58. Орландо В. Принципы конституционного права. М., 1907.

59. Основные правовые системы современности. М., Прогресс, 1998.

60. Парламентское право России. М., Юрист. 1999.

61. Права человека. Основные международные документы. Международные отношения. М., 1989.

62. Проблема парламентского права России (Сборник статей). М., 1996.

63. Решетников Ф.М. Правовые системы стран мира: Справочник. М., Юрид. Лит., 1993.

64. Роберт Г.М. Правила парламентской процедуры. М., 1992.

65. Саидов А.Х. Введение в основные правовые системы современности. Ташкент, 1988.

66. Сахаров Н.А. Институт президентства в современном мире. М., Юрид. Лит., 1994.

67. Сибиров А.Б. Основные принципы избирательного права в развитых демократических странах. Ташкент, 1994.

68. Современный буржуазный федерализм. М., Наука, 1978.

69. Современные зарубежные Конституции. М., 1992.

70. Современный федерализм (сравнительный анализ). М., 1995.

71. Сравнительное конституционное право. М., ИГП РАН, «Манускрипт», 1996.

72. Тихомиров Ю.А. Курс сравнительного правоведения. М., Норма, 1996.

73. Топорин Б.Н. Европейское право. М., Юристь, 1998.

74. Федеральный Конституционный закон о Конституционном Суде Российской Федерации. Комментарий. М., Юрид. лит., 1996.

75. Четверкин В.А. Демократическое конституционное государство: введение в теорию. М., ИГП РАН, 1993.

76. Чиркин В.Е. Конституционное право зарубежных стран. М., Юристь. 1997.

77. Чиркин В.Е. Конституционное право России. М., Юристь. 2006.

78. Шафиев К. Право на частную жизнь. Баку, Ширваннешр, 2010.

79. Эбзеев Б.С. Конституция. Правовое государство. Конституционный суд. М., 1997.

80. Энтин Л.М. Разделение властей и парламентаризм. М., Юрид. Лит., 1992.

81. Энтин Л.М. Разделение властей: Опыт современных государств. М., Юрид. Лит., 1995.

Çapa imzalanmışdır: 22.06.2011.
Kağız formatı: 60x90 1/16.
Fiziki çap vərəqi: 47,5. Sifariş: 176 Tirajı: 1000

«Şərq-Qərb» Nəşriyyat evinin mətbəəsində çap olunmuşdur
AZ 1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 370 68 03; 374 83 43
Faks: (99412) 370 68 03; 370 18 49
www.eastwest.az